Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Dövlət Universiteti

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

Əliyev Etibar Əli oğlu,
hüquq üzrə elmlər doktoru, Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru.
Qəmbərov Heydər Dəmir oğlu,
hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının dosenti.
Hüseynova Fatimə Etibar qızı,
hüquq üzrə fəlsəfə doktoru, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti.

BEYNƏLXALQ İDMAN HÜQUQU

DƏRSLİK

Dərslik Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı əsasında (protokol № 12, 28.12.2021-ci il) çapa tövsiyə olunmuş və rektorun 2022-ci il 12 aprel tarixli R-46 nömrəli əmri ilə nəşr hüququ verilmişdir.

Bakı – 2023

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin
95 illiyinə həsr olunur.

Baş redaktor:
Əliyev Z.H., Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru.

Elmi redaktor:
Əliyev Ə.İ., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru.

Rəyçilər:
Hacıyev F.H., Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru,Əməkdar bədən tərbiyəsi və idman xadimi;

Məmmədov R.F., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

Vəliyev İ.V., Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

Məmmədov Ə.Q., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

Ə (57) 2023 Əliyev Etibar Əli oğlu, Qəmbərov Heydər Dəmir oğlu, Hüseynova Fatimə Etibar qızı. Beynəlxalq idman hüququ. Dərslik / Z.H.Əliyevin ümumi redaktəsi ilə. "Bakı Universiteti" nəşriyyatı, 2023, 500 səh.

Azərbaycan Respublikasında, ilk dəfə olaraq, geniş formatda və təhsil standartlarına uyğun tərtib edilmiş bu dərslikdə beynəlxalq idman hüququ ilə bağlı məsələlərin əhatəli şəkildə işıqlandırılmasına təşəbbüs göstərilir. Burada beynəlxalq idman hüququna, onun institutlarına anlayış verilir, ayrı-ayrı idman növləri üzrə beynəlxalq münasibətlərin və əlaqələrin hüquqi tənzimlənməsinin xüsusiyyətləri şərh edilir.

İdman fəaliyyəti sahəsində ən yeni qanunvericilik aktları və çoxsaylı elmi mənbələr əsasında hazırlanmış bu fundamental əsər beynəlxalq idman hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir. Müasir dövrdə idman sahəsində baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin, xüsusən də, gənc nəslin bu istiqamətdə maariflənməsi, cəmiyyətdə hüquqi düşüncə və idman mədəniyyətinin formalaşması baxımından, dərslik mühüm əhəmiyyətə malikdir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, idman hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilərlər.

ISBN

© E. Ə. Əliyev, 2023,
H.D.Qəmbərov, 2023,
F.E.Hüseynova, 2023.

ÖN SÖZ

Qloballaşma və sosial-iqtisadi transformasiyalar şəraitində dünya siyasi nizamınım, eləcə də beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olan müstəqil və suveren Azərbaycan Respublikasında idman fəaliyyəti ilə bağlı ictimai münasibətlərin günbəgün inkişaf edərək beynəlmiləlləşməsi tendensiyası müşahidə edilir. Müasir dövrdə Azərbaycan Respublikası idman sahəsində, o cümlədən gənclər festivalı, bədən tərbiyəsi, fiziki hazırlıq və idman sferasında əqli mülkiyyət hüquqlarının qorunması istiqamətində zəruri tədbirlər görür, xarici dövlətlərlə aktiv əməkdaşlıq edir. Qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi üçün idman sahəsinin inkişafı olduqca önəmli faktorlardan biridir. Belə faktorlar sırasında idmanın kütləvi xarakter daşımasını, xüsusilə, vurğulamalıyıq ki, bu, ölkənin beynəlxalq müstəvidə tanınması üçün böyük məna ifadə edir. Təbii ki, qarşılıqlı və faydalı milli münasibətlər sisteminin mühüm komponenti olan idman və onun müxtəlif sahələri bu və ya digər ölkənin ictimai həyatı üçün prioritet əhəmiyyət kəsb edən aparıcı istiqamətlərdən biridir və dövlətin intensiv inkişaf infrastrukturunda vacib yer tutur.

Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi sosial-iqtisadi və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi, parlaq gənclər siyasətinin formalaşdırılması və idman sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Xüsusilə, qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiya-

sında müxtəlif mülkiyyət formalarının tanınması (maddə 13), insan hüquq və azadlıqlarının müdafiəsi (maddə 26), əqli mülkiyyət hüququnun mühafizəsi (maddə 30), sağlamlığın qorunması hüququ (maddə 41), azad sahibkarlıq hüququ (maddə 59) və s. barədə müvafiq normalar təsbit olunmuşdur Belə ki, hər kəsin konstitusion hüquqları vardır və belə hüquqlar qanunla qorunur.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı, cəmiyyət və dövlət üçün əhəmiyyəti, gələcək perspektivləri barədə öz fikirlərini belə ifadə etmişdir: "İnanıram ki , idman , bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaq...İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur... İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda, həm gənclər, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik".

Ötən əsrin sonlarında Azərbaycan müstəqil dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşuldu, Milli Olimpiya Komitəsi yaradıldı və onun Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması ilə ölkəmizin Olimpiya Hərəkatında, o cümlədən paralimpiya,deflimpiya və xüsusi olimpiya hərəkatlarında iştirakının yeni bir dövrü başladı. Artıq Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatına müstəqil bir dövlət kimi qoşularaq öz idman

potensialını tam nümayiş etdirmək imkanı əldə etdi. Bu mənada ümummilli lider Heydər Əliyevin müvafiq fərmanına əsasən 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Həmçinin ulu öndərin təşəbbüsü ilə gənclər arasında əlaqələrin genişlənməsi, gəncliyin cəmiyyətin əsas aparıcı qüvvəsinə çevrilməsi və onlara daha çox diqqət göstərilməsi məqsədilə 1996-cı ilin 2 fevral tarixində ölkəmizdə Azərbaycan Gənclərinin I Forumu keçirildi. Dövlət başçısının imzaladığı müvafiq sərəncamla Forumun keçirildiyi gün – "2 Fevral Gənclər Günü" elan edildi. Bu, müstəqil respublikamızın idman tarixinin başlanğıcı idi.

Daha sonra Azərbaycan Milli Olimpiya Komitəsinin 1997-ci il iyulun 31-də keçirilmiş Baş məclisində təşkilati məsələlərə baxılaraq, onun yeni heyətinin seçilməsi ilə Komitənin fəaliyyətində müsbət istiqamətdə əsaslı dəyişikliklərin, xüsusən də müxtəlif ölkələrlə idman sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması və möhkəmləndirilməsi işlərinə start verilmiş oldu. Belə ki, Azərbaycan Milli Olimpiya Komitəsi ölkəmizdə Olimpiya Hərəkatının və idmanın inkişafı ilə bağlı ayrı-ayrı idman növlərinin ölkədə strateji inkişaf planı kontekstində məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək qısa müddət ərzində uğurlu nəticələr əldə etmişdir.

Prezident İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Məlum olduğu kimi, idman, bədən tərbiyəsi digər aspektlərlə yanaşı, həm də gənclərin hərbi hazırlığının formalaşmasına xidmət edir. Elə bu kontekstdə Dövlət başçısı, həm də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev gəncləri hər zaman diqqət mərkəzində saxlamış, onların problemlərinin həlli istiqamətində atdığı addımlar nəticəsində müasir düşüncəli, vətənpərvər gənc nəsil yetişmişdir. Əzəmətli gənclərimizin müzəffər Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin ətrafında "Dəmir yumruq" kimi birləşərək 44 günlük Vətən müharibəsində döyüş meydanında göstərdikləri şücaət Azərbaycan xalqına tarixi Zəfəri bəxş

etdi. Rəşadətli Azərbaycan gəncliyinin göstərdiyi qəhrəmanlıq və fədakarlıq nəticəsində tariximizin ən şanlı səhifəsi yazıldı və 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımız düşmən tapdağından azad edildi.

Son dövrlərdə Azərbaycan kütləvi turnirlərin keçirilməsi sahəsində əldə etdiyi təcrübə və yüksək təşkilatçılıq örnəyi ilə dünyanın aparıcı idman mərkəzlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, ölkəmizdə hər il nüfuzlu beynəlxalq idman yarışları keçirilir, Azərbaycan müxtəlif idman növləri üzrə Dünya və Avropa çempionatlarına evsahibliyi edir: məsələn, I Avropa Olimpiya Oyunları (2015-ci il), "Formula-1" yarışları (2016-cı ildən etibarən hər il), IV İslam Həmrəyliyi Oyunları (2017-ci il), UEFA Avropa Liqasının futbol üzrə final oyunu (2019-cu il), "Avro-2020"nin futbol üzrə XVI Avropa çempionatının 4 oyununun Bakıda keçirilməsi (2021-ci il) və s. Göründüyü kimi, Dövlət başçısının rəhbərliyi altında mötəbər idman və mədəni-kütləvi tədbirlərin yüksək səviyyədə keçirilməsi, idman sahəsində qazanılmış uğurlarımız xoş həyəcan müjdəsi verir ki, Azərbaycan idman ölkəsi kimi böyük nüfuz qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər".

Göstərilən fundamental amilləri və idman sferasında ictimai münasibətlərin pozitiv inkişaf meyillərini diqqətə çəkərək, bu kontekstdə beynəlxalq idman hüquq elmi sahəsinin müasir meyar və standartlar çərçivəsində tədqiq olunmasına zərurət yaranmışdır. Azərbaycan Respublikasında, ilk dəfə olaraq, kollektiv müəlliflər tərəfindən hazırlanmış və hüquq ictimaiyyə-

tinə təqdim edilən bu əsər məhz beynəlxalq idman hüququna həsr edilmişdir.

Ölkə daxilində idman fəaliyyəti ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir. Bu kimi hüquq normalarının məcmu halında birləşməsi idman hüququ adlanır və o, Azərbaycan Respublikasının iqtisadi hüquq sistemində yarımsahə statusuna malik olan tərkib hissə kimi formalaşmışdır. Azərbaycan Respublikasının milli hüquq sistemində müstəqil yer tutan iqtisadi hüquq iqtisadi sferada fəaliyyətin həyata keçirilməsi prosesində subyektlər arasında yaranan ictimai münasibətləri, o cümlədən əqli mülkiyyət sahəsində fiziki və hüquqi şəxslər (orqan və qurumlar) arasında yaranan idman münasibətlərini də nizamlayır və qaydaya salır ki, bu, özlüyündə həmin hüquq sahəsinin ölkənin sosial-iqtisadi və əqli mülkiyyət həyatı üçün nə qədər vacib əhəmiyyətli hüquqi qurum olmasından xəbər verir.

Məhz bu səbəbdən oxucu auditoriyası idman hüququ barədə zəruri biliklərə yiyələnməli, onun ibarət olduğu ayrı-ayrı hüquq normaları haqqında elmi təsəvvürlərə malik olmalıdır. Zəruri biliklərə yiyələnmək və elmi təsəvvürlərə malik olmaq isə yalnız idman hüquq elminin vasitəsi və köməyi ilə mümkün ola bilər ki, sözügedən əsər həmin məqsədə xidmət edir. Belə bir dərsliyin yazılması və nəşr edilməsi, hesab edirik ki, müasir dövrdə Azərbaycan Respublikasının beynəlxalq idman əlaqələrinə inteqrasiyası şəraitində olduqca aktualdır.

Dərsliyi fərqləndirən məziyyətlərdən biri də ondan ibarətdir ki, o, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının təklif və tövsiyələri nəzərə alınmaqla hazırlanmışdır. Təqdirəlayiq haldır ki, dərsliyin struktur tərkibinə daxil olan hər bir fəsil üzrə ayrıca əyani sxemlər tərtib olunmuşdur və bu, xüsusilə, maraqlı cəhətdir. Zənnimizcə, dərslik müasir dövrdə idman sahəsində baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin, xüsusən də gənc nəslin bu istiqamətdə maariflənməsi,

habelə cəmiyyətdə hüquqi düşüncə və idman mədəniyyətinin formalaşması baxımından, mühüm əhəmiyyətə malikdir.

Müasir beynəlxalq idman münasibətləri sahəsində ən yeni normativ hüquqi sənədlər, çoxsaylı elmi mənbələr və müvafiq tədris proqramı əsasında yazılmış bu fundamental dərslik Azərbaycan milli hüquq sistemində və onun tərkib hissəsi olan idman hüququ sferasında mövcud olan boşluqların doldurulmasına, habelə hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, elmi işçilər, hüquqşünaslar, idman fəaliyyəti sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilər.

Məhəmməd Quluzadə,
"Hüquq və İnsan Haqları İnstitutu"nun İdarə Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru.

I BÖLMƏ.
BEYNƏLXALQ İDMAN HÜQUQU.
I ÜMUMİ HİSSƏ.
BEYNƏLXALQ İDMAN HÜQUQU HAQQINDA ÜMUMİ MÜDDƏALAR

I FƏSİL.
BEYNƏLXALQ İDMAN HÜQUQUNUN ANLAYIŞI, PREDMETİ, SİSTEMİ VƏ HÜQUQİ STATUSU

1.1. Beynəlxalq idman hüququnun təşəkkülü və formalaşması

1.1.1. Beynəlxalq idman hüququnun yaranma əlamətləri

Beynəlxalq idman hüququnun yaranmasının əsas **genezis elementi** – əmələgəlmə əlaməti dünyada idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının, o cümlədən paralimpiya, deflimpiya, peşəkar idman və xüsusi olimpiya hərəkatlarının geniş vüsət alması, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, insanların bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, yeni idman və olimpiya komplekslərinin tikilməsi, eləcə də idmançıların Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında iştirakı və müxtəlif növ rəsmi beynəlxalq yarışların keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərin kütləvi xarakter almasıdır. Başqa sözlə desək, idman fəaliyyətinin beynəlxalq arenada və dövlətlərarası əməkdaşlıq miqyasında həyata keçirilməsi, onun hüquqi cəhətdən tənzimlənməsi və nizama salınması zərurəti beynəlxalq idman hüququnun (BİH) təşəkkül tapmasını şərtləndirir.

Müasir dövrdə beynəlxalq sosial-iqtisadi münasibətlər sisteminin mühüm komponenti olan **bədən tərbiyəsi və idman fəaliyyəti** ictimai-sosial hadisə kimi hər bir ölkənin milli infrastrukturunda xüsusi yer tutur. Təhsil və səhiyyə sistemində, vətəndaşların iş, yaşayış və istirahət yerlərində, hərbi-müdafiə və xidməti-tətbiqi sahələrdə, cəzaçəkmə müəssisələrində, həmçi-

nin uşaq-gənclər kontingenti arasında və s. yerlərdə həyata keçirilən bədən tərbiyəsi və idman tədbirləri nəticəsində idman fəaliyyəti vahid kompleks şəklində birləşir. Cəmiyyətin ümumi mədəniyyətinin ayrılmaz hissəsi olan bədən tərbiyəsi və idman insanda sağlam həyat tərzini formalaşdıran, fiziki və əqli inkişafı möhkəmləndirən sosial fəaliyyət sahəsi kimi onun ahəngdar işi məhz idman infrastruktur obyektlərinin və müəssisələrinin müntəzəm fəaliyyət göstərməsindən funksional şəkildə asılıdır.

Artıq dünya birliyinə də məlumdur ki, Azərbaycan iqtisadiyyatın artım tempinə görə regionda lider dövlətə çevrilmişdir. Müstəqil dövlətimizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş qlobal iqtisadi layihələrin – Böyük "İpək yolu"nun bərpası, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan Əsas İxrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və digər iri layihələrin reallaşdırılması Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdə tamhüquqlu suveren dövlət kimi iştirak etməsini zərurətə çevirdi. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi, həm də beynəlxalq idman münasibətlərinin sürətli inkişaf tempi kontekstində göz önündədir.

İdman işinin ölkəmizdə və onun hüdudlarından kənarda təhlükəsiz və səmərəli formada təşkil edilməsi məsələsi vacib yer tutur. Müasir dövrdə yaradılmış koordinasiya nəticəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır. İlk növbədə, qeyd etməliyik ki, **idmanla məşğul olmaq üçün ölkədə münbit şərait yaradılmışdır**. Belə ki, Azərbaycanın bölgələrində 50-dən çox müasir standartlara uyğun Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir, paytaxtda isə ən müasir idman infrastrukturu mövcuddur. Əlbəttə, təxminən 70 min tamaşaçı tutumuna malik olan Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Su İdman Sarayı, Bakı Atçılıq Məktəbi və digər obyektlərin adları, xüsusilə, çəkilməlidir.

Son dövrlərdə Azərbaycan beynəlxalq kütləvi turnirlərin keçirilməsi sahəsində əldə etdiyi təcrübə və yüksək təşkilatçılıq örnəyi ilə dünyanın aparıcı **idman mərkəzlərindən** birinə çevrilmişdir. Təsadüfi deyil ki, ölkəmizdə hər il nüfuzlu beynəlxalq idman yarışları keçirilir, Azərbaycan müxtəlif idman növləri üzrə Dünya və Avropa çempionatlarına evsahibliyi edir: məsələn, I Avropa Olimpiya Oyunları (2015-ci il), "Formula-1" yarışları (2016-cı ildən etibarən hər il), IV İslam Həmrəyliyi Oyunları (2017-ci il), UEFA Avropa Liqasının futbol üzrə final oyunu (2019-cu il), "Avro-2020"nin futbol üzrə XVI Avropa çempionatının 4 oyununun Bakıda keçirilməsi (2021-ci il) və s. Göründüyü kimi, Dövlət başçısının rəhbərliyi altında ölkədə mötəbər beynəlxalq idman və mədəni-kütləvi tədbirlərin yüksək səviyyədə və təhlükəsiz keçirilməsi, idman sahəsində qazanılmış uğurlarımız xoş həyacan müjdəsi verir ki, Azərbaycan beynəlxalq arenada **idman ölkəsi** kimi böyük nüfuz qazanmışdır. Belə ki, Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 08.12.2012-ci il tarixli qərarı ilə Birinci Avropa Oyunlarının keçirilməsi hüququ Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə verildi və beləliklə, Avropa Oyunları tarixdə, ilk dəfə olaraq, Bakı şəhərində keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər".

Təqdirəlayiq haldır ki, xalqımızın sağlamlığının qorunması və möhkəmlənməsində, gənclərimizin fiziki inkişafında, ölkəmizin idman şərəfinin beynəlxalq aləmdə daha da uca zirvələrə qaldırılmasında bədən tərbiyəsinin əhəmiyyətini və rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Prezidenti İlham Əliye-

vin 04.03.2005-ci il tarixli 654 nömrəli Sərəncamı əsasında hər il martın 5-i **"Bədən tərbiyəsi və idman günü"** kimi qeyd olunur. Eləcə də, Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 09.02.2007-ci il tarixli 1956 nömrəli Sərəncamı ilə 2007-ci il **"Gənclər ili"** elan olunmuşdur. Həmçinin ölkəmizdə idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, yeni idman və olimpiya komplekslərinin tikilməsi nəzərə alınaraq, eləcə də idmançılarımızın Dünya və Avropa çempionatlarında, rəsmi beynəlxalq yarışlarda yüksək göstəricilərinin təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 16.01.2012-ci il tarixli 1965 nömrəli Sərəncamı ilə 2012-ci il Azərbaycan Respublikasında **"İdman ili"** elan edilmişdir.

Beləliklə, Azərbaycan idman sahəsində öz maraqlarını tam şəkildə qorumaq şərti ilə xarici dövlətlərlə səmərəli beynəlxalq əməkdaşlığını davam etdirir. Beynəlxalq idman münasibətlərinin və əlaqələrinin inkişafı, təşviqi, habelə beynəlxalq arenaya çıxışın təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilir və nəticədə Avropa, Asiya, Amerika, Afrika və digər qitə dövlətləri arasında **beynəlxalq əməkdaşlığın həcmi** əhəmiyyətli dərəcədə artmışdır. İdman sahəsi institusional baza baxımından genişləndirilmiş və təkmilləşdirilmiş, eləcə də idman infrastrukturunun yeniləşdirilməsi və inkişafı, uzlaşdırılmış tarif siyasətinin aparılması, münbit investisiya mühitinin yaradılması, kadrların hazırlanması, sərhəd-keçid və gömrük prosedurlarının sadələşdirilməsi, habelə idman tədbirlərində təhlükəsizliyin təmin edilməsi sahəsində vacib regional

proqramlar icra olunmuşdur. Azərbaycan Respublikası gənclər siyasəti, idman və bədən tərbiyəsi sahəsində 30-dan çox beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur[1].

Belə bir şəraitdə beynəlxalq idman hüququnun formalaşması, onun səmərəliliyi, beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi və beynəlxalq öhdəliklərə əməl olunması ölkə daxilində aparılan hüquqi islahatlar çərçivəsində həyata keçirilən təşkilati və hüquqi tədbirlərdən əhəmiyyətli dərəcədə asılıdır.

Bu baxımdan, beynəlxalq idman münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi məsələsi həlledici əhəmiyyətə malikdir. Yuxarıda göstətilən amillər beynəlxalq idman hüququnun **təşəkkül tapmasında və formalaşmasında** vacib rol oynayır.

1.1.2. Beynəlxalq olimpiya hərəkatı

Dünyada idman hərəkatının ən geniş yayılmış formalarından biri **beynəlxalq olimpiya hərəkatı** (BOH) sayılır; onu, bəzən, olimpiya hərəkatı kimi də adlandırırlar. Müxtəlif dövlətlərin 200-dən çox milli olimpiya komitələri BOH-un üzvüdürlər və onlar 115 üzv-ölkədən ibarət olan Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən tanınırlar. Keçmiş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) 1951-ci ildə olimpiya hərəkatına qoşulmuşdu.O vaxtlar Azərbaycan Sovet Sosialist Respublikası da,15 müttəfiq respublikadan biri kimi, SSRİ dövlətinin tərkibinə daxil idi. Sonradan SSRİ qurumu süquta yetdi (1991-ci il) və postsovet məkanında yeni müstəqil dövlətlər yarandı.Öz tarixi dövlət müstəqilliyini bərpa edən suveren Azərbaycan Respublikası 1991-ci ildə beynəlxalq olimpiya hərəkatına qoşuldu, Milli Olimpiya Komitəsi yaradıldı və onun BOK tərəfindən tanınması ilə ölkəmizin olimpiya hərəkatında iştirakının yeni bir

[1] Bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu/C.K.Quliyev.Bakı,CBS mətbəəsi,2013,848 səh.; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.Bakı, Azərbaycan,1996-2021.

dövrü başladı.Müasir olimpiya hərəkatı öz xarakterinə görə beynəlxalq idman hərəkatından törəmişdir. Beynəlxalq idman hərəkatı isə XIX əsrin sonlarında (1894-cü il) beynəlxalq hərəkatın tərkib hissəsi kimi yaranmışdır; onun məqsədi insanlarda fiziki və mənəvi keyfiyyətlərin aşılanma vasitəsi qismində idmanın inkişaf etdirilməsindən, eləcə də idman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsindən ibarətdir.

Olimpiya hərəkatı dedikdə özündə əhalini (onların sosial vəziyyəti, siyasi və dini baxışları, irqi mənsubiyyəti, cinsi, yaşı və s. əlamətlərdən asılı olmayaraq), habelə müvafiq təşkilatları birləşdirən, olimpizmin prinsip, ideya və ideallarına əsaslanan ictimai hərəkat başa düşülür.[1]

Qeyd etməliyik ki,olimpiya hərəkatının başlanğıcı müasir olimpizdən qaynaqlanır.Olimpizm isə olimpiya hərəkatında iştirak etmək və onun dəstəklənməsi ilə bağlı baş verən ictimai hadisədir.**"Olimpizm"** anlayışının məna yükü altında olimpiya hərəkatının fəlsəfi-mənəvi əsası başa düşülür.O,olimpiya oyunlarının təşkili və istifadəsi ilə əlaqədar humanitar və ümumsosial məsələlərin həllinin vacib prinsiplərini müəyyən edir. Olimpizmin əsas ideyası olimpiya simvolunda,deviz və çağırışlarında meydana gəlmişdir, yaranmışdır. Müasir **olimpiya hərəkatının banisi** fransalı ictimai xadim Pyer de Kuberten[2] qeyd edir ki, olimpiya ideyası insanın təkmilləşdirilməsi üçün ağıl və bədən arasında müvazinətin,tarazlığın saxlanılmasına istiqamətlənmişdir.[3]

Olimpizmin **ideya və ideallarına** aşağıdakılar aiddir:

---

[1] Bu barədə daha ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.44.

[2] Ətraflı bax: Международное публичное право.Учебник.5-е издание/ Отв.ред.К.А.Бекяшев.М.,2009,с.937.

[3] Bax:Высказывания П.де Кубертена//Международное спортивное и олимпийское движение.М.,1991, №7,8.

– kainatda sülh və əmin-amanlıq,qarşılıqlı anlaşma və hörmət,insan dəyərinin qorunmasının qayğısına qalan dinc cəmiyyətin yaradılması naminə idman;
– bütün ölkələrin və kontinentlərin idmançılarının dostluğu və əməkdaşlığı;
– şəxsiyyətin hərtərəfli və harmonik inkişafı;
– siyasi, irqi, sosial, dini və digər motivlərə görə ayrı-seçkiliyin (diskriminasiyanın) qadağan olunması;
– idmanda milliyyətçilik,kosmopolizm və dopinqə qarşı mübarizə;
– müasir dünyada idmanın humanist dəyərlərinin möhkəmləndirilməsinə səy göstərilməsi və s.
– Beynəlxalq olimpiya hərəkatının **əsas məqsədləri** qismində aşağıda göstərilənləri fərqləndirə bilərik:
– olimpizmin prinsip,ideya və ideallarının ümumdünya miqyasında yayılması;
– olimpiya idmanının təşkilinə və inkişafına yardım göstərilməsi;
– insanın fiziki,mənəvi,estetik formada tərbiyə olunması üçün idmanın və onun bu istiqamətdə imkanlarının təşviq edilməsi;
– gənclərin idman vasitəsilə qarşılıqlı anlaşma və dostluq ruhunda tərbiyə olunması;
– milli olimpiya komitələrinin fəaliyyətinin koordinasiyasına və olimpiya hərəkatının inkişafına onların köməklik göstərməsinə yönəlmiş "Olimpiya həmrəyliyi" BOK proqramlarının həyata keçirilməsi üçün şərait yaradılması;
– idmandan humanitar məqsədlər,təcrübə mübadiləsi kimi istifadə imkanına malik olan idman-pedaqoji,elmi və trener-kadrların hazırlanmasına dəstək verilməsi;
– Olimpiya oyunlarının hazırlanması və keçirilməsi.

Yeri gəlmişkən, qeyd edək ki, hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, ilk Olimpiya oyunlarının Qədim Yunanıs-

tanda yaranması bizim eradan əvvəl IX əsrə təsadüf edir.[1] Ümumyunanstan bayramlarında dini mərkəz olan Olimpiya şəhərində dörd ildən bir müxtəlif idman oyunları və yarışlar (təkər üzərində sürmə,beşnövçülük,yumruq döyüşü və s.) keçirilirdi. **"Olimpiya oyunları"** adı elə buradan götürülmüşdür. O zamanlar mövcud olan ictimai-siyasi vəziyyət, ictimai həyatda baş verən sosial-iqtisadi hadisələr və cərəyanlar, eləcə də idarəetmə sistemindəki mövqe münasibətləri nəticəsində böyük fasilələrlə davam edən bu oyunlar bizim dövrə gəlib çıxmışdır.[2]

Müasir dövrdə isə Olimpiya oyunlarının yaradılması **1894-cü il 16 iyun tarixinə** təsadüf edir. Belə ki, 10 ölkədən (Fransa, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Rusiya, İsveç, İspaniya, İtaliya, Belçika, Niderland və Yunanıstan) olan nümayəndələr I Təsis konqresində ilk Olimpiya Xartiyası və I Olimpiada oyunlarının 1896-cı ildə Afinada keçirilməsi barədə qərar qəbul etdilər, bununla da Olimpiya oyunları baron P.de Kubertenin sayəsində, necə deyərlər, bəşəriyyətə qaytarıldı.[3]

Beynəlxalq olimpiya oyunları **Yay olimpiya oyunları** (1896-cı ildən keçirilir) və **Qış olimpiya oyunları** (1924-cü ildən keçirilir) kateqoriyalarına bölünür.Olimpiya oyunları isə **olimpiya idman növünə** görə aşağıdakı kimi təsnif olunur:

- silsiləli idman oyun növləri – üzgüçülük, qaçış, velosiped idmanı, avarçəkmə, xizək yarışı, şort-trek (qoşqu) yarışı və s.;
- qeyri-silsiləli idman oyun növləri – ağır atletika, yüngül atletik hoppanma və tullanma, trampilindən ayaq xizəyi ilə tullanma və s.;
- mürəkkəb koordinasiyalı idman oyun növləri – idman gimnastikası, bədii gimnastika, sinxron üzgüçü-

[1] Ətraflı bax:Соколов Г.И.Олимпия.М.,1981.

[2] Olimpiya oyunlarının inkişaf tarixi barədə ətraflı bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.46-50.

[3] Bax:Жулкевская Г.В.Отец современных Олимпийских игр//Мир спорта.2004,№3,с.117-119.

lük, suya tullanma, stend atıcılığı, yelkən idmanı, at idmanı, fiqurla gəzmə və s.;
- təkmübarizlik idman oyun növləri – qılıncoynatma, boks, sərbəst güləş, yunan-roma güləşi, cüdo, taekvondo, şahmat və s.;
- -kollektiv idman oyun növləri – futbol, basketbol, voleybol, beysbol, həndbol, su polosu, xokkey, stolüstü tennis, çimərlik voleybolu, badminton və s.;
- çoxnövçülük və kombinasiyalı idman oyun növləri – müasir beşnövçülük,yüngül atletika üzrə onnövçülük və yeddinövçülük, triatlon, xizək ikinövçülüyü, biatlon və s.[1]

Eyni zamanda, olimpiya oyunlarını digər meyarlar üzrə də sistemləşdirərək kateqoriyalara bölmək olar: məsələn, həvəskar olimpiya idmanı, peşəkar idman fəaliyyəti və s.[2]

Olimpiya hərəkatının tərkib hissələrindən biri də BOK üzvölkələrinin **milli olimpiya hərəkatı** sayılır (məsələn, Almaniya, ABŞ, Avstriya, Azərbaycan Respublikası, Belçika, Belarus, Böyük Britaniya, Danimarka, Fransa, İran İslam Respublikası, İspaniya, Misir, Gürcüstan, Pakistan, Portuqaliya, Rusiya Federasiyası, Sloveniya, Türkiyə, Ukrayna, Yaponiya, Yunanıstan və s. ölkələr). Milli olimpiya hərəkatı bütövlükdə olimpiya hərəkatı prinsiplərinin təbliği və geniş yayılması,bədən tərbiyəsi və idmanın inkişafına dəstəyin göstərilməsi,beynəlxalq idman əməkdaşlığının gücləndirilməsi, olimpiya oyunlarında və BOK-un hamiliyi altında keçirilən digər beynəlxalq idman tədbirlərində iştirak etmək məqsədlərinə xidmət edir.

---

[1] Bax: Платонов В.Н.Общая теория подготовки спортсменов в олимпийском спорте.Киев,1997,с.6.

[2] Olimpiya idmanının nəzəri və praktik məsələləri barədə ətraflı bax: Платонов В.Н. Система подготовки спортсменов в олимпийском спорте. Общая теория и её практические приложения: учеб. для студентов вузов физ. воспитания и спорта. – К.: Олимпийская литература, 2004, 808 с.

Azərbaycan Respublikasında milli olimpiya hərəkatı öz fəaliyyətini qanunvericilik aktları, BOK Olimpiya Xartiyası, BOK tərəfindən tanınma və müvafiq nizamnamə əsasında həyata keçirir və ona **Milli Olimpiya Komitəsi** rəhbərlik edir. Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev bu sahəyə daim xüsusi diqqət və qayğı göstərir. Ölkədə olimpiya hərəkatı "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu (maddə 14,15) ilə tənzimlənir.[1] Dövlət milli olimpiya hərəkatını tanıyır və dəstəkləyir, Milli Olimpiya Komitəsinə onun nizamnamə məqsədlərinin həyata keçirilməsində hərtərəfli kömək göstərir. Milli Olimpiya Komitəsi ölkə ərazisində olimpiya hərəkatına aid məsələlərin həllində səlahiyyətli olan, qanunvericiliyə uyğun fəaliyyət göstərən **müstəqil ictimai birlikdir** və aşağıdakı **funksiyaları** yerinə yetirir:

- ölkədə olimpiya hərəkatı prinsiplərini təbliğ edir,yüksək nailiyyətlər idmanının və kütləvi idmanın inkişafına dəstək göstərir;
- Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Xartiyasına müvafiq olaraq,olimpiya oyunlarında və Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi (rəhbərliyi) altında keçirilən digər beynəlxalq idman tədbirlərində dövləti təmsil edir;
- Milli Olimpiya Komitəsinin nümayəndə heyətinin tərkibini təsdiq edir və Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi (rəhbərliyi) altında keçirilən digər beynəlxalq idman tədbirlərində iştirakını təmin edir;
- olimpiya oyunlarında və Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi (rəhbərliyi) altında keçirilən digər beynəlxalq idman tədbirlərində iştirak edən nümayəndə heyətlərinin üzvlərinin geyimlə təchizatını,yol,yataq,yemək və digər xərclərinin ödənilməsini təmin edir;

[1] Bax: www.e-qanun (01.08.2021-ci il); Azərbaycan Respublikasının QanunvericilikToplusu.Bakı, 2009, №6.

– Milli Olimpiya Komitəsinin nümayəndə heyəti üzvlərinin rəsmi idman forması və geyimlərinin eskizlərini təsdiq edir;
– ölkə idmançılarının olimpiya oyunlarında və Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi (rəhbərliyi) altında keçirilən digər beynəlxalq idman tədbirlərində iştirakı üçün zəruri hazırlıq səviyyəsinin təmin edilməsinə yönəlmiş tədbirlərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edir;
– ölkədə olimpiya oyunlarının keçirilməsi üçün Beynəlxalq Olimpiya Komitəsinə müraciət etmək hüququ olan şəhəri müəyyən edir.[1]

Azərbaycan Respublikasında Milli Olimpiya Komitəsi tərəfindən göstərilən məsələlərin aidiyyəti üzrə həlli müvafiq icra hakimiyyəti orqanı və ölkədə fəaliyyət göstərən 95 adda müxtəlif **idman federasiyaları** ilə qarşılıqlı əlaqə və əməkdaşlıq şəraitində həyata keçirilir.Milli Olimpiya Komitəsi bədən tərbiyəsi və idmanın inkişafına dair nizamnamə məqsədləri və proqramlarının icrasını öz maliyyə mənbələri hesabına, o cümlədən hüquqi və fiziki şəxslərin ianələri, habelə qanunvericilikdə müəyyən edilmiş qaydada ayrılan dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirir.

Azərbaycan Respublikasının milli yığma komandalarının beynəlxalq olimpiya oyunlarında çıxışları Azərbaycan Respublikasının **Dövlət bayrağı** altında həyata keçirilir.

1.1.3.Beynəlxalq paralimpiya hərəkatı

Beynəlxalq idman hərəkatının tərkib hissələrindən biri də **beynəlxalq paralimpiya hərəkatı** sayılır. Onun **məqsədləri** aşağıdakılardan ibarətdir:

– olimpizmin prinsiplərinin təbliği və tətbiqi;

[1] Ətraflı bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu/C.K.Quliyev. Bakı, CBS mətbəəsi,2013, s.273-274.

– əlil və sağlamlıq imkanları məhdud şəxslər, o cümlədən psixi-fiziki əlamətləri olan əhali arasında bədən tərbiyəsi və idmanın inkişafına dəstək verilməsi;
– əlil-idmançıların beynəlxalq idman əməkdaşlığının təşkili, həyata keçirilməsi və möhkəmləndirilməsi və digər humanist məqsədlər.

Əlil və məhdud sağlamlıq imkanları olan şəxslər arasinda idman növləri üzrə keçirilən beynəlxalq idman yarışları olimpiya oyunları kateqoriyasına aiddir.

Ensiklopedik və terminoloji lüğətlərə görə,[1] **paralimpiya hərəkatı** dedikdə sağlamlıq imkanları məhdud uşaqların və əlillərin bədən tərbiyəsi və idman vasitəsilə cəmiyyətə inteqrasiyasında, özünütəsdiqində, fiziki və mənəvi kamilliyə çatmasında əsas vasitələrdən biri kimi paralimpiya idmanının inkişafını əhatə edən fəaliyyət başa düşülür. **Deflimpiya hərəkatı** – eşitmə qabiliyyətləri məhdud olan şəxslər arasında bədən tərbiyəsi və idmanın inkişafı üzrə təşkil olunan və həyata keçirilən fəaliyyətdir. **Xüsusi olimpiya hərəkatı** isə əqli imkanları məhdud şəxslərin bədən tərbiyəsi və idman vasitəsilə reabilitasiyası və cəmiyyətə inteqrasiyasının təmin edilməsinə yönəlmiş fəaliyyət deməkdir.

Əlil və məhdud sağlamlıq imkanları olan şəxslər (eşitmə və görmə çatışmazlığına, ağıl-zəka geriliyinə malik fərdlər, dayaq-hərəkətverici aparatı zədələnmiş insanlar və s.) arasında həyata keçirilən bədən tərbiyəsi və idman oyunları onların cəmiyyətə adaptasiyası, fiziki reabilitasiyası və beynəlxalq idman hərəkatına inteqrasiyası istiqamətində mühüm vasitədir.Təqdirəlayiq haldır ki,bu tədbir bütün dünyada **sosial-mədəni hadisə** kimi

[1] Bax: Толковый словарь спортивных терминов.Около 9500 терминов/Сост.Ф.П.Суслов,Д.А.Тышлер. М.,2001.

qiymətləndirilir,[1] 100 ildən artıq tarixə malikdir və 150-dən çox ölkədə geniş vüsət almışdır.[2]

Əlil olan şəxslərin idman oyunlarına cəlb edilməsi işinə XIX əsrin sonlarında səy göstərilmişdir. Belə ki,1888-ci ildə Berlində, ilk dəfə olaraq, eşitmə qabiliyyəti məhdud olan şəxslər (karlar) üçün **idman klubu** yaradılmışdır. Karlar üçün ilk ümumdünya idman oyunları ("Delfi oyunları") 1924-cü il avqustun 10-17-də Parisdə keçirilmişdir. İdman oyunlarının proqramına yüngül atletika,velosiped sürmə,futbol,atıcılıq və üzgüçülük üzrə yarışlar daxil idi.

Göstərilən sahədə **ümumdünya idman oyunlarının** təşkili və idman hərəkatının idarə edilməsi məqsədilə,1924-cü il avqustun 16-da Karların Beynəlxalq İdman Komitəsi yaradıldı və onun birinci konqresində (Brüssel, 31.10.1926-cı il) təşkilatın nizamnaməsi qəbul edildi, idman növlərinin sayı artırıldı, bu sferada yay idman oyunlarının dörd ildən bir keçirilməsi qərara alındı. Sonradan 2001-ci ildə BOK-un İcraiyyə Komitəsi bu yarışları **"Deflimpiya"** adlandırdı və bununla da həmin yarışlar BOK-un himayəsi altında keçirilməyə başlandı.

Dayaq-hərəkətverici aparatı zədələnmiş şəxslərin (əlillərin) idmanla məşğul olmağa **aktiv qoşulması** İkinci dünya müharibəsi dövrünə təsadüf edir. Belə ki,1944-cü ildə Stok-Mandevil (Böyük Britaniya) hospitalının bazasında Onurğabeyin Zədəli Xəstələrin Reabilitasiya Mərkəzi yaradıldı və xəstələrin kompleks müalicəsinin məcburi hissəsi kimi müvafiq idman proqramı işlənib hazırlandı.1948-ci il avqustun 28-də adıçəkilən hospitalda əlil arabacıqlarında atəş atıcılığı üzrə ilk yarışlar keçirildi ki, bu da, simvolik olaraq, London olimpiya

[1] Bədən tərbiyəsi və idmanın sosiologiyası barədə ətraflı bax:Лубышева Л.И.Социология физической культуры и спорта.Учеб.пособие для вузов.М.,Издательский центр «Академия»,2001.

[2] Beynəlxalq paralimpiya hərəkatının xarakteristikası barədə ətraflı bax: Международное спортивное право. Учебник / С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.64-70.

oyunlarının açılış günü ilə üst-üstə düşdü. Sonradan bu təşəbbüs tədricən genişləndirilərək, əlillər arasında **beynəlxalq idman yarışlarına** çevrildi.1966-cı ildə digər bədən xəsarətinə malik olan əlil şəxslər də (məsələn, ağıl-zəka geriliyi, intellekt pozğunluğu və s.) belə idman oyunlarına cəlb edildi. Məhdud fiziki sağlamlıq imkanlarına malik olan şəxslər arasında keçirilən yarışlar **inklüziv idman** adlanır. Müasir dövrdə idman sahəsində elmi dövriyyədə olan anlayışlardan biri "inklüziya" terminidir. İnklüziya (inclusion – daxiletmə) – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir.[1] İnklüziv idman isə ümumi idman münasibətlərinin elə bir inkişaf mərhələsidir ki, burada hamının, ilk növbədə, sağlamlıq imkanları məhdud şəxslərin idmana olan ehtiyacı təmin edilir.Söhbət, bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslərin ictimai idman həyatında aktiv iştiraka qatılmağından gedir. Başqa sözlə, inklüziv idman sahəsi, istisnasız olaraq, bütün şəxslərin akademik və ictimai həyatda, habelə xüsusi olimpiya oyunlarında bərabərhüquqlu iştirakını ayrı-seçkiliyə və ya diskriminasiyaya yol verilmədən təmin edir. Bu hüquq qaydalarının pozulması qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyət yaradır. İnklüziv idman hüququ anlayışının sətiraltı məna yükü onun hamı üçün əlçatan olmasını ehtiva edir. Cəmiyyətdə inklüziv idman mühitinə nail olmaq üçün dövlət tərəfindən əhəmiyyətli dəstək tədbirləri görülür; məsələn,"inklüziv idman – birləşmiş idman və inklüziv gənc liderlik" layihəsinin həyata keçirilməsi buna bariz nümunədir.

"Paralimpiya idman" anlayışı idman praktikasına 1964-cü ildə Tokioda əlillər üçün keçirilən oyunlar zamanı daxil edilmişdir."Paralimpiada" ifadəsi latın mənşəli qoşa – "qoşulmuş, birləşmiş" önşəkilçidən ibarət olan prefiksal termindir. **"Paralimpiada"** sözünün məna yükü onu ehtiva edir ki, əlillərin **paralimpiya idman oyunları** Olimpiya oyunlarına birləşdi-

[1] URL: https://az.wikipedia.org (04.08.2021-ci il).

rilir, təşkil edilir və onlarla birlikdə həyata keçirilir; artıq Yay paralimpiya oyunlarına Qış paralimpiya oyunları da qoşulmuşdur.

İlk Qış paralimpiya oyunları 1976-cı ildə Ornskolddsvikdə (İsveç) keçirilmişdir.Həmçinin ürəyi transplantasiya olunmuş əlil şəxslər arasında ilk beynəlxalq idman yarışları 1989-cu ildə baş tutmuşdur.

Paralimpiya oyunları ilə yanaşı, ağıl-zəka geriliyinə malik olan şəxslər arasında **xüsusi olimpiya oyunları** keçirilir. İlk belə oyunlar 1968-ci ilin iyul ayında Çikaqoda təşkil edimişdir – "Special İnternational Olympic Games" yarışları.

Yeri gəlmişkən, qeyd edək ki, **"Special İnternational Olympic Games"** beynəlxalq əlil hərəkatı sayılır, onun proqramına 100-dən çox idman növü daxildir və yaş meyarı üzrə 8-dən 80 yaşadək şəxslər iştirak edə bilərlər. Bu hərəkat BOK tərəfindən rəsmi olaraq, 1988-ci ilin fevralında Kalqaridə keçirilən XV Qış paralimpiya oyunlarında tanınmışdır.

Məhdud fiziki sağlamlıq imkanlarına malik olan şəxslər arasında beynəlxalq idman yarışlarının təşkili, idarə olunması, həyata keçirilməsi və s. məsələlərin həlli ilə məşğul olan **Beynəlxalq Paralimpiya Komitəsi** (BPK) 1992-ci ildə təsis edilmişdir.[1] Beynəlxalq **qeyri-hökumət təşkilatı** sayılan BPK daimi fəaliyyət göstərən təşkilatdır. O, əlil-idmançılar arasında yay və qış paralimpiya oyunlarını, dünya çempionatını, habelə digər yarışları təşkil edir və əlaqələndirir.

Digər ölkələr kimi, Azərbaycan da beynəlxalq paralimpiya, deflimpiya və xüsusi olimpiya hərəkatlarına qoşulmuş, qeyri-hökumət təşkilatı kimi müvafiq Paralimpiya Komitəsi, Deflimpiya Komitəsi və Xüsusi Olimpiya Komitəsi təsis edilmişdir. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanununun 16-

[1]Bu barədə ətraflı bax: http://www.paralympic.org (05.08.2021-ci il).

cı maddəsi məhz paralimpiya, deflimpiya və xüsusi olimpiya hərəkatlarının hüquqi tənzimlənməsinə həsr olunmuşdur.[1]

Ölkəmizdə **paralimpiya, deflimpiya və xüsusi olimpiya hərəkatları** müvafiq olaraq, beynəlxalq paralimpiya, beynəlxalq deflimpiya və beynəlxalq xüsusi olimpiya hərəkatlarının tərkib hissələri olub, məqsədləri sağlamlıq imkanları məhdud uşaqların və əlillərin bədən tərbiyəsi və idmanın inkişafına dəstək vermək, bu sahədə əməkdaşlığı möhkəmləndirmək, paralimpiya, deflimpiya və xüsusi olimpiya oyunlarında iştirak etmək və uğurlar qazanmaqdır.

Azərbaycanda Paralimpiya, Deflimpiya və Xüsusi Olimpiya komitələri öz fəaliyyətlərində müvafiq beynəlxalq təşkilatların qaydalarını və Azərbaycan Respublikasının qanunvericiliyini rəhbər tutan,ölkədə paralimpiya, deflimpiya və xüsusi olimpiya hərəkatlarına dair məsələlərin həllini həyata keçirən **ictimai birliklərdir**. Sözügedən komitələrin **funksiyalarına** aşağıdakı tədbirlər aiddir:

- Beynəlxalq Paralimpiya Komitəsinin, Beynəlxalq Deflimpiya, Beynəlxalq Xüsusi Olimpiya təşkilatlarının hamiliyi (rəhbərliyi) altında keçirilən paralimpiya, deflimpiya və xüsusi olimpiya oyunlarında və digər beynəlxalq yarışlarda ölkəni təmsil edir,bu tədbirlərdə iştirak edən milli yığma komandaları formalaşdırır,onların fiziki hazırlığını və texniki təchizatını təmin edir;
- sağlamlıq imkanları məhdud uşaqları və əlilləri bədən tərbiyəsi və idmanla məşğul olmağa cəlb edir,onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası məsələlərinin həlli ilə məşğul olan strukturlar (şöbələr,filiallar,adaptiv idman məktəbləri və s.) yaradır;
- paralimpiya, deflimpiya və xüsusi olimpiya idman növlərinin yerlərdə inkişafının təmin edilməsi üçün dövlət orqanlarının və bələdiyyələrin xüsusi idman obyektlə-

[1] Ətraflı bax: www.e-qanun (05.08.2021-ci il); Azərbaycan Respublikasının QanunvericilikToplusu.Bakı, 2009, №6.

rində şərait və imkanların yaradılması tədbirlərinin hazırlanmasında və icrasında iştirak edir;
- ölkə ərazisində qəbul olunan və inkişaf etdirilən paralimpiya, deflimpiya və xüsusi olimpiya idman növlərinin idman təsnifatını,şərtlərini və ardıcıllığını müəyyən edir və təsdiq olunması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edir;
- beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq beynəlxalq qurumlarla,o cümlədən Beynəlxalq Paralimpiya Komitəsi,Deflimpiya və Xüsusi Olimpiya təşkilatları ilə müqavilələr bağlayır,xarici dövlətlərin Paralimpiya Komitəsi, Deflimpiya və Xüsusi Olimpiya təşkilatları ilə əlaqələr yaradır, əməkdaşlıq edir, ölkədə keçirilən tədbirlərə onları dəvət edir, xarici ölkələrdə təşkil edilən idman tədbirlərində iştirak edir.

Paralimpiya, deflimpiya və xüsusi olimpiya idman növləri üzrə **respublika yarışları** təqvim planına uyğun, yarışın əsasnaməsi, qaydaları və iştirakçıların funksional imkanları çərçivəsində tibbi tələblər təsnifatı nəzərə alınmaqla təşkil olunur və keçirilir.

Respublika və beynəlxalq miqyaslı yarışlarda iştirak zamanı idmançılar Paralimpiya, Deflimpiya və Xüsusi Olimpiya komitələri tərəfindən **icbari qaydada sığorta** olunurlar.

1.1.4.Müasir peşəkar idman

Müasir dövrdə beynəlxalq idman hərəkatının tərkib hissələrindən biri də peşəkar idman fəaliyyəti sayılır.[1] **Peşəkar idman** dedikdə idman-tamaşa-reklam tədbirlərinin (yarışların) təşkil olunmasına və keçirilməsinə yönəldilmiş idmanın elə tərkib

[1]Bax: Гуськов С.И., Платонов В.Н. Олимпийский и профессиональный спорт // Олимпийское движение и социальные процессы. Сборник научных материалов международной конференции. СПб.,1994, с.37-47.

hissəsi başa düşülür ki, burada idmanı özünə peşə (əmək) fəaliyyəti seçən idmançılar həmin tədbirlərdə (yarışlarda) iştirak etmək və onlara hazırlaşmaq üçün qanunvericiliyə uyğun olaraq, əmək haqqı (pul mükafatı) alırlar.

Peşəkar idman fəaliyyəti **sahibkarlıq sferasında** fəaliyyət növlərindən biridir,bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan idman-tamaşa biznesidir və onun məqsədi əhaliyə idman-tamaşa xidmətlərini göstərməklə gəlir əldə etməkdən ibarətdir. Bir çox ölkələrdə peşəkar idman getdikcə müasirləşir, iqtisadi-kommersiya xarakteri alır və artıq **idman-kommersiya** növünə çevrilmişdir.

Müasir peşəkar idman onu olimpiya idmanından fərqləndirən bir sıra spesifik cəhətlərə (əlamətlərə) malikdir. Bu sırada aşağıdakı **əlamətləri** fərqləndirə bilərik:

1. Böyük gəlir gətirə bilən idman növlərinin inkişafına orientasiya. Belə idman növlərinə, ilk növbədə, aiddir: beysbol, basketbol, xokkey, tennis, qolf, boks, kikboksinq,bodibildinq, velosiped idmanı və s.;

2. İdman biznesmenləri və onların komandaları bir liqada birləşərək birgə biznes üzrə tərəfdaşlıq edirlər. Hər bir komandanın kommersiya uğuru liqaya daxil olan digər komandanın uğurundan əhəmiyyətli dərəcədə asılıdır;

3. Peşəkar idman təşkilatları tərəfindən yarışlarda yüksək rəqabət atmosferinin yaradılması və dəstəklənməsinin təmin olunmasına səy göstərilməsi. Bu da, öz növbəsində, tamaşaçılarda cazibədarlığı, teleyayım şirkətlərinin və sponsorların peşəkar idman oyunlarına marağını artırır;

4. Yarışların keçirilməsinin spesifik sisteminin mövcud olması.[1] Belə ki, olimpiya idmanında yarışlar, ilk növbədə, milli səviyyədə, əsasən, dövlət büdcə vəsaitləri hesabına həyata ke-

[1] Bax: Келлер В.С.Системы спортивных соревнований и соревновательная деятельность спортсмена // Теория спорта. Киев, 1987, с.91-95.

çirilir. Peşəkar idmanda isə, yaranmış ənənəvi formaya görə, yarışlar büdcədənkənar vəsaitlər hesabına təmin olunur;

5. Peşəkar idmanın hər bir növündə idman elitasının formalaşdırılması. Bu idman biznesində **"manimen"** adlanır və onun nümayəndələri cəmiyyətdə yüksək populyarlığa malik olan məşhur idmançılardan ibarətdir. Peşəkar idman fəaliyyətinin tarixi göstəriri ki, idman elitası və onunla bağlı informasiya, reklam, sponsor və digər ictimai fəaliyyət idmanın inkişafına, habelə biznes gəlirlərinin artmasına güclü təsir göstərən faktorlardan biridir;

6. Liqaya yeni üzvlərin qəbul olunması üçün komandalara müəyyən hüquqların verilməsi və liqanın təmsil etdiyi əraziyə dair komandaların müvafiq hüquqlara malik olması;

7. Komandaların və liqanın maliyyə təminatında televiziyanın böyük əhəmiyyət kəsb etməsi, yarışların translyasiyası üçün hüquqların əldə edilməsinin yüksək dəyərə malik olması, yayım hüququnun müəyyən telekompaniyalara satılmasından əldə edilən gəlirlərin komandalar arasında bölüşdürülməsi;

8. Dövlət və yerli icra hakimiyyəti orqanları tərəfindən inzibati və maliyyə dəstəyinin göstərilməsi;

9. İdmançıların sosial müdafiəsi üçün daim təkmilləşən və kifayət qədər effektiv sistemin mövcud olması, eləcə də peşəkar idman fəaliyyətinin spesifik funksiyalar yerinə yetirməsi – əyləncəli və kommunikativ, idman-tamaşa tədbirlərində geniş əhali kütləsinin tələbatının ödənilməsi, birgə emosiyaların yaşanması, təbliğat-təşviqat, reklam və s. tədbirlər.

Peşəkar idman XVIII əsrin əvvəllərində Amerikada və İngiltərədə yaranmışdır və buna o zamanlar möcud olan ictimai istehsalın yüksək inkişaf səviyyəsi,dövlət quruluşu, hərbi iş və insan mədəniyyəti kimi amillər təsir göstərmişdir.[1] Peşəkar id-

[1] Ətraflı bax: Столбов В.В.,Финогенова Л.А.,Мельникова Н.Ю.История физической культуры и спорта / Под ред. В.В.Столбова.М.,2001; Профессиональный спорт / под общ. ред. С.И. Гуськова, В.Н. Платонова. — К.: Олимпийская литература, 2000, 392 с.

manın tarixən **iki əsas modeli** – Amerika və Avropa modelləri formalaşmışdır. Peşəkar idmanın **Amerika modelinə** kommersiya-konstant xarakteri xasdır,yəni idman fəaliyyətinə və onun nəticələrinə görə maksimum gəlir əldə olunması vasitəsi kimi baxılır. **Avropa modelində** isə idman yarışları bu sahədə iqtisadi biznes aparılmasının üstün faktoru və məcburi şərti sayılır.[1]

Son dövrlərdə beynəlxalq idmanda baş verən yeni inkişaf meyilləri nəticəsində peşəkar idman öz milli və regional çərçivəsindən çıxaraq,onun **beynəlmiləlləşməsi** prosesi müşahidə edilir. Hal-hazırda müasir peşəkar idman fəaliyyəti Yer kürəsinin bütün ölkələrində - Avropa, Amerika, Asiya, Afrika və Avstraliya qitə dövlətlərində həyata keçirilir.

Azərbaycan Respublikasında da peşəkar idman fəaliyyətinə xüsusi diqqət göstərilir. Bu fəaliyyət sferası dövlət tərəfindən qanunvericilik səviyyəsində idarə olunur və inkişaf etdirilir. Belə ki, peşəkar idman fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsi "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu əsasında həyata keçirilir (maddə 32).[2]

Adıçəkilən sənəddə qeyd edilir ki, peşəkar idman sahəsindəki münasibətlər bu Qanunla və digər normativ hüquqi aktlarla tənzimlənir. Peşəkar idman sahəsində əmək münasibətlərinin tənzimlənməsi, əsasən, idmançıların əmək funksiyalarına müvafiq idman növü üzrə yarışlara hazırlığını,iştirakını və yüksək nəticələr əldə edilməsini, işçilərin (məşqçilərin və digər mütə-

[1] Hüquq ədəbiyyatında göstərildiyi kimi,müasir dövrdə idman iqtisadiyyat sahəsidir və idman biznesi onun aparıcı vektorudur. Məsələn, bax: Галкин В.В.Экономика спорта и спортивный бизнес.Учебное пособие.М.,2006; Андрефф В. Экономика спорта / Пер. с фр. // Международное спортивное и олимпийское движение.Тематическая подборка ВНИИФК. М., 1991, №7-8, с.27-47 və b.

[2] Ətraflı bax: www.e-qanun (05.08.2021-ci il); Azərbaycan Respublikasının QanunvericilikToplusu. Bakı, 2009, №6.

xəssislərin) əmək funksiyalarına isə təlim-məşq prosesinin təşkili, idmançıların yarışlarda iştiraklarına və yüksək nailiyyətlər əldə edə bilmələrinə rəhbərlik fəaliyyətlərinin daxil edilməsini nəzərdə tutur. Peşəkar idmanda hazırlıq və iştiraka görə idmanı peşəkar (əmək) fəaliyyət kimi seçmiş idmançılar qanunvericiliyə müvafiq surətdə əmək haqqı və ya pul mükafatı alırlar.

Beləliklə, qeyd edə bilərik ki, **beynəlxalq idman hüququnun** təşəkkülündə və inkişafında beynəlxalq olimpiya hərəkatı, beynəlxalq paralimpiya hərəkatı, müasir peşəkar idman və digər beynəlxalq idman tədbirləri əvəzsiz rol oynayır.

1.2. Beynəlxalq idman hüququnun anlayışı və predmeti

1.2.1. Beynəlxalq idman hüququ anlayışı

Beynəlxalq hüquq doktrinasından məlum olduğu kimi, dövlətlərarası beynəlxalq əməkdaşlıq ictimai münasibətlərin müxtəlif sahələrində (siyasi,iqtisadi,sosial,mədəni və s.) həyata keçirilir.Müasir dövrdə dövlətlərarası beynəlxalq əməkdaşlıq **idman fəaliyyəti sferasında** da yaranmış və kütləvi xarakter alaraq, obyektiv zəmində əhəmiyyətli və ayrıca real ictimai münasibətlər qrupuna çevrilmişdir. Belə ki, bədən tərbiyəsi və idman cəmiyyətin ümumi mədəniyyətinin ayrılmaz hissəsi olmaqla sosial fəaliyyət sahəsidir.

Bədən tərbiyəsi - cəmiyyətdə mədəniyyətin mühüm hissəsi olub, mahiyyətcə, insanın fiziki cəhətdən təkmilləşdirilməsi üçün xüsusi vasitə, metod və şəraitin yaradılması və səmərəli istifadə olunmasıdır.

İdman isə xüsusi yarış fəaliyyəti,ona bilavasitə hazırlıq və bu proseslə əlaqəli olan tərəflərin (təşkilat,fərd və s.) əvvəlcədən müəyyən edilmiş hüquqi normalara qarşılıqlı münasibətlərinin məcmusudur.Bundan başqa, qanunvericilik aktlarında idman anlayışının normativ məzmununu ehtiva edən müddəalar

da mövcuddur: idman dedikdə müxtəlif fiziki hərəkətlər kompleksi vasitəsilə mütəmadi olaraq şəxsin fiziki hazırlığının təkmilləşdirilməsinə, bütün səviyyəli yarışlarda iştiraka və yüksək nəticələr göstərilməsinə yönəldilmiş bədən tərbiyəsinin tərkib hissəsi başa düşülür.[1] Göstərilənlərlə yanaşı, elmi dövriyyədə və idman praktikasında kütləvi idman,fiziki hazırlıq və fiziki kamillik kimi anlayışlar da işlədilir.**Kütləvi idman** – təşkil olunmuş formada əhalinin bədən tərbiyəsi ilə məşğulluğuna və fiziki inkişafına,eləcə də bədən tərbiyəsi-sağlamlıq tədbirlərində və kütləvi idman yarışlarında iştirakına yönəldilmiş idman sahəsidir. **Fiziki hazırlıq** anlayışının sətiraltı məna yükü onu ifadə edir ki, fiziki hazırlıq insanın sosial-demoqrafik xüsusiyyətləri və fəaliyyət növləri nəzərə alınmaqla,onda fiziki keyfiyyətlərin, qabiliyyətin inkişafına yönəlmiş prosesdir. **Fiziki kamillik** isə bədən tərbiyəsi və idmanla məşğul olan hər bir şəxsdə harmonik fiziki inkişafın və mənəvi keyfiyyətlərin ahəngdar birləşməsi prosesi deməkdir.

Bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə hər bir ölkədə bədən tərbiyəsi və idman sahəsində müvafiq dövlət siyasəti həyata keçirilir və idman insan fəaliyyətinin ümumtanınmış spesifik sferalarından biridir, onun ictimai əhəmiyyəti günbəgün artmaqda davam edərək universal xarakter almışdır.İdman fəaliyyətinin ictimai-siyasi,sosial-iqtisadi və beynəlxalq miqyaslı funksiyalara malik olması amili onun beynəlxalq-hüquqi tənzimlənməsini zəruri edir.Təbii ki, belə tənzimlənmə **beynəlxalq idman hüququ** vasitəsilə həyata keçirilir.

XX əsrin ortalarından başlayaraq, beynəlxalq hüquq elmində «beynəlxalq idman hüququ» terminindən istifadə olunması

[1] Bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu-maddə 1.0.2. // http://www.e-qanun.az/framework/18303 (05.08.2021-ci il).

geniş xarakter almışdır.[1] Bu termin həm də beynəlxalq hüquqi sənədlərdə və qanunvericilik aktlarında işlədilir.[2] Bəs, beynəlxalq idman hüququ dedikdə, biz, nə başa düşürük?

Beynəlxalq idman hüququ (BİH) müxtəlif variantlarda işləndiyinə görə **çoxcəhətli** anlayışdır. Belə ki, o, aşağıda göstərilən **dörd əsas mənada** işlədilir:

- elm və tədqiqat sahəsi kimi beynəlxalq idman hüququ;
- tədris kursu mənasında beynəlxalq idman hüququ;
- qanunvericilik mənasında beynəlxalq idman hüququ;
- obyektiv mənada beynəlxalq idman hüququ.

Elm və tədqiqat sahəsi kimi beynəlxalq idman hüququ dedikdə beynəlxalq idman hüququna aid olan anlayışlar (beynəlxalq idman hüququnun subyektləri, beynəlxalq idman hüququnun prinsipləri, beynəlxalq idman münasibətləri və digər məsələlər) barədə fikirlər, ideyalar, nəzəriyyə, postulat, konsepsiya, elmi-tədqiqat və s. mülahizə və elmi işlərin məcmusu başa düşülür. Bu mənada o, həm də beynəlxalq idman hüquq elmi (doktrina) adlanır. Beynəlxalq idman hüquq doktrinası BİH-ə aid olan məsələləri tədqiq edir, öyrənir.

Beynəlxalq idman hüququ tədris fənni kimi tələbələrə və oxucu auditoriyasına BİH barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris kursudur; bu mənada ona beynəlxalq idman hüquq tədris fənni deyilir.

---

[1] Məsələn,bax:Nafziger J.A.R.International Sports Law.-New York:Dobbs Ferry,1988; ERTAŞ Ş., PETEK H. Spor Hukuku, Yetkin Yayınları. Ankara, 2005, s.26-28; Международное спортивное право. Учебник / С.В.Алексеев. М., 2008; Международное спортивное право. Учебник для бакалавров / Отв. ред. К.А.Бекяшев. – Москва, Проспект, 2017; Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. I cild. Ümumi hissə. Bakı, 2018, s.65 və s.

[2] Bax,məsələn:Энциклопедический словарь по физической культуре и спорту.В 3 т.М.,1961; Beloff M.,Kerr T., Demetriou M. Sport Law.-Oxford: Hard, 1999; Толковый словарь спортивных терминов / Сост. Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001; Спортивная энциклопедия Беларуси / Ред.кол. Ю.Л.Сиваков и др. Мн., 2005 və s.

Qanunvericilik mənasında beynəlxalq idman hüququ dedikdə beynəlxalq idman münasibətlərini tənzimləyən beynəlxalq-hüquqi sənədlərin – beynəlxalq müqavilələrin məcmusu başa düşülür. İdman yarışları barədə müqavilələr, idmançıların dövriyyəsi, transfert və ödənişlər, idman sahəsində əməkdaşlıq, kredit, vergi və digər məsələlər haqqında beynəlxalq sazişlər beynəlxalq idman qanunvericiliyinə daxildir.

Obyektiv mənada beynəlxalq idman hüququ dedikdə, bir qayda olaraq, beynəlxalq idman münasibətlərini tənzimləyən hüquq normalarının sistemi və məcmusu başa düşülür; onlara beynəlxalq idman-hüquq normaları deyilir. Buna görə də obyektiv mənada beynəlxalq idman hüququ müvafiq beynəlxalq idman-hüquq normalarından ibarətdir; bu normaların əsas təyinatı və başlıca funksiyası beynəlxalq idman münasibətlərini tənzimləməkdən ibarətdir.

Obyektiv mənada beynəlxalq idman hüququ, qeyd etməliyik ki, hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Obyektiv mənada beynəlxalq idman hüququ bundan sonra, sadəcə olaraq, "beynəlxalq idman hüququ" termini ilə əhatə olunacaqdır. Buna görə də, təbii ki, "obyektiv mənada beynəlxalq idman hüququ" və "beynəlxalq idman hüququ" ifadələri eynimənalı, sinonim anlayışlar kimi başa düşülməlidir.

Beynəlxalq idman münasibətlərinin yaranması və inkişaf prosesləri aşağıda göstərilən **üç vacib obyektiv faktordan** əhəmiyyətli dərəcədə asılıdır:

1) beynəlxalq aləmdə insanlara xas olan fiziki və mənəvi tələbatdan yaranan ictimai münasibətlər – idman münasibətləri;

2) bu sahədə mövcud ictimai münasibətlərin dəqiq müəyyənləşdirilmiş beynəlxalq qaydalarla nizama salınmasında dövlətlər birliyinin maraqlı olması;

3) müvafiq sferada əsas dialektik başlanğıc norma, reqlament və qaydaları maraqlı dövlətlərin müəyyən etməsi və bunun sistemli kompleks şəkildə beynəlxalq birlik tərəfindən ümumtanınmış formada qəbul edilməsi.

Göstərilən faktorlar müasir dövrdə beynəlxalq praktikada artıq öz real əksini tapmışdır, bu sahədə kompleks hüquq normalar sistemi mövcuddur və bunun vasitəsilə вейнялхалг idman fəaliyyətinin effektiv şəkildə tənzimlənməsi həyata keçirilir.

Beləliklə, şərh edilənləri nəzərə alaraq, beynəlxalq idman hüququna aşağıdakı kimi **lakonik definisiya** formalaşdıra bilərik:

– beynəlxalq idman hüququ dedikdə beynəlxalq arenada dövlətlərarası idman fəaliyyətini və bu fəaliyyətdən yaranan ictimai idman münasibətlərini nizama salan, birbirilə qarşılıqlı dialektik əlaqədə olan kompleks hüquq normalarının sistemi başa düşülür.

1.2.2.Beynəlxalq idman hüququnun predmeti

Hüquq sisteminin hər bir tərkib hissəsinin özünəməxsus nizamasalma predmeti vardır. Bu sözləri eynilə BİH barədə də söyləmək olar. Belə ki, BİH özünəxas nizamasalma predmetinə malikdir; onun nizamasalma predmeti belə bir suala cavab verir: beynəlxalq idman hüququ nəyi, hansı növ ictimai münasibətləri tənzimləyir?

Qeyd etməliyik ki, BİH vasitəsi ilə hansı növ ictimai münasibətlər tənzimlənirsə, o münasibətlər də məhz onun nizamasalma predmetini təşkil edir. Bu münasibətləri müəyyənləşdirmək üçün, ilk növbədə,nəzərə almalıyıq ki,əvvəllərdə də qeyd etdiyimiz kimi, beynəlxalq idman fəaliyyəti BİH-in genezis-əmələgəlmə əlamətidir.Bu baxımdan,**"beynəlxalq idman fəaliyyəti"** anlayışı ilə tanış olmaq, onun mahiyyətinə aydınlıq gətirmək lazımdır. "Beynəlxalq idman hüququ" anlayışında "beynəlxalq" ifadəsinin işlədilməsi onu göstərir ki, beynəlxalq idman hüququnun əsas "işi" məhz beynəlxalq idman fəaliyyəti nəticəsində yaranan münasibətləri tənzimləməkdən ibarətdir. Məsələ burasındadır ki, beynəlxalq idman münasibətləri kifayət dərəcədə geniş anlayış olub, özündə subyekt baxımından, həm beynəlxalq dövlətlərarası/hökumətlərarası idman

münasibətlərini, həm də beynəlxalq qeyri-dövlətlərarası idman münasibətlərini birləşdirir.

Beynəlxalq münasibətlər dedikdə dövlətlərin sərhədlərindən kənara çıxan bütün ictimai münasibətlər başa düşülür.[1] Həmin münasibətlər müxtəlif sahələrdə (siyasi, hərbi, mədəni, elmi, təhsil, idman və digər sferalarda) əmələ gələ bilər. Əgər beynəlxalq münasibətlər idman fəaliyyəti sahəsində əmələ gələrsə, onlara **beynəlxalq idman münasibətləri** deyilir; məhz bu münasibətlər BİH ilə tənzimlənərək onun nizamasalma predmetinə daxildir.[2] Bu isə, öz növbəsində, bizə belə bir fikir söyləməyə əsas verir ki, beynəlxalq idman hüququnun nizamasalma predmetinin zəminində beynəlxalq idman fəaliyyəti nəticəsində yaranan ictimai münasibətlər durur.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq idman fəaliyyəti özündə, mahiyyət etibarilə, aşağıdakı **əsas istiqamətləri** ehtiva edir:

- ümumi səlahiyyətli beynəlxalq təşkilatlarda (məsələn, BMT, Avropa Şurası və b.), beynəlxalq idman hərəkatında iştirak etmək, habelə BOK, BPK, BİF və digər qurumlarla, o cümlədən onların milli idman strukturları ilə qarşılıqlı əlaqələrin yaradılması;
- beynəlxalq idman münasibətlərində dövlətlərin, milli idman təşkilatlarının, idmançıların və digər milli subyektlərin fəaliyyəti;
- beynəlxalq idman yarışlarının,o cümlədən olimpiya oyunlarının,həmçinin digər beynəlxalq yarışların və idman-tamaşa tədbirlərinin, müvafiq konfrans və simpoziumların təşkili və həyata keçirilməsi;
- idman biznesi sahəsində, o cümlədən peşəkar idman sferasında beynəlxalq transfert, icarə, idmançının (trenerin) bir klubdan digərinə keçməsi,həmçinin idman

[1] Богуславский М.М. Международное экономическое право. М., 1986, с.5.

[2] Вах: Международное публичное право.Учебник.5-е издание / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.936-938.

agentlərinin fəaliyyəti ilə bağlı beynəlxalq əmək münasibətləri;
- idman sferasında beynəlxalq maddi dəstək və xarici sərmayə yatırımı;
- idman sənayesi, o cümlədən fiziki-idman və turizm əhəmiyyətli xidmətlərin istehsalı,eləcə də həmin xidmətlərlə bağlı beynəlxalq ticarət sahəsində beynəlxalq kommersiya fəaliyyəti;
- idman fəaliyyəti sahəsində əqli mülkiyyət hüquqlarının beynəlxalq mühafizəsi,o cümlədən əmtəə nişanlarının, idman və olimpiya simvollarının, idman tədbirlərində radio-teleyayım hüquqlarının qorunması ilə bağlı münasibətlər;
- idman sahəsində beynəlxalq vergi münasibətləri;
- beynəlxalq idmanda travmatizm,idman təbabəti və sığorta;
- beynəlxalq idman hərəkatında ümumdünya antidopinq siyasəti və dopinqə qarşı mübarizə;
- idman münasibətləri sferasında cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq;
- beynəlxalq idman mübahisələrinin tənzimlənməsi və sairə məsələlər.[1]

Göstərilən siyahı qəti deyil, o, beynəlxalq idman fəaliyyətinin yeni yaranan digər istiqamətləri ilə də genişləndirilə bilər.

Beynəlxalq idman fəaliyyətinin sadalanan istiqamətləri ilə bağlı müxtəlif subyektlər arasında yaranan orqanik kompleks ictimai münasibətlər – idman münasibətləri beynəlxalq idman hüququnun tənzimləmə predmetini təşkil edir.

Beynəlxalq idman münasibətləri öz məzmununa görə son dərəcə müxtəlifdir. Belə ki, həmin münasibətlər olimpiya, paralimpiya, peşəkar idman, investisiya, nəqliyyat, əqli mülkiyyət və beynəlxalq idman əməkdaşlığının digər sahələrində

[1] Ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.208-209.

yarana bilər. Bu baxımdan, yəni **məzmununa görə** beynəlxalq idman münasibətlərini aşağıdakı növlərə (qruplara) bölmək olar:

- beynəlxalq olimpiya münasibətləri;
- beynəlxalq paralimpiya münasibətləri;
- beynəlxalq peşəkar idman münasibətləri;
- beynəlxalq idman investisiya münasibətləri;
- beynəlxalq idman vergi münasibətləri;
- beynəlxalq idman nəqliyyat münasibətləri;
- beynəlxalq idman maliyyə-kredit münasibətləri;
- beynəlxalq idman əqli mülkiyyət münasibətləri;
- beynəlxalq idman sığorta münasibətləri və s.

Göstərilən beynəlxalq iqtisadi münasibətlər qrupu məcmu halında birləşərək BİH-in nizamasalma predmetini təşkil edir. Elə buradaca, dərhal qeyd etməliyik ki, həmin münasibətlər, əsasən, dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranır.Belə ki, beynəlxalq idman münasibətlərində öz hüquqi statusuna və xarakterinə görə müxtəlif subyektlər iştirak edirlər; subyekt tərkibindən asılı olaraq, həmin münasibətləri ənənəvi şəkildə **iki növ (qrup) halında** fərqləndirmək mümkündür:

- dövlətlərarası beynəlxalq idman münasibətləri;
- qeyri-dövlətlararası beynəlxalq idman münasibətləri.

Dövlətlərarası beynəlxalq idman münasibətləri dedikdə dövlətlər arasında, habelə dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında, eləcə də belə təşkilatların öz aralarında beynəlxalq idman fəaliyyətinə dair əməkdaşlığın ayrı-ayrı sahələrində (olimpiya, paralimpiya, peşəkar idman, investisiya, nəqliyyat, maliyyə-kredit, vergi və s.) yaranan hakimiyyət xarakterli münasibətlər başa düşülür; bu münasibətlərin əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, onlar hakimiyyətlərarası, hakimiyyət xarakterli münasibətlərdir.[1] Ona görə ki, belə

[1] Мюллерсон Р.А. Коллизионные и отсылочные нормы в регулировании международных отношений // Вестник МГУ. Серия 11. Право, 1983, № 5, с.46.

münasibətlər, bir qayda olaraq, hakimiyyət subyekti olan suveren dövlətlər arasında əmələ gəlir. **Dövlət** – hakimiyyət səlahiyyətinə malik olan siyasi təşkilatdır; o, hakimiyyət funksiyasını yerinə yetirir. Məhz bu səbəbdən dövlətlər arasında yaranan istənilən münasibət hakimiyyət xarakteri daşıyır.

Hökumətlərarası beynəlxalq təşkilatlara gəldikdə, qeyd etməliyik ki, belə təşkilatların üzvləri, əsasən və başlıca olaraq, dövlətlərdən ibarət olur. Üzv olmaqla dövlətlər öz suveren hakimiyyət səlahiyyətlərinin bir qismini həmin təşkilatlara verirlər.[1] Buna görə də hökumətlərarası beynəlxalq təşkilatların öz aralarında, habelə onlarla dövlətlər arasında yaranan hər hansı münasibət, o cümlədən idman fəliyyəti sahəsindəki münasibətlər hakimiyyət xarakterinə malik olur.

Digər tərəfdən, hər bir hökumətlərarası beynəlxalq təşkilat dövlətlərin birlik formasıdır.[2] Buna görə də, bu kimi təşkilatların iştirak etdikləri münasibətlər (bu təşkilatların öz aralarında, eləcə də həmin təşkilatlarla dövlətlər arasında yaranan münasibətlər), mahiyyətcə, dövlətlərarası münasibətlərdir.

Dövlətlərarası beynəlxalq idman münasibətləri də üç növə (qrupa) **ayrılır**:

- dövlətlərin öz aralarında yaranan beynəlxalq idman münasibətləri;
- dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında yaranan beynəlxalq idman münasibətləri;
- hökumətlərarası beynəlxalq təşkilatların öz aralarında yaranan beynəlxalq idman münasibətləri.

Dövlətlərarası beynəlxalq idman münasibətləri beynəlxalq idman hüququ ilə tənzimlənir; onu **beynəlxalq publik idman hüququ** da adlandırmaq olar . Buna görə də onun nizamasalma predmeti yalnız dövlətlərarası beynəlxalq publik idman münasibətlərindən ibarətdir.

---

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.63.

[2] Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.

Qeyri-dövlətlərarası beynəlxalq idman münasibətlərinə gəldikdə isə, qeyd etməliyik ki, bu münasibətlərə beynəlxalq idman sahəsində xüsusi (mülki) münasibətlər deyilir; həmin münasibətlər qeyri-hakimiyyət xarakteri daşıyır[1] və **beynəlxalq xüsusi idman hüququ** ilə tənzimlənir.

Beynəlxalq idman münasibətləri hüquqi məkan,hüquqi qüvvədəolma meyarı baxımından, **iki növə** bölünür: universal beynəlxalq idman münasibətləri (məsələn, Dünya çempionatları keçirilən zaman yaranan beynəlxalq idman münasibətləri), regional beynəlxalq idman münasibətləri (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB və s. regionlar üzrə keçirilən idman yarışlarında yaranan münasibətlər).

Beynəlxalq idman münasibətlərini həm də konkret **idman növləri** üzrə keçirilən beynəlxalq yarışlar və oyunlara görə təsnifləşdirmək olar: məsələn,futbol oyunları üzrə beynəlxalq idman münasibətləri,voleybol yarışları üzrə beynəlxalq idman münasibətləri, xokkey oyunları üzrə beynəlxalq idman münasibətləri, şahmat yarışları üzrə beynəlxalq idman münasibətləri və s.

Beynəlxalq idman sahəsində yaranan xüsusi (mülki) idman münasibətləri dedikdə ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri (idmançılar,ictimai idman təşkilatları,idman birlikləri, idman klubları və s.), habelə onlarla xarici dövlət və beynəlxalq idman təşkilatları, federasiyaları arasında yaranan xüsusi (mülki) münasibətlər başa düşülür; bu münasibətlər beynəlxalq xüsusi idman hüququ ilə tənzimləndiyindən onun nizamasalma predmetinə daxil olur.

Beləliklə, beynəlxalq idman hüququna **iki aspektdən** yanaşmaq lazımdır:

– birinci, beynəlxalq publik idman hüququ kimi;

[1] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2, с.78-89.

– ikinci, beynəlxalq xüsusi idman hüququ kimi.[1]

Beynəlxalq **publik idman hüququnun nizamasalma predmetini** dövlətlər arasında, habelə dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında yaranan hakimiyyət xarakterli beynəlxalq idman münasibətləri təşkil edir. O, beynəlxalq idman fəaliyyəti sahəsində dövlətlərarası qarşılıqlı münasibətləri tənzimləyir. Məsələn, beynəlxalq idman yarışlarında idman obyektlərindən istifadə məsələləri ilə əlaqədar dövlətlər arasında yaranan münasibət hakimiyyət xarakterli beynəlxalq publik idman münasibətidir və buna görə də həmin münasibət beynəlxalq publik idman hüququnun nizamasalma predmetini təşkil edir.

Beynəlxalq **xüsusi idman hüququnun nizamasalma predmetini** isə beynəlxalq idman fəaliyyəti prosesinin iştirakçıları (idmançılar, məşqçilər, hakimlər, idman mütəxəssisləri və s.) arasında yaranan qeyri-hakimiyyət xarakterli beynəlxalq xüsusi idman münasibətləri təşkil edir. Qeyri-hakimiyyət xarakterli beynəlxalq xüsusi idman münasibətləri dedikdə isə xarici elementli (beynəlxalq elementli) idman öhdəlikləri başa düşülür ki, bu öhdəliklərdə fiziki şəxslər, özəl hüquqi şəxslər və/və ya dövlət iştirak edir. Məhz bu öhdəliklər beynəlxalq xüsusi idman hüququnun nizamasalma predmetini təşkil edir.

1.2.3.Beynəlxalq idman hüququnun metodu

Hər şeydən əvvəl qeyd etməliyik ki,beynəlxalq hüquq doktrinasına görə, istənilən hüquqi qurumun (sahə, yarımsahə, institut və s.) özünün ayrıca, yəni özünəxas **hüquqi tənzimetmə metodu** (yunanca "methodes" – üsul) olmalıdır. Düzdür, bu şərt həlledici amil olmasa da, hüquqi qurumun ayrı-ayrı tərkib hissələrə bölünməsinin əsas meyarlarından və əlamətlərindən biridir.

---

[1] Qeyd edilənlər barədə ətraflı şəkildə bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.214.

Beynəlxalq idman hüququnun əsas anlayışlarından biri onun **nizamasalma metodu** hesab edilir. Lakin, buna baxmayaraq, müasir dövrün beynəlxalq hüquq elmində o, kifayət dərəcədə öyrənilməmiş və demək olar ki, ümumiyyətlə, ətraflı elmi-əsaslandırılmış kontekstdə tədqiq edilməmişdir.[1] Beynəlxalq idman hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə sıx surətdə bağlıdır; onlar arasında qarşılıqlı dialektik əlaqə mövcuddur. Belə ki, beynəlxalq idman hüququnun nizamasalma metodu onun nizamasalma predmeti ilə şərtlənir; məhz beynəlxalq idman hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq idman münasibətlərinin konkret məzmunu beynəlxalq idman hüququn nizamasalma metodunu müəyyən edir.

Qeyd etmək lazımdır ki, hüquqi tənzimetmə metodu – cəmiyyətdə insanların davranışına təsir göstərmək metodudur və o, ictimai münasibətlərin hüquqi tənzimlənməsinə dair hüquqi vasitə və üsulların məcmusundan ibarətdir. Başqa sözlə desək, **inzibati idarəetmənin metodu** idarəetmənin məqsəd və vəzifələrinə nail olmaq üçün inzibati idarəetmə subyektlərinin inzibati idarəetmə obyektinə göstərdiyi təsir üsuludur.[2] İdman hüququnun metodu, şübhəsiz ki, inzibati hüquq metodundan törəmə olsa da, öz təsiretmə hüdudlarında müəyyən spesifik cəhətlərə malikdir.

Beynəlxalq idman hüququnun **özünəxas metodunun mahiyyəti** onun predmeti ilə şərtlənir, ikinci dərəcəli əhəmiyyət kəsb edir, predmetdən asılı olub, ondan törəyir. Hüququn predmeti obyektiv məzmuna malik olmaqla, prinsip etibarilə, qanunvericinin iradəsindən asılı deyildir. Metod isə, predmetdən fərqli olaraq, subyektiv xarakter daşıyır. Belə ki, nizama salınan münasibətlərin xarakteri və təbiəti bu və ya digər metoddan istifadə olunmasına əsas verir. Metod qanunvericinin iradəsindən mühüm dərəcədə asılıdır. Metod predmetlə sıx surət-

---

[1] Bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.210.

[2] Ətraflı bax: Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.122.

də bağlı və qarşılıqlı əlaqədə olmaqla, birlikdə beynəlxalq idman hüququnun hüquqi qurum kimi ayrılması üçün əsas rol oynayır, beynəlxalq idman hüquq sisteminin qurulmasında və yaranmasında vacib əhəmiyyət kəsb edir.

Beynəlxalq idman hüququnun nizamasalma metodu dedikdə beynəlxalq idman hüququnun tənzimetmə predmetinə daxil olan beynəlxalq idman münasibətlərinə onun göstərdiyi təsir üsulları (vasitələri) başa düşülür.Başqa sözlə desək, idman fəaliyyəti sahəsində şəxslərin üzərinə onların aktiv davranışına dair vəzifələrin qoyulması (pozitiv məcburetmə, sərəncamvermə), sərbəst hərəkət etmələrinə aid hüquqların verilməsi (icazəvermə, səlahiyyətvermə) və hüquqazidd əməllərin törədilməsindən çəkinmək öhdəliyinin qoyulması (qadağanetmə) üzrə ictimai münasibətlərin hüquqi tənzimlənməsinin hüquqi vasitə və üsullarının məcmusu sözügedən hüquqi qurumun nizamasalma metodunu təşkil edir.

İdman hüququnda yuxarıda göstərdiyimiz **hüquqi tənzimetmə üsulları** müxtəlif proporsiya və nisbətdə həyata keçirilməklə yanaşı, əsas tənzimləyici funksiyanı qadağanedici normalar yerinə yetirir. Bu o deməkdir ki, qadağanedici normalar idman fəaliyyəti sahəsində subyektlərin davranışına təsir göstərmək üsulu kimi əsas və başlıca yer tutsa da, eyni zamanda, digər təsir üsulları kimi müəyyən dərəcədə mühafizəedici rol da oynayır.

Qadağan – subyektlərin müəyyən əməllərdən çəkinməsini nəzərdə tutan "passiv" hüquqi vəzifədir və o, müəyyən şəxslərin üzərinə idman-hüquq pozuntularının törədilməsindən çəkinmək vəzifəsi qoyur və buna görə də, idman işi sahəsində şəxslərin (fiziki və hüquqi şəxslərin) davranışını tənzimləyir. Hüquqi qadağanlar idman hüququnun predmetini təşkil edən ictimai münasibətlərin reqlamentləşdirilməsində vacib rol oynayır.

Beləliklə, qeyd etmək lazımdır ki, idman hüququnun özünəməxsus metodunun formalaşmasında mərkəzi yer tutan qadağanedici normalar, daha doğrusu, tənzimləyici-qadağanedici normalar müəyyənedici (sərəncamverici) və icazəverici nor-

malardan təcrid edilmiş halda deyil, onlarla birlikdə fəaliyyət göstərir. Bu hüquqi vasitə və üsulların sistemi və məcmusu bütövlükdə idman hüququnun özünəxas **vahid metodunu** yaradır.

Beynəlxalq-hüquqi tənzimetmənin necə həyata keçirilməsi, tənzimetmə zamanı hansı üsullardan, hüquqi vasitələrdən istifadə edilməsi və lazımi hüquqi nəticənin necə əldə olunması beynəlxalq idman hüququnun nizamasalma metodu anlayışının **mahiyyətini** təşkil edir.

Beynəlxalq idman hüququnun nizamasalma metodunun **növləri** barədə məsələyə nəzər salaq. Belə ki, beynəlxalq idman hüququnun nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq idman münasibətlərinin əhatə dairəsi kifayət qədər genişdir; bu münasibətlər idman sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlığın ayrı-ayrı istiqamətlərində (xarici əlaqələr, olimpiya hərəkatı, iqtisadi, ekologiya, təhlükəsizlik, humanitar, cinayətkarlıqla mübarizə, insan hüquqlarının qorunması və s.) yaranır. Məzmunca müxtəlif olduğuna görə həmin münasibətlərə, təbii ki, hüquqi nizamasalma metodunun müxtəlif növləri tətbiq edilir; həm də ona görə ki, dövlətlərarası beynəlxalq sistem iştirakçıları arasındakı qarşılıqlı münasibətlər mürəkkəb xarakterə malikdir. Odur ki, idman sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək üçün beynəlxalq idman hüququnun nizamasalma metodunu müxtəlif əsaslara görə təsnifləşdirmək olar.

Dövlətlərarası münasibət iştirakçıları üçün **hüquq və vəzifələr müəyyənləşdirmək üsuluna** görə, beynəlxalq publik hüquqda olduğu kimi,[1] beynəlxalq idman hüququnun da nizamasalma metodunun **iki növü** fərqləndirilir:

- saziş metodu;
- adət metodu.

Beynəlxalq müqavilə vasitəsi ilə idman sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün müvafiq hüquq

[1] Beynəlxalq hüququn nizamasalma metodu və onun növləri barədə ətraflı bax:Beynəlxalq (publik) hüquq kursu. Dərslik/E.Ə.Əliyevin ümumi redaktəsi ilə.I cild. Ümumi hissə. Bakı, 2018, s.67-78.

və vəzifələrin müəyyənləşdirilməsi **saziş metodunun** mahiyyətini təşkil edir. Əgər göstərilən sahədə münasibət iştirakçıları üçün hüquq və vəzifələr müəyyənləşdirilərsə, deməli, həmin münasibət hüquqi cəhətdən tənzimlənir. Bu zaman beynəlxalq müqavilə sözügedən münasibət iştirakçıları üçün müvafiq münasibətləri hüquqi tənzimetmənin üsulu (metodu) kimi çıxış edir. Bu, beynəlxalq idman hüququnun nizamasalma metodunun əsas növü sayılır.

Adət metodunun mahiyyəti beynəlxalq-hüquqi adətlər vasitəsi ilə idman sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün hüquq və vəzifələrin müəyyənləşdirilməsindən ibarətdir. Belə ki, nəzəri cəhətdən, beynəlxalq-hüquqi adət beynəlxalq idman hüququnun nizamasalma predmetinə daxil olan münasibətləri tənzimləməkdən ötrü tətbiq edilə bilən üsuldur.

Beynəlxalq idman hüquq normalarında əks olunmasından asılı olaraq, beynəlxalq idman hüququnun nizamasalma metodunun **üç növü** vardır:

- icazə metodu;
- məcburetmə metodu;
- qadağanetmə metodu.

Qeyd edək ki, beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində tənzimetmə üsuluna (metoduna) görə,beynəlxalq publik hüquq normaları müəyyənləşdirdiyi **hüquq və vəzifələrin xarakterindən** asılı olaraq, üç növə bölünür:[1]

- səlahiyyətverici beynəlxalq hüquq normaları;
- məcburedici beynəlxalq hüquq normaları;
- qadağanedici beynəlxalq hüquq normaları.

Bu cür elmi-nəzəri bölgünü eynilə beynəlxalq idman hüququna da tətbiq etmək mümkündür. **Səlahiyyətverici beynəlxalq idman hüquq normaları** dedikdə idman sahəsində dövlətlərara-

[1] Məsələn, bax: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.112; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2009, с.129 və b.

sı beynəlxalq münasibət iştirakçılarına müəyyən fəaliyyəti həyata keçirmək hüququ verən normalar başa düşülür. Məsələn, dövlətlərə qarşılıqlı razılıq əsasında beynəlxalq idman yarışlarının keçirilməsi üçün infrastruktur obyektlərindən istifadə etmək hüququ verən norma səlahiyyətverici beynəlxalq idman hüquq normasıdır. **İcazə metodu** da məhz səlahiyyətverici beynəlxalq idman hüquq normaları vasitəsi ilə tətbiq edilir. Qeyd etməliyik ki, icazə, mahiyyətcə, ictimai münasibətləri tənzimetmə üsullarından (metodlarından) biridir. Belə ki, idman sahəsində beynəlxalq münasibət iştirakçılarına müəyyən fəaliyyəti həyata keçirməyə icazə vermək yolu ilə beynəlxalq idman hüququ həmin münasibətləri tənzimləyir.

Məcburedici beynəlxalq idman hüquq normaları dedikdə müəyyən hərəkətlərin edilməsinə yönəlmiş vəzifələr müəyyənləşdirən hüquq normaları başa düşülür; belə normalar göstərir ki, idman sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçıları necə davranmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün hansı hərəkətləri etməlidirlər. Məsələn, beynəlxalq idman yarışlarının keçirilməsi zamanı təhlükəsizliyin təmin edilməsi və ya digər qəza riski barədə xəbər verilməsi haqqında norma məcburedici beynəlxalq idman hüquq normasıdır. **Məcburetmə metodu** da məhz məcburedici beynəlxalq idman hüquq normaları vasitəsi ilə tətbiq olunur. Təsadüfi deyil ki, məcburetmə, mahiyyətcə, tənzimetmənin metodlarından (üsullarından) biri sayılır.

Qadağanedici beynəlxalq idman hüquq normaları dedikdə idman sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etməyi yasaqlayan normalar başa düşülür. Məsələn, idmançılar tərəfindən dopinq tətbiq edilməsini, irqi, dini, milli, etnik, sosial və digər əlamətlərə görə ayrıseçkiliyə yol verilməsini,başqa dövlətlərin daxili işlərinə qarışmağı, silah daşınmasını, narkotik vasitələrin qəbul olunmasını və sairə halları yasaq edən normalar qadağanedici beynəlxalq idman hüquq normalarına aiddir. **Qadağanetmə metodu** da məhz qadağanedici beynəlxalq idman hüquq normalarının tət-

biq olunmasını nəzərdə tutur. Qadağanetmə də, mahiyyətcə, tənzimetmə üsullarına (metodlarına) daxildir.

Qeyd etmək vacibdir ki, beynəlxalq idman hüququ qadağanetmə, icazə və məcburetmə kimi tənzimetmə metodlarının sistemidir; bu sistem idman sahəsində dövlətlərarası münasibət iştirakçılarının iradə ifadəsi olub, onlar tərəfindən həmin münasibətləri tənzimləmək üçün yaradılmışdır. Həmin metodlar isə, müvafiq olaraq, beynəlxalq hüququn qadağanedici, səlahiyyətverici və məcburedici normalarında əks olunur.[1]

Normativ tənzimetmənin qətiliyi baxımından, beynəlxalq idman hüququnun nizamasalma metodunun iki növü fərqləndirilir:

- imperativ metod;
- dispozitiv metod.

İmperativ tənzimetmə metodu dedikdə beynəlxalq imperativ hüquq normaları vasitəsilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; beynəlxalq imperativ hüquq normaları isə dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün dəqiq və dürüst davranış qaydaları müəyyən edir; onlar bu qaydalardan kənara çıxa bilməzlər. Məsələn, dövlətlər üçün beynəlxalq idman yarışları keçirilən zaman təhlükəsizliyin təmin edilməsi barədə öhdəlik müəyyənləşdirən norma beynəlxalq imperativ hüquq normasıdır.

Dispozitiv tənzimetmə metodu dedikdə beynəlxalq dispozitiv hüquq normalarının köməyi ilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; beynəlxalq dispozitiv hüquq normaları isə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına konkret haldan və yaranmış idman situasiyasından asılı olaraq, istədikləri davranış variantını seçmək, özləri üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirmək imkanı verir.

Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının maraq və məqsədi baxımından, beynəlxalq idman hüququnda iki növ nizamasalma metodu tətbiq edilə bilər:

---

[1] Bax: Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45.

– subordinasiya tənzimetmə metodu;
– əlaqələndirmə (koordinasiya) tənzimetmə metodu.

Subordinasiya tənzimetmə metodu beynəlxalq hüquq üçün tipik və xarakterik olan nizamasalma üsuludur. Ona görə ki, subordinasiya tənzimetmə metodu iyerarxiya qaydasında hakimiyyət xarakterli məcburiyyət-tabeçilik nizamasalma üsuludur; bu üsul tərəflər arasında hüquqi statusa görə tabeçilik və iyerarxiya asılılığı olan münasibətləri tənzimləmək üçün tətbiq edilir (məsələn, Avropa İttifaqı çərçivəsində tətbiq olunur). Beynəlxalq idman hüququ ilə tənzimlənən dövlətlərarası beynəlxalq idman münasibətlərinin,o cümlədən müxtəlif idman növləri üzrə beynəlxalq idman təşkilatlarının iştirakçıları arasında isə nə asılılıq, nə də tabeçilik vardır; həmin münasibətlər hüquqca bərabər olan iştirakçılar arasında yaranır. Buna görə də, beynəlxalq idman hüququ üçün **əlaqələndirmə (koordinasiya) tənzimetmə metodu** xarakterikdir; həm də ona görə ki, beynəlxalq hüquq koordinasiya xarakterli hüquqdur.

Göstərilənlərdən başqa, beynəlxalq idman hüququnda tənzimetmə metodunun **aşağıdakı növlərindən** də istifadə oluna bilər:

– birtərəfli tənzimetmə metodu;
– ikitərəfli tənzimetmə metodu;
– çoxtərəfli tənzimetmə metodu.

Birtərəfli tənzimetmə metodunun mahiyyəti bundan ibarətdir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları birtərəfli qaydada öz üzərlərinə hər hansı beynəlxalq-hüquqi öhdəlik götürürlər. Beynəlxalq hüquq praktikası göstərir ki, bu metodu, əsasən, dövlətlər tətbiq edirlər. Birtərəfli tənzimetmə metodu həm də dövlətlərin birtərəfli aktı formasında tətbiq oluna bilər.[1] Belə aktlar məcburi davranış qaydaları müəyyən edir və buna görə onlar beynəlxalq-hüquqi əhəmiyyətə malik olur.

[1] Daha ətraflı: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.123-128.

İkitərəfli tənzimetmə metodu dövlətlərarası/hökumətlərarası beynəlxalq idman münasibətlərinin iki iştirakçısı arasındakı qarşılıqlı əlaqələrə tətbiq olunur; bu metod beynəlxalq idman hüququnun başlıca tənzimetmə metodu sayılır.

Çoxtərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq idman münasibətlərinin çoxsaylı iştirakçıları arasında qarşılıqlı münasibətlərə tətbiq edilir. Bu növ tənzimetmə metodu, əsasən, beynəlxalq idman təşkilatları (məsələn, BOK, BPK, BOA, ÜADA-WADA və s.), yaxud beynəlxalq idman federasiyaları (BBF, BVF, BHF, BGF və s.), eləcə də qitə və regional idman təşkilatları, yaxud birlikləri (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB və s.) çərçivəsində həyata keçirilir; həmin metod ya universal səviyyədə (universal çoxtərəfli tənzimetmə metodu), ya da regional səviyyədə (regional çoxtərəfli tənzimetmə metodu) tətbiq oluna bilər.

Hansı normaların köməyi ilə nizamlamasından asılı olaraq, beynəlxalq idman hüququnda tənzimetmə metodunun iki növü fərqləndirilir:

- beynəlxalq-hüquqi tənzimetmə metodu;
- siyasi-mənəvi tənzimetmə metodu.

Beynəlxalq-hüquqi tənzimetmə metodu dedikdə beynəlxalq idman hüquq normaları vasitəsilə tətbiq olunan nizamasalma üsulu başa düşülür. Beynəlxalq idman hüququ öz tənzimlədiyi dövlətlərarası idman münasibətlərinə beynəlxalq müqavilə normaları vasitəsilə tətbiq olunan tənzimetmə metodu ilə xüsusilə təsir göstərir. Bununla yanaşı, dövlətlərarası idman münasibətlərinin hüquqi tənzimetmə mexanizmində beynəlxalq-adət hüquq normaları da əhəmiyyətli rol oynayır.

Siyasi-mənəvi tənzimetmə metodu dedikdə beynəlxalq idman hüquq normaları sayılmayan davranış qaydaları vasitəsilə həyata keçirilən nizamasalma üsulu başa düşülür. Beynəlxalq idman hüquq normaları sayılmayan davranış qaydalarına isə, ilk növbədə, siyasi-mənəvi normalar aiddir. Siyasi-mənəvi normalar dedikdə "mülayim hüquq" normaları başa düşülür.

Qeyd etmək lazımdır ki, son zamanlar "mülayim hüquq" kimi konsepsiya inkişaf etmişdir. **"Mülayim hüquq"**[1] dedikdə məcburi hüquqi qüvvəsi olmayan və beynəlxalq müqavilə sayılmayan tövsiyə xarakterli beynəlxalq aktlar (beynəlxalq təşkilat və orqanların qətnamələri, birgə bəyanatlar, konfransların qərarları, rəsmi məlumatlar və s.) başa düşülür. Belə sənədlər beynəlxalq-normativ hüquqi aktlar hesab edilmir; həmin sənədlərdə beynəlxalq hüquq normaları deyil, siyasi-mənəvi normalar ifadə olunur. Buna görə də, onların məcburi hüquqi qüvvəsi yoxdur. Lakin, buna baxmayaraq, "mülayim hüquq" normalarının böyük mənəvi-siyasi əhəmiyyəti və qüvvəsi vardır. Belə ki, həmin normalar məcburi hüquqi qüvvəsi olan beynəlxalq hüquq normaları ilə eyni dərəcədə idman sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına siyasi-mənəvi təsir etmək xüsusiyyətinə malikdir. Digər tərəfdən, "mülayim hüquq" normaları əsasında dövlətlərin idman-mərasim praktikası vasitəsilə **beynəlxalq-adət hüquq normaları** yarana bilər.[2]

"Mülayim hüquq" normalarının, xüsusilə, beynəlxalq idman təşkilatlarının (federasiyalarının) fəaliyyəti üçün vacib əhəmiyyəti vardır; beynəlxalq idman təşkilat və orqanlarının fəaliyyəti sayəsində isə beynəlxalq idman münasibətlərinin geniş dairəsi tənzimlənir."Mülayim hüquq" normaları vasitəsilə həyata keçirilən tənzimetmə metodu **tövsiyə xarakterli nizamasalma** üsuludur; o, siyasi-mənəvi nizamasalma metodu hesab edilir.

Bununla yanaşı, BİH özünəməxsus **xüsusi tənzimetmə metodlarına** malikdir ki, onlar beynəlxalq idman hüququnda tətbiq edilən və yuxarıda adını çəkdiyimiz ümumi metodları ta-

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. I cild. Ümumi hissə. Bakı, 2018, s.76-78.

[2] Shelton D. Normative Hierarchy in International Law // American Journal of International Law. Vol.100, 2006, № 2, p.292; həmçinin URL:http://www.en.m.wikipedia.org (18.08.2021-ci il).

mamlayır. Bu kontekstdə BİH-in xüsusi metodları sırasında aşağıdakıları **fərqləndirə bilərik**:

- beynəlxalq idman təşkilatlarının, o cümlədən universal, regional və milli olimpiya komitələrinin, idman federasiyalarının, ittifaqlarının və inteqrasiya birliklərinin yaradılması, habelə dövlətlər və milli idman təşkilatları tərəfindən müvafiq hakimiyyət səlahiyyətlərinin bu orqanlara verilməsi, eləcə də idarəetmədə monopolizmdən müdafiə olunma ;
- beynəlxalq idman sferasında subyektlərin fəaliyyəti nəticəsində qarşılıqlı maraqlara nail olunmasına təsir göstərilməsinin məqsədəuyğunluğu;
- beynəlxalq idman hərəkatının cəmiyyətin birləşməsinə, sülhün möhkəmləndirilməsinə və beynəlxalq əməkdaşlığa istiqamətlənməsi;
- idmanın spesifik cəhətlərinin – siyasi, iqtisadi, sosial, kommersiya və s., eləcə də tərbiyəvi, elmi-təhsil, informasiya, təşviqat, ictimailəşmə, gedonizm, rekreasiya və reabilitasiya funksiyalarının nəzərə alınması;
- idman sferasında insan hüquq və azadlıqlarının təmin olunması, habelə beynəlxalq idmanda, idman biznesində və idman sənayesində rəqabətin həvəsləndirilməsi;
- düzgün oyun və yarış qaydalarının təmin edilməsi, dopinq tətbiqinə qarşı mübarizə aparılması, idman mübahisələrinin beynəlxalq idman arbitrajı vasitəsilə tənzimlənməsi sisteminin dəstəklənməsi, habelə beynəlxalq idman etikasının ciddi gözlənilməsi və s. xüsusi metodlar.

Bir məqamı da qeyd etməliyik ki, idman fəaliyyəti sferasında düzgün seçilmiş metod (və ya metodlar) daha **effektiv nəticələrə** nail olunmasına imkan yaradır. BİH isə bütövlükdə beynəlxalq idman hərəkatının həyata keçirilməsinin təminolunma metodu kimi çıxış edir.

1.2.4. Beynəlxalq idman hüququnun sistemi və statusu

Beynəlxalq idman hüququnun sistemi beynəlxalq hüquq elmində (doktrinada) az tədqiq olunan və öyrənilən məsələlərdən biridir. Görünür, bu, tədris ədəbiyyatında göstərildiyi kimi, beynəlxalq idman hüququnun hələ ki, təşəkkültapma mərhələsində olması və beynəlxalq hüququn tərkibində formalaşmaqda olan nisbətən **"cavan" struktur hissə** hesab edilməsi ilə bağlıdır.[1] BİH-in sistemi nəinki kifayət dərəcədə tədqiq edilməmiş, həmçinin mübahisə predmeti olan məsələdir. Belə ki, alimlərin bu məsələyə münasibəti birmənalı deyil.

Qeyd etmək lazımdır ki, BİH-in nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq idman münasibətləri yalnız beynəlxalq hüquq normaları ilə tənzimlənir; bu normalar xaotik və qarışıq şəkildə deyil, onlar arasında daxili qarşılıqlı dialektik əlaqə nəzərə alınmaqla ayrı-ayrı hüquqi qurumlar üzrə düzlənirlər ki, bunun da nəticəsində beynəlxalq idman hüququnun tamlığı və bütövlüyü təmin

olunur. Beynəlxalq hüquq normalarının belə düzümü, onların hüquqi tərkib (institut, yarıminstitut, subinstitut və s.) üzrə qruplaşdırılması (bölüşdürülməsi) beynəlxalq idman hüququnun sistemini yaradır.Başqa sözlə, beynəlxalq idman münasibətlərinin tənzimlənməsi prosesində mövcud hüquqi norma, qayda və əsasnamələrdən onların statuslarına görə müvafiq ardıcıllıqla istifadə olunması BİH-in sistemini təşkil edir. BİH-in sistemi həm də onu ifadə edir ki, dövlətlərarası beynəlxalq idman münasibətlərini tənzimləyən beynəlxalq hüquq normaları bir-birinin ardınca müəyyən quruluş üzrə, sistemli şəkildə düzlənir.

Beynəlxalq idman hüququnun sistemi dedikdə dövlətlərarası beynəlxalq idman münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarının öz aralarında qarşılıqlı dialektik əlaqə nə-

[1] Bax: Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М.: Проспект, 2009,с.936; Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.I cild.Ümumi hissə.Bakı,2018,s.65 və b.

zərə alınmaqla, onların institut, yarıminstitut, subinstitut və s. tərkib hissələr üzrə qruplaşdırılması (bölüşdürülməsi) başa düşülür.

BİH-in nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq idman münasibətlərinin eyninövlü olması elə normaların ayrılmasına imkan verir ki, həmin normaları istənilən dövlətlərarası beynəlxalq idman münasibətlərini tənzimləməkdən ötrü tətbiq etmək mümkündür. Belə normaların məcmusu beynəlxalq idman hüququnun ümumi hissəsi sayılır.

Beynəlxalq idman hüququnun ümumi hissəsi dedikdə idman fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərə dair ümumi məsələləri tənzimləyə bilən və ümumi qaydalar müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusu başa düşülür.

BİH-in ümumi hissəsinin özü bir neçə tərkib hissədən (hüquq institutu, yarıminstitut,subinstitut və s.) ibarətdir. Həmin tərkib hissələrə aiddir: ümumi müddəalar, hüquq subyektliyi, mənbələr, prinsiplər və s.

BİH-in ümumi hissəsinə daxil olan normalar onun xüsusi hissəsi üçün ümumi əhəmiyyətə malikdir. Belə ki, xüsusi hissə ilə tənzimlənən ayrı-ayrı, konkret münasibətlər (məsələn, beynəlxalq idman yarışlarının təşkili və həyata keçirilməsi, bu sahədə əqli mülkiyyət hüquqlarının qorunması, əmək, sosial, vergi və digər istiqamətlərdə yaranan münasibətlər) hüquqi cəhətdən nizamlanan zaman həmin normalardan istifadə etmək mümkündür. Bu isə, əlbəttə, beynəlxalq idman qanunvericiliyin həcmini xeyli dərəcədə azaldır, onun praktiki tətbiqini asanlaşdırır, dövlətlərarası beynəlxalq idman münasibətlərin hüquqi cəhətdən eyni cür tənzimlənməsini təmin edir, beynəlxalq idman hüququnun ayrı-ayrı struktur bölmələrində hüquq normalarının təkrarlanmasının qarşısını alır. Bunlar onu deməyə əsas verir ki, beynəlxalq idman hüququnda ümumi hissənin vacib əhəmiyyəti vardır.

BİH-in nizamasalma predmetinə həm də elə münasibətlər daxildir ki, həmin münasibətlər özünəxas əlamətlərlə, spesifik cəhətlərlə xarakterizə olunur. Belə münasibətlər bu səbəbdən

də ümumi deyil, xüsusi (konkret) xarakterli münasibətlər hesab edilir. Buna görə də, BİH-in nizamasalma predmetinə dövlətlərarası beynəlxalq idman münasibətlərinin aşağıdakı növləri daxildir: beynəlxalq olimpiya münasibətləri, beynəlxalq paralimpiya münasibətləri, beynəlxalq peşəkar idman münasibətləri, beynəlxalq əqli mülkiyyət hüquqlarının qorunması üzrə münasibətlər, beynəlxalq vergi münasibətləri və s. Bu münasibətlərdən hər biri, ayrıca olaraq, konkret beynəlxalq hüquq normaları ilə tənzimlənir. Həmin normaların məcmusu beynəlxalq idman hüququnun xüsusi hissəsi adlanır.

Beynəlxalq idman hüququnun xüsusi hissəsi dedikdə onun nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq idman münasibətlərini tənzimləyən konkret növ beynəlxalq hüquq normalarının sistemi və ya məcmusu başa düşülür. BİH-in xüsusi hissəsi onunla tənzimlənən dövlətlərarası beynəlxalq idman münasibətlərinin konkret növlərinə uyğun olaraq, bir neçə struktur hissələrə bölünür. Həmin hüquqi qurumlar BİH-in xüsusi hissəsinin ayrılmaz tərkibləridir.

Qeyd etməliyik ki, göstərdiyimiz hüquqi qurumlar ümumi nizamasalma predmetinə (obyektinə), ümumi məqsəd və prinsiplərə malik olan vahid beynəlxalq hüquq sahəsinin strukturu olan BİH-də tam və bütöv halda birləşir; birləşməklə bərabər, onlar arasında sıx bağlılıq və əlaqə vardır. Başqa sözlə, BİH-in tərkib elementləri bir-biri ilə qırılmaz surətdə bağlıdır.[1]

Beləliklə, BİH-in sistemini təşkil edən beynəlxalq hüquq normaları (məsələn, idman biznesi, idman sənayesi, idman sığortası, idman kommersiya fəaliyyəti, idman sahibkarlıq fəaliyyəti və s. ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normaları) **iqtisadi məzmuna** malik olmaqla onların bir qismi ümumi hissəyə, digər qismi isə xüsusi hissəyə daxildir. Buna görə də, qeyd edə bilərik ki, beynəlxalq hüququn müstəqil sahəsi olan beynəlxalq iqtisadi hüququn tərkibində BİH hü-

[1] Ətraflı bax: İdman sferasında idarəetmənin hüquqi tənzimlənməsi ixtisas kursu üçün Proqram / Tərtib edənlər: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Bakı, "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, 36 s.

quq yarımsahəsi statusuna malikdir və **onun sistemi iki hissəyə** bölünür:

– ümumi hissə;
– xüsusi hissə.

Eyni zamanda, zənn edirik ki, BİH-in sisteminə - həm ümumi hissəyə, həm də xüsusi hissəyə daxil olan hüquqi qurumlar elmi-nəzəri cəhətdən BİH-in institutları, yarıminstitutları və ya subinstitutları adlanır. Lakin, idman hüququ sahəsində çalışan əksər hüquqşünas alimlər tərəfindən bu məsələnin hələlik ətraflı, geniş profildə və qəti şəkildə araşdırılması müşahidə olunmur. Buna görə də, beynəlxalq idman hüququnun sistemini tədqiq etmək və öyrənmək müasir dövrdə beynəlxalq hüquq elminin (doktrinanın) qarşısında duran ən vacib vəzifələrdən biri sayılır.

Beynəlxalq hüquq, beynəlxalq idman hüququ və beynəlxalq xüsusi (mülki) hüquq arasındakı **qarşılıqlı əlaqəyə** diqqət yetirək.

Beynəlxalq hüquq dedikdə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Beynəlxalq hüququn ibarət olduğu hüquq normaları (beynəlxalq hüquq normaları) həm də dövlətlərarası beynəlxalq idman münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir; belə funksiyanı yerinə yetirən beynəlxalq hüquq normalarının məcmusu beynəlxalq idman hüququ adlanır. Bu isə onu göstərir ki, beynəlxalq hüquqla beynəlxalq idman hüququ arasında sıx, qırılmaz əlaqə və bağlılıq mövcuddur. Fəlsəfi planda onlar arasında münasibət **təkcə (xüsusi) və ümumi kateqoriyalar** arasındakı əlaqə kimidir. Belə ki, əgər fəlsəfi nöqteyi-nəzərdən beynəlxalq hüquq ümumidirsə, beynəlxalq idman hüququ təkcədir, xüsusidir.

Fəlsəfi baxımdan, beynəlxalq hüquqla beynəlxalq idman hüququ arasındakı münasibət **tam və hissə** kimi fəlsəfi kateqoriyalar arasındakı əlaqənin eynidir. Belə ki, əgər beynəlxalq hüquq tamdırsa, beynəlxalq idman hüququ tamın, yəni beynəlxalq hüququn bir hissəsidir; hüquqi aspektdən yanaşsaq, BİH,

qeyd etdiyimiz kimi, beynəlxalq hüququn müstəqil sahələrindən biri olan beynəlxalq iqtisadi hüququn yarımsahəsidir.

Beynəlxalq hüquqla beynəlxalq iqtisadi hüquq və beynəlxalq idman hüququ arasında **sıx əlaqənin mövcud olması**, hər şeydən əvvəl, bunda ifadə olunur ki, BİH-in nizamasalma predmetinə daxil olan ictimai münasibətlər – dövlətlərarası beynəlxalq iqtisadi, o cümlədən idman münasibətləri **beynəlxalq hüquq normaları** ilə nizamlanır.Beynəlxalq idman münasibətləri isə, əvvəllərdə qeyd etdiyimiz kimi, öz məzmun etibarilə iqtisadi xarakterə (idman sahəsində biznes, sahibkarlıq fəaliyyəti, kommersiya fəaliyyəti, idman mərc oyunları və s.) malikdir və beynəlxalq iqtisadi münasibətlərin bir növüdür. Hüquq nəzəriyyəsindən məlum olduğu kimi, dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər isə yalnız beynəlxalq hüquq normaları ilə tənzimlənə bilər.[1]

Beynəlxalq hüquqla beynəlxalq iqtisadi hüquq və onun tərkib hissəsi olan beynəlxalq idman hüququ arasında sıx əlaqə, qarşılıqlı ünsiyyət həm də bunda ifadə olunur ki, **beynəlxalq hüququn prinsipləri** beynəlxalq iqtisadi hüquq üçün vacib əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə daxil olan münasibətlər, o cümlədən idman münasibətləri tənzimlənərkən həmin prinsiplər nəzərə alınır.

Beynəlxalq hüquqla beynəlxalq iqtisadi hüquq arasında əlaqənin mövcudluğundan danışarkən nəzərə almalıyıq ki, müasir dövrdə beynəlxalq idman hüququ beynəlxalq iqtisadi hüquq sistemində formalaşmışdır, beynəlxalq iqtisadi hüquq isə, məlum olduğu kimi, beynəlxalq hüququn ayrılmaz müstəqil tərkib hissədir.

Beynəlxalq idman hüququ beynəlxalq iqtisadi hüquq və beynəlxalq xüsusi (mülki) hüquqla da bağlıdır. Onları birləşdirən cəhət, hər şeydən əvvəl, bundan ibarətdir ki, həm bey-

[1] Богуславский М.М. Международное экономическое право. М., 1986, с.29.

nəlxalq iqtisadi hüquq, həm beynəlxalq idman hüququ, həm də beynəlxalq xüsusi hüquq aidiyyəti üzrə beynəlxalq iqtisadi, o cümlədən idman münasibətlərini **tənzimləmək funksiyasını** yerinə yetirir. Onların hər birinin də nizamasalma predmetində **beynəlxalq iqtisadi-idman münasibətləri** vacib yer tutur.

Beynəlxalq iqtisadi hüquqla, o cümlədən beynəlxalq idman hüququ ilə beynəlxalq xüsusi hüquq arasında əlaqə, digər tərəfdən, bunda ifadə olunur ki, həm beynəlxalq iqtisadi hüquqla, həm beynəlxalq idman hüququ ilə, həm də beynəlxalq xüsusi hüquqla tənzimetmənin əsasında beynəlxalq hüququn **eyni prinsipləri** durur.

Bununla yanaşı, onların arasında **fərqlər** də vardır; onlar, hər şeydən əvvəl, özlərinin **nizamasalma predmetinə** görə fərqlənirlər. Belə ki, beynəlxalq iqtisadi hüququn (söhbət həm də beynəlxalq publik idman hüququndan gedir) nizamasalma predmetini dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər təşkil edir; beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq iqtisadi münasibətlər ancaq ya dövlətlər, ya dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar və yaxud da bu təşkilatların özləri arasında yarana bilər. Başqa sözlə, beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə yalnız beynəlxalq hüququn subyektləri (dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar) arasında idman- əməkdaşlıq sahəsində yaranan iqtisadi münasibətlər daxildir.

Bununla belə, müasir Rusiya və Qərb hüquq doktrinasında göstərilir ki, beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə istənilən hüquq subyekti (dövlətlər, beynəlxalq təşkilatlar, fiziki şəxslər, hüquqi şəxslər və s.) arasında yaranan beynəlxalq iqtisadi (təsərrüfat, kommersiya və s.) münasibətlər daxildir.[1] Belə ki, bəzi alimlərə görə, beynəlxalq iqtisadi hüquqla həm dövlətlərarası, həm də qeyri-dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər tənzimlənir. Məsələn, müəlliflərdən

[1] Daha ətraflı: Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.28-29.

M.V.Kuçin, beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə (beynəlxalq iqtisadi münasibətlərə) dövlətlərarası münasibətlərdən başqa aşağıdakı beynəlxalq iqtisadi münasibətləri də aid edir:[1]

- dövlətlərlə xarici dövlətlərin fiziki və hüquqi şəxsləri arasında yaranan beynəlxalq iqtisadi münasibətlər;
- dövlətlərlə beynəlxalq (transmilli) təsərrüfat birlikləri arasında yaranan beynəlxalq iqtisadi münasibətlər;
- müxtəlif dövlətlərin fiziki və hüquqi şəxsləri arasında əmələ gələn beynəlxalq iqtisadi münasibətlər.
- Bu fikri eyni ilə, olduğu kimi A.Q.Boqatıryev də təkrarlayır.[2] Müəllif göstərir ki, beynəlxalq iqtisadi hüquqla həm də aşağıdakı münasibətlər tənzimlənir:
- dövlətlərlə başqa ölkələrin fiziki və hüquqi şəxsləri arasında yaranan beynəlxalq iqtisadi münasibətlər;
- müxtəlif dövlətlərə mənsub olan fiziki və hüquqi şəxslər arasında yaranan beynəlxalq iqtisadi münasibətlər.

Göstərilən müəlliflər tərəfindən beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinin genişləndirilərək, buraya həm də qeyri-dövlətlərarası beynəlxalq iqtisadi münasibətlərin daxil edilməsi, zənnimizcə, həqiqətə uyğun gəlmir və buna görə də bu mülahizələri düzgün olmayan fikir kimi hesab edirik. Belə ki, məlum olduğu kimi, beynəlxalq hüquq dövlətlərarası hüquqdur. Onda, təbii ki, beynəlxalq hüququn müstəqil sahəsi olan beynəlxalq iqtisadi hüquq da iqtisadi sahədə dövlətlərarası hüquq kimi tanınır. Bu isə, sözsüz, qeyri-dövlətlərarası beynəlxalq iqtisadi münasibətlərin beynəlxalq iqtisadi hüququn nizamasalma predmetinə daxil olmasını mümkünsüz edir; həm də ona görə ki, qeyri-dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər hakimiyyət xarakterli olmadıqlarına görə beynəlxalq

[1] Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.687.
[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.493-494.

mülki münasibətlər sayılır;[1] beynəlxalq mülki münasibətlər isə, öz növbəsində, beynəlxalq iqtisadi hüququn deyil, beynəlxalq xüsusi (mülki) hüququn nizamasalma predmetinə aiddir. Təsadüfi deyil ki, beynəlxalq xüsusi hüquq beynəlxalq mülki münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir.[2] Nəzərə almalıyıq ki, bütün beynəlxalq, regional və milli idman qurumları (BOK, AOK, MOK və s.) öz hüquqi statusuna görə ictimai qeyri-hökumət xarakterli təşkilatlardır. Bu səbəbdən də idman fəaliyyəti sahəsində yuxarıda göstərdiyimiz qeyri-hökumət xarakterli subyektlər arasında yaranan beynəlxalq, regional və milli idman münasibətləri beynəlxalq xüsusi idman hüququ ilə tənzimlənir.

Beynəlxalq iqtisadi hüquq beynəlxalq xüsusi hüquqdan nəinki nizamasalma predmetinə (yəni tənzimlədiyi münasibətlərin məzmununa) görə, həmçinin **subyektlərinə** görə fərqlənir. Belə ki, beynəlxalq iqtisadi hüququn subyekti yalnız dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar ola bilər. Buna görə də, ayrı-ayrı ölkələrin fiziki, yaxud hüquqi şəxsləri (özəl firmalar, müəssisələr, korporasiyalar, kompaniyalar, transmilli qurumlar və s.) beynəlxalq iqtisadi hüququn subyekti ola bilməzlər.

Beynəlxalq xüsusi hüququn, həm də beynəlxalq xüsusi idman hüququnun subyektlərinə gəldikdə, qeyd etməliyik ki, buraya həm dövlət, həm beynəlxalq təşkilatlar (hökumətlərarası beynəlxalq təşkilatlar və beynəlxalq qeyri-hökumət təşkilatları), həm fiziki, həm də hüquqi şəxslər daxildir. Dövlət və hökumətlərarası beynəlxalq təşkilat yalnız o halda beynəlxalq

[1] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2, с. 78-89; Мюллерсон Р.А. Коллизионные и отсылочные нормы в регулировании международных отношений // Вестник МГУ. Серия 11. Право, 1983, № 5, с.46; Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.36.

[2] Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s. 9.

xüsusi hüququn və (və ya) beynəlxalq xüsusi idman hüququnun subyekti ola bilər ki, bunların iştirak etdikləri beynəlxalq mülki-idman münasibətlərində qarşı tərəf rolunda ya xarici vətəndaş, ya xarici hüquqi şəxs, ya da beynəlxalq qeyri-hökumət təşkilatı çıxış etsin; əgər bu zaman qarşı tərəf hər hansı dövlətdən və ya hökumətlərarası beynəlxalq təşkilatdan ibarət olarsa, onda dövlət beynəlxalq xüsusi idman hüququnun deyil, beynəlxalq publik idman hüququnun subyekti hesab edilir, çünki həmin münasibət dövlətlərarası münasibətdir. Məsələn, bir qrup dövlət (Azərbaycan Respublikası, Belarus, Qazaxıstan, Rusiya Federasiyası, İran İslam Respublikası və s.) öz aralarında "Beynəlxalq ordu oyunları-2021" idman yarışlarının keçirilməsi barədə beynəlxalq saziş bağlamış və tədbirin açılışı 23.08.2021-ci il tarixdə Moskva şəhərində baş tutmuşdur; bu zaman hər bir dövlət beynəlxalq publik idman hüququnun subyekti sayılır. Əgər dövlət idman tədbirlərinin həyata keçirilməsi üçün xarici kommersiya bankından kredit alarsa və bundan ötrü onunla kredit müqaviləsi bağlayarsa, belə halda o, beynəlxalq xüsusi idman hüququnun subyekti hesab olunur.

Beynəlxalq idman hüququ beynəlxalq xüsusi hüquqdan həm də **məzmununa** görə fərqlənir. Belə ki, məsələn, BİH-in nizamasalma predmetinə daxil olan publik-idman münasibətləri yalnız beynəlxalq idman-hüquq normaları ilə tənzimlənir. Buna görə də, BİH-in məzmunu beynəlxalq idman-hüquq normalarından ibarətdir; başqa sözlə, beynəlxalq publik idman hüququ dövlətlərarası/hökumətlərarası idman münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarının məcmusudur.

Beynəlxalq xüsusi hüquqa gəldikdə isə, qeyd etməliyik ki, onun nizamasalma predmetinə daxil olan beynəlxalq xüsusi (mülki) münasibətlər həm beynəlxalq hüquq, həm də dövlətdaxili (milli) hüquq normaları ilə tənzimlənir. Odur ki, beynəlxalq xüsusi hüququn məzmununa həm beynəlxalq hüquq, həm də dövlətdaxili (milli) hüquq normaları aiddir.

BİH, eyni zamanda, **hüquq sistemində tutduğu yerə** görə beynəlxalq xüsusi hüquqdan fərqlənir. Qeyd etdiyimiz kimi,

BİH beynəlxalq hüquq sistemində müstəqil hüquq sahəsi kimi mövqe tutan beynəlxalq iqtisadi hüququn yarımsahəsidir. Beynəlxalq xüsusi hüquqa gəldkdə, qeyd etməliyik ki, onun hüquq sistemində tutduğu yer hüquq doktrinasında ən çox müzakirə olunan, mübahisəli məsələlərdən biridir. Beynəlxalq xüsusi hüquq elmində bu barədə bir-birindən fərqli dörd müxtəlif fikir irəli sürülür. Bir qrup alim belə hesab edir ki, beynəlxalq xüsusi hüquq beynəlxalq hüquqa aid olub, onun sahəsi – tərkib hissəsidir.[1] Tam əminliklə deyə bilərik ki, bu, dəqiq söylənilməmiş fikirdir. Belə ki, özündə dövlətdaxili (milli) hüquq normalarını birləşdirən beynəlxalq xüsusi hüququ dövlətlərarası hüquq olan beynəlxalq hüquqa birbaşa aid etmək məntiqəuyğun fikir deyildir.

Müəlliflərdən R.A.Müllerson hesab edir ki, beynəlxalq xüsusi hüquq qismən də dövlətdaxili (milli) hüquqa aid olunur; o, buna görə də, beynəlxalq xüsusi hüquqa "yarımsistem halında olan kompleks" kimi baxır.[2] Bu fikirlə də, çətin ki, razılaşmaq mümkün olsun. Ona görə ki, dünyada yalnız iki hüquq sistemi vardır: beynəlxalq hüquq sistemi və dövlətdaxili (milli) hüquq sistemi. Başqa, üçüncü hüquq sistemi mövcud deyil. Bu səbəbdən beynəlxalq xüsusi hüquq ya beynəlxalq hüquqa, ya da dövlətdaxil (milli) hüquqa aid olmalıdır. Məhz bu səbəbdən N.Y.Yerpılyevanın söylədiyi belə bir fikir həqiqətdən uzaqdır ki, guya beynəlxalq xüsusi hüquq müstəqil sistem olduğuna görə, onu nə beynəlxalq hüquqa, nə də dövlətdaxili (milli) hüquqa aid etmək olar.[3]

Alimlərin böyük əksəriyyəti beynəlxalq xüsusi (mülki) hüququ dövlətdaxili (milli) hüquqa aid edirlər.[4] Qeyd etməliyik

---

[1] Məsələn, bax: Фельдман Д.И. О системе международного права // СЕМП. 1977. М., 1979.

[2] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2.

[3] Ерпылева Н.Ю. Международное частное право.УчебникМ.,2004, с.13.

[4] Məsələn, bax: Международное частное право. Учебник / Под ред. Г.К.Дмитриевой. М., 2004, с.39.

ki, bu fikir beynəlxalq xüsusi hüquq elmində geniş yayılaraq, son dərəcə üstünlük təşkil edir. Lakin, beynəlxalq xüsusi hüququn dövlətdaxili (mill) hüquq sistemində hansı yeri tutması məsələsində həmin alimlərin mövqeləri ayrılır. Belə ki, bir qrup müəllif beynəlxalq xüsusi hüquqa müstəqil hüquq sahəsi kimi,[1] digərləri isə mülki hüququn yarımsahəsi kimi baxırlar.[2] Azərbaycanlı alimlərdən E.Ə.Əliyev də beynəlxalq xüsusi hüququn məhz mülki hüququn yarımsahəsi olması ideyasına tərəfdar çıxaraq onu qəbul etmişdir.[3] Bunun üçün kifayət dərəcədə tutarlı arqumentlər vardır. Ən əsas və başlıca arqument isə, bundan ibarətdir ki, beynəlxalq xüsusi hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq mülki münasibətlər mülki hüquqla tənzimlənir.

Beynəlxalq idman hüququ öz **mənbəyinə** və digər **əlamətlərə** görə də beynəlxalq xüsusi hüquqdan fərqlənir.

1.2.5. Beynəlxalq idman hüququnun funksiyaları

Beynəlxalq idman hüququ idman fəaliyyəti sahəsində ictimai münasibətlərin tənzimlənməsi və hüquq pozuntularından mühafizəsi istiqamətində müəyyən funksiyalar yerinə yetirir. **Beynəlxalq idman hüququnun funksiyaları** dedikdə onun beynəlxalq idman münasibətlərinə göstərdiyi təsir istiqamətləri başa düşülür. Beynəlxalq idman hüququ **iki əsas funksiyanı** həyata keçirir:

- tənzimləyici funksiya;
- qoruyucu funksiya.

---

[1] Məsələn, bax: Богуславский М.М. Международное частное право. Учебник. М., 1998, с.27.

[2] Allahverdiyev S.S.Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s.39-40.

[3] Əliyev E.Ə. Beynəlxalq xüsusi (mülki) hüququn əsasları / Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik (yenidən işlənmiş və əlavə olunmuş 6-cı nəşr) kitabında. Bakı, 2009, XVI fəsil, s.382-398.

Beynəlxalq idman hüququ **tənzimləyici funksiyasına** görə, beynəlxalq idman fəaliyyəti sahəsində münasibətləri nizamlayır və onları qaydaya salır. Beynəlxalq idman hüququ beynəlxalq idman fəaliyyəti sahəsində subyektlərin, beynəlxalq idman müqaviləsi iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Bu, onun özünəməxsus tənzimləyici funksiya həyata keçirməsini ifadə edir.

Beynəlxalq idman hüququ **qoruyucu funksiyasına** görə, beynəlxalq idman fəaliyyəti sahəsində münasibətləri hüquq pozuntularından mühafizə edir və bu cür beynəlxalq münasibətlərin normal inkişafını təmin edir. Əgər həmin münasibətlər pozularsa, beynəlxalq idman hüququ onları müdafiə edir və təqsirli şəxslərə qarşı müvafiq məsuliyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur. Beynəlxalq idman hüququ, xüsusən, idmançının məsuliyyət məsələsinə prioritet əhəmiyyət verir. Ona görə ki, o, idman fəaliyyəti prosesini həyata keçirən subyektdir.

1.3. Beynəlxalq idman hüququ elm və tədris fənni kimi

1.3.1. Beynəlxalq idman hüququ elm sahəsi kimi

Hər şeydən əvvəl, hüquq yarımsahəsi kimi (obyektiv mənada) beynəlxalq idman hüququnu **elmi mənada beynəlxalq idman hüququndan**, yəni beynəlxalq idman hüquq elmindən fərqləndirmək lazımdır. Belə ki, hüquq yarımsahəsi kimi beynəlxalq idman hüququ beynəlxalq hüquq normalarından ibarət olub, dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətlərini tənzimləyir. Beynəlxalq idman hüquq elminə gəldikdə isə, qeyd etməliyik ki, o, hüquqi qurum kimi beynəlxalq idman hüququna aid olan məsələləri öyrənir, tədqiq edir. Buna görə də, beynəlxalq idman hüquq elminin öz tədqiqetmə (öyrənmə) predmeti vardır. Beynəlxalq idman hüququ (obyektiv mənada) isə öz spesifik nizamasalma predmetinə malikdir.

Qeyd etmək lazımdır ki, beynəlxalq idman hüquq elmi dövlətlərarası beynəlxalq idman münasibətlərini hüquqi tənzimetmənin qanunauyğunluqlarını öyrənir; bu proses nəticəsində beynəlxalq idman-hüquq məsələləri barədə elmi fikirlər, ideyalar, nəzəriyyələr, konsepsiyalar və s. yaranır, şəraitə müvafiq olaraq daim yenilənir,təkmilləşir və operativ işlək forma alır.

Beynəlxalq idman hüquq elmi dedikdə beynəlxalq idman hüququna aid olan anlayışlar - beynəlxalq idman hüququnun subyektləri, beynəlxalq idman hüququnun prinsipləri, beynəlxalq idman münasibətləri və digər məsələlər barədə fikirlər, ideyalar, nəzəriyyə, postulat, konsepsiya, fərziyyə, şərh və s. mülahizələrin məcmusu başa düşülür. Elm mənasında o, adətən, **beynəlxalq idman hüquq doktrinası** adlanır. Beynəlxalq idman hüquq doktrinası BİH-ə aid olan məsələləri tədqiq edir, öyrənir.

Beynəlxalq idman hüquq elminin nələri tədqiq etməsi, onun öyrənmə predmetinə hansı məsələlərin daxil olması, ümumiyyətlə, hüquq ədəbiyyatı səhifələrində geniş şəkildə işıqlandırılmır. Buna görə də, beynəlxalq idman hüquq elminin **öyrənmə (tədqiqetmə) predmetinin** müəyyənləşdirilməsi aktual vəzifələrdən sayılaraq, xüsusi əhəmiyyət kəsb edir.

Obyekti mənada beynəlxalq idman hüququ müəyyən idman-hüquq normalarından ibarətdir; məhz bu normaların köməyi və vasitəsilə beynəlxalq idman fəaliyyəti sahəsində normativ-hüquqi tənzimetmə həyata keçirilir. Buna görə də, beynəlxalq idman hüquq elminin öyrənmə predmetinə, ilk növbədə, həmin **idman-hüquq normaları** daxildir. Bu normaların məzmununu öyrənməklə beynəlxalq idman hüquq elmi onların hüquqi müstəvidə və praktikada düzgün və adekvat tətbiq olunmasına kömək edir.

Beynəlxalq idman hüquq elminin öyrənmə predmetinə həm də **beynəlxalq idman qanunvericiliyi** – dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətlərini tənzimləyən beynəlxalq-hüquqi aktlar daxildir; o, beynəl-

xalq idman qanunvericiliyini öyrənməklə onun inkişaf və təkmilləşdirilməsi yollarını müəyyən edir.

Beynəlxalq idman hüquq elmi dövlətlərarası **beynəlxalq idman münasibətlərini** də tədqiq edir. Bu, onun öyrənmə predmetinə daxil olan vacib məsələlərdən biridir. Həmin münasibətləri tənzim edən beynəlxalq hüquq

normalarının praktikada tətbiqi, sözsüz, mühüm əhəmiyyət kəsb edən məsələdir. Buna görə də, qeyd etməliyik ki, dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətlərini tənzim edən beynəlxalq hüquq normalarının tətbiq praktikasını öyrənmək beynəlxalq idman hüquq elminin qarşısında duran vacib vəzifələrdən biridir.

Beynəlxalq idman hüquq elminin öyrənmə predmetinə **xarici ölkələrin beynəlxalq idman hüquq elmi də (doktrina)** daxildir. Ona görə ki, sözügedən elm sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin elmi təcrübə, elmi mübadilə və nailiyyətlərin üstünlüklərinin öyrənilməsi Azərbaycan Respublikasında beynəlxalq idman hüquq elminin dinamik inkişaf prosesinə pozitiv təsir göstərən amildir.

1.3.2.Beynəlxalq idman hüququ tədris fənni kimi

Beynəlxalq idman hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, həm də tədris fənni (kursu) mənasında işlədilir. Başqa sözlə, o, beynəlxalq idman hüququ barədə məsələlərin təhsil müəssisələrində tələbələrə öyrədilməsində tədris fənni (kursu) kimi vacib rol oynayır. **Tədris kursu mənasında beynəlxalq idman hüququ** dedikdə tələbələrə və oxucu auditoriyasına BİH barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris fənni başa düşülür; bu mənada o, həm də **beynəlxalq idman hüquq tədris fənni** adlanır.

Qeyd etməliyik ki, beynəlxalq idman hüquq fənni, mahiyyət etibarilə, nə tənzimləyir, nə tədqiq edir, nə də öyrənir; o, yalnız öyrədir. Buna görə də, beynəlxalq idman hüquq fənninin özünəməxsus **öyrətmə predmeti** vardır.


Beynəlxalq idman hüquq fənninin öyrətmə predmetinə, hər şeydən əvvəl, obyektiv mənada beynəlxalq idman hüququnun özü daxildir. Başqa sözlə, beynəlxalq idman hüquq fənni dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarını və onların **tətbiq praktikasını** tələbələrə və oxucu auditoriyasına öyrədir.

Eyni zamanda, beynəlxalq idman hüquq fənninin öyrətmə predmetinə beynəlxalq idman hüquq elmi – doktrina da daxildir.

Beləliklə, beynəlxalq idman hüquq fənninin **vəzifəsi**, əsasən, birinci, beynəlxalq idman hüququnun məzmununu, ikinci, beynəlxalq idman hüquq elmini tələbələrə öyrətməkdən ibarətdir. Buna görə də, beynəlxalq idman hüquq fənni tələbələrə bu iki məsələ haqqında sistemləşdirilmiş informasiya və elmi biliklər verir. Bununla o, beynəlxalq idman münasibətləri sahəsində hüquqi işlər görmək qabiliyyətinə malik olan mütəxəssis hazırlayır. Bu isə, dünyada idman münasibətlərinin qloballaşması dövründə vacib əhəmiyyət kəsb edən aktual məsələdir.

Beynəlxalq idman hüquq fənni həm də tələbələrə, habelə digər aidiyyəti kadrlara öz seçdikləri peşə ixtisası üzrə hüquqi-praktiki əmək bacarığı və iş qabiliyyəti aşılayır və təlqin edir ki, bunun da nəticəsində onlar real həyatda beynəlxalq idman münasibətləri sferasında yaranan ayrı-ayrı hallara beynəlxalq idman qanunvericilik aktlarının normalarını düzgün tətbiq edə bilərlər.

I FƏSİL ÜZRƏ ƏYANİ SXEM



II FƏSİL.
BEYNƏLXALQ İDMAN HÜQUQUNUN SUBYEKTLƏRİ

2.1. Beynəlxalq idman hüququnun subyektləri institutu və anlayışı

2.1.1. Beynəlxalq idman hüququnun subyektləri institutu

Müasir dövrdə formalaşmış hüquqi qurumlardan biri olan beynəlxalq idman hüququnun ümumi hissəsi bir neçə hüquq institutundan ibarətdir; beynəlxalq idman hüququnun subyektləri **həmin institutlardan** biridir. Bu institutun böyük əhəmiyyətə malik olması və vacib rol oynaması şəksizdir. Belə ki, beynəlxalq idman hüququnun nizamasalma predmetinə daxil olan və onunla tənzimlənən dövlətlərarası beynəlxalq idman münasibətləri məhz beynəlxalq idman hüququnun subyektləri arasında əmələ gəlir. Subyektlər (subyekt tərkibi) həmin münasibətlərin yaranmasının, eləcə də onların mövcud olmasının vacib şərti, mütləq və məcburi elementidir. Əgər subyektlər olmazsa, onda, təbii ki, dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətləri də yarana bilməz. Beynəlxalq idman hüququnun subyektləri institutunun özünə gəldikdə isə, qeyd etməliyik ki, bu institut beynəlxalq idman hüququnun subyektləri və onların statusu ilə bağlı məsələləri tənzimləyir.

Beynəlxalq idman hüququnun subyektləri institutu dedikdə dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq idman münasibətləri iştirakçılarının hüquqi statusunu, onların idman fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusu başa düşülür.

Beynəlxalq idman hüququn sözügedən institutu onun ümumi hissəsinin digər institutları, habelə tərkib hissələri ilə sıx əlaqədədir. Onların hamısı birlikdə beynəlxalq idman hüququnu formalaşdırır.

2.1.2.Beynəlxalq idman hüququnun subyektləri anlayışı

Əgər hər hansı subyekt beynəlxalq idman hərəkatı sferasında beynəlxalq idman hüququ ilə tənzimlənən dövlətlərarası, hökumətlərarası və təşkilatlararası idman münasibətlərində iştirak edərsə və bunun üçün lazım olan hüquq və vəzifələrə malik olarsa, o, beynəlxalq idman hüququnun subyekti sayılır. Buna görə də, dövlətlərarası beynəlxalq idman münasibətlərinin müəyyən hüquq və vəzifələrə malik olan iştirakçıları beynəlxalq idman hüququnun subyektləri sırasına aid edilir.

Beynəlxalq idman hüququnun subyektləri dedikdə beynəlxalq idman hərəkatı sferasında mövcud idman münasibətlərinin elə mümkün iştirakçıları başa düşülür ki, bundan ötrü onlar bu sahədə müvafiq hüquq və vəzifələrə malik ola bilirlər.

Bu kontekstdə beynəlxalq idman hərəkatı sferasında fəaliyyət göstərən subyektləri aşağıdakı **kateqoriyalar** üzrə fərqləndirə bilərik:

- beynəlxalq idman hərəkatı sferasında dövlətlər;
- idman hərəkatı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar;
- idman fəaliyyəti sferasında milli təşkilatlar;
- ayrı-ayrı individlər və mütəxəssislər.

Eyni zamanda, idman hərəkatı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar **iki növə** bölünür: ümumi səlahiyyətli beynəlxalq təşkilatlar; xüsusi səlahiyyətli beynəlxalq təşkilatlar.

Bundan başqa, idman hərəkatı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar **üzvlük xarakterinə** görə aşağıdakı kimi təsnif olunur: dövlətlərarası/hökumətlərarası beynəlxalq təşkilatlar; qeyri-dövlətlərarası/qeyri-hökumətlərarası beynəlxalq təşkilatlar.

Həmçinin idman hərəkatı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların **xüsusi növü** dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yaradılan və funksional hüquq subyektliyi qa-

biliyyətinə malik olan beynəlxalq məhkəmələr və beynəlxalq arbitrajlar sayılır.

İdman hərəkatı sahəsində müxtəlif profil üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlar **hüquqi statusuna** görə də fərqləndirilir: universal beynəlxalq təşkilatlar (məsələn, Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq İdman Federasiyaları Assosiasiyası və s.); regional beynəlxalq təşkilatlar (məsələn, Avropa İttifaqı, Avropa Olimpiya Komitəsi, Avropa Milli Olimpiya Komitələri Assosiasiyası və b.).

Beynəlxalq idman hərəkatı sferasında fəaliyyət göstərən zaman **hakimiyyət səlahiyyətinə malik olub-olmaması** baxımından, BİH-in subyektlərini, praktiki olaraq, iki qrupa bölmək mümkündür:

- beynəlxalq publik idman hüququnun subyektləri;
- beynəlxalq xüsusi idman hüququnun subyektləri.

2.2. Beynəlxalq idman hüququ subyektlərinin xarakteristikası

2.2.1. Beynəlxalq publik idman hüququnun subyektləri

Hər şeydən əvvəl, qeyd etməliyik ki, **beynəlxalq publik idman hüququnun subyektləri** rolunda yalnız **dövlətlər və hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatlar** çıxış edə bilər. Ona görə ki, beynəlxalq publik idman hüququ ilə hakimiyyət xarakterli beynəlxalq idman münasibətləri tənzimlənir. Bu münasibətlərdə subyekt qismində iştirak etmək üçün iştirakçının hakimiyyət səlahiyyətinə (funksiyasına) malik olması tələb edilir. **Dövlətlərin** belə səlahiyyəti vardır. O ki qaldı hökumətlərarası/dövlətlərarası beynəlxalq idman təşkilatlarına, qeyd etməliyik ki, onların üzvləri ayrı-ayrı dövlətlərdən ibarətdir. Dövlətlər üzv olmaqla öz hakimiyyət səlahiyyətini qismən, məhdud şəkildə həmin təşkilatlara vermiş olur. Nəticədə **hökumətlərarası/dövlətlərarası beynəlxalq təşkilatlar** məhdud hakimiyyət səlahiyyətinə (funksiyasına) malik olaraq, funksio-

nal (məhdud) beynəlxalq hüquq subyektliyi[1] əldə etməklə hakimiyyət xarakterli beynəlxalq münasibətlərində, o cümlədən beynəlxalq idman münasibətlərində subyekt qismində iştirak edirlər (bundan sonra – hökumətlərarası və dövlətlərarası anlayışlar eynimənalı sinonim anlayış kimi işlədilir).

Hər hansı qurumun (dövlətin, beynəlxalq təşkilatın və s.) beynəlxalq idman hüququnun subyekti kimi tanınması həmin qurumun nə hüquqi status və təbiətindən, nə də onun malik olduğu beynəlxalq idman-hüquq və vəzifələrin həcmindən asılıdır. **Əsas və başlıca şərt** ondan ibarətdir ki, belə qurum beynəlxalq idman hüququ ilə bilavasitə tənzimlənən münasibətlərdə iştirak etmək qabiliyyətinə və imkanına malik olmalıdır.

"Beynəlxalq publik idman hüququnun subyektləri" anlayışı "dövlətlərarası beynəlxalq publik idman-hüquq münasibətlərinin subyektləri" anlayışından fərqlənir. Belə ki, bir az əvvəldə deyildiyi kimi, beynəlxalq publik idman hüququnun subyektləri dedikdə elə qurumlar başa düşülür ki, onların dövlətlərarası beynəlxalq idman münasibətlərində **iştirak etmək qabiliyyəti** vardır. Dövlətlərarası beynəlxalq publik idman-hüquq münasibətlərinin subyektlərinə gəldikdə isə, qeyd etməliyik ki, onlar həmin münasibətlərin **real iştirakçısıdırlar**; beynəlxalq idman hüququnun subyektləri belə münasibətlərin real deyil, **mümkün (potensial)** iştirakçılarıdır. Onların arasında mövcud olan münasibət fəlsəfi planda "imkan" və "gerçəklik" kimi kateqoriyalar (anlayışlar) arasındakı əlaqə kimidir. Əgər "beynəlxalq idman hüququnun subyektləri" imkandırsa, "beynəlxalq dövlətlərarası idman-hüquq münasibətlərinin subyektləri" gerçəklikdir, reallıqdır. Bu baxımdan, müəlliflərdən R.O.Xalfina çox düzgün olaraq, qeyd edir ki, "hüquq münasibətinin iştirakçısı" anlayışı artıq "hüququn subyekti" anlayışıdır.[2]

Bu və ya digər qurumun beynəlxalq idman hüququnun subyekti kimi tanınması üçün onun beynəlxalq hüquq subyektliyi-

[1] Веляминов Г.М.Международное экономическое право и процесс. М., 2004, с.63.

[2] Халфина Р.О. Общее учение о правоотношениях. М., 1974, с. 115.

nə malik olması tələb edilir. Hüquq subyektliyi (o cümlədən beynəlxalq hüquq subyektliyi) şəxslərin özündən ayrılmaz olub, onların ictimai-hüquqi xüsusiyyətidir.[1]

Beynəlxalq hüquq subyektliyi dedikdə subyektlərin beynəlxalq hüquq normaları ilə tənzimlənən münasibətlərdə, yəni dövlətlərarası beynəlxalq hüquq münasibətlərində, o cümlədən beynəlxalq idman-hüquq münasibətlərində iştirak etmək qabiliyyəti (imkanı) başa düşülür. Başqa sözlə, beynəlxalq hüquq subyektliyi beynəlxalq hüququn subyekti olmaq imkanı, beynəlxalq hüquq və vəzifələr daşımaq, onları həyata keçirmək qabiliyyəti deməkdir.

Beynəlxalq hüquq subyektliyi **ümumiləşdirilmiş** anlayışdır. Bu o deməkdir ki, onun strukturu ayrı-ayrı elementlərdən ibarətdir. Belə ki, beynəlxalq hüquq subyektliyi özündə **üç əsas struktur elementi** birləşdirir. Həmin elementlərə aşağıdakılar aiddir:[2]

- beynəlxalq hüquq qabiliyyəti;
- beynəlxalq fəaliyyət qabiliyyəti;
- beynəlxalq delikt qabiliyyəti.

Beynəlxalq hüquq qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektinin beynəlxalq hüquqlara malik olmaq və beynəlxalq vəzifələr daşımaq qabiliyyəti başa düşülür; əgər beynəlxalq hüquq subyekti beynəlxalq hüquq və vəzifələr daşımaq imkanına (burada söhbət hüquqi imkandan gedir) malik olarsa, bu o

---

[1] Алексеев С.С. Общая теория права. Том 2. М., 1982, с.139.

[2] Müəlliflərdən V.M.Şumilov beynəlxalq hüquq subyektliyinin hüquq və fəaliyyət qabiliyyətlərindən ibarət olmasını göstərir (bax: Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.141). Y.E.Karlov beynəlxalq hüquq subyektliyini və beynəlxalq fəaliyyət qabiliyyətini eynimənalı anlayışlar kimi işlədir (bax: Международное право. Учебник / Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.77). M.Velyaminov isə beynəlxalq hüquq subyektliyini beynəlxalq hüquq qabiliyyəti ilə eyniləşdirir (bax: Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.52). Hesab edirik ki, söylənilən bu fikirlər müasir dövrdə hüquqi-məntiqi cəhətdən tam əhatəli təsəvvür yaradmır.

deməkdir ki, həmin subyekt beynəlxalq hüquq qabiliyyətlidir. Təsadüfi deyil ki, «beynəlxalq hüquq subyekti» anlayışı üçün xarakterik olan əsas əlamətlərdən biri onun beynəlxalq hüquq və vəzifələr daşıyıcısı olmaq imkanıdır.[1]

Beynəlxlaq fəaliyyət qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektinin öz müstəqil beynəlxalq hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün beynəlxalq vəzifələr yaratmaq və icra etmək qabiliyyəti başa düşülür.

Beynəlxalq hüquq qabiliyyəti özündə **iki elementi** birləşdirir ki, həmin elementlər bunlardan ibarətdir:

- beynəlxalq hüquqlara malik olmaq qabiliyyəti;
- beynəlxalq vəzifələr daşımaq qabiliyyəti.

Beynəlxalq fəaliyyət qabiliyyətinə gəldikdə isə, qeyd etmək lazımdır ki, o, beynəlxalq hüquq qabiliyyətindən fərqli olaraq, özündə **dörd elementi** birləşdirir:

- öz müstəqil xarakterli beynəlxalq hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək qabiliyyəti;
- əldə etdiyi beynəlxalq hüquqları həyata keçirmək qabiliyyəti;
- öz müstəqil xarakterli beynəlxalq hərəkətləri ilə özü üçün beynəlxalq vəzifələr yaratmaq qabiliyyəti;
- özü üçün yaratdığı beynəlxalq vəzifələri icra etmək qabiliyyəti.

Beynəlxalq hüquq subyektləri beynəlxalq hüquq normaları əsasında öz beynəlxalq fəaliyyət qabiliyyətini realizə edirlər, yəni beynəlxalq hüquqlar əldə edir, özləri üçün beynəlxalq vəzifələr yaradırlar;[2] buna görə də, beynəlxalq hüquq normaları onlar üçün beynəlxalq hüquqlar əldə etmək və beynəlxalq vəzifələr yaratmaq baxımından, əsas hüquqi vasitəsidir; həmin

---

[1] Международное публичное право. Учебник /Отв. ред. К.А.Бекяшев. М., 2009, с.180.

[2] Bəzi müəlliflər belə hesab edirlər ki, hərəkətləri ilə subyektin özü üçün hüquq və vəzifələr yaratmaq imkanı fəaliyyət qabiliyyəti deyil, hüquq qabiliyyətidir (bax: Марченко М.Н. Проблемы теории государства и права. Учебник. М., 2008, с.646). Lakin bu fikrin, zənnimizcə, qüsurlu olmasını diqqətə çəkirik.

normalara əsasən, bu və ya digər qurum beynəlxalq hüququn subyekti kimi tanınır. Odur ki, beynəlxalq hüquq normaları beynəlxalq hüquq subyektlərinin fəaliyyətinin məcburi əsasını təşkil edir. Təsadüfi deyil ki, beynəlxalq hüquq normaları əsasında bu və ya digər qurumun subyekt kimi tanınma xüsusiyyəti beynəlxalq hüquq subyektləri üçün xarakterik olan əsas əlamətlərdən biridir. Başqa sözlə, beynəlxalq hüquq normaları yaratmaq qabiliyyəti beynəlxalq hüquq subyektlərinin əsas xüsusiyyətlərindən biri sayılır.[1]

Beynəlxalq hüquq normaları yaratmağın əsas forması isə beynəlxalq müqavilədir. Əgər subyekt beynəlxalq müqavilə bağlamaq imkanına malik olarsa, deməli, o, beynəlxalq fəaliyyət qabiliyyətlidir. Buna görə də, beynəlxalq müqavilə bağlamaq qabiliyyəti beynəlxalq fəaliyyət qabiliyyətinin məzmununu təşkil edən başlıca ünsür – tərkib hissəsidir.[2]

Beynəlxalq delikt qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektlərinin öz törətdikləri beynəlxalq hüquq pozuntusuna görə beynəlxalq hüquq məsuliyyəti daşımaq qabiliyyəti başa düşülür. Belə qabiliyyətə malik olduğu üçün beynəlxalq hüquq subyektləri başqa subyektlərə vurduğu zərərin əvəzini ödəyirlər.

Əgər bu və ya digər qurum göstərdiyimiz hər üç qabiliyyətə malik olarsa, bu onu ifadə edir ki, həmin qurumun beynəlxalq hüquq subyektliyi vardır. Buna görə də, o, beynəlxalq hüququn subyekti kimi tanınır.

Beynəlxalq hüquq subyektliyinin və onun elementlərinin mahiyyətinə aydınlıq gətirdikdən sonra, təbii ki, belə bir əsaslı sual ortaya çıxır: hansı qurumlar konkret olaraq beynəlxalq hüquq subyektliyinə malikdirlər? Məlum məsələdir ki, bu suala verilən cavabdan asılı olaraq, beynəlxalq hüquq subyektliyinin

---

[1] Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.69.

[2] Müəlliflərdən L.H.Hüseynov beynəlxalq hüquq norması yaratmaq (beynəlxalq müqavilə bağlamaq) qabiliyyətini beynəlxalq hüquq subyektliyinin tərkib hisəsəsi hesab edir (bax: Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.46).

dairəsini dəqiq olaraq müəyyənləşdirə bilərik. Beynəlxalq hüquq subyektliyinin dairəsini müəyyənləşdirmək isə vacib məsələdir. Belə ki, beynəlxalq hüquq nəzəriyyəsində, eləcə də beynəlxalq iqtisadi hüquq və beynəlxalq idman hüquq doktrinasında (elmində) söylənilən fikrə görə, BİH-in subyektləri yalnız beynəlxalq hüququn subyektlərindən ibarətdir; başqa sözlə, beynəlxalq hüquq subyektləri həm də, eyni zamanda, BİH-in subyektləri kimi tanınır.

Bildiyimiz kimi, beynəlxalq hüququn **başlıca funksiyası** dövlətlərarası beynəlxalq münasibətləri tənzimləməkdən ibarətdir;[1] dövlətlərarası beynəlxalq münasibətlər dedikdə suveren dövlətlər arasında yaranan əlaqələr başa düşülür. Belə münasibətlər həm də, eyni zamanda, dövlətlərin təsis etdikləri hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların iştirakı ilə əmələ gələ bilər. Məlum olduğu kimi, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların üzvləri yalnız dövlətlərdən ibarətdir; təbii ki, belə təşkilatlar arasında münasibətlər də dövlətlərarası münasibətlər hesab edilir.

Dövlətlərarası beynəlxalq münasibətlərdə, o cümlədən beynəlxalq idman münasibətlərində isə, subyekt qismində ancaq dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar iştirak edə bilərlər. Buna görə də, beynəlxalq hüququn subyektləri onlardan ibarətdir; çünki yalnız dövlətlərin və hökumətlərarası beynəlxalq təşkilatların beynəlxalq hüquq subyektliyi vardır.

Beynəlxalq hüquq elmində, ənənəvi olaraq, beynəlxalq hüququn subyekti kimi dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar tanınır. Buna uyğun olaraq, həmin subyektlər də məhz beynəlxalq idman hüququnun subyekti hesab edilir. Odur ki, beynəlxalq publik idman hüququnun subyektləri dövlət və beynəlxalq hökumətlərarası təşkilatlardan ibarətdir.

Beləliklə, beynəlxalq publik idman hüququnun iki kateqoriyada subyekti vardır: dövlət və hökumətlərarası beynəlxalq təşkilatlar, o cümlədən beynəlxalq idman təşkilatları və əlavə təhsil müəssisələri.

[1] Лукашук И.И. Международное право. Общая часть. М., 1997, с.1.

Dövlət universal (ümumi) beynəlxalq hüquq subyektliyinə, hökumətlərarası beynəlxalq təşkilatlar isə məhdud (funksional) beynəlxalq hüquq subyektliyinə malikdir.

2.2.2.Beynəlxalq xüsusi idman hüququnun subyektləri

Qeyri-hökumət beynəlxalq təşkilatlara gəldikdə isə, qeyd etmək lazımdır ki, onların üzvləri dövlətlərdən deyil, ayrı-ayrı ölkələrin fərdlərindən və şəxslərindən ibarətdir. Odur ki, belə təşkilatlar hakimiyyət səlahiyyətinə malik olmurlar. Bu xüsusiyyət isə onları beynəlxalq publik idman hüququnun subyekti olmaq imkanından məhrum edir. Bu səbəbdən ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri beynəlxalq publik idman hüququnun deyil, beynəlxalq xüsusi idman hüququnun subyekti hesab edilir.

Beynəlxalq xüsusi idman hüququnun subyektləri dedikdə beynəlxalq idman fəaliyyəti prosesində, yəni xarici elementli idman münasibətlərində (idman öhdəliklərində) iştirak edən şəxslər başa düşülür. Bu münasibətlər qeyri-hakimiyyət xarakterli əlaqələr olduğuna görə onlarda hakimiyyət səlahiyyətli (funksiyalı) subyektlərin iştirak etmələri tələb olunmur. Buna görə də, beynəlxalq xüsusi idman hüququnun subyektləri aşağıdakılardan idarətdir: idmançı, məşqçi, idman hakimi, həkim, idman klubları, milli idman federasiyaları, milli olimpiya komitələri, idman sahəsində təhsil kurs və məktəbləri, bədən tərbiyəsi və idman sektorunda çalışan digər mütəxəssislər və s.

Qeyd etməliyik ki, əgər dövlət beynəlxalq yarışlar zamanı, məsələn, idman obyektinin sahibi rolunda çıxış edərsə, bu halda o, beynəlxalq xüsusi idman hüququnun subyekti kimi tanınır. Dövlət bu zaman beynəlxalq xüsusi idman hüququnun subyekti qismində hakimiyyət səlahiyyətindən (funksiyasından) istifadə etmir və qarşı tərəflə, yəni kontragentlə bərabər hüquqlu sayılır. Belə hallarda dövlət mülki hüquq subyektliyinə malik olur.

Ümumilikdə götürsək, beynəlxalq xüsusi idman hüququnun **subyektləri qismində** aşağıda göstərilənlər çıxış edə bilərlər:

– dövlətlər;
– dövlətlərarası/hökumətlərarası beynəlxalq təşkilatlar;
– beynəlxalq idman təşkilatları və federasiyaları;
– Beynəlxalq Olimpiya Akademiyası;
– Beynəlxalq Hərbi İdman Şurası;
– milli idman təşkilatları, idmançılar və digər subyektlər.

Qeyri-dövlət təsisatlarına (məsələn, fiziki və hüquqi şəxslər, idman federasiyaları, idman-təsərrüfat subyektləri, transmilli idman korporasiya, birlik və klubları, idman sferasında fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatları və s.) gəldikdə, qeyd etməliyik ki, onlar da beynəlxalq xüsusi hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq idman münasibətlərinin iştirakçısı ola bilərlər. Beynəlxalq hüquq subyektliyinə malik olmadıqlarına görə, onların publik idman münasibətlərdə subyekt rolunda iştirak etmələri qeyri-mümkündür; həm də ona görə ki, müvafiq dövlətin hakimiyyəti və yurisdiksiyası altında olduqları üçün qeyri-dövlət təsisatları müstəqil statusa (hüquqi vəziyyətə) malik deyillər. Bu səbəbdən onlar yalnız beynəlxalq xüsusi idman hüququnun subyekti kimi çıxış edə bilərlər.

2.3.Beynəlxalq idman hüququnun əsas subyektləri

2.3.1.Beynəlxalq idman hüququ subyektlərinin növləri

BİH-in subyektləri ayrı-ayrı meyarlar baxımından, müxtəlif növlərə bölünür. **Daimi olmaq** kimi meyar üzrə onlar iki növə bölünür:

– daimi subyektlər;
– müvəqqəti subyektlər.

Həmişəlik fəaliyyət göstərmək üçün yaradılan qurumlara beynəlxalq idman hüququnun **daimi subyektləri** deyilir. Dövlət BİH-in daimi subyekti sayılır; yarandığı andan dövlət beynəlxalq hüquq qabiliyyətli olur və BİH-in subyekti kimi tanınır.

Fəaliyyəti daimi olmayan subyektlər isə beynəlxalq idman hüququnun **müvəqqəti subyektləri** adlanır; onlar, adətən,

müəyyən məqsədə çatmaq üçün yaradılır. Qarşıya qoyulan məqsədə nail olunduqda, bu növ subyektin fəaliyyətinə xitam verilir. Məsələn, futbol üzrə XVI Avropa çempionatının bəzi oyunlarının 2021-ci ilin yayında Bakı şəhərində keçirilməsi zamanı müvəqqəti yaradılmış orqanlar yarışlar başa çatdıqdan sonra ləğv olundu.

Öz hüquqi təbiətindən və mənşəyindən asılı olaraq, beynəlxalq idman hüquq subyektlərinin iki növü fərqləndirilir:

– ilkin subyektlər;
– törəmə subyektlər.

Beynəlxalq idman hüququnun **ilkin subyektləri** dedikdə elə müstəqil və öz-özünü idarə edən qurumlar başa düşülür ki, onlar əmələ gəldiyi (yarandığı) andan beynəlxalq hüquq subyektliyinə malik olurlar; onların beynəlxalq hüquq subyektliyi hər hansı xarici iradədən asılı deyildir və obyektiv xarakter daşıyır. Belə subyektlərin mövcudolma faktının (ipso facto) özü kifayətdir ki, onlar beynəlxalq hüquq və vəzifələrin daşıyıcısı olsunlar.

Qeyd etməliyik ki, BİH-in ilkin subyekti dövlət hesab edilir; ona görə ki, BİH-in ilkin subyektini səciyyələndirən əlamətlərə məhz dövlət uyğun gəlir. Beynəlxalq ilkin hüquq subyektliyi yalnız dövlətlərə məxsusdur.[1]

Beynəlxalq idman hüququnun **törəmə subyektləri** odur ki, onlar dövlətlərin iradəsi ilə yaranır; belə subyektlərin yaranması barədə dövlətlərin qərarı təsis sənədində (aktında) ifadə olunur. BİH-in törəmə subyekti dövlətlər tərəfindən yarandığına görə, onların beynəlxalq hüquq subyektliyi törəmə xarakter daşıyır; dövlətlərin sazişi və razılağa gəlmələri onların beynəlxalq hüquq subyektliyinin mənbəyidir. Hökumətlərarası beynəlxalq idman təşkilatları BİH-in törəmə subyekti sayılır; ona görə ki, onlar dövlətlər tərəfindən yaradılır.

Əsas subyekt olması baxımından, BİH-in subyektləri iki növə bölünür:

– əsas subyektlər;

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.47.

– ikinci dərəcəli subyektlər.

Beynəlxalq idman hüququnun **əsas subyekti** dedikdə siyasi təşkilat olan dövlət başa düşülür. Bu ondan irəli gəlir ki, müasir dövrdə beynəlxalq hüquq ədəbiyyatı səhifələrində əksər müəlliflər, məsələn, İ.İ.Lukaşuk,[1] A.Y.Kapustin,[2] Q.V.İqnatenko,[3] Y.E.Karlov[4] və digərləri[5] dövləti beynəlxalq hüququn əsas subyekti kimi xarakterizə edirlər. Ona görə ki, məhz beynəlxalq hüquqla dövlətlərarası beynəlxalq münasibətlər tənzimlənir. Məlum məsələdir ki, belə münasibətlərdə əsas subyekt qismində yalnız dövlətlər iştirak edə bilər. Beynəlxalq hüququn subyekti kimi dövlətin yaranması obyektiv reallıqdır, təbii-tarixi və ictimai-siyasi prosesin nəticəsidir. Dövlətlər həm də suverenliyə malikdir ki, bu xüsusiyyət onların beynəlxalq münasibətlərdə, o cümlədən beynəlxalq idman münasibətlərində müstəqil və heç kəsdən asılı olmadan iştirak etmələrini şərtləndirir.

Beynəlxalq hüququn əsas subyekti kimi tanınan dövlət, təbii ki, BİH-in də əsas subyekti sayılır. Bu səbəbdən də, o, dövlətlərarası beynəlxalq idman münasibətlərin başlıca iştirakçısı hesab olunur.

Beynəlxalq idman hüququn **ikinci dərəcəli subyekti** dedikdə hökumətlərarası beynəlxalq idman təşkilatları başa düşülür; bu təşkilatlar, öncə qeyd etdiyimiz kimi, dövlətlər tərəfindən yaradılır və onların verdiyi hüquq əsasında beynəlxalq idman münasibətlərdə subyekt qismində iştirak edirlər. Buna görə də, həmin təşkilatlar dövlətlərə münasibətdə ikinci dərəcəli subyekt hesab olunur.

---

[1] Лукашук И.И. Международное право. Общая часть. М., 1997, с.11.

[2] Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.110.

[3] Международное право. Учебник/ Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.73.

[4] Международное право. Учебник / Отв.ред.Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.78.

[5] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.183.

2.3.2. Dövlət beynəlxalq idman hüququnun əsas subyekti kimi

Dünyada beynəlxalq idman sisteminin yaranmasına və inkişafına böyük təsir göstərən subyektlərdən biri də dövlətlərdir. Beynəlxalq idman hərəkatında hər bir dövlət aşağıdakı **hüquqi status** formasına malikdir:

- ümumi beynəlxalq-hüquqi status, yəni bütövlükdə beynəlxalq hüquq və onun əsas prinsipləri ilə bütün dövlətlər üçün eyni dərəcədə müəyyən edilmiş hüquq və vəzifələrin daşıyıcısı olmaq;
- xüsusi beynəlxalq-hüquqi status,yəni dövlətlərin spesifik vəziyyəti,xüsusi müqavilələr və ya üzvlük statutu ilə bağlı müəyyən edilmiş hüquq və vəzifələrin daşıyıcısı olmaq;
- fərdi beynəlxalq-hüquqi status, yəni konkret dövlətin qanunvericiliklə müəyyənləşdirdiyi hüquq və vəzifələrin məcmusuna malik olmaq.

Bütün dövlətlər hüquq subyektliyi əldə etməkdə bərabərdirlər, lakin hüquq subyektliyinin həcmi müxtəlif dövlətlərdə eyni deyildir. Belə ki, dövlətlər idman və bədən tərbiyəsi məsələləri üzrə beynəlxalq müqavilələri de-yure eyni dərəcədə bağlaya bilərlər, ancaq praktiki cəhətdən ayrı-ayrı dövlətlərdə belə müqavilələrin sayı və onlardan irəli gələn hüquq və vəzifələrin həcmi də eyni olmayaraq, de-fakto müxtəlifdir.

Müasir dövrdə dövlətlər arasında həyata keçirilən əməkdaşlıq sayəsində müəyyən idman münasibətləri yaranmışdır. Bunun da nəticəsində müxtəlif ölkələrin idman təşkilatları və idmançıları, habelə beynəlxalq idman fəaliyyəti subyektləri arasında onların qarşılıqlı fəaliyyət göstərilməsinə dair müvafiq **daxili hüquqi rejim** formalaşmışdır. Dövlətlər belə hüquq münasibətləri çərçivəsində daxili qanunvericilikdə baş verən bu və ya digər dəyişikliyi bir-birləri ilə birtərəfli, ikitərəfli, çoxtərəfli və ya universal qaydada razılaşdırırlar və daxili hüquqi rejim

qaydalarının uzlaşdırılması prosesi,yəni hansısa hüquqi unifikasiya baş verir. Məsələn, əgər "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya (2005-ci il) iştirakçısı olan dövlətlər qadağan olunmuş preparatların vahid siyahısını müəyyən edirlərsə, bu o deməkdir ki, beynəlxalq idmanın ən ciddi problemlərindən birinin həllinə yanaşmada dövlətlər hüquqi unifikasiya sərgiləməklə eyni cür hüquqi rejim təsbit edirlər. Burada BİH öxünəməxsus **"çərçivə hüquq"** rolunu oynayır, müxtəlif ölkələrin milli hüquq sistemlərinin uzlaşdırılmış fəaliyyət göstərmələri üçün münbit şərait yaradır, milli idman sistemlərinin effektiv və optimal iş rejimini təmin edir.

BİH-in subyekti kimi dövlətin hüquqi vəziyyəti belə bir xüsusiyyətlə xarakterizə olunur ki, o, **universal beynəlxalq hüquq subyektliyinə** malikdir. Buna görə də, o, dövlətlərarası beynəlxalq idman münasibətlərinin istənilən sahəsində subyekt qismində iştirak edə bilər. BİH-in subyekti kimi dövlətin çıxış etdiyi münasibətlərin dairəsi kifayət qədər geniş və müxtəlifdir. Qeyd etmək lazımdır ki, sosial-iqtisadi inteqrasiya proseslərinin qloballaşması və idman həyatının beynəlmiləlləşməsi şəraitində beynəlxalq idman münasibətlərində dövlətin iştiraketmə formaları da artır. Müasir dövrdə dövlətlər futbol, voleybol, boks, güləş, "Formula-I" , beynəlxalq ordu yarışları və digər beynəlxalq idman tədbirlərində fəal surətdə iştirak edirlər. Bu zaman onlar istənilən beynəlxalq hüquq əldə edə və onları həyata keçirə, habelə özləri üçün istənilən beynəlxalq vəzifələr yarada və bu vəzifələri icra edə bilərlər; beynəlxalq hüquq subyektliyinin universallığı həm də məhz bunda ifadə olunur.

Beynəlxalq idman münasibətlərinin subyekti kimi dövləti səciyyələndirən əsas xarakterik cəhətlərdən biri də ondan ibarətdir ki, o, **suverenliyə** malikdir. Suverenlik (sovereignty) yalnız dövlətə məxsusdur; onun malik olduğu bütün başlıca hüquqların əsasını məhz suverenlik təşkil edir. Dövlətin fərqləndirici siyasi-hüquqi xüsusiyyəti hesab edilən suverenlik **iki formada** təzahür edir ki, onlara aşağıdakılar aiddir:

– daxili suverenlik;
– xarici suverenlik.

Daxili suverenlik dövlətin öz sərhədləri hüdudunda və ərazisində üstünlüyünü, heç kəsə tabe olmamasını ifadə edir. **Xarici suverenlik** isə beynəlxalq münasibətlər və xarici işlər sahəsində dövlətin müstəqil olması (asılı olmaması) deməkdir. Məhz xarici suverenlik dövlətə imkan verir ki, o, başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq idman münasibətlərini öz istəyinə uyğun olaraq müəyyənləşdirsin.

Suverenliyin məhdud mənada təzahür forması **yurisdiksiya** (jurisdiction) adlanır.[1] Bu, mahiyyət etibarı ilə, dövlətin, dövlət orqanlarının öz daxili (milli) hüququna uyğun olaraq işlərə baxıb həll etməsi üzrə səlahiyyətlərinin məcmusudur. Yurisdiksiya anlayışı həm də dövlət məcburetməsi deməkdir və dövlətin, habelə onun orqanlarının səlahiyyətlərinin şamil olunduğu ictimai münasibətlər sferasını ehtiva edir. Bu və ya digər meyardan asılı olaraq, yurisdiksiyanın **bir neçə növü** fərqləndirilir:

– hakimiyyət xarakterinə görə - qanunverici yurisdiksiya , icra yurisdiksiyası və məhkəmə yurisdiksiyası;
– tətbiq sferasına görə – milli yurisdiksiya (ərazi yurisdiksiyası, şəxsi yurisdiksiya), ekstraterritorial (eksterritorial) yurisdiksiya;
– həcm əlamətinə görə – tam yurisdiksiya, məhdud yurisdiksiya.

Praktikada tez-tez belə hallara rast gəlinir ki, idmançı bir ölkənin klubundan digər ölkənin idman klubuna keçərkən hüquqi konflikt (mübahisə, münaqişə, ixtilaf) yaranır. Bu zaman idmançının öz ölkəsinin idman klubu ilə bağladığı kontraktın qüvvədəolma müddəti bitənədək **rəqabət yurisdiksiyası** vəziyyəti yaranır, yəni maraqlı olan iki və daha çox dövlət yaranmış situasiya ilə bağlı işə baxılmasında öz yurisdiksiyalarının həyata keçirilməsində iddialı olurlar və bununla da müəyyən pro-

[1] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.952.

blemlər ortaya çıxır. Belə problemlər, bir qayda olaraq, beynəlxalq idman müqavilələri və (və ya) beynəlxalq idman adətləri əsasında həll edilir.

Universal beynəlxalq hüquq subyektliyi və suverenlik dövlətləri belə bir hüquqla təmin edir ki, onlar özləri **beynəlxalq idman hüquq normaları yaradır və tətbiq edirlər.** Təsadüfi deyil ki, BİH normaları yaratmaq dövlətin beynəlxalq hüquq subyektliyinin xarakterik əlamətlərindən biri sayılır; həmin normalar isə beynəlxalq müqavilələr (sazişlər) bağlamaq yolu yaradılır.[1]

Dövlətlər başqa dövlətlərlə beynəlxalq idman münasibətlərinin istənilən sahəsində həm çoxtərəfli, həm də ikitərəfli **beynəlxalq müqavilə (saziş)** bağlaya bilər ki, bu, onların beynəlxalq idman münasibətlərində iştiraketmə formalarından biridir; beynəlxalq idman fəaliyyəti sahəsində müqavilələr (sazişlər) bağlamaqda yalnız onlar tam beynəlxalq fəaliyyət qabiliyyətinə malikdirlər. Bu məsələdə dövlətlər BİH-in yeganə subyekti hesab edilir. İstənilən beynəlxalq müqavilənin (sazişin) tərəfləri ancaq dövlətlərdən ibarətdir. Düzdür, BİH-in digər subyekti olan hökumətlərarası beynəlxalq idman təşkilatları da beynəlxalq müqavilə bağlaya bilərlər; lakin onların bu sahədə hüquqi imkanı məhdud olub, dövlətlərdə olduğu kimi geniş deyil.

Dövlətlərin beynəlxalq dövlətlərarası idman münasibətlərində iştirakı təkcə bununla, yəni beynəlxalq idman müqavilələri (sazişlər) bağlamaqla bitmir; onlar həm də **beynəlxalq hökumətlərarası idman təşkilatlarında** iştirak edə bilərlər. İdman fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ayrı-ayrı dövlətlərin həm universal (məsələn, BMT, UNESCO, ÜƏMT və s.), həm də regional (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB və s.) düvlətlərarası/hökumətlərarası beynəlxalq təşkilatlarda iştirak etməsi mümkündür.

[1] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.66.

Öz məzmununa görə kifayət dərəcədə müxtəlif olan beynəlxalq dövlətlərarası idman münasibətlərində dövlətlər müstəqil surətdə iştirak etmək hüququna malikdirlər; bu zaman dövlətlər malik olduqları suverenlik hüququ əsasında hərəkət edirlər. Məhz suverenlik kimi siyasi-hüquqi xüsusiyyət dövlətlərə imkan verir ki, onlar BİH-in universal subyekti hesab edilsinlər. Suverenliyin daşıyıcısı olan dövlət öz idman fenomeni funksiyasını reallaşdıraraq ölkəni beynəlxalq idman münasibətlərində təmsil edir, beynəlxalq hüquq və vəzifələri həyata keçirmək qabiliyyətinə malik olur.

2.3.3.Dövlət immuniteti

BİH-in subyekti kimi dövlətin hüquqi vəziyyətini xarakterizə edən əsas cəhətlərdən biri ondan ibarətdir ki, o, immunitetdən istifadə edir; immunitet BİH-in subyekti olan dövlətin hüquqi statusunun vacib elementidir.

Dövlət immuniteti beynəlxalq hüququn əsas prinsiplərindən biri sayılır; hüquq ədəbiyyatında ona həm də beynəlxalq xüsusi (mülki) hüququn prinsipi kimi baxılır.[1] Bununla bərabər, bu prinsipin BİH üçün də mühüm əhəmiyyəti vardır. Belə ki, immunitet prinsipi, ilk növbədə, dövlətlərin iştirak etdikləri beynəlxalq idman münasibətlərdə də təzahür edir, orada öz əksini tapır.

BİH-in subyekti kimi dövlət başqa dövlətlərlə, eləcə də hökumətlərarası beynəlxalq idman təşkilatları ilə beynəlxalq idman münasibətlərinə girir; bu zaman o, beynəlxalq hüququn prinsipinə əsasən immunitetdən istifadə edir. Söhbət dövlət immunitetindən istifadə olunmaqdan gedir.

Dövlət immuniteti dedikdə suveren dövlətin başqa dövlətlərin qanunverici, icra və məhkəmə hakimiyyətinin hər hansı hərəkətinə tabe olmaması başa düşülür. Əgər hansı dövlətə

[1]Богуславский М.М. Иммунитет государства. М., 1962; Богуславский М.М. Иммунитет иностранного государства // СЕМП. 1980. М., 1981, с.228-242.

başqa dövlətin yurisdiksiyası aid və şamil olunmazsa, bu onu ifadə edir ki, həmin dövlət immunitetdən istifadə edir. Dövlətin yurisdiksiyası isə elə bir hakimiyyət deməkdir ki, həmin hakimiyyətin hədləri hüquqla müəyyən olunur. Hüquqsuz yurisdiksiya yoxdur; ilk növbədə, yurisdiksiya hakimiyyətdir; lakin hakimiyyət məcburetməyə əsaslanır ki, bunsuz da hakimiyyət mövcud ola bilməz. Buna görə də, əvvəllərdə qeyd etdiyimiz kimi, yurisdiksiya dövlət məcburetməsi deməkdir ki, bu, müəyyən hüquqi formada həyata keçirilir.[1] İmmunitet də hər hansı bir dövlətə başqa dövlətin məcburetmə imkanının tətbiq edilməməsi deməkdir.

Dövlət immuniteti prinsipi **dövlət suverenliyi** anlayışı ilə sıx surətdə bağlıdır. Belə ki, həmin prinsipin əsasında dövlət suverenliyi durur. Suverenlik hər bir dövlətin ayrılmaz xüsusiyyəti olub, bütün dövlətlərin hüquqi cəhətdən bərabərliyini və onların bir-birindən asılı olmamasını ifadə edir ki, bunun nəticəsində heç bir dövlət öz hakimiyyətini başqa dövlətə münasibətdə həyata keçirə bilməz. Suverenlik hər bir dövlətə imkan verir ki, öz ərazisi daxilində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərini tam və müstəqil surətdə həyata keçirsin. Beynəlxalq münasibətlər sahəsində, o cümlədən beynəlxalq idman münasibətləri sferasında dövlətin xarici dövlətin hakimiyyətinə tabe olmaması, yəni immunitetdən istifadə etməsi məhz suverenlik kimi vacib siyasi-hüquqi xüsusiyyətdən irəli gəlir. Təsadüfi deyil ki, dövlət immuniteti suverenliyin ifadə formalarından biridir.[2]

İmmunitet hüququna təkcə dövlətin özü malik deyildir. İmmunitetdən həm də, eyni zamanda, dövlətin orqanları və mülkiyyəti (əmlakı) istifadə edir. Belə ki, heç bir dövlət öz hakimiyyətini (yurisdiksiyasını) nəinki başqa dövlətə, həmçinin onun orqanlarına və mülkiyyətinə münasibətdə həyata keçirə bilməz.

---

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.159.

[2] Вельяминов Г.М. Международное экономическое право и процесс. М., 2004, с.52.

Dövlət immunitetinin məzmunu kifayət dərəcədə geniş olub, bir neçə elementdən ibarətdir. **Məhkəmə immuniteti** həmin elementlərdən biridir; dövlətə xarici dövlət məhkəməsinin aid olmaması məhkəmə immunitetinin mahiyyətini təşkil edir. Məhkəmə immunitetinə görə, heç bir dövlət xarici dövləti cavabdeh qismində öz məhkəməsinə cəlb edə bilməz.

İddianın qabaqcadan təmin olunmasından immunitet dövlət immunitetinin məzmununu təşkil edən ikinci element sayılır; bu immunitetə görə, dövlət əmlakı iddianın əvvəlcədən təmin olunması məqsədi ilə heç bir məcburi xarakterli tədbirə məruz qala bilməz (məsələn, onun üzərinə həbs qoyula bilməz və s.)

Məhkəmə qərarının məcburi icrasından immunitet dövlət immunitetinin məzmununa daxil olan üçüncü elemetdir. Bu immunitetə görə, xarici məhkəmə (arbitraj) qərarının icra olunması üçün dövlətə və onun mülkiyyətinə münasibətdə hər hansı məcburi tədbir görülə bilməz.

Dövlət immunitetinin məzmununa dördüncü element də daxildir ki, bu elementə **dövlət mülkiyyətinin immuniteti** deyilir; bu immunitetə görə, xarici dövlət ərazisində olan dövlət mülkiyyəti toxunulmazdır.

Dövlət immunitetin məzmununu təşkil edən bütün elementlərin hamısından və ya bəzilərindən imtina edə bilər. Ona görə immunitet dövlətin vəzifəsi deyil, suverenlikdən irəli gələn hüquqdur. Hüquqdan isə istənilən vaxt imtina etmək mümkündür. Əgər imtina olunarsa, bu zaman, məlum məsələdir ki, dövlət immunitetdən istifadə edə bilməz. Lakin, dövlət öz immunitet hüququndan imtina etməsinə qabaqcadan razılıq verməlidir; özü də razılıq yazılı formada və aydın şəkildə ifadə olunmalıdır. Razılığın verilməsi, adətən, beynəlxalq müqavilədə nəzərdə tutulur. Beynəlxalq müqavilədə dövlət immunitetinin məzmununu təşkil edən hansı elementdən (məhkəmə immunitetindən və ya dövlət mülkiyyəti immunitetindən və s.) imtina olunması konkret göstərilməlidir.

Dövlət immunitetinin **üç növü** vardır. Həmin növlərə aşağıdakılar aiddir:

– mütləq immunitet;

– funksional immunitet;
– məhdud immunitet.

Əgər dövlət immunitetin məzmununu təşkil edən bütün elementlərin hamısından istifadə edərsə, belə immunitetə **mütləq immunitet** deyilir.Əgər dövlət hər hansı konkret suveren hakimiyyət funksiyasını (məsələn, idman fəaliyyəti ilə bağlı funksiyanı) yerinə yetirərək, suverenlik daşıyıcısı kimi çıxış edərsə, o, immunitetdən istifadə edir. Bu növ immunitet beynəlxalq hüquq nəzəriyyəsində **funksional immunitet** adlanır. Funksional immunitet bir sıra ölkələrin (ABŞ, Avstraliya, İngiltərə və b.) qanunvericiliyində öz normativ ifadəsini tapmışdır. "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu da immunitetin bu növünü nəzərdə tutur.

Bəzən, dövlətlər öz aralarında beynəxalq müqavilə bağlamaq yolu ilə razılığa gəlirlər ki, onlar, konkret olaraq, hansı hallarda immunitetdən istifadə edə bilməzlər; bağlanmış müqavilə həm ikitərəfli, həm çoxtərəfli (regional), həm də universal xarakterdə ola bilər. Beynəlxalq müqavilədə immunitetdən istifadə etmədikləri konkret halları göstərməklə dövlətlər immuniteti məhdudlaşdırırlar; bu növ immunitetə **məhdud immunitet** deyilir. Məsələn, 1972-ci ildə "Dövlət immuniteti haqqında" Avropa Konvensiyası qəbul olunmuşdur ki, Avropa Şurasına üzvü olan dövlətlər həmin Konvensiyanın iştirakçısıdırlar. Konvensiya belə bir ümumi prinsipdən çıxış edir ki, xarici yurisdiksiyadan dövlətin immunitet hüququ vardır. Bununla bərabər, Konvensiya dövlətlərin immunitetdən istifadə etmədikləri konkret halları da sadalayır; bu, Konvensiyada məhdud immunitet növünün nəzərdə tutulmasını ifadə edir.

2.4. Beynəlxalq təşkilatlar beynəlxalq idman hüququnun subyekti kimi

2.4.1. Beynəlxalq təşkilatların idman sferasında fəaliyyətinin hüquqi tənzimlənməsi

Müasir dövrdə BİH-in subyektləri sırasında beynəlxalq təşkilatlar vacib yer tutur və onların sayı günbəgün artır.Bu cür təşkilatlar beynəlxalq münasibətlərin, o cümlədən beynəlxalq idman münasibətlərinin institusional (təşkilati) əsası kimi əhəmiyyətli rol oynayır. Onlar idman fəaliyyəti sferasında, başlıca olaraq, **dövlətlərarası beynəlxalq əməkdaşlığın universal səviyyədə koordinasiya funksiyasını** - əlaqələndirici funksiyanı yerinə yetirirlər.

Beynəlxalq idman əməkdaşlığının həyata keçirilməsində **Birləşmiş Millətlər Təşkilatı** (BMT) və onun ixtisaslaşdırılmış təsisatları mühüm əhəmiyyət kəsb edir.BMT 1945-ci ildə yaradılmışdır, bu gün dünyanın 192 ölkəsi (o cümlədən 1992-ci ildən Azərbaycan Respublikası) onun üzvüdür.[1] Adıçəkilən ümumi səlahiyyətli beynəlxalq təşkilatın əsas orqanları aşağıdakılardır: BMT-nin Baş Assambleyası, BMT-nin Təhlükəsizlik Şurası, BMT-nin İqtisadi və Sosial Şurası, BMT-nin Qəyyumluq Şurası (hal-hazırda bu orqan ləğv edildiyinə görə mövcud deyildir), BMT-nin Beynəlxalq Məhkəməsi və BMT-nin Katibliyi.

BMT aşağıdakı **məqsədləri** güdür: beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq; millətlər arasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipinə hörmət əsasında dostluq münasibətlərini inkişaf etdirmək, habelə ümumi sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək; iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində beynəlxalq əməkdaşlığı həyata keçirmək; irqinə, cinsinə, dilinə və ya dini

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.115-131.

mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq; bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq.

Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün BMT və onun üzvləri aşağıdakı **prinsiplərə** uyğun hərəkət edirlər: BMT-nin bütün üzvlərinin suveren bərabərliyi prinsipi; öz üzərinə götürülən öhdəlikləri vicdanla yerinə yetirmək vəzifəsi; beynəlxalq mübahisələri dinc vasitələrlə həll etmək prinsipi; beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinmək prinsipi; BMT-yə onun Nizamnaməsinə uyğun etdiyi hərəkətlərdə üzv-dövlətlər tərəfindən hərtərəfli yardım göstərilməsi prinsipi; BMT ona üzv olmayan dövlətlərin BMT Nizamnaməsinə uyğun hərəkət etmələrini təmin edir; istənilən dövlətin daxili yurisdiksiyasına aid edilən məsələlərə BMT-nin qarışmaması prinsipi.

BMT hal-hazırda idman sahəsində dövlətlərin beynəlxalq əməkdaşlığının müxtəlif formalarını bir yerdə **cəmləşdirən mərkəz** rolunu oynayır.BMT müəyyən ixtisaslaşmış təsisatlar sisteminə malikdir, onun strukturunda, o cümlədən aidiyyəti üzrə beynəlxalq bədən tərbiyəsi və idman fəaliyyətinin inkişafı ilə məşğul olan orqanlar – Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilat, Ümumdünya Səhiyyə Təşkilatı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı və s. mövcuddur. İxtisaslaşmış təsisatlarla BMT arasında əlaqə onun əsas məqsəd və prinsiplərinə uyğun həyata keçirilir.

BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (UNESCO) ixtisaslaşmış təsisatlardan biridir. London şəhərində 1945-ci ildə keçirilən konfransda təsis olunmuş UNESCO özünün müvafiq nizamnaməsi əsasında fəaliyyət göstərir. Nizamnamə 1946-cı il noyabrın 4-də qüvvəyə minmişdir; 1946-cı ilin dekabr ayından isə UNESCO BMT-nin ixtisaslaşmış təsisatı kimi tanınır. Təşkilatın tərkibi 192 üzv-dövlətdən ibarət-

dir; Azərbaycan Respublikası da 1992-ci ildən onun iştirakçısı və üzvü olan dövlətlər sırasına daxildir.[1]

UNESCO təhsil, elm və mədəniyyət kimi sahələrdə **beynəlxalq əməkdaşlığı** həyata keçirən ümumi səlahiyyətli universal təsisatdır. Həmin sahələrdə beynəlxalq əməkdaşlığı genişləndirmək, xalq təhsilini və maarifi inkişaf etdirmək, elm və mədəniyyəti yaymaq onun əsas vəzifələri sayılır. Bu məqsədlə təşkilat bir sıra dövlətlə müvafiq sazişlər bağlamışdır. Məsələn, Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə çərçivə Sazişi (2013-cü il) imzalanmışdır.[2]

UNESCO-nun **strukturu** aşağıdakı orqanlardan ibarətdir: Baş Konfrans, İcraiyyə Şurası, Milli komissiyalar, Regional Struktur, Katiblik. **Baş Konfrans** əsas orqanlardan biridir və UNESCO-nun ali orqanı sayılır. Bu orqanda öz nümayəndələri vasitəsi ilə bütün üzv-ölkələr iştirak edirlər. Baş Konfrans təşkilatın siyasətini və ümumi fəaliyyət istiqamətlərini müəyyənləşdirir, onun proqramlarını və büdcəsini təsdiqləyir, təşkilata yeni üzvlər qəbul edir; Nizamnaməyə dəyişiklik etmək, beynəlxalq konvensiyaların layihələrini qəbul etmək və təşkilatın bağladığı beynəlxalq sazişləri təsdiqləmək də onun səlahiyyətinə daxil olan məsələlər sayılır. Bunlar onu göstərir ki, ali orqan kimi Baş Konfrans geniş səlahiyyətlərə malikdir. Baş Konfrans sessiya formasında işləyir, fəaliyyət göstərir. Sessiya isə iki ildə bir dəfə çağrılır. Baş Konfransın işini təşkil etmək üçün Baş Komitə yaradılmışdır. Baş Komitə Baş Konfransın daimi fəaliyyət göstərən orqanı sayılır və ona prezident başçılıq edir.

İcraiyyə Şurası UNESCO-nun digər orqanı sayılır. Bu orqan Baş Konfransın sessiyaları arasındakı dövrdə UNESCO-nun fəaliyyətinə rəhbərlik edir; bu səbəbdən o, əsas rəhbərlik orqanı sayılır. İcraiyyə Şurası Baş Konfransın gündəliyini

[1] URL:http://www.unesco.ru (30.08.2021-ci il).
[2] Bax: AR QT.Bakı, 2013, № 8, maddə 910.

hazırlayır, proqram və büdcənin layihələrinə baxır, təşkilata yeni üzvlər tövsiyə edir və səlahiyyətinə aid olan digər məsələləri həll edir. İcraiyyə Şurası 58 üzvdən ibarətdir; onlar Baş Konfrans tərəfindən dörd il müddətinə seçilir.

UNESCO-nun strukturuna həm də **Katiblik** kimi orqan daxildir; bu orqan UNESCO-nun proqramlarını yerinə yetirir, təşkilatın fəaliyyəti barədə vaxtaşırı məruzələr (hesabatlar) hazırlayır, büdcənin layihəsini tərtib edir; o, inzibati-texniki funksiya yerinə yetirən orqandır. Katiblik baş direktordan və qulluqçulardan ibarətdir. Baş direktor Katibliyə başçılıq edən şəxsdir. O, Baş Konfrans tərəfindən altı il müddətinə təyin olunur. Baş direktor postuna namizəd olan şəxsi isə Baş Konfransa İcraiyyə Şurası təqdim edir. Katibliyin olduğu yer Fransanın Paris şəhəridir.

UNESCO-nun üzvü olan dövlətlərdə **milli komissiyalar** yaradılır. Onlar UNESCO-nun proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edirlər.[1]

BMT-nin digər ixtisaslaşmış təsisatlarından biri də **Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) sayılır. ÜST 1946-cı ildə təsis edilmişdir və ümumi səlahiyyətli regionlararası universal təşkilat kimi müvafiq nizamnamə əsasında beynəlxalq səhiyyə sahəsində fəaliyyət göstərir; onun Nizamnaməsi isə 1946-cı ildə qəbul olunmuş və 7 aprel 1948-ci il tarixdən qüvvəyə minmişdir. Həmin vaxtdan başlayaraq, hər il 7 aprel günü **"Ümumdünya Sağlamlıq Günü"** kimi qeyd olunur. ÜST-nin üzvləri 194 dövlətdən ibarətdir; Azərbaycan Respublikası da 1992-ci ildən onun üzvləri sırasına daxildir.[2]

ÜST-nin **məqsədi** aşağıdakılardan ibarətdir: milli səhiyyə qurumlarının möhkəmləndirilməsi; səhiyyə sahəsində mütəxəssis hazırlanması işinə yardım edilməsi; təhlükəli xəstəliklə-

[1] Ümumiyyətlə, BMT-nin strukturuna daxil olan bu və digər beynəlxalq təşkilatlar barədə ətraflı məlumat almaq üçün bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə. Bakı, 2018, s.115-140.

[2] URL :http://www.aze.AZ (31.08.2021-ci il).

rə qarşı mübarizə aparılması; ana və uşaqların sağlamlığının qorunması; ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması; sosial xarakterli problemlərin, o cümlədən bədən tərbiyəsi və idman tədbirləri vasitəsilə insanların sağlamlığının qorunması və möhkəmləndirilməsi və s.

Təşkilat bir neçə **əsas istiqamətdə** fəaliyyət göstərir: infeksion xəstəliklərlə mübarizə aparmaq, beynəlxalq sanitariya və karantin qaydaları işləyib hazırlamaq, inkişaf etməkdə olan ölkələrə tibbi-texniki yardım etmək, səhiyyə sisteminin öz funksiyasını normal yerinə yetirməsinə kömək göstərmək, sosial xarakterli məsələləri həll etmək.

Təşkilat bir neçə orqandan ibarətdir ki, o, həmin orqanlar vasitəsi ilə öz fəaliyyətini həyata keçirir. Söhbət, ilk növbədə, **Ümumdünya Səhiyyə Assambleyasından** gedir. Assambleya Təşkilatın apardığı siyasət və fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir, onun büdcəsini təsdiqləyir, səhiyyə məsələlərinə dair konvensiya və qaydalar qəbul edir. Bunlar isə imkan verir ki, Assambleya Təşkilatın ali orqanı kimi statusa malik olsun. Bu orqanda bütün üzv-dövlətlərin nümayəndələri təmsil edilmişdir. Assambleya ildə bir dəfə iclas keçirir.

İcraiyyə Komitəsi təşkilatın digər orqanı sayılır və o, adından göründüyü kimi, icra funksiyasını həyata keçirir, yəni icra orqanı hesab edilir. İcraiyyə Komitəsi ümumi iş proqramını hazırlayaraq təsdiq olunmaq üçün Assambleyaya təqdim edir, maliyyə məsələlərinə baxır; o, həmçinin Assambleyanın gündəliyini hazırlayır. İcraiyyə Komitəsi 30 dövləti təmsil edən üzvlərdən ibarətdir ki, həmin üzvlər Assambleya tərəfindən 3 il müddətinə seçilir; onlar ildə iki dəfədən az olmayaraq toplanır və iclas keçirirlər.

Təşkilatın tərkibində **Katiblik** kimi orqan da fəaliyyət göstərir; Katiblik inzibati orqan sayılır. Bu orqan baş direktordan, habelə inzibati və texniki heyətdən ibarətdir. Baş direktor Katibliyə başçılıq və rəhbərlik edən şəxsdir. O, Assambleya tərə-

findən təyin olunur.Təşkilatın Katibliyi İsveçrənin Cenevrə şəhərində yerləşir.[1]

BMT-nin ixtisaslaşmış təsisatlarından digəri **Ümumdünya Əqli Mülkiyyət Təşkilatı** (ÜƏMT) sayılır ki, o, müvafiq konvensiya əsasında təsis olunmuşdur. Həmin konvensiya isə 1967-ci ildə Stokholm şəhərində əqli mülkiyyət üzrə keçirilən konfransda imzalanmış və 1970-ci ildə qüvvəyə minmişdir. 1974-cü ildə ÜƏMT qurumu BMT-nin ümumi səlahiyyətli ixtisaslaşmış universal təsisatı kimi status əldə etmişdir. Təşkilatın tərkibinə 184 üzv-dövlət daxildir; Azərbaycan Respublikası da 1996-cı ildən ÜƏMT-nin iştirakçısıdır.[2]

Təşkilat aşağıdakı **məqsədlərə** xidmət edir: dünyada əqli mülkiyyətin qorunmasına yardım göstərmək (məsələn, idman tədbirlərində əqli mülkiyyət obyektlərinin – firma adı, əmtəə nişanı, xidmət nişanı və s. geniş surətdə reklam olunması praktikası mövcuddur; həmçinin idman yarışlarında yeni nailiyyətlər və rekord göstəricilər əldə etmiş idmançıların əqli mülkiyyət hüquqlarının qorunması müasir dövrdə aktual məsələlərdən biridir); əqli mülkiyyət sahəsində bağlanan beynəlxalq sazişlərin həyata keçirilməsinə kömək etmək; əqli mülkiyyətin qorunması sahəsində fəaliyyət göstərən müxtəlif ittifaqların inzibati idarəçiliyini təmin etmək; əqli mülkiyyət sisteminin təkmilləşdirilməsinə kömək etmək.

ÜƏMT-nin **strukturu** dörd orqandan ibarətdir: Baş Assambleya, Konfrans, Əlaqələndirmə Komitəsi, Beynəlxalq Büro. **Baş Assambleya** təşkilatın ali orqanı sayılır; bu orqan təşkilatın üzvü olan dövlətlərdən ibarətdir. Baş Assambleya təşkilatın siyasətini və ümumi fəaliyyət istiqamətlərini müəyyənləşdirir, büdcəni təsdiqləyir, ÜƏMT-nin baş direktorunu vəzifəyə təyin edir. ÜƏMT-nin baş direktoru əsas inzibati vəzifəli şəxs sayılır.

---

[1] Ətraflı bax: bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.136-137.

[2] URL:http://www.1news.az (01.09.2021-ci il).

Ali orqan funksiyasını həm də **Konfrans** yerinə yetirir. Konfrans ÜƏMT-nin üzvü olan bütün dövlətlərin nümayəndələrindən ibarətdir. Bu orqan əqli mülkiyyətin ümumi maraq doğuran məsələlərini müzakirə edir; müzakirəyə çıxarılan məsələlər barədə tövsiyələr qəbul olunur. ÜƏMT-nin yaradılması haqqında konvensiyaya dəyişiklik edilməsi Konfransın səlahiyyətinə aid olan məsələdir. Konfrans iki ildə bir dəfə çağırılır.

Əlaqələndirmə Komitəsi ümumi məsələləri həll edir; bu orqan Paris və Bern ittifaqlarının fəaliyyətini əlaqələndirir. Paris İttifaqı sənaye mülkiyyətinin, Bern İttifaqı isə ədəbiyyat və incəsənət əsərlərinin qorunması sahəsində yaradılmışdır.

Beynəlxalq Büro ÜƏMT-nin icra orqanı olub, təşkilatın katibliyi sayılır. O, təşkilatın bütün orqanlarına texniki xidmət göstərilməsini təmin edir. Beynəlxalq Büroya baş direktor rəhbərlik edir və o, Baş Assambleya tərəfindən altı ildən az olmayan müddətə seçilir. ÜƏMT-nin olduğu yer (mənzil-qərargah) İsveçrənin Cenevrə şəhəridir.[1]

Beynəlxalq Əmək Təşkilatı da (BƏT) BMT-nin ixtisaslaşmış təsisatlarından biridir. BƏT 1919-cu ildə dövlətlərarası beynəlxalq təşkilat kimi təsis olunmuşdur; onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını müvafiq nizamnamə təşkil edir. BƏT-in Nizamnaməsi 1919-cu ildə qəbul olunmuş və 1946-cı ildə ona yenidən baxılmışdır. BƏT məhz həmin ildən BMT-nin ümumi səlahiyyətli ixtisaslaşmış universal təsisatı kimi status əldə etmişdir; hal-hazırda 1953-cü il redaksiyasında Nizamnamə qüvvədədir. BƏT Cenevrə şəhərində (İsveçrə) yerləşir; üzvləri 174 dövlətdən ibarətdir. Azərbaycan Respublikası 1992-ci ildən BƏT-in üzvüdür.[2] Dövlətlərlə bərabər, BƏT-də həmkarlar ittifaqları (zəhmətkeşlər birliyi) və sahibkarlar da təmsil olunmuşdur.

[1] Ətraflı bax: Əliyev E.Ə.Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2016, s.476-511.

[2] URL:http://www.anl.az (30.08.2021-ci il).

BƏT-in **məqsədləri** bunlardan ibarətdir: sosial ədalətin bərqərar olmasına yardım etmək; əmək şəraitini yaxşılaşdırmaq və zəhmətkeşlərin həyat səviyyəsini yüksəltmək; qadın və yeniyetmələrin əmək hüquqlarını müdafiə etmək; əmək münasibətləri sahəsində insan hüquqlarının müdafiəsinə dair beynəlxalq siyasəti formalaşdırmaq; əmək hüququna (əməkhaqqı, iş vaxtı, əməyin mühafizəsi, o cümlədən idman fəaliyyətinin həyata keçirilməsi sahəsində və s.) dair beynəlxalq konvensiya və tövsiyələr hazırlamaq.

BƏT öz fəaliyyətini üç əsas orqan vasitəsilə həyata keçirir. **Beynəlxalq Əmək Konfransı** həmin orqanlardan biridir; o, BƏT-in ali orqanı sayılır. Təsadüfi deyildir ki, Beynəlxalq Əmək Konfransı həm də Baş Konfrans adlanır. Baş Konfrans ildə bir dəfə çağrılır və büdcəni qəbul edir. O, əmək və həyat şəraitinə dair beynəlxalq standartlar müəyyənləşdirir ki, belə standartların vacib əhəmiyyəti vardır. Baş Konfrans üzv-dövlətlərdən olan ayrı-ayrı nümayəndələrdən ibarətdir (hökumətləri iki, sahibkar və zəhmətkeşləri isə bir nümayəndə təmsil edir). Deməli, Baş Konfransda üçtərəfli nümayəndəlik (hökumət, sahibkarlar və zəhmətkeşlər) mövcuddur.

İnzibati Şura BƏT-in digər əsas orqanı sayılır. Bu orqan BƏT-in siyasətini hazırlayır və onun proqramlarını işləyir; Baş Konfransın gündəliyini hazırlamaq da onun səlahiyyətinə aid olan məsələdir. İnzibati Şura seçkili orqandır. Belə ki, o, seçki yolu ilə formalaşır; seçki isə Baş Konfrans tərəfindən həyata keçirilir. Başqa sözlə, İnzibati Şuranı Baş Konfrans seçir.

İnzibati Şura nəinki komitə və komissiyaların, həmçinin **Beynəlxalq Əmək Bürosunun** işinə rəhbərlik edir. Beynəlxalq Əmək Bürosu isə BƏT-in əsas orqanlarından biri olub, onun **Katibliyi** hesab olunur. BƏT-in Katibliyinə baş direktor rəhbərlik edir. BƏT-in Katibliyi təşkilatın konvensiyalarının yerinə yetirilməsinə nəzarət edir, nəşriyyat-poliqrafiya fəaliyyəti ilə məşğul olur. O, həmçinin Baş Konfrans və İnzibati Şura tərəfindən tapşırılmış işləri görür.[1]

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.134-136.

Beynəlxalq idman fəaliyyəti sahəsində əməkdaşlığın inkişafına yuxarıda göstərilən beynəlxalq təşkilatlarla yanaşı, ümumi xarakterli **regional beynəlxalq təşkilatlar** da əhəmiyyətli təsir göstərir. Bu sırada, ilk növbədə, Avropa Şurasının adı, xüsusilə, çəkilməlidir.

Avropa Şurası (AŞ) regional dövlətlərarası beynəlxalq təşkilatlar sırasına daxildir. O, ən vacib Avropa təşkilatlarından biri sayılır. Avropa Şurası dövlətlərarası siyasi təşkilatdır. Avropa Şurası 1949-cu ildə on Qərbi Avropa dövləti tərəfindən yaradılmışdır; hal-hazırda onun üzvü olan dövlətlərin sayı 47-yə çatmışdır. Avropa Şurasının tərkibinə, təbii ki, Avropa ölkələri (Almaniya, Fransa, Albaniya, Türkiyə, Danimarka, İspaniya, Belçika, Bolqariya, Baltikyanı ölkələr, yəni Litva, Latviya və Estoniya, habelə İtaliya, Avstriya, Polşa, Norveç, İsveçrə və digər dövlətlər) daxildir. Həm də postsovet ölkələri – Rusiya Federasiyası, Ukrayna, Moldova, Gürcüstan və s. Avropa Şurasının üzvüdür; Azərbaycan Respublikası da Avropa Şurasının iştirakçıdır.[1] Bəzi dövlətlər Avropa Şurasında müşahidəçi statusu ilə iştirak edir. Söhbət ABŞ, Kanada, Meksika və Yaponiya kimi dövlətlərdən gedir. Dövlətəbənzər qurum olan Vatikan da müşahidəçi statusu ilə Avropa Şurasının iştirakçısıdır.

Avropa Şurası öz nizamnaməsi əsasında fəaliyyət göstərir. Təsis aktı olan bu nizamnamə 5 may 1949-cu il tarixdə Londonda imzalanmış və həmin il avqustun 3-də qüvvəyə minmişdir. Avropa Şurasının Nizamnaməsində onun **məqsədləri** göstərilmişdir: üzv-dövlətlər arasında onların ümumi sərvəti olan ideal və prinsipləri müdafiə etmək və həyata keçirmək naminə birliyə nail olmaq; üzv-dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək.

Göstərilən məqsədlərə nail olmaq üçün üzv-dövlətlər birbiri ilə **əməkdaşlıq** etməlidirlər; bu isə, beynəlxalq müqavilə

[1] AŞ-nin yaradılması,təşkilati strukturu və əsas orqanları barədə ətraflı bax: Avropa hüququ.Dərslik/E.Ə.Əliyevin ümumi redaktəsi ilə.Bakı, 2019, II bölmə, s.691-712.

bağlanmasını nəzərdə tutur. Avropa Şurası çərçivəsində işlənib hazırlanan və qəbul olunan beynəlxalq müqavilələrin (konvensiya, saziş və protokolların) sayı 200-ə çatmışdır. Avropa Şurası çərçivəsində 170-ə yaxın beynəlxalq konvensiya qəbul edilmişdir ki, insan hüquqlarına, təhsil, səhiyyə, idman, mədəniyyət və s. məsələlərə həsr olunan həmin konvensiyalar Avropa Şurasının, praktiki olaraq, bütün sahələrinə aiddir. Avropa Şurası tərəfindən işlənib hazırlanan beynəlxalq konvensiyalar içərisində "**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının** adını xüsusilə çəkmək lazımdır ki, həmin akt 4 noyabr 1950-ci il tarixdə Romada imzalanmışdır.

Avropa Şurasının **fəaliyyəti** Avropa cəmiyyətində həyatın, demək olar ki, bütün aspektlərini əhatə edir. Avropa Şurasının fəaliyyət sahələrinə aşağıdakılar daxildir: insan hüquqlarının və əsas azadlıqların müdafiəsi; gənclərin problemləri; idman, səhiyyə, təhsil və mədəniyyət məsələləri; hüquqi əməkdaşlıq; tarixi abidələrin qorunması; ətraf mühitin mühafizəsi; kütləvi informasiya vasitələrinin işi; yerli və regional strukturların işi və s.

Avropa Şurası **hüququn aliliyi** kimi vacib prinsipi tanıyır. O, həmçinin üzv-dövlətlərin yurisdiksiyasında olan bütün şəxslərin müvafiq insan hüquqlarından və əsas azadlıqlardan istifadə etməsini təmin edir.

Avropa Şurası öz fəaliyyətini bir neçə orqan vasitəsi ilə həyata keçirir. **Nazirlər Komitəsi** həmin orqanlardan biridir. Rəhbərlik orqanı sayılan Nazirlər Komitəsi icra funksiyasını həyata keçirir. Başqa sözlə, Nazirlər Komitəsi ali icra orqanı sayılır; o, tərkibcə bütün üzv-dövlətlərin xarici işlər nazirlərindən və ya Strasburqda akkreditə olunmuş nümayəndələrdən ibarətdir. Nazirlər Komitəsinin ildə bir dəfə sessiyası keçirilir. Strasburqda akkreditə olunmuş nümayəndələr, adətən, həftədə bir dəfə toplanır. Nazirlər Komitəsinin səlahiyyətinə müxtəlif məsələlər daxildir: siyasi dialoqu həyata keçirmək, Avropa Şurasının digər orqanları ilə qarşılıqlı əlaqə yaratmaq və fəaliyyət göstərmək, yeni üzvlər qəbul etmək, üzv-dövlətlərin öz

üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmələri işini müşahidə etmək, beynəlxalq müqavilə bağlamaq, üzv-dövlətlərə tövsiyələr vermək, büdcəni qəbul etmək və digər məsələlər.

Parlament Assambleyası Avropa Şurasının digər rəhbərlik orqanı sayılır; o, məsləhətçi orqandır. Bu səbəbdən həmin orqanın qanunvericilik səlahiyyəti (funksiyası) yoxdur. Digər tərəfdən, Parlament Assambleyası nümayəndəli orqan hesab edilir. Belə ki, onun tərkibi bütün üzv-dövlətlərin parlamentlərinin nümayəndələrindən ibarətdir; hər bir dövlət ən azı iki nümayəndə ilə təmsil olunur. Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikasının 6, Ukraynanın 12, Türkiyənin 12, Rusiya Federasiyasının 18 və s. Ölkələrin nümayəndəsi vardır.[1] Nümayəndələrin tərkibinə milli parlamentlərdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri daxil olmalıdır; nümayəndələrin sayı 281-dir. AŞPA ildə dörd dəfə plenar iclas keçirir. İclaslara AŞPA-nın sədri rəhbərlik edir. AŞPA-nın sədri isə ildə bir dəfə seçilir. AŞPA baxdığı bu və ya digər məsələ barəsində Nazirlər Komitəsinə tövsiyələr verir. Verilən tövsiyələrdə onun baxılan məsələyə dair iradəsi ifadə olunur. AŞPA həm də ona Nazirlər Komitəsi tərəfindən təqdim olunan sənədlərin (məsələn, beynəlxalq müqavilə və s.) layihəsinə rəy (opinions) verir. Belə rəyin verilməsi yeni üzvlərin namizədləri üçün də tələb olunur. AŞPA Avropa Şurasının baş katibini seçir. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərini seçmək də onun səlahiyyətinə aid olan məsələdir.

Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının rəhbərlik orqanları sırasına daxildir; bəzən, ona Sahəvi Nazirlər Müşavirəsi deyilir. Yerli və regional hakimiyyəti təmsil edən bu orqan məşvərətçi orqan sayılır. Konqres regionların və yerli özünüidarə orqanlarının nümayəndələrindən ibarətdir; hər bir ölkədən olan nümayəndələrin sayı bərabərdir.

Avropa Şurasının Katibliyi inzibati-texniki orqandır. Belə ki, o, inzibati-texniki funksiyanı yerinə yetirir. Katibliyə baş

[1] URL:http://www.ru.m.wikipedia.org (02.09.2021-ci il).

katib rəhbərlik edir. Baş katib tutduğu vəzifəyə beş il müddətinə seçilir. Avropa Şurasının mənzil-qərargahı Fransanın Strasburq şəhərində yerləşir.[1]

Avropa Şurası çərçivəsində həm də Avropa Gənclər Mərkəzi və Sosial İnkişaf Fondu fəaliyyət göstərir. **Avropa Mədəniyyət Konvensiyası** ilə (ETS №18, 19.12.1954-cü il, Paris) **idman** müasir dövrdə AŞ-nin fəaliyyətinin məqsədyönlü siyasəti kontekstində mühüm sahə kimi müəyyən edilmişdir. İdman sahəsində AŞ xətti ilə əməkdaşlıq 1977-ci ildə yaradılmış **İdmanın İnkişafı üzrə Komitə** (İİK – CDDS) çərçivəsində hökumət və qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq fonunda həyata keçirilir. İİK bütövlükdə Avropa Mədəniyyət Konvensiyasında iştirak edən 48 üzv-dövlət arasında idman sferasında beynəlxalq müqavilələrin tətbiqini əlaqələndirir, idmanın inkişafı sahəsində Ümumavropa proqramı üzrə işləri formalaşdırır və koordinasiya edir, eləcə də Avropa rəhbərləri və idman işləri üzrə nazirlərin birgə konfranslarının hazırlanması işləri ilə məşğul olur. İİK illik iclaslarını Strasburqda keçirir. Bu Komitənin təşəbbüsü ilə müxtəlif yaş qrupları üzrə **"Avrofit"** adlı fiziki-test normativlər kompleksi təsdiq edilmişdir (1987-ci ildə - uşaqlar və gənclər üçün, 1995-ci ildə isə – böyüklər üçün). Müasir dövrdə uşaqların, cavanların və gənclərin, eləcə də əlil olan şəxslərin idmana cəlb edilməsi AŞ-nin fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir.

AŞ çərçivəsində 1983-cü ildən hökumət və ictimai idman təşkilatlarının rəhbər xadimləri arasında dialoq üçün forum olan **Avropa İdman Konfransı** (AİK) fəaliyyət göstərir. Bu Konfrans Avropada idman hərəkatının aktual məsələləri üzrə iki ildən bir keçirilir. Konfranslarda, bir qayda olaraq, idman sahəsində əməkdaşlığın ümumi siyasi istiqamətləri nəzərdən keçirilir. Məsələn, XI AİK (1993-cü il) "Dəyişən Avropa – dəyişən idman" mövzusuna, XII AİK (1995-ci il) "Yeni Avropa-

[1] Daha ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.156-159.

da idman vasitəsilə birlik" mövzusuna həsr olunmuşdu; həmçinin XII AİK çərçivəsində dörd işçi qrup fəaliyyət göstərmişdir: "Könüllü idman rəhbərliyi", "Gənclər Avropa idmanında", "İdmanda kommersiyalaşmanın və kütləvi informasiya vasitələrinin təsiri", "Cəmiyyətdə idman vasitəsilə inteqrasiya".

1975-ci ildə İdman işləri üzrə nazirlərin Avropa Konfransında **"İdman hamı üçün" Avropa Xartiyasının** işlənib hazırlanmasına təşəbbüs göstərilmiş və 1976-cı il 24 sentyabr tarixində, rəsmi olaraq, qəbul edilmişdir. Bu da AŞ-nin idman sahəsində qəbul olunmuş ilk sənədi kimi onun fəaliyyətinin əlamətini təzahür etdirən mühüm hadisəyə çevrildi.

AŞ-nin idman sahəsində siyasətinin əsas təməl prinsipləri Avropa ölkələrinin idman rəhbərləri və nazirləri tərəfindən qəbul edilmiş **Avropa İdman Xartiyası** adlı sənəddə müəyyənləşdirilmişdir (15.05.1992-ci il, Rodos ş.,Yunanıstan). Avropa regionunda idman münasibətlərinin effektiv şəkildə nizamlanmasında aşağıdakı sənədlər də vacib rol oynayır: "Cavan insanlar və idman" Avropa Manifesti (18.05.1995-ci il,Lissabon); Avropa Şurasının tövsiyələri - "Gənclər və yüksək nailiyyətlər idmanı" (№1292 - 1996-cı il); "İdman,dözümlülük və təmiz oyun" Bəyannaməsi (11.04.1996-cı il, Amsterdam); İdman Etika Məcəlləsi "Ədalətli Oyun – Qələbəyə Yol" (1995-ci il) və s.

AŞ həmçinin idmanda neqativ və təhlükəli hadisələrə, xüsusən də **dopinq və zorakılığa qarşı mübarizə** tədbirlərində fəal iştirak edir və onun tərəfindən bu istiqamətdə beynəlxalq-hüquqi statusa malik olan bir sıra sənədlər qəbul olunmuşdur: "Dopinq tətbiq edilməsinə qarşı " Avropa Konvensiyası (ETS №135 – 1989-cu il); "İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyası (ETS №120 – 1983-cü il); İdman fəaliyyətində, innovasiya və peşə hazırlığında islahatların inkişaf Proqramı – Ümumavropa SPRİNT Proqramı (1991-ci il) və b.

Beləliklə, AŞ təşkilatının strukturunda bu gün Avropa regionunda idmanın inkişafına aktiv təsir göstərən, hətta digər ölkələrə nümunə çəkilə biləcək **hüquqi mexanizm** formalaşmışdır və bu, artıq reallıqdır.[1]

2.4.2.Beynəlxalq idman təşkilatları və onların təsnifatı

Məlum olduğu kimi, idman fəaliyyəti prosesində yaranan beynəlxalq qarşılıqlı münasibətlərin nizama salınmasında təkcə ümumi səlahiyyətli beynəlxalq təşkilatların fəaliyyəti kifayət etmir. Ona görə də, fəaliyyəti birbaşa beynəlxalq idman sferası ilə əlaqəli olan beynəlxalq ixtisaslaşdırılmış təşkilatlar da bu məqsədə xidmət edir; onlara xüsusi səlahiyyətli beynəlxalq təşkilatlar deyilir və bu statusda beynəlxalq idman təşkilatları çıxış edir.

Beynəlxalq idman təşkilatları dedikdə bədən tərbiyəsi, fiziki tərbiyə və idman sahəsində fəaliyyət göstərən ümumdünya və regional beynəlxalq qeyri-hökumət təşkilatları başa düşülür.[2] Beynəlxalq qeyri-hökumət təşkilatları isə siyasi, iqtisadi, mədəni, elmi-texniki və insan fəaliyyətinin digər sferalarında beynəlxalq əməkdaşlığa dəstək göstərilməsi məqsədilə müxtəlif dövlətlərdən olan milli ictimai təşkilatlar, ittifaqlar, qrup və ayrı-ayrı şəxslər tərəfindən yaradılan birlik formasıdır.[3] İdman birliklərinin qeyri-hökumət təşkilatlarına aid edilməsi üçün əsas BMT Baş Assambleyasının 23.05.1968-ci il tarixli 1296 (XIV) saylı qətnaməsi sayılır. Sözügedən qətnamədə göstərilir ki, "hökumətlərarası saziş əsasında təsis edilməyən istənilən

[1] Avropa regionunda idman münasibətlərinin hüquqi tənzimlənməsi məsələləri barədə ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.297-310.
[2] Bax: Энциклопедический словарь юного спортсмена. М., 1979, с.241.
[3] Ətraflı bax: Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов,С.Э.Кривчикова.М.,2005,с.319-320.

beynəlxalq təşkilat beynəlxalq qeyri-hökumət təşkilatı kimi tanınır".[1]

Beynəlxalq idman təşkilatlarının **təsnifatı** aşağıdakı əsas qruplar üzrə bölünür:

I. Ümumi xarakterli beynəlxalq idman təşkilatları;
II. Ayrı-ayrı idman fəaliyyət növləri üzrə beynəlxalq idman təşkilatları;
III. İdman bilik və fəaliyyət sahələri üzrə beynəlxalq idman təşkilatları;
IV. Mənsubiyyət əlaməti üzrə bəzi beynəlxalq idman təşkilatları.

I. **Ümumi xarakterli beynəlxalq idman təşkilatlarının** fəaliyyəti bədən tərbiyəsi və idmanın hər hansı bir sahəsi ilə məhdudlaşmır, onlar idman fəaliyyətinin bütün sferasını əhatə edir. Müasir beynəlxalq idman sisteminin özəyi, nüvəsi dünyada olimpiya hərəkatının ali rəhbər orqanı olan **Beynəlxalq Olimpiya Komitəsi** (BOK) sayılır.Komitə fransalı idman xadimi Pyer de Kubertenin təşəbbüsü ilə 23.06.1894-cü il tarixdə Paris şəhərində keçirilən I Olimpiya Konqresində yaradılmışdır. BOK öz **hüquqi statusuna** görə, İsveçrə Mülki Məcəlləsinə (maddə 60) müvafiq olaraq, assosiasiya formasında təsis edilmiş və İsveçrə Federal Şurası tərəfindən tanınmış **beynəlxalq qeyri-hökumət təşkilatıdır**; o,daimi fəaliyyət göstərən hüquqi şəxsdir və məramı mənfəət götürməkdən ibarət deyildir.

BOK-un **mənzil-qərargahı** 1915-ci ildən Lozanna şəhərində (İsveçrə) yerləşir. Onun **missiyası** Olimpiya Xartiyasına müvafiq olaraq, olimpiya hərəkatına rəhbərlik etməkdən ibarətdir. Bu Xartiya ilə aşağıdakılar müəyyənləşdirilmişdir: BOK olimpiya hərəkatının ali hakimiyyət orqanıdır; idman növlərinin inkişafı və idman yarışlarının təşkili,keçirilməsi və əlaqələndirilməsi üzrə tədbirlərin təşviq olunması; idmanın insanlara xidmət etməsi istiqamətində səlahiyyətli dövlət hakimiyyət orqanları və ictimai təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;

1 URL: https://translate.academik.ru (04.09.2021-ci il).

Olimpiya oyunlarının mütəmadi olaraq bayram kimi keçirilməsini təmin etmək; dopinqə qarşı mübarizəyə rəhbərlik etmək; idmanın hamı üçün inkişafını həvəsləndirmək,xalqlar arasında dostluğu möhkəmləndirmək və s.

Olimpiya oyunlarının sahibi (proprietaire) kimi BOK bu tədbirlərin təşkil olunmasına görə **cavabdehlik** daşıyır. O, olimpiya oyunlarının keçirilməsini dünyanın bu və ya digər şəhərinə həvalə edir; müstəsna səlahiyyəti daxilində simvol (rəmz), bayraq, deviz (şüar, çağırış), emblem, himn, həmçinin olimpiya alov çırağına və olimpiya məşəlinə malikdir.[1] BOK milli olimpiya komitələrinin və beynəlxalq idman federasiyalarının **tanınması** haqqında qərarlar qəbul edir (məsələn,2004-cü ildə BOK tərəfindən beş kontinental assosiasiyada birləşmiş 202 milli olimpiya komitəsi,qış idman oyun növləri üzrə 7 və yay idman oyunları üzrə 28 beynəlxalq federasiya tanınmışdır).

Olimpiya Xartiyasının müddəaları əsasında BOK tərəfindən qəbul edilmiş qərarlar **qətidir.** Bu qərarların tətbiqi və ya izahı ilə bağlı istənilən mübahisəli məsələ, müstəsna olaraq, BOK-un İcraiyyə Komitəsi, bəzi hallarda isə İdman Arbitraj Məhkəməsi (İAM) tərəfindən həll oluna bilər. Lakin, qeyd etməliyik ki, olimpiya oyunlarının keçirilməsinə toxunan bütün məsələlərin həlli ilə əlaqədar BOK, mahiyyət etibarilə, axırıncı instansiya sayılır; onun səlahiyyətləri o qədər genişdir ki, demək olar ki, bu gün BOK dünya idmanını idarə edən təşkilata çevrilmişdir.

BOK öz **üzvlərini** BİF və MOK-un yüksək vəzifəli şəxslərindən və idmançılardan formalaşdırır; üzvlərin sayı 115 nəfərdir və onlar 8 il müddətinə seçilirlər.18 və daha çox yaşı olan istənilən vətəndaşın BOK üzvlüyünə namizədliyi aşağıdakı şəxslər və ya təşkilatlar tərəfindən müvafiq qaydada irəli sürülə bilər: BOK-un üzvləri, BOK-un idmançılar komissiyası,

[1] Bu barədə ətraflı bax: BOK-un Olimpiya Xartiyasının (14.07.2001-ci il tarixli redaktəsində) müvafiq olaraq,12,13,14,15,16,17 və 18-ci Qaydalarına [URL:https//WWW.olympicuniversity.ru – 05.09.2021-ci il].

olimpiya idman növləri üzrə beynəlxalq federasiyalar, milli olimpiya komitələri.

BOK-un **əsas orqanları** Sessiya, İcraiyyə Komitəsi və Prezident sayılır. BOK-un ali orqanı kimi üzvlərin ümumi yığıncağından ibarət olan **Sessiya** ildə bir dəfədən az olmayaraq, olimpiya ilində isə iki dəfə keçirilir; növbədənkənar Sessiya Prezidentin təşəbbüsü və ya BOK üzvlərinin (üçdə birdən az olmayan sayda) yazılı tələbi ilə çağırılır. Növbəti Sessiyanın keçirilmə yeri BOK tərəfindən, növbədənkənar Sessiyanın yeri isə Prezident tərəfindən müəyyən edilir. Sessiyada olimpiya hərəkatının daha **vacib məsələləri** baxılaraq həll olunur: Olimpiya oyunlarının təşkili üzrə şəhərlərin seçilməsi, Olimpiya Xartiyasına dəyişikliklərin, şərh və təfsirlərin təsdiq edilməsi, Olimpiya oyunlarının proqramına baxılması, büdcə haqqında məsələnin təsdiqi, yeni MOK qurumlarının tanınması, BOK üzvlərinin seçilməsi və s.

Sessiyalararası dövrdə olimpiya hərəkatına rəhbərlik BOK-un **İcraiyyə Komitəsi** tərəfindən həyata keçirilir. İcraiyyə Komitəsi tərkibcə Sessiya iclasında gizli səsvermə yolu ilə səs çoxluğu formasında seçilən aşağıdakı şəxslərdən ibarətdir: Prezident, 4 Vitse-prezident və 10 əlavə üzvlər. Vitse-prezident və əlavə üzvlərin mandat müddəti dörd ildir. İcraiyyə Komitəsi, əsasən, aşağıda göstərilən **funksiyaları** yerinə yetirir:

- Olimpiya Xartiyasına riayət olunmasına nəzarət edir;
- Olimpiya Xartiyasının müddəalarının və Olimpiya oyunlarının təşkili üzrə tədbirlərin lazımi səviyyədə realizasiyası üçün zəruri sənədləri qaydaya salır;
- olimpiya hərəkatı qaydalarının dəyişdirilməsi və onların rəsmi təfsiri üzrə təqdim edilən təkliflərlə bağlı sessiyaya məruzə hazırlayır;
- BOK-un təşkilati strukturunu və onun fəaliyyəti ilə bağlı daxili nizam qaydalarını təsdiq edir;
- Prezidentin təqdimatı əsasında baş direktoru və baş katibi vəzifəyə təyin edit və vəzifədən azad edir;

- BOK-un inzibati fəaliyyəti üzrə son məsuliyyəti öz üzərinə götürür;
- BOK-un maliyyə vəsaitlərinin idarə olunmasına görə cavabdehlik daşıyır və illik maliyyə hesabatı hazırlayır;
- BOK-un sessiyasının gündəliyini hazırlayır;
- BOK-un arxiv sənədlərini saxlayır, mühafizə edir və s. vəzifələri icra edir.

BOK-un əsas orqanlarından biri də **Prezident** sayılır. O, BOK-un üzvlərindən gizli səsvermə yolu ilə səkkizillik müddətə və təkrarən növbəti dördillik müddətə seçilə bilər. Prezident BOK-un bütün tədbirlərinə sədrlik edir və onun daimi nümayəndəsi sayılır, daimi komissiyaları və işçi qrupları yaradır, öz missiyalarını yerinə yetirdikdən sonra onların buraxılması barədə qərar qəbul edir, iştirak etdiyi bütün iclaslarda prioritet hüququna malikdir və Olimpiya Xartiyası ilə müəyyənləşdirilmiş digər vəzifələri icra edir.[1]

BOK-un tərkibində həmçinin aşağıdakı **komissiyalar** fəaliyyət göstərir: Etika üzrə Komissiya, Mədəniyyət üzrə Komissiya, Yeni maliyyə mənbələri üzrə Komissiya, Tibb üzrə Komissiya, İcazə üzrə Komissiya, Olimpiya hərəkatı üzrə Komissiya, "Olimpiya həmrəyliyi" üzrə Komissiya, Oyunlar üzrə Komissiya, Olimpiya oyunlarına hazırlığın öyrənilməsi və qiymətləndirilməsi üzrə Komissiya, Kütləvi informasiya vasitələri üzrə Komissiya (press, radio və teleyayım), Antidopinq nəzarəti üzrə Komissiya, "Hamı üçün idman" üzrə Komissiya, Hüquqi məsələlər üzrə Komissiya və s.

Hal-hazırda BOK-un **rəsmi dili** fransız və ingilis dilləridir; bütün sessiyalarda alman, ispan, rus və ərəb dillərinə sinxron tərcümə təmin edilir.Sənədlərin fransız və ingilis dillərində olan mətnləri arasında fikir ayrılığı olduqda fransız dilində olan mətnə üstünlük verilir (əgər sənədin özündə başqa dəqiq yazılı göstəriş yoxdursa).

[1] Daha ətraflı bax: https://coa.sportedu.ru (20.09.2021-ci il).

BOK hədiyyələr və vərəsəlik üzrə əmlak da qəbul edə bilər, həmçinin öz vəzifələrini yerinə yetirmək üçün **başqa mənbələr** axtara bilər. O, olimpiya oyunlarının keçirilməsi, eləcə də teleyayım hüquqlarından istifadə üzrə müəyyən gəlirlər əldə edir və bu gəlirlərin bir hissəsini BİF, MOK və OOTK qurumlarına ayıra bilər.

Beynəlxalq Paralimpiya Komitəsi də (BPK) ümumi xarakterli beynəlxalq idman təşkilatı sayılır. BPK 1989-cu ildə yaradılmışdır və öz hüquqi statusuna görə beynəlxalq **qeyri-hökumət təşkilatıdır**. Adıçəkilən qurum dünyada paralimpiya hərəkatını idarə edir, paralimpiya oyunlarının keçirilməsi ilə bağlı qərarlar qəbul edir, həm də bir sıra paralimpiya idman növləri üzrə idman federasiyası funksiyasını yerinə yetirir.[1]

Eyni zamanda, qeyd etməliyik ki, sözügedən Komitə əlillər üçün idman federasiyaları, eləcə də müxtəlif ölkələrdə əlillər üçün 42 milli idman təşkilatları tərəfindən **təsis olunmuşdur**. Onun **üzvləri** 161 milli paralimpiya komitəsi, 5 regional təşkilat (dünya miqyası üzrə), 10 beynəlxalq idman federasiyası (idman növləri üzrə) və əlillər üçün 4 beynəlxalq idman təşkilatlarından (əlillik növü üzrə) ibarətdir. Əlilliyi olan şəxslər üçün idman təşkilatlarına Beynəlxalq Əlil Arabası və Amputasiya İdman Federasiyası, Serebral İflicli İnsanlar üçün Beynəlxalq İdman və İstirahət Assosiasiyası, Korlar üçün Beynəlxalq İdman Federasiyası və Əqli Əlillər üçün Beynəlxalq İdman Federasiyası daxildir. BPK-nın **ali orqanı** onun üzvlərinin 2 ildən bir toplanan **Baş Məclisidir**.

Ümumi xarakterli beynəlxalq idman təşkilatları sırasında **İdman Elmi, Bədən Tərbiyəsi və İdman üzrə Beynəlxalq Şura** (İBİBŞ) əhəmiyyətli rol oynayır.Şura 1958-ci ildə Paris şəhərində yaradılmışdır. O, idman elmi, habelə bədən tərbiyəsi və idman sahəsində biliklərin inkişafı və genişləndirilməsi, onların mədəniyyət və təhsil kontekstində praktiki tətbiqi ilə məşğul olan nüfuzlu beynəlxalq təşkilatlardan biridir.

[1] Ətraflı bax: http://www.paralympic.az/search?q= (20.09.2021-ci il).

İBİBŞ-nin **əsas məqsədləri** bunlardır: idman elmi, bədən tərbiyəsi və idman sahəsində beynəlxalq hökumət və qeyri-hökumət, eləcə də milli təşkilatların fəaliyyətinin əlaqələndirilməsi; dünyada bədən tərbiyəsi və idmanın elmi-metodiki əsaslarının inkişaf etdirilməsi və s.

Hal-hazırda İBİBŞ-nin **tərkibində** dünyanın 60 ölkəsindən olan, beynəlxalq və milli idman təşkilatlarını, elm və təhsil müəssisələrini, həmçinin ayrı-ayrı görkəmli xadimləri təmsil edən 200-dən çox üzv vardır. Şura BOK, UNESCO, ÜST və digər beynəlxalq təşkilatlarla **əməkdaşlıq** edir.[1] O, öz fəaliyyətini beynəlxalq təşkilat statusuna (xüsusən də idman informasiyası, idman və istirahət, idman elmi, tibb, sosiologiya, psixologiya, biomexanika, pedaqoji və s. ixtisaslar üzrə) malik olan komitə və işçi qruplar vasitəsilə həyata keçirir. İBİBŞ-nin **əsas fəaliyyət** formalarından biri bədən tərbiyəsi və idmanın inkişafına dair nəzəri tədqiqat işlərinin aktivləşdirilməsi və təbliğ edilməsi məqsədilə elmi konqreslərin, simpoziumların, konfransların, seminarların və s. tədbirlərin həyata keçirilməsidir. Belə tədbirlərin müzakirə predmetini olimpizm və idmanda yüksək nailiyyətlərin əldə olunması,olimpiya hərəkatının fəlsəfəsi, tarixi və praktikası, əhalinin müxtəlif qruplarının bədən tərbiyəsi və s. bu kimi problemlər təşkil edir. Bu fəaliyyət olimpiya hərəkatına ilk dəfə qoşulan ölkələr,xüsusən də Afrika kontingenti ölkələri üçün mühüm əhəmiyyəti kəsb edir. İBİBŞ-nin himayəsi altında belə tədbirlər, praktiki olaraq, hər il keçirilir.

Ümumi xarakterli beynəlxalq idman təşkilatlarından biri də **Milli Olimpiya Komitələrinin Baş Assosiasiyası** (MOKBA - QANOK) sayılır. Təşkilat 1968-ci ildə Meksikada yaradılmışdır, **mənzil-qərargahı** Roma şəhərində yerləşir və özündə 200-dən çox milli olimpiya komitələrini birləşdirir. MOKBA-nın

[1] Qeyd etmək lazımdır ki, İBİBŞ ilə Belarus ölkəsindən olan nümayəndələr aktiv əməkdaşlıq edir. Bu barədə ətraflı bax: Спортивная энциклопедия Беларуси / Ред.кол.Ю.Л.Сиваков и др.Мн.,2005,с.277.

iclasları iki ildən bir keçirilir; rəsmi dili ingilis, ispan, rus və fransız dilləridir. O, bir sıra beynəlxalq idman təşkilatları, xüsusən də BOK ilə əməkdaşlıq edir. Adıçəkilən təşkilatın **məqsədləri** bundan ibarətdir: olimpiya hərəkatının gələcək inkişafına köməklik göstərmək; olimpiya hərəkatının təkmilləşdirilməsinə dair BOK-a müvafiq təkliflər vermək; digər fəaliyyət istiqamətlərində BOK ilə sıx qarşılıqlı əlaqə qurmaq və s.

Beynəlxalq İdman Federasiyalarının Baş Assosiasiyası (BİFBA – QAİSF) ümumi xarakterli beynəlxalq idman təşkilatlarından digəridir. BİFBA 1967-ci ildə Lozanna şəhərində (İsveçrə) yaradılmışdır, **mənzil-qərargahı** Monte-Karlo şəhərində (Monako) yerləşir və onun tərkibinə 75-dən çox beynəlxalq təşkilatlar (həm olimpiya, həm də qeyri-olimpiya federasiyaları) daxildir. Onun ali orqanı illik Baş Assambleyadır, rəsmi dili ingilis və fransız dilləridir. BİFBA öz fəaliyyətində BOK, MOKBA və digər beynəlxalq idman təşkilatları ilə əməkdaşlıq edir.

Ümumi xarakterli beynəlxalq idman təşkilatları sırasında 1923-cü ildə yaradılmış **Bədən Tərbiyəsi üzrə Beynəlxalq Federasiya** (BTBF – FİEP) qurumunun da adı çəkilməlidir. BTBF-in **idarəetmə orqanları** aşağıdakılardır: Baş Assambleya (dörd ildən bir toplanır), Beynəlxalq Şura, İcraiyyə Komitəsi, beynəlxalq seksiyalar (bölmələr), milli nümayəndəli orqanlar. Təşkilatın **rəsmi dili** fransız və ingilis dilləridir. Federasiya özündə kollektiv, fərdi və fəxri üzvləri birləşdirir. Kollektiv üzvlər kimi müxtəlif idman müəssisələri, o cümlədən bədən tərbiyəsi və idman üzrə məktəblər, institutlar, ixtisaslaşmış elmi-tədqiqat institutları, idman assosiasiyaları və s. təşkilatlar çıxış edə bilər.

Xüsusi hüquqi şəxs statusuna malik olan **Beynəlxalq Olimpiya Akademiyası** da (BOA – AİD) ümumi xarakterli beynəlxalq idman təşkilatıdır və 1961-ci ildə Olimpiya şəhərində (Yunanıstan) yaradılmışdır. Olimpiya hərəkatı ideyalarının öyrənilməsi və təbliği üzrə işlərin həyata keçirilməsi ixtisaslaşmış təş-

kilat kimi BOA-nın **əsas fəaliyyət** istiqaməti sayılır. Göstərilən qurum hər il ikihəftəlik sessiya təşkil edir; sessiyaların proqramlarında olimpiya hərəkatının ümumnəzəri, fəlsəfi, ideoloji, tarixi, pedaqoji, metodiki əsasları və digər istiqamətlər üzrə məruzələr deyilir, müvafiq seminarlar keçirilir. BOA-nın sessiyalarında iştirak etmək üçün müxtəlif ölkələrin MOK qurumları tərəfindən görkəmli alimlər, məşqçilər, müəllimlər, aspirantlar və tələbələr adıçəkilən Akademiyaya göndərilir. Təqdirəlayiq hal kimi qeyd etməliyik ki, 1978-ci ildən başlayaraq, BOA olimpiya hərəkatının problemlərinə dair ən yaxşı elmitədqiqat işlərinə görə konkurslar keçirir.[1]

II.Ayrı-ayrı idman növləri üzrə fəaliyyət göstərən beynəlxalq idman təşkilatları barədə məsələni nəzərdən keçirək. Söhbət, hər şeydən əvvəl, konkret idman növü və ya növləri üzrə milli federasiyaları özündə birləşdirən ittifaqdan – **Beynəlxalq İdman Federasiyalarından** (BİF – MSF) gedir. İlk beynəlxalq idman federasiyaları XIX əsrin sonlarında – XX əsrin əvvəllərində əmələ gəlmişdir. Bu sırada aşağıdakıları göstərə bilərik: Beynəlxalq Gimnastika Federasiyası, Beynəlxalq Beysbol Federasiyası, Beynəlxalq Futbol Assiosiyaları Federasiyası, Beynəlxalq Avtomobil İdman Federasiyası, Beynəlxalq Motoidman Federasiyası, Beynəlxalq Tennis Federasiyası, Beynəlxalq Həvəskar Güləş Federasiyası və b. Hal-hazırda 100-dən çox beynəlxalq idman federasiyaları fəaliyyət göstərir ki, onların 30-dan çoxu olimpiya idman növlərinə aiddir.[2]

BOK-un Olimpiya Xartiyasında BİF-in fəaliyyətinin tənzimlənməsinə həsr olunmuş müəyyən müddəalar mövcuddur. Xartiyanın 29-cu Qaydasına görə, olimpiya hərəkatına dəstək göstərilməsi məqsədi ilə, BOK bir və ya bir neçə idman növünə

[1] Ətraflı bax: www.ioa.org.gr (25.09.2021-ci il).

[2] Daha ətraflı bax:Захарова Л.И. Международное спортивное право. Учебник для бакалавров / Отв. ред. К.А.Бекяшев. – Москва, Проспект, 2017,432 с.

rəhbərlik edən **beynəlxalq qeyri-hökumət təşkilatlarını** BİF qismində tanıya bilər, bu şərtlə ki, onların fəaliyyəti BİF-in nizamnamə tələblərinə cavab versin, həmin təşkilatlar Olimpiya hərəkatının antidopinq Məcəlləsini tətbiq etsinlər və antidopinq qaydalarına uyğun yarışdankənar effektiv test-sınaq işlərini həyata keçirsinlər. BOK tərəfindən, ilk dəfə olaraq, tanınmış beynəlxalq federasiyalar üçün ilkin tanınma müddəti iki ildir və ya bu müddət BOK-un İcraiyyə Komitəsinin müəyyən etdiyi hər hansı digər dövrə təyin edilə bilər.

Olimpiya hərəkatı sahəsində BİF-in **rolu** aşağıdakılardan ibarətdir:

- olimpiizmin əsl mənasına uyğun müvafiq idman növləri ilə məşğulolma qaydalarını işləyib hazırlamaq və onların yerinə yetirilməsini təmin etmək;
- bütün dünyada, xüsusən də idman mədəniyyəti zəif inkişaf etmiş ölkələrdə özünəməxsus idman növünün təbliğini və hərtərəfli inkişafını təmin etmək;
- Olimpiya Xartiyasında təsbit olunmuş məqsədlərin, xüsusilə, olimpizm və olimpiya təhsilinin genişləndirilməsi yolu ilə realizasiyasına dəstək vermək;
- "Olimpiya həmrəyliyi" proqramlarının həyata keçirilməsi üçün texniki yardım göstərilməsini təmin etmək və s.

BİF qurumları öz fəaliyyətlərini təsdiq olunmuş **nizamnamələri** əsasında həyata keçirirlər.Bu təşkilatlar, öz növbəsində, Olimpiya oyunları proqramına daxil olan (A) və Olimpiya oyunları proqramına daxil olmayan (B) **idman növləri** üzrə də fərqləndirilir:

(A).Olimpiya oyunları proqramına daxil olan idman növləri üzrə BİF təşkilatları. Olimpiya oyunlarının təşkili və həyata keçirilməsində birbaşa iştirak edən 35 BİF mövcuddur (28 yay idman oyun növləri və 7 qış idman oyun idman növləri üzrə).Göstərilən kateqoriyadan olan bütün BİF qurumları BOK tərəfindən tanınmışdır. Bu kontekstdə olimpiya oyunları proq-

ramına daxil olan idman növləri üzrə bəzi beynəlxalq federasiyaları göstərə bilərik.

Beynəlxalq Badminton Federasiyası (BBF – ИБФ).1893-cü ildə İngiltərədə assosiasiya formasında yaradılmış, 1934-cü ildə isə Londonda keçirilən təsis konfransında Beynəlxalq Badminton Federasiyasına çevrilmişdir.BBF özündə 100-dən çox ölkəni birləşdirir;ali rəhbər orqanı hər il çağırılan konqresdir. Konqres şuranı və icraiyyə komitəsini seçir. Federasiyanın rəsmi dili ingilis dilidir.Avropa çempionatı 1968-ci ildən, dünya çempionatı isə 1977-ci ildən keçirilir. Badminton idman növü Olimpiya oyunları proqramına 1992-ci ildən daxil edilmişdir.[1]

Beynəlxalq Velosipedçilər İttifaqı (BVİ – УСИ).1900-cü ildə Paris şəhərində keçirilən təsis konqresində yaradılmışdır, özündə 150-dən çox ölkəni birləşdirir. BVİ-nin ali orqanı konqres sayılır və hər il üç konqres keçirilir.Təşkilatın cari fəaliyyəti ilə üç il müddətinə seçilən rəhbər komitə məşğul olur; rəsmi dili fransız dilidir. Velosipedçilərin yarışı Olimpiya oyunları proqramına hələ 1896-cı ildə daxil edilmişdir.Dünya çempionatı trek velosiped dövrə yolunda 1893-cü ildən,şosse yolunda 1921-ci ildən,qapalı yerlərdə 1929-cu ildən,kross üzrə isə 1950-ci ildən keçirilir.[2]

Beynəlxalq Voleybol Federasiyası (BVF – ФИВБ). 1947-ci ildə Paris şəhərində yaradılmışdır,özündə 180-dən çox ölkəni birləşdirir. BVF-in ali orqanı konqres sayılır və iki ildən bir çağırılır. Federasiyanın cari işləri ilə iki il müddıtinə seçilən inzibati şura məşğul olur; rəsmi dili ingilis, ispan, rus, fransız dilləridir. Voleybol yarışları üzrə Avropa çempionatı 1948-ci ildən, dünya çempionatı isə 1949-cu ildən keçirilir. Olimpiya oyunları proqramına 1964-cü ildən daxil edilmişdir.[3]

---

[1] https://az.wikipedia.org/wiki/Badminton (27.09.2021-ci il).

[2] **Ошибка! Недопустимый объект гиперссылки.**

[3] https://www.mys.gov.az/idman/idman-federasiyalari/57/azrbaycan-voleybol-federasiyasi (28.09.2021-ci il).

Beynəlxalq Həndbol Federasiyası (BHF – ИГФ).1946-cı ildə Kopenhagendə keçirilən təsis konqresində yaradılmışdır, özündə 100-dən çox ölkəni birləşdirir. Federasiyanın cari işlərinə rəhbərliyi şura həyata keçirir; rəsmi dili alman,ingilis və fransız dilləridir. Həndbol yarışları üzrə dünya çempionatı 1938-ci ildən, Avropa çempionatı isə 1994-cü ildən keçirilir. Həndbol yarışları Olimpiya oyunları proqramına kişi həndbolu üzrə 1972-ci ildə, qadın həndbolu üzrə isə 1976-cı ildə daxil edilmişdir. [1]

Beynəlxalq Həvəskar Basketbol Federasiyası (BHBF – FİBA).1912-ci ildə yaradılmışdır,özündə 160-dan çox ölkəni birləşdirir. BHBF-in ali orqanı konqres sayılır;konqres dörd ildən bir çağırılır (Olimpiya oyunları keçirilən illərdə). Federasiyanın cari fəaliyyətinə konqres tərəfindən dörd il müddətə seçilən mərkəzi büro rəhbərlik edir; rəsmi dili ingilis, ispan, rus və fransız dilləridir. Basketbol yarışları üzrə Avropa çempionatı 1935-ci ildən, dünya çempionatı isə 1950-ci ildən keçirilir; Olimpiya oyunları proqramına 1936-cı ildən daxil edilmişdir.[2]

Beynəlxalq Beysbol Federasiyası (BBBF – ИББФ).1921-ci ildə yaradılmışdır,özündə 60-dan çox ölkəni birləşdirir.Beysbol idman yarışları üzrə dünya çempionatı 1938-ci ildən keçirilir; bu idman növü Olimpiya oyunları proqramına 1992-ci ildən daxil edilmişdir.[3]

Beynəlxalq Gimnastika Federasiyası (BGF – FİJ).1881-ci ildə əsası Avropa Gimnastika İttifaqı kimi qoyulmuş, 1897-ci ildə qəti olaraq beynəlxalq federasiya statusunda rəsmiləşdirilmişdir. BGF-in ali orqanı konqres və ya baş assambleyadır (ildə bir dəfə toplanır). Federasiyanın cari fəaliyyətinə komitə rəhbərlik edir. Qadınlar üçün gimnastika üzrə komanda yarışları Olimpiya oyunları proqramına 1928-ci ildə, fərdi qaydada yarışlar isə 1952-ci ildə daxil edilmişdir. Avropa Kuboku üzrə

[1] https://az.wikipedia.org/wiki/H%C9%99ndbol (28.09.2021-ci il).
[2] http://basketball.az/federasiya-haqqinda/ (29.09.2021-ci il).
[3] http://www.ibaf.org/en/ (29.09.2021-ci il).

xüsusi yarışlar kişilər üçün 1955-ci ildən, qadınlar üçün isə 1957-ci ildən keçirilir. Bədii gimnastika BGF tərəfindən 1960-cı illərdə tanınmışdır. Bədii gimnastika üzrə dünya çempionatı 1963-cü ildən, Olimpiya oyunları proqramı daxilində isə 1984-cü ildən keçirilir.[1]

Olimpiya oyunları proqramına daxil olan **digər beynəlxalq təşkilat və qurumlar** da mövcuddur: məsələn, Həvəskar Boks üzrə Beynəlxalq Assosiasiya (1946-cı il), Beynəlxalq Həvəskar Güləş Federasiyası (1921-ci il), Beynəlxalq Avarçəkmə Federasiyası (1892-ci il), Beynəlxalq Atçılıq İdman Federasiyası (1921-ci il), Beynəlxalq Konkisürənlər İttifaqı (1892-ci il), Beynəlxalq Kriket Federasiyası (1909-cu il, kriket – ağacla oynanılan top oyun növüdür), Ümumdünya Yüngül Atletika Assosiasiyası (2019-cu il),[2] Beynəlxalq Ağır Atletika Federasiyası (1920-ci il), Beynəlxalq Ayaq Xizəyi İdmanı Federasiyası (1910-cu il), Beynəlxalq Yelkən İdman İttifaqı (1907-ci il), Beynəlxalq Həvəskar Üzgüçülük Federasiyası (1908-ci il), Beynəlxalq Xizək İdman Federasiyası (1957-ci il), Beynəlxalq Stolüstü Tennis Federasiyası (1926-cı il), Beynəlxalq Qılıncoynatma Federasiyası (1913-cü il), Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası (1904-cü il), Beynəlxalq Ot üzərində Xokkey Federasiyası (1924-cü il) və s. birliklər.[3]

(B).Olimpiya oyunları proqramına daxil olmayan idman növləri üzrə BİF təşkilatları digər kateqoriya beynəlxalq idman federasiyaları sayılır. Bu kateqoriyadan olan BİF qurumları da kompleks beynəlxalq idman yarışları keçirirlər –

---

[1] https://agf.az/az/about/federation/ (29.09.2021-ci il).

[2] Sözügedən təşkilat əvvəllər Beynəlxalq Yüngül Atletika Federasiyaları Assosiasiyası (1912-ci il) kimi fəaliyyət göstərmiş, sonradan isə 2019-cu ildən onun adı dəyişdirilərək Ümumdünya Yüngül Atletika Assosiasiyası adlandırılmışdır. Bu barədə bax: Конституция Всемирной легкоатлетической ассоциации (ред.1 ноября 2019 г.), раздел1,ст.1.2// **Ошибка! Недопустимый объект гиперссылки.** (30.09.2021-ci il).

[3] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.337-344.

Ümumdünya qeyri-olimpiya idman növləri üzrə oyunlar. Bu mühüm və böyük yarışların proqramına sambo, karate, zalda xokkey, idman akrobatikası, su xizəyi və digər idman növləri aiddir. Qeyri-olimpiya idman növləri üzrə I Ümumdünya oyunları 1981-ci ildə, növbəti oyunlar isə hər dörd ildən bir (1985, 1989, 1993, 1997, 2001-ci illər və s.) keçirilmişdir.

Hal-hazırda BİF qurumları həm də **beynəlxalq idman təşkilatlarında** (BİT) birləşmişlər: Beynəlxalq İdman Federasiyalarının Baş Assambleyası, Yay Olimpiya İdman Növləri üzrə Beynəlxalq Federasiyaların Assosiasiyası, Qış Olimpiya İdman Növləri üzrə Beynəlxalq Federasiyaların Assosiasiyası və b. Bütün bu assosiasiyalar BOK tərəfindən tanınmışdır. Lakin buna baxmayaraq,Olimpiya Xartiyasına əsasən (bənd 4, Qayda 4, I fəsil), BİF assosiasiyalarının tanınması onların BOK ilə birbaşa iş aparması hüququna heç bir halda təsir göstərmir və əksinə.[1]

Ayrı-ayrı idman növləri üzrə BİT-in xüsusi qrupunu **peşəkar idmana dair** beynəlxalq idman təşkilatları təşkil edir və bunlara aşağıdakılar aiddir:məsələn,Milli Basketbol Assosiasiyası, Milli Xokkey Liqası, Milli Futbol Liqası, Baş Beysbol Liqası və s. Göstərilən təşkilatlarda bir sıra kontinent ölkələrin klubları (liqa, ittifaq və b.) birləşir. Bu səbəbdən həmin təşkilatları peşəkar idman üzrə beynəlxalq **regional** təşkilatlar sırasına aid etmək olar. Belə ki, 1917-ci ildən Şimali Amerikada fəaliyyət göstərən Milli Xokkey Liqası XXI əsrin əvvəllərində özündə 21 ABŞ komandasını və 7 Kanada komandasını birləşdirmişdir.

Göstərilən təşkilatların **fəaliyyəti** həm də BİF qurumlarının fəaliyyətinə əhəmiyyətli təsir göstərir. Söhbət, xüsusən, yarışların sisteminin transformasiyası, tamaşaçılar və teleyayım şirkətləri üçün yeni cəlbedici oyunların yaranması, basketbol, vo-

[1] Ətraflı bax: BOK-un Olimpiya Xartiyası (14.07.2001-ci il tarixli redaktəsində) - I fəsil,Qayda 4,bənd 4 (URL:https//WWW.olympicuniversity.ru – 30.09.2021-ci il).

leybol, futbol, xokkey, yüngül atletika və s. idman növləri üzrə beynəlxalq federasiyaların **biznes turnirləri** haqqında gedir.

Bununla yanaşı, XX əsrin sonlarında peşəkar idman sahəsində velosiped, boks, qolf və s. idman növləri üzrə **ümumdünya** beynəlxalq təşkilatlar yaranmağa başladı. Belə ki, 1990-cı ildə Beynəlxalq Peşəkar Velosiped İdman Federasiyası yaradıldı. Sonradan 1992-ci ildə bu təşkilat Beynəlxalq Həvəskar Velosiped İdman Federasiyası ilə birləşərək vahid bir təşkilata çevrildi – Beynəlxalq Velosipedçilər İttifaqı.Hazırda bu idman növünə vahid federasiya rəhbərlik edir. Peşəkar boks, peşəkar qolf və peşəkar futbol sahəsində də müvafiq beynəlxalq peşəkar idman təşkilatları fəaliyyət göstərir. Beləliklə, müasir dövrdə peşəkar idman sferası beynəlxalq idman hərəkatının, o cümlədən olimpiya hərəkatının **tərkib hissəsinə** çevrilmişdir. Eyni zamanda, qeyd etməliyik ki, bütün peşəkar idman növlərini özündə birləşdirən **vahid beynəlxalq təşkilat** mövcud deyildir, beynəlxalq idman hərəkatında da belə təşkilat yaradılmamışdır. Bu, zənnimizcə, perspektivdə öz həllinin gözləyən məsələlərdən biridir.

III. İdman bilik və fəaliyyət sahələri üzrə beynəlxalq idman təşkilatları. Bu qrup təşkilatlar bədən tərbiyəsi və idman sahəsi ilə əlaqəli olan qurumlardır. Söhbət, idman press vasitələri, idman qurğuları, idman təhsili, idman təbabəti, idman psixologiyası və s. məsələlərlə məşğul olan təşkilatlardan gedir.

Beynəlxalq İdman Press Assosiasiyası (BİPA – AİPS) bu tip təşkilatlardan biridir və 1924-cü ildə yaradılmışdır. BOK tərəfindən tanınmışdır və özündə milli idman jurnalistləri federasiyalarını birləşdirir. BİPA-nın ali orqanı konqres sayılır; dörd ildən bir Olimpiya oyunları zamanı toplanır. Konqresdən başqa, ildə bir dəfə cari məsələlərə baxan baş assambleya keçirilir. Konqres və baş assambleya arasındakı dövrdə assosiasiyanın fəaliyyətinə rəhbərliyi konqresdə seçilən icraiyyə komitəsi həyata keçirir. Rəsmi dili ingilis, alman və fransız dilləridir.

BİPA-nın təşəbbüsü ilə 1995-ci ildən iyulun 2-si **"Beynəlxalq idman jurnalistləri günü"** kimi qeyd edilir.[1]

Beynəlxalq İdman Psixologiyası Cəmiyyəti (BİPC – İSSP) də beynəlxalq idman təşkilatıdır. Cəmiyyət 1964-cü ildə yaradılmışdır və onun beş əsas fəaliyyət istiqaməti mövcuddur: oyunlarda, idman yarışlarında, fiziki məşqlərdə, uşaq və yeniyetmə idmanında göstərilən fiziki aktivlik; bədən tərbiyəsi və idmanda emosiya və ehtiraslar; məşqçi, komanda və idman yarışları; sağlamlıq və rifah üçün fiziki aktivliyin yüksəldilməsi yolları; **"hamı üçün idman"**. 2004-cü ildə Kopenhagendə (Danimarka) idman psixologiyası üzrə XI Avropa konqresi keçirilmişdir.[2]

Beynəlxalq İdman Təbabəti Federasiyası (BİTF – FİMS) beynəlxalq idman təşkilatlarından digəridir; 1928-ci ildə yaradılmış və BOK tərəfindən tanınmışdır. BİTF-in ali orqanı olan baş assambleya dörd ildən bir toplanır. Federasiyanın cari fəaliyyətinə icraiyyə komitəsi rəhbərlik edir; rəsmi dili ingilis, ispan, italya və fransız dilləridir. İdman təbabəti üzrə beynəlxalq elmi konqres iki ildən bir keçirilir;1958-ci ildə Moskva şəhərində XII Yubiley konqresi baş tutmuşdur. Adıçəkilən federasiya ilə yanaşı, 1968-ci ildə yaradılmış **Beynəlxalq Olimpiya Tibb İşçiləri Assosiasiyası** (BOTİA - ИАОМО) da fəaliyyət göstərir.[3]

Beynəlxalq idman təşkilatları sırasında **Avropa İdman və Fiziki Fəaliyyət Psixologiyası Federasiyası** (AİFFPF – FEPSAK) da mövcuddur. Federasiya idman psixologiyası məsələləri üzrə 1969-cu il iyunun 4-də Vitteldə (Fransa) II Avropa konqresi çərçivəsində keçirilən Birinci baş assambleyada kontinental təşkilat kimi yaradılmışdır. AİFFPF həm də BİPC-nin

[1] http://www.olimpiyadunyasi.com/w3986.html (30.09.2021-ci il).
[2] Bu barədə ətraflı bax: Романина Е. X1 Европейский конгресс по психологии спорта//Спортивный психолог. 2004, № 1, с.96-97.
[3] https://olimpnews.az/post və https://az.wikipedia.org (30.09.2021-ci il).

üzvüdür, konqres iclaslarını hər dörd ildən bir keçirir, Avropada idman psixoloqlarının fəaliyyətini əlaqələndirir.[1]

İdman bilik və fəaliyyət sahələri üzrə mövcud olan beynəlxalq idman təşkilatları sırasında aşağıdakı assosiasiyaların da adını çəkməliyik: **Beynəlxalq İdman Qurğuları və Asudə Vaxt üçün Yerlər Assosiasiyası** (BİAA – İAKS), **Beynəlxalq Fiziki Təhsil üzrə Ali Məktəblər Assosiasiyası** (BEAA – AİESEP) və s.

IV. Mənsubiyyət əlaməti üzrə bəzi beynəlxalq idman təşkilatları. Bu qəbildən olan beynəlxalq idman təşkilatları müəyyən mənsubiyyət əlamətlərinə görə fərqləndirilir: peşə sənəti ilə əlaqədar, dini mənsubiyyətlə bağlı.

Beynəlxalq Universitet İdmanı Federasiyası (BUİF – FİSU) 1949-cu ildə Merano şəhərində (İtaliya) idman peşə sənəti ilə əlaqədar yaradılmışdır və özündə 100-dən çox ölkəni birləşdirir; onun üzvləri bütün kontinentlərdən olan milli tələbə idman təşkilatlarıdır. BUİF Beynəlxalq İdman Federasiyaları Baş Assosiasiyasının üzvüdür; ali orqanı iki ildən bir toplanan baş assambleyadır; assambleyalararası dövrdə onun fəaliyyətini icraiyyə komitəsi həyata keçirir. Rəsmi dili ingilis, fransız və rus dilləridir; işçi dili ingilis və fransız dilləridir.1960-cı ildən başlayaraq, tək illərdə yay universiadası, cüt illərdə isə qış universiadası keçirilir.[2]

İdman peşə sənəti sahəsində fəaliyyət göstərən təşkilatlardan biri də **Beynəlxalq Hərbi İdman Şurası** (BHİŞ – SİZM) sayılır. O, beş ölkənin (Belçika, Danimarka, Lüksemburq, Niderland və Fransa) təşəbbüsü ilə 1948-ci ildə Nitsa şəhərində (Fransa) yaradılmışdır və özündə 100-dən çox ölkənin idman təşkilatlarını birləşdirir. Baş assambleya onun ali orqanıdır, hər

[1] Bax: Психология спорта в терминах, понятиях, междисциплинарных связах. Словарь-справочник / Сост.Е.Н.Сурков. М., 1996, с.394-395.
[2] https://www.fisu.net (01.10.2021-ci il).

il keçirilir; assambleyalararası dövrdə onun işini icraiyyə komitəsi yerinə yetirir. Rəsmi dili fransız və ingilis dilləridir.[1]

Göstərilənlərlə yanaşı, peşə idman fəaliyyəti ilə bağlı təsis edilmiş aşağıdakı qurumlar da mövcuddur: **Dəmiryolçuların Beynəlxalq İdman İttifaqı** (1946-cı il, DBİİ – USİK), **Beynəlxalq Əmək İdman Komitəsi** (1913-cü il, BƏİK – KSİT) və başqaları.

Dini mənsubiyyət əlamətinə görə fəaliyyət göstərən idman təşkilatları sırasında bunları göstərə bilərik: **Beynəlxalq Gənc Xristianlar Assosiasiyası** (1885-ci il, BGXA - MAMX), **Bədən Tərbiyəsi və İdman üzrə Beynəlxalq Katolik İttifaq** (1911-ci il, BİBKİ – MKSFS) və s.

2.4.3.Milli idman təşkilatları və onların hüquqi statusu

Beynəlxalq idman münasibətlərinin subyekt tərkibinə dövlətdaxili (milli) idman təşkilatları da daxildir. Onlara hüquqi şəxs statusunda fəaliyyət göstərən **kollektiv subyektlər** aiddir: məsələn, milli olimpiya komitələri, milli paralimpiya komitələri, müxtəlif idman növləri üzrə milli federasiyalar, bədən tərbiyəsi-idman ictimai birlikləri, idman cəmiyyətləri, texniki idman klubları, idman mərkəzləri, xüsusi təyinatlı məktəblər, ümumtəhsil idman müəssisələri, bədən tərbiyəsi və idman sahəsində elmi təşkilatlar və s.[2] Bu cür subyektlərin hüquqi rejimi həm dövlətlərin milli idman qanunvericiliyi, həm də beynəlxalq müqavilələrlə müəyyən edilir. Kollektiv subyektlər qrupundan bəzilərini nəzərdən keçirək.

Milli Olimpiya Komitəsi (MOK) hər bir ölkədə olimpiya hərəkatına rəhbərlik edən orqandır. MOK qurumları beynəlxalq olimpiya hərəkatının əsas tərkib hissələrindən biridir; onlar

[1] https://www.milsport.one (01.10.2021-ci il).

[2] İdman hüquq münasibətlərinin subyekt tərkibi barədə ətraflı bax: Шашкова И.М.Спортивное право.Курс лекций.Витебск,УО «ВГУ им. П.М.Машерова, 2012,с.26-39 (https://rep.vsu.by – 02.10.2021-ci il).

BOK tərəfindən rəsmi olaraq tanınırlar.Tarixən, 1894-cü ildə iki milli olmpiya komitəsi mövcud idi. İdman sahəsində baş verən ictimai inkişaf və təkamül prosesləri nəticəsində bu gün dünyada milli olmpiya komitələrinin sayı 200-dən çoxdur. İdmanın və olimpiya hərəkatının dinamik inkişaf tendensiyalarında dövlət və hökumət orqanlarının iştirakı müasir dövrdə artıq zərurətə çevrilmişdir.[1] Belə bir şəraitdə kommersiya proqramları, olimpiya marketinqi və digər korporativ üsullarla daxil olan vəsaitlərlə yanaşı, dövlətlər də öz milli olimpiya komitələrini və olmpiya hərəkatını müvafiq **dotasiya qaydasında** maliyyələşdirirlər.

Dövlət orqanları və milli olimpiya komitələri arasında funksiyaların dürüst müəyyən edilməsi onların milli idman siyasətinin formalaşmasında, olimpiya və idman hərəkatının təşkil olunmasında, eləcə də idman federasiyaları ilə qarşılıqlı münasibətlərin və əlaqələrin xarakteri barədə məsələlərin həllində səlahiyyət sferasını təyin edir. Dövlətlərlə milli olimpiya komitələri və idman federasiyaları arasında qarşılıqlı münasibət prinsipinə görə, MOK qurumları aşağıda göstərilən **üç qrup üzrə** diferensiallaşdırılır.

Birinci qrupa Böyük Britaniya, Almaniya, Avstraliya və s. ölkələrin milli olimpiya komitələri daxildir. Bu qrupa daxil olan MOK qurumlarının əsas spesifik cəhəti ondan ibarətdir ki, onlar özündə yalnız olimpiya idman növləri üzrə federasiyaları birləşdirirlər. Belə MOK-ların əsas səyləri olimpiya hərəkatında və həvəskar idman sahəsində yüksək nailiyyətlərin əldə olunmasına istiqamətlənmişdir. Adıçəkilən ölkələrdə milli idman siyasətinə dair məsələlərin işlənib hazırlanması ilə, başlıca olaraq, dövlət orqanları məşğul olurlar; qeyri-olimpiya idman növləri üzrə ümummilli federasiyalar isə baş dövlət idman təşkilatlarında birləşmişlər.

[1] Bax: Миллер Д.Развитие олимпийского движения//Международное спортивное и олимпийское движение.М.,1991,№4-5,с.7-11.

İkinci qrupa ABŞ, Fransa və İtaliyada olan milli olmpiya qurumları aiddir. Bu qurumlar, praktiki olaraq, ölkədə milli idman hərəkatını bütövlükdə koordinasiya edərək əlaqələndirir və bütün idman federasiyalarını, eləcə də digər idman təşkilatlarını birləşdirirlər.

Üçüncü qrupu isə Yaponiya milli olimpiya komitəsi və bir sıra digər təşkilatlar təmsil edir. Bu qrupa daxil olan MOK qurumları kifayət qədər geniş fəaliyyət sferasına malikdirlər – olimpiya hərəkatı, yüksək nailiyyətlər idmanı (həm həvəskar, həm də peşəkar formada), seçmə və kütləvi idman. Ancaq onların fəaliyyəti, nisbətən sərbəstliyə baxmayaraq, dövlət idman idarəetmə orqanları tərəfindən olduqca çox sərt şəkildə reqlamentləşdirilmişdir.

Müasir dövrdə MOK qurumlarının **hüquqi statusu** ilə bağlı məsələ mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, qeyd etməliyik ki, MOK təşkilatlarının **missiyası** Olimpiya Xartiyasına müvafiq olaraq, öz ölkələrində olimpiya hərəkatının inkişaf etdirilməsi və müdafiə olunmasından ibarətdir; onlar beynəlxalq idman hərəkatında öz dövlətlərinin maraqlarını təmsil edirlər. MOK-un **statusu və rolu** barədə məsələ onların, yəni milli olimpiya komitələrinin qeyri-hökumət xarakterli statusa malik olmaları haqqında Olimpiya Xartiyasında nəzərdə tutulmuş müddəalarından irəli gəlir.

MOK qurumları ümumilikdə aşağıdakı **funksiyaları** yerinə yetirirlər:

- BOK-un hamiliyi altında keçirilən Olimpiya oyunlarında və ümumdünya, kontinental və regional kompleks idman yarışlarında iştirak etmək üçün öz nümayəndə heyətinin tərkibini müəyyən edir və onlara rəhbərliyi həyata keçirir;
- nümayəndə heyəti üzvlərinin geyimlə, ləvazimatla təchizatını, yol, yataq, yemək və digər tələbatlarının ödənilməsinə qayğı göstərir, həm də nümayəndə heyəti üzvlərinin davranışına görə məsuliyyət daşıyırlar;

– öz müstəsna hüquqlarından istifadə edərək, Olimpiya oyunlarında və bununla bağlı bütün yarışlarda, mərasim, təsnifat və təşrifat tədbirlərində nümayəndə heyəti üzvlərinin idman forması və geyimlərini,habelə təchizat vasitələrini təyin edir və s.

Yuxarıda göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, milli olimpiya komitələrinin aşağıdakı əsas **vəzifələri** vardır:

– ölkədə olimpiya hərəkatının əsas prinsiplərini milli səviyyədə idman fəaliyyəti çərçivəsində təbliğ etmək, məktəblərdə və ali təhsil müəsisələrində bədən tərbiyəsi və idman üzrə tədris proqramlarında olimpizm ideyalarının genişləndirilməsinə kömək etmək;
– öz səlahiyyətləri çərçivəsində müvafiq kurslar təşkil etməklə idman kadrlarının hazırlanmasına köməklik göstərmək;
– ölkədə yüksək nailliyyətlər idmanının və kütləvi idmanın inkişafına dəstək göstərməklə, onları təşviq etmək;
– ölkədə Olimpiya Xartiyasına riayət olunmasını təmin etmək, idmanda ayrı-seçkiliyin və zorakılığın istənilən formasına, eləcə də BOK, BİF qurumları və ya ÜADA (WADA) tərəfindən qadağan olunmuş prosedur və preparatlardan istifadəyə qarşı mübarizə aparmaq, xüsusən də ölkənin səlahiyyətli hakimiyyət orqanlarını bu işə cəlb etmək və s.

Eyni zamanda, milli olmpiya komitələri aşağıdakı **hüquqlara** malikdir:

– Olimpiya Xartiyasına və ümumilikdə olimpiya hərəkatına (olimpiya oyunlarının təşkili və keçirilməsi də daxil olmaqla) münasibətdə təkliflər formalaşdırmaq və BOK-a ünvanlamaq;
– ölkədə olimpiya oyunlarının təşkili və keçirilməsi üçün BOK-a müraciət etmək hüququ olan şəhəri müəyyən etmək;

– oyunlarının keçirilməsində namizədlərə münasibətdə öz fikirlərini bəyan etmək, olimpiya konqreslərinin hazırlanmasında əməkdaşlıq etmək, BOK-un xahişi ilə Beynəlxalq Olimpiya Komitəsi komissiyalarının fəaliyyətində iştirak etmək və s.

Olimpiya Xartiyası milli olmpiya komitələrinə aşağıdakı tədbirlərin həyata keçirilməsini **tövsiyə edir**:

1) olimpiya hərəkatının populyarlaşdırılması məqsədi ilə, müntəzəm olaraq və mümkün qədər illik formatda Olimpiya Günü və ya Olimpiya Həftəsi üzrə müvafiq tədbirlərin keçirilməsini təşkil etmək;

2) idman və olimpizm sahəsində mədəniyyət və incəsənətin təşviq olunmasına qayğı göstərilməsi barədə işlərin həyata keçirilməsini öz fəaliyyət proqramına daxil etmək;

3) Olimpiya həmrəyliyi proqramlarında fəal surətdə və yaxından iştirak etmək;

4) Olimpiya Xartiyasına müvafiq olaraq, bütün münasibətlərdə öz muxtar qurum statusunu qorumağa imkan verə biləcək maliyyələşmə imkanlarının axtarılması üzrə tədbirlər görmək və s.

MOK qurumlarının **tərkibinə** aşağıdakılar mütləq qaydada daxil olmalıdır:

– milli olimpiya komitəsinin yaradıldığı ölkədə olan BOK üzvləri. Belə üzvlər MOK-un baş assambleyasında səsvermə hüququna malikdirlər, onlar həmçinin MOK-un icraiyyə orqanında vəzifəyə görə səsvermə hüququ olan üzv sayılırlar;
– Olimpiya oyunları proqramına salınmış idman növləri üzrə beynəlxalq federasiyaların üzvü olan bütün milli federasiyalar (ən azı beş milli federasiya) və ya onlar tərəfindən təyin edilmiş nümayəndələr;
– Olimpiya oyunlarında hazırda iştirak edən idmançılar və ya vaxtilə Olimpiya oyunlarında iştirak etmiş və həmin müddətdən üç Olimpiada dövrü keçdikdən sonra idmanı tərk etmiş idmançılar.

– Eyni zamanda, MOK-un **üzvləri** həmçinin aşağıda göstərilənlər ola bilər:
– Olimpiya oyunları proqramına daxil olmayan idman növləri üzrə BOK tərəfindən tanınmış BİF üzvü olan milli federasiyalar;
– kompleks idman qrupları və digər idman təşkilatları və ya onları təmsil edən nümayəndələr;
– milli olmpiya komitəsinin fəaliyyətinin effektivliyinin yüksəldilməsinə dəstək verə biləcək, yaxud idmanın və olimpizmin inkişafına böyük töhfələr vermiş və MOK qurumunun təsis olunduğu ölkənin vətəndaşı olan fiziki şəxslər.[1]

Hər bir MOK-un **nizamnaməsi**, adətən, Olimpiya Xartiyasına uyğun olmalı və ona dürüst şəkildə əsaslanmalıdır. Nizamnamənin müddəaları ilə Olimpiya Xartiyasına arasında ziddiyyət və ya uyğunsuzluq yarandıqda Olimpiya Xartiyasının qaydaları üstün qüvvəyə malikdir. MOK-un adı ölkənin adət-ənənələrinə və ərazi sərhədlərinə uyğun olmalı, habelə BOK tərəfindən təsdiq edilməlidir; həmçinin onun bayrağı, emblemi və himni də BOK-un İcraiyyə Komitəsi tərəfindən təsdiqlənməlidir. BOK tərəfindən MOK qurumlarının tanınması müvəqqəti və ya tamamilə dayandırıldıqda, onlara verilmiş bütün hüquqlar xitam olunur.

[1] MOK qurumlarının fəaliyyətinin hüquqi tənzimlənməsi barədə bax: məsələn, Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu/C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.274; История создания и правовое регулирование деятельности Национального Олимпийского Комитета Украины / Л. В. Романенко // Журнал научных публикаций аспирантов и докторантов. – 2014, № 3, с.43–46; Профессионально об актуальном: Сущность общественного управления и регулирования в спортивной сфере / Каменков В.С. Национальный центр правовой информации Республики Беларусь, 2018 (https://pravo.by/novosti/novosti-pravo-by/2018/march/28004/) və s.

MOK ümumdünya və ya kontinental səviyyədə formalaşmış **MOK assosiasiyalarını** tanıya bilər; məsələn, belə idman təşkilatlarına aiddir:

- Milli Olimpiya Komitələri Baş Assosiasiyası;
- Afrika Milli Olimpiya Komitələri Assosiasiyası;
- Asiya Olimpiya Şurası;
- Panamerika İdman Təşkilatı;
- Avropa Olimpiya Komitələri Assosiasiyası;
- Okeaniya Milli Olimpiya Komitələri və s.

Dünyanın əksər ölkələrində **Milli İdman Federasiyası** (MİF) fəaliyyət göstərir. Kollektiv subyektlər qrupuna aid olan MİF öz statusuna görə ictimai təşkilatdır və onun **məqsədini** bir və ya bir neçə idman növünün inkişaf etdirilməsi, onların təşviqi, idman tədbirlərinin keçirilməsi və yığma komandalar üçün idmanşıların hazırlanmasından ibarətdir. İnkişaf etmiş ölkələrdə idman, bir qayda olaraq, qeyri-hökumət təşkilatı olan və qeyri-kommersiya xarakteri daşıyan idman federasiyaları əsasında təşkil olunmuşdur.

MİF qurumları öz **təsis sənədləri** əsasında fəaliyyət göstərirlər; bu zaman dövlət və digər sponsorlar tərəfindən idman növlərinin inkişafı üçün ölkənin idman federasiyalarına müvafiq maliyyə dəstəyi göstərilir. İdman birliklərinin, o cümlədən idman federasiyalarının yaradılması və fəaliyyət göstərməsi vətəndaş cəmiyyətində siyasi hüquqların realizasiya formalarından biridir. Belə ki, Mülki və siyasi hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktda göstərildiyi kimi (maddə 22), insanlar assosiasiyalar azadlığı və birliklər yaradılması hüququna malikdirlər.[1] Bu hüquq həm də Azərbaycan dövlətinə münasibətdə Konstitusiyada təsbit olunmuşdur ki, hər kəsin başqaları

[1] Bu barədə daha ətraflı bax: Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı,"Nurlar" nəşriyyatı, 2019, s.204-207.

ilə birləşmık, ictimai birlik yaratmaq və mövcud birliyə daxil olmaq hüququ vardır (maddə 58 - Birləşmək hüququ).[1]

İdman federasiyaları idman hərəkatının subyekti olduğu üçün ölkədə sosial hərəkatın müəyyən hissisi sayılır və bununla da cəmiyyətdə vətəndaşların konstitusion hüquqlarının reallaşmasının göstəricisidir. İdman federasiyalarının **nizamnamələrində** göstərildiyi kimi, onların başlıca məqsədi ölkədə bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsidir. Məsələn, Azərbaycan Respublikası ərazisində yaradılmış Azərbaycan Atletika Federasiyasının məqsədləri aşağıdakılardır:

- ölkədə atletikanın inkişaf etdirilməsi, kütləviləşdirilməsi, yeniyetmə və gəncləri kütləvi şəkildə atletika növləri ilə məşğul olmağa cəlb etməklə onların fiziki cəhətdən sağlam böyüməsi, Azərbaycan Ordusuna çağırış yaşlı gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və hazırlığının həyata keçirilməsi;
- ilkin və təlim-məşq qruplarına yeniyetmə və gənclərin cəlb olunması üçün ümumtəhsil və digər təhsil müəssisələri ilə əlaqələri gücləndirmək,idman yönümlü yeniyetmələrin seçilməsiilə yarış sisteminin yaradılması;
- atletika növləri ilə məşğul olanlar üçün həvəsləndirici tədbirlər həyata keçirmək, onlara cinsi, irqi, dini etiqad və digər əlamətlərdən asılı olmayaraq, eyni fəaliyyət şəraitinin yaradılması və s.[2]

Qeyd etməliyik ki, MİF qurumları müxtəlif ölkələrdə cürbəcür adlarla ifadə olunur: məsələn - federasiya, assosiasiya, ittifaq, birlik və s.

İdman klubları da milli idman təşkilatları sırasına daxil olan subyektlərdən biridir. Belə klublar təlim-məşq, yarış, bədən tərbiyəsi-sağlamlıq və s. funksiyaları həyata keçirirlər.

[1] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, s.16.

[2] Ətraflı bax: Azərbaycan Atletika Federasiyasının Nizamnaməsi, 2009-cu il, bənd 2 // elektron mənbə - www. huquqiaktlar.gov.az (09.10.2021-ci il).

Təşkilati-hüquqi formasından asılı olmayaraq, idman klubları qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslər tərəfindən təsis edilərək yaradılır və onlar, bir qayda olaraq, hüquqi şəxs kimi öz nizamnamələrinə uyğun fəaliyyət göstərirlər. Hüquqi şəxs statusu olmayan idman klubları isə, öz fəaliyyətlərini strukturunda olduğu, təsis edildiyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş nümunəvi əsasnaməyə uyğun həyata keçirirlər.

Milli idman klublarının, bəzən, **açıq səhmdar cəmiyyətə** çevrilməsi halları nəzərə çarpır. Məsələn, ötən əsrin sonlarında bəzi Avropa ölkələrinin futbol klublarında (alman klubu, fransız klubu, ingilis klubu, ispan klubu və s.) belə halların baş verməsi müşahidə olunur.[1] Hər hansı ölkənin ərazisində idman fəaliyyəti ilə məşğul olan xarici hüquqi şəxsin hüquqi statusu həmin ölkənin mülki qanunvericiliyi əsasında müəyyən edilir, yəni bu kateqoriyadan olan hüquqi şəxsə münasibətdə onun təsis edildiyi ərazi üzrə yerli **ölkənin qanunu**, təsərrüfat fəaliyyətinin milli rejim prinsipi nəzərə alınmaqla, tətbiq olunur. Nümunə qismində göstərə bilərik ki, Azərbaycan Respublikasında belə münasibətlər Mülki Məcəllə (MM, IV fəsil, maddə 43-119) ilə nizama salınır. Məcəllədə aşağıdakı məsələlərin hüquqi cəhətdən tənzimlənməsinə dair müvafiq normalar təsbit edilmişdir:

- -hüquqi şəxs qismində təsis edilən idman təşkilatının statusu;
- hüquqi şəxsin təşkilati-hüquqi forması;
- hüquqi şəxsin adına olan tələblər;
- hüquqi şəxsin yaradılması, yenidən təşkil edilməsi, ləğv olunması və s.[2]

[1] Bu barədə ətraflı bax: Мичи Дж.Управление и регулирование в профессиональном футболе / Пер.с анг.//Международный и зарубежный спорт: политика, менеджмент, маркетирг. Информационный бюллетень, ВНИИФК. М., 2001, №4, с.28-34.

[2] Ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir - B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi", 2016, s.80-155.

İdman klubları həyata keçirdikləri **fəaliyyət istiqamətlərinə** görə ayrı-ayrı idman növləri ilə məşğul olan kompleks idman klublarına, həvəskar, peşəkar və digər istiqamətli idman klublarına bölünürlər. Onlar, ilk növbədə, yeniyetmə və gənclər idman sahəsində təlim-məşq prosesinin və idman yarışlarının təşkili üçün müvafiq imkanlar yaradır, eləcə də klubların üzvləri arasında vətəndaşlıq və mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılması üzrə məqsədyönlü iş aparır, habelə öz fəaliyyətlərini bədən tərbiyəsi və idman sahəsində dövlət siyasətinə uyğun qururlar.

2.4.4.İdman fəaliyyəti sahəsində ayrı-ayrı fərdlər

Əvvəllərdə qeyd etdiyimiz kimi, hər bir ölkənin idman sferasında müvafiq fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər beynəlxalq xüsusi idman hüququnun subyekti hesab edilir. Bədən tərbiyəsi və idman sahəsində fəaliyyətin həyata keçirilməsində idman hüquq münasibətlərinin subyekti kimi ayrı-ayrı individlər və mütəxəssislər əhəmiyyətli rol oynayırlar. İdman fəaliyyəti sahəsində aşağıda göstərilən **subyektləri** fərqləndirə bilərik: idmançı, məşqçi, idman hakimi, idman həkimi, idman obyektlərinin sahibləri və istifadəçiləri, idman kütləvi informasiya vasitələri, idman azərkeşləri və onların birlikləri, idman agenti, idman məktəbləri və müəssisələri, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr, ictimai təşkilatlar (fond, birlik, düşərgə və s.), idman arbitrajı, milli antidopinq qurumu, həmkarlar ittifaqları təşkilatları, bədən tərbiyəsi və idman sahəsində çalışan digər mütəxəssislər.[1]

Sözügedən subyektlərin hüquqi rejimi hər bir ölkənin milli qanunvericilik aktları və müəyyən dərəcədə beynəlxalq müqa-

[1] Ətraflı bax: Шашкова И.М. Спортивное право. Курс лекций. Витебск, УО «ВГУ им.П.М.Машерова, 2012, с.31-39 (https://rep.vsu.by – 10.10.2021-ci il); Spor Hukuku. Prof. Dr. Fehim Üçışık. İstanbul,2017,467 s.; Beloff M., Kerr T., Demetriou M. Sport Law.- Oxford:Hard,1999 və s.

vilələrlə tənzimlənir, eləcə də həmin sənədlərdə idman subyektlərinə dair müvafiq normativ anlayışlar formulə olunur.[1] Bu anlayışlardan bəzilərini nəzərdən keçirək.

İdmançı dedikdə seçdiyi idman növü və ya növləri ilə mütəmadi olaraq, sistemli şəkildə məşğul olan və idman yarışlarında iştirak edən fiziki şəxs başa düşülür. Bununla yanaşı, elmi dövriyyədə yüksək səviyyəli idmançı termini də işlədilir ki, o, müvafiq idman adına (dərəcəsinə) malik və yüksək idman nəticələrinə nail olmaq məqsədi ilə idman yarışlarında çıxış edən şəxsdir.

İdmançıların **hüquqi statusu** ilə bağlı qeyd edirik ki, onlar müəyyən hüquq və vəzifələrin daşıyıcısıdırlar. Belə ki, idmançılar maraq göstətdikləri idman növünü seçmək və yarışlarda iştirak etmək, idman dərəcələri və adları almaq, yarışlarda iştirak zamanı idman avadanlıqlarından və tibbi xidmətdən istifadə etmək, geyim, yol, yataq, yemək və digər xərclərlə təmin olunmaq, eləcə də digər imtiyaz və güzəştlərdən istifadə etmək **hüququna** malikdirlər. İdmançılar həm də müəyyən **vəzifələr** daşıyırlar. Məsələn, idman yarışlarında mənsub olduqları idman təşkilatlarını, rayon, şəhər və ölkəni ləyaqətlə təmsil etmək; təlim-məşq proseslərində və yarışlarda iştirak zamanı

[1] Məsələn, bax: BOK-un Olimpiya Xartiyası (14.07.2001-ci il tarixli redaktəsində) /https://WWW.olympicuniversity.ru (05.09.2021-ci il); Международная хартия физического воспитания и спорта (1978 г.) //https://docs.cntd.ru/document/1900833 (10.10.2021 г.); Спортивная хартия Европы (1992 г.) // http://lib.sportedu.ru/GetText.idc?TxtID=1542 (10.10.2021 г.); Конституция Всемирной легкоатлетической ассоциации (ред.1 ноября 2019 г.) // WWW.WorldAthletics.org (10.10.2021 г); Спортивная энциклопедия Беларуси / Ред.кол.Ю.Л.Сиваков и др.Мн.,2005; Энциклопедический словарь юного спортсмена. М., 1979; Толковый словарь спортивных терминов.Около 9500 терминов/ Сост. Ф.П.Суслов, Д.А.Тышлер.М.,2001; Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005; Энциклопедия олимпийского спорта: [в 5-ти т.] / под общ. ред. В. Н. Платонова. — К.: Олимпийская литература, 2002-2004 və s.

təhlükəsizlik qaydalarına və tələblərinə riayət etmək; mütəmadi olaraq tibbi müayinədən keçmək, sanitariya-gigiyena və tibbi norma və qaydaların tələblərinə riayət etmək; bədən tərbiyəsi və idman, olmpiya və beynəlxalq idman hərəkatı haqqında müvafiq biliklərə yiyələnmək və digər vəzifələri yerinə yetirmək. Göründüyü kimi, idmançılar mövcud qanunvericiliklə müəyyənləşdirilmiş əhəmiyyətli dərəcədə hüquq və vəzifələr seqmentinə malikdirlər.

İdman fəaliyyətinin digər subyekt olan **məşqçi** dedikdə idmançılarla təlim-məşq prosesini həyata keçirən, onların yüksək nəticələrə nail olmaları üçün funksional, fiziki, texniki, taktiki, psixoloji hazırlıqlarını planlaşdıran və reallaşması istiqamətində fəaliyyət göstərən, habelə yarış fəaliyyətinə rəhbərlik edən müvafiq ali və ya orta ixtisas təhsilinə malik olan fiziki şəxs başa düşülür. Məşqçilər də müəyyən hüquqlara malik olmaqla konkret vəzifələr daşıyırlar.

Məşqçilərin **hüquqları** aşağıdakılardan ibarətdir:

- bədən tərbiyəsi-idman təşkilatlarında , idman məktəblərində öz ixtisasları üzrə məşqçi-müəllim vəzifəsini tutmaq və bu sahədə əmək fəaliyyəti ilə məşğul olmaq;
- idman növlərinin təlim-məşq proqramlarına əsasən ibtidai-hazırlıq, təlim-məşq və təkmilləşdirmə qruplarını komplektləşdirmək, onların fəaliyyətini təşkil etmək;
- yüksək nəticələr göstərən, milli yığma komandaların heyətlərində yer tutmuş yetişdirmələrinə görə mükafatlandırılmaq və dövlət təltifinə təqdim edilmək, eləcə də qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək və s.

Eyni zamanda, məşqçilər aşağıdakı **vəzifələri** daşıyırlar:


- fəaliyyət göstərdikləri idman bölmələrində təlim-məşq prosesini idman növünün təlim-məşq proqramına uyğun olaraq təşkil etmək;
- idmanla məşğul olan şəxslərin müəyyən edilmiş dövrlərdə tibbi müayinədən keçmələrini təmin etmək, id-

mançıların məcburi dopinq nəzarətindən keçmələrinə yardımçı olmaq, dopinq vasitələrindən, habelə qadağan edilmiş digər vasitə və üsullardan istifadə edilməsinə yol verməmək, milli antidopinq qurumunun təsdiq etdiyi antidopinq qaydalarına riayət etmək;
- gənclərin vətənpərvərlik ruhunda, mənəvi cəhətdən hərtərəfli tərbiyə olunması,Vətənin müdafiəsinə hazır olmaları istiqamətində fəaliyyət göstərmək;
- qanunvericiliklə müəyyənləşdirilmiş digər vəzifələri həyata keçirmək və s.

İdman fəaliyyəti sahəsində subyektlərdən biri də **idman hakimləri** sayılır. Onlar idman yarışları üzrə obyektiv nəticələrin reallaşdırılmasında mühüm rol oynayırlar. Belə ki, idman yarışının təşkilatçısı tərəfindən idman növünün qaydalarına və yarışın reqlamentinə riayət olunmasına nəzarət etmək səlahiyyəti verilmiş,xüsusi hazırlıq və attestasiya keçmiş, habelə müvafiq təsnifat dərəcəsi almış fiziki şəxs idman hakimi sayılır. Ayrı-ayrı idman növləri üzrə keçirilən oyun və yarışlara hakimlik etmək üçün xüsusi idman hakimləri hazırlanır. Başqa sözlə, hər hansı müəyyən idman oyun növü üçün konkret idman hakimi hazırlaşdırılır. İdman hakimlərinin **hüquqi statusu** hər bir ölkənin qanunvericilik aktı, müvafiq idman növü üzrə Beynəlxalq Federasiyanın tərtib etdiyi yarış qaydaları və beynəlxalq idman müqavilələri ilə tənzimlənir, eləcə də onlar üçün müvafiq hüquq və vəzifələr müəyyənləşdirilir.[1]

[1] Bu və digər subyektlər (idman həkimi, idman obyektlərinin sahibləri və istifadəçiləri, idman kütləvi informasiya vasitələri, idman azərkeşləri və onların birlikləri, idman agenti və s.) barədə ətraflı məlumat almaq üçün bax: məsələn, Шашкова И.М. Спортивное право. Курс лекций. Витебск, УО «ВГУ им.П.М.Машерова, 2012, с.26-39 (https://rep.vsu.by – 11.10.2021-ci il).

II FƏSİL ÜZRƏ ƏYANİ SXEM



III FƏSİL.
BEYNƏLXALQ İDMAN HÜQUQUNUN MƏNBƏLƏRİ

3.1. Beynəlxalq idman hüququ mənbələrinin anlayışı və növləri

3.1.1. Beynəlxalq idman hüququnun mənbələri anlayışı

Məlum olduğu kimi, obyektiv mənada BİH müxtəlif, çoxsaylı hüquq normalarından ibarətdir; həmin normalara hüquq doktrinasında (elmində) beynəlxlaq idman-hüquq normaları deyilir. Məhz bu normaların köməyi və vasitəsi ilə BİH öz əsas və başlıca funksiyasını, yəni beynəlxalq idman münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir. Beynəlxalq idman-hüquq normaları məcburi hüquqi qüvvəsi olan davranış qaydalarıdır (latınca "norma" sözü "qayda" deməkdir).

Beynəlxalq idman-hüquq normaları zahirən bu və ya digər hüquqi formada mövcud olur, öz ifadəsini tapır; belə ifadə formaları hüquq doktrinasında BİH-in mənbələri adlanır.[1]

Beynəlxalq idman hüququnun mənbələri dedikdə beynəlxalq idman-hüquq normalarının zahirən ifadələnmə və mövcudolma formaları başa düşülür. Bu, hüquqi (formal) mənada BİH-in mənbələrinə verilən anlayışdır. BİH-in mənbələri həm də maddi mənada işlədilir. Maddi mənada beynəlxalq idman hüququnun mənbələri dedikdə onun nizamasalma predmetinə daxil olan münasibətlərin – dövlətlərarası beynəlxalq idman münasibətlərinin özü başa düşülür. Yalnız hüquqi mənada BİH-in mənbələri hüquqi kateqoriya hesab edilir və buna görə də, elmi cəhətdən tədqiq olunur, öyrənilir.

Beynəlxalq idman-hüquq normaları, bildiyimiz kimi, **iki kateqoriya** üzrə fərqləndirilir: beynəlxalq publik idman-hüquq normaları və beynəlxalq xüsusi idman-hüquq normaları. Bey-

[1] Məsələn, bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.241; Захарова Л.И. Международное спортивное право. Учебник для бакалавров / Отв. ред. К.А.Бекяшев. Москва, Проспект, 2017, 432 с. və s.

nəlxalq publik idman-hüquq normaları BİH-in publik subyektləri (dövlətlər və beynəlxalq hökumət təşkilatları) tərəfindən, beynəlxalq xüsusi idman-hüquq normaları isə BİH-in xüsusi subyektləri (qeyri-dövlət təşkilatları – BOK, MOK, BPK, MPK, BİF, MİF, BFFA, AFFA və s. qurumlar) tərəfindən onların iradəsi ilə yaradılır. Buna görə də, BİH-in mənbələri, mahiyyətcə, BİH-in subyektlərinin sərbəst iradələrinin ifadə formalarıdır, yəni üsullarıdır. Odur ki, beynəlxalq idman hüququnun mənbələrində BİH normalarının yaranması prosesinin nəticəsi ifadə olunur.

Beynəlxalq idman hüququnun mənbələri BİH normalarının rəsmən ifadələnmə və mövcudolma formalarıdır. Buna görə də, onlar **rəsmi xarakter** daşıyır.[1] Beynəlxalq idman hüququnun mənbələri rəsmi xarakterə iki yolla malik olur ki, bunlara aşağıdakılar aiddir:

- hüquq yaradıcılığı;
- sanksiyalaşdırma.

Hüquq yaradıcılığı yolunun mahiyyəti BİH subyektləri tərəfindən idman fəaliyyəti sahəsində beynəlxalq müqavilə bağlamaq vasitəsi ilə BİH normalarının müəyyənləşdirilməsindən ibarətdir; beynəlxalq müqavilə isə rəsmi sənəddir.

Sanksiyalaşdırma yolunun mahiyyəti isə BİH subyektləri tərəfindən idman fəaliyyəti həyata keçirilərkən beynəlxalq adətlərin tanınması, müdafiə olunması və məcburi hüquqi qüvvə ilə təmin edilməsindən ibarətdir; bu prosesin özü rəsmi xarakter daşıyır.

3.1.2. Beynəlxalq idman hüququnun mənbə növləri

Beynəlxalq idman münasibətləri iqtisadi xarakterə və məzmuna malik olmaqla onların hüquqi tənzimlənmə mənbələri çoxsaylı və müxtəlifdir. Bu, onunla izah edilir ki, hüquq ədəbiyyatında göstərildiyi kimi, BİH vasitəsi ilə tənzimlənən

[1] Beynəlxalq hüquq normalarının rəsmi xarakter daşıması barədə bax: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.7.

münasibətlərin özü müxtəlifdir.[1] Belə ki, beynəlxalq idman hüququ ilə müxtəlif növ konkret beynəlxalq idman münasibətləri tənzimlənir. Elə bu baxımdan, qeyd edə bilərik ki, BİH-in mənbələri şərti olaraq **iki növə** bölünür: **beynəlxalq mənbələr** və **dövlətdaxili (milli) mənbələr**.

Beynəlxalq idman hüququnun mənbələri bu və ya digər meyara görə ayrı-ayrı növlərə bölünür və bu yolla onların elmi cəhətdən əsaslandırılmış təsnifi aparılır. Belə təsnifin həm praktiki baxımdan, həm də elmi-nəzəri cəhətdən əhəmiyyəti vardır. Şübhəsiz, beynəlxalq idman hüququnun mənbə növlərinin düzgün müəyyənləşdirilməsi BİH-in formalaşmasını və funksiyasını başa düşmək üçün vacib şərtdir.

Qeyd olunmalıdır ki, beynəlxalq idman hüququnun mənbələrini müəyyənləşdirərkən beynəlxalq hüququn **mənbə növlərindən** çıxış etmək lazımdır. Başqa sözlə, beynəlxalq idman hüququnun mənbələri beynəlxalq hüquqda həyata keçirilən hüquqi tənzimetmənin mənbə növləri ilə müəyyən edilir. Beynəlxalq hüququn hansı mənbələrə malik olmasına gəldikdə isə, qeyd etməliyik ki, bu mənbələr BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində göstərilmişdir.

- beynəlxalq müqavilələr;
- beynəlxalq-hüquqi adətlər;
- hüququn ümumi prinsipləri;
- məhkəmə qərarları;
- beynəlxalq hüquq üzrə tanınmış mütəxəssis alimlərin elmi fikirləri, yəni hüquq elmi (doktrina).

Şübhəsiz, göstərilən siyahı tam və dolğun xarakter daşımır ki, bu, hüquq ədəbiyyatı səhifələrində düzgün olaraq qeyd olunmuşdur.[2] Belə ki, beynəlxalq hökumət təşkilatlarının qə-

---

[1] Bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.241-242.

[2] Məsələn, bax: Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.8; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.19; Международное право. Учебник / Отв. ред. В.И. Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.111; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.88 və b.

rarlarının (qətnamələrinin) adı həmin maddədə çəkilməsə də, biz, onu beynəlxalq idman hüququnun mənbəyi sayırıq. Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq idman hüququnun mənbələri BİH subyektlərinin hüquq normaları yaratma prosesinin nəticəsidir.

Məhkəmə qərarlarının və hüquq elminin (doktrinanın) BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq hüququn mənbəyi kimi göstərilməsinə gəldikdə isə, qeyd etməliyik ki, həmin maddə xarici ölkələrin beynəlxalq hüquq doktrinasında, haqlı olaraq, tənqid edilmişdir.[1] Belə ki, həmin maddə Birinci Dünya Müharibəsindən sonra Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası üçün formulə edilmişdi; o dövrdə beynəlxalq münasibətləri tənzimləmək üçün normativ material (beynəlxalq qanunvericilik) kifayət etmirdi; buna görə də, adıçəkilən Statutun 38-ci maddəsində məhkəmə qərarlarından və hüquq elmindən (doktrinadan) istifadə olunması imkanı göstərilmişdi. Hüququn ümumi prinsiplərinin elə həmin maddədə beynəlxalq hüququn mənbəyi kimi göstərilməsinin səbəbi də bundan ibarətdir, yəni normativ materialın (beynəlxalq qanunvericiliyin) o dövrdə lazımınca inkişaf etməməsi ilə bağlıdır.

Beləliklə, beynəlxalq qanunvericilik massivinin kifayət qədər inkişaf etdiyi müasir dövrdə BİH-in aşağıdakı **beynəlxalq mənbə növlərini** fərqləndirmək mümkündür:

- beynəlxalq müqavilə;
- beynəlxalq-hüquqi adətlər;
- beynəlxalq dövlətlərarası/hökumətlərarası təşkilatların qərarları;
- beynəlxalq idman təşkilatlarının aktları və s.

BİH-in göstərilən mənbə növlərini müxtəlif meyarlara görə təsnifləşdirmək olar. **Əsas olması meyarına** görə beynəlxalq idman hüququnun mənbələri iki növə bölünür:

[1] Anand R. International Organizations and the Funetioning of International Law // Indian YBIL. 1984, № 1, p.52; Degan V. Gustomary prosess in International Law // Finnish YBIL, 1990, Vol. 1, p.3.

– əsas mənbə;
– yardımçı mənbə.

Beynəlxalq idman hüququnun **əsas mənbəyi** odur ki, bu növ mənbə beynəlxalq idman münasibətlərini başlıca tənzimetmə formasıdır; beynəlxalq idman hüququnun tənzimetmə predmetinə daxil olan ictimai münasibətlər, ilk növbədə, həmin mənbə növünün vasitə və köməyi ilə tənzimlənir. Beynəlxalq idman hüququnun əsas mənbəyinə beynəlxalq müqavilələr və beynəlxalq-hüquqi adətlər daxildir. Beynəlxalq hüququn əsas mənbələri[1] həm də beynəlxalq idman hüququnun əsas mənbələri sayılır.

Beynəlxalq idman hüququnun **yardımçı mənbəyi** odur ki, bu mənbə növündən, adətən, beynəlxalq idman münasibətlərini beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlərlə tənzimləmək mümkün olmadığı hallarda istifadə edilir; buna görə də beynəlxalq idman hüququnun yardımçı mənbəyi köməkçi xarakter daşıyır; bu mənbə növünə beynəlxalq idman təşkilatlarının qərarları daxildir.

Beynəlxalq idman münasibətlərinin **bütün növlərini tənzimləmək meyarına** görə beynəlxalq idman hüququnun mənbələrinin iki növü fərqləndirilir:

– universal mənbə;
– xüsusi mənbə.

Beynəlxalq idman hüququn **universal mənbəyi** dedikdə beynəlxalq idman münasibətlərinin bütün növlərini tənzimləmək üçün istifadə olunan mənbə başa düşülür; bu mənbə növünə beynəlxalq hüququn universal mənbə növləri,[2] yəni beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər daxildir.

Beynəlxalq idman hüququnun **xüsusi mənbəyi** odur ki, bu mənbə növünün köməyi ilə yalnız ayrı-ayrı, məhdud xarakterli

[1] Daha ətraflı: Лукин П.И. Источники международного права. М., 1960; Лукашук И.И. Источники международного права. М., 1960 və b.

[2] Лукащук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8.

idman münasibətlərinə dair məsələlər tənzimlənir; buraya beynəlxalq idman təşkilatlarının qərarları daxildir.

Törəmə olub-olmaması meyarına görə beynəlxalq idman hüququnun mənbələri iki növə bölünür:

– ilkin mənbə;
– törəmə mənbə.

Beynəlxalq idman hüququnun **ilkin mənbəyi** dedikdə BİH-in ilkin subyekti olan dövlətlərin iradəsinin hüquqi ifadə forması başa düşülür; bu mənbə növündə dövlətlər tərəfindən BİH normalarının yaradılması prosesinin nəticəsi ifadə olunur, əks edilir. Beynəlxalq müqavilə, eləcə də beynəlxalq-hüquqi adətlər beynəlxalq idman hüququnun ilkin mənbəyi sayılır.

Beynəlxalq idman hüququnun **törəmə mənbəyi** dedikdə ikinci dərəcəli mənbə başa düşülür; beynəlxalq idman təşkilatlarının qərarları bu mənbə növünə aiddir. Belə ki, idman fəaliyyəti sahəsində belə qərarlar BİH-in ilkin subyekti olan dövlətlər tərəfindən deyil, törəmə subyekti sayılan beynəlxalq idman təşkilatları tərəfindən qəbul olunur.

3.2. Beynəlxalq idman hüququnun mənbə növlərinin xarakteristikası

3.2.1. Beynəlxalq müqavilələr beynəlxalq idman hüququnun mənbəyi kimi

Müasir beynəlxalq hüququn, eləcə də onun struktur tərkib hissələrindən olan BİH-in əsas və başlıca mənbə növlərindən biri **beynəlxalq müqavilə** sayılır. Buna görə də, beynəlxalq idman münasibətlərinin hüquqi tənzimlənməsində beynəlxalq müqavilələr xüsusi aktuallığa malik olmaqla böyük rol oynayır. Bu səbəbdən beynəlxalq müqavilələr BİH-in **əsas və universal mənbəyi** kimi mühüm əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, beynəlxalq idman münasibətləri praktikasında beynəlxalq müqavilələrlə hüquqi tənzimetmə forması geniş yayılmışdır. Məlum məsələdir ki, söhbət beynəlxalq idman müqavilələrindən gedir.

Beynəlxalq idman müqavilələri bu və ya digər əlamətə görə müxtəlif növlərə bölünür.[1] **Təsir sferası əlamətinə** görə beynəlxalq idman müqavilələrinin iki növü fərqləndirilir:[2]

– niversal beynəlxalq idman müqavilələri;
– regional beynəlxalq idman müqavilələri.

Universal beynəlxalq idman müqavilələrinin təsir sferası geniş olmaqla, hər hansı bölgə və ərazi xarakteri ilə məhdudlaşmır. Məsələn, Bədən tərbiyəsi və idman haqqında Beynəlxalq Xartiya (21.11.1978-ci il tarixdə BMT tərəfindən qəbul edilmişdir), İdmanda dopinqə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya (Paris, 19.10.2005-ci il) və digər müvafiq konvensiyalar universal beynəlxalq idman müqaviləsi sayılır. Həmçinin BMT və onun ixtisaslaşdırılmış təsisatları – UNESCO, ÜST, ÜƏMT, BƏT və sairə orqanlar tərəfindən beynəlxalq idman əməkdaşlığının həyata keçirilməsi istiqamətində qəbul edilən aidiyyəti qərarlar BİH-in mənbəyi kimi çıxış edir.

Əgər beynəlxalq idman müqaviləsinin təsir sferası bu və ya digər bölgəyə aid olarsa, ona **regional beynəlxalq idman müqaviləsi** deyilir. Məsələn, Dopinq qəbul edilməsinə qarşı Konvensiya – ETS №135 (Strasburq, 16.11.1989-cu il), Avropa üçün İdman Xartiyası (Yunanıstan, Rodos ş., 15.05.1992-ci il), "İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyası (ETS №120-1983-cü il); "İdman fəaliyyətində, innovasiya və peşə hazırlığında islahatların inkişaf Proqramı" – Ümumavropa SPRİNT Proqramı (1991-ci il) və başqa müvafiq aktlar yalnız Avropa İttifaqına daxil olan ölkələr arasındakı idman münasibətlərini nizamlayır.

---

1 Ətraflı bax: Международное спортивное право. Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.241-258.

2 Ümumiyyətlə,bütün növ beynəlxalq müqavilələrin bu əlamət üzrə təsnifi barədə daha ətraflı bax: Курс международного права. Том IV /Отв.ред. Г.И.Тункин. М., 1968, с.224.

Subyekt tərkibi əlamətinə görə idman müqavilələri iki növə bölünür:

- ikitərəfli beynəlxalq idman müqaviləsi;
- çoxtərəfli beynəlxalq idman müqaviləsi.

İkitərəfli beynəlxalq idman müqaviləsi BİH-in iki subyekti arasında bağlanır; burada yalnız iki subyekt iştirak edir. Bu növ beynəlxalq idman müqavilələrinə aiddir: məsələn, bədən tərbiyəsi, idman və elmi-texniki əməkdaşlıq haqqında müqavilələr, idman sahəsində texniki yardım göstərilməsi barədə saziş, idman fəaliyyəti haqqında müqavilə, ikiqat verginin tutulmaması barədə saziş və s. Beynəlxalq idman fəaliyyəti praktikasında bağlanılmış ikitərəfli idman müqavilələrinə nümunə kimi aşağıdakıları göstərə bilərik:

- "Rusiya Federasiyası Hökuməti və Meksika Birləşmiş Ştatları Hökuməti arasinda mədəniyyət, təhsil və idman sahəsində əməkdaşlıq haqqında" Saziş (1996-cı il);
- "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və cənglər sahələrində əməkdaşlıq haqqında" Saziş (2010-cu il); "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair" Memorandum (2011-ci il);
- "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu (2019-cu il);
- "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qırğız Respublikası Hökuməti yanında Gənclər, Bədən Tərbiyəsi və İdman Məsələləri üzrə Dövlət Agentliyi arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında" Saziş (2020-ci il);
- "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında" Saziş (2020-ci il);

– "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında" Saziş (2020-ci il) və s.

Çoxtərəfli beynəlxalq idman müqaviləsi iki deyil, bir neçə subyekt arasında bağlanır. Başqa sözlə, əgər beynəlxalq idman müqaviləsində ikidən çox subyekt iştirak edərsə, o, çoxtərəfli beynəlxalq müqavilə sayılır. Bu növ beynəlxalq müqavilə, qeyd etdiyimiz kimi, iki dövlət arasında deyil, çoxsaylı dövlətlər arasında idman fəaliyyətinin reallaşdırılması, oyunların təşkili, yarışların keçirilməsi və digər sahələrdə münasibətləri tənzimləyir; onlar həm universal, həm də regional əhəmiyyətli ola bilər. Aşağıda göstərilən çoxtərəfli beynəlxalq müqavilələr də, digər beynəlxalq hüquqi aktlarla yanaşı, beynəlxalq idman münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayır: Tariflər və Ticarət üzrə Baş Saziş (TTBS, yəni QATT-1994), Xidmətlərlə Ticarət üzrə Baş Saziş (XTBS, yəni QATS-1994), Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş (TRİPS), İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş (TRİMS),[1] İdmanda aparteid əleyhinə Beynəlxalq Konvensiya (Nyu-York, 1986-cı il) və s.

Hüquq müəyyənetmə əlamətinə görə beynəlxalq idman fəaliyyəti sahəsində idman müqavilələri iki növə ayrılır:

– "qanun-müqavilə";
– "müqavilə-əqd".

"Qanun-müqavilə" dedikdə elə beynəlxalq idman müqaviləsi başa düşülür ki, o, hüquq müəyyənləşdirir, yaradır; buna görə ona, bəzən, "hüquq müəyyənləşdirici beynəlxalq müqavilə" də deyilir. Məsələn, idman-transfer münasibətlərinin prinsiplərini müəyyənləşdirdiyinə görə bu cür beynəlxalq idman müqavilələri "qanun-müqavilə" növünə aiddir.

[1] Göstərilən beynəlxalq hüquqi aktlar barədə ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik.Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş).Bakı,"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.246-511.

"Müqavilə-əqd" dedikdə idman fəaliyyəti sahəsində müəyyən obyektin (məsələn, beynəlxalq futbol kompleks infrastrukturunun, su polosu arenasının, avtoralli yarışları üçün yolların və s.) tikilməsi haqqında, müəyyən müddət ərzində qarşılıqlı mal-avadanlıq və ya idman texniki ləvazimat vasitələrinin göndərilməsi barədə saziş başa düşülür; ona "öz-özünə icra olunan müqavilə" də deyilir.

Tənzimetmə predmeti əlamətinə görə beynəlxalq idman müqavilələrinin bir neçə növü fərqləndirilir:

- beynəlxalq olimpiya müqaviləsi;
- beynəlxalq paralimpiya müqaviləsi;
- beynəlxalq peşəkar idman sazişi və s.

Beynəlxalq olimpiya müqaviləsinin tənzimetmə predmetini beynəlxalq olimpiya münasibətləri təşkil edir. **Beynəlxalq paralimpiya müqaviləsinin** predmeti beynəlxalq paralimpiya oyunlarının keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərindən ibarətdir. **Beynəlxalq peşəkar idman sazişi** beynəlxalq peşəkar idman fəaliyyəti sahəsində tədbirlərin (oyun, yarış və s.) həyata keçirilməsi ilə bağlı məsələləri tənzim edir.

Məzmun əlamətinə görə beynəlxalq müqavilələr BİH-də aşağıda göstərilən üç növə bölünür:

- -beynəlxalq siyasi müqavilə;
- -beynəlxalq idman müqaviləsi;
- beynəlxalq idman təşkilatlarının yaradılması barədə müqavilə.

Beynəlxalq siyasi müqavilənin məzmunu, əsasən və başlıca olaraq, siyasi məsələlərlə bağlı olsa da, belə müqavilədə beynəlxalq idman münasibətlərinə dair normalar da nəzərdə tutulur. Məsələn, dostluq, sülh və əməkdaşlıq haqqında bağlanılan ikitərəfli müqavilə bu növ beynəlxalq müqaviləyə nümunədir.

Beynəlxalq idman müqaviləsi odur ki, bu müqavilənin məzmununu sırf idman məsələləri təşkil edir. Məsələn, bədən tərbiyəsi, fiziki hazırlıq, idman, hərbi oyunlar və digər məsələlər barədə sazişlər bu növ beynəlxalq müqaviləyə misaldır.

Beynəlxalq idman təşkilatlarının yaradılması barədə müqavilə fəaliyyəti beynəlxalq idman münasibətləri sahəsi ilə əlaqədar olan beynəlxalq təşkilatların yaradılmasını nəzərdə tutur. Məsələn, Beynəlxalq Olimpiya Komitəsinin yaradılması haqqında (1894-cü il), İdman elmi, bədən tərbiyəsi və idman üzrə Beynəlxalq Şura (1958-ci il), Milli olimpiya komitələrinin Baş Assosiasiyası (1968-ci il), Beynəlxalq idman federasiyalarının Baş Assosiasiyası (1967-ci il), Beynəlxalq Olimpiya Akademiyası (1961-ci il) və s. müvafiq beynəlxalq idman təşkilatlarının yaradılması haqqında beynəlxalq müqavilələr.

İdman fəaliyyəti sahəsində **bağlanma səviyyəsinə** görə beynəlxalq idman müqavilələri üç növə bölünür:

- dövlətlərarası beynəlxalq idman müqaviləsi;
- hökumətlərarası beynəlxalq idman müqaviləsi;
- idarələrarası beynəlxalq idman müqaviləsi.

Dövlətlərarası beynəlxalq idman müqaviləsi idman işi sahəsində münasibətlərin tənzimlənməsi məqsədilə iki və daha çox dövlət tərəfindən, **hökumətlərarası beynəlxalq idman müqaviləsi** idman fəaliyyəti istiqamətində ayrı-ayrı ölkələrin hökumətləri tərəfindən bağlanır. **İdarələrarası beynəlxalq idman müqaviləsi** isə idman münasibətlərinin nizama salınması ilə əlaqədar mərkəzi icra hakimiyyəti və digər dövlət orqanları (qurumları) adından bağlanır (məsələn, Gənclər və İdman Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank və s.). Lakin, buna baxmayaraq, onlar eyni hüquqi qüvvəyə malikdirlər.

Bunlardan başqa, BİH-də beynəlxalq müqavilələr **hansı subyektlər arasında bağlanmasından** asılı olaraq, aşağıda göstərilən üç növə bölünür:

- dövlətlər arasında bağlanan beynəlxalq idman müqaviləsi;
- dövlətlərlə beynəlxalq hökumət təşkilatları arasında bağlanan beynəlxalq idman müqaviləsi;

– beynəlxalq hökumət təşkilatlarının özləri arasında bağlanan beynəlxalq idman müqaviləsi;
– idman sahəsində fəaliyyət göstərən idarələrarası təşkilatlar arasında bağlanan beynəlxalq idman müqaviləsi və s.

Qeyd edə bilərik ki, müasir dövrdə beynəlxalq idman hüququnun inkişafında beynəlxalq müqavilələr daha çox əhəmiyyətli rol oynayır və bu, onların hüquqi təbiətindən irəli gəlir. Məhz belə müqavilələr vasitəsilə BİH normalarının unifikasiya olunması, eyniformalı hüquqtətbiqetmə praktikasının formalaşması, müxtəlif dövlətlərin subyektləri arasında idman-hüquq münasibətlərinin geniş şəkildə inkişaf etdirilməsi həyata keçirilir.

3.2.2.Beynəlxalq-hüquqi adətlər

Qeyd etdiyimiz kimi, beynəlxalq-hüquqi adətlər beynəlxalq müqavilələrlə birlikdə BİH-in əsas mənbə növünə aiddir. Əgər dövlətlərarası beynəlxalq idman münasibətlərini beynəlxalq müqavilələrin köməyi və vasitəsi ilə tənzim etmək mümkün olmazsa, onda həmin münasibətləri nizama salmaq üçün beynəlxalq-hüquqi adətlərdən istifadə olunur. BİH-in nizamasalma predmetini təşkil edən beynəlxalq idman münasibətlərinin tənzimlənməsində onlar az olmayan vacib rol oynayır. Belə ki, universal xarakterli beynəlxalq idman müqavilələrinin sayı heç də çox deyildir. Belə halda köməyə, əlbəttə, beynəlxalq-hüquqi adətlər gəlir. Təsadüfi deyil ki, beynəlxalq hüquq, əsasən, beynəlxalq-hüquqi adət normaları yaratmaq yolu ilə öz funksiyasını yerinə yetirir və inkişaf edir.[1] Buna görə də, beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn mənbələri iyerarxiyasında mühüm yer tutur ki, bu, onların mənşəyinin müasir olmaları ilə izah edilir.[2]

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В. Черниченко. М., 2008, с. 441.
[2] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с. 511.

Bədən tərbiyəsi-sağlamlıq və idman məhsullarının beynəlxalq ticarətində **beynəlxalq adətlərin** rolu olduqca əhəmiyyətlidir. Bu sahədə adətlər, eləcə də işgüzar adətlər Beynəlxalq Ticarət Palatası (BTP) çərçivəsində qeyri-rəsmi kodifikasiya olunaraq, unifikasiya edilmiş qaydalar məcmusu kimi təqdim olunmuşdur – Ticarət terminlərinin təfsirinin Beynəlxalq Qaydaları (İNKOTERMS Qaydaları). Alqı-satqı kontraktlarında nəzərdə tutulan təməl şərtləri özündə ehtiva edən **İNKOTERMS** 2000-ci il redaktəsində qüvvədədir və Qaydalarda təsbit edilən normalar aidiyyəti üzrə idman müqaviləsində istinad olunduqda tətbiq edilir. Onun **əsas vəzifələrindən** biri xarici ticarətdə ən çox istifadə edilən terminlərin açıqlanması üçün beynəlxalq qaydaların tərtib olunmasıdır ki, bu da müxtəlif ölkələrdə həmin terminlərin təfsirindəki fərqləri aradan qaldırmağa, yaxud minimuma endirməyə imkan verir. Daha asan oxunmaları və anlaşıla bilmələri üçün terminlər dörd bazis qruplarında toplanmışdır.[1]

Beynəlxalq adətlərin təsbit olunduğu xarakterik nümunələrdən biri kimi Beynəlxalq kommersiya müqavilələrinin Prinsipləri (1994-cü il) xüsusi əhəmiyyət kəsb edir və o, **"UNİDRUA Prinsipləri"** adı ilə də tanınır. Bu sənəddə ehtiva olunan normalar da müvafiq idman müqaviləsində aidiyyəti üzrə istinadlar olduqda tətbiq edilir. Adıçəkilən sənəd hökumətlərarası təşkilat statusuna malik olan Xüsusi hüququn unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNİDRUA) tərəfindən işlənib hazırlanmışdır.[2]

Beynəlxalq-hüquqi adətləri "beynəlxalq adətlərdən" fərqləndirmək lazımdır. İlk növbədə qeyd etməliyik ki, beynəlxalq

[1] Bu barədə bax: Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər (xarici-iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə lüğət-məlumat kitabı; yenidən işlənmiş və tamamlanmış nəşr) / Müəllif-tərtibçilər: Əfəndiyev O.F.,Əliyev E.Ə. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2005, s.117.

[2] Ətraflı bax: https://legalacts.ru/doc/printsipy-mezhdunarodnykh-kommercheskikh-dogovorov-printsipy-unidrua-1994 (30.10.2021-ci il)

müqavilələrdən fərqli olaraq, beynəlxalq adətlər yazılmamış, lakin cəmiyyətdə adət edilmiş xarakterə malikdir. Beynəlxalq-hüquqi adətlər isə dövlətlər tərəfindən sanksiyalaşdırılmış beynəlxalq adətlər deməkdir. Belə ki, əgər beynəlxalq adətlər dövlətlər tərəfindən sanksiyalaşdırılarsa, artıq onlar beynəlxalq-hüquqi adətlər hesab edilir. **Sanksiyalaşdırma** dedikdə isə dövlətlər tərəfindən beynəlxalq adətlərin məcburi qüvvəsi olan hüquq normaları kimi tanınması başa düşülür (***opinio juris*** *– qaydaların hüquq norması kimi tanınması*).[1] Beynəlxalq adətlər öz normativ məzmununa görə beynəlxalq praktikada, bir qayda olaraq, dövlətlərin eyni hərəkətlərinin və ya hərəkətsizliyinin uzun müddət ərzində, tədricən təkrarlanması yolu ilə formalaşır. Qeyd olunmalıdır ki, beynəlxalq adətlər deyil, yalnız beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn mənbəyi sayılır.

Beynəlxalq-hüquqi adətlər dedikdə beynəlxalq praktikada tədricən formalaşan, dövlətlərin eyni hərəkətlərinin (və ya hərəkətsizliyinin) uzun müddət təkrarlanması yolu ilə yaradılan və onlar tərəfindən sanksiyalaşdırılan, yəni məcburi qüvvəsi olan hüquq normaları kimi tanınan davranış qaydaları başa düşülür.

Qeyd etməliyik ki, beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn əsas prinsiplərinin (məsələn, dövlət suverenliyinə hörmət etmək, dövlətlərin hüquq bərabərliyi, beynəlxalq müqavilələrə məcburi surətdə əməl olunması və digər prinsiplərin) **başlıca mövcudolma formasıdır** ki, həmin prinsiplərin BİH üçün böyük əhəmiyyəti vardır; tarixən həmin prinsiplər beynəlxalq adətlərdən yaranmışdır. Beynəlxalq adətlər, eyni zamanda, beynəlxalq hüququn sahəvi prinsiplərinin mənbəyi sayılır.[2] Başqa sözlə, beynəlxalq adətlər həmin prinsiplərin də

[1] Bax: Словарь международного права. Изд. 2-е, перераб. и доп. /Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др.
М., «Международные отношения» , 1986, с.429.

[2] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с. 113.

başlıca mövcudolma formasıdır.[1] Bu fikirlər bütövlükdə beynəlxalq hüququn struktur tərkib hissəsi olan beynəlxalq idman hüququna da şamil olunur.

Bəzi beynəlxalq adətlər sonradan beynəlxalq müqavilələrdə hüquqi cəhətdən möhkəmləndirilmişdir; bununla da onlar beynəlxalq müqavilə normalarına çevrilmişdir. Lakin, buna baxmayaraq, beynəlxalq adətlər **öz xarakterini itirmir** və beynəlxalq müqavilə iştirakçısı olmayan digər dövlətlər üçün beynəlxalq davranış qaydaları olmaqda davam edir.

Beynəlxalq adətlər nəinki beynəlxalq müqavilələrdə möhkəmləndirilir, həmçinin **beynəlxalq təşkilatların qərarlarında** öz əksini tapır. Məsələn, Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası (1974-cü il) beynəlxalq adət normalarını ifadə edir ki, həmin sənəd BMT Baş Assambleyasının Qətnaməsi formasında qəbul edilmişdir.[2]

Beynəlxalq-hüquqi adətlər vacib əhəmiyyətə malik olsa da, beynəlxalq idman münasibətlərinin normativ hüquqi tənzimolunma mexanizmində əsas və başlıca rol beynəlxalq müqavilələrə məxsusdur. Bu, BİH-in inkişaf tendensiyasını xarakterizə edən cəhətlərdən biridir.

3.2.3.Beynəlxalq hökumət təşkilatlarının aktları

Beynəlxalq hökumət təşkilatları beynəlxalq hüquq subyektliyinə malikdirlər. Beynəlxalq hüquq subyektliyi həm də onu ifadə edir ki, bu və ya digər subyekt beynəlxalq hüquq normaları yarada bilər.[3] Bu aspekt tamamilə beynəlxalq idman hüquq normalarının yaradılmasına da şamil olunur. Buna görə də, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq hökumət təşkilatlarının **beynəlxalq hüquq normaları yaratmaq qabiliyyəti** vardır.

---

[1] Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.74.

[2] Ətraflı bax: https://www.google.com+(1974) – 31.10.2021-ci il.

[3] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.78.

Bu normalar həmin təşkilatların bağladıqları beynəlxalq müqavilələrdən başqa, özlərinin qəbul etdikləri sənədlərdə də formulə oluna bilər. Həmin sənədlər öz xarakterinə görə hüquqi aktlar olub, beynəlxalq hüququn, o cümlədən BİH-in mənbəyi hesab edilir. Beynəlxalq hökumət təşkilatlarının qəbul etdikləri hüquqi aktlar müxtəlif adlarda ola bilər: qərar, qətnamə, direktiv, tövsiyə, reqlament və s.

Digər tərəfdən, beynəlxalq hüquq dövlətlər tərəfindən beynəlxalq hökumət təşkilatlarına məcburi qüvvəsi olan hüquqi aktlar qəbul etmək səlahiyyətinin verilməsi üçün hər hansı qadağan nəzərdə tutmur; qeyd etməliyik ki, beynəlxalq hüquqda dövlətlərin beynəlxalq hökumət təşkilatlarına belə hüquq verməsinə mane olan bu və ya digər normaya rast gəlinmir. Buna görə də, dövlətlər öz yaratdıqları beynəlxalq hökumət təşkilatlarını **normativ hüquqi aktlar qəbul etmək hüququ** ilə təmin etmişdir.

Beynəlxalq hökumət təşkilatlarının qərarları beynəlxalq hüququn, eləcə də BİH-in **yeni mənbə** növüdür. Belə ki, onlar BMT-nin yaranması ilə bağlı olaraq, XX əsrin ortalarından başlayaraq, BİH-in də mənbəyi kimi tanınmışdır. BMT və digər universal təşkilatlar BİH-in subyektləri üçün məcburi olan qərarlar qəbul etmək səlahiyyətinə malikdirlər. Beynəlxalq universal və ya regional idman təşkilatları, habelə beynəlxalq idman inteqrasiya birlikləri də belə subyektlər sırasına daxildir. Buna görə də, beynəlxalq hökumət təşkilatları regional və universal xarakterli olmalarından asılı olmayaraq, beynəlxalq idman münasibətlərini tənzimləmə əhəmiyyətinə malik olan hüquqi aktlar qəbul etmək səlahiyyətinə malikdirlər. Qeyd etmək lazımdırki, praktiki olaraq, beynəlxalq hökumət təşkilatlarının hamısında üzv- dövlətlər üçün məcburi hüquqi qüvvəsi olan qərarlar qəbul edən **müvafiq orqanlar** fəaliyyət göstərirlər; bu təşkilatların qərarlarının hüquqi qüvvəsi onların **təsis aktı** ilə müəyyən edilir. Yalnız beynəlxalq hökumət təşkilatlarının hüquqyaradıcı, yəni hüquq norması müəyyənləşdirən qərarları

beynəlxalq hüququn (həmçinin BİH-in) mənbəyi ola bilər;[1] onlar, məlum olduğu kimi, hüquqyaratma səlahiyyəti ilə təmin olunmuşdur.[2] Bu səlahiyyət çərçivəsində beynəlxalq hökumət təşkilatları öz adından aktlar qəbul edə bilər ki, həmin aktlar öz hüquqi təbiətinə görə **birtərəfli akt** hesab edilir. Beynəlxalq hökumət təşkilatlarının aktları beynəlxalq hüququn mənbələrini səciyyələndirən bütün əlamətlərə cavab verir; bu səbəbdən onlar beynəlxalq hüququn, o cümlədən BİH-in mənbəyi sayılır. Qəbul olunan aktlar BİH-in müstəqil subyekti olan beynəlxalq hökumət təşkilatlarının iradəsini ifadə edən formadır; bu aktlarda **məcburi idman-davranış qaydaları** müəyyənləşdirilir. Onların məcburi hüquqi qüvvəsi vardır ki, bu, beynəlxalq hökumət təşkilatlarının üzvü olan dövlətlərin iradəsi ilə təsis aktı əsasında müəyyən olunur; təsis aktı isə beynəlxalq müqavilədir.

Beynəlxalq hökumət təşkilatlarının məcburi aktları beynəlxalq hüququn, o cümlədən BİH-in mənbəyi kimi tanınır; onların tövsiyə xarakterli aktları isə, hüquq normaları müəyyənləşdirmək üçün **yardımçı vasitə** rolunu oynayır.

BİH sahəsində hüquq yaradıcılığı baxımından, BMT-nin xüsusi rolu və əhəmiyyəti vardır. BMT-nin, xüsusən də onun **Baş Assambleyasının qətnamələri** BİH üçün müstəsna dərəcədə önəmlidir. Həmin orqanın qətnamələri ilə bir sıra vacib əhəmiyyət kəsb edən sənədlər qəbul olunmuşdur: məsələn, Ümumdünya insan hüquqları Bəyannaməsi (1948-ci il), Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası (1974-cü il), Yeni iqtisadi qayda haqqında Bəyannamə (1974-cü il), Yeni beynəlxalq iqtisadi qaydanın hüquqi aspektlərinə dair beynəlxalq hüquq norma və prinsiplərinin inkişafı haqqında Qətnamə (1979-cu il), Beynəlxalq iqtisadi münasibətlərdə etimadın möhkəmləndirilməsi barədə Qətnamə (1984-cü il), Beynəlxalq iqtisadi təhlükəsizlik haqqında Qətnamə (1985-ci il) və s.

---

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8.

[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.68.

Beynəlxalq hüquq üzrə alim və hüquqşünasların əksəriyyəti belə hesab edirlər ki, BMT Baş Assambleyasının bəzi qətnamələrinin məcburi hüquqi qüvvəsi vardır.[1]

3.2.4.Beynəlxalq idman təşkilatlarının aktları

Müasir dövrdə beynəlxalq idman hüququnun formalaşmasında beynəlxalq idman təşkilatlarının **normativ aktları** əhəmiyyətli rol oynayır. BİH-in normativ əsası öz başlanğıcını, əsasən, ixtisaslaşdırılmış müəssisələr arasında bağlanan beynəlxalq sazişlərdən götürür. Belə müəssisələrin əksəriyyəti isə, hüquqi təbiətinə görə, öz milli hökumətlərindən və beynəlxalq idman təşkilatlarının normativ sənədlərindən asılı olmayan ictimai təşkilatlardır. Beynəlxalq idman təşkilatlarının normativ xarakterli aktları həmin təşkilatların hüquqi statusunu müəyyən etməklə, BOK, BPK, BİF və digər beynəlxalq idman qurumlarının fəaliyyətini reqlamentləşdirir.

Qeyd etməliyik ki, Beynəlxalq Olimpiya Komitəsinin, müxtəlif idman növləri üzrə beynəlxalq federasiyaların, milli olimpiya komitələrinin fəaliyyətinə, habelə olimpiya hərəkatının fəaliyyət göstərməsinə, Olimpiya oyunlarının təşkili və keçirilməsinə dair əsas prinsip, norma və qaydalar **BOK-un Olimpiya Xartiyasında** (2001-ci il) cəmlənmişdir. Bu sənədi, bəzən, olimpiya hərəkatının təşkili və realizasiyası **məcəlləsi** adlandırırlar. Sözügedən Olimpiya Xartiyası hazırda 2020-ci il 17 iyul tarixli redaksiyada qəbul edilmişdir.[2]

Beynəlxalq arenada olimpiya idman münasibətlərini yüksək səviyyədə tənzimləmək xüsusiyyətinə malik olan adıçəkilən Xartiya **strukturca** Əsas prinsiplər bölməsindən və beş fəsildən ibarətdir. **Əsas prinsiplər** bölməsində olimpizmin fəlsəfə-

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.29.
[2] Ətraflı bax: www.olyimpic.org (01.11.2021-ci il).

si, onun məqsədləri, Olimpiya hərəkatı və Olimpiya oyunları üçün vacib əhəmiyyət kəsb edən əsas müddəalar yer almışdır.

I fəsil "Olimpiya Hərəkatı" adlanır və 18 Qaydadan ibarətdir. Bu fəsildə olimpizmin inkişafında BOK-un rolu (Qayda 2), məxsusiyyət (Qayda 3), tanınma (Qayda 4), hamilik (Qayda 5), Olimpiya konqresi (Qayda 7), Olimpiya həmrəyliyi (Qayda 8), Olimpiya oyunları (Qayda 9), Olimpiada (Qayda 10), Olimpiya simvolu (Qayda 12), Olimpiya bayrağı (Qayda 13), Olimpiya şüarı (Qayda 14), Olimpiya emblemi (Qayda 15), Olimpiya himni (Qayda 16), Olimpiya alovu (Qayda 18) və s. məsələlər barədə müvafiq qaydalar təsbit olunmuşdur.

Xartiyanın **II fəsili "Beynəlxalq Olimpiya Komitəsi"**nə həsr edilmişdir və özündə 10 sayda Qaydaları (19-28) ehtiva edir. Adıçəkilən fəsildə BOK-un qeyri-hökumət təşkilatı kimi hüquqi statusu (Qayda 19), üzvlük (Qayda 20), təşkil edilmə (Qayda 21), Sessiya (Qayda 22), İcraiyyə Komitəsi (Qayda 23), Prezident (Qayda 24), BOK-un rəsmi dilləri (Qayda 27) və s. barədə müvafiq göstərişlər mövcuddur.

III fəsil "Beynəlxalq Federasiyaları" (Qayda 29-30), **IV fəsil "Milli Olimpiya Komitələri"** (Qayda 31-35) və **V fəsil "Olimpiya Oyunları"** (Qayda 36-74) barədə müddəaları əks etdirir. Qeyd etməliyik ki, V fəsil özü də beş hissəyə ayrılmışdır. I hissə Olimpiya oyunlarının təşkil olunması və administrasiya, II hissə Olimpiya oyunlarında iştirak, III hissə Olimpiya oyunlarının proqramı, IV hissə Protokol və V hissə Arbitraj adlanır.

Beynəlxalq idman münasibətlərinin tənzimlənməsində BİH-in mənbəyi kimi Beynəlxalq Bədən Tərbiyəsi və İdman Xartiyası (1978-ci il), Avropa İdman Xartiyası (1992-ci il), İdman Etik Məcəlləsi (1985-ci il), "İdman, dözümlülük və təmiz oyun" Bəyannaməsi (1996-cı il), "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya (2005-ci il) və digər aktlar da xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq idman hüququnun mənbəyi kimi **Beynəlxalq Paralimpiya Komitəsi** (BPK) tərəfindən qəbul edilən normativ aktlar bu sahədə idman münasibətlərinin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edir. BPK paralimpiya hərəkatını idarə edir, paralimpiya oyunlarının keçirilməsi ilə bağlı qərarlar verir, eyni zamanda, o, bir sıra paralimpiya idman növləri üzrə idman federasiyası sayılır.[1]

BPK paralimpiya oyunlarında hansı idman növlərinin təmsil olunacağını, oyunların təşkilinin **ümumi sxemini**, tətbiq olunan **standartları** və s. **reqlamentləri** müəyyən edir. Lakin, dərhal elə buradaca məlumat üçün qeyd edək ki, Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi müvafiq ölkədə yaradılmış Olimpiya Oyunlarının Təşkilat Komitəsi tərəfindən **birbaşa** təşkil edilir.

Göstərilənlərlə yanaşı, eyni zamanda, qeyd etməliyik ki, dünyada idman sferasında ictimai münasibətlərin qaydaya salınmasında ayrı-ayrı idman növləri üzrə fəaliyyət göstərən **Beynəlxalq İdman Federasiyaları** (BİF) qurumları da vacib rol oynayır. BİF qurumlarının təsis sənədləri müxtəlif adlarla ifadə olunsa da (nizamnamə, konstitusiya və s.), mahiyyətcə, oxşar məzmuna malik olurlar. Xarakterik nümunə qismində onlardan birini nəzərdən keçirək. Söhbət **Dünya Atletikası Konstitusiyası** adlı sənəddən gedir. Bu sənəd beynəlxalq atletika təşkilatının fəaliyyət sferasında idman münasibətlərini nizama salır. Məlumat üçün qeyd edək ki, sözügedən təşkilat əvvəllər Beynəlxalq Həvəskar Atletika Federasiyaları Assosiasiyası (1912-ci il) kimi fəaliyyət göstərmiş, sonradan isə 2019-cu ildən onun adı dəyişdirilərək Ümumdünya Atletika Assosiasiyası – rəsmi olaraq, **"Dünya Atletikası"** adlandırılmışdır.[2]

---

[1] Ətraflı bax: http://www.paralympic.az/search?q= və ya **Ошибка! Недопустимый объект гиперссылки.** (01.11.2021-ci il).

[2] Ətraflı bax: www.WorldAthletics.org (01.11.2021-ci il).

Dünya Atletikası Konstitusiyası 2019-cu il redaksiyasında noyabr ayının 1-də qüvvəyə minmişdir və 13 bölmədən ibarətdir. **I bölmə "Başlanğıc, status, məqsədlər və səlahiyyətlər"** adlanır. Bu bölmədə göstərilir ki, BOK tərəfindən tanınmış Dünya Atletikası bütün dünyada atletika idman növünü idarə edən vahid beynəlxalq orqandır, mənzil-qərargahı Monako ərazisində yerləşir. Onun məqsədləri beynəlxalq arenada atletika idman növünün populyarlaşması və inkişaf etdirilməsi, yarışların keçirilməsinin təşviq olunması, ayrı-seçkiliyə yol verilməməsi, digər idman təşkilatları ilə əməkdaşlığın həyata keçirilməsi və s. hədəflərə nail olunmasından ibarətdir.

II bölmə "Üzvlük" adlanır və bu bölmədə təşkilata üzv qəbul olunmaq,üzvlərin hüquq və vəzifələri,üzvlük haqqı,üzvlüyə xitam verilməsi,üzvlüyün bərpası və s. məsələlər barədə müddəalar öz əksini tapmışdır.

Sözügedən Konstitusiyada **III bölmə "Kontinentlər", IV bölmə "Konqres", V bölmə "Şura", VI bölmə "Prezident və Vitse-prezidentlər", VII bölmə "İcraiyyə Komitəsi"** və digər bölmələr yer almışdır ki, burada təşkilatın fəaliyyətinin təşkil və təmin olunmasına dair maraqlı normativ tənzimləmə mexanizmi təqdim edilmişdir.

Şərh olunan normativ aktlar massivi ilə yanaşı, beynəlxalq idman münasibətlərinin nizama salınmasında müvafiq **idman məcəllələri** də BİH-in mənbəyi kimi vacib əhəmiyyətə malikdir. Belə ki, təsis sənədlərində təsbit olunmuş qayda və reqlamentlərin pozulmasına görə müvafiq tənbeh tədbirlərinin tətbiqinə dair işlərə baxılması və aidiyyəti qərarlar verilməsi intizam məcəllələri əsasında həyata keçirilir. Məsələn, belə aktlar sırasında nümunə qismində aşağıdakı sənədlərə istinad edə bilərik:

– BFFA (FİFA)-nın Nizamnaməsinin 54-cü maddəsinin 4-cü bəndinə müvafiq olaraq qəbul edilmiş Beynəlxalq

Futbol Federasiyasının **İntizam Məcəlləsi** (2005-ci ildə qəbul edilmişdir);[1]

- Beynəlxalq Olimpiya Komitəsi tərəfindən qəbul edilmiş **Tibb Məcəlləsi** (1994-cü ildə təsdiq olunmuşdur);[2]
- ÜADA (WADA)-nın Ümumdünya **Antidopinq Məcəlləsi** (2003-cü il,yenidən baxılmış variant 01.01.2021-ci ildən qüvvəyə minmişdir) ;[3]
- Beynəlxalq İdman **Arbitraj Məcəlləsi** (1994-cü il 22 noyabr tarixindən qüvvəyə minmişdir) [4] ;
- Avropa Şurası İdman **Etika Məcəlləsi** "Ədalətli oyun – qələbəyə yoldur" (1985-ci ildə qəbul edilmişdir) [5] və s.

Beləliklə, təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, müasir dövrdə beynəlxalq idman fəaliyyətinin əlaqələndirilməsi və idarə olunması, bu sahədə yaranan idman-ictimai münasibətlərinin effektiv surətdə tənzimlənməsi, idman oyunlarının təşkili, həyata keçirilməsi və s. məsələlərin həlli istiqamətində müvafiq idman-hüquq normalarını ehtiva edən kifayət qədər **beynəlxalq qanunvericilik massivi** formalaşmışdır və bu işdə beynəlxalq təşkilatların, o cümlədən beynəlxalq idman qurumlarının aktiv iştirak etmələri danılmaz faktdır.

3.2.5. İdman sferasında milli qanunvericilik aktları

Beynəlxalq idman hüququnun digər mənbə növlərindən biri də **dövlətdaxili (milli) qanunvericilik aktları** sayılır. Söhbət, təbii ki, idman qanunvericiliyindən gedir. Hər bir ölkənin özünəməxsus idman qanunvericiliyi mövcuddur. Məsələn, bizim

---

[1] Bax: www.FIFAworldcup.com və ya http://pfl.ua/docs/ FIFA_Disc_ Code_ 2006.pdf (01.11.2021-ci il).

[2] https://studref.com/524931/pravo/meditsinskiy_kodeks_ mezhdunarodnogo_olimpiyskogo_komiteta (02.11.2021-ci il).

[3] https://www.wada-ama.org/sites/default/files/resources/files/2021 vsemirnyy_antidopingov (02.11.2021-ci il).

[4] Bax: http://lib.sportedu.ru/GetText.idc?TxtID=1538 (02.11.2021-ci il).

[5] Bax: http://www.badm.ru/index.php?page_id=222 (02.11.2021-ci il).

ölkədə **idman qanunvericiliyi** Azərbaycan Respublikasının Konstitusiyasından, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan (MM, ƏM, VM, GM, CM, İXM və s.) və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Beynəlxalq idman fəaliyyəti sferasında yaranan ictimai münasibətlərin tənzimlənməsində ən yüksək hüquqi qüvvəyə malik olan **Azərbaycan Respublikasının Konstitusiyası** (1995-ci il) əsas və aparıcı rol oynayır. Belə ki, Konstitusiyada təsbit edilmiş bəzi normalar cəmiyyətdə idman fəaliyyətinin təşkili və həyata keçirilməsində qanuni bazis funksiyasına malikdir. Bu sırada aşağıdakı maddələrin adını çəkə bilərik: Maddə 12 (Dövlətin ali məqsədi), Maddə 26 (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi), Maddə 29 (Mülkiyyət hüququ), Maddə 30 (Əqli mülkiyyət hüququ), Maddə 35 (Əmək hüququ), Maddə 37 (İstirahət hüququ), Maddə 41 (Sağlamlığın qorunması hüququ), Maddə 59 (Azad sahibkarlıq hüququ), Maddə 60 (Hüquq və azadlıqların məhkəmə təminatı) və b.[1] Həmçinin Konstitusiya müəyyən edir ki, qanunvericilik sisteminin komponentləri kimi Konstitusiyanın özü, referendumla qəbul edilmiş aktlar, qanunlar, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları çıxış edir, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də hüquq sisteminin ayrılmaz tərkib hissəsidir (maddə 148).

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində fəaliyyətin təşkilati-hüquqi,sosial-iqtisadi əsasları və dövlət siyasətinin əsas prinsipləri **"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu** ilə (2009-cu il) müəyyən edilir.[2] Adıçəkilən qanunvericilik aktı idman

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, 52 s.
[2] http://www.e-qanun.az/framework/18303 (05.11.2021-ci il).

hüququnun mənbəyi olaraq, həm də sözügedən sahədə yaranan münasibətləri tənzimləyir, hər kəsin bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququna təminat verir. Qanunda bədən tərbiyəsi və idman sahəsində dövlətin vəzifələri, bələdiyyələrin səlahiyyətləri, vətəndaşların hüquqları, idman subyektlərinin fəaliyyətinin təşkili, milli antidopinq qurumu, olimpiya hərəkatı, paralimpiya hərəkatı, idman federasiyaları, uşaq-gənclər idmanı, peşəkar idman və s. məsələlər barədə kifayət qədər hüquq normaları təsbit olunmuşdur.

"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2016-cı il) idman-hüquq münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Bu Qanun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasının və Ümumdünya Antidopinq Məcəlləsinin tələblərinin Azərbaycan Respublikasında tətbiqini, idmançıların dopinqdən azad idmanda iştirak hüquqlarının təmin edilməsini, beynəlxalq və milli səviyyədə dopinqlə mübarizə proqramlarının həyata keçirilməsini və bu sahədə qadağan edilmiş maddə və üsullardan istifadə ilə mübarizənin səmərəli mexanizminin hazırlanmasını, idmanda dopinqdən istifadənin qarşısının alınması və onunla mübarizə sahəsində dövlət siyasətinin əsas prinsiplərini, sözügedən sahədə idarəetməni, idman subyektlərinin hüquq və vəzifələrini, dopinq nəzarətinin yerinə yetirilməsi qaydalarını və bununla bağlı aşkar edilmiş pozuntulara görə cavabdehliyi müəyyənləşdirir, habelə Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinə və **dürüst oyun prinsipinə** uyğun olaraq antidopinq siyasətinin həyata keçirilməsini nəzərdə tutur.[1]

İdman münasibətlərinin nizama salınması işində **Azərbaycan Respublikasının Mülki Məcəlləsi** (MM, 1999-cu il) xüsusi yer tutur. MM-də idman-hüquq münasibətlərinin realizasiyası zamanı tətbiq edilən çoxsaylı hüquq normaları mövcuddur:

[1] Ətraflı bax: http://azstand.gov.az/upload/files/447 (05.11.2021-ci il).

məsələn, fiziki şəxs anlayışı (maddə 24), hüquqi şəxs anlayışı (maddə 43), kommersiya təşkilatları (maddə 64-113), mülkiyyət hüququnun anlayışı və məzmunu (maddə 152), əqd anlayışı və onun növləri (maddə 324), müddət anlayışı (maddə 367), müqavilə anlayışı (maddə 389), sığorta haqqında ümumi müddəalar (maddə 883-898), oyunların və mərclərin keçirilməsi (maddə 1083-1086) və b. Adıçəkilən Məcəllədə belə bir göstəriş – hüquq norması təsbit olunmuşdur ki (maddə 3), Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr bu Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir.[1]

Xarici elementli idman-hüquq münasibətlərinin ölkəmizdə nizama salınmasında idman hüququnun mənbəyi kimi **"Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu** (2000-ci il) mühüm əhəmiyyət kəsb edir. Belə ki, sözügedən Qanunda onun tətbiq dairəsi və tətbiq edilməli hüququn müəyyən edilməsi, eləcə də **xarici elementli mülki hüquqi münasibətlərə** tətbiq olunmalı hüquq normaları barədə konkret göstərişlər əks olunur. Eyni zamanda, Qanunda göstərilir ki, xarici elementli mülki-hüquqi münasibətlərə tətbiq olunmalı hüquq bu Qanunla bərabər, həm də digər müvafiq qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ümumi qəbul olunmuş beynəlxalq adətlər, habelə tərəflərin razılığı əsasında müəyyən edilir. Tətbiq ediləcək hüququ müəyyən etmək barədə tərəflərin razılığı aydın ifadə olunmalı və ya bütövlükdə götürülməklə müqavilənin şərtlərindən və işin hallarından bilavasitə irəli

[1] Göstərilən məsələlər barədə bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi" , 2016, 848 s.

gəlməlidir. Göstərilən müddəalar, təbii ki, beynəlxalq idman-hüquq münasibətlərinin tənzimlənməsi hallarına də şamil edilir.[1]

Qeyd etməliyik ki, ölkəmizdə idman fəaliyyəti prosesində yaranan ictimai münasibətlərin (əmək, sosial, tibbi, əqli mülkiyyət, reklam, nəqliyyat, sığorta, vergi və s.) tənzimlənməsi və qaydaya salınması bir sıra normativ hüquqi aktlar vasitəsilə həyata keçirilir. Bu sırada **aşağıdakı aktların** adlarını, xüsusilə, çəkməliyik:

- Azərbaycan Respublikasının Su Məcəlləsi (1997-ci il);
- "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il);
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi (2000-ci il);
- "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu (2007-ci il);
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il);
- Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (2011-ci il) və s.

Göstərilən normativ hüquqi aktları[2] aidiyyəti üzrə beynəlxalq idman hüququnun **dövlətdaxili (milli) mənbə növü** kimi xarakterizə etmək olar. Bununla yanaşı, idman fəaliyyətinin təşkili, idarə edilməsi və həyata keçirilməsi, eləcə də idman

[1] Adıçəkilən qanunun mətni üçün bax: AR QT. Bakı, 2000, №10, maddə 708.

[2] Göstərilən məcəllələrin mətni üçün bax: http://e-qanun.az/framework/46943 (05.11.2021-ci il).

münasibətlərinin reqlamentləşdirilməsi sferasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli Olimpiya Komitəsi, Paralimpiya Komitəsi, Deflimpiya Komitəsi, Xüsusi Olimpiya Komitəsi, Respublika idman federasiyaları və s. idman qurumlarının **təsis sənədləri** (əsasnamə, nizamnamə, reqlament və s.) vacib rol oynayır və bu aktlarda təsbit edilmiş normalar idman fəaliyyətində geniş surətdə istifadə olunur.

Azərbaycan Respublikası Prezidentinin18 aprel 2006-cı il tarixli, 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"**də göstərilir ki, adıçəkilən Nazirlik ölkədə gənclər, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.[1]

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) ali təhsil müəssisəsi olaraq, bədən tərbiyəsi müəllimi və məşqçi-müəllim hazırlayır. Bu idman müəssisəsi **1930-cu ildə** Bakıda Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi təsis edilmiş, 1936-cı ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu adlandırılmışdır; 1999-cu ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına **çevrilmişdir.** ADBTİA Azərbaycanda yeganə ali təhsil ocağıdır ki, **beynəlxalq səviyyədə** idman yarışlarında qalib gələn idmançılar, peşəkar fiziki tərbiyə müəllimləri, birincilik ruhu yaradan məşqçilər, uğurlu idman menecerləri və aparıcı reabilitasiya mütəxəssisləri yetişdirir. [2]

Milli Olimpiya Komitəsi (MOK) – Olimpiya Xartiyası, Azərbaycan Respublikasının müəssisələr və ictimai birliklər

[1] Ətraflı bax: https://www.mys.gov.az/nazirlik/sasnam (06.11.2021-ci il).
[2] Bax: http://sport.edu.az/az/about/history/ (06.11.2021-ci il).

haqqında qanunları əsasında 1992-ci ildə yaradılmış, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmış və **Nizamnaməsi** Beynəlxalq Olimpiya Komitəsində qəbul olunmuş hüquqi şəxs statuslu müstəqil **qeyri-dövlət** təşkilatıdır. Onun nizamnaməsi ölkədə olimpiya hərəkatı ilə bağlı münasibətlərin tənzimlənməsində **idman hüququnun mənbəyi** kimi xüsusi əhəmiyyət kəsb edir.[1]

Azərbaycan Respublikasında Milli Olimpiya Komitəsi tərəfindən öz nizamnaməsinə uyğun müvafiq tədbirlər ölkədə ayrı-ayrı idman növləri üzrə fəaliyyət göstərən 95 adda müxtəlif **idman federasiyaları** ilə qarşılıqlı əlaqə və əməkdaşlıq şəraitində həyata keçirilir. Bu federasiyalar qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş müvafiq nizamnamə əsasında fəaliyyət göstəririlər. Məsələn, **Azərbaycan Atletika Federasiyasının** təsis sənədi olan **Nizamnamə** 2009-cu ildə təsdiq edilərək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Nizamnamədə sözügedən Federasiyanın məqsədləri, fəaliyyət istiqamətləri, təşkilatın hüquq və vəzifələri, idarə edilməsi, strukturu və s. məsələlərlə bağlı müddəalar təsbit olunmuşdur. O, bu sahədə münasibətlərin tənzimlənməsi istiqamətində idman höququnun mənbəyi funksiyasını yerinə yetirir.[2]

Ölkəmizdə idman-hüquq münasibətlərinin subyektlərindən biri olan **Peşəkar Futbol Liqası** (PFL) ictimai birliyi fəaliyyət göstərir ki, onun nizamnaməsi 2008-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Nizamnaməyə əsasən, PFL **qeyri-hökumət təşkilatıdır** və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir. **Hüquqi statusuna** görə PFL futbolun idarə olunması sahəsində öz fəaliyyətini AFFA ilə razılaşdırmaqla həyata keçirir. Futbol idman növünün idarə edilməsi ilə bağlı adıçəkilən ictimai birliyin

[1] Bax: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_ Milli_Olimpiya_ Komit%C9%99si (06.11.2021-ci il).
[2] Ətraflı bax: www.huquqiaktlar.gov.az (06.11.2021-ci il).

(PFL) qəbul etdiyi qərarlar **futbol-idman münasibətlərinin tənzimlənməsində** əhəmiyyətli rol oynayır.[1]

Bəzən, hüquq ədəbiyyatı səhifələrində **məhkəmə praktikası** idman hüququnun mənbələri sırasına daxil edilir.[2] Düzdür, idman işi sahəsində qanunvericiliyin eyni cür başa düşülməsi və eyni qaydada tətbiq edilməsi üçün məhkəmə praktikasının böyük əhəmiyyəti vardır. Lakin, buna baxmayaraq, məhkəmə praktikası hüququn, o cümlədən idman hüququnun mənbəyi hesab olunmur. Məhkəmə praktikası dedikdə məhkəmələrin ayrı-ayrı kateqoriya işləri dəfələrlə eyni cür həll etməsi başa düşülür. Ancaq, nəzərdən qaçırmaq olmaz ki, Konstitusiyanın 7-ci maddəsinin III hissəsi hakimiyyətin bölgüsü prinsipindən çıxış edir; bu prinsipə görə, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Məhkəmələrin isə qanunlar qəbul etmək və hüquq normaları yaratmaq səlahiyyəti yoxdur. Hakimiyyətin bölgüsü prinsipinə əsasən, belə səlahiyyətə Milli Məclis malikdir. Odur ki, məhkəmə orqanlarının qərarları hüququn mənbəyi ola bilməz. Lakin, məhkəmələr içərisində **Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi** elə qərarlar qəbul edir ki, normativ əhəmiyyətə və məzmuna malik olan, eyni zamanda, yeni hüquq normaları yaradan həmin qərarlar hüququn mənbəyi kimi tanınır.[3]

Göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, idman sferasında mövcud olan **milli qanunvericilik aktları** və **idman praktikası** vətəndaş cəmiyyətində normayaratma funksiyasının həyata keçirilməsində əhəmiyyətli rol oynayır, **beynəlxalq idman-hüquq normalarının** mənbəyi qismində çıxış edərək, onların formalaşmasına və zənginləşməsinə mühüm təsir göstərir.


---

[1] Bax: www.pfl.az; e-mail:info@pfl.az (06.11.2021-ci il).

[2] Bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.246.

[3] Bax: məsələn, Abdullayev F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. Bakı, 2013, s. 64-71.

III FƏSİL ÜZRƏ ƏYANİ SXEM



IV FƏSİL.
BEYNƏLXALQ İDMAN HÜQUQUNUN PRİNSİPLƏRİ

4.1. Beynəlxalq idman hüququnun prinsipləri və onların əhəmiyyəti

4.1.1. Beynəlxalq idman hüququnda tətbiq olunan prinsiplərin sistemi və tərkib hissələri

Məlum olduğu kimi, "prinsip" termini, mahiyyətcə, çoxcəhətli anlayışdır. Lakin, buna baxmayaraq, biz onu **iki əsas mənada** nəzərdən keçiririk:

– fəlsəfi mənada;
– hüquqi mənada.

Fəlsəfi mənada prinsiplər dedikdə hər hansı nəzəriyyənin, təlimin, elmin və dünyagörüşünün əsas çıxış müddəaları başa düşülür.[1] Şəxslərin öz həyat və fəaliyyətində rəhbər tutduqları əsas başlanğıc ideyalar geniş fəlsəfi mənada "prinsip" termininin mahiyyətini təşkil edir.

Lakin bizi "prinsip" anlayışının fəlsəfi deyil, hüquqi mənası maraqlındırır. Belə ki, əgər **"prinsip"** termininin etimologiyasına diqqət yetirsək, həmin terminin "əsas ideya", "başlanğıc müddəa", "rəhbər başlanğıc", "əsas" və s. mənalar ehtiva etməsini müəyyənləşdirə bilərik.[2] Çoxaspektli və müxtəlif variantlı anlayış olan "prinsip" həm də hüquqi mənada işlədilir; hüquqi mənada prinsip "hüquqi prinsip" adlanır. Hüquqi prinsip isə mütləq bu və ya digər hüquq normasında ifadə edilməli, təsbit olunmalıdır; hüquq norması hüquqi prinsipin **normativ məzmununu** müəyyənləşdirən vasitədir. Əgər hər hansı əsas ideyanın məzmunu hüquqi cəhətdən öz əksini müəyyən hüquq normasında taparsa, həmin ideya **"hüquqi prinsip"** sayılır.

---

[1] Советский энциклопедический словарь. М., 1988, с.1061.

[2] Məsələn, bax: Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. М., 1999, с.595; Толковый словарь живого великорусского языка / Изданий В.И.Даля и И.А.Бодуэна де Куртенэ в современном написании. Том 3. М., 2002, с.351 və b.

Deməli, hüquqi prinsip hüquqi mənada prinsipin özü deməkdir və o, bütün hüquqi materiyanı əhatə edir. Hüquqi əhəmiyyyətə məhz hüquqi mənada prinsip anlayışı malikdir. İctimai praktikada ideya yarandıqdan sonra hüquqi prinsipə çevrilir, prinsip isə hüququn inkişaf istiqamətini müəyyən edir.[1]

Hüquqi mənada prinsiplər, yəni hüquqi prinsiplər dedikdə hüquqda ifadə olunan, habelə onun məzmununu xarakterizə edən rəhbər başlanğıclar, əsas ideyalar başa düşülür və onlar hüquq sisteminin tərkib hissəsidir.[2]

İstənilən hüquq sistemi üçün, eləcə də onun ibarət olduğu ayrı-ayrı müstəqil hüquq sahələri üçün **hüquqi prinsiplər** vacib rol oynayır və öz-özlüyündə obyektiv zərurətdən doğan tənzimləyici funksiyanı yerinə yetirirlər. Hüquqi prinsplərin həm də BİH üçün böyük əhəmiyyəti vardır. Belə ki, hüquqi prinsiplər BİH-in tənzimetmə predmetinə daxil olan beynəlxalq idman münasibətlərinin hüquqi cəhətdən nizama salınmasının əsasını təşkil edir.

BİH-də tətbiq edilən hüquqi prinsipləri **üç qrupa** bölmək olar:

- hüququn ümumi prinsipləri;
- beynəlxalq hüququn əsas prinsipləri;
- beynəlxalq idman hüququnun xüsusi prinsipləri.

Qeyd etməliyik ki, beynəlxalq idman hüququn prinsipləri öz hüquqi təbiətinə görə **üçpilləlidir** (hüququn ümumi prinsipləri, beynəlxalq hüququn əsas prinsipləri, beynəlxalq idman hüququnun xüsusi prinsipləri). Yuxarı pillədə hüququn ümumi prinsipləri, orta pillədə beynəlxalq hüququn əsas prinsipləri, aşağı pillədə isə beynəlxalq idman hüququnun xüsusi prinsipləri durur. Həmin prinsiplər arasında **iyerarxiya qaydası** mövcuddur. İyerarxiya qaydasına görə, beynəlxalq idman hüququnun aşağı pillədə duran prinsipləri özündən yuxarı pillədə yerləşən prinsiplərə zidd olmamalı, onlara uyğun gəlməlidir. Belə ki,

[1] Лившиц Р.З.Теория права.М., 1994, с.195-196.

[2] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.671.

beynəlxalq idman hüququn prinsiplərinin səviyyəsi onların hüquqi qüvvəsi baxımından eyni deyildir: yuxarı pillədə duran prinsiplərin özündən aşağı pillədə yerləşən prinsiplərə nisbətən daha yüksək hüquqi qüvvəsi vardır. Bütün bunlar onu göstərir ki, beynəlxalq idman hüququ öz prinsiplərinin **üçpilləli iyerarxiyası** ilə xarakterizə olunur.

Beynəlxalq idman hüququnun prinsipləri **sistem halında** birləşərək bir-birilə sıx bağlıdır. Buna görə də, onlar ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə mövcud ola bilməz.

Məlum olduğu kimi, hüququn ümumi prinsipləri BMT Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq hüququn **mənbələrindən** biri kimi nəzərdə tutulur; həmin maddənin 1(c) bəndində göstərilir ki, məhkəmələr işləri həll edərkən "sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prinsiplərinə" istinad edə bilər.[1]

Hüququn ümumi prinsipləri dedikdə beynəlxalq hüququn, eləcə də milli (dövlətdaxili) hüququn məzmununu xarakterizə edən, hər iki hüquq sisteminin təbiətini əks etdirən və onlar üçün ümumi olan rəhbər başlanğıclar, əsas ideyalar başa düşülür.

Hüququn ümumi prinsipləri vacib göstərişlər kimi Roma hüququnda yaranmış və sonralar inkişaf etmişdir. Müasir dövrdə həmin prinsiplər **"hüquqi aksioma"**[2] kimi qəbul olunmuşdur. Belə **göstərişlərə** aiddir:

- "audiatur et altera pars" ("qoy qarşı tərəf də dinlənilsin");
- "res judicata" ("məhkəmə tərəfindən qəti olaraq həll edilən işə həmin məhkəmə yenidən baxa bilməz");
- "lex prospicit non respicit" ("qanunun geriyə qüvvəsi yoxdur");
- "non bis in idem" ("təkrarən məsuliyyətə cəlb olunmaq qadağandır");

[1] Daha ətraflı: Cheng B. General principles of law as applicd by International Courts and Tribunals. London, 1953.

[2] Bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.670.

– “nullum crimen sine lege” [“qanunla tanınmayan (hesab edilməyən) cinayət yoxdur”] və s.[1]

Əgər **rəhbər başlanğıclar və əsas ideyalar** həm beynəlxalq hüquq, həm də milli (dövlətdaxili) hüquq üçün ümumi olarsa, onda onlar hüququn ümumi prinsipləri kimi tanınır. Yalnız milli (dövlətdaxili) hüquqa xas olan və burada hüquqi cəhətdən möhkəmləndirilən ümumi hüquq prinsiplərinin mövcudluğu onu ifadə etmir ki, bununla onlar həm də beynəlxalq hüquqda ümumi prinsiplər sayılır. Bundan ötrü onlar beynəlxalq müqavilə və ya beynəlxalq-hüquqi adətlərin köməyi ilə beynəlxalq hüquqa daxil olmalıdır.[2]

Beləliklə, hüququn ümumi prinsipləri beynəlxalq hüquqda (beynəlxalq müqavilələrdə) və milli hüquqda (dövlətdaxili qanunvericilikdə) hüquqi cəhətdən möhkəmləndirilən, təsbit olunan prinsiplərdir.[3] Bu **prinsiplər sırasına** aiddir: ədalət prinsipi, etibar etmək prinsipi, müqaviləyə riayət etmək prinsipi, insan hüquqlarını müdafiə etmək prinsipi, qanunçuluq prinsipini və s.

Vicdanlı olmaq (bona fise) prinsipi də hüququn ümumi prinsipləri sırasına daxildir;[4] bu, beynəlxalq münasibətlərin bütün strukturuna nüfuz edən prinsipdir.[5] Buna görə də o, hüququn ümumi prinsipləri arasında əsas və geniş tanınan prinsiplərindən biri sayılır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilənlər hüququn ümumi prinsiplərinin hamısı deyildir, yəni verdiyimiz siyahı qəti və dəqiq xarakter daşımır. Məsələ burasındadır ki, həm forma cəhətdən, həm də məzmun baxımından hüququn ümumi

---

[1] Bu barədə ətraflı bax: Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı, 1999, 224 s.

[2] Курс международного права. Том 1 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с. 210.

[3] O’Brien J.International Law. London, Sijdney. 2001, p.90.

[4] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.25.

[5] Rosenstock R. The Declaration of Principles of International Law. Concerniny Frendly Relations: A.Survey // American Journal of International Law, Vol. 65, 1971, № 3, p.734.

prinsipləri **kifayət qədər müxtəlifdir**; buna görə onların qəti və dəqiq siyahısını vermək qeyri-mümkündür.

Hüququn ümumi prinsiplərinin əhəmiyyəti böyükdür. Birinci, həmin prinsiplərdən həm beynəlxalq hüquq, həm də milli (dövlətdaxili) hüquq normaları tətbiq olunan zaman istifadə edilir; ikinci, onlar həm milli, həm də beynəlxalq hüquqda bu və ya digər hüquq normasının təfsiri üçün tətbiq olunur.[1] Bu sözləri eynilə BİH normaları üçün də demək olar. Belə ki, hüququn ümumi prinsiplərindən **beynəlxalq idman münasibətlərində** hüquq normalarının tətbiqi və təfsiri prosesində istifadə edilir.[2] Hüququn ümumi prinsiplərinin BİH sferasında rolu və əhəmiyyəti də məhz bundan ibarətdir. Deməli, bu prinsiplər nəinki beynəlxalq hüquqda, həmçinin beynəlxalq idman hüququnda tətbiq edilir.

BİH üçün həm də **beynəlxalq hüququn əsas prinsiplərinin** böyük əhəmiyyəti vardır. Belə ki, bu prinsiplər, eyni zamanda, beynəlxalq idman hüququnda tətbiq edilir.

4.1.2. Beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq idman hüququnda tətbiqi

Məlum olduğu kimi, BİH beynəlxalq hüququn tərkibində beynəlxalq iqtisadi hüququn yarımsahələrindən biridir; bu səbəbdən **beynəlxalq hüququn əsas prinsipləri** BİH sferasında da tətbiq olunur. Qeyd etməliyik ki, həmin prinsiplər sözügedən hüquq sferasında vacib rol oynayır ki, bu, BİH üçün **xarakterik** cəhətdir.

Beynəlxalq hüququn əsas prinsiplərinin BİH sferasında böyük əhəmiyyətə malik olmaları özünü **üç əsas formada** göstərir. **Birinci,** bildiyimiz kimi, hər bir hüquq sahəsinin, o cümlədən BİH-in öz məqsədləri vardır; başqa sözlə, BİH-in qarşısın-

---

[1] Курс международного права. Том 1 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с.210-211.

[2] Bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право,2008, с.217-219.

da müəyyən **məqsədlər** durur. Beynəlxalq idman yarışlarının keçirilməsini təmin etmək, beynəlxalq idman təhlükəsizlik sisteminin formalaşmasına kömək etmək, qlobal xarakterli idman oyunları problemlərini həll etmək və s. BİH-in məqsədləri sayılır. Bu məqsədlərə **nail olunması** isə BİH-də beynəlxalq hüququn əsas prinsiplərindən istifadə edilməsini, necə deyərlər, tələb edir və ya zəruriləşdirir; əks halda BİH özünün qarşısına qoyduğu məqsədlərə çata bilməz.

İkinci, beynəlxalq hüququn, praktiki olaraq, bütün əsas prinsipləri iqtisadi məzmuna malikdir.[1] Belə ki, beynəlxalq hüququn hər bir əsas prinsipində bu və ya digər dərəcədə **iqtisadi element** vardır. Məhz bu səbəbdən BİH-in nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq idman-iqtisadi münasibətlərdə həm də, eyni zamanda, beynəlxalq hüququn əsas prinsipləri tətbiq olunur. Belə ki, onlar həmin münasibətlərin hüquqi tənzimlənməsində iştirak edir; buna görə də beynəlxalq idman münasibətlərini hüquqi tənzimetmə mexanizminə hüququn ümumi prinsipləri ilə yanaşı, beynəlxalq hüququn əsas prinsipləri də daxil olur. Odur ki, dövlətlərarası beynəlxalq idman münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsində həmin prinsiplər mühüm rol oynayır.

Üçüncü, beynəlxalq hüququn əsas prinsipləri BİH-in xüsusi prinsiplərinin **formalaşmasında** vacib rol oynayır. Belə ki, BİH-in xüsusi prinsipləri məhz beynəlxalq hüququn başlıca prinsipləri əsasında formulə edilir.

Beynəlxalq hüququn əsas prinsipləri dedikdə beynəlxalq hüququn başlıca məzmununu müəyyənləşdirən və onun nizamasalma predmetinə daxil olan dövlətlərarası münasibətlərin bütün sahələrində tətbiq edilən prinsiplər başa düşülür.[2] Bəzi müəlliflər beynəlxalq hüququn əsas prinsiplərini ifadə etmək

---

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 441.

[2] Beynəlxalq hüququn əsas prinsipləri və onların xarakteristikası barədə ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.I cild.Ümumi hissə.Bakı,2018,s.317-461.

üçün **"jus cogens" prinsipləri** kimi termin işlədirlər.[1] Beynəlxalq hüquq lüğətlərinə görə "jus cogens" imperativ hüquq norması sayılır [2] və bu norma, hətta, dövlətlərin razılığı ilə də dəyişdirilə bilməz.

Beynəlxalq hüququn əsas prinsipləri **öz əksini** BMT-nin Nizamnaməsində (1945-ci il), Beynəlxalq hüququn dövlətlərarası münasibətlərə və əməkdaşlığa aid prinsipləri haqqında 1970-ci il Bəyannaməsində (bu sənəd BMT Baş Assambleyasının 24 oktyabr 1970-ci il tarixli XXV sessiyası tərəfindən bəyənilmişdir), habelə Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci il tarixli Yekun Aktında tapmışdır.

Hesab edirik ki, beynəlxalq hüququn əsas prinsiplərinin BİH üçün də **aktual əhəmiyyəti** vardır. Belə ki, beynəlxalq hüququn əsas prinsipləri bilavasitə beynəlxalq idman münasibətlərini tənzimetmə mexanizminə daxildir; lakin onlar BİH-in nizamasalma predmetinə aid olan müvafiq münasibətləri tənzimetmə prosesində eyni cür iştirak etmirlər. Bu o deməkdir ki, beynəlxalq idman münasibətlərinin tənzimlənməsində beynəlxalq hüququn əsas prinsiplərinin əhəmiyyəti eyni deyildir; bu prosesdə həmin prinsiplərin bəziləri az, digərləri isə daha çox rol oynayır. Beynəlxalq hüququn əsas prinsipləri sırasında BİH üçün daha vacib əhəmiyyəti olan **aşağıdakı prinsipləri** göstərə bilərik:

- əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi;
- dövlətlərin suveren bərabərliyi prinsipi;
- güc tətbiq etməmək prinsipi;
- dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi;
- dövlətlərin dinc yaşamaları prinsipi;

[1] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 47.

[2] Вах: Словарь международного права.Изд. 2-е, перераб. и доп./Бацанов С.Б.,Ефимов Г.К.,Кузнецов В.И. и др. М., «Международные отношения» , 1986, с.428.

– beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi;
– dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi;
– beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipi;
– diskriminasiyaya (ayrı-seçkiliyə) yol verilməməsi prinsipi.

Qeyd etməliyik ki, göstərilən prinsiplər vasitəsi ilə **beynəlxalq idman sahəsində** dövlətlərarası əməkdaşlıq təmin olunur; buna görə də, onlar BİH üçün birinci dərəcəli əhəmiyyətə malikdirlər.

İstənilən fəaliyyət prosesində olduğu kimi, beynəlxalq idman hərəkatında da **əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi** əsas üstün prinsip olaraq, hamılıqla qəbul olunmuş beynəlxalq standartlara riayət edilməsini nəzərdə tutur. Bu prinsipə müvafiq olaraq, dünyada idman hərəkatı həyata keçirilərkən dövlətlər insan hüquqlarını təmin etməyə borcludurlar. Göstətilən prinsip öz əksini İnsan hüquqları haqqında Ümumi Bəyannamədə (1948-ci il), habelə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il), Əsas insan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında (1950-ci il), Yeni Avropa üçün Paris Xartiyasında (1990-cı il) və digər sənədlərdə tapmışdır.

Dövlətlərin suveren bərabərliyi prinsipinə görə, bütün xalqlar öz siyasi-iqtisadi, sosial-mədəni sistemini seçmək, o cümlədən bədən tərbiyəsi və idman sahəsində fiziki cəhətdən sərbəst şəkildə inkişaf etmək hüququna malikdir; həmin prinsip həm də bununla ifadə olunur ki, bütün dövlətlər öz əmlakı, resursları (məsələn, idman infrastruktur obyektləri) üzərində suveren hüquqa malikdirlər.

Güc tətbiq etməmək və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri idman sahəsində öz əksini bunda tapır ki, dövlətlərin sosial-iqtisadi əsaslarına və onların idman sahəsində həyata keçirdiyi sərbəst siyasətə qarşı yönələn hər cür müda-

xilə qadağandır; güc tətbiq etmək və daxili işlərə qarışmaq dövlətlərarası beynəlxalq idman münasibətlərinin normal inkişafına mane olur.

Dövlətlərin dinc yaşamaları prinsipinə görə, sosial-iqtisadi cəhətdən əmin-amanlığa, idman sahəsində sabitliyə, tərəqqiyə, yüksəlişə və dinamik inkişafa nail olmaq məqsədilə bütün dövlətlər bir-biri ilə normal beynəlxalq idman münasibətlərinə daxil olmalı, öz aralarındakı əlaqəni ədalətli və demokratik əsasda qurmalıdırlar; əks halda beynəlxalq idman sahəsində təhlükəsizliyi təmin etmək mümkün olmazdı.

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi həm də beynəlxalq idman müqavilələrindən irəli gələn beynəlxalq öhdəliklərin lazımınca yerinə yetirilməsini (icrasını) nəzərdə tutur; bütün dövlətlər iştirakçısı olduğu beynəlxalq idman müqavilələrindən yaranan beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməli, hər hansı pozuntu halına yol verməməlidirlər.

Dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipinə görə, bütün dövlətlər nəinki siyasi, mədəni, elmi, humanitar və digər sahələrdə, həmçinin idman sferasında əməkdaşlıq etməlidirlər; bunsuz dövlətlərarası beynəlxalq münasibətlərin normal və səmərəli inkişafı, habelə dostluq əlaqələrinin möhkəmləndirilməsi qeyri-mümkündür.

Beynəlxalq mübahisələrin dinc yolla həll olunması prinsipi həm də bunu ifadə edir ki, beynəlxalq idman münasibətlərindən yaranan bütün mübahisələr, yəni beynəlxalq idman mübahisələri yalnız sivill beynəlxalq-hüquqi vasitə və metodların köməyi ilə tənzimlənməlidir; belə mübahisələrin zor işlətmə, güc tətbiqetmə və digər qeyri-dinc üsullarla həlli qadağandır.

Diskriminasiyaya yol verilməməsi prinsipinə görə, idman münasibətləri sahəsində dövlətlərin hüquqlarının tapdalanması və ayrı-seçkilik halları qadağandır; bu prinsip idman sferasında dövlətlərarası beynəlxalq münasibətlər praktikasından diskriminasiyasının istənilən formasının aradan qaldırılmasını nəzərdə tutur.

4.2. Beynəlxalq idman hüququnun xüsusi prinsipləri

4.2.1. Beynəlxalq idman hüququnun xüsusi prinsiplərinin anlayışı və əhəmiyyəti

BİH-in nizamasalma predmetinə daxil olan beynəlxalq idman münasibətlərinin tənzimlənməsində həm də onun **xüsusi prinsipləri** iştirak edir. Belə ki, həmin münasibətləri hüquqi tənzimetmə mexanizminə nəinki hüququn ümumi və beynəlxalq hüququn əsas prinsipləri, həmçinin BİH-in xüsusi prinsipləri də daxildir. Qeyd etməliyik ki, onlar beynəlxalq idman münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsinin əsası sayılır. BİH-in xüsusi prinsiplərinin beynəlxalq idman münasibətlərinə tətbiqi bu səbəbdən üstünlüyə malikdir; bu prinsiplər, şübhəsiz, beynəlxalq idman hüququnun əsasını təşkil edir.[1]

Beynəlxalq idman hüququnun xüsusi prinsipləri dedikdə beynəlxalq hüququn yalnız bu struktur tərkibinə xas olan və beynəlxalq idman münasibətlərini hüquqi tənzimetmənin rəhbər başlanğıcları başa düşülür.

BİH-in xüsusi prinsipləri **əsas ideyalar** olmaqla, onun **məzmununu** xarakte-rizə edir; onlar BİH-in mahiyyətini və **sosial təyinatını** ifadə edir; bu hüquqi qurumun başlıca cəhət və xüsusiyyətləri öz əksini məhz həmin prinsiplərdə tapır; onların köməyi və vasitəsi ilə BİH həm də öz **funksiyalarını** yerinə yetirir.

Özünün xüsusi prinsiplərində BİH-in ən xarakterik cəhət və əlamətləri ifadə olunur. BİH-in **hüquqi təbiəti** və xarakteri də həmin prinsiplərlə müəyyənləşdirilir. Beynəlxalq idman hüququnun subyektləri bu prinsipləri rəhbər tutaraq öz funksiyalarını yerinə yetirir, eləcə də məqsədyönlü **xarici idman siyasətini** həyata keçirirlər.

Xüsusi prinsiplər BİH-in bütün hüquqi normalarına sirayət və nüfuz etmişdir; bu səbəbdən onlar beynəlxalq idman müna-

[1] Ətraflı bax: məsələn, Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.221.

sibətləri **sisteminin** təməli və bünövrəsi sayılır; buna görə də BİH-in xüsusi prinsiplərinin həmin münasibətlərin tənzimlənməsi və beynəlxalq-hüquqi praktika üçün **vacib əhəmiyyəti** vardır. Odur ki, beynəlxalq idman münasibətləri praktikasında konkret məsələni həll edərkən, ilk növbədə, BİH-in xüsusi prinsiplərinə istinad etmək, onları əldə rəhbər tutmaq lazımdır. Nəzərə almaq vacibdir ki, həmin prinsiplər BİH normalarının beynəlxalq idman münasibətlərinə düzgün tətbiq olunmasının, həmçinin əsaslı və qanuni qərarlar qəbul edilməsinin **zəruri əsasıdır**. BİH-in xüsusi prinsipləri ona görə **"xüsusi"** adlanır ki, onlar yalnız "beynəlxalq idman hüququ" kimi qurumun məzmununu xarakterizə edir. Buna görə də, onlar, mahiyyətcə, beynəlxalq idman hüququnun xüsusi prinsipləri hesab olunur. Belə ki, həmin prinsiplər beynəlxalq münasibətlərin bütün sferalarında deyil, ancaq bu münasibətlərin bir qrup sahəsində – beynəlxalq idman münasibətləri sferasında tətbiq edilir. Təbii ki, onlar beynəlxalq hüququn əsas prinsiplərinə münasibətdə "xüsusi prinsiplər" kimi tanınır və xüsusi olaraq, yalnız beynəlxalq idman hüququ üçün **formalaşmış** və nəzərdə tutulmuşdur.

BİH-in hansı xüsusi prinsiplərdən ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, hüquqi prinsiplər **ideoloji kateqoriya** sayılır. Belə ki, hüquqi prinsiplər onları formulə edən alimlərin subyektiv baxışlarını deyil, **obyektiv qanunauyğunluğu** və **gerçəkliyi** əks etdirməlidir. Digər tərəfdən, BİH-in xüsusi prinsipləri hüquqi cəhətdən bilavasitə beynəlxalq müqavilələrdə möhkəmləndirilməli və təsbit olunmalıdır; ona görə ki, beynəlxalq müqavilələr BİH-in əsas və başlıca mənbə növüdür.

BİH-in xüsusi prinsipləri təkcə beynəlxalq müqavilələrdə möhkəmləndirilmir və təsbit olunmur; həmin prinsiplər, eyni zamanda, beynəlxalq idman hüququnun öz mahiyyətindən və ya onun şərh və izahından irəli gəlir. Bu baxımdan, BİH-in xüsusi prinsipləri **iki növə** bölünür:

- konvension prinsiplər;
- qeyri-konvension prinsiplər.

Beynəlxalq idman hüququnun konvension prinsipləri dedikdə dövlətlər arasında bağlanan beynəlxalq idman müqavilələrində müəyyənləşdirilən və hüquqi cəhətdən təsbit olunan prinsiplər başa düşülür; yalnız beynəlxalq idman müqavilələrinə daxil edildikdə, yəni beynəlxalq müqavilələrdə hüquqi cəhətdən möhkəmləndirildikdə bu növ prinsiplərin **məcburi hüquqi qüvvəsi** olur. Təbii ki, əgər konvension prinsiplər beynəlxalq idman müqavilələrinə daxil edilməzsə, onda onların məcburi hüquqi qüvvəsi olmayacaqdır. Buna görə də konvension prinsiplərin hüquqi əhəmiyyətə malik olması hər bir konkret halda onların müvafiq beynəlxalq idman müqaviləsində hüquqi cəhətdən möhkəmləndirilməsindən və təsbit edilməsindən asılıdır; bu səbəbdən onlara **müqavilə prinsipləri** də deyilir.

BİH-in **konvension prinsiplərinə** aşağıdakılar aiddir:

- idman sahəsində milli rejim prinsipi;
- idman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi;
- idman sferasında preferensiya rejimi prinsipi.

Beynəlxalq idman hüququnun qeyri-konvension prinsipləri dedikdə BİH-in öz mahiyyətindən, yaxud onun şərh və izahından irəli gələn prinsiplər başa düşülür. BİH-in öz mahiyyətindən və ya onun şərhindən (izahından) irəli gəldiyinə görə həmin prinsiplərin məcburi hüquqi qüvvəsi vardır. **Məcburi hüquqi qüvvəyə** malik olmaqdan ötrü onların beynəlxalq idman müqavilələrində hüquqi cəhətdən möhkəmləndirilməsi və təsbit olunması tələb edilmir. Belə **prinsiplər sırasına** aşağıdakılar aiddir:

- idman sahəsində diskriminasiyaya yol verilməməsi prinsipi;
- idman sferasında dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi;
- dövlətlərin öz idman resursları üzərində suverenliyi prinsipi;
- idman münasibətlərində qarşılıqlı fayda prinsipi.

İndi də göstərilən bəzi prinsiplərin qısaca hüquqi xarakteristikasını verək.

4.2.2.İdman sahəsində milli rejim prinsipi

Beynəlxalq hüquq[1], eləcə də beynəlxalq idman hüquq[2] ədəbiyyatı səhifələrində milli rejim prinsipi təsbit olunmuşdur ki, onu, praktiki cəhətdən, həm də BİH-in xüsusi prinsipləri sırasına aid etmək mümkündür. Bu prinsipin beynəlxalq idman münasibətləri praktikasında **rolu** və **əhəmiyyəti** günbəgün durmadan artır; beynəlxalq idman fəaliyyəti və bununla bağlı dövlətlərarası münasibətlər sahəsində bu prinsipdən **istifadə olunması** xüsusilə vacibdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüququ da milli rejim prinsipini müəyyənləşdirir;[3] bu prinsip **mülki sahədə** (mülkiyyət, müqavilə, idman, əmək və digər sferada) tətbiq edilir. Beynəlxalq xüsusi (mülki) hüquqda milli rejim prinsipinə görə, xarici şəxslər (fiziki və hüquqi şəxslər) başqa dövlət ərazisində mülki hüquq qabiliyyətindən, habelə mülki fəaliyyət qabiliyyətindən (o cümlədən idman sahəsində) həmin dövlətin şəxsləri (fiziki və hüquqi şəxsləri) ilə bərabər surətdə istifadə edirlər.

BİH sferasına gəldikdə isə, qeyd etməliyik ki, burada idman fəaliyyəti sahəsində **milli rejim prinsipindən** danışmaq olar. Belə ki, BİH-də həmin prinsip dövlətlərarası beynəlxalq idman oyun və yarışlarının keçirilməsi üzrə fəaliyyət sahəsində (futbol, voleybol, boks, avtoralli və digər idman növləri) tətbiq edilir.

---

[1] Bax: Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.391-392; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.512; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.447-448 və s.

[2] Bax: məsələn, Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.226-227.

[3] Bax: məsələn, Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007, s.200-201.

Beynəlxalq **idman sahəsində milli rejim prinsipinə** görə, xarici şəxslər (fiziki və hüquqi şəxslər) müəyyən dövlətin ərazisində idman fəaliyyəti ilə bağlı hüquqlardan (idman hüquqlarından) həmin dövlətin şəxsləri (fiziki və hüquqi şəxsləri) ilə bərabər surətdə istifadə edirlər.

Milli rejim prinsipi əsasında **xarici şəxslər** bu və ya digər dövlətin ərazisində idman fəaliyyəti sahəsində müəyyən hüquqlara malik olmaqla, həmin dövlətin şəxsləri ilə eyniləşdirilir, yəni bir bərabərdə tutulur. Əgər idman fəaliyyəti sahəsində müəyyən hüquqlara malik olmaqda xarici şəxslər yerli (milli) şəxslərlə bərabərləşdirilirsə, bu, milli rejim prinsipinin **müəyyənləşdirilməsini** ifadə edir.

Milli rejim prinsipi dövlətin üzərinə belə bir **vəzifə** qoyur ki, o, öz ərazisində idman fəaliyyətinin müəyyən sahəsində milli şəxslərini təmin etdiyi eyni şərtləri xarici şəxslər üçün də müəyyənləşdirməlidir; başqa sözlə, dövlət öz milli şəxsləri üçün hansı şərtlər müəyyənləşdirərsə, xarici şəxsləri də belə şərtlərlə təmin etməlidir.

Azərbaycan Respublikasının idman fəaliyyəti sahəsində digər xarici ölkələrlə bağladığı bəzi **beynəlxalq əməkdaşlıq müqavilələri** məhz milli rejim prinsipi ruhundan çıxış edir; bu prinsipdən Avropa və inkişaf etməkdə olan digər ölkələr arasındakı idman-müqavilə münasibətləri praktikasında geniş səviyyədə istifadə olunur.

Milli rejim prinsipinin **tətbiq sahəsi**, adətən, beynəlxalq idman müqavilələri əsasında təyin olunur. Bununla yanaşı, həmin prinsipin hansı sahələrdə istifadə olunması dövlətin daxili qanunvericiliyi ilə də müəyyən edilir.

4.2.3. İdman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi

İdman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi, əsasən və başlıca olaraq, beynəlxalq idman münasibətləri sahəsində tətbiq olunur; bu münasibətlərin tənzimlənməsində həmin prinsipin **vacib əhəmiyyəti** vardır. Bu səbəbdən ən əl-

verişli şərait yaratmaq prinsipi BİH-in xüsusi prinsiplərindən biri sayılır.

İdman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi tarixən dövlətlərarası idman münasibətlərinin **liberallaşdırılmasını** təmin edən effektli hüquqi vasitə kimi çıxış etmişdir; bu səbəbdən həmin prinsip ədəbiyyatda beynəlxalq idman hüququnun başlıca və mərkəzi prinsipi kimi xarakterizə olunur.[1]

İdman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipinə görə, beynəlxalq müqavilə tərəfi olan dövlət digər tərəfi (dövləti) idman fəaliyyəti sahəsində elə əlverişli şərtlərlə təmin edir ki, həmin şərtlərdən istənilən üçüncü dövlət istifadə edir.

Əgər beynəlxalq müqavilə tərəfi olan dövlət digər dövləti – həmin müqavilənin qarşı tərəfini üçüncü dövlətlərin istifadə etdikləri və ya gələcəkdə istifadə edə biləcəkləri **əlverişli şərtlərlə** (hüquq, güzəşt, imtiyaz və üstünlüklərlə) təmin edərsə, bu, ən əlverişli şərait yaratmaq prinsipinin müəyyənləşdirilməsini ifadə edir.

Özlüyündə ən əlverişli şərait yaratmaq prinsipinin məcburi hüquqi qüvvəsi yoxdur. Həmin prinsipin məcburi hüquqi qüvvəyə malik olması üçün dövlətlər arasında bağlanan beynəlxalq idman müqaviləsinə əlverişli şərait yaratmaq haqqında **xüsusi konkret qeyd** daxil edilməsi tələb olunur; belə qeydə **klauzula** deyilir.[2] Klauzula beynəlxalq idman müqaviləsinə xüsusi olaraq daxil edilən elə bir konkret qeyddir ki, bu qeyd beynəlxalq müqavilə bağlayan dövlətlərin razılığa gəldikləri idman sahəsində ən əlverişli şərait yaratmaq prinsipinin tətbiq olunmasını şərtləndirir. Əgər belə qeyd olmazsa, həmin prinsipin məcburi hüquqi qüvvəsi yoxdur və bu səbəbdən o, tənzimləmək üçün beynəlxalq idman münasibətlərinə tətbiq edilə bilməz.

Klauzula (xüsusi qeyd) **iki cür** olur:

---

[1]Международное спортивное право. Учебник/С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право,2008, с.226.

[2] Daha ətraflı bax: Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.177.

– birtərəfli klauzula;
– ikitərəfli klauzula.

Birtərəfli klauzula yalnız bir dövlət tərəfindən (birtərəfli qaydada) idman sferasında ən əlverişli şərait yaratmaq prinsipinin müəyyənləşdirilməsini ifadə edir; bu növ klauzula "qarşılıqlı olma" kimi xüsusiyyətdən məhrumdur.

İkitərəfli klauzula isə dövlətlər tərəfindən idman sahəsində qarşılıqlı surətdə bir-biri üçün ən əlverişli şərait yaratmaq prinsipinin müəyyənləşdirməsini nəzərdə tutur. Dövlətlərin maraq və mənafeyinə uyğun olduğu üçün bu növ klauzula **üstünlük** təşkil edir; belə ki, klauzulaların əksəriyyəti məhz ikitərəfli klauzulalardan ibarətdir. Birtərəfli klauzulaya gəldikdə isə, qeyd etməliyik ki, beynəlxalq idman- müqavilə praktikasında bu növ klauzulaya nadir hallarda rast gəlinir; birtərəfli klauzula, adətən, dövlətlərin qarşılıqlı maraq və mənafeyini təmin etmir.

Ən əlverişli şərait yaratmaq haqqında beynəlxalq idman müqaviləsinə daxil edilmiş xüsusi qeyd (klauzula) həm də göstərilən prinsipin tətbiq olunduğu **konkret sahəni** müəyyənləşdirir. Belə ki, həmin qeyd əsasında ən əlverişli şərait yaratmaq prinsipinin tətbiqi edildiyi konkret idman sahəsini – dövlətlərarası qarşılıqlı idman münasibətlərinin bu və ya digər sferasını müəyyənləşdirmək mümkün olur. Buna görə də, bu qeyd həmin prinsipin tətbiqini konkretləşdirən **müqavilə formasıdır**.

Ən əlverişli şərait yaratmaq prinsipi, bir qayda olaraq, beynəlxalq ticarət (xarici ticarət) münasibətlərinin (malların idxal və ixrac əməliyyatların) tənzim-lənməsində tətbiq olunur.[1] Bununla yanaşı, həmin prinsipdən **iqtisadi münasibətlərin** ayrı-ayrı sahələrinin nizamlanmasında da istifadə oluna bilər[2] ki, belə sahələrə bunlar aiddir: idman fəaliyyəti, nəqliyyat, tranzit, vergi, gömrük və s.

---

[1] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 500.

[2] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 446.

Ən əlverişli şərait yaratmaq prinsipi, adətən, **ikitərəfli** beynəlxalq müqavilələrdə müəyyənləşdirilir; bu prinsipdən həm də **çoxtərəfli** beynəlxalq müqavilələr çıxış edə bilər. Məsələn, QATT-1994 (1-ci maddə) ən əlverişli şərait yaratmaq prinsipini müəyyənləşdirir ki, həmin sənəd ÜTT-nin hüquqi bazasını təşkil edən sənədlərdən biridir. Buna görə də, həmin prinsip bu təşkilatın üzvü olan dövlətlərin (150 dövlətin) xarici iqtisadi fəaliyyət sferasında tətbiq edilir.

4.2.4. İdman sahəsində diskriminasiyaya yol verilməməsi prinsipi

Diskirminasiya etməmək prinsipi **beynəlxalq-hüquqi** prinsipdir. Odur ki, həmin prinsip dövlətlər arasındakı beynəlxalq münasibətlərin **bütün sahələrinə** aid edilir. Beynəlxalq hüququn prinsipi kimi diskriminasiya etməmək prinsipinə görə, dövlətlərarası beynəlxalq münasibətlərdə **ayrı-seçkiliyə** və **hüququn tapdalanmasına** yol verilmir. Ona görə də, beynəlxalq idman münasibətləri üçün bu prinsipin xüsusi əhəmiyyəti vardır.

İdman sahəsində diskriminasiyaya yol verilməməsi prinsipinə görə, beynəlxalq idman münasibətlərində hər hansı xarici dövlət üçün (onun fiziki və hüquqi şəxsləri üçün) başqa xarici ölkələrlə (onların fiziki və hüquqi şəxsləri ilə) müqayisədə həmin dövlətin vəziyyətini pisləşdirən xüsusi şərtlərin müəyyənləşdirilməsi hüquqazidd əməl, yəni beynəlxalq hüquq pozuntusu sayılır ki, belə şərtlərin müəyyənləşdirilməsi həmin dövlətin bu və ya digər sosial-iqtisadi sistemli ölkə hesab edilməsi ilə bağlı olur.

Diskriminasiya etməmək müəyyən bir dövlətin başqa, hər hansı dövlətin beynəlxalq idman münasibətləri sahəsində hüququnu tapdalamaması və onun barəsində ayrı-seçkiliyə yol verməməsi deməkdir. Buna görə də, diskriminasiya etməmək prinsipi beynəlxalq idman münasibətlərində ayrı-seçkiliyə və hüququn tapdalanmasına yol verilməməsini **ifadə edir**. Heç bir dövlət üçün onun inkişaf səviyyəsindən, yaxud bu və digər

sosial-iqtisadi sistemə mənsubiyyətindən asılı olmayaraq, başqa dövlətlərlə müqayisədə idman sahəsində **əlverişsiz şərtlər** müəyyən olunmamalıdır.

Diskriminasiyaya yol verilməməsi prinsipi bir sıra **çoxtərəfli** beynəlxalq-hüquqi aktlarda (sənədlərdə) təsbit olunmuş və möhkəmləndirilmişdir. Həmin sənədlərə **aşağıdakılar** aiddir:

- TTBS (həmin prinsip bu sənədin preambulasında, habelə 13-cü, 14-cü və XX maddələrində öz əksini tapmışdır);
- Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi;
- Yeni beynəlxalq iqtisadi qaydanın yaradılması barədə 1974-cü il Bəyannaməsi;
- 1975-ci il Helsinki Yekun Aktı;
- Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında 1974-cü il Xartiyası.

İdman sahəsində diskriminasiyaya yol verilməməsi prinsipinin **məcburi hüquqi qüvvəsi** vardır və buna görə də, həmin prinsipin ayrıca beynəlxalq müqavilədə nəzərdə tutulması tələb olunmur. Sözügedən prinsip beynəlxalq hüququn **iki əsas prinsipindən** irəli gəldiyinə görə məcburi hüquqi qüvvəyə malikdir. Beynəlxalq hüququn həmin prinsiplərinə bunlar aiddir:

- dövlətlərin suveren bərabərliyi prinsipi;
- dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi.

Dövlətlərin suveren bərabərliyi prinsipi həm də bunu nəzərdə tutur ki, beynəlxalq münasibətlərdə, o cümlədən beynəlxalq idman münasibətlərində bütün dövlətlərin suverenliyinə və onların hüquq bərabərliyinə hörmət olunmalıdır. Məhz buradan irəli gəlir ki, beynəlxalq idman münasibətlərində diskriminasiyaya yol vermək olmaz; hər bir dövlət **suveren hüquq bərabərliyinə** malikdir. Buna görə də, heç bir dövlət barəsində ayrı-seçkiliyə yol verilməməlidir.

Dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi dövlətlərin üzərinə belə bir vəzifə qoyur ki, onlar həm də idman

sahəsində bir-biri ilə əməkdaşlıq etməli və bu əməkdaşlıq siyasi, iqtisadi və sosial sistem fərqindən irəli gələn **diskriminasiyadan azad** olmalıdır.

Beynəlxalq hüququn göstərilən prinsiplərindən irəli gəldiyinə görə diskriminasiya etməmək barədə prinsipin hər hansı beynəlxalq müqavilədə təsbit olunması tələb edilmir; beynəlxalq müqavilədə möhkəmləndirilməsindən asılı olmayaraq, həmin prinsip **məcburi hüquqi qüvvəyə** malikdir; həm də ona görə ki, diskriminasiyaya yol verilməməsi prinsipi əksər dövlətlərin uzunmüddətli və eyni cür praktikası nəticəsində **formalaşan** beynəlxalq-hüquqi adət normasıdır.

Qeyd etməliyik ki, hər hansı dövlət üçün **üstünlük müəyyən edilməsi** heç də idman sahəsində diskriminasiya etməmək barədə prinsipin pozulmasını ifadə etmir. Belə ki, həmin prinsipə görə, yalnız bu və ya digər dövlətin başqaları ilə müqayisədə idman sahəsində vəziyyətini pisləşdirmə halı diskriminasiya sayılır.

4.2.5. İdman sferasında dövlətlərin bir-biri ilə əməkdaşlığı prinsipi

Dövlətlərin bir-biri ilə əməkdaşlığı prinsipi beynəlxalq hüququn əsas prinsiplərindən biri sayılır. Bu prinsipə görə, siyasi, iqtisadi və sosial sistem fərqindən asılı olmayaraq, bütün dövlətlər bir-biri ilə **beynəlxalq münasibətlərin müxtəlif sahələrində** əməkdaşlıq etməlidirlər. Həmin prinsipin beynəlxalq idman münasibətləri üçün də xüsusi əhəmiyyəti vardır. Belə ki, xalqların sosial inkişafı, onların həyat səviyyəsinin yüksəlməsi, sağlamlığın qorunması, habelə dostluq əlaqələrinin möhkəmləndirilməsi dövlətlərin idman sahəsində aktiv əməkdaşlığından çox asılıdır. Buna görə də, "dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi" kimi vacib prinsip formalaşmışdır ki, o, müasir dövrdə BİH-in də **xüsusi prinsiplərindən** biri sayılır; bu prinsip beynəlxalq hüququn dövlətlərin əməkdaşlıq etməsi barədə əsas prinsipinin məzmununu konkretləşdirir. Müəlliflər-

dən V.M.Şumilov[1] və Ə.İ.Sadıqov[2] dövlətlərin əməkdaşlığı barədə prinsipə, düzgün olaraq, beynəlxalq hüququn xüsusi prinsiplərindən biri kimi baxırlar.

İdman sferasında dövlətlərin bir-biri ilə əməkdaşlığı prinsipinə görə, idman sahəsində dövlətlər bir-biri ilə əməkdaşlıq edir, öz aralarındakı beynəlxalq idman münasibətlərini səmərəli surətdə həyata keçirirlər.

Dövlətlər arasında idman sahəsində beynəlxalq əməkdaşlıq onların hansı siyasi, iqtisadi və sosial sistemə aid edilməsindən asılı deyildir; beynəlxalq əməkdaşlıq **bərabərlik** və **qarşılıqlı fayda** əsasında inkişaf etdirilməlidir. Beynəlxalq idman yarışlarının təşkili və keçirilməsinin təmin olunmasında, fiziki və sosial-tibbi xarakterli problemlərin həll edilməsində beynəlxalq əməkdaşlıq etmək dövlətlərin həm **hüququ**, həm də **vəzifəsi** sayılır.

Dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi BMT-nin Nizamnaməsində **təsbit olunmuşdur**. Həmin Nizamnamənin 1-ci maddəsində həm də beynəlxalq iqtisadi problemləri həll etmək üçün beynəlxalq əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur; Nizamnamənin 9-cu fəsli beynəlxalq **iqtisadi** və **sosial əməkdaşlığa** həsr olunmuşdur.

Həmçinin , qeyd etməliyik ki, regional birlik olan MDB-nin Nizamnaməsində də qarşılıqlı fayda əsasında əməkdaşlığın inkişafı **əsas prinsip** kimi müəyyən edilmişdir.

4.2.6. Dövlətlərin öz idman resursları üzərində suverenliyi prinsipi

Dövlətlərin öz idman resursları üzərində suverenliyi prinsipi beynəlxalq hüququn "dövlətlərin suveren bərabərliyi" kimi əsas prinsipindən irəli gəlir; o, həmin prinsipin **hüquqi məzmununu** konkretləşdirir. Buna görə də, dövlətlərin öz id-

[1] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.168.

[2] Sadıqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2008, s.82.

man resursları üzərində suverenliyi prinsipi **məcburi hüquqi qüvvəyə** malikdir; həm də ona görə ki, dövlətlərin öz resursları üzərində suverenliyi beynəlxalq-hüquqi adət normasıdır.

Göstərilən prinsip bir sıra **beynəlxalq aktlarda** (sənədlərdə) möhkəmlən-dirilmişdir. Belə aktlara (sənədlərə) aşağıdakılar aiddir:

- Beynəlxalq ticarətin Prinsipləri (1964-cü il);
- Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə (1970-ci il);
- Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiya (1974-cü il) və s.

Dövlətlərin öz idman resursları üzərində suverenliyi prinsipinə görə, dövlətlər öz idman resurslarına və infrastruktur obyektlərinə **sahiblik** edir, həmin resurslar və obyektlər üzərində **sərəncam** verir, onlardan istifadə qaydalarını **müəyyənləşdirir**, müstəqil surətdə idman fəaliyyəti ilə **məşğul olur**, öz milli (daxili) yurisdiksiyası çərçivəsində xarici idman investisiyalarını **tənzimləyir**, idman təşkilatlarının fəaliyyətinə **nəzarət** edir, lazım gəldikdə xarici xüsusi mülkiyyəti **milliləşdirir** və digər **hərəkətləri** həyata keçirir.

4.2.7. İdman münasibətlərində qarşılıqlı fayda prinsipi

Müasir dövrün beynəlxalq hüquq elmində (doktrinada) qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipi kimi müəyyən edilmişdir. Bu, onunla izah olunur ki, dövlətlərarası münasibətlərin və beynəlxalq əməkdaşlığın əsasında **qarşılıqlı fayda** durur. Belə ki, dövlətlərarası münasibətlər və beynəlxalq əməkdaşlıq qarşılıqlı fayda əsasında həyata keçirlir. Bunu nəzərə alaraq, **müacir** dövrün alimləri (M.M.Boquslavski[1] və b.) qarşılıqlı fayda prinsipinə beynəlxalq hüququn hamılıqla qəbul olunmuş (ümumtanınmış)

1 Богуславский М.М. Международное экономическое право. М., 1986, с.101.

prinsipi kimi baxmışdır; bu prinsip, praktiki olaraq, dövlətlərarası münasibətlərin **bütün sahələrində** tətbiq edilir. Eyni zamanda, bu prinsip dövlətlərarası münasibətlərin, o cümlədən **beynəlxalq idman sahəsində** əməkdaşlığın həyata keçirilməsi üçün vacib rola malikdir. Başqa sözlə, qarşılıqlı fayda prinsipinin beynəlxalq idman fəaliyyəti sahəsindəki münasibətlər üçün xüsusi əhəmiyyəti vardır. Məlum məsələdir ki, dövlətlər arasında beynəlxalq idman münasibətlər yalnız qarşılıqlı fayda əsasında inkişaf edə bilər; xüsusilə də beynəlxalq idman əməkdaşlığı qarşılıqlı faydalı olmalıdır. Belə səbəblər əsas verir ki, qarşılıqlı fayda prinsipinə BİH-in **xüsusi prinsiplərindən** biri kimi baxılsın. Təsadüfi deyil ki, bəzi müəlliflər (Q.M.Velyaminov[1], V.M.Şumilov[2] və Ə.İ.Sadıqov[3]) onu məhz beynəlxalq hüququn xüsusi prinsipi kimi tanıyırlar. Beynəlxalq publik **hüquq ədəbiyyatında** da belə yanaşmaya rast gəlmək olar (L.P.Anufriyeva).[4] Hesab edirik ki, qarşılıqlı fayda prinsipinin müxtəlif idman növləri üzrə keçirilən bütün beynəlxalq yarışların əsasnaməsinə daxil edilməsi məqsədəmüvafiqdir.

İdman münasibətlərində qarşılıqlı fayda prinsipinə görə, beynəlxalq idman münasibətlərinin həyata keçirilməsi nəticəsində əldə olunmuş iqtisadi nəticələr - mənfəət, xeyir və qazanc həmin münasibətlərin iştirakçısı olan dövlətlər arasında ədalətli surətdə bölüşdürülür.

Qarşılıqlı fayda prinsipi öz əksini bir sıra **sənədlərdə** tapmışdır. Onlara aşağıdakılar aiddir:

- Beynəlxalq ticarətin Prinsipləri (1964-cü il);
- Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiya (1974-cü il);

---

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.109.

[2] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.171.

[3] Sadiqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2008, s.95.

[4] Международное публичное право / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.512.

– Helsinki Yekun Aktı (1975-ci il) və s.

Qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn **iki əsas prinsipindən** irəli gəlir: dövlətlərin suveren bərabərliyi prinsipi, dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi.

Dövlətlərin suveren bərabərliyi prinsipinə görə, dövlətlər arasında münasibətlər nəinki hüquqi cəhətdən bərabər olmalıdır, həmçinin qarşılıqlı faydaya əsaslanmalıdır. Bu münasibətlərin qarşılıqlı faydalı olması dedikdə onların, faktiki cəhətdən, bərabərlik anlayışına cavab verməsi başa düşülür.[1] Təsadüfi deyil ki, V.M.Şumilov qarşılıqlı fayda prinsipini dövlət suverenliyi prinsipinin tərkibinə daxil edir.[2]

İdman sferasında **dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipinə** görə, beynəlxalq idman münasibətləri yalnız qarşılıqlı fayda əsasında həyata keçirilə və inkişaf etdirilə bilər; qarşılıqlı fayda olmadan beynəlxalq idman sahəsində əməkdaşlığın heç bir mənası yoxdur. Buna görə də, beynəlxalq idman əməkdaşlığının mövcud olduğu bütün hallarda mütləq qarşılıqlı fayda da olmalıdır.

Qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn göstərilən iki əsas prinsipindən irəli gəldiyi üçün **məcburi hüquqi qüvvəyə** malikdir. Buna görə də, məcburi hüququ qüvvə ilə təmin edilməsi məqsədi ilə həmin prinsipin beynəlxalq müqavilədə təsbit olunması zəruri deyildir. Bu isə o deməkdir ki, qarşılıqlı fayda prinsipi BİH-in konvension (müqavilə) prinsipi sayılmır.

4.2.8.İdman sferasında preferensiya rejimi prinsipi

Qeyd etmək lazımdır ki, idman sahəsində dövlətlər arasında qarşılıqlı münasibətlər müvafiq **hüquqi rejimlə** müəyyən edilir; hüquqi rejim konkret dövlətə, onun fiziki və hüquqi şəxslərinə tətbiq olunur.

---

[1] Курс международного права. Том 2 / Отв. ред. Г.И.Тункин. М., 1967, с.106.

[2] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.163.

Beynəlxalq idman əməkdaşlığı bu və ya digər hüquqi rejim əsasında həyata keçirilir; buna görə də, hüquqi rejim idman sahəsində beynəlxalq əməkdaşlığın **reallaşdırılması vasitəsi** kimi çıxış edir.

Hüquq ədəbiyyatı səhifələrində hüquqi rejimin **üç əsas növü** fərqləndirilir:[1]

- milli rejim;
- ən əlverişli şərait rejimi;
- preferensiya rejimi.

Göstərilən rejimlər beynəlxalq hüququn üç **xüsusi prinsipi** ilə bağlı olub, bilavasitə həmin prinsiplərə əsaslanır. Söhbət milli rejim, ən əlverişli şərait yaratmaq və nəhayət, preferensiya rejimi prinsiplərindən gedir.

Hüquqi rejimin hər üç növü **konvension (müqavilə) rejimləridir.** Buna görə də, onların əsaslandığı prinsiplər də konvension prinsiplər (müqavilə prinsipləri) sayılır. Deməli, preferensiya rejimi prinsipi BİH-in konvension prinsipləri sırasına aiddir. Odur ki, bu prinsip də digər konvension prinsiplər kimi, **ümumtətbiqolunma** xüsusiyyətindən məhrumdur. Məlum məsələdir ki, o, yalnız beynəlxalq müqavilədə (konvensiyada) nəzərdə tutulduqda tətbiq edilir. Zənnimizcə, idman sferasında buraya idman qurğularından güzəştli şərtlərlə istifadə, əlverişli relyefdən (orta dağlıq səviyyəsi) yararlanmaq və s. hallar da aid edilə bilər.

Preferensiya rejimi prinsipinin **məzmun** və **mahiyyəti** preferensiya hüquqi rejiminin müəyyənləşdirilməsindən ibarətdir. Beynəlxalq hüquqda preferensiya rejimi dedikdə müəyyən bir dövlətin başqa dövlətə (dövlətlərə) xüsusi üstünlük verməsi başa düşülür,[2] o cümlədən idman sahəsində. **Xüsusi üstünlük** verilməsi isə idman sferasında, gömrük və vergi ödənişləri, ha-

[1] Göstərilənlərdən başqa, beynəlxalq hüquq ədəbiyyatında xüsusi rejim də fərqləndirilir (məsələn, bax: Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.689).

[2] Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.501.

belə digər sahələrdə xüsusi hüquqla təmin etmədə, güzəştlərin müəyyənləşdirilməsində və imtiyaz verilməsində ifadə oluna bilər.

İdman sferasında preferensiya rejimi prinsipinə görə, dövlət idman fəaliyyəti sferasında viza, sərhəd-keçid, ticarət, vergi, gömrük ödənişləri və digər sahələrdə başqa dövlətə (dövlətlərə) xüsusi üstünlük verir.

Xüsusi üstünlük, adətən, **bir dövlətə** verilir. Bununla yanaşı, xüsusi üstünlük müəyyən **dövlətlər qrupu** üçün də müəyyənləşdirilə bilər: məsələn, "Ümumi Bazar", iqtisadi və ya gömrük ittifaqları çərçivəsində dövlətlərə üstünlük verilməsi və s. **Qarşılıqlı üstünlük** verilməsi beynəlxalq iqtisadi inteqrasiya birlikləri çərçivəsində dövlətlər arasında münasibətlərdə də müşahidə olunur; belə birliyin üzvü olan dövlətlər qarşılıqlı üstünlüklərdən istifadə edirlər. Xüsusi üstünlük, əsasən və başlıca olaraq, inkişaf etməkdə olan ölkələr üçün müəyyənləşdirilir ki, bunun da nəticəsində beynəlxalq idman münasibətlərində **faktiki bərabərlik** təmin olunur.

Ümumiyyətlə, qeyd etməliyik ki, preferensiya rejimi prinsipi haqqında müddəalar bəzi **beynəlxalq sənədlərdə** də öz əksini tapmışdır (məsələn, Beynəlxalq ticarətin Prinsipləri, TTBS, XTBS və s.).

4.3. Beynəlxalq idman hüququnun digər özünəməxsus prinsipləri

4.3.1. Beynəlxalq idman hüququnun elmi-kommunikativ prinsipləri

Beynəlxalq idman fəaliyyətinin tənzimlənməsində BİH-in yuxarıda toxunduğumuz prinsipləri ilə yanaşı, onun özünəməxsus **unifikasiya prinsipi**, **diversifikasiya prinsipi** və **texnolojiləşdirmə prinsipi** vacib rol oynayır. Bu prinsiplərin təşəkkül tapması beynəlxalq idman hüququnun inkişaf tarixinin müasir dövrünə təsadüf edir. Belə ki, beynəlxalq idman fəaliyyətinin təşkil olunması, idarə edilməsi və həyata keçirilməsi prosesində

elmi-texniki nailiyyətlərin, innovativ vasitələrin, eləcə də kommunikativ informasiya texnologiyalarının tətbiqi geniş vüsət almışdır. Göstərilən prinsipləri modelləşdirərək **"elmi-kommunikativ" prinsiplər** adı ilə ifadə edə bilərik.

Kommunikativ termini kommunikasiya sözündən törəmişdir. **Kommunikasiya** dedikdə iki və ya daha çox subyekt arasında informasiya mübadiləsi prosesi başa düşülür. Kommunikasiyanın rolu ondan ibarətdir ki, o, daxili mühit sisteminin normal fəaliyyətini təmin etməklə yanaşı, həm də xarici mühitlə qarşılıqlı əlaqə yaradılmasını təmin edir.[1] Bununla bağlı yaranan ictimai münasibətləri tənzimləyən **kommunikasiya hüququ** adlı qurum artıq müasir dövrdə elmi dövriyyədə işlədilən anlayışlardan biridir.[2] İdman fəaliyyəti sferasında **"kommunikativ"** anlayışı idmançılar və digər idman mütəxəssisləri arasında qarşılıqlı əlaqədə mədəni ünsiyyət qurulması, əmək ümumiliyi əsasında birlikdə işləmək (məşq, yarış və s.), komanda şəklində fəaliyyət göstərmək modeli kimi xarakterizə olunur. Bu kontekstdə kommunikativ yanaşma fenomeni **elmi cəhətdən** öyrənilməklə yeni texnoloji istiqamət və beynəlxalq əlaqələrin inkişafı, habelə xarici təcrübənin mübadiləsi baxımından, fəaliyyətin ayrılmaz hissəsinə çevrilməkdədir.[3]

İnformasiya-kommunikasiya texnologiyaları ictimai həyatımıza daxil olduqca hüdudlar silinir, dünya sərhədaşırı məkana çevrilir.Təbii ki, belə bir şəraitdə idman münasibətləri də beynəlmiləlləşərək **fövqəlmilli xarakter** daşıyır. Bu baxımdan, BİH geniş spektrə malik olan beynəlxalq idman münasibətlərini tənzimləyən hüquqi norma, qayda və reqlamentlərin vahid formaya salınmasına, eləcə də eynicür qaydaların tətbiq edil-

---

[1] Bax: http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=106 (12.11.2021-ci il).

[2] Məsələn,bax: Elaw/az.Elektron hüququn əsasları /Əzizov R.F.Bakı,"Ziya" nəşriyyatı,2009,s.109-122; İnternet məkanında hüquqi tənzimləmə: tarix, nəzəriyyə, komparativizm. Monoqrafiya / Əzizov R.F. Bakı,"Qanun" nəşriyyatı, 2021, 352 s. və b.

[3] Ətraflı bax: **Oşibka! Nedopustimıy obcekt qiperssılki.** (12.11.2021-ci il).

məsinə səy göstərir. Buna beynəlxalq idman hüququnun **unifikasiya prinsipi** deyilir. Sözügedən prinsip, başlıca olaraq, universal və regional xarakterli beynəlxalq müqavilə (saziş, xartiya, konstitusiya, reqlament, nizamnamə və s.) formasında qəbul edilən sənədlərlə şərtlənir. Bunun da nəticəsində beynəlxalq idman fəaliyyətinin ayrı-ayrı aspektlərinin tənzimlənməsində unifikasiya prosesi ilə məşğul olan beynəlxalq idman təşkilatlarının, xüsusən də, BOK, BPK, ÜADA (WADA) və digər qurumların rolu nəzərəçarpacaq dərəcədə artmışdır.

BİH-in **diversifikasiya prinsipi** beynəlxalq idman fəaliyyətinin həyata keçirilməsinin hüquqi forması olan beynəlxalq idman-hüquq münasibətlərinin şaxələndirilərək müxtəlif hüquqi təbiətə malik olan subyektlər (ilkin subyekt, törəmə subyekt və s.) arasında əmələ gəlməsini nəzərdə tutur. İrəli sürülən müddəa ona gətirib çıxarır ki, beynəlxalq idman-hüquq münasibətləri həm dövlətlərarası, həm də dövlətdaxili (milli) forma alaraq mövcüd olur. Bu çoxvariantlılıq aspekti, öz növbəsində, BİH sistemində həm publik-hüquqi, həm də xüsusi-hüquqi xarakterə malik olan institutların diversifikasiyasına əhəmiyyətli təsir göstərir.[1]

Beynəlxalq idman hüququnun elmi-kommunikativ prinsiplərindən digəri **texnolojiləşdirmə prinsipi** adlanır. Dünyada baş verən elmi-texniki tərəqqinin təsiri altında və idman sferasında innovasiya texnologiyalarının tətbiqi nəticəsində yaranmış bu prinsip BİH-in fəaliyyət sferasının genişləndirilməsini və onun ayrı-ayrı kateqoriyalarının transformasiyasını şərtləndirir. Belə ki, elmi-texniki tərəqqi prosesləri nəticəsində BİH-in tərkibində yeni struktur hissələr və institutlar formalaşmışdır. Məsələn, idmanda istifadəsi qadağan olunan tibbi preparat vasitələrindən və/və ya üsullardan idmançılar tərəfindən tətbiq edilməsinin qarşısını almaq istiqamətində BİH-in strukturunda yeni **dopinq-nəzarət institutu** yaradılmış, Ümumdünya Anti-

[1] Ətraflı bax: https://studref.com/524876/pravo/printsipy_ mezhdunarodnogo_sportivnogo_prava (13.11.2021-ci il).

dopinq Agentliyi təsis olunmuş, ”İdmanda dopinqə qarşı mübarizə haqqında” Beynəlxalq Konvensiya və Ümumdünya Antidopinq Məcəlləsi qəbul edilmişdir. Həmçinin ayrı-ayrı ölkələrdə milli antidopinq qurumları yaradılmış və zəruri normativ hüquqi aktlar qəbul olunmuşdur.

Eyni zamanda, təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, kütləvi idman tədbirləri və idman yarışları zamanı zorakılığın qarşısının alınması, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi, habelə yarışların translyasiyası müasir **informasiya-kommunikasiya texnologiyalarından** səmərəli şəkildə istifadə olunmaqla həyata keçirilir.

Bu kontekstdə beynəlxalq idman fəaliyyətinə kənar müdaxilənin yolverilməzliyini təmin etmək və beynəlxalq arenada bütün idman münasibətlərini optimal şəkildə tənzimləmək məqsədi ilə, beynəlxalq idman təşkilatları tərəfindən universal səviyyədə vahid **“Beynəlxalq İdman Məcəlləsi”** və buna müvafiq olaraq, milli səviyyədə **“İdman Məcəlləsi”** adlı model aktın işlənib hazırlanması və qəbul edilməsi məsələsi qarşıda duran perspektiv və aktual problem kimi nəzərdən keçirilə, həm də beynəlxalq idman hüququnun elmi-kommunikativ prinsiplərinin effektiv realizə forması qismində faydalı ola bilər.

4.3.2. Beynəlxalq idman hüququnun özünəməxsus törəmə prinsipləri

Beynəlxalq idman hüququnun təşəkkül tapması və davamlı inkişaf prosesi nəticəsində onun yeni özünəməxsus **törəmə prinsipləri** formalaşmışdır. BİH-in özünəməxsus törəmə prinsipləri digər xüsusi prinsiplərlə daim qarşılıqlı dialektik əlaqədə uzlaşdırılmış formada olurlar.[1]

[1] Bədən tərbiyəsi və idman fəaliyyətinin tənzimlənməsi sahəsində müasir prinsiplər barədə ətraflı bax: http://www.vestnik.vsu.ru/pdf/educ/2016/03/2016-03-02.pdf (14.11.2021-ci il). Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.226.

Beynəlxalq idman təşkilatları (BOK, BPK, BİF və s.) tərəfindən qəbul edilmiş normativ aktlarda təsbit olunmuş hüquq normalarını təhlil edərək, BİH-in aşağıda göstərilən **bir neçə qrup** özünəməxsus törəmə prinsiplərini fərqləndirə bilərik.

1. **BİH-in sistemyaradıcı prinsipləri:**

   – beynəlxalq idman münasibətlərinə iqtisadi, təşkilati-inzibati və siyasi mexanizmlər vasitəsilə kompleks hüquqi təsir göstərilməsi;
   – beynəlxalq idman hərəkatının bütün iştirakçı ölkələri üçün beynəlxalq idman normativ bazasının vahidliyi; beynəlxalq idman münasibətlərinin hüquqi tənzimlənməsinin dolğunluğu və tam olması,müvafiq normativ bazanın daim yenilənməsi, beynəlxalq idman hərəkatının bütün iştirakçılarının fəaliyyətində qanuniliyin təmin olunması;
   – ümumdünya sülh və həmrəylik uğrunda aparılan mübarizədə idman hərəkatı subyektlərinin iştirakı,idman problemlərinin həlli istiqamətində beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları, həmçinin dövlət orqanları (qurumları) və digər ictimai təşkilatlar arasında universal, regional və lokal səviyyədə əməkdaşlığın həyata keçirilməsi;
   – bədən tərbiyəsi və idman hərəkatı sahəsində effektiv idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi;
   – bədən tərbiyəsi və idman sahəsində beynəlxalq öhdəliklərə dövlət tərəfindən hörmətlə yanaşılması və riayət edilməsi və s.

2. **BİH-in insanların idman, bədən tərbiyəsi və sağlamlığın qorunması hüququ ilə bağlı prinsipləri:**

– əhalinin, onların milli, irqi, cinsi, dini, əmlak, sosial vəziyyətindən və digər əlamətlərdən asılı olmayaraq, təhsil, səhiyyə və ictimai həyatın digər aspektlərində bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququnun təmin edilməsi, eləcə də bu məqsədlə bərabər imkan və şəraitin yaradılması, habelə buna zəmanət verilməsi;
– əhalinin aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan təbəqələri (çoxuşaqlı ailədən olan uşaqlar, valideyn himayəsindən məhrum olmuş uşaqlar, sağlamlıq imkanları məhdud olan səxslər, əlilliyi olan səxslər və s.) arasında bədən tərbiyəsi və idmanın inkişafının vacibliyi;
– uşaq və gənclərin sağlam həyat tərzinin təmin edilməsi, sağlamlığının möhkəmləndirilməsi, şəxsiyyətin inkişafı, fasiləsiz təhsil sisteminin yaradılması və milli yığma komandalara ehtiyat idman qüvvələrinin hazırlanması istiqamətində uşaq-gənclər idman sahəsində fəaliyyətin optimal şəkildə təşkili;
– bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, idman təşkilatlarının və idman yönümlü ictimai birliklərin əlaqələndirilmiş qarşılıqlı fəaliyyətinin təmin edilməsi və s.

3. Sağlam ətraf mühit və idman məşğulluğu faktorları arasında sıx əlaqəni əks etdirən prinsiplər:

– əhalinin bədən tərbiyəsi və idmanla aktiv məşğul olmasına imkan verən sağlam ətraf mühit və həyat şəraitinin təmin olunması;
– insanların fiziki, sosial və psixi sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş idman məşğulluğunun ətraf mühitin və ekoloji vəziyyətin balanslaşdırılmış idarəetmə sistemi ilə uzlaşdırılması;

– əhalinin müxtəlif yaş qruplarının həyat fəaliyyətinin bütün mərhələlərində bədən tərbiyəsi və idman işinin fasiləsiz və ardıcıl şəkildə sağlam ətraf mühit kontekstində təmin edilməsi, habelə əhalinin bu istiqamətdə maariflənməsi və inteqrasiyası;
– bədən tərbiyəsi və idman tədbirlərinin keçirildiyi məkanlarda ümumbəşəri dəyərə malik olan təbii ehtiyatların və ətraf mühitin qorunması qaydalarının pozulmasına görə müvafiq məsuliyyət daşınması və s.

4. Beynəlxalq idman hərəkatının inkişafına aid prinsiplər:

– idman hərəkatının bütün istiqamətlərinin hər cür vasitə ilə təkmilləşdirilməsi, dünya ölkələrində yüksək nailiyyətlər idmanının, həmçinin kütləvi idmanın inkişafının dəstəklənməsi;
– olimpizmin humanist dəyərlərinin qarşılıqlı anlaşma, dostluq, həmrəylik və s. meyarlar kontekstində hörmətlə qarşılanması və onlara riayət edilməsi;
– əhalinin maraq göstərdiyi idman növlərinin,xüsusilə milli və olimpiya oyunları proqramlarına daxil edilmiş idman növlərinin inkişafının və kütləviliyinin artırılmasının dəstəklənməsi;
– bədən tərbiyəsi və idman sahəsində ayrı-seçkiliyin və zorakılığın yolverilməzliyi, irqçilik, ksenofobiya, antisemitizm və dözümsüzlük, siyasi və digər formada diskriminasiya hallarına qarşı mübarizə aparılması;
– beynəlxalq idman biznesinin və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün hüquqi zəmanətlər sisteminin genişləndirilməsi və s.

5. Məşq və yarış fəaliyyəti sferasında beynəlxalq münasibətləri tənzimləyən prinsiplər:

– bütün məşq, yarış və digər idman fəaliyyətinin mühüm elementləri kimi yarış (ədalətli oyun) qaydalarına ciddi riayət və hörmət olunması;
– idmanda təmiz oyun tərzinin yaradılmasına dəstək ola biləcək texniki vasitələrdən istifadə olunması, eləcə də əhalinin geniş kütlə təbəqəsindən tamaşaçıların və kütləvi informasiya vasitələrinin idman yarışlarına cəlb edilməsi;
– məşq fəaliyyəti və idman yarışları qaydalarının məzmunu və təkmilləşdirilməsi ilə bağlı kompleks məsələlərin araşdırılmasına dair milli və beynəlxalq səviyyədə elmi-tədqiqat işlərinin aparılmasının həvəsləndirilməsi;
– ayrı-ayrı idman növləri üzrə yarışların keçirilməsinə dair idman texnikasının, zəruri avadanlıqların və oyun qaydalarının unifikasiyası və s.


6. Beynəlxalq idman hərəkatını idarəetmə sisteminin tənzimlənməsi prinsipləri:

– beynəlxalq idman sahəsində idarəetmə sisteminin demokratikləşdirilməsi, beynəlxalq idman təşkilatlarının demokratik əsaslarla yaradılması və fəaliyyət göstərməsi;
– beynəlxalq idman təşkilatlarının bədən tərbiyəsi və idman sahəsində milli dövlər orqanları (qurumları) və ictimai birliklərlə konstruktiv qarşılıqlı fəaliyyətinin qurulması və həyata keçirilməsi;
– idarəetmə sisteminin ayrı-ayrı ölkələrdə Olimpiya Xartiyasına və beynəlxalq idman hərəkatının digər başlıca və əsas sənədlərinə riayət olunmasının təmin edilməsinə istiqamətlənməsi;
– BOK tərəfindən tanınmış milli olimpiya komitələrinə müvafiq proqramlar vasitəsilə köməklik göstərilməsini

nəzərdə tutan olimpiya həmrəyliyinin həyata keçirilməsi və s.

– Müasir dövrdə formalaşmış **yuxarıda sadalanan törəmə prinsiplər** beynəlxalq idman fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin inkişafının mahiyyətini və obyektiv qanunauyğunluqlarını əks etdirir, eləcə də BİH-in əsas institutlarına və hüquq normalarının tətbiq sferasına toxunur.

IV FƏSİL ÜZRƏ ƏYANİ SXEM



II. XÜSUSİ HİSSƏ.

BEYNƏLXALQ İDMAN HÜQUQUNUN İNSTİTUTLARI

V FƏSİL.
BEYNƏLXALQ İDMAN YARIŞLARININ TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ

5.1. Beynəlxalq idman yarışlarının anlayışı və sistemi

5.1.1. Beynəlxalq idman yarışları anlayışı

Hər şeydən əvvəl, qeyd etməliyik ki, BİH-in **xüsusi hissəsinə** daxil olan **institutlardan** biri beynəlxalq idman yarışlarının təşkili və həyata keçirilməsinin hüquqi aspektləri adlanır. Buna görə də, beynəlxalq idman yarışları ilə bağlı yaranan ictimai münasibətlərin nizama salınması BİH-in tənzimetmə predmetinə aid olan aktual məsələdir. Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, BİH beynəlxalq idman yarışları ilə bağlı idman-hüquq münasibətlərinin tənzimlənməsinə xüsusi diqqət yetirir.[1]

İlk növbədə, vurğulamaq lazımdır ki, bədən tərbiyəsi və idman dövlət tənzimlənmə və idarəetmə obyekti kimi xüsusiyyətə malikdir. Bu sahədə dövlət siyasəti,başlıca olaraq, əhalinin həyat fəaliyyətinin yaxşılaşdırılmasına,sağlam həyat tərzinin formalaşdırılmasına,insanların,xüsusən də gənc nəslin fiziki və mənəvi ruhda tərbiyə olunmasına,idman ehtiyat qüvvələrinin yaradılmasına, eləcə də **beynəlxalq idman yarışlarında** uğurla

[1] Bax: məsələn, Nafziger J.A.R.International Sports Law.-New York:Dobbs Ferry, 1988; ERTAŞ Ş., PETEK H. Spor Hukuku, Yetkin Yayınları. Ankara, 2005, s.26-28; Захарова Л.И.Международное спортивное право. Учебник для бакалавров / Отв. ред. К.А.Бекяшев. – Москва, Проспект, 2017; Beynəlxalq idman hüququ: ümumi müddəalar / Kollektiv müəlliflər. Məsul redaktor – Əliyev E.Ə. Bakı,"SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022 və b.

çıxış etmək məqsədilə milli idman yığma komandalarının hazırlanmasına yönəlmişdir.

İdman yarışları, qeyd etməliyik ki, konkret idman növü üzrə yarış iştirakçıları (idmançılar) arasında təşkil olunmuş idman fəaliyyətinin **spesifik növüdür** və belə yarışlar nəticəsində əldə edilən idman nailiyyətlərinin nümayiş olunmasına, idman sferasında aparılan rəqabətin nizama salınmasına istiqamətlənmişdir, habelə yarışın son nəticəsinə aksent edilən **xüsusi tipli** fəaliyyət kimi xarakterizə olunur. Belə ki, idman yarışlarının həyatakeçirilmə şərtləri daxilində iştirakçıların rəqib, rəqabət və mübarizə münasibətləri müəyyənləşdirilir.[1]

İdman yarışları, adətən, idman-tamaşa formasında təşkil olunur. **İdman-tamaşa hadisəsi** insanların diqqətini idman yarışları mənzərəsini seyr etməyə cəlb edir və o, mahiyyət etibarı ilə, idman azarkeşlərinin və yarışan idmançıların görüş-tamaşa forması kimi publik tamaşa növlərindən biri sayılır.[2]

İdman fəaliyyətinin müxtəlif növləri üzrə beynəlxalq səviyyədə həyata keçirilən kompleks yarışlara **beynəlxalq idman yarışları** (BİY) deyilir. Xüsusilə, qeyd etməliyik ki, beynəlxalq idman yarışları həm ərazi üzrə yarış iştirakçılarını qəbul edən ölkə üçün, həm də idmançılara münasibətdə məsuliyyətli və **irimiqyaslı tədbirdir**, çünki bu səviyyəli yarışlarda ölkənin şərəfini yalnız ən hazırlıqlı idmançılar təmsil edirlər. Beynəlxalq formatda idman yarışlarında rəqabət aparılması idmançılardan yüksək fiziki hazırlıq, eləcə də mənəvi cəhətdən maksimum səy tələb edir. Bu səviyyəli idman yarışlarında iştirak etmək üçün idmançının qeydiyyatına dair tam sənədlər paketinə malik olması nəzərdə tutulur.

---

[1] Bax: Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001, с.369-370.

[2] Bu barədə bax: Психология спорта в терминах, понятиях, междисциплинарных связях: Словарь-справочник / Сост.Е.Н.Сурков. М., 1996, с.110.

Dünyada beynəlxalq idman yarışlarının keçirilməsi **dövlətlərarası əməkdaşlığın inkişafında** həm nəzəri, həm də praktiki cəhətdən əhəmiyyətli rol oynayır. Söhbət ölkələrarası və xalq idman diplomatiyasının formalaşmasından, idmandan siyasət aləti kimi istifadə edilməsindən, qlobal idman meqa-hadisələrinin beynəlxalq münasibətlərə göstərdiyi təsirdən, eləcə də dünyada humanitar münasibətlərin dərinləşməsindən, sülh, dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsindən gedir. Deməli, müasir beynəlxalq münasibətlərin inkişaf etdirilməsində idman əsl dəyərli siyasi vasitəyə çevrilmişdir. Beynəlxalq idman yarışlarının **əsas funksiyası** da məhz yuxarıda göstərdiyimiz aspektləri əhatə edir.

Beləliklə, qloballaşma dövründə idman nüfuzlu bir amilə çevrildiyi üçün beynəlxalq idman yarışlarına həm sosial-humanitar sahədə fəaliyyətin, həm də dövlətlərarası beynəlxalq əməkdaşlığın inkişaf etməkdə olan **xüsusi sektoru** kimi baxmaq olar.

5.1.2. Beynəlxalq idman yarışlarının sistemi

Beynəlxalq idman yarışları xaotik vəziyyətdə deyil, obyektiv formada müəyyən sistem üzrə qurulur. Onlar coğrafi-ərazi əlamətinə görə beynəlxalq olimpiya, paralimpiya, ümumdünya, kontinental, regional oyunlara, proqramın məzmununa görə uşaq-gənclər, tələbə spartakiada və s. formalara ayrılır; həmçinin ayrı-ayrı idman növləri üzrə yarışlar çempionat, birincilik, dünya kuboku, regional kubok və digər titullara görə fərqləndirilir.[1] Eyni zamanda, beynəlxalq idman yarışlarında iştirak edən idmançıların təkbətək (məsələn, boks, güləş, şahmat və s. idman növləri üzrə) və kollektiv (məsələn, futbol, voleybol, həndbol və s. idman növləri üzrə) mübarizə forması da möv-

[1] Beynəlxalq idman yarışlarının sistemi barədə ətraflı bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.516-526.

cuddur. **Beynəlxalq idman yarışlarının sistemi** dedikdə müxtəlif növ idman oyunları üzrə həyata keçirilən beynəlxalq yarışlarının müəyyən komponent və obyektiv əlamətlərə görə təsnifləşdirilməsi başa düşülür. İndi isə idman leksikonunda **"oyunlar"** anlayışı kimi istifadə edilən və onun sisteminin **tərkib hissəsi** olan bəzi terminlərə aydınlıq gətirək.

Olimpiya oyunları (yun.- Ολυμπιακοί αγώνες, fransızca - Jeux olympiques, ingiliscə - Olympic Games[1]) Beynəlxalq Olimpiya Komitəsinin (BOK) himayəsi altında hər 4 ildən bir keçirilən ən böyük beynəlxalq kompleks idman yarışlarıdır.[2]

Paralimpiya oyunları əlillər üçün beynəlxalq idman yarışıdır. Ənənəvi olaraq, onların Yay Paralimpiya Oyunları (1960-cı ildən keçirilir) və Qış Paralimpiya Oyunları (1976-cı ildən keçirilir) kimi formaları fərqləndirilir.[3]

Ümumdünya oyunları Olimpiya oyunları proqramına daxil olmayan idman növləri üzrə reallaşan beynəlxalq kompleks yarışlardır. 1981-ci ildən 4 ildə 1 dəfə, 2001-ci ildən isə BOK-un himayəsi altında həyata keçirilir. Ümumdünya oyunlarının təşkilatçısı 1980-ci ildə 12 idman federasiyası rəhbərlərinin təşəbbüsü ilə yaradılmış, öz idman növlərini Olimpiya proqramına daxil edilənədək populyarlaşdırmağa və statusunu yüksəltməyə çalışan Beynəlxalq Ümumdünya Oyunlar Assosiasiyasıdır (BÜOA - IWGA).

---

[1] Русско-Английский спортивный словарь / А.Аббасов, М.Гулиева, Э.Джафарова. Баку, издательство «ÇİNAR-ÇAP», 2005, с.231.

[2] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.14-49.

[3] Bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.50-55.

Kontinental oyunlar konkret qitə miqyasında həyata keçirilən idman yarışlarıdır. Buna bariz nümunə kimi göstərə bilərik ki, Avropa Olimpiya Komitəsi **"Avropa oyunları"** adlanan öz idman turnirini keçirir. Avropa Olimpiya Komitəsi bu gün öz sıralarında qitənin 50 milli olimpiya komitəsini birləşdirən beynəlxalq olimpiya təşkilatıdır. Onun qərargahı İsveçrənin Lozanna şəhərində yerləşir. Oxşar kontinental idman təşkilatları dünyanın hər yerində mövcuddur. Məsələn, Panamerika oyunları və ya Asiya oyunları kimi idman yarışları həyata keçirilir.

Regional oyunlar region-ərazi mənsubiyyəti əsasında seçilmiş fərdi idman federasiyalarını birləşdirən oyunlardır. Belə oyunlara misal olaraq, GUAM, MDB, TDT və digər regional təşkilatlar formatında həyata keçirilən idman oyunlarını göstərə bilərik. Belə oyunları həm də **"Birlik Oyunları"** kimi adlandırırlar. Bu oyunlar regiona daxil olan ölkələrin dörd ildən bir keçirilən ənənəvi beynəlxalq idman yarışıdır.

Uşaq-gənclər idmanı - idman hazırlığı ilə məşğul olan təşkilatlarda yetkinlik yaşına çatmayanların idman hazırlığına, habelə bu cür vətəndaşların on səkkiz yaşına çatmamış və ya qanunvericilikdə bu məqsədlər üçün müəyyən edilmiş başqa yaş həddinə çatmamış idmançıların iştirak etdiyi oyunlara yönəlmiş idmanın bir hissəsidir.

Tələbə spartakiada oyunları peşə təhsili təşkilatlarında və ali təhsil müəssisələrində tələbələrin bədən tərbiyəsi və idman tədbirlərində iştirak etməsinə yönəlmiş və həyata keçirilən idman yarış sahəsinin sektorudur.Təhsil ocaqlarında tələbələrin sağlamlığının yaxşılaşdırılması və onların sağlam həyat tərzinə motivasiyasının artırılması məqsədilə dərsdənkənar işlər və sosial məsələlər üzrə müvafiq idman klubları yaradılır. Bu cür klubların əsas fəaliyyət istiqaməti bədən tərbiyəsi, eləcə də idman və istirahət tədbirlərinin təşkili və aparılması, müxtəlif idman növləri (məsələn, futbol, voleybol, basketbol, tennis və s.) üzrə tələbə yığma komandalarının formalaşdırılmasına yö-

nəlmişdir. İdman klublarının əsas vəzifəsi bütün səviyyələrdə və dərəcələrdə keçirilən idman yarışlarında təhsil müəssisəsinin şərəfini qorumaqdır.

Beynəlxalq idman yarışları sisteminin **komponentləri** həmçinin ayrı-ayrı idman növlərinə dair yarışlar (çempionat, birincilik, dünya kuboku, regional kubok və digər titullar) üzrə keçirilən oyunlardan ibarətdir.

Çempionat – hər hansı bir idman növü üzrə qalibi (çempionu) – idmançını, komandanı (yığma komandaları) və digər mükafatçıları müəyyən etmək məqsədilə keçirilən rəsmi yarışdır.[1] Çempionatlar coğrafi-ərazi prinsipi əsasında ölkələrinin, regionların, bələdiyyələrin və digər inzibati-ərazi subyektlərinin yığma komandaları arasında ən güclü idmançıların (və ya idman komandalarının) iştirakı ilə yuxarı yaş həddinə məhdudiyyət qoyulmadan komanda idman növləri üzrə keçirilən idman, o cümlədən idman təşkilatlarının əsasnamələrində nəzərdə tutulduğu halda idman klublarının ən güclü komandaları arasında birincilik yarışlarıdır. Məhdud yaşda olan uşaqlar, yeniyetmələr və gənclərin iştirakı ilə də belə çempionatlar keçirilə bilər.

Birincilik – müxtəlif yaş qruplarından olan idmançılar (komandalar) arasında ən güclüləri müəyyən etmək məqsədilə hər hansı bir idman növü üzrə keçirilən yarışlardır. Bu titulun, praktiki olaraq, absolyut (mütləq), komanda, fərdi (individual) və açıq (idmançıların çəki kateqoriyasına ayrılmayan formada mübarizə aparması) ranqları fərqləndirilir.

Kubok – uduzan komandaların sıradan çıxması sistemi üzrə oynalınan idman yarışlarının bir növüdür. Kubok yarışlarında udan komandaya Dünya kuboku, Qitə kuboku və s. titullar təqdim edilir.[2] Kuboklar idmançılar (idman komandaları) arasında

[1] English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, p.48.

[2] İdman kuboklarının növləri barədə bax: https://ukrkubok.com.ua/articles/1.kupit_sportivnie_nagradnie_kubki_na_zakaz_v_ukrkubok (04.12.2021).

yuxarı yaş həddinə məhdudiyyət qoyulmadan, bir qayda olaraq, bir neçə mərhələdə keçirilən idman yarışlarıdır. Kuboklarda fərdi proqram növləri üzrə qaliblərin mükafatlandırılması ilə yanaşı, üç və daha çox idmançının (komandalar, qruplar, heyətlər, cütlər və s.) iştirakı ilə yarış proqramı şəklində kubok oynanılır və qalibə verilir.

İdman yarışları – yarışın ən hazırlıqlı iştirakçısını müəyyən etmək məqsədilə müxtəlif idman növləri üzrə idmançılar və ya komandalar arasında onun təşkilatçısı tərəfindən təsdiq edilmiş əsasnaməyə (reqlamentə) uyğun keçirilən idman yarış tədbirləridir. İdman yarışlarının keçirilməsi üçün metod baxımından üç əsas sistem mövcuddur: dairəvi sistem (bütün iştirakçılar bir və ya bir neçə dəfə qarşılaşır, qələbə üçün xal verilir), kubok sistemi (uduzan komandaların sıradan çıxarılması üsulu ilə həyata keçirilir) və qarışıq sistem (dairəvi və kubok sistemlərini birləşdirən prinsiplər üzrə).[1]

Qeyd etməliyik ki, ötən əsrin sonlarınadək idman-hüquq münasibətlərinin subyektlərinə görə dünyada mütləq şəkildə **idman yarışlarının iki sistemi** fəaliyyət göstərmişdir:

I. Həvəskar-idmançılar arasında, yəni olimpiya idmanı sferasında həyata keçirilən idman yarışları;

II. Peşəkar idman növü dəb halını almış ölkələrdə peşəkar idmançılar arasında həyata keçirilən idman yarışları.[2]

Olimpiya oyunları, dünya çempionatı, qitə çempionatı və idman növləri üzrə milli birinciliklər (1980-ci illərin ortalarınadək peşəkar idmançılar bu oyunlara buraxılmırdı) **I sistemin tərkib hissəsinə** aiddir. Bu sistem, hər şeydən əvvəl, ən yüksək fərdi və komanda idman nəticələrinə nail olunmasına yönəlmişdir.

1 https://dic.academic.ru/dic.nsf/bse/135219/ (05.12.2021-ci il).

[2] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.517.

Beynəlxalq idman yarışlarının **II sisteminin tərkib hissəsini** peşəkar idman növü üzrə keçirilən yarışlar təşkil edir.[1] Boks, qolf, tennis və veloidman istisna olmaqla peşəkar idmanın əksər növləri üzrə beynəlxalq təşkilatlar mövcud olmadığı üçün yarışlar, əsasən, milli səviyyədə təşkil olunurdu. Olimpiya idmanından fərqli olaraq, peşəkar idmanda yarış nəticələri ilə yanaşı, hər şeydən əvvəl, onun kommersiya nailiyyətləri qiymətləndirilir və bu amil idman xidmətlərinin istehlakçısı kimi tamaşaçıların münasibətindən daha çox asılıdır.

Peşəkar idmanda **kommersiyalaşma prosesi** tədricən həvəskar idman sferasına ekstrapolyasiya olunmağa (şamil edilməyə) başladı. Belə ki, 1980-ci ildən başlayaraq yüksək nailiyyətlər idmanında, hər şeydən əvvəl, olimpiya oyunlarında yarışların keçirilməsinə yeni baxışlar formalaşdı və BOK-un qərarı ilə ayrı-ayrı idman növləri üzrə peşəkar idmançıların olimpiya oyunlarında iştirakına icazə verildi. Bununla da beynəlxalq idman hərəkatında olimpiya (həvəskar) idmanın professionallaşmasına (peşəkarlaşmasına) və biznesin idmana aktiv müdaxiləsinə start verildi.[2] Bazar iqtisadiyyatı şəraitində beynəlxalq idman yarışlarının keçirilməsində **marketinq institutunun** tətbiqinə geniş yer ayrıldı. Müasir dövrdə dünyada cərəyan edən qloballaşma təzahürləri kontekstində idman sferasında baş verən **transformasiya prosesləri** nəticəsində yeniliklər tətbiq edildi, habelə idman yarışlarının üç səviyyəsi müəyyənləşdirildi: Qızıl liqa, Qran-pri, İAAF (Dünya Atletikası –

[1] Beynəlxalq olimpiya hərəkatında peşəkar idman barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.56-84.

[2] Olimpiya idmanının professionallaşması barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.85-161.

WORLD ATHLETICS) yarışları. Peşəkar idmanın olimpiya idmanına nüfuz etməsi, başqa sözlə – resepsiya olunması və onların nisbi yaxınlaşması idmanın gələcək tərəqqisi üçün mühüm faktorlardan biridir.[1]

Lakin, bütün bunlara baxmayaraq, peşəkar idman yarışları sistemini olimpiya idman yarışları sistemindən **fərqləndirən müəyyən cəhətlər** mövcuddur. Həmin cəhətlərdən bəziləri hüquq ədəbiyyatında aşağıdakı kimi şərh edilir:[2]

1) idman yarışları sisteminin o qədər də idman nailiyyətlərinin yüksəldilməsinə deyil, daha çox rəqabət şəraitində əldə edilmiş ustalıq (məharət) dərəcəsindən istifadəyə, qalib olmağa istiqamətlənməsi;

2) idman yarışlarına xidmət sahəsi kimi baxılır və bu xidmət sahəsində başlıca yeri istehlakçı (tamaşaçı) tutur; ilk növbədə tamaşaçıların, teleseyrçilərin, sponsorların, reklamverənlərin cəlb edilməsi və yarışların keçirilməsindən maksimum gəlir əldə edilməsi məsələsi durur;

3) yüksək qazanc gətirə biləcək idman növlərinə oriyentasiya;

4) yarışların tamaşaçıların pul vəsaitinə hesablanmış müxtəlif təqdimatlarla, musiqi səhnələri ilə, dəstək qruplarının çıxışları və cürbəcür əlavə xidmətlərlə müşayiət edilməsi;

5) idman oyunlarına hazırlıq və yarış fəaliyyətində nisbət baxımından fərqlərin mövcud olması;

6) idman oyunlarının uzunmüddətliyi və dolğunluğu istiqamətində yarış təqvimlərindəki fərqlər;

7) idman oyunlarına gələn tamaşaçıların sayı və oyunların populyarlığı dünya səviyyəli ulduzların çıxışları ilə birbaşa əlaqəli olduğu üçün idman elitasının formalaşdırılması;

---

[1] Bax: Гуськов С.И. Маркетинг спортивных соревнований. Спорт и маркетинг. М., 1995, с. 183-212.

[2] Bu cəhətlər barədə daha ətraflı bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.524-525.

8) idmançıların təsnif edilməsində mövcud olan fərqlər və s.

Peşəkar idmanın beynəlxalq idman fəaliyyətinin və olimpiya hərəkatının tərkib hissəsi kimi tanınması onun **obyektiv şəkildə** inkişafına əhəmiyyətli təsir göstərir. Bununla yanaşı, həvəskar və peşəkar idman sahələrinin bir əsrdən çox davam edən **yaxınlaşması**, zənnimizcə, hələ bir neçə onilliklər ərzində davam edəcəkdir. Lakin, nəzərə almaq lazımdır ki, belə yaxınlaşma prosesi **onların birləşdirilməsinə gətirib çıxarmayacaq**.[1] Belə ki, yüksək nailiyyətlər idman növü kimi həm olimpiya, həm də peşəkar idman sahələri bir-birindən fərqli **özünəməxsus vəzifələri** yerinə yetirir və onların inkişafı ilə müxtəlif şəxslər və təşkilatlar (subyektlər) məşğul olurlar; həmçinin hər iki sistem üzrə yarışların keçirilməsi və nizama salınması (reqlamentasiyası) **metodu müxtəlifdir**, idman münasibətləri fərqli üsullarla tənzimlənir.

5.2. Beynəlxalq idman yarışlarının təşkili və həyata keçirilməsi

5.2.1. Beynəlxalq idman yarışlarının təşkili

Dünya və Avropa çempionatlarının, habelə digər beynəlxalq idman yarışlarının müvafiq beynəlxalq idman təşkilatları tərəfindən müəyyən olunmuş tələblər çərçivəsində təşkili üzrə fəaliyyətin təmin edilməsi hər bir ölkədə dövlətin bədən tərbiyəsi və idman sahəsində **əsas vəzifələrindən** biridir.

Beynəlxalq idman yarışlarının təşkili və keçirilməsi ayrı-ayrı idman subyektlərinin **kompleks fəaliyyət** sahəsidir. Belə ki, beynəlxalq idman tədbirlərinin təşkili çərçivəsində oyunların keçiriləcəyi məkanın əlverişli olması, yarış iştirakçılarının sayına uyğun münasib yerin müəyyənləşdirilməsi, yarışları şərh

[1]Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.332-339.

edəcək aparıcının seçilməsi, idmançıların normalara uyğun ərzaq və yeməklə təmin edilməsi, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi, idman tədbirinin qeydə alınaraq yazılması üçün audio, foto və video çəkilişlərin aparılması və digər xidmətlərin göstərilməsi vacib şərtlərdir. Təşkilati baxımdan, beynəlxalq idman yarışları fərqli olsa da, onların hazırlanması və realizasiya praktikası belə oyunlarda çoxlu oxşarlıqların mövcudolma faktını və əsas ümumi məqamları ayırmağa imkan verir.

Qeyd etməliyik ki, **beynəlxalq idman yarışlarını təşkil edən orqan (qurum),** bir qayda olaraq, aşağıdakı tədbirləri həyata keçirir:[1]

- təşkilati komitəni formalaşdırır və onun tərkibinə ixtisaslaşdırılmış personal, həmçinin könüllü köməkçilər (volyuntarlar) seçir;
- yarış iştirakçılarını və onların yarışda iştirak şərtlərini müəyyənləşdirir;
- yarışların keçirilmə yerini müəyyən edir və həmin məkanın yarış üçün hazırlanması vəziyyətini yoxlayır;
- yarışların təqvimini, cədvəlini və reqlamentini təsdiq edir;
- hakimlər kollegiyasını təsdiq edir və yarışların keçirilməsi üçün həmin qurumu zəruri vasitələrlə təmin edir;
- yarışların açılışı və bağlanması ssenarisini təklif edir;
- yarış iştirakçılarının qəbulunu, yerləşdirilməsini, qidalanmasını və yola salınmasını təşkil edir;
- yarışların tibbi xidmətini təmin edir;
- mükafat atributlarını və priz fondunun hazırlanmasını təşkil edir;
- yarışlarla bağlı reklam kompaniyasını həyata keçirir və s.

[1] Hüquq ədəbiyyatı səhifələrində bu tədbirlər ətraflı şəkildə şərh olunmuşdur. Məsələn, bax: Международное спортивное право. Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.533-534.

İdman yarışları, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq səviyyədə **iki kateqoriya** üzrə keçirilir: 1) kompleks yarışlar və 2) ayrı-ayrı idman növləri üzrə yarışlar. Beynəlxalq idman yarışlarının göstərilən kateqoriyalarının hər birinin özünəməxsus xarakterik aspektlərinə qısaca nəzər salaq.

5.2.2. Kompleks beynəlxalq idman yarışlarının keçirilməsi

Birinci kateqoriya adlandırdığımız kompleks beynəlxalq idman yarışlarının təşkili və keçirilməsi qaydalarını müasir dövrdə ən qlobal idman yarışı sayılan **Olimpiya oyunları** timsalında nəzərdən keçirək. Hər şeydən əvvəl, qeyd etməliyik ki, Olimpiya oyunlarının təşkili, keçirilməsi və administrasiyası, Olimpiya oyunlarında iştirak, Olimpiya oyunlarının proqramı və s. tədbirlərlə bağlı münasibətlər BOK-un **Olimpiya Xartiyası** ilə (2001-ci il) nizama salınır və sənədin V fəsli bütövlükdə bu məsələlərin normativ-hüquqi tənzimlənməsinə həsr olunmuşdur. Məlumat üçün qeyd edək ki, hazırda sözügedən sənədin 17.07.2020-ci il tarixli redaksiyası qüvvəyə minmişdir.[1]

Əvvəllərdə qeyd etdiyimiz kimi, ilk Olimpiya oyunlarının Qədim Yunanıstanda yaranması bizim eradan əvvəl IX əsrə təsadüf edir. Ümumyunanstan bayramlarında dini mərkəz olan Olimpiya şəhərində vaxtilə dörd ildən bir müxtəlif idman oyunları və yarışlar keçirilirdi. **"Olimpiya oyunları"** adı da məhz o zamanlar yaranmışdır.

Müasir dövrdə isə Olimpiya oyunlarının formalaşması **1894-cü il 16 iyun** tarixindən başlayır.

Olimpiya Xartiyasında təsbit olunmuş müddəalara görə, beynəlxalq olimpiya oyunları dörd ildən bir və on altı gündən çox olmayan müddətə keçirilən **Yay olimpiya oyunları** (1896-cı ildən) və **Qış olimpiya oyunları** (1924-cü ildən) formalarına

[1] Ətraflı bax: https://olympic.kz/ru/page/mok (10.12.2021-ci il).

bölünür. Bayram və istirahət günlərində yarışların keçirilməsi nəzərdə tutulmur. Bu səbəbdən yarışların keçirilmə müddəti BOK-un İcraiyyə Komitəsinin razılığı ilə artırıla bilər. Olimpiya oyunları **olimpiya idman növünə** görə aşağıdakı kimi təsnif olunur:

- silsiləli idman oyunları;
- qeyri-silsiləli idman oyunları;
- mürəkkəb koordinasiyalı idman oyunları;
- təkmübarizlik idman oyunları;
- kollektiv idman oyunları;
- çoxnövçülük və kombinasiyalı idman oyunları və s.

Olimpiya oyunlarının keçirilməsi şərəfinə BOK yarışların **təşkilatçısı olan şəhəri** müəyyən edir. Təşkilatçı-şəhərin seçilməsinə qədər **yarışların keçiriləcəyi il** təqdim olunmuş sifarişlər əsasında BOK-un İcraiyyə Komitəsi tərəfindən təsdiq edilir. Olimpiya oyunları ilə bağlı təşkilatçı-şəhərin seçilməsi BOK-un **müstəsna səlahiyyətidir**. Olimpiya oyunlarının keçirilməsi ilə əlaqədar təşkilatçı-şəhərin namizədliyi yalnız həmin ölkənin MOK qurumu tərəfindən bəyənildikdən sonra irəli sürülə bilər. MOK tərəfindən bəyənilmiş müvafiq sifarişi iddiaçı şəhərin rəsmi hakimiyyət orqanları təqdim edir; bu zaman həmin şəhərin iqtisadi inkişaf göstəriciləri, maliyyə imkanları, ictimai asayişin qorunması, ictimai təhlükəsizliyin təmin olunması və s. amillər nəzərə alınır. Təşkilatçı-şəhərin seçilməsi, fövqəladə hallar istisna olmaqla, oyunların başlamasına yeddi il qalmış baş tutmalıdır.

BOK-un Prezidenti tərəfindən yaradılmış iki qiymətləndirmə komissiyasının hesabatları əsasında BOK-un İcraiyyə Komitəsi namizəd-şəhərlərin siyahısını seçki üçün Beynəlxalq Olimpiya Komitəsinin **sessiyasına** təqdim edir. Təşkilatçı-şəhər seçildikdən sonra dərhal BOK ilə həmin təşkilatçı-şəhər və ölkənin MOK qurumu arasında aidiyyəti öhdəlikləri təfsilatı ilə müəyyənləşdirən yazılı formada **Rəsmi Müqavilə** bağlanır.

Olimpiya oyunlarının yüksək səviyyədə keçirilməsi məqsədilə MOK tərəfindən hüquqi şəxs statusuna malik olan **Olimpiya Oyunlarının Təşkilat Komitəsi** (OOTK) yaradılır. O, öz fəaliyyətini Olimpiya Xartiyasına, Rəsmi Müqaviləyə və BOK İcraiyyə Komitəsinin təlimatlarına uyğun qaydada həyata keçirir. OOTK ilə MOK arasında əməkdaşlığın operativ şəkildə təmin edilməsi üçün əlaqələndirici şəxs **- attaşe** təyin oluna bilər. Həmçinin Olimpiya oyunlarının keçirilməsinin sadələşdirilməsi, habelə OOTK və BOK, BİF və MOK arasında qarşılıqlı fəaliyyətin optimallaşdırılması məqsədilə BOK-un Prezidenti tərəfindən **Əlaqələndirici Komissiya** yaradılır. Bu orqan yarışların idarə edilməsinə və göstərilən idman təşkilatları arasında işçi əlaqələrin təmin olunması funksiyalarını yerinə yetirir. BOK-un Prezidenti tərəfindən həm də antidopinq, tibbi təminat və idmançıların sağlamlığı ilə məşğul olan **Tibbi Komissiya** təsis edilir.

Bütün idmançıların, rəsmi nümayəndələrin və komandaların heyət üzvlərinin bir məkanda yerləşdirilməsi məqsədilə OOTK **Olimpiya Kəndinin** fəaliyyət göstərməsini təmin edir.

Olimpiya oyunlarının hər hansı bir iştirakçısı idmançını təqdim edən MOK-un təsis olunduğu ölkənin **vətəndaşı** olmalıdır. İki və daha çox ölkənin vətəndaşlığı olan iştirakçı öz istəyinə görə yalnız həmin ölkələrdən birini təmsil edə bilər. Vətəndaşlığını dəyişən və ya yeni vətəndaşlıq qəbul edən idmançı üç il ərzində Olimpiya oyunlarında yeni vətəndaşı olduğu ölkəni təmsil edə bilməz. Lakin bu müddət MOK-un və müvafiq BİF-in razılığı ilə BOK İcraiyyə Komitəsindən icazə alındıqdan sonra azaldıla, hətta ləğv oluna bilər.

Olimpiya yarışları keçirilən kompleks idman növləri və idmanın növ qrupları **Olimpiya oyunlarının proqramında** təsbit olunmalıdır.[1] Bu proqram BOK tərəfindən müvafiq BİF

[1] Bu barədə bax: Олимпийская энциклопедия / Гл.ред. С.П. Павлов. М.,1980, с.274-279; Платонов В.Н., Гуськов С.И. Олимпийский спорт. Учебник. В 2 кн. Кн.1. Киев, 1994, с.358-362 və b.

qurumları ilə məsləhətləşmələr aparıldıqdan, eyni zamanda, olimpiya şəhəri seçildikdən (yəni oyunların başlamasına yeddi ildən az olmayan müddət nəzərdə tutulur) sonra hər bir yay və qış Olimpiya oyunları üçün təsdiq edilir. Yay Olimpiya oyunlarının proqramına ən azı 15 olimpiya idman növü daxil edilir, Qış Olimpiya oyunları proqramı üçün isə belə minimum həddi müəyyən edilməmişdir.

Olimpiya idman növlərinə rəhbərlik edən **BİF təşkilatları** sırasında aşağıdakı qurumların adlarını çəkə bilərik:

a) Olimpiada oyunları üzrə: Beynəlxalq Badminton Federasiyası, Beynəlxalq Beysbol Federasiyası, Dönya Atletikası, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası, Beynəlxalq Gimnastika Federasiyası, Beynəlxalq Həvəskar Basketbol Federasiyası, Beynəlxalq Həndbol Federasiyası və digər beynəlxalq idman federasiyaları;

b) Qış Olimpiya oyunları üzrə: Beynəlxalq Biatlon İttifaqı, Ümumdünya Kerlinq[1] Federasiyası **,** Beynəlxalq Buz üzərində Xokkey Federasiyası, Beynəlxalq Xizək İdman Federasiyası, Beynəlxalq Konkisürmə İdman İttifaqı və başqa beynəlxalq idman təşkilatları.

Olimpiya oyunlarının **kütləvi informasiya vasitələrində yayımlanması** olimpizmin prinsiplərinin genişlənməsinə və inkişafına pozitiv təsir göstərən amillərdən biridir. Olimpiya oyunlarında **reklam və təbliğat** məsələləri də xüsusi maraq doğurur. İdman yarışlarının audio-tele yayımlanması və kommersiya-reklam fəaliyyətinin tənzimlənməsi məsələlərinin həlli BOK İcraiyyə Komitəsinin müstəsna səlahiyyətinə aiddir.

Olimpiya oyunlarının **açılış mərasiminin** əsas cəhətlərindən biri ondan ibarətdir ki, prosedur qaydalara görə BOK-un prezidenti və OOTK-nın prezidenti stadionun girişində təşkilatçı-

[1] Terminoloji lüğətlərə görə, *kerlinq* (rusca – *кэрлинг,* ingiliscə - *curling*) buz meydançasında idman oyun növü kimi təfsir edilir. Məsələn, bax: English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, p.65.

ölkənin Dövlət başçısını qarşılayaraq, rəsmi tribunada onun üçün xüsusi nəzərdə tutulmuş loja yerinədək müşayiət edirlər. Müvafiq parad keçirildikdən sonra **Dövlət başçısı** Olimpiya oyunlarının açılışını elan edir.

Olimpiya oyunları üzrə bütün yarışlar başa çatdıqdan sonra həmrəylik paradı keçirilir və BOK-un prezidenti son yekun çıxışı edərək, **Olimpiya oyunlarını bağlı elan edir.** Mükafatların təqdimolunma mərasimi BOK-un müəyyən etdiyi reqlamentə uyğun olaraq həyata keçirilir, müvafiq medal və diplomlar (məsələn, xüsusi yarışlar üzrə birinci yerə görə - qızıl medal və diplom, ikinci yerə görə – gümüş medal və diplom, üçüncü yerə görə isə – bürünc medal və diplom) təqdim edilir. Olimpiya oyunlarında iştirak edən bütün idmançılara xatirə nişanı verilir.[1]

5.2.3. Ayrı-ayrı idman növləri üzrə beynəlxalq yarışlarının keçirilməsi

Ayrı-ayrı idman növləri üzrə beynəlxalq səviyyədə keçirilən idman yarışları ilə bağlı BİF və yarışların təşkilatçıları qarşısında duran əsas **təşkilati məsələlər** sırasına aşağıdakılar aiddir:[2]

- yarışların keçiriləcəyi şəhər və məkanın seçilməsi;
- yarışların keçirilməsi üçün təşkilati komitə üzvlərinin təyin edilməsi və onun tərkibinə ixtisaslı personalın seçilməsi;
- idman sahəsində könüllülük əsasında iş aparan köməkçilərin (idman volontyorlarının) mövcud olması;
- beynəlxalq yarışların keçirilməsinin iqtisadi cəhətdən effektivliyinin təmin edilməsi və s. tədbirlər.

[1] Ətraflı bax: Трескин А., Штейнбах В. История Олимпийских игр: Медали, значки, плакаты. М., Терра-Спорт, Олимпия Пресс,2001, 96 с. https://www.domgogolya.ru/books/998/ (12.12.2021-ci il).

[2] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.566-572.

Təbii ki, hər hansı beynəlxalq idman yarışının keyfiyyətli və yüksək səviyyədə təşkil edilməsi onun keçiriləcəyi optimal **məkanın və şəhərin seçilməsi** faktorundan daha çox asılıdır. Qeyd etməliyik ki, hələ ötən XX əsrdə ayrı-ayrı idman növləri üzrə böyük idman yarışlarının keçiriləcəyi məkanın seçilməsinin **iki əsas meyarı** mövcud idi: 1) idman növünün populyarlığı; 2) yarışların keçirilməsindən gəlir və mənfəətin götürülməsi. Əgər 1980-ci ilədək, praktiki olaraq, bütün idman növləri üçün 1-ci meyar xarakterik idisə, artıq 1990-cı illərdən 2-ci meyar həlledici əlamətə çevrildi.

1980-ci illərədək, bir qayda olaraq, əksər BİF qurumları yarışların keçirilməsi üçün şəhərin seçilməsini müvafiq tender - **müsabiqə təşkil edilmədən** bu və ya digər

MİF orqanlarının xahişi ilə təyin edirdilər. Lakin son dövrlərdə idman fəaliyyətinin kommersiyalaşdırılması ilə əlaqədar olaraq, bir çox BİF təşkilatları tərəfindən (ilk növbədə – FİFA, UEFA və b.) yarışların keçiriləcəyi təşkilatçı-şəhərin seçilməsinin **tender üsulu vasitəsilə** həyata keçirilməsinə start verildi. Bu məqsədlə yarışların keçiriləcəyi məkan, infrastruktur, maddi-texniki təminat, təhlükəsizlik və s. məsələlərə dair xüsusi tələblər işlənib hazırlandı.

Təşkilatçı-şəhər seçildikdən sonra idman yarışlarının uğurlu keçirilməsi məqsədilə **yarışların keçirilməsi üzrə təşkilati komitə** yaradılır, **könüllülər** (idman volontyorları) cəlb olunur və sairə zəruri tədbirlər görülür. Bu zaman idman tədbirlərinin həyata keçirilməsi işində **kommersiya təşkilatlarının** iştirakına üstünlük verilir.

Müasir dövrdə peşəkar idmanın inkişaf etməsi iqtisadi baxımdan yüksək effektli **prinsipial meyarlar** kontekstində idman yarışları sisteminin formalaşmasına gətirib çıxarmışdır. Bu sırada birinci və əsas meyar kimi yarış keçirilən stadionlara və yaxud idman saraylarına daha çox azərkeş və tamaşaçının cəlb ediməsi, eləcə də yarış oyunlarının audio-teleyayımının daha çox insan tərəfindən dinlənilməsi və izlənilməsi faktoru

çıxış edir ki, bunun da nəticəsində **kifayət qədər gəlir** əldə olunur. İdman oyunlarını keçirilməsindən gəlir əldə olunmasına təkcə xüsusi meyar kimi deyil, həm də tamaşaçılarda həvəs oyadan **təhrikedici motiv** kimi baxılır.

Bununla əlaqədar olaraq, idman yarışlarının hazırlanması və keçirilməsi ilə bağlı bütün **maliyyə resurslarının idarə edilməsinin təşkilati aspektləri** mühüm diqqətə layiqdir. Söhbət, hər şeydən əvvəl, idman yarışlarında idarəetminin ən effektiv vasitəsi kimi gəlir və xərc büdcəsinin planlaşdırılmasından gedir. Onun tərtibi ilə idman yarışlarının təşkili və keçirilməsi üzrə bütün aidiyyəti xidmətlər məşğul olur və belə layihə baş menecerə təqdim edilir. Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, bu istiqamətdə müvafiq dövlət proqramları da həyata keçirilir.

Yarış oyunlarına münasibətdə idman təşkilatları müəyyən hüquqlara malikdirlər ki, onların realizasiyası yarışların keçirilməsi **marketinqini** təşkil edir.[1] Yarışların keçirilməsindən daxil olan gəlir özündə, adətən, aşağıdakı **mənbələri** ehtiva edir:

- tamaşaçılara biletlərin satılması;
- yarışların radio və televiziya ilə translyasiyasına müvafiq hüquqların satışı;
- kino və video çəkiliş üçün hüquqların verilməsinə görə ödənilən dəyər;
- xatirə medallarının, nişanların, monetlərin, idman vımpellərinin, suvenirlərin və digər milli istehsal məhsulların satışından daxil olan vəsait;
- olimpiya simvolunu özündə əks etdirən idman geyimlərinin, digər avadanlıq və ləvazimatların satışından əldə olunan vəsait;

[1] Bu münasibətlər barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.570-572.

– yarışlar keçirilən zaman idman məkanlarının aidiyyəti ətraf ərazilərində avtonəqliyyat vasitələrinin parklanmasından daxil olan vəsait;
– yarışlar zamanı keçirilən lotereya və totalizator-mərc oyunlarından vəsait daxilolmaları;
– reklam, lisenziya, nəşr və digər kommersiya fəaliyyətindən daxilolmalar;
– sponsor və rəsmi təchizatçılardan daxil olan vəsait;
– yerli hakimiyyət və hökumət orqanları tərəfindən ayrılan dotasiya-pul yardımları və s. mənbələr.

Beləliklə, müasir dövrdə formalaşmış və aktiv şəkildə tətbiq edilən belə dinamik təcrübə beynəlxalq idman yarışlarının keçirilməsini **stimullaşdıran faktor** kimi bütövlükdə beynəlxalq idmanın inkişafına və əhatə dairəsinin genişləndirilməsinə əhəmiyyətli dərəcədə pozitiv təsir göstərir.

5.3. Beynəlxalq idman yarışlarının hüquqi tənzimlənməsi

Beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkil olunması və nizamlı şəkildə həyata keçirilməsi üçün zəruri olan prosedurlar **hüquqi cəhətdən** reqlamentləşdirilir.

Bu o deməkdir ki, idman hüquqi tənzimetmə obyektidir və bütövlükdə idman fəaliyyətinin həyata kerçirilməsi ilə bağlı yaranan idman-hüquq münasibətləri normativ hüquqi aktlarla **tənzimlənir**, nizama salınır. İdman münasibərləri dövlət hüquq-mühafizə sferasında olan ictimai münasibətlər kateqoriyasına aiddir. Ona görə də, dövlət orqanlarında qeydiyyata alınmış hər bir idman təşkilatı yarışlara ümumi rəhbərliyi həyata keçirmək üçün yarış fəaliyyəti qaydalarını müəyyən edən normativ sənədlər işləyib hazırlayırlar.

Yarışların hazırlanmasını və keçirilməsini reqlamentləşdirən **əsas sənədlər** kimi konkret idman növü üzrə müvafiq Yarış Qaydaları, Əsasnamə, Reqlament və s. aktlar çıxış edir.

Yarış Qaydaları dedikdə yarışların keçirilməsi şərtlərini və qaydalarını, iştirakçıların, təşkilatçıların, eləcə də hakimlərin hüquq və vəzifələrini təsbit edən rəsmi sənəd başa düşülür.[1] Yarış qaydaları ayrı-ayrı idman növləri üzrə müvafiq Beynəlxalq İdman Federasiya qurumları tərəfindən hazırlanır və milli federasiyaların da öz yarışlarını sözügedən qaydaların tələblərinə uyğun keçirməsi tövsiyə olunur. Bu sənəd işlənib hazırlanarkən konkret idman növü üzrə hakimlər kollegiyasının rəy və təklifləri də nəzərə alınır. Qaydalarda, əsasən, aşağıdakı **nüanslar** müəyyənləşdirilir:

- keçirilən yarışların xarakteri – yarışlar xüsusi (şəxsi) və komanda formatında ola bilər;
- yarış iştirakçılarının yaş həddi və geyim forması, onların hüquq və vəzifələri;
- iştirakçıların yarışlara buraxılması – bu, idmançının yarışlarda iştiraketmə hüququna dair rəsmi icazədir və tibbi müayinə və yarışlar haqqındakı nizamnamə ilə rəsmiləşdirilir;[2]
- hakimlər kollegiyasının tərkibi, onların konkret hüquq və vəzifələri;
- idman yarışları üzrə məşqlərin növləri, distansiyalar, avadanlıqlar, inventar, yarışın keçirildiyi məkana dair tələblər və s.[3]

Qeyd edə bilərik ki, Yarış Qaydaları konkret idman növünün **spesifik xüsusiyyətlərini** əks etdirir, habelə oyunların müddətini, icazə verilən və qadağan olunan üsul və fəndləri, pozuntulara görə cəza-tənbeh tədbirlərini və oyunların nəticələrinin müəyyənləşdirilməsini özündə ehtiva edir.

---

[1] Bax: Энциклопедический словарь юного спортсмена. М., 1979, с.313-314; Энциклопедический словарь по физической культуре и спорту. В 3 т. М., 1961, Т.2, с.299.

[2] İzahlı idman terminləri / Tərtib edən: S. S. Hüseynov. Bakı, ”Yazıçı” nəşriyyatı, 2009, s.205.

[3] Bu barədə ətraflı bax: https://yunc.org/ (17.12.2021-ci il).

Bəzi idman növlərində sözügedən Qaydalara distansiyaların (məsafələrin) diaqramları, yarışların keçirilmə yerlərinin sxemləri, nəticələrin ölçülmə üsulları barədə metodik sənəd (məsələn, atletika, su xizək idman növündə), xal cədvəlləri (xizək sürmə, sürətli konkisürmə və s. idman növləri üzrə), hakimlər üçün təlimatlar və göstərişlər, zəruri sənədlərin formaları (yarışlarda iştirak üçün ərizə, yarışlara dair protokol, yarışın baş hakiminin hesabat forması) **əlavə olunur**. Qaydalara yeni rekordun və ya nailiyyətin qeydə alınması üsulu haqqında müvafiq Əsasnamə də daxil edilir.

Beləliklə,Yarış Qaydaları idman yarışlarını tənzimləyən **"əsas qanun"** sayılır, onun pozulması yolverilməzdir. Qaydalarda həmçinin iştirakçıların, tamaşaçıların və digər şəxslərin sağlamlığına və həyatına dəymiş zərərə görə yarış təşkilatçılarının, idman qurğuları sahiblərinin, hakimlər kollegiyasının məsuliyyətini nəzərdə tutan normalar da təsbit olunur.

Beynəlxalq idman yarışlarının hüquqi cəhətdən tənzimlənməsində **Yarış haqqında Əsasnamə** də vacib rol oynayır. Bu sənəd konkret idman yarışının məqsəd və vəzifələrini, onun bütün gedişatını, yekun vurulması və qaliblərin mükafatlandırılması qaydalarını müəyyənləşdirir.[1] Onun işlənib hazırlanmasını yarışın keçirilməsinə cavabdeh olan təşkilat yerinə yetirir. Bu funksiya idman sahəsində inkişaf etmiş ölkələrdə idman növləri üzrə federasiya, assosiasiya, ittifaq, liqa və s. qurumlar tərəfindən həyata keçirilir.

Əsasnamədə, adətən, aşağıdakı **məqamlar** göstərilir:

- idman yarışının adı, məqsəd və vəzifələri;
- yarışda iştiraka buraxılma – idmançıların yaşı, ixtisası, təmsil etdiyi ölkə, şəhər, idman cəmiyyəti və s.;
- idman yarışının xarakteri – fərdi (individual), komanda, fərdi (individual) – komanda formatları;

[1] Ətraflı bax: Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001, с.293.

– yarışın keçiriləcəyi yer və vaxt, məsul təşkilat, yarış günləri üzrə proqram və təqvim, keçirilmə şərtləri, yarış iştirakçıları, yaş qrupları;
– yarışa buraxılan idmançıların say tərkibi, iştirakçıların geyim formaları, iştirakçıların və hakimlərin qəbul şərtləri, yarış iştirakçılarının sənədləşdirilməsi;
– həkim nəzarətinə dair tələblər, yarışın açılış və bağlanış proseduru;
– yarışlarda iştirak etmək üçün rəsmi sifarişin forması və onun təqdimolunma müddətləri - sifarişi komandanı yarışa göndərən təşkilatın rəhbəri və trener imzalayır;
– idman yarış qaliblərinin və mükafatçıların müəyyənləşdirilməsi və təltif edilməsi qaydaları və s.[1]

Yarışlar haqqında müvafiq əsasnamələr konkret idman növü üzrə yarışı **nizama salmaqla** yanaşı, eyni zamanda, həmin idman növünün inkişafına daha çox təsir göstərir.

Beynəlxalq idman yarışlarının tənzimlənməsində **Yarış Reqlamenti** xüsusi əhəmiyyətə malikdir. Terminoloji lüğətlərə görə, Yarış Reqlamentinin məna yükü yarış cədvəlləri də daxil olmaqla yarışların keçirilməsinin üsul, tərz və rejimini, habelə ümumi missiya və texniki reqlamentləri müəyyən edən qaydaların məcmusunu ehtiva edir.[2]

Normativ hüquqi akt kimi Yarış Reqlamenti, bir qayda olaraq, məzmun etibarilə aşağıdakı münasibətlərə dair **tənzimləyici qaydaları** özündə birləşdirir:

– idman yarışlarının məqsəd və vəzifələri, yarışa rəhbərlik;

[1] Məsələn, atletika idman növü üzrə müvafiq münasibətlər Dünya Atletikasının Konstitusiyası (2019-cu il) ilə tənzimlənir.Bu barədə ətraflı bax: www.WorldAthletics.org (18.12.2021-ci il).

[2] Bax: Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001, с.331.

– yarışın iştirakçıları və keçirilmə şərtləri, hakimlik münasibətləri, yarışın yoxlanılması və müvafiq nəzarətin yerinə yetirilməsi;
– idmançıların və komanda (klub) rəhbərlərinin məsuliyyəti, protest verilməsi;
– iştirakçıların qəbul edilməsi şərtləri, cərimə sanksiyaları, yarışda qalibin müəyyən edilməsi, təltifedilmə və s. məsələlər.[1]

Qeyd etmək lazımdır ki, beynəlxalq idman yarışlarını nizama salan adıçəkilən hər üç **normativ hüquqi sənəd** – Yarış Qaydaları, Yarış haqqında Əsasnamə və Yarış Reqlamenti keçirilən idman yarışlarını müxtəlif səviyyələrdə tənzimləyir və konkret idman növündən asılı olaraq müəyyən fərqli xüsusiyyətlərə malikdirlər.

Beynəlxalq idman yarışlarını reqlamentləşdirən əsas sənədlərdən biri də **İdman Şərəf Məcəlləsi – "Feyr-pley"** sayılır. Feyr-pley termini ingiliscə *fair play – təmiz oyun, ədalətli oyun* deməkdir,[2] həmçinin ingilis dilində *sportsmanship* anlayışı istifadə olunur – idmanda fərdin nəcib və ədalətli olması onun daxili inamına əsaslanan etik və əxlaqi normaların məcmusu kimi təfsir edilir.[3]

Ədalətli oyun **prinsipləri** kimi aşağıdakıları göstərə bilərik:
– yarış zamanı rəqibə qarşılıqlı hörmət;
– qaydalara və hakimlərin qərarlarına hörmət – hakimlərin bütün qərarları qəbul olunur, zəruri hallarda onlara xüsusi qaydada ədəb və nəzakətlə etiraz edilir;
– yarışlarda iştirak edən idmançı dopinqdən və ya hər hansı süni stimullaşdırma vasitələrindən istifadə edə bilməz;

[1] Yarış Reqlamenti barədə ətraflı məlumat almaq üçün bax: Захарова Л.И.Международное спортивное право. Учебник для бакалавров / Отв. ред. К.А.Бекяшев. – Москва, Проспект, 2017, 432 с.
[2] Bax: English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, p.89.
[3] https://ru.wikipedia.org/wiki/ (19.12.2021-ci il).

– bərabər şanslar – yarışın əvvəlində bütün idmançılar eyni dərəcədə qalib gələcəyini gözləyə bilərlər;
– idmançı tərəfindən özünənəzarətin təmin edilməsi – emosiyaları cilovlamaq, döyüşün istənilən nəticəsini adekvat şəkildə qəbul etməyi bacarmaq və s.

Bu prinsiplər öz-özlüyündə idman davranış qaydalarının **məzmununu** müəyyən edir və nəyinsə bahasına qələbə əldə olunması hallarını inkar edir.

Deməli, İdman Şərəf Məcəlləsi – "Feyr-pley" idmançıların, məşqçilərin, azarkeşlərin və əslində, idmanla məşğul olan hər kəsin riayət etməli olduğu **qaydalar toplusudur**. Bu qaydalar, əsasən, Qədim Yunanıstanda tərtib edilmişdir.[1]

Sözügedən qaydalar sırasında aşağıda göstərilən **əsas aspektləri**, xüsusilə, qeyd etməliyik:

– nəyinsə bahasına qələbəyə can atmamaq;
– idman meydançasında şərəf və alicənablığı qorumaq;
– rəqib üzərində qələbə əsas deyil, öz şəxsiyyətini təkmilləşdirmək, öz zəif cəhətlərini aradan qaldırmaq başlıca amildir.

Adıçəkilən **Məcəlləyə** görə, yarış qaydalarına və reqlamentlərə ciddi riayət olunmalıdır, fırıldaqlıq və dələduzluğa, eləcə də kobudluğa yol verilməməlidir, həmçinin qadağan olunmuş preparatlardan istifadə edilməməlidir və s.[2]

Ümumdünya səviyyəsində "Feyr-pley" hərəkatına 1958-ci ildən fəaliyyət göstərən **İdman Elmi və Bədən Tərbiyəsi üzrə Beynəlxalq Şura** (СИПСС; ingiliscə İCSSPE – International Council of Sport Science and Physical Education) rəhbərlik edir. Adıçəkilən Beynəlxalq Şuranın yanında **Beynəlxalq "Feyr-pley" Komitəsi** yaradılmışdır ki, həmin komitə "Feyr-pley" hərəkatını koordinasiya edir, bu istiqamətdə fəaliyyəti

[1] Bax: https://studentopedia.ru/file/feyr-pley-kodeks-sportivnoy-chesti.html (19.12.2021-ci il).
[2] Bax: Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001, с.450.

əlaqələndirir.[1] Göstərilən idman orqanı (komitə) hüquqi statusuna görə **ictimai birlikdir**. O, 1964-cü ildə təsis edilmiş, BOK və YUNESCO kimi mötəbər təşkilatlar tərəfindən tanınmışdır, mənzil-qərargahı Budapeşt şəhərində yerləşir.[2]


Avropa regionunda da 1992-ci ildə **"Avropa Feyr-pley hərəkatı"** adlı qurum Avropa Olimpiya Komitəsinin (AOK) struktur hissəsi kimi yaradılmışdır. Ümumiyyətlə, qeyd etməliyik ki, bütün MOK və ayrı-ayrı idman növləri üzrə böyük BİF təşkilatlarında Feyr-pley ideyalarını təbliğ edən və qoruyan xüsusi bölmələr fəaliyyət göstərir.[3]

[1] Ətraflı bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. – Москва: Проспект, 2021, с.235-236.

[2] https://sportrg.ru/2021/12/03/rossiianin-pereizbran-vice-prezidentom-mezhdunarodnogo-komiteta-fejr-plej.html (19.12.2021-ci il).

[3] Bax: www.prospekt.org (29.01.2022-ci il).

V FƏSİL ÜZRƏ ƏYANİ SXEM



VI FƏSİL.
BEYNƏLXALQ İDMAN MÜNASİBƏTLƏRİ SFERASINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQU

6.1. İdman sferasında əqli mülkiyyətin beynəlxalq-hüquqi mühafizəsi

Müasir dövrdə beynəlxalq idman hüququnun **xüsusi hissəsinin** tərkibinə daxil olan **institutlardan** biri beynəlxalq idman münasibətləri (BİM) sferasında əqli mülkiyyət hüququ adlanır. Belə ki, beynəlxalq idman fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar **əqli mülkiyyət sahəsində** əmələ gələn ictimai münasibətlərin tənzimlənməsi BİH-in nizamasalma predmetinə aid olan mühüm məsələdir. BİH beynəlxalq idman-hüquq münasibətlərinin tənzimlənməsinə xüsusi diqqət yetirir, yaradıcılıq fəaliyyəti nəticələrinin hüquqi cəhətdən qorunması probleminə vacib əhəmiyyətli məsələ kimi baxır və bu tendensiya təsadüfi xarakter daşımır.

İlk növbədə, idman və əqli mülkiyyət fenomenləri arasında mövcud olan **qarşılıqlı dialektik əlaqə** məsələsinə aydınlıq gətirək. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin əqli mülkiyyət hüququ var və müəlliflik, ixtiraçılıq və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur (maddə 30).[1] Eyni zamanda, qeyd etməliyik ki, **yaradıcılıq fəaliyyəti nəticəsində** əldə olunan nailiyyətlər bütövlükdə ictimai həyatın formalaşması prosesinə pozitiv təsir göstərən mühüm amillərdən biridir. İnnovativ informasiya cəmiyyətində yaradıcılıq fəaliyyəti nəticələrinin rolu kəskin surətdə artır, beynəlxalq aləmdə onlar daha çox vacib əhəmiyyət kəsb edir. Yaradıcılıq fəaliyyəti nəticələrinə dair hüququn həcmi və miqyası durmadan artır. Bu cür vəziyyət beynəlxalq are-

[1] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.

nada intensiv surətdə inkişaf edərək genişlənən və artıq beynəlmiləl forma alan **idman sferasını** da əhatə edir, eləcə də idman fəaliyyəti sahəsində əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə mühafizəsini şərtləndirir.

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri professor Kamran İmanovun Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə 26 aprel 2019-cu il tarixində keçirilən seminarda **"Əqli mülkiyyət və idman"** mövzusunda etdiyi çıxış, sözün əsl mənasında, həm nəzəri, həm də praktik cəhətdən mühüm əhəmiyyət kəsb edir.[1] Müəllifin irəli sürdüyü fikirlərdən bəlli olur ki, bu istiqamətdə keçirilən müxtəlif növ tədbirlər, görüşlər, masalar, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin dərinləşdirilməsinə dəstək verməkdən, insan biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini qabarıq şəkildə göstərməkdən ibarətdir. Əqli mülkiyyət və idman kontekstinin xüsusi mənası vardır, bu istsqamətdə həyata keçirilən tədbirlərin əsas məqsədi **əqli mülkiyyət faktorunun idmanın inkişafına göstərdiyi təsirin** elmi ictimaiyyətin diqqətinə çatdırmaqdan ibarətdir. Tədbirin builki devizi "Qızıl uğrunda" səslənir və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) müraciətində qeyd olunduğu kimi, "minilliklər boyu idman insanlarda doğurduğu heyranlıqla yanaşı, öz qüvvəsini sınamaq səylərinə, yarışların cəlbediciliyinin artmasına və insanları daha yüksək nəticələr əldə etməyə ruhlandırmağa xidmət edir".

Söylənilən bu sözlərin müstəqil və suveren Azərbaycan dövləti üçün xüsusi əhəmiyyəti var, çünki Azərbaycan **idman ölkəsidir**. Bununla bağlı fikirləri Azərbaycan Respublikasının Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin 2018-ci ilin idman yekunlarına həsr olunan mə-

[1] Bu barədə ətraflı bax: Əqli mülkiyyət və idman / Kamran İmanov. Bakı, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2020, 16 s.

rasimdə etdiyi çıxışındakı çox maraqlı sözlərlə ifadə etmək yerinə düşər:[1] "İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm. Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq".

Professor Kamran İmanovun, haqlı olaraq, vurğuladığı kimi,[2] **əqli mülkiyyəti idmanla bağlayan çoxsaylı tellər** mövcuddur. Məlum məsələdir ki, idman tədbirləri keçirilən zaman azarkeşlərin çox sevdiyi idman klubunun və ya idmançıların adları və ya şəkilləri olan köynəklər, maykalar, papaqlar və digər geyimlər nümayiş olunur, müvafiq loqotiplər təmsil edilir, sponsorların da adları çəkilir. Bu isə o deməkdir ki, müvafiq brendlər – komandanın əmtəə reklamı artıq fəaliyyətdədir. Bu brendlər çərçivəsində bir sıra **əqli mülkiyyət obyektləri** qorunur. Bütün bunlar **əmtəə nişanlarının** nümayişidir. İdman tədbirləri rabitə texnologiyalarının yaratdığı yeni imkanlar hesabına radio və televiziya kanalları vasitəsilə tamaşaçı və dinləyicilər auditoriyasına yayımlanır və s. Təbii ki, bunun arxasında **müəlliflik hüququ və əlaqəli hüquqlar** durur.

Yarışların gedişində idmançılar **idman növlərinin** xüsusiyyətlərindən asılı olaraq, müxtəlif avadanlıqlardan, inventar və geyimlərdən istifadə edirlər. İlk baxışda idman sahəsində is-

[1] Çıxışın tam mətni üçün ətraflı bax: https://president.az/articles/31056 (21.12.2021-ci il).
[2] Bax: http://www.copat.gov.az (21.12.2021-ci il).

tifadə olunan ayaqqabı və avadanlıqların idman nəticələrinə təsiri o qədər də əhəmiyyətli görünməyə bilər. Lakin, bu, reallıqda belə deyildir. Müxtəlif idman növlərində istifadə olunan ayaqqabılara, avadanlıqlara çox ciddi texniki standart tələblər irəli sürüldüyündən, onlar bu şərtlərə cavab vermək baxımından, ən **müasir texnoloji proseslər** tətbiq olunmaqla istehsal edilir. İstifadə olunan fərdi geyim və avadanlıqlar idmançının bu növdə malik olduğu potensialı reallaşdırmaq üçün maksimum dərəcədə yararlı olmalıdır. Belə keyfiyyət göstəricisi isə müasir materialların yaradılmasına imkan verən **innovativ texnologiyalardan** istifadə ilə təmin edilir. İdman sferasında belə texnoloji yeniliklər fiziki və hüquqi şəxslərin **əqli mülkiyyəti** hesab olunur. Eyni zamanda, bunlar **sənaye nümunələri**, yəni dizayn nümayişidir. Hər hansı idmançını, məsələn, futbolçunu müxtəlif rəngli butslarla da müşahidə etmək mümkündür. Bu idman çəkməsi bir sıra əqli mülkiyyət növlərini özündə nümayiş etdirir, o cümlədən istehsal texnologiyasını qoruyan **patentləri**, zahiri görünüşünü – əmtəə nişanını və onlara aid olan **reklamı** – müəlliflik hüququnu. Həm də qeyd etməliyik ki, idman geyim və avadanlıqlarının genişmiqyaslı yarışlarda nümayiş olunması tədbirləri hüquqi cəhətdən müvafiq **müqavilələrlə** tənzimlənir.

Göründüyü kimi, idman artıq **qlobal sənaye sektoruna** çevrilmişdir və bu, obyektlərə (idman yayım təşkilatları da daxil olmaqla) investisiyalar gətirir, əksər insanları işlə təmin edir və əhaliyə sevinc bəxş edir. Bu gün idman getdikcə daha çox **idman-tamaşa** tipli şou-biznes tədbirləri və müvafiq fəaliyyətlə önə çıxır, o cümlədən idman yayımının həyata keçirilməsi, idman sponsorluğu, idman infrastrukturunun işləməsi, idman mallarının industriyası, idman təchizatı və ekipirovkası, idman lotereyaları, idman mərc oyunları və s. tədbirləri əhatə edir.

Bununla da əqli mülkiyyət nəticələrinin istifadəsi idman sahəsində fəaliyyəti, idman tədbirlərini ən güclü **maliyyə mənbəyinə** çevirir. Dünyada idman industriyasından əldə edilən ümu-

mi gəlirlər, o cümlədən sponsorluq, keçirilən yarışlarda tamaşaçı ödənişləri və daxil olmaları, kütləvi informasiya vasitələrinin hüquqları ilə bağlı və onların **kommersiyalaşmasına** aid rüsumlar və s. mənbələr olduqca artmışdır. Həmçinin geyim və ayaqqabılarla bağlı idman ləvazimatı, yəni idman mallarının qlobal dövriyyəsi yüksəlmişdir. İdmanın **iqtisadi dəyəri** əqli mülkiyyət hüquqlarına əsaslanan işgüzar əlaqələri gücləndirir. Bu isə, öz növbəsində, idman təşkilatları tərəfindən yarış tədbirlərinin maliyyələşdirilməsi və idmanın təşviqinin təmin edilməsi ilə bu sahənin **inkişafını stimullaşdırır.**[1]

Digər tərəfdən, **idman sferasında** aparılan və məşq prosesinin qanunauyğunluqlarını müəyyən etməyə yönəlmiş elmi-tədqiqat işlərinin nəticələrini özündə əks etdirən fundamental əsərlər, metodiki tövsiyələr də **əqli mülkiyyət** sayılmaqla qanunla qorunur.

Beləliklə, idman sahəsində daha geniş şəkildə istifadə olunan əqli mülkiyyət formalarından biri universallıq və geniş tətbiq baxımından fərqlənən **əmtəə nişanıdır**. Çünki istənilən əqli mülkiyyət obyekti, o cümlədən idman klublarının adları, açar ifadələr və digər adlar əmtəə nişanı formasında qeydiyyatdan keçirilə bilər. İdman təşkilatlarının malik olduğu ən qiymətli aktivlərdən biri onların adları, loqotipləri, xarakteristikasını müəyyən edən digər vasitələrdir ki, ictimaiyyət tərəfindən nisbətən asanlıqla identifikasiya olunur və bunlarla həmin təşkilat ictimaiyyət arasında yaxşı tanınır. Elə buna görə də, göstərilən **fərqlənmə nişanlarına** olan hüquqlarını mühafizə etmək üçün idman yarışlarının təşkilatçıları və idman təşkilatları onları müvafiq qaydada daha çox əmtəə nişanı qismində qeydiyyatdan keçirirlər.

İdman sahəsində geniş yayılan əmtəə nişanları – **loqotiplərdir**. Üstəlik, loqotiplər müəlliflik hüququ ilə də qoruna bilər. İdmanda yazılmış vizual təsvirlərinə və ya idman yarışlarının

[1] Bax: https://az.trend.az/azerbaijan/society/3052559.html (22.12.2021-ci il).

reportajlarına, tədbirlərin, komanda və idmançıların şəkillərinə, idman sahəsində idarəetmənin həyata keçirilməsi üçün istifadə olunan qaydalar, hesabatlar və digər materialların toplusuna, həmçinin idmanın təbliği, kompyuter proqramlarının qorunması və idman yarışlarının dərc olunmuş nəticələrinə münasibətdə müraciət edərək, görürük ki, bunlar **müəllif-hüquq obyektləri** qismində qorunurlar.

İdman industriyası üçün müasir müəlliflik hüququ konsepsiyasından irəli gələn və ən çox gəlir gətirən əqli mülkiyyət formalarından biri **yayım hüququ**, yəni əlaqəli hüquqlardır. Oyunların radio və televiziya ilə yayımlanması idman yarışlarının canlı auditoriyasını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Onun idman sahəsi üçün üstünlükləri təkcə idman azarkeşlərinə idman yarışlarının keçirildiyi yerlərdə şəxsi iştirakının alternativini təqdim etməklə məhdudlaşmır, eyni zamanda, azarkeşlərin coğrafi yerindən asılı olmayaraq sayını artırır.

Əqli mülkiyyət növlərindən biri olan **patentlər** də, məhdud və müəyyən kontekstdə olsa da, idman sahəsində hüquqların qorunması üçün istifadə edilir; məsələn, müxtəlif idman geyimlərinə, idman ləvazimatı və avadanlıqlarına, eləcə də idman ekipirovkalarına və digər təchizat vasitələrinə münasibətdə müvafiq texnologiyaların əqli mülkiyyət nəticəsi kimi qorunması və s.

Onu da qeyd edək ki, **əqli mülkiyyət hüququnun qorunması** eyni dərəcədə həm individual, həm də komanda idman növlərində həyata keçirilir. Kommersiya hüquqlarının və kütləvi informasiya vasitələri ilə bağlı hüquqların verilməsi təşkilatçı idman qurumlarına, komandalara, idman liqalarına, idman avadanlığı və geyimləri istehsal edən firmalara, həmçinin ayrı-ayrı məşhur idmançılara özlərini populyarlaşdırmaq və reklam etmək, müstəqil, sərbəst ticarətin faydalarından **yararlanmaq imkanı** verir.

Qürur hissi ilə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan **dünya səviyyəli yarışları** ən yüksək səviyyədə təşkil edən

idman ölkəsi imicini qazanmışdır. Bütün dünyanın idman həvəskarlarının yüksək qiymətləndirdiyi Birinci Avropa Oyunları, bütün İslam dünyasında böyük əks-səda doğurmuş "Bakı 2017, IV İslam Həmrəyliyi Oyunları", ölkəmizin Milli Gimnastika Arenasında ən yüksək səviyyədə keçirilən İdman Gimnastikası üzrə Dünya Kuboku yarışları, Bakıda uğurla keçirilmiş 17 yaşınadək qızlar arasında futbol üzrə Dünya Çempionatı, artıq bir neçə ildir ki, Bakıda çox uğurla təşkil edilən Formula 1 Azərbaycan Qran-Prisi yarışları və s. Bununla yanaşı, qeyd etmək lazımdır ki, hazırda Bakı 2020-ci ildə futbol üzrə Avropa Çempionatının dörddə bir final oyunlarının və üç qrup qarşılaşmasının bir neçə oyununun təşkilinə, həmçinin bir çox digər dünya və Avropa səviyyəli idman yarışlarına ev sahibliyi etməsi təqdirəlayiqdir. Çovqan kimi qədim idman oyununun UNESCO tərəfindən qeyri-maddi irs incisi kimi qorunması da bizim ölkəmizin qürurudur.

Beləliklə, qeyd etmək lazımdır ki, müasir dövrdə **idman yarışları ilə əqli mülkiyyət hüquqları arasında sıx surətdə bağlılıq** formalaşmışdır və bu tendensiya qlobal arenada idman-hüquq münasibətləri inkişaf etdikcə daha da dərinləşir.[1] Belə əlaqənin mövcudluğu idman yarışları zamanı istifadə edilən əsərlərin və tərkibində əqli mülkiyyət elementləri olan məhsulların hüquq sahibləri arasında müvafiq münasibətlərin tənzimlənməsində, eləcə də bununla bağlı lisenziya sazişlərinin bağlanmasında ortaya çıxan problemlərin nizama salınmasında əhəmiyyətli rol oynayır.

Əqli mülkiyyət və idman fəaliyyəti arasında mövcud olan **obyektiv hüquqi əlaqənin** yaranmasını şərtləndirən amillər coğrafiyasına qısaca ekskurs etdikdən sonra qeyd etməliyik ki, elmi dövriyyədə əqli mülkiyyət anlayışı əvəzinə, bəzən, intellektual mülkiyyət ifadəsi də işlədilir; lakin hər iki termin eynimənalı sinonim anlayışlardır. Hüquq ədəbiyyatı səhifələrində

[1] Ətraflı bax: Əqli mülkiyyət və idman / Kamran İmanov. Bakı, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2020, 16 s.

göstərildiyi kimi, əqli mülkiyyət və ya intellektual mülkiyyət hüququ öz hüquqi təbiətinə görə müvafiq sahədə ictimai münasibətləri tənzimləyən **müstəsna hüquq** kateqoriyasına aiddir. **Əqli mülkiyyət hüququ** dedikdə yaradıcılıq fəaliyyəti (əqli fəaliyyət) nəticələrinin yaradılması, istifadə edilməsi, habelə onların hüquqi cəhətdən qorunması ilə bağlı əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.[1]

Əqli mülkiyyət və ya **intellektual mülkiyyət** ümumiləşdirilmiş anlayışdır,[2] özündə fiziki və hüquqi şəxslərin əqli fəaliyyət nəticələrinə, habelə məhsulların fərdiləşdirilməsinə, yerinə yetirilən işlərə və yaxud göstərilən xidmətlərə dair müstəsna hüquqları ehtiva edir.

İdman sahəsində **müstəsna hüquqlar kateqoriyasına** əmtəə nişanlarına, idman və olimpiya simvollarına dair hüquqlar, müəlliflik və əlaqəli hüquqlar, eləcə də idman tədbirlərinin yayımlanması üçün radio-televiziya hüquqlar və s. aiddir. Eyni zamanda, əqli və ya intellektual mülkiyyət insanların, fiziki şəxslərin yaradıcılıq fəaliyyətinin nəticəsi qismində **qeyri-maddi nemətlər** kateqoriyası kimi nəzərdən keçirilir.[3] Lakin, digər mülkiyyət növləri kimi (dövriyyədən çıxarılanlar istisna olmaqla), intellektual mülkiyyət obyektləri də bir şəxsdən digərinə, o cümlədən hüquqi şəxslərə verilə bilər. Belə ki, Olimpiya Xartiyasına əsasən (17.07.2020-ci il redaksiyasında, I fəsil, 7-ci bənd), **Olimpiya Oyunları BOK-un müstəsna mülkiyyətidir** və bununla bağlı və hər hansı məhdudiyyət olmadan bütün hüquqlar ona məxsusdur, xüsusən də, o, Olimpiya Oyunlarının

[1] Bu barədə daha ətraflı bax: Əliyev E.Ə.,Hüseynova F.E.,Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.448-450.

[2] İntellektual mülkiyyət (rusca – интеллектуальная собственность, ingiliscə – intellektual property) barədə ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.371-372.

[3] Ətraflı bax: Международное спортивное право. Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.573-577.

təşkil edilməsi, istifadə olunması, Olimpiya Oyunları bazarına çıxarılması, Olimpiya Oyunları şəkillərindən media orqanlarının istifadəsinə icazə verilməsi, audio-vizual yazıların qeydiyyata alınması və yayımı, translyasiyası, retranslyasiyası, nümayişi, paylaşılması və sairə tədbirlərin həyata keçirilməsi sahəsində müvafiq hüquqların sahibidir. BOK Olimpiya Oyunlarında yarışlar və çıxışlarla bağlı müvafiq məlumatların əldə edilməsi və hər hansı formada istifadə olunması şərtlərini də müəyyən edir.[1]

Adıçəkilən normanın növbəti inkişafı kontekstində Olimpiya Xartiyasının (2020-ci il) 5-ci fəslinin 56-cı maddəsində deyilir ki, **qaliblərə mükafatın, hər hansı medal və ya diplomların verilməsi**, geri götürülməsi və ya yenidən təyinatı ilə bağlı istənilən qərarların qəbul edilməsi yalnız BOK-un müstəsna səlahiyyətindədir.Təltifetmə mərasimləri, medalların və diplomların təqdimatı BOK Protokolu üzrə Reqlamentə və Olimpiya Oyunlarının keçirilməsi haqqında Sazişdə göstərilən digər protokol qaydalarına və tələblərə ciddi şəkildə riayət olunmaqla həyata keçirilməlidir. Medal və diplomların formatı təsdiq olunmaq üçün əvvəlcədən BOK-a təqdim edilməlidir.[2]

Göründüyü kimi, Olimpiya Oyunlarının keçirilməsi ilə bağlı **müəlliflik hüququ** yalnız **BOK-a mənsubdur**.

Qeyd etməliyik ki, əqli mülkiyyət hüququ öz hüquqi təbiətinə görə **xüsusi hüquq** sahəsinə aiddir. Əqli mülkiyyət hüquqlarının tənzimlənməsi suveren dövlət səlahiyyətində olan məsələdir. Təbii ki, bu zaman əqli mülkiyyət hüquqlarının **ərazi üzrə mühafizə prinsipi** işləyir, yəni həmin hüquqlar verildiyi dövlətin ərazisində mövcud olan müvafiq qanunlar əsasında qorunur. Bu o deməkdir ki, bir dövlətin qanunu ilə mühafizə olunan əmtəə nişanı və ya müəlliflik əsəri digər dövlətlərdə avtomatik hüquqi müdafiə sferasına düşmür. Belə müdafiənin əldə edilməsi üçün digər dövlətin qanunu ilə qorunma haqqında

[1] Ətraflı bax: https://olympic.kz/files/1600145068.pdf (24.12.2021-ci il).
[2] Yenə bax: həmin mənbədə (24.12.2021-ci il).

hüququn təqdim edilməsi, ya da mühafizənin müvafiq beynəlxalq saziş əsasında razılaşdırılması tələb olunur.

Əqli mülkiyyət obyektlərinin beynəlxalq-hüquqi səviyyədə mühafizəsini təmin edən aşağıdakı bəzi aktları göstərmək olar:[1]

- Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təsis edilməsi haqqında **Stokholm Konvensiyası (1967-ci il)**; həmin Konvensiyanın 2-ci maddəsinin 8-ci bəndinə görə, əqli mülkiyyət obyektlərinə elm, ədəbiyyat və incəsənət əsərləri, ixtiralar, sənaye nümunələri, əmtəə nişanları, coğrafi göstəricilər və digər obyektlər daxildir. Bu obyektlərin beynəlxalq (dövlətlərarası) səviyyədə qorunması ilə bağlı müəyyən ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlər beynəlxalq əqli mülkiyyət hüququnun nizamasalma predmetinə daxildir;
- XIX əsrin 60 – 70-ci illərində beynəlxalq əqli mülkiyyət münasibətlərinin genişlənməsi əqli mülkiyyət sahəsində iki beynəlxalq sazişin bağlanmasına gətirib çıxardı. Bu sazişlərdən biri Sənaye mülkiyyətinin qorunması haqqında **Paris Konvensiyasıdır (1883-cü il)**. Paris Konvensiyası əsasında sənaye mülkiyyətinin (ixtiraların və s.) beynəlxalq səviyyədə, çoxtərəfli əsasda hüquqi mühafizəsi və qorunması həyata keçirilir. Azərbaycan Respublikası Paris Konvensiyasının iştirakçısıdır. Digər saziş isə, Ədəbi-bədii əsərlərin qorunması haqqında **Bern Konvensiyasıdır (1886-cı il)**; bu Konvensiyanın köməyi ilə ədəbiyyat və bədii əsərlər beynəlxalq səviyyədə, çoxtərəfli əsasda hüquqi mühafizə edilir, qorunur. Azərbaycan Respublikası Bern Konvensiyasının üzvüdür;

[1] Bu barədə ətraflı məlumat almaq üçün bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi. 2016, s.476-513.

– beynəlxalq əqli mülkiyyət hüququnun mənbəyi olan beynəlxalq sazişlər arasında **TRİPS müqaviləsi**, xüsusilə, vacib rol oynayır.[1] TRİPS – "Trade Related Intellectual Property Rights" ifadələrinin baş hərfləri, onların ingiliscə abreviaturası olub, Azərbaycan dilinə "Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş" kimi tərcümə olunur. Bu Saziş TTBS çərçivəsində aparılan çoxtərəfli beynəlxalq ticarət danışıqlarının Uruqvay Raundu nəticəsində 1994-cü ildə imzalanmışdır. Hal-hazırda TRİPS, məlum olduğu kimi, Ümumdünya Ticarət Təşkilatının hüquqi baza və əsası sayılan sənədlər – **Mərakeş hüquqi aktlar Paketinə** daxildir; o, prinsipial əhəmiyyətə malik olan çoxtərəfli yeni sənədlərdən biri hesab olunur. "Ticarət piratçılığı"nın, yəni müəlliflik hüququnun pozulması ilə mal və xidmətlərin satılmasının qarşısını almaq, əqli əməyin nəticələrindən dünyada daha sivil formada istifadə olunmasını təmin etmək və bu sahədə münasibətləri qaydaya salmaq TRİPS-in məqsədləri sayılır[2]; onun imzalanması və qəbul olunması ilə əqli mülkiyyət hüququnun beynəlxalq-hüquqi tənzimlənməsində yeni mərhələ başlamışdır. ÜTT-nin üzvü olmadığına görə Azərbaycan Respublikası, təbii ki, hələlik TRİPS-in iştirakçısı deyildir;
– Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı haqqında **Madrid Sazişi (1891-ci il)**. 60-a yaxın dövlət bu Sazişin iştirakçısıdır. Azərbaycan Respublikası da Madrid Sazişinin üzvüdür. Məlum olduğu kimi, öz əmtəə nişanını bir neçə ölkədə qorumaq istəyən şəxs həmin ölkələrin milli idarələrində **əmtəə nişanını** qeydə aldırmalıdır. Bu isə kifayət dərəcədə problem məsələdir (müxtəlif prosedurlar, ərizənin müxtəlif dillərdə verilməsi, müx-

[1] www.wto.ru/ru/content/documents/docs/TRIPS.doc (04.01.2022-ci il).
[2] Bu barədə ətraflı bax: Əfəndiyev O.F., Əliyev E.Ə. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər. Bakı, 2005, s.184.

təlif mühafizə müddətləri və s.). Digər tərəfdən, hər bir ölkədə ərizə verilməsi heç də az olmayan müvafiq xərclərin çəkilməsinə səbəb olur. Belə çətinlikləri aradan qaldırmaq üçün, təbii ki, əmtəə nişanlarının beynəlxalq qeydiyyatı lazımdır. Madrid Sazişi də məhz **əmtəə nişanlarının beynəlxalq qeydiyyatına** həsr olunmuşdur.

Əqli mülkiyyət münasibətlərinin **tənzimlənməsində** Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il), habelə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun (1996-cı il), "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun (2004-cü il), "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun (2012-ci il) və digər normativ hüquqi aktlar əhəmiyyətli rol oynayır.[1]

6.2. Beynəlxalq idman münasibətlərində əmtəə nişanlarının hüquqi mühafizəsi

Müasir idman münasibətlərində **intellektual mülkiyyət obyektlərinin** ən geniş yayılmış formalarından biri əmtəə nişanı hesab edilir. **Əmtəə nişanı** anlayışı hüquqi kontekstdə iki mənada işlədilir: obyektiv mənada əmtəə nişanı hüququ; subyektiv mənada əmtəə nişanı hüququ.[2]

Obyektiv mənada əmtəə nişanı hüququ dedikdə əmtəə nişanının əldə edilməsi, istifadə edilməsi və onun hüquqi cəhətdən mühafizəsi ilə əlaqədar olaraq yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. **Subyektiv mənada əmtəə nişanı hüququ** isə əmtəə nişanından istifadə olunmaq imkanını (istifadə potensialını) nəzərdə tutur. Bu baxımdan, o, **müstəsna hüquq** sayılır, həm də öz sta-

[1] http://www.e-qanun.az/framework/4167 (04.01.2022-ci il).

[2] Ətraflı bax: Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı: «Digesta» nəşriyyatı, 2006, s.467-518.

tusuna görə mütləq hüquqdur, ərazi xarakterli hüquqdur və müddətli hüquqdur.

Eyni zamanda, qeyd etməliyik ki, əmtəə nişanı **fərdiləşdirmə vasitəsidir**. Belə ki, məhsula və ya onun qabına (ya da eyni vaxtda həm məhsula, həm də onun qabına birlikdə) həmin məhsulu bazarda analoji məhsullardan ayırmaq üçün **işarə** qoyulur. Həmin işarə mülki qanunvericilikdə əmtəə nişanı adlanır. Deməli, əmtəə nişanının **funksional təyinatı** məhsulu və onu hazırlayanı (və ya satıcını) fərqləndirməkdən ibarətdir.

Beləliklə, **əmtəə nişanı** dedikdə qrafik təsvir edilən elə bir işarə (və ya işarələrin hər hansı elə bir kombinasiyası, yəni uzlaşması) başa düşülür ki, bu işarə sahibkarın mallarını (əmtəələrini, idman avadanlığını) və ya xidmətlərini digər sahibkarın analoji mallarından (əmtəələrindən, idman avadanlığından) və ya xidmətlərindən fərqləndirməyə imkan verir.

Təbii ki, əmtəə nişanının həm **hüquqi**, həm də **iqtisadi** əhəmiyyəti vardır. Müasir dövrdə əmtəə nişanları hüququndan sənaye mülkiyyəti hüququnun bir növü kimi, praktiki olaraq, bütün sferalarda geniş surətdə istifadə edilir, marketinq və ticarətdə onlar vacib iqtisadi rol oynayırlar.

Əmtəə nişanları, xüsusilə, **beynəlxalq idman dövriyyəsində** mühüm əhəmiyyət kəsb edir. Belə ki, o, beynəlxalq idman tədbirləri zamanı müəyyən bir ölkədə olan istehsalçılar ilə başqa ölkədə olan istehlakçılar arasında əlaqə yaradır, onları birləşdirən **vasitə rolunu** oynayır. Digər tərəfdən, əmtəə nişanı müştəri cəlb etməklə idman tədbirləri prosesində əlavə gəlir əldə etmək üçün **rəqabət mübarizəsində** istifadə olunan ən münasib və səmərəli vasitələrdən biridir.

Əmtəə nişanının rolu və əhəmiyyəti onun **funksiyalarında** təzahür edir. Hüquq ədəbiyyatı səhifələrində onun bir neçə funksiya yerinə yetirməsi qeyd edilir.[1] **Fərqləndirici funksiya**

[1] Məsələn,bax: Гражданское право. Учебник.Част 3 / Под ред. А.П.Сергеева,Ю.К.Толстого. М., 1998, с.18; Гражданское право. Учебник.Том 1 / Под ред.Е.А.Суханова. М., 1998, с.711 və b.

əmtəə nişanının yerinə yetirdiyi başlıca funksiyalardan biridir. Belə ki, əmtəə nişanı müəyyən bir sahibkarın (müəssisənin) malını (əmtəəsini) və ya xidmətini digər sahibkarın (müəssisənin) analoji malından (əmtəəsindən) və ya xidmətindən fərqləndirmək məqsədi güdür. Başqa sözlə desək, əmtəə nişanının yerinə yetirdiyi fərqləndirici funksiya müəyyən bir məmulatı ona oxşar olan digər məmulatdan fərqləndirməkdən ibarətdir. Fərqləndirici xarakter **əmtəə nişanının məzmununun** əsas elementidir.

Təminat funksiyası əmtəə nişanının yerinə yetirdiyi digər funksiyadır. Sözügedən funksiyanın mahiyyəti ondan ibarətdir ki, əmtəə nişanı vasitəsilə özünü istehsalçı və (və ya) satıcı kimi tanıtdıran müəssisə malların keyfiyyətli olmasına, onların yüksək istehlak xüsusiyyətlərinə malik olmasına xüsusi xarakterli təminat verir.Tanınmış və populyar əmtəə nişanları (məsələn, Red Bull, Coca-Cola, Mc Donalds, BMW və s.) məhz malların keyfiyyətli olmasına **verilən təminat** deməkdir. Bu kontekstdə idman geyimləri, avadanlıqları, idmanda ölçmə cihazları istehsal edən "Seiko" firmasının, eləcə də idman yarışının təşkilinə sponsorluq edən "Toyota", "KİA" və s. korporasiyaların adlarını, xüsusilə, çəkməliyik.

Reklam funksiyası əmtəə nişanının yerinə yetirdiyi digər funksiyalardan biri sayılır. Eynicinsli və ya eyninövlü malların istehsalı şəraitində əmtəə nişanları reklamın **mühüm komponenti** kimi çıxış edir və mülkiyyət kimi xarakterizə olunur.[1] Onlar idman yarışları zamanı malları (məmulatları) reklam etmək məqsədinə xidmət edir. Buna görə əmtəə nişanları həm beynəlxalq, həm regional, həm də milli səviyyələrdə keçirilən idman yarışlarında böyük əhəmiyyət kəsb edir; onların köməyi ilə mallar reklam olunur. Əmtəə nişanları istehlakçılar qarşısında müəssisənin etibar və nüfuzunun artmasına, mallara is-

[1] Ətraflı bax: Сергеев В.М. Товарный знак как средство рекламы // Вопросы изобретательства. 1985. №1, с.38; Меггс П.Б., Сергеев А.П. Интеллектуальная собственность. М., 2000, с.311, 396 və b.

tehlakçı tələbatının çoxalmasına, satış şəbəkəsinin genişlənməsinə və daha çox gəlir əldə olunmasına təkan verir, bununla da ixracatı stimullaşdırır. Məhz bunlara görə özünü yaxşı tanıtdıran və populyar olan əmtəə nişanı sahibkarlıq subyekti üçün yüksək **kommersiya qiymətinə malik olan nemətdir**. Yaxşı əmtəə nişanı malların realizasiya edilməsi işinə müsbət təsir göstərir və məmulatların keyfiyyətli olmasına cəlbedicilik hissi yaradır.

Nəhayət, **müdafiə funksiyası** əmtəə nişanının yerinə yetirdiyi funksiyalardan digəridir. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, əmtəə nişanı bazarda malı müdafiə etmək məqsədinə xidmət edir, ondan **haqsız rəqabətlə mübarizədə** bir vasitə kimi istifadə olunur. Məhz əmtəə nişanının köməyi sayəsində istehlakçılar saxta mal deyil, nisbətən keyfiyyətli mal əldə edirlər. Əmtəə nişanları qanunsuz ticarətin qarşısının alınması, habelə istehlakçıların hüquqlarının müdafiə olunması vasitəsi kimi də çıxış edir, eyni zamanda, istehsalçıları onların əmtəə nişanlarını **piratçılıq və s. hallarda saxtalaşdıran** rəqabətçilərdən qoruyur.

Əmtəə nişanı **əqli mülkiyyət obyektləri** (sənaye mülkiyyəti obyektləri) sırasında mühüm yer tutur. Elə bu səbəbdən onun hüquqi cəhətdən tənzimlənməsinə həm milli, həm də beynəlxalq səviyyədə ayrıca normativ hüquqi aktlar həsr olunmuşdur. Məsələn, Azərbaycan Respublikasında "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanun (1998-ci il) qəbul edilmişdir ki, həmin qanun əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri nizama salır. Adıçəkilən qanunun əsas müddəaları əmtəə nişanı barədə xarici qanunvericiliyə və ticarət markası (onu, bəzən, firma nişanı adlandırırlar) barədə beynəlxalq hüquq normalarına uyğundur.

Yeri gəlmişkən, qeyd edək ki, bəzi ölkələrdə əmtəə nişanının hüquqi tənzimlənməsi məsələsinə **xüsusi aktlar həsr olunmuşdur**: Fransada – Sənaye Mülkiyyəti Məcəlləsinin 7-ci fəsli,

Almaniyada – əmtəə nişanı barədə qanunvericiliyin islahatı barədə qanun (1994-cü il), Böyük Britaniyada – əmtəə nişanı barədə akt (1994-cü il), ABŞ-da – Qanunlar Külliyyatının 15-ci kitabının 22-ci fəsli, İsveçrədə – əmtəə nişanının və coğrafi göstəricinin qorunması haqqında müvafiq qanun (1992-ci il) və s.

Əmtəə nişanı barədə qanunvericilik sisteminin tərkib hissəsinə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də aiddir. Buna görə əmtəə nişanlarının mühafizə olunması və qorunması sahəsində belə müqavilələr vacib əhəmiyyət kəsb edir.

Söhbət, hər şeydən əvvəl, **Sənaye mülkiyyətinin qorunması haqqında Paris Konvensiyası** (1883-cü il) adlı sənəddən gedir. Sözügedən konvensiyada əmtəə nişanının qorunmasına həsr edilən bir sıra normalar ehtiva olunur. Paris konvensiyası, ilk növbədə, əmtəə nişanının qorunmasına münasibətdə **milli rejim prinsipi** kontekstindən çıxış edir. Konvensiyaya əsasən, qeydiyyata alınmış əmtəə nişanları məcburi olaraq istifadə edilməlidir (maddə 5). Əgər bu tələb yerinə yetirilməzsə, onda əmtəə nişanının qeydiyyatı ləğv edilir, yəni bu barədə müvafiq məlumat reyestrdən çıxarılır. Eyni zamanda, adıçəkilən konvensiya Paris İttifaqının müxtəlif ölkələrində **əmtəə nişanlarının müstəqilliyi** kimi vacib prinsip təsbit edir (maddə 6). Konvensiya məşhur (tanınmış) əmtəə nişanlarının xüsusi qeydiyyat olmadan qorunması barədə də norma nəzərdə tutur. Konvensiyada əmtəə nişanının qeydiyyatından imtina olunmasını şərtləndirən hallar da öz əksini tapmışdır. Belə ki, dövlət rəmzlərinin, rəsmi adların və beynəlxalq təşkilatların emblemlərinin əmtəə nişanı kimi istifadəsinə yol verilmir.[1]

Əmtəə nişanlarının qorunmasında **Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı haqqında Madrid Sazişi** (1891-ci il) va-

[1] Ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı: MHA nəşriyyatı, 2013, s.26-28.

cib əhəmiyyət kəsb edir. 60-a yaxın dövlət bu sazişin iştirakçısıdır; Azərbaycan Respublikası da Madrid Sazişinin üzvüdür.

Məlum olduğu kimi, öz əmtəə nişanını bir neçə ölkədə qorumaq istəyən şəxs həmin ölkələrin milli idarələrində əmtəə nişanını qeydə aldırmalıdır. Bu isə kifayət dərəcədə **çətin məsələdir** – müxtəlif prosedurlar, ərizənin müxtəlif dillərdə verilməsi, müxtəlif mühafizə müddətləri və s. amillər. Digər tərəfdən, hər bir ölkədə ərizə verilməsi heç də az olmayan müvafiq xərclərin çəkilməsinə səbəb olur. Belə çətinlikləri aradan qaldırmaq üçün, təbii ki, əmtəə nişanlarının beynəlxalq qeydiyyat sisteminin yaradılması zərurətə çevrilmişdi. Madrid Sazişi də məhz əmtəə nişanlarının beynəlxalq qeydiyyatı ilə bağlı münasibətlərin **asanlaşdırılmasına** həsr edilmişdir.[1]

Hazırda əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair məsələlərin həlli **sadələşdirilmişdir**. Belə ki, Madrid Sazişinə görə, iddiaçı şəxs Beynəlxalq Büroya fransız dilində ərizə verməlidir. Ərizə əsasında beynəlxalq qeydiyyat aparılır və belə qeydiyyat Madrid sazişinin üzvü olan bütün ölkələrdə hüquqi qüvvəyə malik olur.Əmtəə nişanlarının **qorunma müddəti 20 il** müəyyənləşdirilmişdir.

Qeyd etməliyik ki, əmtəə nişanları qanunvericiliklə müəyyən olunmuş şərtlər daxilində qorunur, hüquqi mühafizə edilir. **Əmtəə nişanlarının qorunma şərtləri** dedikdə qanunvericilikdə nəzərdə tutulan elə meyarlar başa düşülür ki, bu meyarlar əsasında əmtəə qismində iddia olunan müvafiq işarə (nişan, işarələrin kombinasiyası və ya uzlaşması) əmtəə nişanı kimi tanınır və hüquqi mühafizənin obyekti olur. Göründüyü kimi, əmtəə nişanlarının qorunma qabiliyyətli olması onların malik olduğu müəyyən əlamətlərlə müəyyən edilir. Buna görə də, hüquq ədəbiyyatında əmtəə nişanlarının qorunma şərtləri, bəzən, **əmtəə nişanının əlamətləri** də adlanır.[2]

---

[1] Bax: Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı: MHA nəşriyyatı, 2013, s.29-31.

[2] Ətraflı bax: Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı: «Digesta» nəşriyyatı, 2006, s.475-480.

Əmtəə nişanının qorunma şərtləri **iki yerə** bölünür:

– əmtəə nişanının formasına aid olan şərt;
– əmtəə nişanının məzmununa aid olan şərt.

Əmtəə nişanının formasına aid olan şərt onu ifadə edir ki, əmtəə nişanı şərti işarələrdən ibarət olmalıdır. Məhz **şərti işarə** əmtəə nişanı kimi tanına və buna görə də hüquqi mühafizənin obyekti ola bilər. Belə işarələrə **aiddir**: sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər və digər rəmzlər, malların forması və ya onların qabı, rənglərin və yuxarıda göstərilənlərin hər hansı kombinasiyası. Göstərilən komponentlərə uyğun gəlməyən işarələr əmtəə nişanı kimi qeydə alınmır.

Əmtəə nişanının məzmununa aid olan şərt iki elementdən ibarətdir. Birinci element onu ifadə edir ki, əmtəə nişanı **yeni olmalıdır**, yəni yenilik əlamətinə malik olmalıdır. İkinci element isə onu bildirir ki, əmtəə nişanı **orijinal olmalıdır**, yəni başqasına oxşamayan, başqasından fərqlənən orijinallıq əlaməti xarakterizə edilməlidir.

İdman tədbirlərində müvafiq əmtəə nişanlarından istifadə ilə bağlı hüquq subyektlərinin fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, qeyd etməliyik ki, **əmtəə nişanı hüququnun subyektləri** dedikdə əmtəə nişanından istifadəyə müstəsna hüququn (inhisar hüququnun) məxsus olduğu şəxs, yəni bu hüququn sahibi başa düşülür. Təklif olunan işarə əmtəə nişanının qorunma şərtlərinə uyğun olduğu halda səlahiyyətli dövlət orqanı həmin işarəni rəsmi surətdə əmtəə nişanı kimi tanıyır və onu müəyyən şəxsin adına qeydə alır. Məhz həmin şəxs əmtəə nişanı hüququnun subyekti hesab edilir.

Yuxarıda əmtəə nişanına verdiyimiz leqal anlayışdan bəlli olur ki, əmtəə nişanının əsas funksiyası sahibkarın mallarını və ya xidmətlərini başqalarından fərqləndirməkdən ibarətdir. Elə bu baxımdan, **sahibkarlar** əmtəə nişanı hüququnun subyekti sayılırlar. Belə ki, sahibkarlıq (kommersiya) dövriyyəsinin əsas iştirakçısı, təsərrüfat fəaliyyətinin başlıca subyekti məhz onlar sayılır. Sahibkarlar ictimai tələbatı ödəmək məqsədi ilə mal

istehsal edən, iş görən, xidmət göstərən və digər növ fəaliyyətlə məşğul olan şəxslərdir və onlar iqtisadi (əmlak) dövriyyənin mərkəzi fiquru sayılır. Əmtəə nişanı da məhz mal və xidmətlərin iqtisadi dövriyyədə fərqləndirilməsi məqsədinə xidmət edir. Söhbət, ilk növbədə, hüquqi şəxsin **kommersiya təşkilatı** kimi növündən gedir.

Əmtəə nişanı hüququnun subyekti kimi həm də **fərdi sahibkarlar**, yəni hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər çıxış edə bilərlər. Sahibkar statusu olan fiziki şəxslərin öz adlarına əmtəə nişanı qeydə aldırmaq hüququ vardır.

Qeyri-kommersiya təşkilatlarına gəldikdə isə, qeyd etməliyik ki, belə təşkilatların, bir qayda olaraq, əmtəə nişanı hüququ yoxdur. Sahibkarlıq fəaliyyətinin subyekti olmadıqlarına görə onlar öz adına əmtəə nişanı qeydə aldıra bilməzlər. Lakin, bəzən, qeyri-kommersiya hüquqi şəxsləri qanunda nəzərdə tutulan şərtlərə əməl etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər.[1] Belə halda onların, təbii ki, əmtəə nişanı hüququnun subyekti olması üçün **potensial imkan** yaranır. Eyni zamanda, öz təsis sənədlərinə uyğun olaraq, gəlir gətirən və təsərrüfat hesablı fəaliyyətlə məşğul olan təşkilatlar da – dövlət büdcəsindən maliyyələşdirilən ali təhsil müəssisələri, elmi-tədqiqat təşkilatları və s. qurumlar əmtəə nişanı (xidmət nişanı) hüququnun subyekti ola bilərlər.

Azərbaycanda əmtəə nişanı hüququnun subyekti kimi, əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal müəyyənləşdirilməmişdirsə, həm də **xarici hüquqi və fiziki şəxslərin** çıxış etməsi mümkündür.

[1] Bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Nasir: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, s.81 (maddə 43.6).

6.3. Beynəlxalq idman münasibətlərində olimpiya simvollarının hüquqi mühafizəsi

İdman fəaliyyəti sferasında mühafizə olunan əqli mülkiyyət obyektləri sırasında **olimpiya simvolları** mühüm yer tutur. Olimpiya hərəkatı atributları sisteminin tərkib hissələri aşağıdakılardan ibarətdir: olimpiya simvolu, bayraq, şüar, himn, emblem, məşəl və s. Beynəlxalq **olimpiya brendi** sayılan sözügedən olimpiya simvollarından istifadə edilməsi və onların qorunması (mühafizə olunması) istiqamətində yaranan ictimai münasibətlər BOK-un Olimpiya Xartiyası ilə tənzimlənir.[1]

Olimpiya simvolu məşhur fransalı ictimai xadim Pyer de Kubertenin təşəbbüsü ilə təklif olunmuş və 1913-cü ildə BOK tərəfindən təsdiq edilmişdir. BOK-un mənzil-qərargahında saxlanılan rəsmi qrafik təsvirə görə, olimpiya simvolu bir-birinə keçmiş **beş halqadan** ibarətdir ki, mavi, sarı, qara, yaşıl və qırmızı rəngli halqalar soldan sağa göstərilən ardıcıllıqla düzülür. Mavi, qara və qırmızı rəngli halqalar qrafik təsvirin yuxarı hissəsində, sarı və yaşıl halqalar isə aşağıda yerləşir. Bu fiqur **trapesiyaşəkilli** olmaqla onun kiçik həndəsi tərəfi aşağıda olur.

Olimpiya simvolu beş qitənin – Avropa, Asiya, Amerika, Afrika və Avstraliya kontinentlərinin ittifaqını, həmçinin olimpiya oyunları zamanı bütün dünya idmançılarının görüşünü nəzərdə tutur. Olimpiya simvolu BOK-un **müstəsna mülkiyyətidir,** onun reklam və ya digər kommersiya məqsədləri üçün istifadə edilməsi Olimpiya Xartiyası ilə qadağan olunmuşdur. Lakin, Beynəlxalq Olimpiya Komitəsi BOK-un İcraiyyə Bürosunun müəyyən etdiyi şərtlərə müvafiq olaraq, olimpiya simvolundan istifadəyə icazə verə bilər.

---

[1] Bu barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.390-403.

Qeyd etmək lazımdır ki, olimpiya simvolundan istifadə olunması və onun müdafiəsi ilə bağlı münasibətlər **"Olimpiya simvolunun qorunması haqqında" Nayrobi Müqaviləsi** (1981-ci il) əsasında tənzimlənir.[1] Adıçəkilən beynəlxalq müqavilə 10 maddə və əlavə hissədən ibarət olmaqla özündə müqavilə-iştirakçısı olan dövlətlərin öhdəliyi (maddə 1), öhdəlikdən istisnalar (maddə 2), müqavilədə iştirak (maddə 5) və s. məsələlər barədə müvafiq hüquq normalarını birləşdirir. Nayrobi Müqaviləsinə görə, müqavilə-iştirakçısı olan istənilən dövlət BOK-un razılığı olan hallar istisna olmaqla, olimpiya simvolundan ibarət olan və ya tərkibində bu simvol olan hər hansı nişanın qeydiyyatından imtina etməli və ya onun nişan kimi qeydiyyatını etibarsız saymalı, eləcə də ondan kommersiya məqsədləri üçün istifadəyə müvafiq qadağalar qoymalıdır.

Olimpiya hərəkatı atributları sisteminin tərkib hissələrindən biri də **olimpiya bayrağı** sayılır. Olimpiya Xartiyasında göstərildiyi kimi, olimpiya bayrağı kənar haşiyəsi olmayan ağ kətan parçadır. Onun mərkəzində beş rəngdə olimpiya simvolu yerləşdirilmişdir.

Göstərilən atributlardan digəri **olimpiya şüarı** adlanır. Olimpiya şüarı "Citius, Altius, Fortius" (daha sürətli, daha yüksək, daha güclü) mənalarını ifadə edir. Şüar olimpizmin ruhuna müvafiq olaraq, BOK tərəfindən olimpiya hərəkatının bütün iştirakçılarına ünvanlanmışdır.

Olimpiya emblemi də olimpiya hərəkatı atributları sisteminin tərkib hissəsidir. Olimpiya emblemi BOK tərəfindən təsdiq edilmiş mürəkkəb kompozisiyaya malik olan fiqur formasındadır və olimpiya halqaları başqa bir fərqli elementlə birləşdirilir.

Olimpiya simvollarından biri də **olimpiya himni** sayılır. Olimpiya himni "olimpiya himni"nə dair musiqi parçasıdır.

[1] Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikası 22.06.2010-cu il tarixli 1051-IIIQ nömrəli qanunla Nayrobi Müqaviləsinə qoşulmuşdur // AR QT. Bakı,2010, №6; Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu/C.K.Quliyev.Bakı,CBS mətbəəsi, 2013, s.290-292.

Himn Spiro Samara tərəfindən yazılmış və BOK tərəfindən təsdiq edilmişdir.

Olimpiya simvollarından digəri olimpiya məşəlidir. **Olimpiya məşəli** BOK-un himayəsi altında Olimpiyada yandırılan alovdur. Olimpiya məşəli daşınan məşəl və ya onun dublikat modelidir, BOK tərəfindən təsdiq edilmiş və olimpiya alovunu yandırmaq üçün nəzərdə tutulmuşdur.

Olimpiya Xartiyasında (2020-ci il) göstərilən qaydalara dair verilmiş bəzi **rəsmi izahatlara** diqqət yetirək.[1] **Hüquqi müdafiə** məsələləri ilə bağlı Olimpiya Xartiyasında qeyd olunur ki, BOK hüquqi müdafiəni həm milli, həm də beynəlxalq səviyyədə əldə etmək üçün bütün zəruri tədbirləri görmək hüququna malikdir. Hər bir ölkədə mövcud olan MOK qurumları BOK qarşısında onun tələblərinə əməl olunmasına görə məsuliyyət daşıyır və göstərilən qaydalara riayət edilməsinə hər cür səy göstərməli, habelə **olimpiya mülkiyyətinin qorunmasını** təmin etməlidir.

Milli Olimpiya Komitələrinə milli qanunvericilik, əmtəə nişanının qeydiyyat proseduru və ya digər hüquqi vasitələrlə olimpiya simvolunun və ya hər hansı digər olimpiya mülkiyyətinin qorunmasına icazə verildikdə MOK qurumları belə hüquqlardan yalnız Olimpiya Xartiyasına uyğun olaraq və BOK-dan alınan təlimat əsasında **istifadə** edə bilərlər.

MOK qurumları olimpiya mülkiyyətinin hüquqi müdafiəsi və üçüncü şəxslərlə yarana biləcək hər hansı mübahisələrin həlli üçün hüquqi yardım alınması məqsədilə istənilən vaxt BOK təşkilatına və əksinə, analoji məsələ üzrə BOK idman təşkilatı da yerli MOK qurumlarına **müraciət** edə bilərlər.

Olimpiya Xartiyasında müəyyən edilmişdir ki, olimpiya simvolu, olimpiya emblemləri və hər hansı digər olimpiya mülkiyyətinin BOK və ya üçüncü şəxslər tərəfindən istifadəsi BOK beynəlxalq idman təşkilatının **icazə** və ya **lisenziyası** əsasında həyata keçirilir. Olimpiya Xartiyasına müvafiq olaraq, BOK

[1] Bu barədə daha ətraflı bax: www.olyimpc.orq (20.01.2022-ci il).

olimpiya simvolu, bayraq, şüar və himndən **istədiyi kimi** istifadə edə bilər. Milli Olimpiya Komitələri isə göstərilən olimpiya simvolu atributlardan yalnız **qeyri-kommersiya** xarakterli fəaliyyət çərçivəsində istifadə edə bilərlər, bu şərtlə ki, belə istifadə olimpiya hərəkatının inkişafını təmin etmək istiqamətində dəstək olsun, onun ləyaqətinə xələl gətirməsin və MOK qurumları bu barədə əvvəlcədən BOK İcraiyyə Komitəsindən **müvafiq icazə** alsınlar.

MOK və ya OOTK tərəfindən **olimpiya embleminin** yaradılması və istifadəsi ilə bağlı münasibətlər xüsusi qaydada tənzimlənir. Belə ki, sözügedən Olimpiya Xartiyasına uyğun olaraq, MOK və ya OOTK orqanları öz **xüsusi emblemini** tərtib edə bilərlər, lakin bu emblem BOK tərəfindən təsdiq olunmalıdır. BOK olimpiya embleminin dizaynını digər emblemlərindən fərqli qaydada təsdiq edə bilər. Mümkün olduğu təqdirdə MOK-un olimpiya emblemi hüquqi müdafiəni təmin etmək məqsədilə ölkənin Milli Olimpiya Komitəsində qeydiyyata alınmalıdır. Beynəlxalq Olimpiya Komitəsi emblemi təsdiq edildikdən sonra **altı ay ərzində** MOK-da qeydiyyata alınmalı və müvafiq **qeydiyyat şəhadətnaməsi** BOK-a təqdim edilməlidir. OOTK da öz olimpiya emblemini **analoji qaydada** BOK-un təlimatlarına uyğun olaraq, hüquqi cəhətdən müdafiə etməlidir. Lakin belə müdafiə BOK-a qarşı yönəldilə bilməz. Olimpiya emblemindən hər hansı reklamda, kommersiya məqsədlərində və ya istənilən mənfəət əldə etmək üçün istifadə edilməsi Olimpiya Xartiyasında müəyyənləşdirilən **şərtlər gözlənilməklə** həyata keçirilməlidir.

Olimpiya Xartiyasında (2020-ci il) yeni **"filateliya"** institutu tətbiq edilmişdir. Lüğətlərdə göstərilir ki, filateliya (fransızca – *philatélie*) termini yunan dilindən götürülmüşdür: "φίλος", "φιλέω" – dost, sevgi və "τέλος" – poçt ödəniş nişanları sferasında kolleksiyanın öyrənilməsi və rüsum mənalarını ifadə edir. Oxşar mənada bu söz "φίλος" – dost və "ἀτέλεια" – ödənişdən, rüsumdan, yığımdan azad olmaq mənasını bildirir.[1]

[1] Bax: https://ru.wikipedia.org/wiki/Филателия (21.01. 2022-ci il).

Keçmişdə Yunanıstanda məktublar xüsusi işarə – **telos** ilə qeyd olunurdu ki, bu da rüsumun məktubgöndərən şəxs tərəfindən ödənildiyini və məktubalanın hər hansı vəsait ödəməyə ehtiyac duymadığını göstərirdi. Müasir poçt markaları, sanki, əvvəllər məktubların göndərilməsi üçün pul rüsumunu əvəz edən həmin işarənin **qabaqcıl təcrübə** kimi davamıdır.

1926-cı ildə **Beynəlxalq Filateliya Federasiyası** (BFF) yaradıldı və onun himayəsi altında 1929-cu ildən mütəmadi olaraq beynəlxalq filateliya sərgiləri təşkil olunmuşdur: 1962-ci ilin avqust-sentyabr aylarında Praqada ilk Ümumdünya Filateliya Sərgisi keçirilmiş, 1976-cı ildə BFF artıq 57 ölkədən 100-dən çox sərgi keçirən milli cəmiyyətləri bir araya toplamış, 1987-ci ildə adıçəkilən federasiyaya 60-dan çox ölkə daxil olmuşdur.

Beynəlxalq idman təşkilatı olan BOK da bu istiqamətdə müvafiq ölkələrin MOK qurumları ilə əməkdaşlıq etməklə olimpiya simvolundan səlahiyyətli milli orqanlar tərəfindən buraxılan **poçt markalarında** istifadə olunması hallarını BOK-un müəyyən etdiyi şərtlər kontekstində **dəstəkləyir**.

Olimpiya oyunları ilə əlaqədar sifarış əsasında yaradılmış istənilən musiqi əsərinə, audiovizual əsərlərə və ya digər yaradıcılıq əsərlərinə və ya artefaktlara **müəlliflik hüququnun sahibi** kimi BOK təyin edilir. Lakin OOTK və müvafiq MOK təşkilatları inamlı olmalıdırlar ki, bu cür iş BOK-u qanə edir. BOK-un da İcraiyyə Komitəsi, öz növbəsində, musiqi əsərindən istifadəyə dair bütün hüquqları OOTK-ya verə bilər ki, sonradan həmin hüquqlar təşkilatçı-ölkənin MOK qurumuna dördillik müddətə ötürülür.

Olimpiya simvollarının bir növü də **olimpiya talismanı** sayılır. Talisman termini (ingiliscə - mascot – "talisman") , bəzən, olimpiya maskotları kimi də ifadə edilir. Olimpiya talismanı olimpiya simvolunun bir hissəsidir və 1968-ci ildən bəri olimpiya oyunlarının **məcburi atributudur**. Böyük Olimpiya Ensiklopediyasına görə, reklam və kommersiya əhəmiyyəti olan bu simvol olimpiya oyunlarına evsahibliyi edən ölkə tərə-

findən əlavə maliyyə mənbəyi kimi istifadə olunur. O, Olimpiya Oyunları Təşkilat Komitəsinin mülkiyyətidir.[1] Olimpiya talismanının **missiyası** olimpiya oyunlarına evsahibliyi edən ölkənin – təşkilatçı-ölkənin ruhunu əks etdirmək, idmançılara uğurlar gətirmək, bayram ab-havasını gücləndirmək və coşqu yaratmaqdan ibarətdir. Olimpiya talismanı çox vaxt təşkilatçı-ölkədə ən məşhur olan bir heyvan şəklində (məsələn, yaraşıqlı ayı, bəbir, qartal, pələng və s.), yaxud cizgi uydurma – animasiya şəklində və ya digər formalarda təsvir edilir.

Dizaynerlər tərəfindən vizual görüntü əsasında **çoxlsaylı suvenirlər** yaradılmışdır. Olimpiya talismanı həm olimpiadanın keçirildiyi şəhərin simvolu, həm kolleksiya, həm də əhəmiyyətli gəlir mənbəyidir. Təbii ki, oyunlar zamanı tamaşaçı kütləsi qarşısında yarışların populyarlığından asılı olaraq, suvenirlərin qiymətləri dəfələrlə arta bilər. Bu da əlavə gəlir əldə edilməsinə münbit şərait yaradır. Olimpiya oyunları tədbirlərində istifadə məqsədilə nəzərdə tutulmuş istənilən **talisman simvolunun dizaynı** OOTK tərəfindən təsdiq olunmaq üçün BOK-un İcraiyyə Komitəsinə təqdim edilir.

Bir məqamı da qeyd etməliyik ki, olimpiya simvollarından öz ölkələrinin ərazisində Olimpiya Xartiyasına tam uyğun şəkildə istifadə edilməsinə görə milli olimpiya komitələri BOK qarşısında müvafiq **məsuliyyət** daşıyırlar.

6.4. İdman yarışlarında radio-teleyayım hüquqlarının tənzimlənməsi

Müasir dövrdə beynəlxalq idman hərəkatının tarixi **kütləvi informasiya vasitələri** (KİV) ilə sıx surətdə bağlıdır. İlk növbədə, KİV-ə verilən anlayışla tanış olaq. Hər bir ölkədə kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydaları, habelə mətbua-

[1] Bax: https://ru.wikipedia.org/wiki/Олимпийские_талисманы (21.01. 2022-ci il).

tın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsasları müəyyən **qanunvericilik aktları** vasitəsilə təmin edilir. Elmi doktrinada[1] və qanunvericilik massivində[2] təsbit olunmuş normalara görə informasiya dövriyyəsində işlədilən bəzi **anlayışlar** aşağıdakı mənaları ifadə edir:

kütləvi informasiya – axtarılması, əldə olunması, hazırlanması, ötürülməsi, istehsalı və yayımı qanunvericilik ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş mətbu, audio, audiovizual xəbər və digər məlumatlar;

kütləvi informasiya vasitələri – dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya agentlikləri, internet informasiya ehtiyatı, kinoxronika proqramları və digər yayım formaları;

teleradio və kinoxronika proqramları – daimi adı, nömrəsi olan və ildə azı bir dəfə efirə buraxılan audio, audiovizual xəbər və materialların (verilişlərin) məcmusu;

dövri mətbu nəşrlər – çap prosesinin və ya hər hansı surətçıxaran texnikanın vasitəsilə hazırlanmış, birdəfəlik tirajı 100 nüsxədən çox, daimi adı və cari nömrəsi olan, ildə azı on iki dəfə çıxan qəzetlər və ildə azı iki dəfə çap olunan jurnal, toplu, bülleten və başqa dövri nəşrlər;

kütləvi informasiya vasitəsinin məhsulu – mətbu nəşrin bir nömrəsinin tirajı, yaxud onun bir hissəsi, teleradio, kinoxronika proqramlarının ayrıca buraxılışı, proqramın audio və ya vidioyazısının tirajı, yaxud tirajının bir hissəsi;

---

[1] Məsələn, bax: İnformasiya hüququ. Dərslik / Kollektiv müəlliflər: Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. Bakı: «Nurlar» nəşriyyatı, 2019, s.339-342.

[2] Məsələn, Azərbaycan Respublikasında "Kütləvi informasiya vasitələri haqqında" 07.12.1999-cu il tarixli 769-IQ nömrəli Qanun qəbul edilmişdir - http://www.e-qanun.az/framework/7512 (22.01.2022-ci il).

kütləvi informasiya vasitəsi məhsulunun yayılması – dövri mətbu nəşrlərin, teleradio proqramların, audio və ya videoyazılarının satılması və ya paylanması, teleradio proqramların translyasiyası, yayımı, nümayişi və s.

Göründüyü kimi, kütləvi informasiya vasitələri informasiyanın kütləyə çatdırılması vasitəsi olmaqla müasir sivilizasiyanın ən xarakterik cəhətlərini özündə birləşdirir. Belə ki, informasiya qlobal dəyərdir və kütləvi informasiya vasitələrinin köməyi ilə insanlar qısa bir zamanda dünyada baş verənlər, o cümlədən **idman hadisələri** haqqında məlumat ala bilirlər. Bu kontekstdə kütləvi informasiya vasitələri industriyası kimi radio və televiziyanın adı, xüsusilə, çəkilməlidir.

Kütləvi kommunikasiya anlayış baxımından, bir şəxs və ya bir qrup insan tərəfindən yaradılan ötürücü cihaz (medium) vasitəsilə informasiyanın böyük bir auditoriyaya göndərilmə üsuludur. Kütləvi informasiya vasitələri isə kütləvi kommunikasiyanı ötürmək üçün istənilən mediumdur. Tarixən keçən yüzüllikdə meydana gəlmiş radio və televiziya isə bu işdə vacib rol oynayır.

Televiziya ən populyar kütləvi informasiya vasitəsi sayılır. O, görüntünü və səsi birbaşa insanların evlərinə çatdırır. Belə ki, televiziyanın vasitəsilə kürsüdən ayrılmadan dünyanın müxtəlif nöqtələrində keçirilən idman yarışlarını seyr etmək mümkündür.

İdman tədbirləri ilə bağlı informasiyanın əhali kütləsinə çatdırılmasında **radio** effektiv vasitə kimi vacib rol oynayır. Radionun genişmiqyaslı yayılma səbəbi onun yığcamlığıdır. Bu o deməkdir ki, radionu çox rahatlıqla özünlə daşıya bilirsən; istər istirahət vaxtı, istər sükan arxasında olduqda və istərsə də küçədə gəzərkən radioya qulaq asmaq insanlar üçün daha münasibdir.

İdman yarışlarında radio-teleyayım hüquqlarının tənzimlənməsi ilə bağlı qeyd etməliyik ki, hələ 1924-cü ildə **Beynəlxalq İdman Jurnalistlərinin Assosiasiyası** təsis edilmiş, BOK-un 1971-ci ildə – Teleyayım üzrə Komissiyası, 1976-cı ildə –

Mətbuat üzrə Komissiyası, 1983-cü ildə isə **Radio üzrə Komissiyası** yaradılmışdır.[1] Beləliklə, beynəlxalq idman təşkilatı olan BOK ilə kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqə təmin edilmişdir.

İdman yarışlarının ilk müntəzəm **teletranslyasiyası** 1936-cı ildə Böyük Britaniyada keçirilən idman oyunlarında baş tutmuşdur. 1960-cı il Roma Olimpiadası idman və KİV arasında münasibətlərin inkişafında **dönüş nöqtəsi** oldu, yəni idman yarışlarının teleyayımlarına hüquqların satışına başlanıldı. İlk dəfə olaraq, 1964-cü il Tokio olimpiya oyunları televiziya vasitəsilə bütün dünyaya yayımlandı.

BOK-un təşəbbüsü ilə 1986-cı ildə **"İdman, kütləvi informasiya vasitələri, olimpizm"** mövzusu üzrə I Beynəlxalq Simpozium keçirildi. Daha sonra 1994-cü ildə Parisdə keçirilən Olimpiya Konqresində **"İdman və kütləvi informasiya vasitələri"** adlı xüsusi istiqamət ayrıldı.

Müasir dövrdə idman yarışları, o cümlədən olimpiya oyunları dünyanın 200-dən çox ölkəsində teletranslyasiyası həyata keçirilir, tamaşaçıların sayı bir neçə milyardı ötmüşdür ki, bu da xeyli sayda vəsaitin əldə edilməsinə gətirib çıxarır. Yarışların translyasiyasına dair **hüquqların satışından** BOK, BİF və OOTK qurumlarına daxil olan gəlirlərin miqdarı günbəgün sürətli şəkildə artır.[2] Radio-televiziyada idman verilişləri üzrə yeni kanallar, idman proqramları və yayım şəbəkələri yaradılır.

Beləliklə, BOK ilə kütləvi informasiya vasitələri arasında əlaqə, başqa sözlə, **televiziya biznesi qarşılıqlı fayda prinsipinə** əsaslanır və olimpiya oyunlarını populyarlaşdırmaqla iqtisadi mənfəət məqsədini güdür.

Müasir idmanın əhəmiyyəti, hər şeydən əvvəl, onun sağlamlaşdırıcı xüsusiyyəti ilə yanaşı, **əyləncə funksiyası** ilə də mü-

[1] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.598-609.

[2] Ətraflı bax: Гуськов С.И.,Гуськов С.С. Телевидение и спорт. М., 2000 // https://www.google.com/search

əyyən edilir. Ona görə bu funksiyanın həyata keçirilməsində əsas rollardan biri televiziyaya məxsusdur. Bu kontekstdə müasir texnologiyaların tətbiq edilməsi, yayım kompaniyalarının sayının artması, sputnik və kabel televerilişlərin inkişafı idman televiziya hüquqları bazarında **rəqabətin artmasına** səbəb olmuşdur.

Həm professional kommersiya idmanında, həm də olimpiya idman oyunlarında idman tamaşaları sistemyaradıcı faktor kimi böyük rol oynayır. Hal-hazırda olimpiya idmanının kommersiyalaşması nəticəsində **idman-tamaşa oyunları** müəyyən idman növlərinin olimpiya proqramlarına daxil edilməsinin mühüm meyarı kimi çıxış edir.

Olimpiya oyunları proqramlarına yeni idman növlərinin daxil edilməsi, habelə peşəkar idmançıların oyunlarda iştiraka buraxılması tamaşaçıların, sponsorların, reklamverənlərin və teleşirkətlərin maraqları ilə uzlaşaraq, nəticə etibarilə, bu işdə **kommersiya münasibətlərini** daha da aktivləşdirmişdir.[1] Bu blokda **üç mənbə** – televiziya, reklam və sponsorlar sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər.

Beynəlxalq idman yarışları zamanı iştirakçı tərəflərin münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi müvafiq qanunvericilik aktları əsasında təmin edilir. Nümunə qismində bu işin ölkəmizdə həyata keçirilməsində **əsas qanunvericilik aktları** kimi aidiyyəti üzrə aşağıdakı bəzi sənədlərin adlarını çəkə bilərik:

- Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il);
- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu;
- "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının 05.06.1996-cı il tarixli 115-IQ nömrəli Qanunu;


[1] Bax: Платонов В.Н., Гуськов С.И. Олимпийский спорт. В 2 кн. Киев, 1997, Кн.1, с.342-352.

– “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının 03.04.1998-ci il tarixli 460-IQ nömrəli Qanunu;
– “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının 19.06.1998-ci il tarixli 505-IQ nömrəli Qanunu;
– “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının 07.12.1999-cu il tarixli 769-IQ nömrəli Qanunu;
– “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının 25.06.2002-ci il tarixli 345-IIQ nömrəli Qanunu;
– “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının 07.09.2004-cü il tarixli 733-IIQ nömrəli Qanunu;
– “İctimai televiziya və radio haqqında” Azərbaycan Respublikasının 28.09.2004-cü il tarixli 767-IIQ nömrəli Qanunu;
– “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının 30.09.2005-ci il tarixli 1024-IIQ nömrəli Qanunu;
– “Reklam haqqında” Azərbaycan Respublikasının 15.05.2015-ci il tarixli 1281-IVQ nömrəli Qanunu;
– “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 30.09.2015-ci il tarixli 1308-IVQ nömrəli Qanunu;
– Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015-ci il). Maddə 383.Teleradio verilişlərindən (proqramlarından) istifadə qaydalarını pozma və s.[1]

Göründüyü kimi, Azərbaycan Respublikasında **idman və əqli mülkiyyət** fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərin, o cümlədən idman yarışlarında radio-teleyayım **hüquqlarının tənzimlənməsi** sahəsində kifayət qədər tutumlu və effektiv **normativ hüquqi baza** mövcuddur.

[1] Bu və digər normati hüquqi aktlar barədə bax: www.e-qanun.az (23.01. 2022-ci il).

VI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



VII FƏSİL.
BEYNƏLXALQ İDMAN HƏRƏKATINDA ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ

7.1. Beynəlxalq idman fəaliyyətində əmək münasibətlərinin hüquqi təminatı

7.1.1. Beynəlxalq idman fəaliyyətində əmək münasibətləri anlayışı

Beynəlxalq idman hüququnun diqqət yetirir yetirdiyi məsələlərdən biri də beynəlxalq idman fəaliyyəti sahəsində əmək və sosial münasibətlərin hüquqi cəhətdən nizama salınmasıdır. Bu məqsədlə BİH-in **xüsusi hissəsinin** tərkibində ayrıca struktur hissə kimi beynəlxalq idman hərəkatında əmək və sosial münasibətlərin tənzimlənməsi adlı müvafiq **institut** formalaşmışdır. Belə ki, beynəlxalq idman fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar **əmək və sosial münasibətlər sahəsində** əmələ gələn ictimai münasibətlərin tənzimlənməsi BİH-in nizamasalma predmetinə daxil olan vacib məsələdir. BİH bu istiqamətdə beynəlxalq idman-hüquq münasibətlərinin qaydaya salınmasına xüsusi maraq göstərir.

Hər şeydən əvvəl, qeyd etməliyik ki, beynəlxalq idman fəaliyyəti sahəsində yaranan münasibətlər aidiyyəti üzrə **əmək münasibətləri qrupuna** aiddir və bu münasibətlərin nizama salınmasında BİH ilə yanaşı, əmək hüququ da vacib rol oynayır. **Əmək hüququnun predmetini** isə əmək fəaliyyəti ilə əlaqədar olaraq əmələ gələn münasibətlər, başqa sözlə, əmək münasibətləri və onlarla bağlı olan digər törəmə münasibətlər təşkil edir.[1]

İdman fəaliyyəti sferasında idmançıların, məşqçilərin və digər şəxslərin əməyinin tənzimlənməsi əmək qanunvericiliyi və özündə əmək-hüquq normaları təsbit edən digər normativ

[1] Bax: Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, s.11-20.

hüquqi aktlar, eləcə də idman federasiyaları və həmkarlar ittifaqı təşkilatları tərəfindən təsdiq edilən normalar nəzərə alınmaqla bağlanmış əmək müqavilələri, kollektiv müqavilələr və lokal normativ sənədlər əsasında həyata keçirilir.[1]

Dünyada idmanın sürətli inkişafı bir sıra məsələlər üzrə, ilk növbədə, idmançıların və idman münasibətlərinin digər iştirakçılarının əmək qaydalarının **adekvat siyasət** kontekstində işlənib hazırlanmasını şərtləndirmişdir. Əmək münasibətləri və onların hüquqi tənzimlənməsi özünü daha çox peşəkar idman sferasında biruzə verir. Bu sektorda idmançılar, necə deyərlər, əmtəə-pul münasibətlərinin iştirakçısı, alqı-satqı predmeti, gəlir gətirən muzdlu işçi qüvvə kimi çıxış edirlər.[2] Hazırda peşəkar idmanın dünyada **iki əsas modeli** formalaşmışdır:

- peşəkar idmanın Amerika modeli;
- peşəkar idmanın Avropa modeli.

Göstərilən peşəkar idman modellərinin hər birində əmək münasibətləri spesifik qaydada tənzimlənir.

7.1.2. Peşəkar idmanın Amerika modeli

Qeyd etməliyik ki, **peşəkar idmanın Amerika modeli** güclü hüquqi bazaya, o cümlədən presedent hüququna malikdir. Belə ki, bu sferada idman-hüquq normalarının yaranması və inkişafı elə cəmiyyətdə idman həyatının özünün tədricən inkişaf prosesi ilə bağlıdır.

Amerika peşəkar idman modelində **hüquq subyekti** kimi aşağıdakı şəxslər çıxış edirlər:

- idman liqaları, assosiasiyalar, ittifaqlar və onların rəhbərləri şəxsində – prezidentlər, şura sədrləri, idarə başçıları və digər şəxslər;

[1] Ətraflı bax: Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.59.

[2] Ətraflı bax: Международное спортивное право. Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.406-426.

– idman oyun növləri (amerika futbolu, beysbol, basketbol, xokkey, sokker) üzrə komandaların sahibləri və rəhbərləri şəxsində – prezidentlər, baş menecerlər və məşqçilər;
– fərdi idman növləri (avtoyürüş, boks, güləş, boulinq, qolf, tennis və s.) üzrə şəxslər qismində - menecerlər, idman tamaşasını təşkil edən adamlar (impresario);
– idmançıların özləri və agentləri, habelə onların maliyyə və hüquqi işlərinin aparılmasına köməklik göstərən şəxslər;
– peşəkar liqa idmançılarının assosiasiyaları;
– peşəkar idmançıların məşq etdiyi və yarış keçirdiyi stadionların, idman saraylarının və digər idman qurğularının sahibləri.[1]

Peşəkar idmanda **əsas struktur vahid** kimi liqa (beysbol, futbol, xokkey idman oyunlarında) və ya assosiasiya (basketbol, qolf, tennis idman oyunlarında) çıxış edir.

Peşəkar idmanın inkişaf tendensiyasında **peşəkar idman liqalarının** yaradılması idarəetmə, iqtisadi və əmək münasibətlərinin lokal səviyyədə tənzimlənməsi işinə xidmət edir. İdman klublarının sahibləri daha hazırlıqlı idmançıların alınmasına səy göstərir ki, bunun da nəticəsində oyunçulara olan qiymətlər qalxır. Peşəkar idman təşkilatlarının təsis edilməsi, hər şeydən əvvəl, maliyyə itkilərinin artması riskinə baxmayaraq, komanda sahiblərinin gəlirlərinin çoxaldılmasına və bu gəlirlərin qorunması məqsədini güdür.

İdman liqasında əsas reqlamentləşdirici sənəd kimi onun təsis aktı - **nizamnamə** və yaxud **konstitusiya** çıxış edir. Təsis sənədində, adətən, liqanın məqsəd və vəzifələri, hüquqi statusu və Prezidenti haqqında müddəalar, yeni komandaların qəbul proseduru, eləcə də idmançıların məşğulluq bazarının tənzim-

[1] Bax: Sobell L. Professional Sport and the Law. N.Y.: Law arts Publ, 1987 - https://www.amazon.com/Professional-Sports-Supplement-Lionel-Sobel/dp/0882380605 (24.01.2022-ci il).

lənməsi ilə bağlı məsələlər öz əksini tapır.[1] Liqanın təsis aktında həmçinin idmançıların iş-əmək şərtlərini xarakterizə edən və aşağıda göstərilən **əsas aspektlər** təsbit olunur:

- liqada olan komandaların tərkibi;
- idman oyunçularının kontraktları;
- liqa komandasına oyunçuların qəbul edilməsi;
- oyunçuların bir komandadan digərinə keçirilməsi;
- liqa daxilində oyunçuların yenidən bölüşdürülmə proseduru və s.

Liqaların strukturu sahibkar şəxslər arasında iqtisadi rəqabətin aradan qaldırılmasına, liqaya üzvlük qaydalarının işlənilərək təkmilləşdirilməsinə, məşq vasitələrinə buraxılış prosesinin sadələşdirilməsinə, habelə tamaşaçılarla birbaşa və televiziya vasitəsilə kontaktların tədricən yaradılmasına geniş imkanlar yaradır. İdmanın inkişafında baş verən ciddi dəyişiklik kimi qeyd edə bilərik ki, oyunçuların əməkhaqqına dair limitlərin müəyyənləşdirilməsi məhz liqa rəhbərlərinin fəaliyyətinin nəticəsidir.

Göstərilənlərlə yanaşı, vurğulamalıyıq ki, liqalar peşəkar idmanın **əsas təşkilati struktur vahidi** kimi qəbul edilir. Bu idman kartelləri, mahiyyətcə, idman-işçi qüvvəsi bazarında komandalar arasında rəqabəti məhdudlaşdırsa da, liqaya yeni komandaların qəbulu ilə bağlı məsələlərin həllində birgə fəaliyyət göstərirlər və onların yerləşdirilməsinə nəzarət edirlər, öz aralarında təsir sferalarını, o cümlədən KİV, ilk növbədə, televiziya ilə kontakt şəbəkələrini bölüşdürürlər. Liqada komandaların sayına və tərkibinə nəzarət edilməsi onların sahiblərinə daha çox imkan verir ki, idman oyunları tələb olunan **əmtəə-xidmət növünə** çevrilsin.

Liqanın **aşağı tərkib hissəsi** komanda (və ya klub) sayılır. Hər bir **komanda**, adətən, ayrıca **kommersiya təşkilatını** təm-

[1] Nümunə qismində ətraflı bax: Azərbaycan Respublikası "Peşəkar Futbol Liqası" İctimai Birliyinin Nizamnaməsi (2008-ci il) // www.pfl.az (24.01. 2022-ci il).

sil edir ki, həmin təşkilat kommersiya strukturuna xas olan bütün xarakterik əlamətlərə malikdir. Təşkilata onun fəaliyyətini əlaqələndirən şəxs rəhbərlik edir. Bütün idman oyun növləri üzrə komandaların idarəetmə forması, təxminən, eynidir. Təşkilata **əməli rəhbərliyi** idarəetmə şurası tərəfindən seçilən prezident həyata keçirir. Komandaya **baş menecer** rəhbərlik edir. İdman növündən asılı olaraq **komandanın tərkibinə** baş məşqçi və bir neçə məşqçi daxil olur. Komandada idmançıların sayı idman oyun növünə görə müxtəlif cür olur; məsələn, basketbol üzrə – 13-15 oyunçu, xokkey üzrə – 23-25 oyunçu, futbol üzrə – 45-47 oyunçu və s. İnzibati və xidməti personal ilə birlikdə komandada əməkdaşların **ümumi sayı**, adətən, 70-dən 100-dək təşkil edir.

Liqalarda komandalar (klublar) **ikili vəziyyətdə** olurlar. Belə ki, onlar hüquqi cəhətdən **müstəqil təşkilat** sayılırlar. Lakin, bununla yanaşı, **kartel-liqa** (inhisarçı birləşmə) üzvü kimi onların fəaliyyəti, hüquqi baxımdan, liqa ilə bağlanan **müqavilə əsasında məhdudlaşır.** Bəzi münasibətlərdə isə onlar ümumi biznesə öz töhfələrini verən bərabərhüquqlu tərəfdaşlar kimi çıxış edirlər. Ancaq, onlar liqanın tərkib hissəsi olmaqla, onun **qaydalarına tabedirlər** və bu qaydaları pozduqda ciddi cəza ala, müvafiq sanksiyalara məruz qala bilərlər.

Eyni zamanda, qeyd etməliyik ki, idman kartelinin üzvləri – komandalar, sadəcə olaraq, liqadan çıxa və şəxsi bizneslə məşğul ola bilməzlər. Onların fəaliyyət göstərməsinin **vacib şərti** bir liqada cəmləşən rəqib komandalar kimi çıxış etməsidir. Həm də nəzərə almaq lazımdır ki, klubların (komandaların) liqalarda və assosiasiyalarda belə birləşməsi sayəsində onlar **biznesdə partnyor** (tərəf-müqabil) mövqeyi tuturlar; onlar yalnız idman meydançasında bir-birinə rəqib olurlar. Peşəkar idmanın kartel strukturu ilə müəyyənləşdirilmiş iqtisadi münasibətlər özünü **monopoliya** (inhisara alınma) aspektində göstərir: iqtisadçılar "hazır bazar məhsulunu" – bir satıcı ilə bazar, inhisarçı

vəziyyətdə isə "işçi qüvvəsi bazarında" bir alıcı ilə bazar adlandırırlar.[1]

Amerikada peşəkar idman, hər şeydən əvvəl qeyd etməliyik ki, idman-əyləncə biznesinin spesifik növüdür. **İdman biznesi** kontrakt sistemi, komanda sahiblərinin biznesdə rəqabət aparılmaması barədə razılaşma müqaviləsi, komandalara oyunçuların xüsusi seçim sistemi (bu, **draft** adlanır, yəni idmançıların hüquqlarının formal baxımdan, müəyyən dərəcədə məhdudlaşdırılması), liqalar və assosiasiyalar arasında oyunçuların müvafiq sazişi və sairə bu kimi güclü kommersiya və hüquqi postulatlara əsaslanır.

Peşəkar idmanın Amerika modeli sənayesinin kommersiya və qanunvericilik aspektlərinin **dialektikası** ənənəviliyə uyğundur və buna görə də tamamilə inkişaf yollarından xəbər verir. Belə ki, bir çox qanunvericilik aktları idman biznesinin əhəmiyyətli dərəcədə dəyişməsinə şərait yaradır. Bu zaman cəmiyyət, dövlət və peşəkar idman fəaliyyəti arasında **sıx qarşılıqlı əlaqə** tədqiq edilərək öyrənilir ki, bu da həmin fəaliyyət sferasının hüquqi tənzimlənməsinə mühüm formada təsir göstərir.

Qeyd etməliyik ki, peşəkar idmanın tənzimlənməsi zəminində müvafiq hüquqi aktlar sistemi, o cümlədən lokal normativ sənədlərdə təsbit edilmiş müddəalar çıxış edir. Bu **idman ehtiyat təminat sistemi** (rezerv sistemi) aşağıda göstərilən beş elementdən ibarətdir:

1) komandalara oyunçuların seçilməsi (draft);
2) oyunçuların komandada saxlanması;
3) oyunçular üzərində nəzarət;

[1] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В.Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.425-441.

4) komanda sahibləri və idmançılar arasında mübahisəli məsələlərin həlli;

5) oyunçuların alqı-satqısı.

Bu sistemin **mahiyyəti** ondan ibarətdir ki, idmançı özü komandanı seçmir, rezerv sistem ona komandanı və onun sahibini təklif edir, razılıq olduqda idmançı ilə müvafiq standart kontrakt imzalanır və bununla da idmançı komanda sahibindən tam asılı vəziyyətə düşür, onun mülki hüquqları məhdudlaşır, komandaların rəqabətqabiliyyətliliyi tarazlaşdırılır.

Standart idman kontraktı – bu, peşəkar idmanda komanda sahibi ilə idmançı, məşqçi və ya digər idman əməkdaşı (tərəflər) arasında qarşılıqlı münasibətləri tənzimləyən, onların hüquq və vəzifələrini müəyyən edən əsas sənəd sayılır. İdman kontraktı əmək müqaviləsi kimi də adlanır.[1] Peşəkar idman sahəsində əmək müqaviləsi **yazılı formada** bağlanır və o, əmək və idman qanunvericilik aktları ilə tənzimlənir. Əmək müqaviləsində, əsasən, **aşağıdakı məlumatlar** öz əksini tapır:[2]

- peşəkar idmançının, peşəkar məşqçinin və ya digər idman əməkdaşının soyadı, adı və atasının adı, həmçinin peşəkar idman sahəsində əmək müqaviləsi bağlayan idman klubunun adı;
- struktur bölmənin adı göstərilməklə iş yeri;
- əmək müqaviləsinin qüvvədəolma müddəti;
- idmançının, məşqçinin və ya digər idman əməkdaşının idman klubunun ştat cədvəlinə uyğun peşəsi, vəzifəsinin adı, ixtisası və yaxud konkret əmək funksiyası;
- müqavilə tərəflərinin hüquq və vəzifələri, əmək şəraitinin xarakteristikası, kompensasiya və imtiyazlar;

[1] İdman kontraktının anlayışı, hüquqi mahiyyəti və növləri barədə bax: Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.59-62.

[2] Ümumiyyətlə, əmək müqaviləsinin məzmunu, bağlanma qaydası, ona xitam verilməsi, yaxud ləğv edilməsi və digər münasibətlər barədə ətraflı məlumat almaq üçün bax: Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, s.221-273.

– əməkhaqqının ödənilməsi şərtləri, tibbi-sığorta məsələləri və s.

Əmək müqaviləsində **qanunvericiliyə zidd olmayan digər şərtlər** də müəyyənləşdirilə bilər (məsələn, peşə sınağının keçirilməsi, kommersiya sirrinə dair tələblər, 16 yaşına çatmayan idmançılara münasibətdə onların valideynlərinin icazəsi, aidiyyəti üzrə qəyyumluq və ya hamilik orqanlarının razılığı və s.). Müqavilə, bir qayda olaraq, **beş ildən çox olmayan müddətə** bağlanır və müvafiq idman federasiyasında qeydiyyata alındığı tarixdən **qüvvəyə minir**.

Əməkhaqqı səviyyəsi mövcud idman işçi qüvvəsi bazarında fəaliyyət göstərən **əmək münasibətləri modelinə** əsaslanır. Bu modelin tərkib elementi kimi idmançılara olan tələbat çıxış edir. Təbii ki, **idmançıların kateqoriyası** ("ulduz" idmançı, yüksək dərəcəli oyunçu, orta qabiliyyətli idmançı) onlara veriləcək əməkhaqqının miqdarının müəyyənləşdirilməsində vacib rol oynayır. Peşəkar idman sahəsində əməkhaqqının ödənilməsinə **diferensial yanaşma** idman biznesinin sarsılmaz qanunudur. Lakin əməkhaqqı səviyyəsinə təsir göstərə biləcək əhəmiyyətli faktorlardan biri kimi müqavilə bağlanan zaman hər bir idmançının özünün mövqeyi, yəni onun qiymət danışmaq bacarığı da vacib məsələdir. Müasir dövrdə peşəkar idmançıların əməkhaqqının daim yüksəlməsi tendensiyası müşahidə olunur; məsələn, ayrı-ayrı idmançılara verilən qonorarın, mükafatların və s. maliyyə yardımlarının miqdarı dəfələrlə artmışdır.[1]

7.1.3. Peşəkar idmanın Avropa modeli

Peşəkar idman modellərindən digəri, yuxarıda qeyd etdiyimiz kimi, **peşəkar idmanın Avropa modeli** sayılır. Bu model

[1] Əmək münasibətlərinin hüquqi tənzimlənməsində diferensiasiya anlayışı və onun ümumi xarakteristikası barədə ətraflı bax: Qasımov A., Cəfərov Z., Hüseynov Ə. Əmək münasibətlərinin hüquqi tənzimlənməsinin vahidliyi və diferensiasiyası. Dərs vəsaiti. Bakı: Qanun, 2015, s.21-32.

formatında idman-əmək münasibətləri özünəməxsus qaydada tənzimlənir. Avropada peşəkar idmanın inkişaf tempinin əsas xüsusiyyəti **dövlətlərin münasibəti** ilə sıx surətdə əlaqəlidir. Nəzərə alınmalıdır ki,

Avropanın 40-dan çox ölkəsində peşəkar idmanın müxtəlif növləri həyata keçirilir və hər bir ölkədə **fərqli milli qanunvericilik aktları** mövcuddur. Başqa sözlə desək, bəzi ölkələrdə idmanın inkişafı haqqında qanunlar, digər ölkələrdə isə peşəkar idmanın inkişafına dair qanun, yaxud idman haqqında qanunda peşəkar idman barədə müvafiq bölmə nəzərdə tutulmuşdur (məsələn, İspaniya, İtaliya, Portuqaliya, Rusiya Federasiyası, Azərbaycan, Belarusiya və s.).

Eyni zamanda, **Avropaya inteqrasiya prosesləri** bu istiqamətdə məqsədə nail olmaq üçün Avropa Şurasını (AŞ) zəruri qərarlar qəbul etməyə vadar edir. Madam ki, bir çox idman növləri üzrə Avropa çempionatları keçirilir və müxtəlif idmançıların xarici klublar adından çıxış etməsi hazırda hərtərəfli xarakter almışdır, deməli, inteqrasiya prosesləri **idman sahəsinə** də sirayət etmişdir.[1] Belə ki, 1949-cu ildə Avropa Şurası təsis edildikdən sonra idman və sosial təminat münasibətləri də onun nizamasalma sferasına daxil olmuşdur.[2] Avropa ölkələri arasında idman sahəsində əməkdaşlıq etmək prinsipi artıq reallığa çevrilmişdir.

Avropa Şurasının yaradılması ilə bütün beynəlxalq idman təşkilatları **Avropa formatında**, xüsusilə də Beynəlxalq Futbol Federasiyası (UEFA) çərçivəsində idmanın hüquqi tənzimlənməsi istiqamətində əməkdaşlıq etməyə başladılar. 1970-ci ildə peşəkar futbol məsələləri ilə məşğul olan **müvafiq komissiya** yaradıldı. Ümumavropa qanunvericiliyi, təbii ki, bu komissiyanın fəaliyyətinə öz təsirini göstərdi, həmçinin futbolçular üçün

[1] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.418- 427.

[2] Bax: Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B», 2016, s. 694-696.

kontraktın nümunəvi modelinin və onların bir Avropa ölkəsindən başqasına keçid sisteminin işlənib hazırlanmasına təkan verdi.

Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, 1978-ci ildə sözügedən komissiyanı **üç orqan** əvəz etdi:

- ekspertlər qrupu;
- həvəskar idmançıların peşəkar idmançı kateqoriyasına keçməsini tənzimləyən maddələrin işlənib tamamlanması üzrə komissiya;
- idman klubları arasında əməkdaşlıq prinsiplərinin pozulmasının təhlili ilə məşğul olan intizam orqanı.

1994-cü ildə isə **Şərqi Avropa ölkələrinə dəstək Bürosu** yaradıldı ki, onun təxirəsalınmaz vəzifələrindən biri milli futbol federasiyalarının inzibati personalının öyrədilməsi və peşə hazırlığının yüksəldilməsi oldu.[1]

Eyni zamanda, qeyd etməliyik ki, peşəkar idmanın **,** o cümlədən onun ayrı-ayrı növlərinin fəaliyyət göstərməsi, hər şeydən əvvəl, belə idman növünün tətbiq edildiyi **ölkələrin qanunları** ilə müəyyənləşdirilir. Məsələn, 1981-ci ildə İtaliyada qəbul edilmiş **İdman haqqında Qanunda** peşəkar idmana dair xüsusi bölmə həsr olunmuşdur. Qanunun 2-ci maddəsində göstərilir ki, bu qanuna görə, idmançılar, məşqçilər və digər şəxslər idmançıların hazırlanması fəaliyyəti ilə daimi məşğul olan və müvafiq standartlar əsasında milli idman federasiyaları tərəfindən aidiyyəti üzrə ixtisas alan şəxslər, həvəskar və peşəkar idman fəaliyyətləri arasındakı fərqə münasibətdə İtaliya Olimpiya Komitəsinin müvafiq göstərişlərinə riayət olunmaqla peşəkar idmançılar kimi nəzərdə tutulur. **"İdmanda əmək intizamı haqqında" maddədə** xüsusilə deyilir ki, işə qəbul müvafiq kontrakt bağlanması vasitəsilə həyata keçirilir və həmin sənəd-kontrakt sonradan təsdiq olunmaq üçün milli idman fede-

[1] Bu və digər məsələlər barədə daha ətraflı bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.418-427.

rasiyasına təqdim edilir. Müqavilənin qüvvədəolma müddəti başa çatana qədər kontraktın bir idman klubundan digərinə verilməsinə ikinci tərəfin (idmançının) buna razı olması və milli idman federasiyası tərəfindən müəyyən edilmiş bütün rəsmiyyətlərə riayət edilməsi şərti ilə icazə verilir.[1]

Azərbaycan Respublikasında 2009-cu ildə "**Bədən tərbiyəsi və idman haqqında" Qanun** qəbul edilmişdir ki, onun VII fəsli bütövlükdə peşəkar idman fəaliyyəti ilə bağlı hüquqi tənzimlənməyə dair müvafiq normalar ehtiva edir. Həmin fəslin 32-ci maddəsi **Peşəkar idman sahəsində münasibətlərin hüquqi tənzimlənməsi** adlanır və burada təsbit olunmuşdur ki, peşəkar idman sahəsində əmək münasibətlərinin tənzimlənməsi, əsasən, idmançıların **əmək funksiyalarına** müvafiq idman növü (növləri) üzrə yarışlara hazırlığını, iştirakını və yüksək nəticələr əldə edilməsini, işçilərin (məşqçilərin və digər mütəxəssislərin) əmək funksiyalarına isə təlim-məşq prosesinin təşkili, idmançıların yarışlarda iştiraklarına və yüksək nailiyyətlər əldə edə bilmələrinə rəhbərlik fəaliyyətlərinin daxil edilməsini nəzərdə tutur. Peşəkar idmanda hazırlıq və iştiraka görə idmanı **peşəkar (əmək) fəaliyyəti** seçmiş idmançılar qanunvericiliyə müvafiq surətdə əməkhaqqı və (və ya) pul mükafatı alırlar.[2]

Avropa ölkələrinin idman qanunları idman aləmində fəaliyyəti tənzimləyən xartiya, konstitusiya, nizamnamə və digər lokal aktların **normativ məzmununu** əvvəlcədən müəyyən edir. Belə ki, 1990-cı illərdə peşəkar idman liqalarının xartiya və nizamnaməsinə onların fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş xeyli sayda düzəlişlər edilmişdir. Məsələn, Fransa Peşəkar Futbol Liqasının Xartiyasında **peşəkar oyunçu statusu** müvəqqəti idman kontraktlarını – müqavilələri tənzimləyən əmək qanunvericiliyi qaydalarına əsaslanır. Bununla belə, xartiyanı hazırlayan hüquqşünaslar nəinki əmək qanununun tələb və

[1] Bax:https://studbooks.net/1022518/pravo/evropeyskaya_model_ professionalnogo_sporta (05.02.2022-ci il).
[2] Bax: http://www.e-qanun.az/framework/18303 (06.02.2022-ci il).

müddəalarını onların xüsusi ehtiyaclarına uyğunlaşdırdılar, həm də qanunun özünü təkmilləşdirdilər ki, bu da indi futbolçuya digər sahələrdə adi işçilər üçün nəzərdə tutulduğundan daha yüksək səviyyədə **sosial müdafiəyə** zəmanət verir.

Avropada peşəkar idmanın inkişafı bir sıra məsələlər üzrə **vahid siyasətin** və ilk növbədə, idmançıların işə götürülməsi və onlara əməkhaqqının ödənilməsi qaydalarının işlənib hazırlanmasını tələb edirdi. İngiltərə futboluna gəlincə, uzun müddət ərzində **maksimum əməkhaqqının** ölçüsünü təyin edən qaydalar mövcud idi. Beləliklə, liqalar imkanları az olan klubların hüquqlarını müdafiə edirdi, komandaların heyətlərini komplektləşdirməklə, bəzən isə, ən yaxşı oyunçuların və maliyyə cəhətdən ən güclü klubların maraqlarına zərər yetirməklə **onların şanslarını** bərabərləşdirirdilər.

Yalnız 1950-ci illərin ortalarında ingilis peşəkar futbolunda məcazi mənada **"bərabərçilik"** (əslində isə – qeyri-bərabərlik) sisteminin mövcud olması dayandırıldı. Qısa müddətdə həm futbolçuların maaşlarının, həm də onların bazar dəyərinin sürətlə artmasına səbəb olan **"ulduzlar" dövrü** başladı. Yeni əməkhaqqı sistemi ölkə hüdudlarından kənara çıxaraq, digər idman növlərində də tətbiq edilməyə başlandı və peşəkar idmanın inkişafında daha bir **qanunauyğunluq formalaşdı**: bəzi idman növləri üzrə əldə olunan təcrübədən digər idman növlərinin idarə olunmasında (menecment işində) operativ şəkildə istifadə olunması.

Peşəkar idmançıların məvaciblərinin çox sürətlə inkişaf edərək yüksəlməsi idman funksionerlərindən cavab tədbiri kimi vəziyyətin dəyişdirilməsini tələb edirdi. 2002-ci ilin noyabrında **Avropanın aparıcı futbol klublarının Baş Assambleyası** oyunçuların qazancına **məhdudiyyətlər qoymaq** qərarına gəlmişdir; həm də 2005-ci ildən etibarən idmançıların maaşından tutulan vəsaitlərin miqdarı klubun maliyyə dövriyyəsi həcminin 70%-dən çox olmamalıdır. Bu və digər tədbirlər Avropanın bütün klublarına şamil olunur.

Bununla belə, heç də bütün **"professionallar"** milyonçuya çevrilmir. İdmançı peşəkara – **"ödənişli xidmətçi"yə** çevrildiyi andan öz mövqeyini gücləndirmək və təmin etmək üçün imkanlar axtarmağa başlayır. Bu, xüsusən də, idmançıların müvafiq assosiasiyalarının və ya həmkarlar ittifaqlarının yaradılması yolu ilə əldə edilir. Amerika peşəkar idmanında olduğu kimi, Avropa idmanında da liqa liderləri, klub rəhbərləri və peşəkar idmançılar arasında **mübahisə** və **münaqişələr** qaçılmazdır. Bu onunla izah edilir ki, hər bir tərəfin həm ziddiyyətli, həm də zaman keçdikcə dəyişən öz məqsədləri vardır.

Amerikanın komanda idman növləri üzrə peşəkar idmançılar assosiasiyalarından fərqli olaraq, Avropa ölkələrində **idmançıların hüquqlarının müdafiəsi** üzrə assosiasiyaların fəaliyyəti o qədər də nəzərəçarpacaq dərəcədə fəal deyildir. Lakin, qeyd etməliyik ki, onların rolu və fəaliyyəti durmadan artır. Assosiasiyalar qaydalara yenidən baxılması hallarında, klubla oyunçu arasında yaranan münaqişəli vəziyyətlərdə xüsusilə **fəallıq** göstərirlər. Bundan əlavə, assosiasiyalar idmançının bir çox məsələlər üzrə ixtisaslı məsləhət ala biləcəyi **əsas mərkəzlərə** çevrilib.

Avropada ən çox yayılmış idman növü **futbol** sayılır. Bu idman növünün tənzimlənməsinin bəzi hüquqi aspektlərini 2001-ci ildən Avropa Şurasının üzvü olan müstəqil **Azərbaycan dövlətinin idman qanunvericiliyi** nümunəsində nəzərdən keçirək. Azərbaycanda peşəkar futbolun inkişafını tənzimləyən əsas sənəd **"Peşəkar Futbol Liqası" ictimai birliyinin nizamnaməsi** (2008-ci il) sayılır.[1] Nizamnamə on altı hissədən ibarətdir. Diqqət çəkən I hissədə **ümumi müddəalar** təsbit olunmuşdur. Belə ki, "Peşəkar Futbol Liqası" ictimai birliyi (PFL) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan **qeyri-hökumət təşkilatıdır**. PFL öz **fəaliyyətini** Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-hökumət təşkilatları (ictimai bir-

[1] Bu sənəd barədə bax: https://www.pfl.az/cat2/23 (07.02.2022-ci il).

lik və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ hüquqi aktlar, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FİFA), Avropa Futbol Federasiyaları İttifaqı (UEFA) və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) nizamnamələri və öz **nizamnaməsi** əsasında həyata keçirir.

PFL-in fəaliyyət məqsədi, hüquqları və vəzifələri nizamnamənin II hissəsində, hüquqi statusu ilə bağlı müddəa isə III hissədə yer almışdır. Belə ki, PFL-in yaradılmasının və fəaliyyətinin **əsas məqsədi** AFFA ilə olan müqaviləyə əsasən Premyer Liqa və 1-ci Divizionda çıxış edən futbol klublarının yarışlarının təşkil edilməsidir. PFL öz məqsədlərinə çatmaq üçün aşağıdakı **vəzifələri** həyata keçirir:

- bədən tərbiyəsi və idman üzrə dövlət proqramına uyğun olaraq futbol idman növünü inkişaf etdirmək;
- respublika və beynəlxalq yarışların və tədbirlərin keçirilməsini təşkil etmək.

Həmçinin PFL aşağıdakı **hüquqlara** malikdir:

- öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;
- Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;
- qanunvericiliklə qadağan edilməyən və nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
- banklarda hesab açmaq, hesablaşmalar aparmaq və digər hüquqlar.

Göstərilən nizamnamənin xüsusi maraq doğuran IV hissəsində qeyd edilir ki, **liqanın təsisçiləri** qanunvericilik əsasında hüquqi şəxs statusuna malik olan futbol idman növü üzrə klublar və komandalar ola bilərlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri mövcud qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu nizamnamə

ilə müəyyən edilir. Təsisçilər həm də **liqanın üzvləri** hesab olunurlar. Nizamnamədə həmçinin təmsilçilik, üzvlüyün itirilməsi, əmlakın formalaşma mənbələri, idarəetmə orqanları və sairə barədə müddəalar yer almışdır.

Qeyd etməliyik ki, **komanda sahibləri** peşəkar idmanın bu və ya digər modelinin mühüm xüsusiyyətidir. Nəhayət, cəmiyyətdə idmanın inkişafı üçün bir çox parametrləri müəyyən edənlər də məhz onlardır. Dünyada peşəkar idman komandaların **üç əsas mülkiyyət forması** vardır ki, onlar Amerika və Avropa regionunda daha geniş yayılmışdır : şəxsi (fərdi və ya qrup); korporativ; səhmdar. **Şəxsi mülkiyyət formasında** klub sahibi kimi, məlum məsələdir ki, fərdi şəxslər və ya qrup şəklində olan şəxslər çıxış edirlər. **Korporativ formada** klubun sahibi firma və ya şirkət, **səhmdar formada** isə cəmiyyətin səhmdarlarıdır. Sonuncu forma daha çox Avropa idmanı üçün xarakterikdir.

Amerika Birləşmiş Ştatlarında isə komanda sahibləri onların **idmana münasibətindən** asılı olaraq aşağıdakı kimi təsnif edilir:

- idmanı sevən və komandaya müstəqil şəkildə rəhbərlik edən şəxslər;
- idman fəaliyyəti sferasında "klub sahibi olmaq" titulunu özləri üçün, mahiyyətcə, şəxsi nüfuz və ya reklam-şans uğuru seçən iş adamları;
- idman biznesini əlavə kapital qoyuluşuna çevirə bilən adamlar;
- idman biznesi əsas fəaliyyət növü olan iş adamları - biznesmenlər;
- ayrı-ayrı oyunçuları və ya bütövlükdə komandanı satmaq məqsədilə idman komandalarını əldə edən (alan) dilerlər.[1]

[1] Менеджмент спорта и туризма / В.И. Жолдак, В.А. Квартальнов ; Рос. междунар. акад. туризма. М.,: Советский спорт, 2000, 415 с. - https://studfile.net/preview/3794677/ (10.02.2022-ci il).

Yuxarıda şərh olunanlardan bəzi məqamları yekunlaşdıraraq, qeyd etmək lazımdır ki, Avropada peşəkar idmanın hüquqi tənzimlənməsi formalaşma mərhələsindədir. Hal-hazırda bu istiqamətdə idman fəaliyyətinin nizama salınması müvafiq ölkələrin idman qanunvericilik normalarına əsaslanır. Amerika peşəkar idman fəaliyyətində ayrı-ayrı liqalar, hətta klublar öz fərdi hüquqi əsasnamələrini müstəqil surətdə işləyib hazırlayırlar. Bundan fərqli olaraq, Avropa ölkələrində peşəkar idman oyun növləri üzrə fəaliyyətin tənzimlənməsi məqsədilə müvafiq hüquq normalarının qəbul edilməsi işinə isə dövlət orqanları və milli idman federasiyaları çox mühüm dərəcədə təsir göstərirlər. Peşəkar idmanin hüquqi tənzimlənməsi məsələləri ilə həmçinin Avropa Şurası məşğul olur. Son zamanlar Avropada peşəkar idmanın tənzimlənməsi sahəsində mülki məhkəmələrin iştirakı daha da fəallaşmışdır.[1]

7.2. Beynəlxalq idman münasibətlərində transfer sistemi və onun xarakteristikası

7.2.1. Beynəlxalq idman münasibətlərində transfer sistemi anlayışı

Dünyada formalaşmış beynəlxalq təcrübəyə əsasən, qeyd edə bilərik ki, idman yarışlarında aktiv iştirak edən və yüksək nəticələr göstərən hazırlıqlı idmançılar və peşəkar məşqçilər hər hansı idman təşkilatından digərinə keçir. Göstərilən təcrübə artıq yüz ildən çoxdur ki, mövcuddur və müasir dövrdə formalaşmış bu hal kompleks xarakter alaraq, transfer sistemi adlanır. Belə ki, **transfer sistemi** dedikdə idmançıların (məşqçilərin) bir idman təşkilatından (klub, komanda və s.) digərinə keçmə qaydalarını ehtiva edən sistem başa düşülür.[2] Sözügedən sistem özünü daha çox peşəkar idman sferasında büruzə verir.

[1] Bax: http://library.uzdjtsu.uz/files/pdf/ (10.02.2022-ci il).

[2] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.427-438.

Müasir dövrdə **peşəkar idman** ictimai həyatda ən maraqlı sahələrdən biridir. İdman sənayesi daim hərəkətdə olan müxtəlif subyektləri əhatə edir. Amma bu hərəkat, mahiyyət etibarilə, xaotik deyil, əksinə, kifayət qədər mütəşəkkildir və bu hərəkatda hər bir **subyektin özünəməxsus** rolu vardır. Belə ki, idmançılar məşq edərək yarışlarda çıxış edir, məşqçilər onları yüksək idman nəticələrinə nail olmaq üçün hazırlayır, agentlər və təbliğatçılar idmançıların məşğulluğunu təmin edir, idman həkimləri idmançıların sağlamlığını nəzarətdə saxlayır, antidopinq təşkilatları dopinqlə mübarizəyə nəzarət edir, istehsalçılar tərəfindən idmançılar üçün zəruri məhsul, ləvazimat və avadanlıqların istehsalı təmin olunur, KİV orqanları idman oyunlarını işıqlandırır və idman proqramları üçün reytinqlər təqdim edir, reklam aksiyalarını asanlaşdırır və s.

Bu zaman peşəkar idman sferasında bütün subyektləri **iki əsas seqmentdən** ibarət vahid məqsəd birləşdirir - yüksək idman nəticəsinə nail olmaq və qazanc əldə etmək. İdman qələbələri istedadlı və hazırlıqlı idmançılar tərəfindən təmin edilir ki, oyunçu bazarında klublar arasında həmin idmançılar uğrunda **davamlı mübarizə** aparılır. Klublar bacarıqlı və məhsuldar **idmançı almaq hüququnu** əldə etmək üçün külli miqdarda pul ödəməyə hazır olduqlarını bəyan edirlər.Təcrübə göstərir ki, bu cür məbləğlər yüz milyonlarla manat təşkil edə bilər. Bu, yalnız idmançının keçidi üçün nəzərdə tutulan məbləğdir və hələ oyunçuya əməkhaqqının ödənilməsi də lazımdır ki, bu da ciddi bir məbləğdir.[1]

Qeyd etdiyimiz kimi, bir tərəfdən idman agentləri və menecerlərin, digər tərəfdən isə idman klublarının aktiv fəaliyyəti nəticəsində müəyyən qaydalara uyğun olaraq, oyunçuların bir

[1] Bu məsələlər barədə ətraflı bax: Спортивное право: договорные отношения в спорте : учебное пособие для вузов / С. В. Алексеев, М.О. Буянова, А. В. Чеботарев ; под редакцией С. В. Алексеева. М., Издательство Юрайт, 2020, с.62-80 // https://publications.hse.ru/mirror/pubs/share/direct/400885835.pdf (12.02.2022-ci il).

komandadan digərinə **miqrasiyası** baş verir. İdmançıların bu cür keçid prosesi idman hüquq elmində **transfer** anlayışı ilə əhatə edilir. Bu zaman transferin **səbəbləri** həm oyunçuların mübadiləsi, dəyişdirilməsi və ya oyunçuya dair idman hüquqlarının başqa bir kluba ödənişli əsaslarla verilməsi, həm də oyunçunun "icarəsi", yəni başqa işəgötürənə müvəqqəti keçirilməsi və s. hallar ola bilər.

İdmançıların keçid institutu anlayışının təfsiri ilə bağlı qeyd etmək lazımdır ki, idman hüquq ədəbiyyatında və elmi dövriyyədə həm "transfer", həm də "transfert" terminlərindən istifadə olunur. Alimlərdən S.V.Alekseyev, haqlı olaraq, bu problemə diqqət çəkir və qeyd edir ki, **"transfer"** və **"transfert"** orfoqrafiyasından müxtəlif elmi istiqamətlərdə (məsələn, psixologiya, fəlsəfə, iqtisadiyyat, hüquqşünaslıq və s.) keçirmə və yerdəyişmə proseduruna istinad etmək üçün istifadə olunur, həmin terminlər, mahiyyətcə, **sinonim anlayışlar** kimi tətbiq edilir.[1] Toxunulmuş məsələyə **fəlsəfi-hüquqi kontekstdə** aydınlıq gətirilməsi üçün bu terminlərin mənalarına müraciət etmək lazımdır. Lüğətlərdə və ensiklopediyalarda bu mövzuda aşağıdakı məlumatlar verilir. Transfer (ingiliscə *transfer* – köçürmək, yerdəyişmək; latınca *transfero*; francızca *transfert*) rus dilində turizm, maliyyə-bank, innovasiya-iqtisadi, idman, psixoloji və digər mövzularda işlənən termindir.[2] Elmi mənbələrdən göründüyü kimi, müxtəlif fəaliyyət sahələrində "transfer" termininin mənası köçürmə, yerdəyişmə deməkdir. Biz də

[1] Ətraflı bax: Спортивное право : учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура» / С. В. Алексеев ; под ред. П. В. Крашенинникова. 5-е изд., перераб. и доп. М., ЮНИТИ-ДАНА: Закон и право, 2016, с.371.

[2] Bax: URL: https://ru.wikipedia.org/wiki/Трансфер (12.02.2022-ci il); Словарь психиатрических терминов. URL: https://slovar.cc/med/psih/2202895.htmi (12.02.2022-ci il); English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, p.285; Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.371-372.

idman-hüquq münasibətlərində **"transfer" anlayışının** sətiraltı məna yükü altında idmançının bir iş yerindən digərinə keçməsini nəzərdə tuturuq. **"Transfert" sözünün** mənasına gəldikdə isə, məsələn, maliyyə-kredit ensiklopedik lüğətində bu terminin məna yükü pul vəsaitlərinin, malların, xidmətlərin, maddi dəyərlərin (mülkiyyət hüquqlarının) maliyyə yardımı və kompensasiya təqdim edilməsi formasında əvəzsiz və qaytarılmaz əsaslarla birtərəfli qaydada köçürülməsini ehtiva edir.[1] Bu kontekstdə əgər söhbət **idmançıdan gedirsə**, o zaman ona dair, məsələn, idman hüquqlarının ötürülməsindən danışmaq olar. Yuxarıdakı tərifl ərdən göründüyü kimi, prinsipcə, hər iki termin bu aspektdə istifadə edilə bilər, lakin biz idman dairələrində daha çox istifadə olunan **"transfer" terminin**ə üstünlük veririk.

7.2.2. Beynəlxalq idman münasibətlərində transfer sisteminin xarakteristikası

Hər şeydən əvvəl, qed etməliyik ki, beynəlxalq idman sferasında transfer sistemi müəyyən əlamətlərlə xarakterizə olunur. Belə ki, idmançılarla bağlı **transfer sisteminin tənzimlənməsi** problemində əsas arqument Amerikanın peşəkar liqalarında yaranmış maraqlar balansının qorunub saxlanması zərurəti olmuşdur; çünki artıq peşəkar komanda idman oyununun müstəqil idman növü kimi yaranmasının ilk mərhələsində idmanla məşğul olan əcnəbi menecerlərə aydın idi ki, ilk növbədə, klubları bir araya gətirərək birləşdirməklə **liqanı inkişaf etdirmək** lazımdır. Məhz liqanın uğurlu fəaliyyəti idman sponsorları üçün mühüm cəlbedici komponent olan **kommersiya və reklam məhsulunun** çoxalmasına imkan verir. Əvvəlcə liqaya maraq yalnız onun təşkil etdiyi beysbol, xokkey və futbol matçlarının

[1] Bax: Финансово-кредитный энциклопедический словарь // URL:https:// finance_loan.academic.ru/1800/ТРАНСФЕРТ (12.02.2022-ci il).

möhtəşəmliyi ilə yaranırdı. Tamaşa-əyləncə yalnız səviyyə və ustalıq baxımından, təxminən, bərabər olan rəqib komandaların yarış oyunları ilə təmin edilə bilər. Qarşılaşmanın nəticəsini əvvəlcədən təxmin etmək və qalibi müəyyən etmək mümkün olmadığı halda, tamaşaçılar oyunun intriqası ilə maraqlanır. Bir rəqibin digər rəqib üzərində aşkar üstünlüklə qalib gəldiyi **"keçici" adlanan** görüşlər qətiyyən maraqsız olacaqdır. Məhz buna görə də, ABŞ mütəxəssisləri tərəfindən oyunçuların potensialını bərabər bölüşdürmək məqsədilə **draft sistemi** tətbiq edilmişdir.

Digər xarakterik əlamət kimi qeyd etmək lazımdır ki, idmançıların bir klubdan (komandadan) digərinə keçirilməsi məsələlərini tənzimləyən ilk meyillər – **transfer münasibətləri** Amerika beysbol liqasında yaranmışdır. Bu münasibətlə hüquq ədəbiyyatında qeyd edilir ki, "ABŞ-da 1876-cı ildə **peşəkar beysbol liqasının** yaradılmasının ilk günlərindən oyunçuların bir klubun komandasından digərinin komandasına keçməsi məsələsi ortaya çıxdı. Kluba hər hansı səbəbdən başqa klubdan işdən çıxarılan və ya qovulan beysbolçunu işə götürmək qadağan edildi. Beləliklə, necə deyərlər, **"qara siyahı"** ortaya çıxdı...".[1] Daha doğrusu, artıq o vaxtlar liqa klubları arasında gizli sövdələşmələr mövcud olurdu ki, müəyyən hallarda oyunçunun kluba cəlb edilməsi təkbaşına deyil, liqanın digər üzvləri ilə razılaşdırılmaqla həyata keçirilsin. Yeri gəlmişkən, qeyd edək ki, bu gün də idman sferasında buna oxşar sövdələşmələr baş verir.

Təbii ki, yüksək nəticə göstərən ilk ən yaxşı oyunçular meydana çıxan kimi bir neçə komandada onlara qarşı **xüsusi maraq** yaranırdı və menecerlər belə bir oyunçunu komandalarına cəlb etmək üçün **yüksək məbləğdə müqavilələr** təklif edirdilər. Belə bir vəziyyət yaranmağa başladı ki, bir komanda digər-

[1] Bax: Спортивное право: договорные отношения в спорте: учебное пособие для вузов / С. В. Алексеев, М. О. Буянова, А. В. Чеботарев; под редакцией С. В. Алексеева. М., Издательство Юрайт, 2020, с.64-65.

ləri üzərindəki **maliyyə üstünlükləri** sayəsində liqanın hər yerindən ən yaxşı idmançıları öz siyahısında cəmləşdirə və gələcək bir neçə mövsüm üçün əvəzolunmaz çempion ola bildi. Liqa belə bir vəziyyətlə razılaşa bilməzdi, çünki bu, möhtəşəm matçların itirilməsi səbəbindən, ümumiyyətlə, həmin **idman növünə zərər** verərdi. Ona görə də, oyunçuların transferlərini onlarla müqavilə bağlamaq mərhələsində tənzimləməyə imkan verən müəyyən qaydalar tətbiq etmək lazım idi. 1880-ci ildən bəri Amerikada oyunçularla müqavilə bağlamaq üçün belə bir **sistem qurulmuşdur** ki, onun da nəticəsində yüksək qazanc səbəbindən beysbolçuların bir şəhərdən digərinə özbaşına hərəkətləri dayandırılmış və bu, idmançılar üzərində müəyyən nəzarət yaratmağa imkan vermişdir.[1]

Futbol idman növünə gəldikdə isə, qeyd etməliyik ki, bu idman növündə də idmançıların bir idman təşkilatından (klub, komanda və s.) digərinə keçid halları yer almışdır. Futbol transferlərinin tənzimləməsinin banisi İngiltərə ölkəsi sayılır ki, burada oyunçunun yarışmada iştirakı üçün **ilkin şərt kimi** onun çalışdığı müəyyən bir idman klubunda **qeydiyyatdan keçməsini** nəzərdə tutan qaydalar tətbiq edildi. 1888-ci ildə yarandıqdan qısa müddət sonra İngiltərə Futbol Liqası **transfer sistemini** sərtləşdirdi. Belə ki, artıq bundan sonra futbolçu hətta mövsümün sonunda başqa kluba keçmək üçün **icazə almalı** idi.[2]

Transfer zamanı yaranan ictimai münasibətlərin **hüquqi təbiəti** və müvafiq olaraq, onların rəsmiləşdirildiyi müqavilənin xarakteri kifayət qədər diskussiya doğuran məsələ olsa da, alimlərdən S.D. Noskov transfer müqaviləsinin mahiyyətini nəzərə alaraq, belə qənaətə gəlir ki, **transfer kontraktı** oyunçu-

[1] Bax: Спортивное право : учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура» / С. В. Алексеев ; под ред. П. В. Крашенинникова. 5-е изд., перераб. и доп. М., ЮНИТИ-ДАНА: Закон и право, 2016, с.363.

[2] Bax: Спортивное право: договорные отношения в спорте: учебное пособие для вузов / С. В. Алексеев, М. О. Буянова, А. В. Чеботарев ; под редакцией С. В. Алексеева. М., Издательство Юрайт, 2020, с.65.

nun qeydiyyata alınması üçün mülkiyyət hüququnun ötürülməsi ilə bağlı razılaşma kimi qəbul edilməlidir.[1] **Qeydiyyata alınma** dedikdə isə idmançının müəyyən bir kluba ərizə üzrə qeydiyyatı başa düşülür və bu xarakterik əlamət özünü transfer sistemində qabarıq şəkildə biruzə verir.

Digər müəllif S.A. İzyuryev **transfer münasibətlərini** əmək-hüquq münasibətlərinin elementi hesab edərək qeyd edir ki, transfer kontraktı üzrə münasibətlər təkcə əmək hüququ ilə tənzimlənə bilməz, ona görə də, **mülki hüququn tənzimetmə predmetidir**.[2] Zənnimizcə, bu, ağlabatan mövqedir.

Heç bir şübhə yoxdur ki, transfer zamanı klub idmançını onun malik olduğu bütün **imic komponentləri** ilə birlikdə alır və onunla müvafiq **əmək müqaviləsi** bağlayır. Digər tərəfdən, idmançının klub tərəfindən istifadəsi yarış reqlamentində ciddi şəkildə müəyyən edilmiş bir sıra **formallıqların** mütləq şəkildə icrasını nəzərdə tutur. İlk növbədə, idmançı ilə əmək müqaviləsi bağlayan klub elə bu mərhələdə **aşağıdakı hərəkətləri** yerinə yetirməyə borcludur:

1) idmançı ilə müqavilə bağlanması barədə liqaya (federasiyaya) məlumat verməklə oraya imzalanmış əmək müqaviləsinin nüsxəsini göndərmək;

2) oyunçu haqqında bütün məlumatları təqdim etmək: pasportun surəti, əmək kitabçasının surəti; ona oyunçu nömrəsi təyin etmək, oyunçunun soyadının xarici dildə yazılış variantları və s.;

3) müəyyən edilmiş nümunə üzrə sifariş vərəqəsini tərtib etmək;

4) oyunçunun idman yarışlarında çıxış etməyə yararlı olmasına dair tibbi arayış təqdim etmək;

---

[1] Bax: Носков С. Д. Трансферный контракт и договор передачи имущественного права // Молодой ученый. 2016, № 17,с. 216-218. URL: https://moluch. ru/archive/121/33481/ (13.02.2022-ci il).

[2] Bax: Изюрьев С.А. Трансферный контракт как договор купли-продажи имущественного права // Молодой ученый. 2016, № 3.2,с. 18-22. URL https:// moluch.ru/archive/107/26167/ (13.02.2022-ci il).

5) oyunçunun idman-oyun qaydaları, antidopinq qaydaları, lokal qaydalar və s. ilə tanış olduğunu təsdiq edən qəbz təqdim etmək;

6) transfer kartının köçürülməsi üçün ödəniş (xarici işçilərə münasibətdə).

Müasir dövrdə transfer sisteminə xas olan xarakterik əlamətlərdən biri də ondan ibarətdir ki, oyunçuların alqı-satqısı ciddi **idman biznesinə** çevrilmişdir. Hesab edirik ki, peşəkar idman klubu oyunçuları işə götürməklə həmin işçilərə dair mühüm hüquq kateqoriyası – **idman hüquqları** əldə edir ki, bu da, **transfer predmeti** sayılır. Sözügedən idman hüquqlarının **məzmunu** belədir:

- idmançını öz komandasına oyunçu elan etmək;
- yarışlarda oyunçudan öz istəyinə uyğun istifadə etmək;
- idmançının komandadakı yerini və rolunu müəyyən etmək (oynadığı tərkibi müəyyənləşdirmək və s.);
- idmançını klub daxilində yerdəyişmə etmək, məsələn, əsas komandadan ehtiyata və ya farm-kluba köçürmək və s.;
- oyunçunu "icarə"yə vermək;
- idmançı tərkib heyətə düşə bilmədiyi halda onu oyundan kənarlaşdırmaq;
- oyunçunu daimi iş üçün başqa kluba köçürmək;
- klubun reklam məqsədləri üçün oyunçunun ad və soyadından, səsindən və əl yazısından istifadə etmək və s.[1]

İdman hüquqları yalnız idmançıya xas olan **xüsusi hüquqlar** sayılır. Belə görünür ki, bu hüquqlar klublar arasında bağlanan alqı-satqı müqaviləsinin (transfer kontraktının) predmeti ola bilər. İdman hüquqlarının **spesifik xüsusiyyəti** ondan ibarətdir ki, onlar idmançı ilə klub arasında **əmək müqaviləsi**

[1] Ətraflı bax: Спортивное право: договорные отношения в спорте: учебное пособие для вузов / С. В. Алексеев, М. О. Буянова, А.В. Чеботарев ; под редакцией С. В. Алексеева. М., Издательство Юрайт, 2020, с.71.

bağlanan zaman yaranır və belə müqaviləyə xitam verildikdən sonra da tam şəkildə ləğv edilmir. Məsələn, bir qayda olaraq, əmək müqaviləsi (idman jarqonunda kontrakt adlanır) başa çatdıqdan sonra idmançının əvvəlki klubun razılığı olmadan yeni klubla müvafiq müqavilə bağlamaq imkanı olmur. Məhz əvvəlki klub **bu razılığı** ya pulla (transfer ödənişi), ya da başqa bir oyunçunun əvəzində verə bilər.

Nəhayət, digər xarakterik əlamətlərdən biri kimi, qeyd edə bilərik ki, **idman sferasında transfer məsələləri** ilə bağlı münasibətlərin qaydaya salınmasında beynəlxalq idman təşkilatlarının qərarları ilə yanaşı, hər bir ölkənin **milli qanunvericilik aktları** da əhəmiyyətli rol oynayır. Məsələn, Azərbaycan Respublikasında idman-transfer münasibətlərin nizama salınmasında Əsas qanun – Konstitusiya (1995-ci il), Mülki Məcəllə (1999-cu il), Əmək Məcəlləsi (1999-cu il), Vergi Məcəlləsi (2000-ci il), "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il) və digər normativ hüquqi aktlar mühüm əhəmiyyət kəsb edir.

Belə ki, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 44-cü maddəsi **İdman fəaliyyəti haqqında müqavilə** anlayışına həsr edilmişdir və orada göstərilir ki, idman fəaliyyəti haqqında müqavilə idmançı (məşqçi, mütəxəssis) və bədən tərbiyəsi-idman təşkilatı arasında bağlanan **razılaşmanın yazılı formasıdır**. Qanunun 45-ci maddəsi isə **İdmançıların bir idman təşkilatından digərinə keçməsi** adlanır. Həmin maddədə təsbit olunmuşdur ki, idmançı müqavilədə göstərilən müddət başa çatdıqda bir idman təşkilatından digər (eyni zamanda - xarici) **idman təşkilatına keçmək hüququna** malikdir. İdmançının müqavilə müddəti başa çatmadığı halda digər idman təşkilatına keçməsi hər iki təşkilat və idmançı arasında **qarşılıqlı razılıq** nəticəsində baş tuta bilər. İdmançıların müqavilə bir idman təşkilatından digər idman təşkilatına keçməsi qaydaları **respublika idman federasiyaları** tərəfindən müəyyən edilir. Milli yığma komandaların tərkibinə

daxil edilmiş idmançıların bir idman təşkilatından (idman klubundan və digər idman yönümlü qurumdan) digərinə, habelə xarici idman klublarına keçməsi müvafiq **icra hakimiyyəti orqanının rəsmi razılığı** ilə həyata keçirilir.[1]

Beləliklə, transfer münasibətləri ilə bağlı idman liqa və federasiyalarının reqlament normalarının, eləcə də mövcud qanunvericiliyin təhlili aşağıdakı məzmunda **nəticələr çıxarmağa** imkan verir:[2]

1. Peşəkar idman növündə transfer müqaviləsi **mülki-hüquqi müqavilə** sayılır ki, bu müqaviləyə görə, idman hüquqlarının idmançıya ödənişli əsaslarla verilməsi nəticəsində həm də idmançı başqa kluba keçirilir;

2. Öz hüquqi təbiətinə görə idmanda transfer müqaviləsi **alqı-satqı** və ya **dəyişmə (mübadilə) müqavilə** növlərinə aid edilə bilər;

3. Belə transfer müqaviləsinin predmeti idmançı ilə ayrılmaz şəkildə bağlı olan və bir sıra elementləri (ixtisas səviyyəsi, oyunçunu sifariş etmək hüququ, oyun nömrəsinin verilməsi və s.) özündə birləşdirən **idman hüquqları** ilə bağlı münasibətlərdir;

4. Transfer müqaviləsi konkret transfer məbləğinin ödənilməsi (və ya hüquqların başqa oyunçuya ötürülməsi) barədə **müvafiq öhdəlik şərti** müəyyənləşdirir ki, bu, öz xarakterinə görə, **müqavilənin qiyməti** və vergi qanunvericiliyi baxımından **klubun gəliri** sayılır;

5. Transfer müqaviləsi çərçivəsində idmançının hazırlanmasına görə **kompensasiyanın ödənilməsi** yalnız uşaq-gənclər id-

[1] Qanunun göstərilən maddələrinin mətni barədə ətraflı bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu / C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.285.

[2] Ətraflı bax: Спортивное право: договорные отношения в спорте: учебное пособие для вузов / С. В. Алексеев, М. О. Буянова, А.В. Чеботарев ; под редакцией С. В. Алексеева. М., Издательство Юрайт, 2020, с.80.

man məktəblərində təhsil alan şagird və ya tələbərə münasibətdə **hüquqauyğun** hesab edilir.

7.3. İdmançılara maddi yardım göstərilməsi və onların sosial müdafiəsinə dair tədbirlərin təşkilati-hüquqi aspektləri

Müasir dövrdə beynəlxalq idman münasibətlərinin hüquqi tənzimlənməsi sahəsində idmançılara maddi yardım göstərilməsi, onların sosial təminat və sosial müdafiəsi ilə bağlı məsələlər vacib yer tutur. **İdmançılara maddi yardım sistemi** əksər ölkələrdə həmişə mövcud olmuşdur. Bu sistem, hər şeydən əvvəl, idmançılara köməklik göstərilməsi barədə **müxtəlif proqramların** qəbul edilməsinə əsaslanır. Belə proqramların maliyyə mənbəyi, ilk növbədə, dövlət büdcə vəsaitindən ayırmalar (əməkhaqqı, mükafat və s.), habelə ictimai və kommersiya təşkilatlarından daxilolmalar (subsidiya, stipendiya və s.) hesabına formalaşır.[1]

İdmançılara maddi yardım göstərilməsinə dair **proqramların icrası** ilə müvafiq nazirlik (mərkəzi icra hakimiyyəti orqanı), MOK, MİF, milli idman fondları, həmçinin bu məqsədlə yaradılmış xüsusi fondlar[2], xeyriyyə cəmiyyətləri, özəl firmalar və fiziki şəxslər məşğul olurlar. Belə proqramlar görkəmli idman tədbirlərinin maliyyələşdirilməsi **sisteminin mühüm elementi** sayılır. İdmançılara maddi yardım göstərilməsi barədə

[1] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.449-464.

[2] Belə xüsusi fondlar hüquq ədəbiyyatı dövriyyəsində "pul" (ingiliscə - *pool*) adlanır. Bu, sahibkarların birlik formasıdır və xidmət sferasında geniş yayılmışdır. Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.727.

müvafiq proqramların bəzi ölkələrdə realizasiya təcrübəsini nəzərdən keçirək.

Amerikada idmançılara köməklik göstərilməsi barədə maliyyə proqramı ABŞ Olimpiya Komitəsi, həmçinin idman növləri üzrə federasiyalar (məsələn, ABŞ Üzgüçülük Federasiyası, ABŞ Gimnastika Federasiyası) tərəfindən həyata keçirilir. Belə yardım, başlıca olaraq, yüksək idman nəticələri əldə etmiş, olimpiya çempionu adını qazanmış idmançılara **birbaşa nağd ödəniş** formasında verilir. Lakin heç də idman növləri üzrə bütün federasiyalar belə imkana malik olmurlar ki, bu hal amerikalı idmançıları qeyri-bərabər şəraitə salır. Ona görə də bəzi idman növləri üzrə idmançılar belə siyasətə qarşı artıq dəfələrlə qəti etirazlarla çıxış etmişlər.

Təhsil müəssisələrində oxuyan tələbələrə müvafiq **idman stipendiyalarının verilməsi** ABŞ idmançılarına dəstək proqramının mühüm komponenti kimi çıxış edir. Bu məqsədlə ABŞ Olimpiya Komitəsində idmançılara stipendiya verilməsi və köməklik göstətilməsi üzrə **xüsusi şöbə** yaradılmışdır. Proqramın realizasiyası ilə bağlı ABŞ Olimpiya Komitəsinin **smeta büdcəsində** milli idman federasiyaları tərəfindən verilən **dotasiyalar** da nəzərə alınmaqla xüsusi **vəsaitlərin ayrılması** müəyyənləşdirilir.

Olimpiya oyunlarına hazırlıqla əlaqədar əvvəlki iş yerində əməkhaqqından məhrum olan idmançılara **pul-ödəniş kompensasiyasının** verilməsini nəzərdə tutuan xüsusi proqramların tətbiqi geniş yayılmışdır.[1]

Kanadada 1970-ci ildə ölkənin idman elitasına yardım göstərilməsi barədə ilk dəfə olaraq hökumət proqramı təsis edilmişdir. Proqramın həyata keçirilməsi ilə **"Kanada İdmanı" Federal Departamenti** məşğul olur. Maddi yardım almağa

[1] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.438-444.

iddialı olan bütün idmançılar bir neçə **kateqoriyaya** bölünür (A, B, C, C-1, D):

- **A kateqoriyası** – dünyada fərdi idman növlərində səkkizliyə düşən ən yaxşı idmançılar və ya komanda zaçot yoxlamasında güclü dördlükdə yer alan idmançılar bu kateqoriyaya daxil edilir;
- **B kateqoriyası** – şəxsi zaçot yoxlamasında 9–16-cı yeri, komandada isə 5–8-ci tutan idmançılar bu kateqoriyaya aiddir;
- **C kateqoriyası** – mütəxəssislərin fikrincə yaxşı potensiala və yaxın gələcəkdə A və B kateqoriyalarına keçməyə ümid bəsləyən idmançılar bu kateqoriyaya malikdir;
- **C-1 kateqoriyası** – böyük idman yarışlarında birinci il iştirak edən idmançılar bu kateqoriyaya daxildir;
- **D kateqoriyası** – C kateqoriyasına yaxınlaşmaqda olan perspektivli gənc atletlər bu kateqoriyaya daxil edilir.

Göstərilən kateqoriyalarla yanaşı,1988-ci ildən R və G kimi əlavə kateqoriyalar da tətbiq edilir. **R kateqoriyasına** milli yığmanın tərkibinə daxil olmayan idmançılar aiddir, **G kateqoriyasına** isə yeniyetmə idmançı komandalar aiddir.

İdmançıların normal həyat şəraitini təmin etmək üçün əsas dotasiya növü kimi yardım proqramı vasitəsilə təyin edilən və **"bonus"** adlanan resuslardan istifadə olunur. Həmçinin universitet və kolleclərdə təhsil alan idmançılara **illik əlavə ödənişlər** nəzərdə tutulmuşdur. 1987-ci ilin sonunda Kanadada idmançılara və məşqçilərə stipendiya ödənilməsi üçün müvafiq **fond** təsis edilmişdir. Fonda rəhbərliyi milli olimpiya komitəsinin funksiyalarını yerinə yetirən **Kanada Olimpiya Assosiasiyası** həyata keçirir.[1] Sözügedən fond "Petro Kanada" şirkəti tərəfindən maliyyələşdirilir.

Avstraliyada idmançılara müvafiq yardım göstərilməsi üzrə təşəbbüs **"Nəbzi qorumaq"** adı ilə tanınan hökumət proqramı-

[1] Ətraflı bax: https://www.google.com/search?q= (14.02.2022-ci il).

na əsaslanır. Bu proqram çərçivəsində həmçinin Paralimpiya oyunlarında iştirak edən əlil-idmançılara da stipendiyalar verilir. Ümumiyyətlə, Avropa ölkələrində idmançılara yardım göstərilməsi üzrə proqramlar, əsasən, idmana kömək fondları tərəfindən həyata keçirilir.

Almaniyada idmançılara yardım göstərilməsi istiqamətində əsas proqramlar 1967-ci ildə yaradılmış **"Alman idmanına kömək"** adlı fondda cəmləşir. Fondun əsas məqsədi elit idmançıların hazırlanması və onların Olimpiya oyunlarında iştirak etməsi tədbirlərinin maliyyələşdirilməsindən ibarətdir. Fondun nizamnaməsində idmançılara pul vəsaiti formasında köməklik göstərilməsinin aşağıdakı növləri nəzərdə tutulmuşdur: əsas maliyyə dəstəyi; tələbələrə vəsait; qida üçün əlavə vəsait; məşq və yarışlarda iştirak etməklə əlaqədar nəqliyyat xərclərinin ödənilməsi; müxtəlif növ xidmətlərdən, o cümlədən tibbi, sığorta və digər xidmətdən istifadə ilə bağlı ödənişlər və s. Maddi yardım almağa iddialı olan bütün idmançılar A kateqoriyası (elit), B kateqoriyası (perspektiv idmançılar) və C kateqoriyası (yeniyetmələr) üzrə fərqləndirilir.[1]

Dünyanın digər ölkələrində də (məsələn, Avstriya, Böyük Britaniya, İsveçrə, Fransa və s.) idmançılara maddi yardım və dəstək göstərilməsinə dair optimal tədbirlər **hökumət səviyyəsində** formalaşmışdır.[2]

Bu kontekstdə **Azərbaycanın** təcrübəsinə, qısaca da olsa, nəzər salaq. Belə ki, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il) göstərilən sahədə münasibətlərin nizama salınmasında vacib rol oynayır. Adıçəkilən normativ hüquqi aktın bir sıra maddələri məhz

[1] Bax:https://studbooks.net/712854/turizm/vidy_gosudarstvennogo_ finansirovaniya_sporta_germanii (14.02.2022-ci il).

[2] Bu barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.450-454.

sözügedən münasibətlərin tənzimlənməsinə həsr edilmişdir (məsələn, maddə 51, maddə 54, maddə 57 – 60 və s.). Bu hüquq normalarında təsbit olunmuş müddəalar ölkəmizdə idmanın maliyyələşdirilməsi, sponsorluq fəaliyyəti, sosial təminatlar, idmançıların əməyinin qiymətləndirilməsi, tibbi təminat, sığorta və s. məsələlərin həllini əhatə edir.[1] Qanunla müəyyənləşdirilmişdir ki, bədən tərbiyəsi və idman Azərbaycan Respublikasının **dövlət büdcəsindən** ayrılan, bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsindən əldə olunan, idman lotereyasının, idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər, fiziki və hüquqi şəxslərin ianələri hesabına və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən maliyyələşdirilir (maddə 54). Habelə idmanın inkişafına, yüksək səviyyəli idmançıların və komandaların hazırlanmasına fiziki və hüquqi şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada **sponsorluq** etməsinə icazə verilir (maddə 57).

İdman sahəsində **sosial təminatlar** [2] istiqamətində dövlət yüksək nailiyyətlər idmanında xüsusi qabiliyyət nümayiş etdirmiş vətəndaşlara **aşağıdakı vasitələrlə** dəstək olur:

- olimpiya və paralimpiya oyunlarında iştirak hüququ qazanmış idmançılara müvafiq müddətə xüsusi **dövlət təqaüdləri** müəyyən edir;
- olimpiya, paralimpiya, deflimpiya, xüsusi olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında və onlara bərabər tutulan digər beynəlxalq yarışlarda iştirakın nəticələrinə görə **mükafatlar** müəyyən edir;
- beynəlxalq yarışlara hazırlıq və onlarda iştirakla bağlı digər **ödənişləri** həyata keçirir.

[1] Ətraflı bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu / C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.286-289; həmçinin http://www.e-qanun.az/framework/18303 (15.02.2022-ci il).

[2] Sosial təminat və onun hüquqi tənzimlənməsi barədə ətraflı bax: Əliyev M.N. Sosial təminat hüququ. Dərslik. Bakı: "Adiloğlu" nəşriyyatı, 2007, 464 s.

Qeyd olunanlarla yanaşı, bələdiyyə orqanları, Milli Olimpiya, Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri, respublika bədən tərbiyəsi-idman təşkilatları və idman birlikləri olimpiya oyunlarının, dünya və Avropa çempionatlarının qaliblərinə və mükafatçılarına, eləcə də yüksək idman adlarına malik idmançılara və mütəxəssislərə, milli yığma komandaların tərkibinə daxil olan idmançılara və onların məşqçilərinə **aylıq pul müavinətləri** təyin edə bilərlər (maddə 58).

Eyni zamanda, yüksək dərəcəli idmançıların və idman işçilərinin **əməyinin qiymətləndirilməsi** kontekstində qeyd edə bilərik ki, idman sahəsində göstərdikləri böyük xidmətlərə və əldə etdikləri yüksək nailiyyətlərə görə Azərbaycan Respublikasının vətəndaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada **xüsusi olimpiya təqaüdləri**, **fərdi təqaüdlər**, **dövlət mükafatları** və **fəxri adlar** verilə bilər (maddə 59).

Bədən tərbiyəsi ilə məşğul olan şəxslər, idmançılar, idman hakimləri, məşqçilər, bədən tərbiyəsi və idman sahəsində çalışan digər mütəxəssislər peşəkar (əmək) fəaliyyətləri ilə əlaqədar "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq **icbari qaydada sığorta** edilir.

İdmançıların **tibbi təminatı** ilə bağlı qeyd edə bilərik ki, bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərin tibbi təminatı anlayışı **aşağıdakı tədbirləri** ehtiva edir:

- idmançıların sağlamlığına mütəmadi nəzarət;
- idmançıların fiziki yükünün onların sağlamlıq vəziyyətinə uyğunluğunun qiymətləndirilməsi;
- idmançıların profilaktikası, aldıqları zədə və xəstəliklərin müalicəsi, onların tibbi reabilitasiyası;
- idmançıların sağlamlığının bədən tərbiyəsi və idman məşğələlərində istifadə edilən metod və vasitələrlə bərpası.

Bədən tərbiyəsi və idman tədbirlərinin təşkilatçıları normativ sənədlərlə müəyyən edilmiş müddətdə **tibbi müayinədən keçməyən**, yaxud tibbi müayinənin nəticələrinə görə bədən tərbiyəsi və idman tədbirlərində iştiraka buraxılmayan şəxslərin belə tədbirlərdə iştirakına yol verməməlidirlər.Təşkilatçılar tədbirlərin iştirakçılarını **tibbi xidmət** və **yardımla** təmin etməlidirlər.

Bədən tərbiyəsi və idmanla məşğul olan şəxslər **məcburi ilkin və dövri** tibbi müayinələrdən, eləcə də yarışlardan əvvəl tibbi müayinədən keçməlidirlər. Yalnız məcburi tibbi müayinədən keçmiş idmançılar **yarışlarda iştirak etmək hüququ** əldə edirlər. Müvafiq icra hakimiyyəti orqanı tibbi yardımla təmin edilməmiş idman yarışlarını və digər **idman tədbirlərini dayandırmaq**, həmçinin məcburi tibbi müayinədən keçməmiş şəxsləri təlim-məşq proseslərindən və bədən tərbiyəsi-idman tədbirlərindən **kənarlaşdırmaq hüququna** malikdirlər (maddə 51).

Təqdirəlayiq hal kimi qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 05.03.1995-ci il tarixli 293 nömrəli Fərmanı ilə **"Azərbaycan Respublikasının Prezidenti yanında İdman Fondu"** yaradılmışdır. Fondun əsas məqsədi əhali arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədi ilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaqdan ibarətdir.[1] Həmçinin gənclərin hərtərəfli inkişafını və cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədi ilə **"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Gənc-**

[1] https://www.mys.gov.az/qanunvericilik/frmanlar/19/idman-fondunun-yaradilmasi-haqqinda-azrbaycan-respublikasi-prezidentinin-frmani 18.02. 2022-ci il).

lər Fondu” təsis edilmişdir.[1] Eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.02.2000-ci il tarixli 25S nömrəli Sərəncamı ilə **”Bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı”** təsdiq olunmuşdur.

Ümumiyyətlə, müasir dövrdə fiziki tərbiyə və idman öz aktuallığını qoruyub saxlayır. **“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının** hazırlanması barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi sərəncam, xalqımızın gələcəyə istiqamətlənmiş siyasətinin vacib hissələrindən biridir. Bu kontekstdə Azərbaycan gənclərini sağlam və fəal həyat tərzinə təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədi ilə 2015 - 2025-ci illərdə Azərbaycan gənclərinin **İnkişaf Strategiyası**, habelə 2016 - 2020-ci illər üçün **Dövlət Proqramı**, bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2012 - 2020-ci illəri əhatə edən **Milli Strategiya** və digər perspektiv inkişaf proqramları hazırlanaraq həyata keçirilməkdədir.

Yuxarıda göstərilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, idmançılara maddi yardım göstərilməsi, onların sosial müdafiəsi, sağlamlığının qorunması, tibbi xidmət göstərilməsi, sığorta münasibətləri, müvafiq işlə təmin edilməsi, pensiya təminatı və digər təşkilati-hüquqi tədbirlər həm universal, həm regional, həm də milli (dövlətdaxili) **beynəlxalq idman-hüquq normaları** vasitəsilə effektiv şəkildə həyata keçirilir. Bunun da nəticəsində yarışlarda idmançıların daha uğurlu nailiyyətlər əldə etmələrinə **stimul yaranır** və bütövlükdə idmanın **intensiv inkişaf prosesləri** təmin olunur.

[1] Gənclər Fondu Azərbaycan Respublikası Prezidentinin 19.12.2011-ci il tarixli Fərmanı ilə yaradılmışdır. Bax: https://president.az/az/articles/view/3801 (18.02.2022-ci il).

7.4. İdman fəaliyyəti sahəsində əmək və sosial münasibətlərin tənzimlənməsində idmançı assosiasiyalarının və tətil hərəkatının rolu

Müasir dövrdə idman fəaliyyəti sahəsində idmançıların müvafiq **əmək və sosial hüquqları** əmələ gəlir. Bu hüquqlar, təbii ki, **insan hüquqları sisteminə** daxildir. Hər şeydən əvvəl, qeyd edək ki, **insan hüquq və azadlıqları** mühüm tənzimetmə obyekti kimi sivilizasiyanın əsas insani dəyərləri sırasına aiddir. Müxtəlif assosiasiyalar, kollektiv cəmiyyət və birliklər fərqli sosial imkanlara malik olsalar da, bütövlükdə bu kollektiv hüquq və azadlıqların aidiyyəti üzrə **təmin edilməsi** vacib öhdəlik sayılır.

İnsan hüquqlarının təsnifatı ilə bağlı professor Əmir Əliyev qeyd edir ki, **kollektiv hüquqlar** üçüncü nəsil insan hüquqları kateqoriyasına aid olmaqla həmrəylik hüquqları kimi də xarakterizə olunur və onların həyata keçirilməsi üçün əsas şərt **həmrəylik** prinsipidir.[1] Deməli, bu hüquqlar həm də birləşmək hüququ fenomenini ehtiva edir. **Birləşmək hüququ** cəmiyyətdə cərəyan edən istənilən xarakterli ictimai proseslərə əhəmiyyətli dərəcədə təsir göstərir və demokratik vətəndaş cəmiyyətinin inkişafı bu amildən daha çox asılıdır. Ona görə də birləşmək hüququ beynəlxalq və milli qanunvericilik səviyyəsində **reqlamentləşdirilərək hüquqi cəhətdən tənzimlənir.**

Göstərilən aspektlər **idman fəaliyyəti sahəsində** də əmək və sosial münasibətlərin nizama salınması prosesində idman-oyunçu assosiasiyalarının (birliklərinin) və tətil hərəkatının tənzimlənməsini zəruri edir. Bu münasibətlər özünü daha çox **peşəkar idman növündə** büruzə verir. İdman sferasında birləşmək hüququnun mahiyyətini, sadəcə olaraq, idmançıların ümumi maraqlarının təmin olunması və məqsədlərə çatılması istiqa-

[1] Ətraflı bax: Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «Nurlar» nəşriyyatı, 2019, s.106-128.

mətində könüllü birləşmələri imkanı kontekstində nəzərdən keçirmək lazımdır.

Peşəkar idmançılar bu gün daha çox olimpiya hərəkatına və olimpiya idman növünə aktiv şəkildə cəlb olunan idmançılardır; onlar muzdla işləyən və əməyini satan, eyni zamanda, öz müstəqilliyinin müəyyən bir seqmentini, eləcə də fiziki güc və sağlamlığının böyük hissəsini əməkhaqqı müqabilində özgəsinə verən işçilərdir. **İdman klub sahibləri** (işəgötürənlər) öz bizneslərinin gəlirliliyini müxtəlif yollarla artırmağa çalışırlar. Lakin peşəkar idmançılar, bəzən, klub sahiblərinin həddindən artıq tələblərinə qarşı müqavimət göstərə bilmirlər. Buna görə də, sahibkarlıq fəaliyyətinin digər sahələrində çalışan işçilər kimi, **idmançılar da öz hüquqlarının kollektiv şəkildə qorunması və işəgötürənlə danışıqlar aparılması** üçün birləşirlər. Bununla yanaşı, idmanda sferasında peşəkar idmançılardan ibarət birliklərin (assosiasiyaların, ittifaqların və s.) yaradılması prosesi ciddi etirazlara səbəb olub.

Üçüncü nəsil insan hüquqlarının, o cümlədən **kollektiv hüquqların təşəkkül tapması**, əsasən, İkinci Dünya Müharibəsindən sonrakı dövrə təsadüf edir. Belə ki, 1950-ci illərin ortalarında peşəkar komandaların gəlirləri artdıqca ABŞ idman-oyunçuları dərk etməyə başladılar ki, öz hüquqları uğrunda mübarizədə onlara təkcə assosiasiyalar deyil, həm də öz maraqlarını effektiv şəkildə qoruya biləcək **peşəkar ittifaqlar** lazımdır. İdmançıların birlik forması kimi yaradılan assosiasiyalar həm də **həmkarlar ittifaqları** adlanır. Belə qurumlar 1952-ci ildə beysbol idman növündə, 1956-cı ildə amerikan futbolunda, xokkeydə isə – 1967-ci ildə meydana çıxmışdır. Basketbolçular assosiasiyası 1950-ci illərin əvvəllərində yaradılsa da, əslində, 1962-ci ildə fəaliyyətə başlamışdır. Bu cür idman-oyunçu birliklərinin (assosiasiyaların) fəaliyyəti sayəsində peşəkar idmançılar tədricən öz **hüquqlarının bərqərar olmasını** qazandılar (yeni başlayan oyunçular üçün əməkhaqqının minimum həd-

dinin müəyyən edilməsi, sığorta, tibbi və pensiya təminatı və s.).[1]

Liqa oyunçuları assosiasiyalarının yaradılması müsbət nəticə versə də, hələ ki, oyunçular və klub sahibləri arasında **qarşılıqlı hüquqi münasibətlərin optimallaşdırılmasına nail olunmayıb**; hal-hazırda da bu problem mövcuddur və o qədər mürəkkəbləşib ki, məsələnin həlli vəkillərin, agentlərin aktiv dəstəyini tələb edir, həmçinin idman münaqişələrinin həlli üçün, bəzən, məhkəmə instansiyalarının cəlb edilməsi zəruri sayılır. Ümumiyyətlə, ABŞ-ın idman bazarı hələ də peşəkar idmançıların komanda sahibi və ya menecerdən **güclü asılılıq amili** ilə xarakterizə olunur. Kommersiya müqavilələri bağlanan zaman biznes iştirakçıları kimi idmançıların bir çox **hüquq və maraqlarına etinasızlıq göstərilməsi** davam edir.

Peşəkar idman növü üzrə oyunlarda idmançıların sərbəst icarəyə götürülməsi münasibətlərinin **taleyi** bu məsələnin müzakirəsi və həllində birliklərin (assosiasiyaların, ittifaqların və s.) əzmkarlığından və qətiyyətindən daha çox asılıdır; peşəkar idmançıların öz hüquqları uğrunda mübarizə aparmaq üçün gördüyü tədbirlər artıq son həddə - **tətil keçirilməsi** həddinə çata bilər.

Məlum olduğu kimi, kollektiv əmək mübahisələrinin həlli məqsədi ilə **tətil hüququ** kimi aksiyanın həyata keçirilməsi qanunvericiliklə nəzərdə tutulan tədbirdir. Belə ki, **tətil keçirilməsinin hüquqi əsasları** aşağıdakılardan ibarətdir:

1. İşçilərin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

2. Kollektiv əmək mübahisəsi yarandığı vaxtdan işçilərin və ya həmkarlar ittifaqları təşkilatının tətil etmək hüququ əmələ gəlir.

---

[1] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.458-470.

3. Əgər tərəflər mübahisənin həllinin dinc üsullarından istifadə edəcəkləri barədə razılığa gəlmişlərsə, onda bu üsullarla kollektiv əmək mübahisəsinin həllinə nail olunmadıqda tətilə yol verilir. İşəgötürən mübahisənin barışdırıcı üsullarla həllini əsassız olaraq uzatdıqda, habelə barışdırıcı üsullarla əldə edilmiş razılaşmaları yerinə yetirmədikdə əmək kollektivinin, həmkarlar ittifaqları orqanının birbaşa tətil keçirmək hüququ yaranır.

4. Tətildə iştirak etmək könüllüdür və s.[1]

İdman tarixinə qısa ekskurs etsək bəlli olur ki, Amerikada 1956-cı ildə yaradılan Milli Futbol Liqası Oyunçularının Assosiasiyası komanda sahiblərinə **ilk təşkilati iş tələbləri** irəli sürmüşdür – pensiya təminatının artırılması və oyunçuların idman paltarlarının yuyulması üçün ödənişin komandaların büdcəsi hesabına həyata keçirilməsi. Sonralar 1970-ci ildə oyunçular tərəfindən minimum əməkhaqqının müəyyən edilməsi, xüsusi pensiya fondunun yaradılması, futbolçuların bir komandadan digərinə sərbəst keçmə azadlığı kimi **digər tələblər** irəli sürüldü. Ancaq liqanın futbol komandalarının sahibləri bu tələbləri müzakirə etməkdən imtina etdi. Nəticədə, adıçəkilən assosiasiya 1970-ci ildə onları **tətillə hədələdi**; dörd gündən sonra komanda sahibləri bəzi güzəştlərə gedərək, o cümlədən **pensiya fondunun yaradılması** barədə qərar verdilər.

Amerika peşəkar futbolçularının öz hüquqları uğrunda mübarizəsinin **növbəti parlaq epizodu** 1982-ci ilin mart ayına təsadüf edir; həmin vaxt 28 liqa komandasından 537 oyunçu assosiasiyanın qurultayında toplaşaraq, müddəti üç aydan sonra

[1] Tətil hüququnun həyata keçirilməsi barədə ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s. (maddə 36); Azərbaycan Respublikasının Əmək Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2015, 256 s. (maddə 270-286); Azərbaycan Respublikasının Əmək Məcəlləsinin kommentariyası.Yenidən işlənilmiş nəşr / Kollektiv müəlliflər.Məsul redaktor- A.M.Qasımov. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, s.816-839.

bitəcək kontraktın əvəzinə **yeni kollektiv müqavilənin bağlanması** ilə bağlı məsələni müzakirəyə çıxardılar.Vaxtında görülmüş tədbirlər nəticəsində oyunçuların irəli sürdüyü tələblər bəyənildl və qurultayda assosiasiyanın əksər üzvləri tərəfindən dəstəkləndi.

Yeni kollektiv müqavilənin şərtlərinə dair keçirilən ilkin danışıqların vaxtı liqa tərəfindən futbol matçlarını yayımlamaq hüququ üçün milli teleşirkətlər ilə yüksək faydalı **televiziya kontraktının bağlanması** dövrü ilə üst-üstə düşdü. Beşillik televiziya müqaviləsi o dövrdə televiziya və idman tarixində **böyük məbləğdə rekorda** imza atdı və bununla da liqadakı hər komandaya əhəmiyyətli dərəcədə **zəmanətli illik gəlir** təmin edildi. Futbolçular və assosiasiyanın rəhbərləri idmançıların maaşlarının artırılması məsələsini həll etmək üçün yaranmış belə bir **əlverişli məqamı** diqqətdən qaçıra bilməzdilər.[1]

Deməli, Amerika futbolu tarixində, **ilk dəfə olaraq**, futbolçular klub sahiblərindən gəlirlərin onlarla ədalətli şəkildə bölüşdürülməsi məsələsini gündəmə gətirdilər ki, bu da assosiasiyanın tələblərində öz əksini tapdı. Birinci dəfə idi ki, futbolçular əsas şərt kimi assosiasiyanın nəzdində **mərkəzləşdirilmiş əməkhaqqı fondunun** yaradılmasını və liqadakı hər bir komandanın gəlirinin 55%-nin bu fonda ayrılmasını tələb etdilər. Assosiasiya ilə liqanın rəhbərlər şurası arasında aparılan **uğursuz danışıqlar** yeddi ay çəkdi və nəticədə 20 sentyabr 1982-ci ildə assosiasiyanın təxminən 1300 üzvünün razılığı ilə **tətil elan edildi**. Bu, peşəkar idman tarixində ilk tətil hadisəsi idi ki, maçtın açılış mərasimindən əvvəl deyil, məhz futbol mövsümü ərzində başladı. Tətilçilərin **əsas məqsədi** assosiasiya tərəfindən irəli sürülən tələblər nəzərə alınmaqla **kollektiv müqavilənin imzalanmasına** nail olmaq idi. Tətil 57 gün davam etdi, bundan sonra assosiasiyada 26 komanda nümayən-

[1] Ətraflı bax: https://studref.com/524906/pravo/rol_assotsiatsiy_igrokov_zabastovochnogo_dvizheniya_regulirovanii_trudovyh_sotsialnyh_otnosheniy_oblasti_ (19.02.2022-ci il).

dəsi irəli sürülən **təklifi qəbul etmək** üçün səs verərək **tətili dayandırmaq** qərarına gəldilər. Göründüyü kimi, tətilçilər sona qədər mübarizə apararaq **birlik** və **həmrəylik** nümayiş etdirdilər, öz hüquqları uğrunda mübarizə apararaq sonda qarşıya qoyduqları **məqsədə nail oldular**.

Qeyd etməliyik ki, göstərilən situasiya digər **idman fəaliyyəti sferasında** da (məsələn, beysbol, basketbol, xokkey və s.) baş vermişdir; həmin sahələrdə də əmək və sosial münasibətlərin nizama salınması prosesində **idman-oyunçu assosiasiyalarının** və **tətil hərəkatının** oynadığı rol, xüsusilə, vurğulanmalıdır.[1]

Müasir idman sferasında mövcud olan **"boykot" metodu** ciddi problem kimi qalmaqdadır. İlk növbədə, boykot anlayışının mahiyyətinə aydınlıq gətirək. Ensiklopedik lüğətlərdə göstərilir ki, ***boykot*** (ing. *boycott*) - ayrı-ayrı şəxslə, təşkilatla, birliklə, dövlətlə münasibətləri dayandırmaqdan ibarət siyasi və iqtisadı mübarizə üsuludur, etirazın dinc formasıdır və s.[2] Bu termin XIX əsrdə yaşamış ingilis Çarlz Boykottun (1832-1897-ci illər) adı ilə bağlıdır və istər sosial, istərsə də siyasi problemlərin dinc həll vasitəsi kimi qəbul olunur.

Dünya təcrübəsi göstərir ki, **beynəlxalq idman yarışlarında** da boykot aktından istifadə olunur. Baxmayaraq ki, müasir olimpiya hərəkatının yaradıcısı baron Pyer de Kuberten (fr. Pierre de Coubertin) tərəfindən hazırlanmış fundamental prin-

---

[1] Bu barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с. 464-472.

[2] Ətraflı bax: Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, с.93; Ожегов С. И. Словарь русского языка. М.: «Русский язык», 1988, с.46; Даль В.И. Толковый словарь живого великорусского языка. В 4 т. – М.:Рус.яз.,2002, Т.1, 699 с.; Azərbaycan dilinin izahlı lüğəti. 1 cild / Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "Çıraq" nəşriyyatı, 1997, s.159.

siplərdən biri **siyasətin olimpizmdən delimitasiyasıdır**. Olimpiya Xartiyasına əsasən, oyunlar zamanı irqi, dini və ya siyasi zəmində ölkələrə və ya şəxslərə qarşı heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Lakin Olimpiya oyunları formatında cərəyan edən dövlətlərarası siyasi mübarizənin qaçılmaz nəticələrindən biri müəyyən ölkələrə münasibətin (o cümlədən Beynəlxalq Olimpiya Komitəsi tərəfindən) **qeyri-obyektiv şəkildə** nümayiş etdirilməsidir. Bu cür hərəkətlərə siyasi etirazlar deyilir.

Olimpiya oyunlarına hazırlıq və ya onların keçirilməsi zamanı **siyasi etiraz** təşkilatçı-ölkəyə, beynəlxalq olimpiya hərəkatına və bütövlükdə dünya ictimaiyyətinə siyasi alət vasitəsi kimi göstərilən ciddi **mənəvi təzyiq tədbirlərindən** biridir. Olimpiada ilə bağlı siyasi etiraz iqtisadi sanksiyalar, embarqolar, müvafiq ölkə və ya ölkələrlə münasibətlərin siyasi soyuması kimi digər tədbirlərlə birləşdirilə və müşayiət oluna bilər.

Təşəbbüskarlıq səviyyəsindən və situasiyaya təsir etmək qabiliyyətindən asılı olaraq, **boykot** və ya **siyasi etiraz** növbəti Olimpiya oyunlarının hazırlanması və keçirilməsi zamanı BOK-un sənədlərində nəzərdə tutulmuş standartlara riayət olunmasından, ümumilikdə oyunlarda, fərdi yarışlarda, mərasimlərdə, həmçinin müəyyən milli komandaların oyunlara dəvət edilməsindən nümayişkaranə imtina ilə nəticələnə bilər. Etirazın **təşəbbüskarı** aşağıdakı subyektlər ola bilər:

- nüfuzlu fövqəlmilli strukturlar – BMT, BOK və digər beynəlxalq təşkilatlarla təmsil olunan beynəlxalq ictimaiyyət;
- rəsmi və ya qeyri-rəsmi hərbi-siyasi blokda birləşən müttəfiq dövlətlər qrupu;
- Milli Olimpiya Komitəsi (MOK) səviyyəsində olimpiya hərəkatında təmsil olunan ayrıca dövlət;
- bir qrup idmançı və ya fərdi qaydada ayrıca idmançı.

Beynəlxalq idman təcrübəsi göstərir ki, boykot və etiraz aktları həmişə olmuşdur və bu gün də mövcuddur. Tarixi mənbələrdə göstərildiyi kimi, Böyük Britaniyada IV Olimpiadanın

açılışında (1908-ci il), Antverpendə VII Olimpiya oyunları (1920-ci il), Berlində XI Oyunlar (1936-cı il), Melburnda Yay olimpiya oyunları (1956-cı il), Tokioda Olimpiada (1964-cü il), Meksikada Oyunlar (1968-ci il), Münhendə XX Olimpiada (1972-ci il), Monrealda XXI Olimpiya oyunları (1976-cı il), Moskvada XXII Olimpiya oyunları (1980-ci il), Los-Ancelesdə Yay olimpiya oyunları (1984-cü il), Seulda Yay olimpiya oyunları (1988-cı il), Barselonda XXV Oyunlar (1992-ci il), Sidneydə XXVII Olimpiya oyunları (2000-ci il), Solt-Leyk Sitidə Afinada XXVIII Olimpiada (2004-cü il), Pekində XXIX Olimpiya oyunları (2008-ci il), Soçidə Qış olimpiya oyunları (2014-cü il), Qış olimpiya oyunları (2018-ci il), Tokioda XXXIV Yay olimpiya oyunları (2020-ci il) və Pekində Qış olimpiya oyunları (2022-ci il) zamanı belə aktların həyata keçirilməsinə mütəşəkkil səylər göstərilmişdir.[1] Lakin, bütün oyunlar baş tutmuşdur.


Ən son Pekin Qış olimpiya oyunları (2022-ci il) ilə bağlı qeyd etmək lazımdır ki, məsələn, ABŞ ölkəsi Çində Qış olimpiya və Paralimpiya oyunlarının keçirilməsinə qarşı **diplomatik səviyyədə boykot elan** etmişdir. Həmçinin Avstraliya dövləti də boykota qoşulması barədə **bəyanat** yaymışdır. Avstraliyanın hökumət rəsmisi belə bir qərarın Çinin Sincan Uyğur Muxtar Bölgəsindəki insan haqları pozuntuları və Avstraliyanın davamlı olaraq gündəmə gətirdiyi bir çox başqa mövzular səbəbiylə verildiyini bildirib; həmçinin Avstraliyanın ikitərəfli danışıqlara açıq olduğunu və Çin tərəfini qarşılıqlı münasibətləri yaxşılaşdırmaq imkanlarını rədd etməkdə günahlandırıb. Qeyd edək ki, Avropa Parlamenti də Pekin Olimpiadasını tamamilə boykot etməyə çağırış edib.[2] Bütün bu siyasi motivlərlə bağlı iddialara baxmayaraq, xatırladaq ki, 2022-ci il Qış Olimpiya Oyunları Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən göstərilən səylər nəticəsində fevralın 4–20-də Çinin pay-

[1] Bax: https://ru.wikipedia.org (20.02.2022-ci il).
[2] Bax: https://xalqqazeti.com/mobile/az/news/91497 (22.02.2022-ci il).

taxtı Pekində baş tutmuşdur, Paralimpiya Oyunları isə martın 4–13-də uğurla keçirilmişdir.

Qeyd olunanları nəzərə alaraq, hesab edirik ki, idman sferasında boykot və etiraz aktları ilə bağlı **əmək və sosial münasibətlərin hərtərəfli şəkildə optimallaşdırılması** istiqamətində zəruri kompleks idman-hüquq normalarının qəbul edilməsinə təşəbbüs göstərilməsi BİH elminin (doktrinanın) qarşısında duran mühüm, prinsipial vəzifələrdən biridir.

VII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



VIII FƏSİL.
İDMAN SAHƏSİNDƏ BEYNƏLXALQ VERGİ MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

8.1. İdman sahəsində vergitutmanın beynəlxalq-hüquqi tətbiqi

Məlum olduğu kimi, beynəlxalq münasibətlər öz xarakterinə və məzmununa görə son dərəcə müxtəlifdir. Fəaliyyət predmeti baxımından həmin münasibətlər bir neçə növə bölünür ki, **beynəlxalq vergi münasibətləri** də onların tərkibinə daxildir. Qeyd etmək vacibdir ki, beynəlxalq vergi münasibətlərinin hüquqi tənzimlənməsinin həm beynəlxalq iqtisadi əlaqələrin, həm də ölkələrin milli iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyəti vardır. Həmin münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi isə, müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir; çünki dövlətlərarası vergi münasibətləri beynəlxalq iqtisadi hüquq normaları ilə nizama salınan məsələlərdən biridir.[1] Məhz həmin normaların sistemi beynəlxalq vergi hüququ adlanır. **Beynəlxalq vergi hüququ** dedikdə vergi sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.

Beynəlxalq iqtisadi əlaqələrin inkişafında vergi münasibətlərinin vacib rol oynaması şəksizdir. Bunu xüsusilə qeyd etmək lazımdır ki, vergi münasibətləri **iqtisadi sferaya birbaşa təsir etmək** xüsusiyyətinə malikdir, eləcə də beynəlxalq sosial-iqtisadi, işgüzar və təsərrüfat əlaqələri prosesində vergi ilə bağlı yaranan məsələlərin həlli vergi münasibətlərinin beynəlxalq səviyyədə hüquqi tənzimlənməsini zərurətə çevirir. Vergi münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsini həm də elə vacib faktoru **şərtləndirir** ki, xarici ölkələrdə müəyyən bir dövlətin şəxsləri vergitutma sahəsində əlverişli rejimlə təmin edilməlidir. Beynəlxalq iqtisadi münasibətlər prosesində vergi

[1] Bax: Бирюков П.Н. Международное право. Учебное пособие. М., 2006, с.607-608.

ilə bağlı yaranan məsələlər məhz beynəlxalq vergi hüququnun vasitə və köməyi ilə həll edilir. Beynəlxalq vergi hüququ əsasında **vergitutma sahəsində dövlətlərarası beynəlxalq əməkdaşlıq** həyata keçirilir.[1]

Vergi-hüquq münasibətləri,təbii ki, **idman fəaliyyəti sferasında** da əmələ gəlir və bu məsələlərin hüquqi cəhətdən nizama salınması beynəlxalq idman hüququnun üzərinə düşür. Bu məqsədlə BİH-in **xüsusi hissəsinin** tərkibində "İdman sahəsində beynəlxalq vergi münasibətlərinin tənzimlənməsi" adlı **hüquq institutu** formalaşmışdır.[2]

Hər şeydən əvvəl, qeyd edək ki, verginin özü, hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, **vergi-hüquq münasibətlərinin obyekti** sayılır.[3] **Vergi** dedikdə isə fiziki və hüquqi şəxslərin gəlirlərinin həcminə görə qanunla müəyyən edilmiş normaya uyğun olaraq, dövlət və ya yerli hakimiyyət orqanlarına əvəzsiz ödənilən **pul vəsaiti** başa düşülür. Başqa sözlə, vergi – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində büdcəyə köçürülən **məcburi**, **fərdi**, **əvəzsiz** ödənişdir.

Vergilərin müəyyən edilməsi üçün **əsas şərtlər** mövcuddur. Belə ki, bu zaman vergi ödəyicisi və aşağıdakı **vergitutma elementləri** müəyyən edilməlidir: vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanma qaydası, verginin ödənilmə qaydası və müddəti. Vergi qanunvericili-

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.620-621.

[2] Bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.614-619.

[3] Ətraflı bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.478-479; Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2013, s.63-64; Mirzəyeva A.Q. Azərbaycan Respublikasının vergi hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, s.152-153 və b.

yində nəzərdə tutulduğu kimi, **vergitutma bazası** – vergitutma obyektinin vergi tutulan hissəsinin kəmiyyətcə ifadə formasıdır.[1]

Müasir dövrdə vergini elmi-nəzəri və praktiki cəhətdən xarakterizə edən **əlamətlər** də müəyyənləşdirilmişdir. Hüquq ədəbiyyatında bu əlamətlər sırasında aşağıdakılar göstərilir:

1) vergi şəxslərdən məcburi surətdə alınan pul vəsaitidir;
2) vergi şəxslərdən əvəzsiz alınan pul vəsaitidir;
3) vergi pul formasında ödənişdir;
4) vergi geri qaytarılmayan pul ödənişidir;
5) vergi dövlət və yerli büdcələrə daxil olan pul ödənişidir;
6) vergi hüquqi əsası olan ödənişdir;
7) vergi faktiki əsası olan ödənişdir.[2]

Sadalanan bu kimi əlamətlər vergini digər pul ödəniş formalarından fərqləndirməyə imkan verir.[2]

Eyni zamanda, qeyd etməliyik ki, **vergitutma** dövlət suverenliyi funksiyalarından biri olmaqla dövlətin müstəsna səlahiyyətinə aiddir və milli qanunvericiliklə tənzimlənir. İdman sahəsində fəaliyyətin iqtisadi cəhətdən həvəsləndirilməsini təmin etmək üçün bir çox ölkələrin qanunvericilik aktlarında **idman sferasında münasibətlərin həyata keçirilməsində müxtəlif vergi güzəştləri** nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikasında "Bədən tərbiyəsi və idman haqqında" Qanunla (2009-cu il) müəyyən edilmişdir ki, idman sahəsində vergi və gömrük fəaliyyəti qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Milli yığma komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlı-

[1] Bu məsələlər barədə daha ətraflı bax: məsələn, Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul - B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi", 2019, 442 s. (maddə 11,12).

[2] Bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.479.

[2] Ətraflı bax: məsələn, Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, s.197.

ğı, texnikası və malları **gömrük rüsumundan azaddırlar** (maddə 56).[1] Həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən vergi güzəştləri və azadolmalar nəzərdə tutulmuşdur (məsələn, maddə 102, 106, 164, 199 və s.).

Portuqaliyada İdman haqqında Qanunla (1990-cı il) bir sıra idman təşkilatlarına, o cümlədən milli və regional federasiyalara, eləcə də MOK-lara **"ictimai faydalı təşkilat"** kimi xüsusi status verilmişdir ki, bu da onlara müəyyən **vergi güzəştləri** nəzərdə tutur. Bu modelə görə, bir çox ölkələr (Almaniya, İspaniya, Finlandiya və s.) öz idman təşkilatlarına belə statusun verilməsi praktikasından istifadə edirlər. İtaliya ölkəsində də "Həvəskar idman fəaliyyətindən əldə edilən gəlirlərdən vergitutma haqqında" Qanun (1986-cı il) idmançılar üçün bir sıra **vergi imtiyazları** müəyyən edir. Dövlət marağı və iqtisadi dəstək kontekstində digər ölkələrdə də (məsələn, Rusiya, Nigeriya, Türkiyə, Çin və s.) **idman fəaliyyətinin inkişafı naminə** belə təcrübədən uğurla istifadə edilir.[2]

Müasir ölkələrdə idmanın inkişafında **sponsorluq fəaliyyətinin** payı durmadan artır. İdman sponsorluğunun perspektivləri daha çox onun milli hüquqi tənzimlənməsindən və xüsusən də **vergitutma məsələsindən** asılıdır. Belə ki, idmanın inkişafına, yüksək səviyyəli idmançıların və komandaların hazırlanmasına fiziki və hüquqi şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada sponsorluq etməsinə icazə verilir.

İdman sahəsində vergitutma məsələləri üzrə beynəlxalq-hüquqi sənədlər iştirakçı-dövlətlər üçün **çərçivə qaydaları** müəyyən edə bilər. Məsələn, MDB-yə üzv dövlətlərin Par-lamentlərarası Assambleyasının 19-cu plenar iclasında 26.03.2002-ci il tarixli 19-8 nömrəli qətnamə ilə qəbul edilmiş **Milli idman**

[1] Bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu / C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.288.

[2] Qeyd edilənlər barədə ətraflı bax: https://studref.com/524926/pravo/regulirovanie_problem_dvoynogo_nalogooblozheniya_sfere_mezhdunarodnyh_sportivnyh_otnosheniy (07.03.2022-ci il).

növləri haqqında Model Qanunu nümunə çəkə bilərik. Belə ki, Qanun MDB-nin üzv-ölkələrində milli idman növlərinin inkişafının hüquqi, sosial və iqtisadi əsaslarını müəyyən edir, dövlət orqanlarının, mülkiyyət növündən asılı olmayaraq müəssisələrin, idarələrin, təşkilatların, habelə vəzifəli şəxslərin əhalinin sağlamlığının milli idman növləri vasitəsi ilə möhkəmləndirilməsi işində iştirakını tənzimləyir. Adıçəkilən Model Qanunun **26-cı maddəsinə** əsasən, MDB-yə üzv-dövlətlərdə milli idman növləri üzrə çempionatların, kubok oyunlarının və digər dövlət səviyyəli yarışların keçirilməsi üçün təşkilatlar və sponsorlar tərəfindən göstərilən maddi yardımlar, habelə idman tədbirlərindən əldə edilən vəsaitlər **gəlir vergisindən azad edilir.**[1] Fiziki şəxslərin **vergitutma obyekti olan ümumi gəlirinə** aşağıdakılar daxil edilmir:

- milli idman növləri üzrə idmançıların və idman təşkilatları əməkdaşlarının təlim-məşq prosesi və idman yarışlarında iştirak üçün aldığı ərzaq-qida vasitələrinin, idman ləvazimatlarının, avadanlıqların, idman və geyim formalarının dəyəri;
- çempionatlarda, kuboklarda, digər dövlət miqyaslı yarışlarda və beynəlxalq yarışlarda qalib və mükafatçı yerləri tutduqlarına görə idmançıların hökumət qərarları əsasında bu idman yarışlarının təşkilatçılarından aldıqları pul, priz və mükafatlar.

Lakin, idman sahəsində müvafiq vergi-hüquq münasibətlərinin tənzimlənməsi üçün konkret iştirakçı-ölkələrdə bu qaydalar (hüquq normaları) onların **milli qanunvericilik aktları** ilə qəbul edilməlidir.

Eyni zamanda, beynəlxalq idman sahəsində işgüzar əlaqələr prosesində, eləcə də belə kommunikativ münasibətlər sferası genişləndikcə **vergitutma ilə bağlı beynəlxalq-hüquqi tən-**

[1] Ətraflı bax: https://base.garant.ru/2569411/ (07.03.2022-ci il).

zimləməni tələb edən daha çox problemlər yaranır [1]. Bu kontekstdə problemləri ümumiləşdirərək, onları **iki əsas kateqoriya** üzrə qruplaşdırmaq olar:

- beynəlxalq idman münasibətləri sferasında ikiqat vergitutmanın tənzimlənməsi;
- xaricdə fəaliyyət göstərən idman təşkilatları və idmançılar üçün vergitutmanın əlverişli rejiminin təmin edilməsi.

8.2. Beynəlxalq idman münasibətləri sferasında ikiqat vergitutmanın tənzimlənməsi

Müasir dövrdə beynəlxalq idman fəaliyyəti sahəsində **ikiqat vergitutmanın aradan qaldırılması** ilə bağlı yaranan mü-nasibətlərin hüquqi tənzimlənməsinə xüsusi diqqət yetirilir. Belə ki, ikiqat vergitutma beynəlxalq sahibkarlıq fəaliyyətinin inkişafına və xarici kommersiya əməliyyatlarının aparılmasına mane olur, inteqrasiya proseslərinə, habelə ticarət, investisiya, idman və digər sahələrdə beynəlxalq münasibətlərə, bir sözlə, beynəlxalq iqtisadi münasibətlərin dinamikasına mənfi təsir göstərir. Bu səbəbdən beynəlxalq iqtisadi münasibətlərdə subyekt qismində iştirak edən hər bir dövlət ikiqat vergitutmanın aradan qaldırılmasında maraqlıdır. Bu marağı təmin etmək üçün isə, təbii ki, ikiqat vergitutmanın dövlətlərarası səviyyədə beynəlxalq-hüquqi tənzimlənməsi həyata keçirilməlidir. Belə vəzifəni yerinə yetirmək funksiyası beynəlxalq vergi hüququnun, eləcə də beynəlxalq idman hüququnun üzərinə düşür.

[1] Bax: Blackshaw İ., Hoqq G. Sport Marketing Europe. The Legal and Tax Aspects Deventer. Boston: Kenwer Law and Taxation Publ., 1996; European Union Law and sport. European Academy of sport, 1997. https://www.google.com/search?q=Blackshaw+%C4%B0.,+Hoqq+G.+Sport+Marketing+Europe.+The+Legal+and+Tax+Aspects+Deventer.+Boston:+Kenwer+Law+and+Taxation+Publ.,+1996;+European+Union+Law+and+sport.+European+Academy+of+sport,+1997 (17.03.2022-ci il).

Başqa sözlə, beynəlxalq iqtisadi hüququn yarımsahələri olan beynəlxalq vergi hüququ və beynəlxalq idman hüququnun qarşısında duran əsas vəzifələrdən biri ikiqat vergitutma münasibətlərini kompleks şəkildə tənzimləməkdən ibarətdir.[1]

Məlum olduğu kimi, hər hansı dövlətin hüquqi şəxsləri başqa ölkədə **idman-kommersiya (sahibkarlıq) fəaliyyəti** ilə məşğul ola və bu fəaliyyətdən gəlir əldə edə bilər. Həmin dövlətin vətəndaşı olan fiziki şəxslərin xarici ölkələrdə idman fəaliyyəti ilə məşğul olub əməkhaqqı şəklində **gəlir götürmələrinə** tez-tez hallarda təsadüf olunur. Bundan başqa, onlar xaricdə müəlliflik qonorarı (haqqı), miras əmlak və digər formalarda gəlir əldə edə bilərlər. Hər bir şəxs hansı qanuni mənbədən əldə etməsindən asılı olmayaraq, götürdüyü gəlirdən **dövlət büdcəsinə vergi** ödəməlidir. Bu, istənilən dövlətin daxili (milli) vergi qanunvericiliyinin əsas və başlıca prinsipi sayılır. Buna görə də, müəyyən bir dövlətin şəxsi (fiziki və hüquqi şəxsləri) xarici ölkə ərazisində gəlir əldə edəndə həmin ölkənin vergi qanunvericiliyinə uyğun olaraq, müvafiq vergi ödəməlidir. Bu dövlətin şəxsləri həm də, eyni zamanda, öz dövlətinin vergi qanunvericiliyinin tələbi ilə xaricdə əldə etdiyi gəlirdən vergi ödəmək vəzifəsi daşıyırlar. Belə qaydada vergi ödənilməsi ikiqat vergitutma adlanır.

İkiqat vergitutma dedikdə vergi ödəyicisindən onun əldə etdiyi gəlirdən (vergitutma obyektindən) eyni zamanda iki və ya daha çox dövlətin büdcəsinə eyni növ vergi alınması başa düşülür.

Eyni zamanda, qeyd etməliyik ki, vergi hüququnun özünəməxsus prinsiplərindən biri də **ikiqat vergitutmaya yol verilməməsi prinsipidir**. Bu prinsipə görə, eyni bir mənbədən iki dəfə vergi alına bilməz. Həmin prinsip Vergi Məcəlləsində ifadə olunmuşdur (VM, maddə 3.5). Burada deyilir ki, heç bir şəxs

[1] Bu məsələlər barədə ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.620-625.

əldə etdiyi mənfəətdən (gəlirdən) **eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz**.[1]

İkiqat vergitutmanın yaranma səbəbi bundan ibarətdir ki, vergitutma **dövlətlərin müstəsna səlahiyyətlərinə** aid olan məsələdir. Buna görə də, həmin məsələni dövlətdən başqa hər hansı digər subyekt həll edə bilməz. Məhz bu səbəbdən ikiqat vergitutma ilə əlaqəli problem dövlətlərin daxili (milli) vergi qanunvericiliyi ilə tənzimlənir. Vergitutma həm də dövlət suverenliyinin ifadə formalarından biridir. Odur ki, bu kimi səbəblər hər bir müstəqil dövlətin idman fəaliyyəti sferasında da **beynəlxalq ikiqat vergitutma** münasibətlərinin yaranmasına gətirib çıxarır.

Qeyd etməliyik ki, **idman sahəsində ikiqat vergitutma** bir dövlətin rezidenti (müəyyən növ idman fəaliyyətinin təşkili ilə məşğul olan fiziki və ya hüquqi şəxs) hər hansı gəlir əldə etdikdə (istər sahibkarlıq fəaliyyəti, istərsə də əmək haqqı, rüsum və s.) və ya vergi tutulan daşınmaz əmlaka sahib olduqda **baş verə bilər**. Bu o deməkdir ki, həmin idman rezidentinin üzərinə bu və ya digər şəkildə başqa dövlətlərdə onların vergi qanunlarına uyğun olaraq **vergi ödəmək öhdəliyi** düşür. Eyni zamanda, idman rezidentləri öz dövlətlərinin vergi qanunvericiliyinə əsasən, həmin dövlətə eyni əsaslarla (ratione materiae) **vergi ödəmək vəzifəsi** daşıyırlar.

Beynəlxalq hüquqda ikiqat vergitutma probleminin qarşılıqlı həlli üçün İkiqat vergitutma haqqında 1979-cu il BMT Model Konvensiyası mövcuddur. Lakin, buna baxmayaraq, qeyd etməliyik ki, **universal səviyyədə** ümumqəbuledilmiş beynəlxalq **hüquqi prinsip və normalar** hələlik tam və qəti şəkildə formalaşmamışdır. Ancaq sözügedən problemin nizama salınması istiqamətində praktikada bəzi regional **çoxtərəfli sazişlərə**, əsasən, istifadəsi geniş yayılmayan ikiqat vergitutma müqavilə-

[1] Ətraflı bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.484-485.

lərinə rast gəlinir; misal olaraq "And qrupu"[1] ölkələri arasında imzalanmış müvafiq konvensiyalar, keçmiş "QİYŞ" təşkilatının[2] fəaliyyəti dövründə üzv-ölkələr arasındakı əvvəlki konvensiyalar, eləcə də "Şimal ölkələri" [3] arasında bağlanmış konvensiyalar göstərilə bilər.

Bununla yanaşı, eyni zamanda, dünyada ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı yüzlərlə **ikitərəfli sazişlər** bağlanıb. Bir çox belə saziş Rusiya ilə digər ölkələr, o cümlədən Aİ ölkələrinin əksəriyyəti, ABŞ, Azərbaycan,Yaponiya, Çin, Hindistan, İsrail, Kanada, İsveçrə və s. ölkələr arasında da qüvvədədir.[4]

Toxunulmuş məsələ ilə bağlı qeyd etməliyik ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli sazişlərin

---

[1] AND Qrupu 1969-cu ilin mayında Boliviya, Kolumbiya, Peru, Çili və Ekvador arasında Kartahen Sazişinə uyğun olaraq yaradılmışdır.1973-cü ildə Venesuela da bu Pakta qoşulmuşdur. Hal-hazırda AND Qrupu AND Ümumi Bazarı adlanır.Ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.191-192.

[2] Məlumat üçün qeyd edək ki, Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) 18.01.1949-cu ildə yaradılmışdır. Lakin ötən əsrin sonlarında QİYŞ üzvü olan ölkələr (Bolqarıstan, Macarıstan, Vyetnam, Kuba, Monqolustan, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya) 28.06.1991-ci il tarixdə Budapeştdə Şuranın 46-cı sessiyasının iclasında təşkilatın buraxılması haqqında Protokol imzaladılar. Bununla da, eyni zamanda, sosialist iqtisadi inteqrasiyası tarixə qovuşaraq başa çatdı. Göstərilənlər barədə ətraflı bax: https://ru.wikipedia.org/wiki/ (18.03.2022-ci il).

[3] Söhbət 1952-ci ildə təsis edilmiş Şimal ölkələri parlamentarilərinin əməkdaşlıq təşkilatından gedir. Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç, eləcə də üç muxtar vilayətin (Aland adaları, Qrenlandiya və Farer adaları) iştirakı ilə yaradılmış bu birlik dünya formatında daha çox inkişaf etmiş regional əməkdaşlıq təşkilatıdır. Ətraflı bax: http://council.gov.ru/activity/crosswork/dep/85/ (18.03.2022-ci il).

[4] Bu barədə daha ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с. 422-423.

məzmunu forma baxımından və hüquqi cəhətdən təxmini olaraq eynidir. Göstərilən sazişlərdə, bir qayda olaraq, **iki əsas məsələ** öz həllini tapır. **Birinci əsas məsələ** ondan ibarətdir ki, hansı növ vergilərə münasibətdə ikiqat vergitutma aradan qaldırılır. Başqa sözlə, **hansı vergi növlərindən ikiqat vergi tutulmasına yol verilməməsini müəyyənləşdirmək** sözügedən ikitərəfli sazişlərin məzmununu təşkil edən əsas məsələlərdən biridir.

İkiqat vergitutma haqqında ikitərəfli beynəlxalq sazişlər, adətən, aşağıdakı **vergi növlərinə** münasibətdə ikiqat vergitutmanı aradan qaldırır:

- fiziki şəxslərdən tutulan gəlir vergisi;
- müəssisələrdən tutulan mənfəət vergisi;
- əmlak vergisi.

İkiqat vergitutma, bir qayda olaraq, gəlirlərə və əmlaka münasibətdə aradan qaldırılır. Məsələn, 1997-ci ildə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında **gəlirə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması** haqqında ikitərəfli saziş bağlanmışdır. 2004-cü ildə Azərbaycan Respublikası və Belçika arasında bağlanan ikitərəfli saziş də **gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmaya** yol vermir. Ümumiyyətlə, Azərbaycan Respublikası Böyük Britaniya, Norveç, Qazaxıstan, Gürcüstan, Ukrayna və digər ölkələrlə də belə sazişlər imzalamışdır.[1]

İkiqat vergitutma haqqında ikitərəfli beynəlxalq sazişlərin məzmununu təşkil edən **ikinci əsas məsələ** bundan ibarətdir ki, **vergi hansı dövlətdə ödənilməlidir.** Verginin ödənilməli olduğu dövlət isə **aşağıdakı meyarlara** görə müəyyən edilir:

- ərazi meyarı;
- rezidentlik meyarı.

[1] Ətraflı bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı: «Hüquq Yayın Evi», 20 21, s.369.

Ərazi meyarının mahiyyəti bundan ibarətdir ki, daşınmaz əmlak hansı dövlətin ərazisindədirsə, həmin əmlaka görə vergi bu dövlətin büdcəsinə ödənilməlidir. Belə ki, daşınmaz əmlakın olduğu (yerləşdiyi) dövlətin vergi qanunvericiliyi tətbiq edilir və vergi tutulur. Ərazi meyarının əsasında **«lex rei sitae» prinsipi**, yəni «əşyanın olduğu yerin qanunu» durur.

Ərazi meyarına görə, xarici dövlət ərazisində olan daşınmaz əmlakın mülkiyyətçisi özünün vətəndaşı olduğu (daimi yaşadığı) ölkənin dövlət büdcəsinə həmin əmlaka görə vergi ödəmir. Bu yolla ikiqat vergitutma aradan qaldırılır.

Rezidentlik meyarına görə isə, müvafiq vergi konkret vergi ödəyicisinin daimi olduğu yerdə (dövlətdə) tutulur. Vergi ödəyicisi dedikdə, bildiyimiz kimi, ya fiziki, ya da hüquqi şəxs başa düşülür (fiziki şəxs gəlir vergisi, hüquqi şəxs isə mənfəət vergisi ödəyir). Fiziki şəxsin daimi olduğu yer onun daimi yaşadığı yerdir; hüquqi şəxsin daimi olduğu yer isə onun qeydiyyat yeridir. Fiziki şəxs hansı dövlət ərazisində daim yaşayış yerinə malikdirsə, gəlir vergisini də həmin dövlətdə ödəyir. Hüquqi şəxs hansı dövlətdə qeydiyyata alınmışdırsa, o dövlətdə mənfəət vergisi ödəməlidir. Buna görə də rezidentlik meyarının əsasında **«lex domicilii» prinsipi**, yəni "yaşayış yerinin qanunu" durur.[1]

Hüquq ədəbiyyatı səhifələrində, haqlı olaraq, göstərildiyi kimi, idman fəaliyyəti sferasında **ikiqat vergitutmanın tənzimlənməsi** barədə bağlanılmış əksər ikitərəfli dövlətlərarası müqavilələr sözügedən iki əsas prinsipə – " lex rei sitae" prinsipi və " lex domicilii" prinsipinə əsaslanır.[2]

Qeyd edilənlərlə yanaşı, praktikada verginin ödənilməli olduğu dövləti müəyyənləşdirmək üçün **digər meyarlardan** da istifadə oluna bilər. Belə ki, Türkiyə Respublikası ilə Azərbay-

---

[1] Bax: Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, с.428.

[2] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.616-617.

can Respublikası arasında gəlirlərin ikiqat vergiyə cəlb olunması hallarının qarşısının alınması haqqında bağlanılmış müvafiq ikitərəfli sazişdə göstərdiyimiz meyarlardan əlavə, digərləri də nəzərdə tutulur:

- **idarəetmə yeri** – bu o deməkdir ki, hüquqi şəxsin əsas idarəetmə orqanı hansı dövlətin ərazisindədirsə, müvafiq vergi də həmin dövlətin büdcəsinə ödənilməlidir;
- **sıx bağlı olmaq –** yəni vergi ödəyicisi olan şəxs hansı dövlətə daha sıx bağlıdırsa, müvafiq vergi də həmin dövlətin büdcəsinə ödənilməlidir;
- **qarşılıqlı razılıq** - əgər göstərilən meyarlar əsasında vergi ödənilməli olan dövləti müəyyənləşdirmək mümkün deyilsə, onda məsələ vergi orqanlarının qarşılıqlı razılığı ilə həll edilir (bu meyarın əsasında **"lex voluntatis" prinsipi** , yəni "tərəflərin iradə sərbəstliyi" prinsipi durur).

İdman sferasında müvafiq fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərdən (idmançılar, məşqçilər, komandalar, idman klubları və s.) **vergi tutulması qaydaları**, habelə **ikiqat vergitutmanın aradan qaldırılması məsələsi** hər bir ölkənin vergi qanunvericiliyi ilə tənzimlənir. Bu kontekstdə, məsələn, **Azərbaycan Respublikasında** idman-vergi münasibətlərinin nizama salınmasında 2000-ci ildə qəbul edilmiş **Vergi Məcəlləsi** (VM)[1] və digər normativ hüquqi aktlar əhəmiyyətli rol oynayır.

Belə ki, vergitutma üçün bazanın – **gəlirin dəqiqləşdirilməsi** üçün xüsusi qayda müəyyənləşdirilmişdir. Adıçəkilən məcəlləyə görə, fiziki şəxsin aldığı və vergi qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasında ödəmə mənbəyindən vergi tutulmuş dividend, faiz, icarə haqqı, royalti, daşınmaz əmlakın təqdim edilməsindən əldə edilən gəlirlər, lotereyalardan və idman mərc oyunlarından əldə edilən uduşlar

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2019, 442 s.

ümumi gəlirdən çıxılır (VM, maddə 100). Məcəllədə həmçinin vergitutma dərəcəsi ilə bağlı **ayrıca norma** (kvota) təsbit olunmuşdur ki, idman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən (Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, lotereyalardan, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) **10 faiz dərəcə** ilə vergi tutulur (VM, maddə 101.5).

Fiziki şəxslərin aşağıdakı gəlirlərinin **gəlir vergisindən azad olmaları** barədə xüsusi norma ehtiva olunur (VM, maddə 102.1.15):

- yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri;
- beynəlxalq yarışlarda və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, respublika, şəhər və rayon yarışlarında və müsabiqələrində isə – 200 manatadək hissəsi.

Qeyri-rezidentin gəlirindən ödəmə **mənbəyində vergi tutulması** isə belə tənzimlənir: idman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən 10 % dərəcə ilə vergi hesablanır (VM, maddə 125.1.8).

Vergi Məcəlləsinin 125.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı **ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə** vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma nəzərdə tutulduğu halda, ödəmə mənbəyində artıq tutulmuş vergi məbləği qanunvericiliklə müəyyən edilmiş qaydada geri qaytarılır.

Fiziki və hüquqi şəxslər tərəfindən **xarici ölkədə ödənilən vergilər** də hesaba alınır. Belə ki, rezidentin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan mənbəyindən

olmayan gəlirindən ödənilmiş gəlir vergisinin və ya mənfəət vergisinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır (VM, maddə 127).

Vergi qanunvericiliyi ilə ödəmə mənbəyində **verginin tutulmasına dair xüsusi qayda** müəyyən edilmişdir (VM, maddə 150). Aidiyyəti üzrə aşağıda göstərilən şəxslər – **vergi agentləri** ödəmə mənbəyində müvafiq vergini tutmağa borcludurlar:

- idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində uduşlar (mükafatlar) əldə edən fərdə ödəmələr verən şəxs;
- idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident hüquqi şəxs və fərdi sahibkarlar tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər;
- həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə, bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru.

Belə bir məqamı da qeyd etməliyik ki, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən **kütləvi informasiya vasitələri** məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı üzrə fəaliyyətdən **əlavə dəyər vergisi** (ƏDV) tutulmur. Bu normativ tənzimləmə qaydası idman fəaliyyəti sferasını da əhatə edir.

İdman mərc oyunlarının operatoru və idman mərc oyunlarının satıcıları, habelə lotereya təşkilatçısı və lotereya biletlərinin satıcıları qismində çıxış edən şəxslər **sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna** malikdirlər. İdman mərc oyunlarının operatoru tərəfindən idman mərc oyunları biletlə-

rinin satışından əldə edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə idman mərc oyunlarının operatorunun ona verdiyi haqdan (mükafatdan) 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

Eyni zamanda, qeyd etməliyik ki, vergi qanunvericiliyi ilə **vergi öhdəliyinin yerinə yetirilməsinə** dair müvafiq müddəalar da nəzərdə tutulmuşdur (VM, maddə 85). Belə ki, vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini 5 il ərzində **tələb etmək hüququna** malikdir.

İdman sferasında münasibətləri tənzimləyən normativ hüquqi aktlardan biri də "**Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu** (1998-ci il) sayılır.[1] Qanunda təsbit olunduğu kimi, hüquqi və fiziki şəxslərin **yarış məqsədli idman nəqliyyat vasitələri** dövlət qeydiyyatına alınır (maddə 27). Bu iş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən həyata keçirilir və müvafiq rüsumlar ödənildikdən sonra idman nəqliyyat vasitələrinə qeydiyyat şəhadətnaməsi (maddə 28) və dövlət qeydiyyat nişanı (maddə 29) verilir, habelə onlar mütəmadi olaraq texniki baxışa cəlb edilir (maddə 30).

Lakin, **"Düvlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa** gürə (2001-ci il) [2], nəqliyyat vasitələrinə və onların idarə edilməsi ilə bağlı hüquqi və fiziki şəxslərə xidmətlərin güstərilməsi, eləcə də nəqliyyat vasitələrinin qeydiyyatına, daimi və mğvəqqəti uzota alınmasına, nəqliyyat vasitələrinin üzgəninkiləşdirilməsi haqqında mğqavilələr əsasında həmin

[1] "Yol hərəkəti haqqında "Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 180 s.

[2] Bax: Azərbaycan Respublikasının 4 dekabr 2001-ci il tarixli 223-IIQ nömrəli Qanunu // ARQT.Bakı,2001.

nəqliyyat vasitələrinin mğvafiq icra hakimiyyəti orqanlarında dövlət qeydiyyatına gürə **büdcə təşkilatlarından dövlət rüsumu tutulmur** (maddə 19.3). Təbii ki, bu imtiyaz və gğzəşt idman bğdcə təşkilatlarına da şamil olunur.

Həmzinin qeyd etməliyik ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən **"İdman mərc oyunlarının həyata kezirilməsi məqsədi ilə hğquqi şəxsin akkreditasiya olunması Qaydası"** və **"İdman mərc oyunlarının təşkili və kezirilməsi Qaydaları"** təsdiq edilmişdir.[1]

"İdman mərc oyunlarının həyata kezirilməsi məqsədi ilə hüquqi şəxsin akkreditasiya olunması Qaydası"na müvafiq olaraq, idman mərc oyunları Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditasiya olunmuş hüquqi şəxs – **idman mərc oyunlarının operatoru** tərəfindən həyata kezirilir. Operator adıçəkilən nazirlik tərəfindən **10 il mğddətinə** akkreditasiya olunur.

"İdman mərc oyunlarının təşkili və kezirilməsi Qaydaları"na gürə, **idman mərc oyunları** bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi üzğn əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinə və bu sahənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə xidmət edən mərc oyunu **sistemidir**. İdman mərc oyunlarından əldə olunan düvriyyə məcburi ödəniş və haqlar, o cümlədən **düvlət büdcəsinə üdənən vergilər** tutulduqdan sonra operatorun sərəncamına verilir. İdman mərc oyunlarının keçirilməsindən əldə olunan toplam düvriyyədən vergilər tutulduqdan sonra qalan məbləğdən bədən tərbiyəsi və idmanın inkişafına yünəldilən hissəsi **Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinə** ödənilir.

Mərc oyunları, bir qayda olaraq, futbol oyunları, basketbol oyunları, Formula I və ya Moto GP (Grand Prix: Qran-Pri), habelə Ümumdünya Ralli Çempionatı (ÜRÇ) yarışları, digər

[1] Bax: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.08.2010-cu il tarixli 153 nömrəli Qərarı// ARQT.Bakı,2010.

idman yarış və oyunları zamanı keçirilir. Qaydaların 4-cü bəndi mərc oyunlarında **uduşun ödənilməsinə dair prinsiplərə** həsr olunmuşdur. Həmin prinsiplər sırasında göstərilir ki, uduşun ödənməsi üçün səlahiyyət verilmiş satıcı və banklar tərəfindən mərci qazanan şəxslərə edilən ödənişlərdən **qanunvericilikdə nəzərdə tutulmuş vergilər** istisna olunmaqla, heç bir faiz tutula bilməz (bənd 4.8.).

İdman mərc oyunlarının **təşkili və keçirilməsinə nəzarət** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir. Operator növbəti ilin ilk rübünün sonunadək cari ildəki fəaliyyəti haqqında aşağıdakı məlumatları özündə əks etdirən hesabatı **Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına** [1] təqdim edir:

- idman mərc oyunlarının həyata keçirilməsindən əldə olunan dövriyyə;
- bədən tərbiyəsi və idmanın inkişafına yönəldilən məbləğ.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası bilet nömrəsini və barkodunu, yarış nömrəsini və adını, mərc dövrü sayını, satıcı nömrəsini, biletin çap edildiyi tarixi, saatı və ödənişi həyata keçirmək üçün lazımi məlumatları üzərində əks etdirən **idman mərc oyunlarının nümunəvi bilet formasını** təsdiq edir.

Operator idman mərc oyunlarının təşkili və keçirilməsinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına həmin qurum tərəfindən **müəyyən edilmiş məbləğdə və qaydada haqlar** ödəyir.

Operator "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respubli-

[1] Palatanın Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanı ilə təsdiq edilmişdir // AR QT. Bakı, 2019-cu il, №3, maddə 411.

kasının Qanununda (2010-cu il) nəzərdə tutulmuş **tələblərə ciddi surətdə** əməl etməlidir.

Göstərilən **qaydaların operator tərəfindən pozulması** ilə bağlı hallar müəyyən edildikdə, qanunvericiliklə müəyyən olunmuş qaydada operatorun akkreditasiya olunduğu orqan qarşısında **vəsatət qaldırılır**.

Şərh olunanlarla yanaşı, qeyd etməliyik ki, idman fəaliyyəti sahəsində gəlir vergisinin tutulma yerini müəyyən etmək üçün **lex domicilii prinsipi** fiskal orqanlar üçün açıq şəkildə cəlbedicidir və verginin düzgün yığılması üçün **məsuliyyət yükü** bu orqanlardan vergi ödəyicilərinin özünə keçir; onlar isə müvafiq sanksiyalarla (hətta cinayət təqibinə qədər) qarşılaşmamaq üçün bütün **gəlirlərini bəyan etməyə** və onlardan aidiyyəti üzrə **vergi ödəməyə** borcludurlar. Ona görə də, zənn edirik ki, vergi ödəyicisinin olduğu yer üzrə bu **öhdəliyin yerinə yetirilməsinə nəzarətin** həyata keçirilməsi ən asan və məqsədəmüvafiqdir.

Dolayı vergilərə (söhbət ƏDV və aksiz vergi növlərindən gedir) gəlincə, onlarla bağlı **beynəlxalq problemlər**, adətən, malların, o cümlədən idman mal-materiallarının idxal-ixrac əməliyyatları zamanı yaranır. Hesab edirik ki, bu problemlərin həllində **iki prinsip** tətbiq oluna bilər:

- mənşə ölkəsinin prinsipi. Bu halda idxal (import) zamanı ƏDV və aksizlər idxal ölkəsində alınmır, ixrac ölkəsində isə ƏDV və orada ödənilmiş aksizlər ixracatçıya qaytarılmır;
- təyinat ölkəsinin prinsipi. Bu halda ƏDV və aksizlər idxal ölkəsində tutulur və istehsalçının/ixracatçının mənşə ölkəsində dolayı vergilərin ödənilməsindən məruz qaldığı itkilər kompensasiya edilir.

İkiqat dolayı vergitutmanın qarşısını almaq üçün bu və ya digər prinsipin tətbiqi də, birbaşa vergitutma kolliziya praktikasında olduğu kimi, dövlətlərarası razılaşmanı tələb edir. Bu problem həm ikiqat vergitutmanın aradan qaldırılmasına dair

ümumi razılaşmalar çərçivəsində, həm də xüsusi qaydada həll oluna bilər. Söhbət idman fəaliyyəti sferasında ikitərəfli kollizion norma vasitəsi ilə kollizion bağlama formulunun müəyyən edilməsindən gedir. Hüquq ədəbiyyatında göstərilir ki, **kollizion bağlama formulu** dedikdə müxtəlif dövlətlərin kollizion hüququnun inkişaf praktikası nəticəsində yaranan ümumiləşdirilmiş qaydalar başa düşülür və bu qaydalardan istifadə etməklə hansı dövlətin qanunvericiliyinin (hüququnun) tətbiq olunması məsələsi öz həllini tapır.[1]

Göründüyü kimi, Azərbaycanda idman-vergi münasibətlərinin, xüsusilə, ikiqat vergitutma problemlərinin tənzimlənməsi sahəsində kifayət dərəcədə təkmilləşmiş **normativ hüquqi baza** mövcuddur.

8.3. Xaricdə fəaliyyət göstərən idman təşkilatları və idmançılar üçün vergitutmanın əlverişli rejiminin hüquqi təminatı

Beynəlxalq idman hüququnun xüsusi prinsipləri sırasında mühüm əhəmiyyət kəsb edən **üç əsas hüquqi rejim** növü fərqləndirilir: milli rejim, preferensiya rejimi və ən əlverişli şərait rejimi.

Əvvəllərdə qeyd etdiyimiz kimi, idman hüququnda **milli rejim** konvension prinsip kimi təsbit olunmuşdur.[2] Bu prinsipin beynəlxalq idman fəaliyyəti sferasında oynadığı rol danılmazdır. Ona görə də, dövlətlər **beynəlxalq idman münasibətləri sahəsində** bu prinsipdən səmərəli surətdə istifadə edirlər. Belə ki, BİH-də həmin prinsip dövlətlərarası beynəlxalq idman oyun və yarışlarının keçirilməsi üzrə fəaliyyət sahəsində tətbiq edilir. Bu o deməkdir ki, beynəlxalq idman sahəsində milli rejim

[1] Kollizion hüquq norma və prinsipləri barədə ətraflı bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı: «Hüquq Yayın Evi», 2021, s.140-170.

[2] Bu barədə bax: hazırkı Dərslik, IV fəsil, §4.2.2.

prinsipinə əsasən, idman fəaliyyəti ilə bağlı xarici ölkələrin fiziki və hüquqi şəxsləri müəyyən dövlətin ərazisində idman hüquqlarından həmin dövlətin idman-hüquq subyektləri (fiziki və hüquqi şəxsləri) ilə **bərabər şəkildə** yararlanırlar. Başqa sözlə, milli rejim prinsipinə görə , **xarici idman subyektləri** bu və ya digər dövlətin ərazisində idman fəaliyyəti sahəsində müəyyən hüquqlara malik olmaqla, həmin dövlətin şəxsləri ilə eyniləşdirilir.

Milli rejim prinsipi dövlətin üzərinə belə bir **vəzifə** qoyur ki, o, öz ərazisində idman fəaliyyətinin müəyyən sahəsində milli subyektlərini təmin etdiyi eyni şərtləri həm də xarici subyektlər üçün müəyyənləşdirməlidir. Məsələn, Azərbaycan Respublikasının idman fəaliyyəti sahəsində xarici ölkələrlə bağladığı bəzi **beynəlxalq idman əməkdaşlıq müqavilələri** məhz milli rejim prinsipinə əsaslanır. Milli rejim prinsipinin idman sahəsində **tətbiq vektoru**, bir qayda olaraq, beynəlxalq idman müqavilələrində təsbit olunur, hüquqi cəhətdən müəyyən edilir və bu səbəbdən o, konvension prinsip sayılır. Eyni zamanda, sözügedən prinsipin hansı idman fəaliyyəti istiqamətində istifadə olunması **dövlətin milli qanunvericiliyi** ilə reqlamentləşdirilir.

BİH-də tətbiq edilən konvension (müqavilə) rejimlərindən biri də **preferensiya rejimi** sayılır. Bu prinsipə görə, hər hansı bir dövlət idman fəaliyyəti sferasında viza, sərhəd-keçid, vergi, gömrük ödənişləri və digər sahələrdə başqa dövlətə və ya dövlətlərə xüsusi üstünlük verir. **Xüsusi üstünlük** verilməsi isə idman fəaliyyəti sahəsində, məsələn, **gömrük və vergi ödənişləri** ilə bağlı idman subyektlərini xüsusi hüquqla təmin etmədə, onlara münasibətdə müvafiq güzəştlərin müəyyənləşdirilməsində və imtiyaz verilməsində ifadə oluna bilər.[1]

[1] Bax: Beynəlxalq idman hüququ: ümumi müddəalar / Məsul redaktor-Əliyev E.Ə. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.188-190.

BİH-in xüsusi konvension (müqavilə) rejimlərindən digəri isə, **ən əlverişli şərait rejimi prinsipidir.** Bu prinsip, əsasən, beynəlxalq idman münasibətləri sferasında tətbiq edilir. Mərkəzi prinsipi kimi xarakterizə olunan sözügedən prinsip beynəlxalq idman münasibətlərinin **liberallaşdırılmasını** təmin edən effektli hüquqi vasitədir. İdman fəaliyyətində ən əlverişli şərait rejimi prinsipinə görə, beynəlxalq idman müqaviləsinin tərəfi olan dövlət digər tərəfi (dövləti) idman fəaliyyəti sahəsində elə əlverişli şərtlərlə təmin edir ki, həmin şərtlərdən istənilən üçüncü dövlət istifadə edə bilər. Başqa sözlə, əgər beynəlxalq müqavilə tərəfi olan dövlət digər dövləti, yəni – həmin müqavilənin qarşı tərəfini üçüncü dövlətlərin istifadə etdikləri və ya gələcəkdə istifadə edə biləcəkləri müəyyən **əlverişli şərtlərlə** – hüquq, vergi və gömrük ödənişi, güzəşt, imtiyaz və digər üstünlüklərlə təmin edərsə, bu, ən əlverişli şərait yaratmaq hüquqi rejiminin müəyyənləşdirilməsini ifadə edir.

Qeyd etməliyik ki, özlüyündə ən əlverişli şərait rejimi prinsipi birbaşa məcburi hüquqi qüvvəyə malik olmur. Sözügedən prinsipin məcburi hüquqi qüvvə ilə təmin edilməsi üçün dövlətlər arasında bağlanan beynəlxalq idman müqaviləsinə əlverişli şərait yaratmaq haqqında xüsusi konkret qeyd daxil edilməsi tələb olunur; belə qeydə **klauzula** deyilir.[1] Klauzula isə beynəlxalq idman müqaviləsinə, məsələn, qarşılıqlı vergi münasibətlərinin nizama salınması ilə bağlı xüsusi olaraq daxil edilən elə bir konkret qeyddir ki, bu qeyd beynəlxalq müqavilə tərəflərinin **idman-vergi münasibətləri sahəsində razılığa gəldikləri** ən əlverişli şərait yaradılması barədə müvafiq prinsipin tətbiq olunmasını şərtləndirir. Əgər belə qeyd olmazsa, həmin prinsip məcburi hüquqi qüvvəyə malik olmayacaqdır və bu səbəbdən o, tənzimləmək üçün beynəlxalq idman-vergi münasibətlərinə tətbiq edilə bilməz.

[1] Daha ətraflı bax: Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.177.

Beynəlxalq idman müqaviləsinə daxil edilmiş xüsusi qeyd (klauzula) həm də sözügedən prinsipin tətbiq olunduğu **konkret idman fəaliyyəti istiqamətini** müəyyənləşdirir. Belə ki, həmin qeyd əsasında ən əlverişli şərait rejimi prinsipinin tətbiqi edildiyi konkret idman sahəsini, yəni dövlətlərarası qarşılıqlı idman münasibətlərinin bu və ya digər sferasını müəyyənləşdirmək mümkün olur. Buna görə də bu qeyd, faktiki olaraq, həmin prinsipin idman fəaliyyəti sahəsində vergi və gömrük ödənişləri ilə bağlı müddəaların tətbiqini konkretləşdirən **müqavilə forması** sayılır.

Göstərilən hüquqi rejim prinsipi, yəni ən əlverişli şərait rejimi prinsipi, bir qayda olaraq, **ikitərəfli** beynəlxalq idman müqavilələrində müəyyənləşdirilir; bu prinsip həm də **çoxtərəfli** beynəlxalq idman müqavilələrində təsbit edilə bilər. Məsələn, QATT-1994 (1-ci maddə) ən əlverişli şərait rejimi prinsipini müəyyənləşdirir ki, həmin sənəd ÜTT-nin hüquqi bazasını təşkil edən paket sənədlərdən biridir. Buna görə də, həmin prinsip bu təşkilata üzv olan dövlətlərin (150 dövlətin) xarici iqtisadi, o cümlədən idman fəaliyyəti sferasında tətbiq edilir.[1]

Yuxarıda şərh edilənlərlə yanaşı, xaricdə fəaliyyət göstərən idman təşkilatları və idmançılar üçün vergitutmanın əlverişli rejiminin hüquqi təminatı ilə bağlı, əlavə olaraq qeyd etməliyik ki, **ikiqat vergitutma müqavilələrinin obyekti** olan vergilərlə yanaşı, bir dövlətdən digər dövlətə keçən hüquqi və fiziki şəxslər, o cümlədən idman sferası ilə əlaqəli olan subyektlər üçün bir çox vergi növləri də mövcuddur. Bu, təkcə, mahiyyət etibarı ilə, vergi növlərindən biri olan **gömrük rüsumlarına** deyil, həm də **dolayı vergilərə**, müxtəlif xüsusi vergilərə, o

[1] Bu barədə daha ətraflı bax: Beynəlxalq idman hüququ: ümumi müddəalar / Məsul redaktor - Əliyev E.Ə. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.179-181.

cümlədən bələdiyyə vergilərinə (məsələn, torpaq vergisi, əmlak vergisi, yol vergisi, ekoloji vergi və s.) aiddir.[1]

Hər bir xarici ölkədə bu cür vergilərə münasibətdə, dövlətin öz fiziki və hüquqi şəxsləri üçün edə biləcəyi **məqbul variant** idman sahəsində beynəlxalq əməkdaşlığın inkişafı naminə vergitutma ilə bağlı onlara ya milli hüquqi rejim, ya da ən əlverişli dövlət rejimi təqdim etməkdən ibarətdir. **Beynəlxalq hüquqi səviyyədə** belə rejimlər həm **çoxtərəfli hüquqi müstəvidə**, xüsusən də ÜTT sistemin beynəlxalq konvensiyalarında təmin edilməklə, həm də **ikitərəfli idman sazişlərində** və digər **xüsusi beynəlxalq müqavilələrdə** təsbit edilməklə həyata keçirilir. Belə prinsiplər həmçinin **beynəlxalq konfransların beynəlxalq-hüquqi aktlarında**, məsələn, **Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun Aktında** (Helsinki, 1 avqust 1975-ci il), **BMT orqanlarının qətnamələrində,** habelə **regional təşkilatların aktlarında,** məsələn, **Avropa Sosial Xartiyası** – ETS №163 (Strasburq, 3 may 1996) və s. beynəlxalq-hüquqi sənədlərdə ehtiva edilir.[2]

Beynəlxalq hüquq beynəlxalq təşkilatların (həm hökumətlərarası, həm də qeyri-hökumət təşkilatları), xüsusən də, onların mənzil-qərargahlarının yerləşdiyi ölkələrdə **müvafiq vergilərdən azad edilməsini** nəzərdə tutur. Belə şərtlər, adətən, beynəlxalq təşkilatların immunitetləri və imtiyazları haqqında **ümumi xarakterli müqavilədə** (konvensiyada) müəyyən edilir. Məsələn, Birləşmiş Millətlər Təşkilatının İmtiyazları və İmmunitetləri haqqında Konvensiya (Leyk-Saksess, Nyu-York, 13 fevral 1946), İxtisaslaşmış təsisatların imtiyazları və immunitetləri haqqında Konvensiya (21 noyabr 1947-ci ildə

[1] Gömrük orqanları tərəfindən alınan gömrük rüsumları,əlavə dəyər vergisi,yol vergisi,aksiz, digər yığım və haqların ödənilməsi barədə ətraflı bax: Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimov, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi» nəşriyyatı, 2018, 232 s.


[2] Ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.618-619.

BMT Baş Assambleyasının 123-cü plenar sessiyasında 179 (II) saylı qətnamə ilə qəbul edilmişdir) və s. beynəlxalq-hüquqi aktlar.[1]

Nəhayət, xaricdə fəaliyyət göstərən idman təşkilatları və idmançılar üçün vergitutmanın əlverişli rejiminin hüquqi təminatı ilə bağlı müxtəlif ölkələrin **milli vergi orqanlarının beynəlxalq idarələrarası sazişlərinin** oynadığı rol da xüsusilə vurğulanmalıdır. İdman-vergi münasibətlərinin **harmonikləşdirilməsi istiqamətində** onların qarşılıqlı informasiya və təcrübə mübadiləsi, vergi nəzarətinin təşkili sahəsində əməkdaşlığın həyata keçirilməsi haqqında bağladıqları **müqavilə və razılaşmalar** olduqca əhəmiyyətli və aktual görünür.

[1] BMT-nin,onun ixtisaslaşmış təsisatlarının statusu və xarakterik əlamətləri barədə ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, s.115-147.

VIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



IX FƏSİL.

BEYNƏLXALQ İDMAN HƏRƏKATINDA DOPİNQ QƏBUL EDİLMƏSİNİN QARŞISININ ALINMASI

9.1. Müasir idmanda antidopinq siyasəti haqqında ümumi müddəalar

Müasir dövrdə beynəlxalq idman hərəkatında **dopinq problemi** əsas və mərkəzi yerlərdən birini tutur. Başqa sözlə desək, dopinq **dünya idmanının bəlası** sayılır. Ona görə də, dünya idmanında ən böyük problem idmançıların **eyni şəraitdə yarışmalarını** təmin etməkdən ibarətdir. Belə ki, idmançıların hazırlıq prosesində istifadə etdikləri və yaxud edə biləcəkləri maddələrin köməyi ilə öz orqanizmlərində yaratdıqları **"gizli üstünlük"** yarışın ən ali prinsipini – hamının eyni şəraitdə çıxış etməsi prinsipini pozur.[1]

Terminoloji lüğətlərdə göstərilən versiyaya görə, idman sferasında geniş yayılmış **"dopinq" termini** ingilis mənşəyli sözdən əmələ gəlmişdir: *dope* [dəup] – narkotik vermək.[2] İdman sahəsində **dopinq anlayışının məna yükü** aşağıdakıları ehtiva edir: **dopinq (1)** - fiziki və psixi iş qabiliyyətini stimulyasiya məqsədi ilə istifadə edilən və bunun hesabına yüksək idman nəticəsinə nail olmağa imkan verən qadağan edilmiş farmakoloji dərman və prosedurlar. Qadağan edilmiş maddələr sırasına aiddir: anabolik agentlər, androgenik anabolik steroidlər, beta 2-aqonistlər, və s.; **dopinq (2)** – qadağan edilmiş metodlar. 1. Qan dopinqi: autogemotransfuziya, qanın plazmasını artıran

[1]Ətraflı bax: İdmanda dopinq və farmakoloji təminat / Tərtib edən – F.A.Hüseynov. Bakı: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Çap artırma sahəsi, 2002, s.24-27.

[2] Bax: məsələn, English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, p.75; Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., 2001, с.108.

dərmanlar, eritropoetindən istifadə; 2. Dopinq - nəzarətə təqdim edilən nümunə sidiyin doğruluq və məqsədə müvafiqliyini dəyişdirən maddə və metodlardan (məsələn: diuretiklərdən) istifadə; 3. Amfetaminlər; 4. Peptid hormonlar, mimetiklər və onların analoqları, kortiko-steroidlər; 5. Kokain; 6. Stimulyatorlar, kimyəvi, farmakoloji və onlara aid birləşmələr; 7. Narkotik analgetiklər və onlara aid birləşmələr.[1]

Dopinq maddələrinin **tətbiq edilməsi tarixi** ilə bağlı qeyd edə bilərik ki, XX əsrin əvvəllərindən fiziki işgörmə qabiliyyətini yuksəltmək, bərpa prosesini sürətləndirmək, **idman nəticələrini yaxşılaşdırmaqdan** ötrü müxtəlif stimullaşdırıcı maddələrdən geniş istifadə olıınmağa başlamışdır. Bura müxtəlif hormonal, farmakoloji və fizioloji preparatlar – dopinq adlanan maddələr aiddir. Dopinqlərin qəbul olunması nəinki idman mübarizəsində qeyri-bərabər şərait yaradır, həm də **idmançıların səhhətinə mənfi təsir** göstərir. Dopinqlərin qəbulu orqanizmdə bir sıra xoşa gəlməyən dəyişikliklər yaratmaqla yanaşı, insanın ölümünə də səbəb ola bilir. Dopinqlərin müntəzəm qəbul olunması orqanizmin bir sıra **fizioloji funksi-yalarında pozğunluqlar** yaradır. Dopinqlərin qəbulundan sonra baş verən pozğunluq 10-20 il ötdükdən sonra, bəzən də, idmançının nəslində özünü büruzə verə bilər. Ona görə də, 1967-ci ildə BOK **xüsusi tibbi komissiya** yaradaraq, idmanda qəbul oluna biləcək zərərli preparatların adlarını tərtib etmiş, dopinq əleyhinə yoxlamaların aparılmasını təşkil edir və bütün beynəlxalq yarışlarda həyata keçirir. Hər bir idmançı, məşqçi, həkim **qəbulu qadağan olunmuş preparatları** bilməlidir.

Dopinq maddələri və preparatları **tibbi baxımdan**, müəyyən qruplar üzrə təsnifləşdirilir. İdmanda **işgörmə qabiliyyətinin** yüksəldilməsi üçün istifadə olunan vasitələrə dopinqlər, dopinq metodları, psixoloji metodlar, mexaniki amillər, istifadə olunması məhdudlaşdırılan farmakoloji vasitələr, qida əlavələri

[1] Ətraflı bax: İzahlı idman terminləri / Tərtib edən: S. S. Hüseynov. Bakı, "Yazıçı" nəşriyyatı, 2009, 216 s.

və sairə maddələr **aiddir**.[1] İnsan orqanizminə xüsusi zərər vuran və nəzarətə ehtiyacı olan vasitələrə dopinqlər və dopinq metodları (manipulyasiya) aid edilir.

Farmakoloji təsirinə görə dopinqlər beş sinfə bölönör: 1) psixostimulyatorlar – amfetamin, efedrin, kofein, kokain, fentermin və s.; 2) narkotik vasitələr – morfin, heroin, alkoloidlər, opiatlar, promedol, fentanil və s.; 3) anabolik steroidlər – testosteron və onun törəmələri, metan-drostenolon, retabolil, androdiol və s., həmçinin anabolik peptid hormonallar – somatotropin, qonadotropin, eritropoetin; 4) betta-blokatorlar – anaprimin, propranolol, oksprenalol, nadolol, atenolol və s.; 5) diuretic vasitələr – novurit, dixlotiozid, mrosemid (laziks), klopamid, diakarb, veroşpiron, furosemid və s.

Dopinqlər **bioloji fəal maddələr olub,** heyvan və bitki orqanizmlərdən alınır və ya söni surətdə sintez olunur. Bir çox dopinqlər qrip, soyuqdəymə və s. xəstəliklərin əleyhinə dərmanların tərkibində olur, ona görə də, idmançılar dərman qəbul edən zaman komandanın həkimi ilə hökmən məsləhətləşməlidirlər.

Dopinq metodlarına müxtəlif manipulyasiyalarda qan dopinqləri aid edilir. Ayrı-ayrı siniflərə aid dopinqlərin orqanizmdə bioloji təsiri də müxtəlifdir. Belə ki, psixostimulyatorlar idman işgüzarlığının səviyyəsini örək-damar və tənəffös sisteminin fəaliyyətini aktivləşdirmək yolu ilə yöksəldir. Bu zaman skelet əzələlərinin fiziki aktivliyi, energetikası yöksəlir, idmançının öz göcönə inamı artır, yorğunluq aradan götörölör, nəticədə bu orqan və sistemlərin funksiyaları həddən artıq gərginləşir, enerji ehtiyatları tökənir.[2]

---

[1] Bu barədə bax: İdmanda dopinq və farmakoloji təminat / Tərtib edən – F.A.Hüseynov. Bakı: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Çap artırma sahəsi, 2002, 92 s.

[2] İdmanda qadağan olunan metod və maddələr barədə ətraflı bax: Шашкова И.М. Спортивное право.Курс лекций.Витебск:УО «ВГУ им. П.М.Машерова, 2012,с.75-77. // https : // rep.vsu.by (29.03.2022-ci il).

Narkotik maddələr ağrı hissini azaldır, yorğunluğun baş verməsini ləngidir. **Anabolik steroidlər** zülalların sintez prosesini gücləndirir, parçalanmasını isə azaldır. Ona görə də bu, əzələlərin inkişafına təkan verir, eritrositlərin miqdarının artmasına, fiziki yükə qarşı orqanizmin adaptasiyasının sürətlənməsinə, bərpa proseslərinin yüksəlməsi və bədənin kompozisiya tərkibinin yaxşılaşmasına səbəb olur. **Beta-blokiatorlar** adrenalin və noradrenalin hormonlarının effektinin əksinə təsir göstərir, idmançını sakitləşdirir, fiziki yükə qarşı orqanizmin adaptasiyasını yüksəldir. **Diuretik hormonlar** və ya sidikqovucu vasitələr orqanizmdən suyun, duzların və digər kimyəvi maddələrin qovulmasını gücləndirir, bədən kütləsini azaldır və qadağan olunmuş maddələrin orqanizmdən qovulmasına şərait yaradır. Qeyd etmək lazımdır ki, sadalanan dopinq sinifləri arasında ən çox anabolik steroidlər qəbul olunur.[1]

Deməli, **idmanda dopinq** dedikdə idmançının fiziki və əqli potensialını süni formada artırmaq və ya stimullaşdırmaqla indiki halda onun hazırlıq səviyyəsinin imkanlarından daha yüksək nəticələrə nail olmaq üçün farmakoloji preparatlardan, üsul və metodlardan gizli şəkildə istifadə edilməsi nəzərdə tutulur. Qeyd edilənlərə əlavə olaraq, göstərə bilərik ki, problemin aktuallığı kontekstində **BOK tərəfindən** müvafiq qərar da - **Tibb Məcəlləsi** (1994-cü il) qəbul edilmişdir. Həmin qərarda toxunulmuş məsələyə dair **dəqiq müddəalar** müəyyənləşdirilərək, **dopinq münasibətləri aşağıdakı istiqamətlər** üzrə təsnif olunur:

1) beş qrupa bölünən dopinq maddələri: anabolik steroidlər,

beta-blokatorlar, diuretic vasitələr, stimulyatorlar, narkotik vasitələr (biz yuxarıda bu beş qrup dopinq maddələri barədə məlumat vermişik);

[1] Ətraflı bax: https://az.wikipedia.org/wiki/Dopinq?veaction= edit&section= 2 (29.03.2022-ci il).

2) dopinq metodları, məsələn, qan dopinqi: autohemotransfuziya, eritropoetin, qan plazmasını artıran dərmanların istifadəsi və s.;

3) idman yarışlarında qəbulu məhdudlaşdırılan və birbaşa tibbi göstərişlər olmadıqda, həmçinin dopinq hesab edilə bilən maddələr.[1]

Dopinq anlayışının **təşəkkül tapması** ilə bağlı qeyd etməliyik ki, hələ tarixən əvvəllər Cənubi Afrikadakı tayfaların dini mərasimlər zamanı istifadə etdikləri içkinin adına münasibətdə **"dopinq"** sözü işlədilirdi. 1865-ci ildə Amsterdamda keçirilən üzgüçülük yarışı zamanı, **ilk dəfə olaraq**, stimullaşdırıcı maddələrdən istifadə edən idmançılara münasibətdə "dopinq" termini tətbiq edilib və bu ifadə o vaxtdan idman sahəsində kök salıb. Dopinqdən ilk ölüm hadisəsi isə 1886-cı ildə velosiped yarışlarında qeydə alınıb. Artıq XX əsrin əvvəllərində müxtəlif stimullaşdırıcı vasitələrdən istifadə edilməsi halları **geniş yayılmağa** başlamışdır. XVII Olimpiada Oyunları (1960-cı il, Roma, İtaliya) faciənin kölgəsində qaldı: Dane K. Yensen velosiped yarışı zamanı həddindən artıq gərginliklə yükləndiyi, habelə dopinqdən istifadə edərəkfiziki yükü hiss etmədiyi üçün öldü. Bu, Olimpiya oyunlarına **dopinq cərəyanının** daxil olması barədə ilk həyəcan siqnalı idi.[2]

İdmanda dopinqdən istifadə ilə bağlı məsələ ilk dəfə 1960-cı ildə Beynəlxalq Psixofiziologiya Konqresində qaldırılıb. Dopinqə qarşı effektiv mübarizəyə başlayan **ilk idman təşkilatı Beynəlxalq Olimpiya Komitəsi** olmuşdur. 1962-ci ildə BOK-un Moskvada keçirilən sessiyasında dopinqin qadağan edilməsi

[1] Bu barədə daha ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с. 501.

[2] Ətraflı bax: https://studref.com/524926/pravo/regulirovanie_ problem_ dvoynogo_nalogooblozheniya_sfere_mezhdunarodnyh_sportivnyh_otnosheniy (30.03.2022-ci il).

ilə bağlı tövsiyələr verildi. 1967-ci ildə Beynəlxalq Olimpiya Komitəsi idmanda dopinqdən istifadəni qadağan etmək qərarına gəlmişdir. XIX Olimpiada Oyunlarından (1968-ci il, Meksika) başlayaraq BOK-un nəzdində 1967-ci ildə **xüsusi yaradılmış** Tibbi Komissiya dopinq nəzarətini həyata keçirməyə başladı. **Seçmə dopinq nəzarəti** XIX Olimpiya Oyunlarında həyata keçirilirdi və 1972-ci ildən (Münhen) olimpiya proqramının bütün növlərində, daha sonra isə BOK-un və BİF qurumlarının nizamnamələrində nəzərdə tutulmuş əksər idman növləri üzrə dünya və qitə çempionatlarında məcburi xarakter almışdır. XXIV Olimpiada Oyunlarında (1988-ci il, Seul, Cənubi Koreya) **10 dopinq faktı** qeydə alınmışdır. Dünyanın ən məşhur idmançılarından biri, bir gün əvvəl 100 metr məsafəyə qaçışda fenomenal dünya rekordu - 9,79-a imza atan kanadalı sprinter Ben Consonun diskvalifikasiyası xəbəri bütün dünyaya yayıldı. Bu olimpiadadan sonra bütün **BİF və MOK strukturları** dopinqə qarşı mübarizəyə qoşuldular.

Daha sonra 1999-cu ildə Lozannada beynəlxalq olimpiya və idman hərəkatının, hökumət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə idmanda dopinq üzrə ümumdünya konfransı keçirildi. Konfransın nəticəsi altı bölmədən ibarət və özündə ən fundamental müddəaları əks etdirən **İdmanda dopinq haqqında Lozanna Bəyannaməsinin** qəbul edilməsi ilə yekunlaşdı; həmin sənəd "İdmançıların təhsili, profilaktikası və hüquqları", "Olimpiya hərəkatının Antidopinq Məcəlləsi", "Sanksiyalar", "Beynəlxalq Müstəqil Antidopinq Agentliyi", "BOK, BİF və İdman Arbitraj Məhkəməsinin məsuliyyəti", "Olimpiya hərəkatının ictimai təşkilatlarla əməkdaşlığı" kimi məsələləri özündə ehtiva etmiş oldu.

Konfransda həmçinin idman təşkilatları ilə dövlət orqanları arasında **dopinqə qarşı mübarizə sahəsində əməkdaşlığın** gücləndirilməsinin vacibliyi vurğulanıb, çünki qadağan olunmuş dopinq vasitələrinin, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə və alverçilərinə qarşı

müvafiq sanksiyaların müəyyən edilməsinə, habelə hüquq pozuntusunun cəzaya səbəb olduğu hallarda məhz **dövlət orqanları məsuldur**. Bu, əslində, idman sanksiyalarından kənara çıxan məsələdir. Həmçinin razılaşdırılıb ki, Olimpiya hərəkatının köməyi ilə dövlət orqanları dopinqlə bağlı milli və beynəlxalq qanunvericiliyin **uyğunlaşdırılmasına cavabdehdirlər**. Bu strukturlar, yəni milli dövlət orqanları həmçinin idmançıların müdafiəsi üçün təhsil, elmi tədqiqatlar, sosial proqramlar sahəsində birgə tədbirlər görməlidirlər. 1999-cu ildə təsis edilmiş **Ümumdünya Antidopinq Agentliyi** dopinqə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində mühüm və prinsipial əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, qeyd etməliyik ki, **hər bir ölkədə** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi və idmanda dopinqə qarşı mübarizə aparılması ilə əlaqədar yaranan ictimai münasibətlər, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələri **müvafiq qanunvericilik aktları** əsasında tənzimlənir. Bu kontekstdə, məsələn, Azərbaycan Respublikasının təcrübəsini nəzərdən keçirək.

Təqdirəlayiq haldır ki, sözügedən münasibətlərin tənzimlənməsi istiqamətində **"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu** (2005-ci il) qəbul edilmişdir.[1] Qanunda narkotik vasitələr, psixotrop maddələr və prekursorlar barədə **normativ anlayış** təsbit olunmuşdur (maddə 1), habelə müvafiq mübarizə tədbirləri (maddə 19), eləcə də qanun pozuntularına qarşı inzibati-hüquq (maddə 22) və aidiyyəti üzrə cinayət-hüquq tədbirləri (maddə 23) müəyyənləşdirilmişdir.

[1] Ətraflı bax: Azərbaycan Respublikasının 28.06.2005-ci il tarixli 959-IIQ nömrəli Qanunu. Qanunun mətni verilmişdir: Narkotik vasitələr, psixotrop maddələr və prekursorlar (sənədlər toplusu) / Buraxılışa məsul-E.M.Əfəndiyev.Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, 100 s.

Belə ki, **narkotik vasitələr** – BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasında, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir.

Psixotrop maddələr isə BMT-nin 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasında, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır.

Prekursorlar dedikdə narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzları başa düşülür.[1]

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu da yuxarıda sadalanan münasibətlərin tənzimlənməsində və problemlərin həllində vacib rol oynayır (2009-cu il). Qanuna görə, ölkədə yeni yaradılmış **milli antidopinq qurumu** (maddə 12-1), habelə **intizam qurumu, apellyasiya qurumu** və **terapevtik istifadəyə icazə qurumu** idman fəaliyyətinin subyektləri sirasına daxil edilmişdir (maddə 8).[2]

---

[1] Ümumiyyətlə,bu istiqamətdə mövcud olan aktual problemlər barədə ətraflı bax: məsələn, Zahidov B.S. Narkotizm və narkobizneslə mübarizənin aktual priblemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 603 s.

[2] Bax: www.sport.edu.az (30.03.2022-ci il).

Digər bir normativ hüquqi akt da – "**İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu** xüsusi maraq doğurur (2016-cı il).[1] Adıçəkilən qanun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasının və Ümumdünya Antidopinq Məcəlləsinin tələblərinin Azərbaycan Respublikasında tətbiqini, idmançıların dopinqdən istifadə etmədən istənilən idmanda təmsil olunmaq hüquqlarının təmin edilməsini, beynəlxalq və milli səviyyədə dopinqlə mübarizə proqramlarının həyata keçirilməsini və bu sahədə qadağan edilmiş maddə və üsullardan istifadə ilə **mübarizənin səmərəli mexanizminin** hazırlanmasını, idmanda dopinqdən istifadənin qarşısının alınması və onunla mübarizə sahəsində **dövlət siyasətinin əsas prinsiplərini**, bu sahədə idarəetməni, idman subyektlərinin hüquq və vəzifələrini, dopinq nəzarətinin yerinə yetirilməsi qaydalarını və bununla bağlı aşkar edilmiş **pozuntulara görə cavabdehliyi** müəyyənləşdirir, habelə Azərbaycan Respublikasının bu sahədə **beynəlxalq öhdəliklərinə** və ümumqəbul olunmuş **yarış qaydalarına** uyğun formada antidopinq siyasətinin həyata keçirilməsini nəzərdə tutur.

İdmanda dopinqdən istifadə problemi bütün dünya ictimaiyyətinin, xüsusilə, **idman və tibb təşkilatlarının** yüksək diqqətini cəlb edir.Narahatlıq onunla bağlıdır ki, "dopinqdən istifadə idman yarışlarının ruhuna ziddir, idman etikasını pozur, idman yarışları üçün qeyri-bərabər şərait yaradır və ədalətsiz qələbə əldə etmək imkanı yaradır".[2] Bununla əlaqədar olaraq, **müasir idmanın əsas problemi** kimi, start şəraitinin bərabərliyi baxımından, idmançıların orqanizminin psixo-

[1] Bax: Azərbaycan Respublikasının 29.11.2016-cı il tarixli 447-VQ nömrəli Qanunu - http://www.e-qanun.az/framework/34359 (30.03.2022-ci il).

[2] Bax: Граевская Н.Д. Допинг-контроль // Журавлёва А.И., Граевская Н.Д. Спортивная медицина и лечебная физкультура: Руководство. М.: Медицина, 1993,с.284-290 // https://www.dissercat.com/content/sotsialno-pedagogicheskie-i-organizatsionnye-osnovy-borby-s-dopingom-v-sporte (31.03.2022-ci il).

fizioloji vəziyyəti aktual məsələ kimi çıxış edir. Deməli, idmançının **dopinq təsirindən azad olunması** halı onun yarışda iştirakının **bərabərlik statusu** təmin edir. Dopinqdən istifadə **idmançının sağlamlığı üçün ciddi təhlükə** yaradır. Həmçinin nəzərə alınmalıdır ki, idmançı orqanizminin motor, hərəki funksiyalarının qısa müddətli, süni yüksəlməsindən sonra idmançıda, necə deyərlər, ruhi sıxıntı yaranır və iş qabiliyyətinin zəifləməsi baş verir. **Dopinqin təsiri altında** idman texnikasının və oriyentasiyasının pozulması, məntiqi təfəkkürün azalması, davranışda motivsiz dəyişikliklər və açıq aqressivlik müşahidə edilə bilər. Ən əsası odur ki, hər hansı bir idman-dopinq pozuntu halı aşkarlanarsa – **idmançının nəticəsi** dərhal, tərəddüdsüz ləğv edilir.

Hüquq ədəbiyyatında, haqlı olaraq, qeyd edilir ki, **idman sferasında dopinq** – idmanda istifadəsi qadağan olunmuş **substansiya xarakterli maddələrin** və (və ya) **üsulların** siyahısına daxil edilmiş maddə və (və ya) metoddan istifadə, o cümlədən istifadəyə cəhd də daxil olmaqla, antidopinq qaydalarının pozulmasıdır. İdmanda dopinqin qarşısının alınması və ona qarşı mübarizə bədən tərbiyəsi və idman sahəsində müvafiq icra hakimiyyəti orqanları və beynəlxalq antidopinq təşkilatları tərəfindən təsdiq edilmiş qaydalarına uyğun olaraq həyata keçirilir; onlar **antidopinq qaydaları** adlanır.[1]

Antidopinq qaydalarının pozulması isə, özündə aşağıda göstərilən bir və ya bir neçə halların **baş verməsini** ehtiva edir:

- qadağan olunmuş substansiya və ya üsuldan **idmançı tərəfindən** istifadə olunması, yaxud istifadə etməyə cəhd göstərilməsi;
- idmançının orqanizmindən, habelə idman yarışında iştirak edən heyvanın orqanizmindən **yarış dövründə** və ya **yarışdankənar** götürülmüş prob nümunəsində qadağan olunmuş maddələrin və ya onların metabolitlərinin və ya markerlərinin olması;

[1] Ətraflı bax: Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.70-74.

– idmançının **prob nümunələrinin** götürülməsindən imtina etməsi, antidopinq qaydalarına uyğun xəbərdar edildikdən sonra idmançının prob götürülməsi üçün üzrsüz səbəbdən gəlməməsi və ya hər hansı başqa formada bu sınağdan yayınması;
– dopinq-nəzarət elementinin **saxtalaşdırılması** və ya buna cəhd edilməsi;
– qadağan olunmuş substansiya və ya üsullara **yiyələnməsi**, habelə bu metod və üsulların **yayılması**;
– **idmançıya qarşı** qadağan olunmuş maddələrdən istifadə olunması, tətbiqi və ya bunlara cəhd göstərilməsi, yaxud idmançıya qarşı qadağan olunmuş metoddan istifadə və ya onun tətbiqinə cəhd və ya antidopinq qaydalarının pozulması ilə baş verən **digər hərəkətlərə yol verilməsi**, yaxud **yardım** edilməsi və s.

Eyni zamanda, **idman yarışlarında** idmançılar, habelə məşqçilər, idman tibb personalı, bədən tərbiyəsi və idman sahəsində digər mütəxəssislər tərəfindən idmançılara münasibətdə antidopinq qaydalarının pozulması, yarışlarda iştirak edən heyvanlara münasibətdə **qadağan olunmuş maddələrdən** və (və ya) **üsullardan** istifadə edilməsi hallarına **icazə verilmir**. İdmançı tərəfindən, habelə idman yarışında iştirak edən heyvanlara münasibətdə qadağan olunmuş substansiya və (və ya) üsuldan istifadə edilməsi **faktı** yalnız Ümumdünya Antidopinq Agentliyi tərəfindən akkreditə olunmuş **laboratoriyalarda aparılan tədqiqatların** nəticələri ilə təsdiqlənir.

İdman fəaliyyəti sferasında **sınaq testləri** həm yarış zamanı, həm də yarışdankənar dövrdə həyata keçirilir. İdmanda dopinqin qarşısının alınması və onunla **mübarizə tədbirlərinə** aşağıdakılar daxildir:

– **dopinq nəzarətinin** həyata keçirilməsi;
– idmançıların, məşqçilərin, bədən tərbiyəsi və idman sahəsində çalışan digər mütəxəssislərin antidopinq qaydalarının pozulmasına görə **məsuliyyətinin** müəyyən edilməsi;

– qadağan olunmuş maddələrdən və (və ya) üsullardan **istifadə hallarının** qarşısının alınması;
– dopinq-nəzarətini həyata keçirən **mütəxəssislərin ixtisaslarının** yüksəldilməsi;
– bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən təhsil müəssisələrində əlavə **tədris proqramlarına** antidopinq qaydaları, idmanda dopinqin idmançıların sağlamlığına göstərdiyi mənfi təsirlərin nəticələri, antidopinq qaydalarının pozulmasına görə məsuliyyət haqqında **müvafiq bölmələrin** daxil edilməsi;
– kütləvi informasiya vasitələrində **antidopinq təbliğatının** aparılması, eləcə də idman cəmiyyətlərində zəruri təşviqat və **maariflənmə işlərinin** həyata keçirilməsi, bu istiqamətdə hüquqi düşüncə və **antidopinq mədəniyyətinin** formalaşdırılması;
– idmanda dopinqin qarşısının alınmasına və onunla mübarizəyə yönəlmiş **elmi tədqiqatların** aparılması və bu sahədə **beynəlxalq əməkdaşlığın** həyata keçirilməsi və s. tədbirlər.[1]

Göründüyü kimi, qüvvədə olan **idman qayda-qanunları** idmançılar tərəfindən onların iş qabiliyyətini artıran və müəyyən dövlətin qanunvericiliyi və (və ya) Beynəlxalq Olimpiya Komitəsinin, Ümumdünya Antidopinq Agentliyinin və digər beynəlxalq idman təşkilatlarının qərarları ilə istifadəsi qadağan edilən maddələrin, üsulların istifadəsinə **icazə vermir**. Bir sıra ölkələrdə dopinqdən istifadə və onun yayılması hallarına qarşı **cinayət məsuliyyəti müəyyən edən qanunlar** da mövcuddur.

Avropa Şurasının üzvü olan dövlətlər, Avropa Mədəniyyət Konvensiyasının iştirakçıları, eləcə də bir sıra başqa dövlətlər beynəlxalq səviyyədə 1989-cu il noyabrın 16-da Strasburqda **Dopinq qəbuluna qarşı Konvensiya** (ETS № 135) imzala-

[1] Daha ətraflı bax: http://www.consuitant.ru/ document/cons_doc_LAW_ 73038/ (31.03.2022-ci il).

dılar. Adıçəkilən 135 saylı Konvensiyanı imzalayan üzv-ölkələr aşağıda göstərilən **müddəaları bəyan** etdilər:

- Avropa Şurasının vəzifəsinin onların ümumi irsi olan ideal və prinsipləri qorumaq və inkişaf etdirmək, sosial və iqtisadi tərəqqini təşviq etmək məqsədilə, üzv-ölkələr arasında daha sıx ittifaqı təmin etmək olduğunu nəzərə alaraq;
- sağlamlığın qorunmasında, mənəvi və fiziki tərbiyədə, beynəlxalq qarşılıqlı anlaşmanın dərinləşdirilməsində idmanın mühüm rol oynayacağını dərk edərək;
- idmançıların bütün idman növlərində dopinq maddələrindən və metodlarından geniş istifadə etmələrindən, eləcə də belə istifadənin insan sağlamlığı və idmanın gələcəyi üçün təsirlərindən narahat olaraq;
- dopinqə qarşı mübarizə sahəsində beynəlxalq idman təşkilatlarının qəbul etdikləri qaydaları, ölçü tədbirlərini və müvafiq bəyannamələri nəzərə alaraq;
- habelə və sairə müddəaları nəzərə alaraq sözügedən **konvensiyanı qəbul etdilər.**

İdmanda dopinqdən istifadəyə yol verməmək və son nəticədə onu tamamilə aradan qaldırmaq üçün 135 saylı Konvensiyanı imzalayan **üzv-ölkələr** öz konstitusiya müddəaları çərçivəsində konvensiyanın həyata keçirilməsi üçün **zəruri tədbirlər görməyi** öhdələrinə götürdülər.[1]

Bu yaxınlara qədər Avropa Şurasının dopinqə qarşı 135 saylı Konvensiyası, əslində, idmanda dopinqlə mübarizə sahəsində **yeganə beynəlxalq-hüquqi müqavilə** idi. Sonradan **İdmanda dopinqlə mübarizə haqqında Kopenhagen Bəyannaməsi** (2003-cü il) qəbul edildi. Onun **əsas məqsədi** Ümumdünya Antidopinq Agentliyinin və onun qəbul etdiyi Ümumdünya Antidopinq Məcəlləsinin rolunu dəstəkləməkdən ibarətdir. Hazırda

[1] Antidopinq siyasətinin ümumi məsələləri barədə ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.620-650.

Kopenhagen Bəyannaməsi 163 dövlətin hökumətləri tərəfindən imzalanıb. Lakin, bu bəyannamə **məcburi hüquqi qüvvəyə** malik deyildir və idmanda dopinqlə bağlı hökumətlərin həll etmək səlahiyyətilərinə aid olan bütün məsələləri **tam əhatə etmir**.

Son illərdə dopinqə qarşı aparılan mübarizə sahəsində baş verən mühüm hadisə kimi **İdmanda dopinlə mübarizə haqqında Beynəlxalq Konvensiyanı** qeyd edə bilərik. Konvensiya **UNESCO-nun Baş Konfransı** tərəfindən 19 oktyabr 2005-ci il tarixdə Parisdə keçirilən 33-cü sessiyada qəbul edilmişdir[1]; onun **məqsədi** UNESCO-nun bədən tərbiyəsi və idman sa-həsində strategiyası və fəaliyyət proqramı çərçivəsində idmanda dopinqin qarşısının alınmasına və onun aradan qaldırılması üçün **mübarizəyə töhfə** verməkdir. Konvensiyada həmçinin iştirakçı-dövlətlər tərəfindən **milli səviyyədə antidopinq fəaliyyətinin həyata keçirilməsini** müəyyən edən **zəruri müddəalar** da nəzərdə tutulur və bu istiqamətdə beynəlxalq əməkdaşlıqla bağlı **müvafiq hüquqlar** müəyyənləşdirilir, habelə dopinqlə effektli mübarizə aparilması kontekstində təhsil və kadr hazırlığı məsələlərinə toxunulur.

Sözügedən konvensiya BMT Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, UNESCO-nun Baş Direktorunun müraciəti əsasında Birləşmiş Millətlər Təşkilatının Katibliyində **qeydə alınmışdır**. Konvensiya, o cümlədən onun əlavələri **ərəb, çin, ingilis, fransız, rus** və **ispan** dillərində hazırlanmışdır, altı mətn eyni dərəcədə **autentikdir**. Konvensiyaya əlavələr də göstərilən eyni altı dildə tərtib edilmişdir.[2]

---

[1] Bax: https://www.un.org/ru/documents/decl_conv/conventions/doping_in_sport.shtml (01.04.2022-ci il).

[2] Ümumiyyətlə, bu və adlarını çəkdiyimiz digər normativ hüquqi aktlar barədə ətraflı bax : Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.74-78; Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. – Москва: Проспект, 2021, с.166-179.

Beləliklə, İdmanda dopinqlə mübarizə haqqında Beynəlxalq Konvensiya (2005-ci il) **qlobal miqyasda** qüvvədədir və dövlətlərə idmanda etik, eləcə də sosial dəyərlərə zərbə vuran, habelə idmançıların həyatını ciddi təhlükə altına qoyan bu **"dopinq taunu"** ilə mübarizə istiqamətində beynəlxalq səviyyədə razılaşdırılmış fəaliyyətin həyata keçirilməsi üçün **hüquqi əsas** verir.

Göründüyü kimi, müasir dövrdə hər bir ölkədə dopinq preparatları və metodlarından istifadəyə qarşı mübarizə aparılması sahəsində **dövlət siyasəti** bu istiqamətdə ciddi nəzarətin həyata keçirilməsinə, müvafiq məsuliyyətin müəyyən edilməsinə və idmanda antidopinq pozuntuların aradan qaldırılmasına yönəldilmişdir.

9.2. Dopinq nəzarəti və onun təşkilati-hüquqi əsasları

Hər şeydən əvvəl, qeyd edək ki, **dopinq nəzarəti** dedikdə sınaqların planlaşdırılması və aparılması, dopinq nümunələrinin toplanması, saxlanması və daşınması, laboratoriya təhlili, nəticələrin işlənməsi, dinləmələrin və apellyasiya şikayətlərinin keçirilməsini əhatə edən fəaliyyət prosesləri başa düşülür. Beynəlxalq idman qanunvericiliyinə uyğun olaraq, idman sferasında dopinq nəzarəti **məcburi qaydada** keçirilir. Dopinq nəzarəti üzrə **müvafiq tədbirlər** Ümumdünya Antidopinq Agentliyi (ÜADA - WADA), Ümumdünya Antidopinq Məcəlləsi, ÜADA-nın beynəlxalq standartları, habelə milli idman qanunvericilik aktları və antidopinq təşkilatları tərəfindən müəyyənləşdirilən **qayda** və **reqlamentlər** əsasında həyata keçirilir.[1]

[1] Dopinq nəzarətinin həyata keçirilməsi barədə bax: İdmanda dopinq və farmakoloji təminat / Tərtib edən – F.A.Hüseynov. Bakı: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Çap artırma sahəsi, 2002, s.34-39.

Antidopinq təşkilatı - dopinq nəzarəti prosesinin hər hansı elementinin hazırlanması, həyata keçirilməsi və ya tətbiqi ilə bağlı qaydaların müəyyən edilməsinə cavabdeh olan **hüquqi şəxs** sayılır. Bu tip təşkilatlara aşağıdakı **idman qurumları** daxildir:

- Beynəlxalq Olimpiya Komitəsi (BOK);
- Beynəlxalq Paralimpiya Komitəsi (BPK);
- Beynəlxalq idman federasiyaları (BİF);
- Milli Olimpiya Komitəsi (MOK);
- Milli Paralimpiya Komitəsi (MPK);
- Ümumdünya Antidopinq Agentliyi (ÜADA - WADA);
- İrimiqyaslı beynəlxalq idman yarışlarının təşkilat komitələri;
- Milli antidopinq təşkilatları və s.

Dopinq nəzarəti **aşağıdakı tədbirlərin** həyata keçirilməsinə yönəlmişdir:

a) beynəlxalq antidopinq təşkilatları tərəfindən təsdiq edilmiş antidopinq qaydalarının pozulmasına, o cümlədən qadağan olunmuş maddənin və (və ya) metodun istifadəsi və ya istifadəsinə cəhd göstərilməsi hallarına qarşı mübarizə;

b) idmançıların dopinqdənazad qaydada idman yarışlarında iştirak etmək hüquqlarının müdafiə olunması;

c) antidopinq qaydalarını pozmuş idmançılara qarşı idman sanksiyalarının, o cümlədən idman diskvalifikasiyası da daxil olmaqla tətbiq edilməsi;

d) idmanda dopinqin qarşısının alınması və ona qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi məqsədilə, antidopinq proqramlarının işlənib hazırlanmasına və tətbiq edilməsinə müvafiq dəstək göstərilməsi və s.

Dopinq nəzarətinin həyata keçirilməsi ilə bağlı yaranan **idman-hüquq münasibətlərinin subyektləri** qismində idman sahəsində milli icra hakimiyyəti orqanları, idman hazırlığı üzrə milli mərkəzlər, milli antidopinq təşkilatları, WADA tərəfindən akkreditə olunmuş laboratoriya, milli olimpiya komitələri, milli

paralimpiya komitələri, milli idman federasiyaları, idman tədbirlərinin təşkilatçıları, idmançılar, köməkçi personal və s. şəxslər çıxış edirlər. **Köməkçi personal** isə idman yarışında iştirak edən və ya iştirak etməyə hazırlaşan idmançılarla işləyən və ya onları müalicə edən hər hansı məşqçi, təlimatçı, menecer, agent, komanda üzvü, vəzifəli şəxs, tibb işçiləri, masajist və s. şəxsləri əhatı edir.

İdman sferasında dopinq nəzarətinin həyata keçirilməsi işində **Ümumdünya Antidopinq Agentliyi** (ÜADA; World Anti-Doping Agency – WADA) əhəmiyyətli rol oynayır. BOK-un rəhbərliyi altında 1999-cu il noyabrın 10-da idman və hökumət təşkilatlarının təşəbbüsü və İsveçrə mülki qanunvericiliyinə uyğun olaraq yaradılmış ÜADA təşkilatının **əsas vəzifəsi** idman dünyasını **dopinqdən azad** etməkdir. Agentlik idmançıları dopinqin orqanizmə vurduğu zərərlər haqqında maarifləndirmək, ədalətli oyun ideallarını təbliğ etmək, özünə, habelə idmana zərər vurmağa cəhd edənlərin müəyyən olunması və cəzalandırılması üçün səylərin tətbiqi, genişləndirilməsi və əlaqələndirilməsi üçün **idman** və **hökumət təşkilatlarından vəsait** alır.

Müasir idmanda dopinq nəzarəti qaydalarının müəyyən edilməsi və tətbiqi idmançılara yarış meydanında **ədalətli mübarizə** aparmaq üçün **bərabər şərait yaratmaq** üçün zəruridir. Bu kontekstdə ÜADA-nın **dopinq-nəzarət proqramları** xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq idman hüququnun subyekti kimi ÜADA öz hüquqi statusuna görə, **hüquqi şəxsdir** və nizamnamə fəaliyyətini həyata keçirmək üçün **zəruri səlahiyyətlərə** malikdir.[1]

Müasir idman fəaliyyətində dopinq nəzarətinin həyata keçirilməsinin təşkilati-hüquqi əsaslarından biri kimi **Beynəlxalq Olimpiya Komitəsinin Tibb Məcəlləsi** (1994-cü il) təməl və

[1] ÜADA- WADA-nın hüquqi statusu və səlahiyyətləri barədə ətraflı bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М.,: Проспект, 2021, с.167-172.

başlıca sənəd funksiyasını yerinə yetirir.[1] Tibb Məcəlləsində birbaşa göstərilir ki, **idmanda dopinqdən istifadə qadağandır** (maddə 1). O, həm də dopinqlə bağlı qadağan olunmuş **maddələri** və **metodları** aydın şəkildə müəyyən edir. BOK-un Tibb Məcəlləsi Olimpiya oyunlarında iştirak edərkən və ya onlara hazırlıq zamanı idmançılarla işləyən və ya onları müalicə edən **bütün şəxslərə** – idmançılara, məşqçilərə, təlimatçılara, vəzifəli şəxslərə və tibb işçilərinə şamil edilir. Sözügedən Tibb Məcəlləsində təsbit olunmuş müddəalar həm də Olimpiya Hərəkatı çərçivəsində keçirilən və BOK tərəfindən tanınan Beynəlxalq İdman Federasiyaları və ya Milli Olimpiya Komitələri tərəfindən birbaşa və ya dolayısı ilə onların himayəsi altında təşkil edilən, BOK tərəfindən **maliyyələşdirilən** və ya **dəstəklənən** yarışlara şamil olunur. Bu onu ifadə edir ki, idman yarışlarında iştirak edən və ya istənilən şəkildə iştirak etməyə hazırlaşan hər kəs BOK-un Tibb Məcəlləsini **qəbul etmiş sayılır.**

BOK-un Tibb Məcəlləsində əks olunan farmakoloji vasitələrin qadağan olunmuş siniflərinin və qadağan olunmuş metodların **siyahısı** BOK-un Tibb Komissiyasının təklifləri əsasında BOK Ekspertlər Şurası tərəfindən vaxtaşırı dəyişdirilə bilər. Belə siyahı hər il fevralın 1-dən gec olmayaraq dərc olunmalı və BİF qurumlarına paylanmalıdır; dəyişdirilmiş siyahı **həmin il fevralın 1-dən** qüvvəyə minir.

XXI əsrin əvvəlləri Ümumdünya Antidopinq Agentliyi tərəfindən Ümumdünya Antidopinq Proqramının və Ümumdünya Antidopinq Məcəlləsinin **inkişaf təntənəsi** ilə xatırlanır. Burada qarşıda duran **əsas vəzifələr** aşağıdakılardan ibarətdir:

- idmançıların yarışlarda dopinqsiz iştirak etmək barədə **fundamental hüquqlarını müdafiə etmək** və bu məqsədlə bütün idmançılar üçün sağlamlığı, ədaləti və bərabərliyi **təşviq etmək**;
- dopinqi aşkar etmək, məhdudlaşdırmaq və onun tətbiqinin qarşısını almaq üçün həm beynəlxalq, həm də milli

[1] Bax: http://www/wada-ama.orq (02.04.2022-ci il).

səviyyədə razılaşdırılmış və əlaqələndirilmiş effektiv **antidopinq proqramları** yaratmaq.[1]

Ümumdünya Antidopinq Proqramı beynəlxalq və milli antidopinq proqramlarında ən yaxşı təşkilati təcrübələrin uyğunlaşdırılmasını və tətbiqini təmin etmək üçün zəruri olan bütün komponentləri özündə birləşdirir. Onun **əsas komponentləri** bunlardır: 1) Ümumdünya Antidopinq Məcəlləsi; 2) beynəlxalq standartlar; 3) işin təşkili üzrə ən yaxşı qabaqcıl metodların modelləri.

Ümumdünya Antidopinq Məcəlləsi (2003-cü il) Ümumdünya Antidopinq Proqramının əsaslandığı fundamental və universal sənəddir. Onun qəbul edilməsində **məqsəd** dopinqlə mübarizə üçün universal səyləri birləşdirməkdən ibarətdir. Məcəllə dopinqlə mübarizədə ahəngdarlığa nail olmaq üçün razılaşma tələb olunduğu hallarda kifayət qədər **spesifik** və **konkretdir**, eyni zamanda, müəyyən çevikliyə ehtiyac olduqda **universaldır**.

Yarış qaydaları kimi, antidopinq qaydaları da ciddi şəkildə riayət edilməli olan **idman qaydalarıdır**. İdmançılar bu qaydaları yarışlarda iştirakın vacib şərti kimi qəbul edirlər. Məcəllədə müəyyən edilmiş **siyasət** və **minimum standartlar** ədalətli idman rəqabəti üçün səy göstərən çoxsaylı, maraqlı tərəflərin **birgə razılığını** ifadə edir.

Ümumdünya Antidopinq Məcəlləsinin yeni redaksiyası **2015-ci il 1 yanvar** tarixindən qüvvədədir. Məcəllə idman hərəkatı iştirakçıları üçün məcburi olan **qayda** və **rəhbər prinsiplərin** hərtərəfli məcmusunu ehtiva edir; bu da **beynəlxalq idmanda korporativ tənzimləmə** metodunun tətbiq olunmasına bir parlaq nümunədir. ÜADA (WADA) tərəfindən məcəllə-

[1] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с. 521-541.

yə **əlavə şəklində** antidopinq təşkilatları üçün məcburi olan **beş adda** texniki və prosedur əsasnamələr – **beynəlxalq standartlar** işlənib hazırlanmışdır: 1) qadağan olunmuş substansiyaların siyahısı; 2) terapevtik istifadə üçün istisnalar; 3) test aparılması və tədqiqat; 4) laboratoriyaların fəaliyyəti; 5) şəxsi həyatın və informasiyanın müdafiəsi.[1]

Antidopinq proqramının müxtəlif texniki və prosedur komponentləri üçün nəzərdə tutulan **beynəlxalq standartlar** Ümumdünya Antidopinq Məcəlləsini imzalayan tərəflər və hökumətlərlə aparılan məsləhətləşmələr əsasında hazırlanır və ÜADA tərəfindən təsdiq edilir. Onlar antidopinq proqramlarının texniki və prosedur aspektlərinə cavabdeh olan **antidopinq təşkilatları arasında münasibətləri harmonikləşdirmək** məqsədilə yaradılmışdır; beynəlxalq standartlara ciddi riayət olunması məcburidir. Bu standartlar ÜADA-nın İcraiyyə Komitəsi tərəfindən vaxtaşırı onu imzalayan tərəflər və hökumətlərlə **müvafiq məsləhətləşmələrdən** sonra yenidən nəzərdən keçirilə bilər. Beynəlxalq standartlara adıçəkilən məcəllənin müddəalarına riayət etmək üçün zəruri olan bir çox **texniki detallar** daxildir; xüsusilə, onlar Ümumdünya Antidopinq Məcəlləsində nəzərdə tutulan prob nümunələrin götürülməsi, laboratoriya analizləri və laboratoriyaların akkreditasiyası ilə bağlı **müfəssəl tələbləri** müəyyən edirlər. Beynəlxalq standartlara **dəyişikliklər** göstərilən məcəllənin özünə və ya ayrı-ayrı ümumi norma və qaydalara yenidən baxılmadan **edilə bilər**.

Dopinqlə mübarizə praktikasına müasir optimal həllərin tətbiqi məqsədi ilə sözügedən məcəllə əsasında **işin təşkili üzrə ən yaxşı qabaqcıl metodların modelləri** yaradılmışdır. Bu modellər Ümumdünya Antidopinq Agentliyi tərəfindən **tövsiyə olunur** və imzalayan-tərəflər üçün müvafiq **ehtiyaclar əsasında** mümkün sayılır. Bu cür modellər üzrə sənədləşmənin

[1] Ətraflı bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М.,: Проспект, 2021, с.168-169.

təmin edilməsi ilə yanaşı, WADA maraqlı tərəflər üçün müvafiq **treninq-təlimlər** də təşkil edir.

Şərh olunanları diqqətə çəkərək, qeyd edə bilərik ki, **dopinq nəzarəti** – idmançıların orqanizmində istifadəsi qadağan olunmuş maddələrin olub-olmadığını müəyyən etmək və ya yarışlara hazırlıq üçün qadağan olunmuş metodlardan istifadəni müəyyən etmək və günahkarları cəzalandırmaq məqsədilə, onlardan bionümunələrinin götürülməsi və müayinəsi də daxil olmaqla, **xüsusi kompleks tədbirlər sistemidir**. Bununla yanaşı, dopinq siyahısı **əvvəlcədən** idmançıların, məşqçilərin və komanda rəhbərlərinin **diqqətinə çatdırılmalıdır**.

Müasir dövrdə belə bir qayda formalaşmışdır ki, əgər hər hansı ölkənin **dopinq nəzarət xidməti yoxdursa**, o ölkə beynəlxalq **idman yarışlarına evsahibliyi etmək hüququna malik deyildir**. Ona görə də inkişaf etmiş Avropa ölkələrində, habelə digər regionlarda **antidopinq orqanları yaradılmış** və bu məsələnin tənzimlənməsinə hər bir ölkədə **milli qanunvericilik aktları** həsr edilmişdir.

Nümunə qismində qeyd edək ki, Azərbaycanda idmançıların hazırlıq prosesinə respublika idman qanunvericiliyi əsasında milli qurum tərəfindən bilavasitə dopinq nəzarəti **2016-cı ildən** tətbiq olunmağa başlanmışdır. Belə ki**, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu** 29.11.2016-cı il tarixdə qəbul edilmiş (№ 447-VQ), onun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidenti 14 dekabr 2016-cı il tarixli 1158 nömrəli Fərman imzalamış və bununla da **idman qanunvericiliyi təkmilləşdirilmişdir.**[1] Adıçəkilən qanuna müvafiq olaraq**,** idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə məqsədi ilə **milli antidopinq qurumu** (maddə 5), habelə digər müstəqil strukturlar - **terapevtik istifadəyə icazə qurumu** (maddə 11), **intizam qurumu** (maddə 13) və **apellyasiya qurumu** (maddə 16) yaradılmışdır. Qanunda həm

[1] Bax: http://www.e-qanun.az/framework/34360 (03.04.2022-ci il).

də idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı aparılan mübarizə sahəsində **Respublika idman federasiyalarının məsuliyyətinə** dair müvafiq norma təsbit edilmişdir (maddə 21), eləcə də **dopinq-nəzarət münasibətlərinin** tənzimlənməsinin digər aspektlərinə toxunulur.

Göstərilən qanundamilli antidopinq qurumunun aşağıda sadalanan **vəzifələri** müəyyənləşdirilmişdir (maddə 7):

- idmançıların və onların köməkçi heyətinin hüquqlarını və idmançıların sağlamlığını qorumaq məqsədi ilə idmanda dopinqsiz iştirakı təbliğ etmək;
- idmanda dopinqdən istifadənin qarşısının alınması məqsədi ilə maarifləndirmə fəaliyyətini həyata keçirmək;
- idmanda dopinqdən istifadənin qarşısının alınması və onunla mübarizə ilə bağlı strategiyanı hazırlamaq;
- idman subyektlərindən toplanmış bionümunələrin testlərinin keçirilməsi daxil olmaqla ölkədə antidopinq fəaliyyətini təmin etmək;
- antidopinq ilə bağlı qayda və beynəlxalq standartların tətbiq olunmasını təmin və təbliğ etmək;
- bionümunələrin toplanması və testin keçirilməsi ilə bağlı prosedurlar haqqında idmançıları və onların köməkçi heyətini məlumatlandırmaq;
- antidopinq ilə bağlı qaydalara və beynəlxalq standartlara uyğun olaraq idmançılardan bionümunələri toplamaq və onların test üçün ÜADA tərəfindən akkreditasiya edilmiş laboratoriyalara təhlükəsiz şəkildə daşınmasını təmin etmək;
- ÜADA-nın göstərişlərinə uyğun olaraq bütün qadağan olunmuş maddələrlə bağlı məlumatları saxlamaq;
- idmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan olunmuş dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək və s.

Eyni zamanda, qeyd etməliyik ki, milli antidopinq qurumu aşağıdakı **hüquqlara** malikdir (maddə 8):

- bionümunələrin analizi üçün ÜADA-nın akkreditasiyadan keçirdiyi laboratoriyalardan istifadə etmək;
- bu Qanunun icrası məqsədi ilə müvafiq sübutları əldə etmək və araşdırmaq, lazımi şəxsləri belə araşdırmaya cəlb etmək;
- milli antidopinq qurumu səlahiyyətlərinin icrası məqsədi ilə, bu Qanuna uyğun olaraq, qaydalar müəyyən etmək və sairə hüquqlar.

İdmanda dopinq münasibətlərinin nizama salınması məqsədilə, **"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa** da (2009-cu il) müvafiq əhəmiyyətli dəyişikliklər edilmişdir (məsələn, Maddə 2.Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, Maddə 8.Bədən tərbiyəsi və idman subyektləri, Maddə 11.Respublika idman federasiyalarının hüquqları və vəzifələri, Maddə 12-1.Milli antidopinq qurumu, Maddə 31.İdmanda dopinq vasitələrindən və (və ya) üsullarından istifadəyə qarşı fəaliyyət və s.).

Adıçəkilən qanuna edilmiş dəyişiklikdən sonra onun 31-ci maddəsi yeni redaksiyada, məzmun etibarilə, özündə **mütərəqqi müddəaları** təsbit edir. Belə ki, idmançılar tərəfindən, habelə idman yarışlarında iştirak edən heyvanlara münasibətdə dopinq vasitələri və (və ya) üsullarından **istifadə olunmasına yol verilmir**. İdmanda istifadəsi qadağan olunmuş dopinq vasitələri və (və ya) üsullarının siyahısı "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya və Ümumdünya Antidopinq Məcəlləsi ilə müəyyən edilir.

Dopinq nəzarəti "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq, dopinq testlərinin keçirilməsinin planlaşdırılması, bionümunələrin toplanılması, çatdırılması, laboratoriya tədqiqatları, nəticələrin yox-

lanılması, terapevtik istifadə üçün icazə alınması, dinləmələrin keçirilməsi və apellyasiya baxışlarından ibarət olan prosesdir.

Dopinq vasitələrindən və (və ya) üsullarından **istifadəyə qarşı tədbirlər** aşağıdakılardan ibarətdir:

- beynəlxalq və respublika idman yarışlarının keçirilməsi zamanı icbari dopinq nəzarətinin müəyyən edilməsi;
- dopinq vasitələrindən və (və ya) üsullarından istifadəyə, həmçinin onlardan istifadəyə məcbur etməyə və ya istifadəni təbliğ etməyə görə məsuliyyətin müəyyən edilməsi;
- dərman vasitələrinin və qidaların tərkibinə dopinq vasitələri əlavə etməklə onların saxtalaşdırılmasına, belə dərman vasitələrinin və qida məmulatlarının satılmasına, həmçinin dopinq vasitələrinin hazırlanmasının, istehsalının, istifadəsinin vasitə və üsulları, onların əldə edilməsi mümkün olan yerlər haqqında məlumatların yayılmasına görə məsuliyyətin müəyyən edilməsi;
- dopinq vasitələrindən və (və ya) üsullarından istifadənin qarşısının alınması;
- dopinq nəzarətini həyata keçirən mütəxəssislərin peşəkarlığının artırılması;
- bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən təhsil müəssisələrinin təhsil proqramlarına dopinq vasitələrindən və (və ya) üsullarından istifadənin idmançı orqanizminə zərəri barədə bölmələrin daxil edilməsi;
- kütləvi informasiya vasitələrində antidopinq təbliğatının aparılması;
- dopinq nəzarətinin yeni üsullarının işlənib hazırlanması sahəsində elmi tədqiqatların aparılması;
- dopinq nəzarəti qaydalarının pozulmasına görə bədən tərbiyəsi-idman təşkilatlarının, idmançıların, məşqçilərin, həkimlərin və digər mütəxəssislərin məsuliyyətinin müəyyən edilməsi.

Dopinq nəzarətinin yerinə yetirilməsi qaydaları və bununla bağlı aşkar edilmiş pozuntulara görə **cavabdehlik**, bu sahədə

idarəetməni həyata keçirən qurumların, idman subyektlərinin **hüquq** və **vəzifələri** " İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Respublika idman federasiyaları dopinq nəzarəti sahəsində tədbirlər həyata keçirməli, dopinq vasitələri və (və ya) üsullarından istifadə edən idmançılara və onları dopinq vasitələri və (və ya) üsullarından istifadə etməyə məcbur edən şəxslərə qarşı **müvafiq tədbirlər** görməlidirlər.

İdman tədbirlərinin **təşkilatçıları** beynəlxalq idman təşkilatlarının şərtlərinə, qərarlarına və qanunvericiliyin tələblərinə riayət etməklə dopinq nəzarətinin keçirilməsi üçün **müvafiq şərait** yaratmalıdırlar.

Yuxarıda şərh olunanlardan göründüyü kimi, bu gün **antidopinq standartları** həm beynəlxalq, həm də milli səviyyədə müxtəlif qaydalar arasında, sanki, "səpələnmişdir". Bu baxımdan, **dopinq nəzarəti problemi** beynəlxalq idman təşkilatlarının antidopinq qaydaları normalarının, yerli strukturların, eləcə də müxtəlif ölkələrin milli idman federasiyalarının bu mövzuda qəbul etdikləri normativ aktlardakı **hüquq normaların unifikasiyası** vacib məsələ kimi BİH elminin qarşısında durur. Çünki, idman fəaliyyətinin effektiv və səmərəli şəkildə həyata keçirilməsi kontekstində bu cür **əsas norma və prinsiplər** bütün səviyyələrdə - həm beynəlxalq, həm də milli səviyyədə eyni olmalıdır. Hal-hazırda müxtəlif beynəlxalq idman federasiyaları və digər idman təşkilatları tərəfindən bu problemin həlli istiqamətində **effektiv səylər** göstərilir.

9.3.İdmanda dopinqdən istifadəyə görə məsuliyyət

İlk növbədə, **məsuliyyət anlayışının** mahiyyətinə aydınlıq gətirik. Hüquqi və demokratik cəmiyyətdə qanunun aliliyinin təmin olunmasında və hüquq qaydalarına riayət edilməsində hər bir qanun pozuntusu faktına görə məsuliyyətin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, Azərbay-

can Respublikasının Konstitusiyasında məsuliyyət anlayışına dair ayrıca norma təsbit olunmuşdur ki, həmin normaya görə, qanunların pozulması, habelə qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən **məsuliyyətə səbəb** olur (maddə 80).

Məsuliyyətin **müxtəlif növləri** fərləndirilir: sosial məsuliyyət, mənəvi məsuliyyət, siyasi məsuliyyət və hüquqi məsuliyyət. **Sosial məsuliyyət** daha əhatəli və ümumiləşdirilmiş anlayışdır. Bu məsuliyyət növü ictimai həyatdakı bütün məsuliyyət növlərini özündə birləşdirir. Bu kontekstdə qeyd edə bilərik ki, **hüquqi məsuliyyət** sosial məsuliyyətin bir növü kimi çıxış edir.

Hüquq ədəbiyyatı səhifəsində göstərildiyi kimi, **"məsuliyyət" ifadəsi** kifayət qədər geniş anlayışdır; o, fəlsəfədə, sosiologiyada, hüquqda və digər sahələrdə işlədilir.[1] Biz məsuliyyət anlayışını **hüquqi mənada** işlədirik və onun **iki forması** fərləndirilir:

- hüquqi cəhətdən məsuliyyət hüquq normalarında nəzərdə tutulan tənbeh tədbirlərinin məcmusunu ehtiva edir;
- məsuliyyət hüquqi qurum kimi tənbeh tədbirlərini müəyyənləşdirən müvafiq hüquq normalarının sistemini yaradır.

Məsuliyyət **çoxcəhətli anlayış** olmaqla, hər bir şəxsin cəmiyyət qarşısında mənəvi borcu və hüquq normalarına əməl olunması ilə fərqlənən əxlaqi və hüquqi kateqoriyadır. Məsuliyyət anlayışı **geniş mənada** – cəmiyyət tərəfindən mühakimə olunan əməllər törətmiş şəxsin üzərinə onun etdiyi əməllərin mənfi nəticələrinə məruz qalmaq öhdəliyinin qoyulması deməkdir. **"Məsuliyyət" termini** əksər hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçi-rilməsinə görə müvafiq tədbir mənasında da işlədilir. Bu, **pozitiv**

[1] Məsələn, bax: Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı, 2002; Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2001; Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Bakı, 2010 və s.

məsuliyyət sayılır və faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir. Pozitiv məsuliyyətdən fərqli olaraq, hüquqazidd əmələ (hüquq pozuntusuna) görə məsuliyyət **retrospektiv məsuliyyət** adlanır. Burada məsuliyyət anlayışı hüquq pozuntusu anlayışı ilə sıx surətdə bağlıdır. Hüquq pozuntusu şəxsin məsuliyyət ölçüsünün müəyyən olunması üçün əsas sayılır.

Deməli, məsuliyyət, mahiyyətcə, özünün xüsusi orqanları simasında dövlətlə hüquq pozuntusuna görə cavab vermək vəzifəsi daşıyan şəxs arasındakı hüquqi münasibəti ifadə edir. Belə halda hüquq pozuntusu bu növ hüquqi münasibətin yaranması üçün **hüquqi fakt** rolunu oynayır. Deyilənləri bütövlükdə idman fəaliyyəti sferasında qadağan olunmuş dopinq maddələrindən və üsullarından istifadə nəticəsində yaranan idman-hüquq münasibətlərinə də aid etmək olar. **Hüquq pozuntusu** dedikdə anlaqlı vəziyyətdə olan və müəyyən yaş həddinə çatan şəxsin (subyektin) təqsirli, hüquqazidd elə bir **davranışı** başa düşülür ki, bu davranış cəmiyyətə, dövlətə və ya ayrı-ayrı şəxslərə zərər vurur və hüquqi məsuliyyətə səbəb olur.[1]

Məsuliyyət hər hansı digər ictimai kateqoriya kimi **sosial təyinata** malikdir. Bu, hüquq pozuntusuna görə ədalətli, əsaslı və qanuni cəzalandırma yolu ilə ictimai qaydanı mühafizə etməkdən ibarətdir. Eyni zamanda, məsuliyyət bu vəzifəni yerinə yetirməklə yanaşı, insanları qanuna tabe olmaq və ona hörmət etmək **ruhunda tərbiyələndirir**, hüquq pozuntusunun **qarşısını almaq vasitəsi** kimi çıxış edir.

Hüquq normalarında nəzərdə tutulduğuna görə onlar **hüquqi məsuliyyət tədbirləri** adlanır. **Hüquqi məsuliyyət** dedikdə hüquq normalarında nəzərdə tutulan elə tədbirlər başa düşülür ki, bu tədbirlərin tətbiq edilməsi nəticəsində hüquq pozuntusu törədən şəxs üçün mənfi nəticə yaranır. **Mənfi nəticə** (əlavə yük) isə özünü hüquq

pozuntusu törədən şəxsə **əlavə vəzifə** həvalə olunmasında və yaxud da həmin şəxsin malik olduğu **hüquqdan məhrum**

[1] Bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.146-147.

edilməsində və ya belə hüququn, necə deyərlər, **məhdudlaşdırılmasında** biruzə verir.[1] Hüquqi məsuliyyət həm də törədilmiş hüquq pozuntusuna **qiymət verilməsindən** ibarətdir və həmişə əməlin özünün **qınanılmasını**, eləcə də bu əməlin törədilməsində iştirak edən şəxsin **mühakimə** olunmasını ifadə edir.

Qeyd etməliyik ki, idman fəaliyyəti sahəsində **hüquqi məsuliyyət institutu,** idman hüquqi məsuliyyət institutu sahəvi əlamətlərə (elementlərə) görə **aşağıdakı kimi** təsnifləşdirilir:

- cinayət hüquq məsuliyyəti institutu;
- inzibati hüquq məsuliyyəti institutu;
- mülki hüquq məsuliyyəti institutu;
- intizam hüquq məsuliyyəti institutu.

Əgər hüquq pozuntusu cinayət törədilməsi halları ilə bağlıdırsa, onda **cinayət hüquq məsuliyyəti** yaranır. İnzibati xətalara yol verilən hallarda **inzibati hüquq məsuliyyəti**, əmlak, həyat və sağlamlığa zərər vurulduğu hallarda **mülki hüquq məsuliyyəti**, qulluq və ya xidməti fəaliyyət intizamı pozulduğu hallarda isə **intizam hüquq məsuliyyəti** əmələ gəlir.

İdman fəaliyyəti sahəsində hüquqi məsuliyyət institutu müəyyən **funksiyalar** yerinə yetirir ki, onlar repressiv funksiya, preventiv funksiya, bərpaedici funksiya, stimullaşdırıcı funksiya və siqnalverici funksiya adlanır.

Repressiv funksiya onu ifadə edir ki, idman fəaliyyəti sahəsində hüquqi məsuliyyət institutu bu funksiya vasitəsilə təqsirkar şəxsi (məsələn, dopinq qəbul etmiş şəxsi) idman-hüquq pozuntusu törətdiyinə görə tənbeh edir, onu cəzalandırır. Bu funksiya cərimə və ya cəzaverici funksiya da adlanır. **Preventiv funksiya** o deməkdir ki, bu funksiya vasitəsi ilə idman fəaliyyəti sahəsində gələcəkdə baş verə biləcək hər hansı idman-hüquq pozuntusunun qarşısı alınsın, yəni idman-hüquq sub-

[1] Hüquqi məsuliyyət (ing.juridical liability / responsibility) anlayışı, onun əsas funksiyaları və növləri barədə bax: məsələn, Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М., 2005, с.949; Hüquq ensiklopedik lüğəti / Baş redaktorlar: Dadaşzadə A.M., Vəliyev İ.Ö. Bakı, 1991, s.512 və b.

yektlərinə tərbiyəvi təsir göstərir. Ona görə də, bu funksiya, bəzən, tərbiyələndirici funksiya da adlanır. İdman hüququnda **bərpaedici funksiyanın** mahiyyəti ondan ibarətdir ki, idman-hüquq pozuntusu nəticəsində zərərçəkən şəxsin düşdüyü ziyanın əvəzinin ödənilməsi, onun pozulmuş hüquq və mənafelərinin bərpa olunması bu funksiya sayəsində təmin edilir. Bu baxımdan, bərpaedici funksiya kompensasiya funksiyası da adlanır. İdman hüququnda **stimullaşdırıcı funksiyanın** mahiyyəti ondan ibarətdir ki, hüquqi məsuliyyət institutu bu funksiya vasitəsilə idman-hüquq münasibətləri iştirakçılarını lazımınca davranmağa meyilləndirir. Ona görə də, stimullaşdırıcı funksiya, bəzən, təkanverici funksiya da adlanır. **Siqnalverici funksiya** isə o deməkdir ki, idman hüquqi məsuliyyət institutu bu funksiyanın köməyi sayəsində idman-hüquq pozuntusunun yaranmasına şərait yaradan davranışın qüsurlu olması barədə məlumat verir; əgər bu cür məlumat verilməzsə, onda idman-hüquq pozuntusuna yol verilə bilər. Bu funksiyanı, eyni zamanda, xəbərdarlıq etmək funksiyası kimi də adlandırırlar.[1]

İdman hüquqi məsuliyyət institutunun əsas mahiyyəti və sosial istiqaməti onun **prinsiplərində** təzahür edir. Bu prinsiplər, bir qayda olaraq, idman haqqında qanunvericilik aktlarında öz əksini tapmışdır; onların sırasına labüdlük prinsipi, məsuliyyətin fərdiləşdirilməsi prinsipi, zərərin tam həcmdə ödənilməsi prinsipi, təqsirə görə məsuliyyət prinsipi və s. Prinsiplər daxildir.

İdman hüququnda **labüdlük prinsipi** onu bildirir ki, idman fəaliyyəti sahəsində hər hansı bir idman-hüquq pozuntusu törədən şəxs hüquqi məsuliyyətə cəlb edilməlidir. İdman hüququnda **məsuliyyətin fərdiləşdirilməsi prinsipi** dedikdə idman hüquqi məsuliyyət tədbiri törədilmiş idman-hüquq pozuntusunun ictimai təhlükəlilik xarakteri və dərəcəsi, hüquq pozuntusu törədən şəxsin təqsir forması, əməlin zərərlilik dərəcəsi və digər amillər nəzərə alınmaqla tətbiq edilir. İdman

[1] Bu münasibətlərin şərhi barədə daha ətraflı bax: məsələn, Əliyev E.Ə. Polis hüququ. Dərslik. II nəşr. Bakı, 2019, s.249-258.

hüququnda tətbiq edilən **zərərin tam həcmdə ödənilməsi prinsipi** onu ifadə edir ki, idman-hüquq pozuntusu törədildikdə zərərvuran subyekt zərərin əvəzini ya natura şəklində ödəyir, ya da kompensasiya edir. İdman fəaliyyəti sferasında tətbiq edilən prinsiplərdən biri də **təqsirə görə məsuliyyət prinsipidir**. Bu prinsip onu ehtiva edir ki, idman-hüquq pozuntusu törədən şəxs yalnız təqsiri olduqda, həmin pozuntuya görə məsuliyyət daşıyır; əgər həmin şəxsin təqsiri yoxdursa, o, hüquqi məsuliyyətə cəlb edilə bilməz.[1] İdman hüququnda **təqsir** dedikdə idman-hüquq pozuntusu törədən şəxsin ona həvalə edilmiş vəzifənin icrası üçün özündən asılı olan bütün mümkün tədbirləri görməməsi başa düşülür ki, həmin hüquqi pozuntu onun cavabdeh olduğu haldan irəli gəlir.

Qeyd etmək lazımdır ki, **idman-hüquq pozuntusunun** törədilməsi halları idman fəaliyyətinə hüquqi nəzarətin həyata keçirilməsi prosesində aşkarlanır və bunun da nəticəsində müvafiq məsuliyyət tədbirləri görülür.

Qeyd etmək lazımdır ki, **"idman-hüquq məsuliyyətinin əsasları"** və **"idman-hüquq məsuliyyətinin şərtləri"** kimi iki anlayış sinonim anlayışlar hesab edilmir. Göstərilən anlayışlar bir-birilə nə qədər qarşılıqlı əlaqədə olsa da, onlar məna və məzmunca üst-üstə düşmürlər.

Belə ki, idman hüququnda **məsuliyyətin əsası** dedikdə, idman fəaliyyəti sahəsində zərərçəkənin subyektiv hüquqlarının pozulmasına (hüquq pozuntusuna) dəlalət edən hüquqi fakt – zərərin mövcudluğu başa düşülür. **Zərər** anlayışının məna yükü altında isə hüququ pozulmuş (zərərə məruz qalmış) şəxsin (idmançının) düşdüyü və düçar olduğu elə maddi itki ehtiva olunur ki, bunun nəticəsində onun əmlakı və ya malik olduğu şəxsi qeyri-maddi nemətləri azalır. Bu o deməkdir ki, hüquq pozuntusu nəticəsində zərərçəkən şəxsin ya əmlakına ziyan dəyir, ya da onun malik olduğu şəxsi qeyri-maddi nemətlərə

[1] Məsələn,Azərbaycan Respublikasının Konstitusiyası ilə təqsirsizlik prezumpsiyası müəyyənləşdirilmişdir (maddə 63). Belə ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır.

(həyat və sağlamlığa, şərəf və ləyaqətə, şəxsiyyət, idman titulu və s.) zərər vurulur. O, hüquqi məsuliyyətin məcburi, zəruri və labüd əsasıdır.

İdman fəaliyyəti sferasında hüquqi **məsuliyyətin şərtləri** dedikdə isə qanunvericilik aktlarında nəzərdə tutulan elə tələblər başa düşülür ki, bu tələblər əsasında hüquq pozuntusu (zərər vurulması) faktına hüquqi qiymət verilir və müvafiq məsuliyyət tədbiri tətbiq edilir. Həmin **şərtlər** (tələblər) idman fəaliyyəti sferasında hüquqi məsuliyyətin əsasını – hüquq pozuntusu faktını xarakterizə edir və onlara **aşağıdakılar** aiddir: 1) şəxsin (hüquq pozuntusu törədən şəxsin) hüquqazidd davranışı; 2) həmin şəxsin (hüquq pozuntusu törədən şəxsin) hüquqazidd davranışı ilə vurulmuş zərər faktı (nəticə) arasında səbəbiyyət əlaqəsi; 3) həmin şəxsin (hüquq pozuntusu törədən şəxsin) təqsiri.

Yuxarıda qeyd etdik ki, idman fəaliyyəti sahəsində **cinayət hüquq məsuliyyəti** institutu mövcuddur; söhbət idman sferasında dopinq problemindən gedir. Belə ki, **cinayət qanunu** Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən (CM) ibarətdir. **CM-in 143-1-ci maddəsinə** müvafiq olaraq, məhz dopinq maddələrindən və (və ya) metodlarından istifadəyə məcbur etmə cinayət əməli sayılır, belə cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növləri, həddi və həcmi müəyyənləşdirilir: beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılma nəzərdə tutulur.[1]

İdman fəaliyyəti sahəsində **inzibati hüquq məsuliyyəti** institutu da formalaşmışdır. Bu o deməkdir ki, idman sferasında inzibati xəta törədildikdə müvafiq hüquqi məsuliyyət yaranır.

İnzibati xəta anlayışının məna yükü, əsasən, dövlət or-qanlarının icra-sərəncam fəaliyyəti sahəsindəki münasibətlərə (dövlət idarəçilik münasibətlərinə), mülkiyyətə, idmançıların hüquq və qanuni mənafelərinə, onların sağlamlığına, ictimai

[1] Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, s.106.

qayda və ictimai təhlükəsizliyə qəsd edən hüquq pozuntularını əhatə edir. Təbii ki, bununla bağlı qayda pozan idmançıya qarşı müvafiq **inzibati məcburiyyət tədbirləri** tətbiq edilir. İnzibati xətalar qanunvericiliyində müəyyənləşdirilmiş əsaslara görə, yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (İXM) ilə nəzərdə tutulmuş **inzibati xətaların törədilməsində təqsirli** hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli törətmiş şəxs **inzibati məsuliyyətə** cəlb olunur və tənbeh edilir (İXM, maddə 3). İnzibati xətanın **obyekti** kimi aşağıda göstərilən əməllər inzibati xəta sayılır, məsələn:

Dopinq vasitələrindən və (və ya) üsullarından istifadə və ya istifadəni təbliğ etmə (İXM, **maddə 224** – fiziki şəxslər əlli manatdan yüz manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir);

Dərman vasitələrinin və qidaların tərkibinə dopinq vasitələri əlavə etməklə onların saxtalaşdırılması, satılması, həmçinin dopinq vasitələrinin hazırlanmasının, istehsalının, istifadəsinin vasitə və üsulları, onların əldə edilməsi mümkün olan yerlər haqqında məlumatların yayılması (İXM, **maddə 225**, o cümlədən:

225.1. Dərman vasitələrinin və qidaların tərkibinə dopinq vasitələri əlavə etməklə onların saxtalaşdırılmasına və ya satılmasına görə – fiziki şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir;

225.2. Dopinq vasitələrinin hazırlanmasının, istehsalının, istifadəsinin vasitə və üsulları, onların əldə edilməsi mümkün olan yerlər haqqında məlumatların yayılmasına görə - fiziki şəxslər əlli manatdan yüz manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir).

Dopinq nəzarəti qaydalarının pozulması (İXM, **maddə 226**. Bədən tərbiyəsi-idman təşkilatları, idmançılar, məşqçilər, hə-

kimlər və digər mütəxəssislər tərəfindən dopinq nəzarəti qaydalarının pozulmasına görə – yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir).[1]

İdman fəaliyyəti sferasında baş verən əmlak, həyat və sağlamlığa zərər vurulması hallarında **mülki hüquq məsuliyyəti** yaranır. Ölkəmizdə bununla bağlı idman-hüquq pozuntularının törədilməsində təqsirli olan şəxslərin mülki-hüquqi məsuliyyətinə aid məsələlər **mülki qanunvericilik** ilə nizama salınır. Mülki qanunvericilik isə Azərbaycan Respublikasının Konstitusiyasına (1995-ci il) əsaslanır və Azərbaycan Respublikasının 28.12.1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş MM, MPM, həmçinin "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il), "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2016-cı il) və digər normativ hüquqi aktlardan, onların əsasında qəbul edilmiş və mülki hüquq normaları müəyyənləşdirən başqa hüquqi aktlardan ibarətdir. Bu sıraya 04.11.1999-cu il tarixdə Strasburq şəhərində Avropa Şurası çərçivəsində qəbul edilmiş "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiya da aiddir.[2]

Mülki hüquq məsuliyyəti məsələlərinin nizama salınmasında MM vacib rol oynayır; məsələn, **idman-yarış nəqliyyat vasitəsilə** yol nəqliyyat hadisəsi törədildikdə dəyən zərərə görə məsuliyyət MM-də təsbit olunmuş xüsusi norma ilə (**Maddə 1108.Ətrafdakılar** üçün yüksək təhlükə yaradan fəaliyyətlə vurulmuş zərərə görə məsuliyyət) tənzimlənir. Həmçinin fiziki şəxsin həyat və sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi qaydalarına ayrıca maddələr həsr edilmişdir: misal üçün,

[1] Bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, s.163-164.

[2] Adıçəkilən konvensiya Azərbaycan Respublikasının 30.12.2003-cü il tarixli 571-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir // Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı. Bakı, 2009, s.318-365.

Maddə 1117.Müqavilə öhdəliklərinin və ya digər vəzifələrin icrası zamanı fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi; **Maddə 1118**.Sağlamlığı pozmaqla vurulmuş zərərin əvəzinin ödənilməsi həcmi və xarakteri; **Maddə 1119.**Sağlamlığın pozulması nəticəsində itirilmiş qazancın (gəlirin) müəyyənləşdirilməsi və s.[1]

İdman sferasında ictimai münasibətlərə vurulan zərərin xarakterinə və bununla əlaqədar müəyyən edilən məsuliyyət tədbirlərinə görə hüquq pozuntularının bir növü də **intizam xətası** adlanır. İntizam xətaları dedikdə idman təşkilatların daxili fəaliyyət qaydaları ilə müəyyənləşdirilən normaların, idman-intizam münasibətlərinin pozulması halları başa düşülür. Bu halda **intizam məsuliyyəti** məsələsi ortaya çıxır. Ümumi qaydalara görə, intizam məsuliyyəti hüquqi məsuliyyətin bir növüdür və o, əsasən, idman qanunvericiliyi (idman hüququ), habelə ayrı-ayrı hallarda idmançıların hüquqi statusunu və yarış qaydalarını müəyyən edən normativ hüquqi aktlarla tənzimlənir.

İdman-intizam münasibətlərini təmin etmək üçün müəssisədaxili intizam qaydaları qəbul edilir, müvafiq vəzifə və hüquqlar müəyyənləşdirilir, xüsusi idarəetmə metodları tətbiq olunur. İdman hüququnda üç **əsas metod** fərqləndirilir: inandırma metodu; həvəsləndirmə metodu; məcburetmə metodu.

İnandırma metodu idman hüququnda başlıca metod hesab edilir. Bu metodun mahiyyəti tərbiyə etmək, idmançılara "təmiz oyun" prinsipini təlqin etmək, habelə arzuolunmaz əməllərdən, o cümlədən qadağan olunmuş dopinq maddələrindən və üsullarından çəkinmək üçün onların şüuruna təsir etməkdən ibarətdir.

Həvəsləndirmə metodu dedikdə müxtəlif həvəsləndirmə vasitələri ilə idmançıların mükafatlandırılması başa düşülür. Belə ki, idman fəaliyyəti funksiyasının yüksək peşəkarlıq sə-

[1] Bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Nasir: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, s.605-610.

viyyəsində yerinə yetirilməsində, intizam qaydalarına əməl edilməsində fərqlənmiş idmançılara müxtəlif həvəsləndirmə vasitələri ilə mükafatlandırıla bilər.

Məcburetmə metodunun mahiyyətini isə idman-icra qayda və prosedurlarının pozulmasına, yəni intizam xətasının törədilməsinə görə idmançının intizam məsuliyyətinə cəlb edilməsi və ona intizam tənbehinin tətbiq olunması təşkil edir.

İdman fəaliyyəti ilə əlaqədar intizam xətalarının törədilməsinə görə təqsirli şəxslərə tətbiq edilən intizam hüquq məsuliyyəti tədbirləri idman haqqında **qanunvericilik aktları** ilə müəyyənləşdirilmişdir. Bu **normativ hüquqi bazaya** idman sferasında fəaliyyəti tənzimləyən qanun və qanunqüvvəli aktlar, hökumət qərarları, idman təşkilatlarına dair əsasnamə, konstitusiya, məcəllə, nizamnamə, davranış kodeksi, təlimat, göstəriş, reqlament, tövsiyə və s. normativ aktlar massivi daxildir.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, idmanda dopinqdən istifadəyə görə məsuliyyətlə bağlı **Ümumdünya Antidopinq Məcəlləsində** (2021-ci il) təsbit edilmiş müddəalar xüsusi maraq doğurur. Belə ki, adıçəkilən məcəllədə **fərdi idman növləri** üzrə fəaliyyət zamanı idmançılar tərəfindən yol verilən dopinq-pozuntu faktına görə onlara qarşı **tətbiq edilən sanksiyalarla** bağlı aidiyyəti normativ müddəalar müəyyən edilmişdir. Bu sırada **aşağıdakı qaydalar** əhəmiyyətli rol ounayır:[1]

1. Antidopinq qaydalarının pozulması halları baş verdiyi idman tədbiri zamanı nəticələrin **ləğv edilməsi**. İdman tədbiri zamanı və ya idman tədbiri ilə əlaqədar aşkar edilmiş qayda pozuntularına görə idman tədbirinin təşkilat komitəsinin qərarı ilə nizam-intizamı pozan idmançının nəticələrinin (medal və mükafatların geri alınması da daxil olmaqla) ləğv edilməsinə səbəb ola bilər.

[1] Bu barədə daha ətraflı bax: Международное спортивное право. Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.686-707.

2. Qadağan olunmuş maddələrdən və qadağan olunmuş üsullardan istifadəyə görə **diskvalifikasiya** (idman yarışlarında iştirakdan məhrum edilmə) aşağıdakı hallarda baş verir:

1) idmançıdan götürülmüş **prob nümunəsində** qadağan olunmuş maddələrin və ya onların metabolitlərinin və yaxud markerlərinin olması;

2) nümunələrin təqdim edilməməsi, habelə nümunələrin götürülməsinin qarşısının alınması üçün üzrlü səbəblər göstərilmədikdə, nümunələrin təqdim edilməsinin zəruriliyi barədə idmançıya məlumat verildikdən sonra onların təqdim edilməsindən **imtina olunması** və ya **prob verilməsindən** yayınması;

3) Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, qadağan olunmuş maddələrə və üsullara **malik olmaq**.

Sözügedən Məcəllədə **müəyyən edilmişdir** ki (maddə 10.2.1.), aşağıdakı hallarda 10.2.4-cü maddə nəzərə alınmaqla, hüquqdan məhrumetmə müddəti dörd ildir:

- idmançı və ya digər şəxs antidopinq qaydalarının pozulmasının qəsdən törədildiyini sübut edə bilmədikdə, deməli, antidopinq qaydalarının pozulması müəyyən edilmiş maddə və ya müəyyən metodla əlaqəli deyildir (maddə 10.2.1.1.) ;
- 10.2.1.2 antidopinq qaydalarının pozulması müəyyən edilmiş maddə və ya müəyyən metodla əlaqədardır və antidopinq təşkilatı antidopinq qaydalarının qəsdən pozulması hallarını sübut edir (maddə 10.2.1.2.).

Məcəllənin 10.2.1-ci maddəsində göstərilməyən hallarda, 10.2.4.1-ci maddə nəzərə alınmaqla, **hüquqdan məhrumetmə müddəti** iki ildir (maddə 10.2.2.).

Məcəllənin 10.2 və 10.3-cü maddələrində istifadə edilən **"qəsdən" termini** onun antidopinq qaydalarının pozulması olduğunu **bilə-bilə hərəkətə yol verən** idmançılara və ya digər şəxslərə **istinad etmək** üçün nəzərdə tutulub; eləcə də belə hərəkət antidopinq qaydalarının pozulması ilə nəticələnə bilər və həmin şəxslər bilərəkdən bu **riskə məhəl qoymur** (maddə

10.2.3.). Yalnız yarışda qadağan olunmuş maddəni müəyyən edən **mənfi analitik nəticəyə** əsaslanan, lakin həmin maddənin idmançı tərəfindən **yarışdankənar** istifadə edildiyi təsdiq edilə bildikdə, antidopinq qaydasının pozulması, başqa cür sübut edilmədikdə, qəsdən edilməmiş hesab olunur.

Məcəllənin 10.2-ci maddəsinin hər hansı digər müddəasına baxmayaraq, əgər antidopinq qaydalarının pozulması **asılılıq yaradan maddə** ilə bağlıdırsa (maddə 10.2.4.), idmançı dopinq qəbul ediməsini və ya ondan istifadənin asılılıq deyil, yarışdankənar baş verdiyini sübut edə bilsə (maddə 10.2.4.1.), eləcə də müalicə proqramını qənaətbəxş şəkildə başa vurduqda, bu 10.2.4.1-ci maddəyə uyğun olaraq hesablanmış məhrumetmə müddəti **bir aya qədər azaldıla** bilər.

Tətbiq edilən hüquqdan **məhrumetmə müddətinin azaldılması** idmançı və ya digər şəxs tərəfindən törədilən antidopinq **qayda pozuntusunun ciddiliyinə** və həmin şəxslər tərəfindən göstərilən **əhəmiyyətli yardımın həcminə** əsaslanmalıdır. Eyni zamanda, qeyd etməliyik ki, digər hallarda tətbiq edilən məhrumetmə müddətinin azaldılması həmin müddətin **dörddə üçündən çox olmayan hissəsini** əhatə edə bilər. Lakin, göstərilən hallarda hüquqdan məhrumetmə müddəti **ömürlükdürsə**, Ümumdünya Antidopinq Məcəlləsinə uyğun olaraq, azaldılması mümkün olmayan müddət **səkkiz il** təşkil edir.[1]

3. Mühüm substansiyalar. Qadağan olunmuş Siyahıda mühüm substansiyalar, xüsusi olaraq, **təyin edilə bilər ki**, onların praktiki tətbiqi mümkündür. İdmançının bu maddələrdən öz göstəricilərini yaxşılaşdırmaq üçün istifadə etmədiyi müəyyən edilərsə, **diskvalifikasiya müddəti** aşağıdakı **sanksiyalarla** əvəz edilir:

– ilk dəfə yol verilən pozuntuya görə: minimum - xəbərdarlıq, maksimum – bir il müddətinə diskvalifikasiya;

[1] Bu məsələlər barədə ətraflı bax: https://www.wada-ama.org/sites/default/files/resources / files / 2021_vsemirnyy_antidopingovyy_kodeks.pdf 14.04.2022-ci il).

– ikinci dəfə eyni hüquq pozuntusuna yol verildikdə: iki il müddətinə diskvalifikasiya;
– üçüncü dəfə eyni hüquq pozuntusu törədildikdə: ömürlük diskvalifikasiya.

4. Digər tələblərə əməl edilməməsinə görə sanksiyalar. Bu halda **diskvalifikasiya müddəti** aşağıdakı kimi müəyyən edilir:

– dopinq nəzarətinin istənilən sferasında saxtalaşdırma və ya saxtalaşdırmaya cəhd göstərilməsinə görə: birinci dəfə pozuntu üçün – iki il, ikinci dəfə pozuntu üçün isə – ömürlük diskvalifikasiya;
– hər hansı qadağan olunmuş maddənin və ya qadağan olunmuş metodun yayılması və idmançıya qarşı belə maddə və ya metodun tətbiqi və ya tətbiqinə cəhd göstərilməsinə görə: dörd ildən başlayaraq ömürlük müddətədək diskvalifikasiya cəzası tətbiq edilir.

Eyni zamanda, idmançı tərəfindən antidopinq qaydalarının pozulması halına görə **təqsirkar olan** və **məsuliyyət daşıyan şəxslər** dopinq qəbul edən idmançıdan fərqli olaraq, daha **ciddi cəzaya** məruz qalmalıdırlar.

5. Müstəsna hallara görə diskvalifikasiya müddətinin ləğvi və ya azaldılması. İstisna hallara aşağıdakılar daxildir: 1) qəsd (bilərəkdək törətmənin) və ya səhlənkarlığın olmaması; 2) cüzi təqsir və ya səhlənkarlıq; 3) idmançıya dəstək personalı və digər şəxslər tərəfindən antidopinq qaydalarının pozulmasının aşkar edilməsində idmançıya köməklik göstərilməsi. Bu halda diskvalifikasiya müddəti **iki dəfədən artıq azaldıla** bilməz; əgər pozuntuya görə nəzərdə tutulmuş diskvalifikasiya müddəti ömürlükdürsə, azaldılmış müddət **səkkiz ildən az** ola bilməz.

6. Diskvalifikasiya müddətinin uzadılmasına səbəb ola bilən ağırlaşdırıcı hallar. Bu kontekstdə **ağırlaşdırıcı hallara** misal olaraq, aşağıdakıları göstərə bilərik:

– dopinq qaydalarını pozmaqda təqsirləndirilən idmançı və ya digər şəxs tərəfindən qaydaların pozulması fərdi

və ya əlbir olaraq həyata keçirilən **dopinq planının** və ya **sxeminin tərkib hissəsi**, yaxud qaydaların pozulmasına **qrup şəklində cəhd göstərilməsi** kimi baş verdikdə;

- idmançı və ya bu işə cəlb edilmiş digər şəxs tərəfindən qadağan olunmuş **maddələrdən** və ya qadağan olunmuş **metodlardan** istifadə edilməsi və ya onlara **çoxlu miqdarda** malik olma, yaxud **bir neçə dəfə** həmin maddə və ya üsuldan istifadə edilməsi;
- başqa bir hal üçün cəza tədbiri kimi təyin edilmiş **diskvalifikasiyanın** standart müddəti bitdikdən sonra idmançı tərəfindən **antidopinq qaydaları pozulmaqla** idman nailiyyətlərinin yaxşılaşdırılması;
- antidopinq qaydalarını pozmaqda təqsirləndirilən idmançı və ya digər şəxs tərəfindən **özünü** həmin qaydaların pozulması hallarının **aşkar** və ya **müəyyən** edilməsinə **mane olacaq şəkildə** aparması.

7. Dəfələrlə edilən pozuntular. Əgər idmançı **təkrar qayda pozuntusunu** törədirsə, pozuntu yalnız o halda təkrar pozuntu hesab edilə bilər ki, Antidopinq Təşkilatı idmançını **ilk qayda pozuntusu** barədə xəbərdar edib və ya bu barədə ona məlumat vermək üçün lazımi tədbirlər görüb. Antidopinq qaydalarının üçüncü dəfə pozulması, ümumi halda, **dəfələrlə edilən pozuntu** kimi dəyərləndirilir və qayda pozan idmançı **ömürlük müddətə** diskvalifikasiya olunur.

8. Prob götürülməsindən sonra yarış nəticələrinin ləğvi. Müsbət dopinq-testi zamanı nəticələrin **avtomatik ləğvi** ilə yanaşı, dopinq və ya digər antidopinq tələblərinin **yerinə yetirilməməsi halı** aşkar edildikdən sonra (həm yarış prosesində, həm də yarışdankənar dövrdə) əldə edilmiş bütün **priz** və **mükafatlar** da ləğv edilməlidir, əgər bu halda yarışların **ədalətli keçirilməsi prinsipini** pozulmayacaqsa.

9. Diskvalifikasiya dövrünün qüvvəyə minməsi. Diskvalifikasiya müddəti dinləmə iclasında bu barədə **müvafiq qərarın**

verildiyi gündən hesablanmağa başlayır. **Müvəqqəti kənarlaşdırma** müddətə də diskvalifikasiya müddətinə daxildir. Halhazırda bir çox antidopinq təşkilatlarında ikiillik diskvalifikasiya müddətinin başlanğıc tarixi **prob götürüldüyü gündən** hesablanır.

10. Diskvalifikasiya zamanı status. Diskvalifikasiya cəza tədbirinə məruz qalmış idmançıya müəyyən **məhdudiyyətlər** tətbiq edilir. Məsələn, diskvalifikasiya olunmuş idmançı diskvalifikasiya dövrü müddətində hər hansı bir dəyərdə idman yarışlarında **iştirak edə bilməz**. Belə idmançı komandaya nə məşqçi kimi, nə də başqa bir rəsmi şəxs kimi daxil ola bilməz. Eyni zamanda, diskvalifikasiya edilmiş idmançıya **veteranların yarışlarında** iştirak etməyə icazə verilir.

11. Qadağa götürülməzdən əvvəl test-sınaq keçirilməsi. Müvəqqəti kənarlaşdırma və ya diskvalifikasiya müddətinin sonunda idmançının idmana qayıtmasının **əsas şərti** kimi onun bu cəzanın qüvvədəolma müddəti ərzində yarışdankənar dövrdə **sınaqdan keçməsi** sayılır.

12.Maliyyə sanksiyalarının tətbiqi. Antidopinq təşkilatları öz xüsusi qaydalarına uyğun olaraq, müvafiq **maliyyə sanksiyaları** tətbiq edə bilərlər. Lakin belə maliyyə sanksiyaları **diskvalifikasiya müddətinin azaldılması** və ya antidopinq qaydalarının pozulması ilə əlaqədar tətbiq edilmiş **digər sanksiyaların ləğvi** üçün əsas sayıla bilməz.[1]

Komanda idman növlərində də dopinqdən istifadəyə görə məsuliyyətlə bağlı müddəaların xüsusiyyətlərinə diqqət yetirilir. Belə ki, komanda idman növləri üzrə hər hansı idman tədbiri zamanı komandanın birdən çox üzvü **şübhəli şəxs qismində** müəyyən edilərsə və o, mümkün antidopinq qayda pozuntu-

[1] Bu məsələlər barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В.Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с. 542-564.

su barədə məlumatlandırılarsa, **bütün komanda heyəti** məqsədli şəkildə müvafiq **test yoxlamasından** keçirilməlidir. Əgər idman tədbiri zamanı komanda üzvləri tərəfindən yol verilmiş **birdən çox antidopinq qayda pozuntusu** aşkar edilərsə, komanda **diskvalifikasiyaya** və ya digər **intizam tənbehinə** məruz qala bilər.

Eyni zamanda, qeyd etməliyik ki, Ümumdünya Antidopinq Məcəlləsinə uyğun olaraq, dopinq kontekstində qəbul edilmiş qərarlardan **apellyasiya şikayəti** verilə bilər. Apellyasiya şikayəti, bir qayda olaraq, **aşağıdakı xüsusatlarda** tərtib edilir:

1.**Antidopinq tələblərinin** yerinə yetirilməməsi, nəticələri və müvəqqəti kənarlaşdırmalara münasibətdə qərarlar üzrə apellyasiya;


2.**Terapevtik istifadə** hüququnun verilməsi və ya rədd edilməsi barədə müvafiq qərarlardan apellyasiya;

3.Ümumdünya Antidopinq Məcəlləsinin 3-cü hissəsinə uyğun olaraq, **əlavə pozuntular** və onların nəticələri haqqında qərarlardan apellyasiya;

4.Laboratoriyalar üçün **akkreditasiyasının** dayandırılması və ya geri götürülməsi barədə qərarlardan apellyasiya və s.

Qeyd edilənlərlə yanaşı, **antidopinq nəzarəti sahəsində** hər bir ölkənin hökuməti, BOK, BPK, BİF, ÜADA, böyük idman yarışlarının təşkilat komitələri, milli olimpiya və paralimpiya komitələri, milli idman federasiyaları, milli antidopinq təşkilatları, idmançı personalı, idmançılar və digər şəxslər **müvafiq funksiyaları** həyata keçirərək, aidiyyəti üzrə **məsuliyyət** də daşıyırlar.

IX FƏSİL ÜZRƏ ƏYANİ SXEM



X FƏSİL
BEYNƏLXALQ İDMAN MÜNASİBƏTLƏRİNDƏ CİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏNİN TƏNZİMLƏNMƏSİ

10.1. İdman sahəsində cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq

Müasir dövrdə dünyada idman münasibətlərində **cinayətkarlığın qarşısının** alınması BİH-in ən vacib **vəzifələri** sırasına daxildir. Bu kontekstdə zəruri tədbirlər, əsasən, **aşağıdakı istiqamətlər** üzrə həyata keçirilir:

- idman sahəsində cinayətkarlığa qarşı mübarizə aparılması;
- idman tədbirləri zamanı təhlükəsizliyin təmin edilməsi;
- idman arenalarında beynəlxalq terrorizmə qarşı mübarizə aparılması;
- beynəlxalq idman münasibətlərində korrupsiya və digər iqtisadi cinayətlərə qarşı müvafiq tədbirlərin görülməsi;
- göstərilən məqsədlərə nail olmaq üçün ölkələr arasında beynəlxalq səviyyədə qarşılıqlı effektiv əməkdaşlığın realizasiyası.

Bununla bağlı yaranan ictimai münasibətləri nizama salmaq məqsədi ilə **BİH strukturunda** "Beynəlxalq idman münasibətlərində cinayətkarlığa qarşı mübarizənin tənzimlənməsi" adlı **hüquq institutu** formalaşmışdır; o, **xüsusi hissənin** mühüm institutlarından biridir.

Hər şeydən əvvəl, qeyd etməliyik ki, **hər bir sivil dövlətdə** sülh və təhlükəsizliyi təmin etmək, insan və vətəndaş hüquqlarının, mülkiyyət, iqtisadi fəaliyyət, ictimai qayda, ətraf mühit və s. münasibətlərin cinayətkar qəsdlərdən qorunması, habelə cinayətlərin qarşısının alınması məqsədilə ayrıca **cinayət qanunu** mövcuddur. Məsələn, Azərbaycan Respublikasında müvafiq **Cinayət Məcəlləsi** (CM, 1999-cu il) qəbul olunmuşdur

ki, onu cinayət qanunu adlandırırlar.[1] CM-in 14-cü maddəsinə görə, bu məcəllə ilə cəza təhdidi aitında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi **cinayət sayılır**.

Elmi ədəbiyyat səhifələrində göstərildiyi kimi, əgər cinayət – vahid davranış aktıdırsa, faktiki törədilən və cinayət cəzası ilə təqib edilən bütün hüquqazidd əməllərin məcmusu **cinayətkarlıq** adlanır. Cinayətkarlığa qarşı aparılan mübarizə tədbirlərində məqsədə çatmaq vasitələridən biri kimi **səmərəli cəza** növlərindən də istifadə edilir.[2] Eyni zamanda, qeyd etməliyik ki, cinayətkarlıq **sosial hal** kimi mürəkkəb fenomendir və kriminologiya elminin əsas tədqiqat obyektidir.[3]

İctimai həyatın digər sahələrində olduğu kimi, **idman fəaliyyəti sferasında** da cinayətkarlığa qarşı mübarizə aparılması müasir dövrün **ən aktual problemlərindən** biridir. Belə ki, çoxşaxəli sosial substrat (əsas mühit) olan **idman** bir sıra aktual, necə deyərlər, "qara" **sosial problemlər** formalaşdırmışdır ki, bunların arasında idmanda **ayrı-seçkilik məsələsi** önə çıxır və bu da son nəticədə idman hərəkatının mahiyyətinə xələl gətirir.[4] Bununla yanaşı, **BMT Nizamnaməsi** (1945-ci il) xalqların əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərlərinə inamını bəyan edir və onların sosial tərəqqiyə və daha yaxşı həyat şəraitinə kömək etmək əzmini təsdiq edir. Həmçinin BMT Baş Assambleyası tərəfindən 1948-ci il dekab-

---

[1] Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 416 s.

[2] Cinayət və cəza, onun əxlaqiliyi və fəlsəfəsi barədə ətraflı bax: Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2014, 320 s.; Rəhimov İ.M. Cinayətkarlıq və cəza. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2015, 320 s.; Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı: «Şərq-Qərb» Nəşriyyatı, 2016, 216 s.

[3] Məsələn,bax: Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, с.693.

[4] Bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.741-750.

rın 10-da qəbul edilmiş **Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin** müddəalarına uyğun olaraq, hər bir şəxs orada elan edilmiş bütün hüquq və azadlıqlardan irqi, dəri rəngi, cinsi, dili, dini, siyasi və ya digər inancları, milli və sosial mənşəyi, əmlakı vəziyyəti və ya digər statusuna görə heç bir fərq qoyulmadan istifadə edə bilər.[1] Eləcə də **"İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası** da (1950-ci il) yuxarıda qeyd olunan əlamətlərə görə şəxsə qarşı hər hansı ayrı-seçkilik halına yol vermir.[2]

Beynəlxalq publik hüququn göstərilən bu fundamental prinsipləri **idman sferasına** da şamil olunur ki, onlar Olimpiya Xartiyasında və beynəlxalq idman hüququnun digər sənədlərində öz əksini tapmışdır. Belə ki, "olimpiya hərəkatında mənsubiyyət əlaməti üzrə bir araya sığmayan ölkə və ya şəxsə qarşı irqi, dini, siyasi, cinsi və ya digər əsaslarla ayrı-seçkiliyin hər hansı forması yolverilməzdir" müddəası **Olimpiya Xartiyasında** yer almışdır.[3] Bu isə o deməkdir ki, bütün idmançılar bərabərdir, yarış və qələbə üçün hamının eyni şəraitdə yarışması mövcud qaydalarla təmin olunur.

Lakin, idman praktikası göstərir ki, beynəlxalq sənədlərin tələblərinə baxmayaraq, **irqi problem, idmanda aparteid və s. diskriminasiya halları**, demək olar ki, beynəlxalq idman fəaliyyətinə, o cümlədən olimpiya oyunları və digər böyük beynəlxalq idman yarışlarına nüfuz etmişdir. Belə diskriminasiya hallarına ən çox ABŞ, Cənubi Afrika Respublikası, Rodeziya

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, s.246-249; Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı:«Nurlar» nəşriyyatı, 2019, s.201-209.

[2] Bax: Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B», 2016, s.584-585; Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı:«Nurlar» nəşriyyatı, 2019, s.210-213.

[3] Bax: https://olyimpic.kz/ru/page/mok və ya www.olyimpic.org (15.04. 2022-ci il).

və digər ölkələrin idman fəaliyyətində rast gəlinir. Eyni zamanda, idman fəaliyyətində görülmüş tədbirlərə rəğmən **irqi ayrıseçkilik problemi** hələ də mövcuddur və yalnız müasir cəmiyyətdə **irqçiliyin tamamilə yox olması** ilə həll ediləcəkdir. Toxunulmuş problemin həlli prosesində **beynəlxalq-hüquqi vasitələr** mühüm yer tutur.

Bu kontekstdə təqdirəlayiq hal kimi, qeyd edə bilərik ki, 16 may 1986-cı il tarixdə Nyu-Yorkda **İdmanda aparteid əleyhinə Beynəlxalq Konvensiya** qəbul olunmuşdur. İştirakçı ölkələr aşağıdakıları **bəyan edərək**, bu konvensiyanı imzalamışlar:

- Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin müddəalarına bütün üzv-dövlətlər irqi, cinsi, dil və ya dinə görə heç bir fərq qoymadan hamı üçün insan hüquqlarına və əsas azadlıqlarına riayət edilməsində ümumbəşəri hörmətə nail olmaq üçün bu təşkilatla əməkdaşlıqda birgə və ayrıca tədbirlər görməyə borclu olmalarını xatırladaraq;
- Ümumdünya İnsan Hüquqları Bəyannaməsində bütün insanların ləyaqət və hüquqlar baxımından, azad və bərabər doğulması, eləcə də hər bir insanın irqi, rəngi və ya milli mənşəyindən asılı olmayaraq, Bəyannamədə təsbit olunmuş hüquq və azadlıqlardan istifadə etməsi barədə müddəanın ehtiva olunmasını nəzərə alaraq;
- Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının idmanda aparteid praktikasının tətbiqini pisləyən bir sıra qətnamələr qəbul etdiyini, eləcə də irq, din və siyasi mənsubiyyətə görə heç bir ayrı-seçkiliyə yol verilməməsi barədə olimpiya prinsipini qeyd-şərtsiz bir daha təsdiqlədiyini, habelə idman tədbirlərində iştirak etmək üçün yeganə meyarın idman göstəricilərinin olduğunu qeyd edərək;
- idmanda aparteid siyasətini həyata keçirən istənilən ölkə ilə idman əlaqələrinin mövcudluğu olimpiya prinsipinin pozulması halı kimi aparteidi həvəsləndirdiyini,

habelə gücləndirdiyini və bununla da bütün hökumətlərdə haqlı narahatlıq oyatdığını qəbul edərək;
- İdmanda aparteidə qarşı Beynəlxalq Bəyannamədə əksini tapmış prinsiplərin həyata keçirilməsinə və bu məqsədlə praktik tədbirlərin görülməsinin təmin edilməsinə səy göstərərək;
- İdmanda aparteidə qarşı Beynəlxalq Konvensiyanın qəbulunun idmanda aparteidin aradan qaldırılması üçün beynəlxalq və milli səviyyədə daha effektiv tədbirlərin görülməsinə səbəb olacağına əminik və s. motivlər.[1]

İdmanda aparteid əleyhinə Beynəlxalq Konvensiyada təsbit edilmiş **əsas müddəalar** sırasında aşağıdakıları göstərə bilərik.

1. İştirakçı-dövlətlər aparteidi qəti şəkildə pisləyir və **idmanda aparteid praktikasının** bütün formalarında aradan qaldırılması siyasətini bütün lazımi vasitələrlə dərhal həyata keçirməyi öhdəsinə götürürlər.

2. İştirakçı-dövlətlər aparteid praktikası olan ölkə ilə **idman əlaqəsinə icazə** verməyəcək və öz idman təşkilatlarının, komandalarının və ayrı-ayrı idmançılarının belə əlaqəyə girməməsini təmin etmək üçün **müvafiq tədbirlər** görəcəklər.

3. İştirakçı-dövlətlər **aparteid rejimi** tətbiq edən ölkə ilə hər hansı idman əlaqəsinin yaranmaması məqsədilə bütün mümkün tədbirləri görəcək və bu cür tədbirlərin həyata keçirilməsi üçün **effektiv mexanizmin** mövcud olmasını təmin edəcəklər.

4. İştirakçı-dövlətlər öz idman təşkilatlarına, komandalarına və ayrı-ayrı idmançılara **aparteid siyasəti** aparan ölkədə və ya aparteid əsasında seçilmiş komandalara və ya fərdi idmançılara idman tədbirlərində iştirak etməyə imkan verən **maliyyə** və ya **digər yardım** göstərilməsindən **imtina** edirlər.

5. Hər bir iştirakçı-dövlət aparteid ölkəsində və ya aparteid ölkəsini təmsil edən komandalarla **idman fəaliyyətlərində iştirak edən** öz idman təşkilatları, komandaları və fərdi idmançı-

[1] Bu barədə ətraflı bax: https://www.un.org/ru/documents/decl_conv /conventions/ apartheid_in_sports.shtml (18.04.2022-ci il).

ları ilə bağlı **müvafiq tədbirlər görür** (məsələn, maliyyə dəstəyindən imtina edilməsi, milli idman infrastruktur obyektlərinə buraxılışın məhdudlaşdırılması, rəsmi qəbul keçirilməsindən imtina olunması və s. ölçü tədbirləri).

6. İştirakçı-dövlətlər aparteid ölkəsini təmsil edən **idman** təşkilatlarının, komandaların və ayrı-ayrı idmançıların nümayəndələrinə viza verməkdən və (və ya) ölkəyə girişə icazə verməkdən **imtina** edirlər.

7. İştirakçı-dövlətlər **aparteidi tətbiq edən ölkənin** beynəlxalq və regional idman təşkilatlarından xaric edilməsini təmin etmək üçün bütün **lazımi tədbirləri** görürlər.

8. İştirakçı-dövlətlər **beynəlxalq idman təşkilatlarının** BMT qətnamələrinə, sözügedən konvensiyanın müddəalarına və olimpiya prinsipinin ruhuna uyğun olaraq, **aparteid tətbiq edən** ölkə ilə yarışlarda iştirakdan imtina edən üzv-təşkilatlara qarşı **maliyyə cərimələri** və ya **digər cəzalar** tətbiq etmələrinin **qarşısını almaq** üçün bütün **zəruri tədbirləri** görürlər.

9. İştirakçı-dövlətlər **ayrı-seçkiliyə yol verilməməsi** barədə olimpiya prinsipinə və adıçəkilən konvensiyanın müddəalarına **ciddi** və **hərtərəfli riayət olunmasını** təmin etmək üçün **maksimum səy** göstərəcəklər.

10. Konvensiyaya uyğun olaraq, **aparteidə qarşı mübarizəyə** sadiq olan və yüksək mənəvi keyfiyyətlərə malik 15 üzvdən ibarət tərkibdə **İdmanda aparteidə qarşı Komissiya** yaradılır; **bu zaman** əsas hüquq sistemlərinin ən ədalətli coğrafi bölgüsü və təmsilçiliyi nəzərə alınmaqla, iştirakçı-dövlətlər tərəfindən öz vətəndaşları sırasından **gizli səsvermə** yolu ilə **dördillik müddətə** seçilən və **idman idarəçiliyi sahəsində** təcrübəsi olan şəxslərin Komissiyada iştirakına **xüsusi diqqət** yetirilir.

11. İştirakçı-dövlətlər Konvensiyanın qüvvəyə mindiyi tarixdən **bir il ərzində** onun müddəalarının həyata keçirilməsi məqsədilə görülmüş qanunvericilik, hüquqi, inzibati və ya digər **tədbirlərə dair hesabatı** Komissiyada baxılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim etməyi **öhdə-**

lərinə götürürlər; sonra isə bu hesabat **iki ildən** bir təqdim olunur. Komissiya üzv-dövlətlərdən əlavə informasiya da tələb edə bilər.

12. Hər hansı bir iştirakçı-dövlət istənilən vaxt **bəyan edə bilər** ki, o, belə bəyanat vermiş iştirakçı-dövlətlər tərəfindən Konvensiyanın müddəalarının pozulması ilə bağlı **təqdim edilmiş şikayətləri** qəbul etmək və onlara baxmaq üzrə Komissiyanın **səlahiyyətlərini** tanıyır.

13. Komissiya **ildə ən azı bir dəfə** toplanır; öz **prosedur qaydalarını** qəbul edir. Komissiyanın **katiblik xidməti** BMT-nin Baş Katibi tərəfindən **təmin edilir**. Komissiyanın iclasları, bir qayda olaraq, Birləşmiş Millətlər Təşkilatının **mərkəzi idarələrində** keçirilir; Komissiyanın **ilk iclası** Baş Katib tərəfindən çağırılır.

14. Birləşmiş Millətlər Təşkilatının **Baş Katibi** Konvensiyanın **depozitarisidir**.

15. İstənilən **iştirakçı-dövlət** Konvensiyaya düzəliş və ya dəyişiklik **təklif** edə və onu depozitariyə **təqdim** edə bilər.

Həmçinin Konvensiyanın **iştirakçısı olan dövlətlər** öz konstitusiyalarında cinsindən, irqindən, milliyyətindən, mənşəyindən və s. əlamətlərdən **asılı olmayaraq,** insan və vətəndaş hüquq və azadlıqlarının **bərabərliyinə** təminat verirlər. Vətəndaşların bərabərliyinin **təminatlarından** biri də müxtəlif ölkələrin cinayət qanunvericiliyi ilə tənzimlənən bərabərlik hüququnun **cinayət-hüquqi müdafiəsidir**. Belə ki, ayrı-seçkiliyə görə, habelə sosial, irqi, milli və dini ədavətin qızışdırılması və s. əməllərin törədilməsinə görə müvafiq **cinayət məsuliyyəti** nəzərdə tutulmuşdur.[1]

[1] Toxunulmuş məsələlər barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.473-480.

Nəzərdən keçirilən **hüquqi mexanizmlər** və idman sferasında cinayətkarlığa qarşı mübarizə aparılması istiqamətində formalaşmış **beynəlxalq əməkdaşlıq** sayəsində **irqi ayrı-seçkilik problemi** müasir dövrdə, demək olar ki, xeyli dərəcədə **öz həllini** tapmışdır. Məlum olduğu kimi, bəzi ölkələrin yerli əhalisi, müxtəlif dəri rənglərinə malik insanlar, milli azlıqlar indi böyük **beynəlxalq idman yarışlarında** iştirak edirlər.

10.2. İdman tədbirləri zamanı təhlükəsizliyin təmin edilməsinin beynəlxalq-hüquqi tənzimlənməsi

Beynəlxalq idman hüququnun qarşısında duran **aktual məsələlərdən** biri də **idman tədbirləri** zamanı təhlükəsizliyin **təmin** edilməsidir. Belə ki, idman tədbirləri həyata keçirilərkən insan hüquqları, mülkiyyət, iqtisadi fəaliyyət, ətraf mühit, ölkənin konstitusiya quruluşu, ictimai qayda-qanun və təhlükəsizlik **cinayətkar qəsdlərdən** qorunmalıdır.

Müasir dövrdə təhlükəsizliyin təmin olunması probleminin həlli **xüsusi əhəmiyyət** kəsb edir və artıq **qlobal xarakter** almışdır. Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, **təhlükəsizlik** dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətə malik olan vacib mənafelərinin daxili və xarici təhlükələrdən müdafiə olunması vəziyyəti başa düşülür.

İctimai həyatda təhlükəsizliyin müxtəlif **növləri** mövcuddur və onlar aşağıdakılardan ibarətdir: fiziki (şəxsi) təhlükəsizlik, milli dövlət təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, iqtisadi təhlükəsizlik, ekoloji təhlükəsizlik, maliyyə təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, mədəni təhlükəsizlik, yol hərəkəti təhlükəsizliyi, yanğın təhlükəsizliyi, texniki təhlükəsizlik, bioloji təhlükəsizlik, həyat fəaliyyəti təhlükəsizliyi və s.[1] Təhlükəsizliyin

[1] Həyat fəaliyyəti təhlükəsizliyi, onun struktur səviyyələri, növləri və sistemi barədə daha ətraflı bax: məsələn, Безопасность жизнедеятельности. Учебник / Под ред. Л.А.Михайлова. СПб., 2012, 461 с.; Безопасность жизнедеятельности. Учебник / Отв. ред. А.А.Бирюков, В.К.Кузнецов. М, 2014, 400 с.

çoxsaylı növlərindən biri də məhz **idman təhlükəsizliyi** sayılır; bu odeməkdir ki, idman fəaliyyəti təhlükəsiz olmalı və təhlükəsiz şəraitdə həyata keçirilməlidir. İdman təhlükəsizliyi də daxil olmaqla, təhlükəsizliyin bütün aspektləri **insan təhlükəsizliyinin** təmin olunması məqsədinə xidmət edir. Axı, insanın və onun həyatının (hüquq və azadlıqlarının) digər dəyərlər üzərində prioritetə malik olması **konsepsiyası** mövcuddur. Məhz **"BMT-nin İnkişaf Proqramı"** adlı sənəddə (1994-cü il) insan təhlükəsizliyi konsepsiyasının əsas müddəaları formulə edilmişdir. Bu sənəddə çoxaspektli anlayış olan təhlükəsizliyin əsas növləri (aspektləri) sadalanır ki, ictimai təhlükəsizlik də onlardan biridir.[1]

Qeyd etməliyik ki, **beynəlxalq idman hərəkatı** üçün böyük əhəmiyyət kəsb edən məsələ idman arenalarında, adətən, futbol oyunları zamanı baş verən böyük faciələr problemidir.[2] Burada **əsas səbəblər** qismində tamaşaçılar arasında yaranan iğtişaşlar, eləcə də böyük idman tədbirlərinin təşkili və təhlükəsizliyin təmin olunmasında yol verilən səhvlər, idman qurğuları ilə bağlı texniki xərclər və s. **amillər** çıxış edir. Məsələn, son ötən 50 il ərzində 10-dan çox belə böyük faciələr baş vermişdir.

Belə ki, tarixdə **idman sferasında** baş vermiş belə **faciəvi hadisələrlə** bağlı, məlumat üçün göstərə bilərik ki, 1964-cü ildə Limada (Peru) futbol matçı zamanı 320 nəfər ölüb, 1000-ə yaxın insan yaralanıb; 1982-ci ildə Lujniki stadionunda (Mos-

---

[1] Современные проблемы и стратегия борьбы с преступностью / Науч. ред. В.Н. Бурлаков, Б.В. Волженкин. СПб. М., 2005, с.215 (URL: http://www. lawlibrary.ru – 20.04.2022-ci il). Məlumat üçün qeyd edək ki, ictimai qayda və ictimai təhlükəsizlik anlayışları beynəlxalq-hüquqi sənədlərdə də işlədilir. Bu barədə bax: məsələn, BMT Baş Assambleyasının 17.12.1979-cu il tarixli 34/169 saylı qətnaməsi // Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı / Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı, 2009, s.118-130.

[2] Bax: Калайков Й. Изучение некоторых факторов, от которых зависит посещаемость футбольных матчей / Пер. с болг. // Международный и зарубежный футбол: политика,менеджмент, маркетинг. Тематическая подборка ВНИИФК. М., 1999, № 2, с.20-24.

kva ş.) UEFA kuboku üzrə keçirilən futbol matçı zamanı azarkeşlərin izdihamı 70-ə yaxın insanın ölümünə səbəb olmuşdu; 1989-cu ildə İngiltərənin Şeffild şəhərinin stadionunda keçirilən futbol matçında 94 nəfər həlak olmuş, 200-ə yaxın adam yaralanmışdı və s.[1]

İdman fəaliyyəti sahəsində sözügedən problem həmişə **aktual olaraq** qalır. Bu, **ilk növbədə**, azarkeşlərin xuliqan davranışı, qəddarlıq və zorakılıq təzahürləri, habelə ictimai təhlükə törədən digər anti-ictimai hərəkətləri idman tədbirlərinin təşkilinə və keçirilməsinə **mənfi təsir göstərir**, idman yarışlarında təhlükəsizliyin və ictimai asayişin təmin edilməsi ilə bağlı məsələlərin **normativ-hüquqi cəhətdən** daha ətraflı öyrənilməsini tələb edir; **ikinci**, yarışın hazırlanmasında və keçirilməsində **təşkilat komitələrinin** aydın və düşünülmüş hərəkətlərini, o cümlədən stadionda azarkeşlərin təhlükəsizliyinin və rahat şəraitinin təmin edilməsinə yönəlmiş **tədbirlərin görülməsini** şərtləndirir.

Toxunulmuş problemin beynəlxalq-hüquqi kontekstdə tənzimlənməsi məqsədilə, 19.08.1985-ci il tarixdə Strasburqda Avropa Şurasının üzvü olan dövlətlər və Mədəniyyət məsələləri üzrə Avropa Konvensiyasının iştirakçısı olan bir sıra digər dövlətlər tərəfindən **"İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyası** qəbul edilmişdi [2] (Konvensiya – ETS №120). Sonradan bu sahədə hüquqi tənzimləmənin müasir dövrün tələblərinə daha da uyğunlaşdırılması və təkmilləşdirilməsi məqsədilə, 2016-cı il 3 iyul tarixin-

[1] https://bstudy.net/805321/sport/futbolnoe_pravo (20.04.2022-ci il).

[2] Azərbaycan Respublikası adıçəkilən Avropa Konvensiyasına 28.10.1999-cu il tarixli 732-IQ nömrəli qanunla qoşulsa da (bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu /C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.204-209), sonradan bu istiqamətdə yeni normativ hüquqi akta qoşulmaqla əlaqədar Azərbaycan Respublikasının 1 oktyabr 2018-ci il tarixli 1239-VQ nömrəli Qanunu ilə ləğv edilmişdir.

də Sen-Deni şəhərində **"Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında" Avropa Şurası Konvensiyası** imzalanmışdır. Yeni versiyada olan bu Konvensiyanı da Avropa Şurasına üzv-dövlətlər, Avropa Mədəniyyət Konvensiyasının tərəf-dövlətləri imzalamış və bu Konvensiyanın imzalanma üçün açıq elan edildiyi tarixdən əvvəl, 1985-ci il 19 avqust tarixində Strasburqda imzalanmağa açıq elan edilmiş Avropa Konvensiyasına (ETS № 120) qoşulmuş Avropa Şurasının qeyri-üzv dövlətləri üçün imzaya açıq elan edilmişdir.[1] Konvensiyanın qəbul edilməsinin **əsas motivləri** aşağıdakılardan ibarətdir :

- Tərəflər Avropa Şurasının məqsədinin öz üzvləri arasında daha sıx birliyə nail olmaq olduğunu nəzərə alaraq,
- zorakılıq, ictimai iğtişaş və ya digər cinayət fəaliyyəti qorxusu olmadan futbol oyunları və digər idman tədbirlərində iştirak etmək üçün fiziki toxunulmazlıq hüququ və fərdlərin əsaslı gözləntiləri nəzərə alınaraq,
- bütün vətəndaşlar üçün futbol oyunlarını və digər idman tədbirlərini xoş və əyləncəli etmək məqsədilə, eyni zamanda, qonaqpərvər mühitin yaradılmasının bu cür tədbirlərdə təhlükəsizlik və mühafizə üçün əhəmiyyətli və müsbət təsirə malik ola biləcəyini anlayaraq, futbol oyunları və digər idman tədbirlərində təhlükəsiz mühitin təmin edilməsinə bütün maraqlı tərəflərin cəlb olunmalarını təşviqetmə zərurətini nəzərə alaraq,
- futbol və digər idman stadionlarının içərisində və yaxınlığında, müxtəlif istiqamətlərdən stadionlara və əksinə hərəkət edən tranzit marşrutlarda, eləcə də minlərlə tamaşaçının olduğu digər yerlərdə qanunun aliliyini qorumaq zərurətini nəzərə alaraq,

[1] Azərbaycan Respublikası adıçəkilən Avropa Konvensiyasına 01.10.2018-ci il tarixli 1239-VQ nömrəli qanunla qoşulmuşdur // **Ошибка! Недопустимый объект гиперссылки.** (21.04.2022-ci il).

– idman, futbol oyunları və digər idman tədbirlərinin təşkili və idarəedilməsinə cəlb edilən müvafiq orqanların və digər maraqlı tərəflərin Avropa Şurasının sosial birlik, tolerantlıq, hörmət və ayrı-seçkiliyə yol verilməməsi kimi əsas dəyərlərini qorumalı olduğunu anlayaraq,
– konstitusional, hüquqi, mədəni və tarixi xüsusiyyətlər baxımından dövlətlər arasındakı müxtəlifliyi, futbol oyunları və digər idman tədbirləri ilə əlaqədar təhlükəsizlik və mühafizə problemlərinin xarakter və ciddiliyini qəbul edərək,
– məlumatların qorunması, qanunazidd hərəkət edən şəxslərin reabilitasiyası və insan hüquqları kimi məsələlər barədə milli və beynəlxalq qanunvericiliyi tam nəzərə almağın zəruriliyini qəbul edərək,
– müxtəlif dövlət və özəl orqanların və digər maraqlı tərəflərin, o cümlədən tamaşaçıların, fərdlər üçün futbol oyunları və digər idman tədbirlərini təhlükəsiz, etibarlı və qonaqpərvər mühitdə həyata keçirməkdə məqsədlərinin eyni olduğunu və onların birgə fəaliyyətinin bir sıra qarşılıqlı və üst-üstə düşən tədbirlərdən ibarət olduğunu qəbul edərək, bu tədbirlərin üst-üstə düşən xarakterinin müvafiq orqanlardan futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid və balanslaşdırılmış çoxtərəfli yanaşmanı hazırlamaq və təqdim etmək məqsədilə səmərəli beynəlxalq, milli və yerli tərəfdaşlıqları inkişaf etdirməyi tələb etdiyini qəbul edərək,
– idman stadionlarından kənarda baş verən hadisələrin stadionların daxilində baş verənlərə birbaşa təsir göstərə biləcəyini və ya bunun əksini qəbul edərək,
– əsas maraqlı tərəflərlə, xüsusilə azarkeşlər və yerli icmalarla məsləhətləşmələrin təhlükəsizlik və mühafizə ilə bağlı risklərin azaldılmasında və stadionun içərisində

və ondan kənarda qonaqpərvər mühitin yaradılmasında müvafiq orqanlara yardım edə biləcəyini qəbul edərək,

– tamaşaçılar, iştirakçılar və yerli icmalar üçün qonaqpərvər mühitin yaradılması məqsədilə futbol oyunları və digər idman tədbirlərində təhlükəsizlik və mühafizə ilə bağlı riskləri azaltmaq üçün ümumi və birgə fəaliyyət göstərməyi qərara alaraq,
– 1985-ci il 19 avqust tarixində Strasburqda imzalanmağa açıq elan edilmiş "İdman tədbirləri, xüsusən, futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyasının məzmununu əsas götürərək,
– Avropanın geniş təcrübəsi və yaxşı praktikasının nəticələrini və s. aspektləri nəzərə alaraq, qeyd edilənlər barədə ümumi razılığa gəlmişlər.[1]
– Konvensiyanın **məqsədləri** üçün aşağıdakı **anlayışlardan** istifadə olunur:
– **"mühafizə tədbirləri"** dedikdə əsas məqsədi stadion daxilində və ya ondan kənarda futbol oyunları və ya digər idman tədbirləri zamanı iştirak edən və ya tədbir yaxınlığında yaşayan və ya işləyən fərdlərin və ya qrupların sağlamlığının və əmin-amanlığının qorunması üçün hazırlanan və həyata keçirilən istənilən tədbir nəzərdə tutulur;
– **"təhlükəsizlik tədbirləri"** dedikdə əsas məqsədi stadion daxilində və ya ondan kənarda futbol və ya digər idman tədbirləri ilə bağlı risklərin qarşısının alınması, azaldılması və ya bu tədbirlərlə əlaqədar baş verən istənilən zorakılıq, yaxud digər cinayət fəaliyyətlərinə, habelə pozuntulara reaksiya vermək üçün hazırlanan və həyata keçirilən istənilən tədbir nəzərdə tutulur;

[1] Ətraflı bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М., Проспект, 2021, с.188-192.

– **“xidmət tədbirləri”** dedikdə əsas məqsədi ayrı-ayrı şəxslərin və qrupların stadion daxilində və ya ondan kənarda futbol oyunları və ya digər idman tədbirlərində iştirak edən zaman özlərini rahat, məmnun və qonaqpərvər mühitdə hiss etmələrini təmin etmək üçün hazırlanan və həyata keçirilən istənilən tədbir nəzərdə tutulur və s.

Sözügedən Avropa Konvensiyası, məzmun etibarilə, **22 maddədən** ibarətdir və özündə aşağıda göstərilən **əsas müddəaları** ehtiva edir:

– daxili koordinasiya mexanizmləri (maddə 4);
– idman stadionlarında təhlükəsizlik, mühafizə və xidmət (maddə 5);
– ictimai yerlərdə təhlükəsizlik, mühafizə və xidmət (maddə 6);
– azarkeşlər və yerli icmalarla qarşılıqlı əlaqə (maddə 8);
– qanunçuluğun qorunması strategiyaları və əməliyyatları (maddə 9);
– hüquqazidd əməllərin (davranışın, hərəkət və ya hərəkətsizliyin) qarşısının alınması və sanksiyaların qoyulması (maddə 10);
– beynəlxalq əməkdaşlıq (maddə 11) və digər müddəalar.

Konvensiyada təsbit edilmiş müddəalar sırasında **beynəlxalq əməkdaşlıq** barədə norma xüsusi maraq doğurur. Belə ki, Tərəflər beynəlxalq tədbirlərdə birgə işi gücləndirmək, təcrübələri paylaşmaq və yaxşı praktikaların inkişafında **iştirak etmək məqsədilə** bu Konvensiyada qeyd edilən bütün məsələlər və əlaqəli məsələlərlə bağlı yaxından əməkdaşlıq edirlər.

Həmçinin Tərəflər müxtəlif xidmət və hökumət orqanları arasında xüsusilə səlahiyyətlərin bölünməsi zamanı mövcud milli qaydalara (müddəalara) xələl gətirmədən, polis qüvvələri sistemində **Milli Futbol Məlumat Məntəqəsini** (MFMM) təsis edirlər. MFMM qurumunun **fəaliyyət istiqamətləri** aşağıdakılardan ibarətdir:

a) beynəlxalq miqyaslı futbol oyunları ilə bağlı ümumi məlumat (strateji, əməliyyat və taktiki) mübadiləsinin aparılması üçün birbaşa və yeganə əlaqə məntəqəsi qismində fəaliyyət göstərir;

b) qüvvədə olan müvafiq daxili və beynəlxalq qaydalara uyğun olaraq şəxsi məlumatları mübadilə edir;

c) beynəlxalq miqyaslı futbol oyunları ilə bağlı beynəlxalq polis əməkdaşlığının həyata keçirilməsini asanlaşdırır, əlaqələndirir və ya təşkil edir;

d) verilən tapşırıqları səmərəli şəkildə və dərhal yerinə yetirmə bacarığına malik olur.

Eyni zamanda, Tərəflər həm də MFMM-in futboldakı polis əməliyyatları, azarkeş dinamikası və təhlükəsizlik, mühafizə riskləri ilə bağlı **milli təcrübə bazası** təşkil etməsini təmin edir.

Hər bir Tərəf-dövlət özünün MFMM adı və əlaqə məlumatlarını və bununla bağlı istənilən sonrakı dəyişiklikləri yazılı formada bu Konvensiya çərçivəsində yaradılmış **İdman Tədbirlərində Təhlükəsizlik və Mühafizə üzrə Komitəyə** bildirir.

Tərəflər qabaqlayıcı, maarifləndirici və informativ xarakterli **layihələr** barədə məlumatların və yaxşı praktikaların paylaşılması, azarkeşlər və yerli icmaları hədəfləyən və ya onlar tərəfindən irəli sürülən milli və yerli təşəbbüslərin çatdırılmasına cəlb edilmiş **bütün orqanlarla əməkdaşlığın qurulması** sahəsində beynəlxalq səviyyədə əməkdaşlıq edirlər.[1]

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, **hal-hazırda idman yarışlarında** azarkeşlərin xuliqanlıq hərəkətlərinə, qəddarlıq və zorakılıq təzahürlərinə, habelə ictimai təhlükə törədən digər anti-ictimai davranışlarına qarşı mübarizə aparılmasında, eləcə də **idman tədbirlərində təhlükəsizliyin** və **ictimai asayişin**, həmçinin **"təmiz oyun" prinsipinin** (Fair Play) tə-

[1] Konvensiyanın mətni üçün bax: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 2018, № 3, s.664.

min edilməsi ilə bağlı məsələlərin korporativ tənzimlənməsində **idman hüququnun** rolu daim artır.[1] Belə ki, **idman yarışları zamanı** kütləvi iğtişaşlar, xuliqanlıq, vandalizm və s. əməllərlə bağlı cinayətlərə görə **məsuliyyət** artıq bir çox ölkələrin **cinayət qanunvericilik aktları** ilə müəyyən edilmişdir.[2] Əksər Qərbi Avropa ölkələrinin qanunlarına əsasən, **cinayət məsuliyyətinə səbəb olan** ictimai təhlükəli əməllərin **xüsusi qrup** dairəsinə döyüşçü cins heyvanların iştirakı ilə tamaşaların təşkili, habelə qeyri-qanuni idman ovçuluğu da daxildir.

10.3. İdman arenalarında beynəlxalq terrorizmə qarşı mübarizə tədbirləri

Qeyd etməliyik ki, **terrorçuluq**[3] ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən müvafiq qərar qəbul edilməsinə təsir göstərmək məqsədi ilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının yetirilməsi və digər ictimai təhlükəli nəticələrin başvermə təhlükəsi yaradan əməldir; bu əməl, adətən, partlayış, yanğın və ya digər terror aktlarının törədilməsi ilə bağlı olur. Buna görə də həmin əməllə **dövlətdaxili səviyyədə** mübarizə aparılır.[4] Dünyada, demək olar ki, bütün ölkələrin **cinayət qanunvericiliyi** terrorçuluğa qarşı **mübarizə təd-**

---

[1] Bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М., Проспект, 2021, с.192-194.

[2] Məsələn, bax: Профилактические меры по борьбе с насилием при проведенииспортивных соревнований / Пер. с исп. // Международный и зарубежный спорт:политика, менеджмент, маркетинг. Тематический бюллетень ВНИИФК. М., 1997, № 5, с. 33-40.

[3] Terrorizm anlayışı və terror aktının növləri barədə bax: Mehdiyev N.H., Abutalıbov İ.H. Beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlığın əsas aspektləri. Bakı, "Nurlan" , 2007, s.7-61.

[4] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, s.396-399.

birləri və terror aktlarına görə müvafiq **məsuliyyət** nəzərdə tutur; məsələn, Azərbaycan Respublikasında CM-in 214-cü maddəsi məhz terrorçuluq cinayətinin hüquqi tənzimlənməsinə və onunla mübarizə aparılmasına həsr olunmuşdur.

Terrorizm sosial fenomen kimi dövrümüzün ən təhlükəli cinayətlərindən biridir və çox vaxt təkcə milli deyil, həm də beynəlxalq xarakter daşıyır. Əgər terrorçuluq əməlində **xarici element** iştirak edərsə, belə halda həmin əməl transmilli

xarakter alır və **beynəlxalq terrorçuluq** adlanır. Beynəlxalq terrorizm beynəlxalq miqyasda ən **ictimai təhlükəli əməl** kimi tanınır; bu əməl çoxsaylı insan ölümünə, dövlətlərin normal fəaliyyətinin pozulmasına, beynəlxalq əlaqələrin həyata keçirilməsinin çətinləşməsinə, habelə dövlətlər arasında ictimai-siyasi, sosial-iqtisadi, o cümlədən **idman münasibətlərinin kəsilməsinə** və digər ictimai təhlükəli mənfi nəticələrin baş verməsinə səbəb olur. Göründüyü kimi, terrorçuluq aktı həm ictimai, həm milli, həm də beynəlxalq təhlükəsizliyə qəsd edən əməldir.[1]

Beynəlxalq publik hüquq **terrorçuluq fəaliyyətini maliyyələşdirməni** də müstəqil cinayət kateqoriyasına aid edir. Belə ki, 1999-cu ildə bu cinayətlə mübarizəyə həsr olunan xüsusi beynəlxalq-hüquqi akt qəbul edilmişdir və o, belə adlanır: **"Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya**. Həmin konvensiyasının 2-ci maddəsində göstərilir ki, terrorçuluğu maliyyələşdirən istənilən şəxs cəzalandırılır.[2] Terrorçuluğu maliyyələşdirmə cinayəti ilə həm də Azərbaycan Respublikasında mübarizə aparılır. Bu kontekstdə qeyd edə bilərik ki, Azərbaycan Respublikası sözügedən konvensiyada 2001-ci ildən iştirak edir.[3]

---

[1] Bax: Севдималиев Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Баку, " INDIGO" , 2011, 504 с.

[2] Daha ətraflı: Международное право. Учебник / Под ред. А.И. Микульшина. М., 2005, с. 325-326.

[3] Azərbaycan Respublikası bu Beynəlxalq Konvensiyaya 01.10.2001-ci il tarixli 174-IIQ nömrəli qanunla qoşulmuşdur // ARQT.Bakı,2001, №10, maddə 638.

Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması kimi cinayətlə də **dövlətdaxili (milli) səviyyədə** mübarizə aparılır. Ayrı-ayrı ölkələrin, o cümlədən Azərbaycan Respublikasının cinayət qanunvericiliyi (CM, maddə 193-1) həmin əmələ görə məsuliyyət nəzərdə tutur. Azərbaycan Respublikasında həm də qanunsuz yolla əldə olunan gəlirlərin leqallaşdırılması və **terrorçuluğun maliyyələşdirilməsi** ilə mübarizəyə dair ayrıca qanun qəbul edilmişdir.[1]

Beynəlxalq terrorizm problemi **aktual** olaraq qalır. Beynəlxalq terrorizm **beynəlxalq xarakterli** ən ağır cinayətlərdən biridir və aşağıdakı **xüsusiyyətlərlə** xarakterizə olunur:

- cinayətə **hazırlıq** bir dövlətin ərazisində aparılır və bir qayda olaraq, digər dövlətin ərazisində **həyata** keçirilir;
- bir dövlətin ərazisində cinayət törətmiş **terrorçu**, adətən, digər dövlətin ərazisində **gizlənir** və onun **ekstradisiyası** ilə bağlı problem yaranır.

Ona görə də, terrorizmlə mübarizə üçün etibarlı **milli sistemlərin** yaradılması daha çox terrorizmə dair beynəlxalq-hüquqi anlayışın dəqiq müəyyənləşdirilməsindən və ona nəzarət problemlərinin qiymətləndirilməsindən asılıdır.[2]

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, idman arenalarında da **beynəlxalq terrorizm problemi** mövcuddur. Ona görə də, müasir şəraitdə **idman yarışlarının** terrordan qorunması məsələsi çox **aktual olan vəzifədir**. İdman arenalarında terror problemi sırf idmanla bağlı deyil. Böyük **beynəlxalq idman forumları** – Olimpiya oyunları, Dünya və Qitə çempionatları beynəlxalq terrorçuların özünü göstərməsi üçün ideal **şərait yaradır**. Belə bir **terror aksiyası** XX Olimpiada Oyunlarında

---

[1] Bax: "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il) // AR QT. Bakı, 2009, № 2, maddə 58.

[2] Bax: məsələn, Ляхов Е.Г., Попов А.В. Терроризм: национальный, региональный и международный контроль. М.: Ростовский юрид. ин-т МВД РФ, 1999, 435 с.

(1972-ci il, Münhen, Almaniya) Fələstinin **"Qara sentyabr" terror təşkilatının** üzvləri tərəfindən həyata keçirilib. Terror qruplaşmasının **silahlı üzvləri** İsrail nümayəndə heyətinin olduğu yerə soxularaq heyət üzvlərini **girov** götürüblər. Girovların azad edilməsi üzrə **əməliyyat zamanı** bir neçə idmançı və komanda məşqçiləri də daxil olmaqla **18 nəfər** həlak olub. Oyunlar bir gün dayandırıldı, bundan sonra **BOK prezidenti** bu münasibətlə bildirdi: "Biz olimpiadanın ticarət, siyasi hərəkətlər və ya **cinayət əməlləri** yerinə çevrilməsinə icazə verə bilmərik, bir ovuc terrorçunun **beynəlxalq əməkdaşlığın** əsas kanallarından birini məhv etməsinə icazə verə bilmərik...".[1]

Bu kontekstdə **beynəlxalq birlik** tərəfindən beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, dövlətlər arasında mehriban qonşuluq və dostluq münasibətlərini və əməkdaşlığı təşviq etmək məqsədilə, **terrorizmlə mübarizə** üçün effektiv tədbirlər müəyyən etməyə səy göstərilir. Hazırda terrorizmlə mübarizənin forma və prinsiplərini müəyyən edən **universal beynəlxalq-hüquqi aktlara**, xüsusən, aşağıdakı sənədlər aiddir:

- "Əsirlərin girov götürülməsinə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya (1979-cu il);
- "Nüvə materialının fiziki mühafizəsi üzrə" Konvensiya (Vyana, 1980-ci il);
- "Bomba terrorçuluğuna qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiya (1997-ci il);
- "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya (1999-cu il) və s.

Eyni zamanda, qeyd etməliyik ki, terrorçuluqla mübarizəyə dair **regional xarakterli beynəlxalq sənədlər** də həsr olunmuşdur. Məsələn, "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Konvensiyası (1977-ci il), "Amerika Dövlətləri Təşki-

[1] İdman arenalarında terrorizm problemləri barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.487-495.

latının terrorçuluqla mübarizə haqqında" Konvensiyası (1971-ci il), "Terrorizmə qarşı mübarizə üzrə" Cənubi Asiya Konvensiyası (1987-ci il), Birləşmiş Ərəb Dövlətlərinin "Terror aktlarının qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyası (1991-ci il), "MDB iştirakçı-dövlətlərinin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" Müqavilə (1999-cu il), "Terrorçuluqla mübarizə haqqında" Şanxay Əməkdaşlıq Təşkilatının Konvensiyası (2001-ci il) və s.[1] Təbii ki, bu sənədlərin müddəaları **idman sahəsində fəaliyyətə** də sirayət edir.

Bir sıra ölkələr terrorçuluğa qarşı mübarizə sahəsində, o cümlədən idman sferasında qarşılıqlı **ikitərəfli müqavilələr** bağlamışlar. Bu müqavilələrdə dostluq, əməkdaşlıq, tərəfdaşlıq, müttəfiqlik və qarşılıqlı təhlükəsizlik haqqında məsələlər yer alır, habelə tərəflərin terrorizmlə mübarizədə əməkdaşlıq münasibətləri vurğulanır. Azərbaycan Respublikası toxunulmuş kontekstdə müxtəlif ölkələrlə, məsələn, Gürcüstanla (1996-cı il), Pakistanla (1997-ci il), Ukrayna ilə (2000-ci il), Qazaxıstanla (2005-ci il), Türkiyə ilə (2021-ci il), Rusiya ilə (2022-ci il) və digər[2] ölkələrlə müvafiq **müqavilə** və ya **bəyannamələr** imzalamışdır.

Bununla yanaşı, dünyanın **ayrı-ayrı ölkələrində** terrorçuluğa qarşı mübarizə aparılması istiqamətində xüsusi qanunlar qəbul olunmuşdur. Məsələn, ölkəmizdə 1999-cu il 18 iyun tarixində **"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu** (№ 687-IQ) qəbul edilmişdir.[3] Bu qanun Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin **hüquqi və təşkilati əsaslarını** müəyyən edir, terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının **fəaliyyətini əlaqələndirir**, habelə həmin orqanların və

[1] Bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, s.398.

[2] Bu barədə bax: https://www.google.com/search?q=Dostluq +Az.Respublikas (23.04.2022-ci il).

[3] https://e-qanun.az/framework/3855 (23.04.2022-ci il).

vətəndaşların **hüquqlarını və vəzifələrini** təsbit edir. Qanunda təsbit olunmuşdur ki, Azərbaycan Respublikası **terrorçuluğa qarşı mübarizə** sahəsində dövlətlərarası müqavilələrə əsasən, xarici ölkələrlə, onların hüquq-mühafizə orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan **beynəlxalq təşkilatlarla əməkdaşlıq** edir (maddə 21).

Yuxarıda göstərilən konvensiya, saziş və normativ hüquqi aktların məcmusu beynəlxalq publik hüquq subyektləri arasında həyata keçirilən **antiterror əməkdaşlığının beynəlxalq-hüquqi əsası** sayılır.[1] Ümumiyyətlə, bu sənədlərin **ideologiyası** harada və kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, terrorizmin cinayət və əsassız əməl kimi **tam şəkildə pislənməsinə** əsaslanır. Mütəxəssislər terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq üçün müqavilə-hüquqi baza yaratmaqla, müasir terrorizm anlayışının **fövqəlmilli statusunu**, habelə onun bütün bəşəriyyət üçün təhlükə olduğunu nəzərə alaraq, antiterror qanunvericiliyinin **əhatə dairəsini** mümkün qədər genişləndirməyə çalışırlar.

Mahiyyət etibarilə, müasir dövrdə beynəlxalq idman hüququ **terrorizmlə mübarizə prinsipini** təsbit edir ki, **terror aktı** kimi qiymətləndirilən **cinayət əməlləri** heç bir halda dini, siyasi, ideoloji, irqi, etnik və ya digər əlamətlərə, xarakterə görə əsaslandırılmamalıdır.

10.4. Beynəlxalq idman münasibətlərində korrupsiya və digər iqtisadi cinayətlərə qarşı mübarizə aparılması

Beynəlxalq idman hərəkatının **aktual problemlərindən** biri də korrupsiya məsələsidir. Etimoloji lüğətlərə görə, **"korrupsi-**

[1] Ətraflı bax: məsələn, Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, s.397-398; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с. 555 və b.

ya” termini latınca “corruptio”, ingiliscə “corruption” ifadəsindən olub, Azərbaycan dilinə “**ələ alma”, “satqınlıq” və “korlanma”** kimi mənalarda tərcümə edilir.[1] Təsadüfi deyil ki, beynəlxalq hüquq elmində korrupsiyaya ictimai və siyasi xadimlərin, vəzifəli şəxslərin ələ alınması və satqınlığı kimi anlayış verilir. Korrupsiya **elə bir əməldir** ki, o, cəmiyyətdə **demokratiya** və **hüquq qaydasını** zəiflədir. Bu da, öz növbəsində, insan hüquqlarının pozulmasına, bazar mexanizmlərinin təhrif olunmasına, insanların həyat şəraitinin pisləşməsinə, mütəşəkkil cinayətkarlıq, terrorizm və beynəlxalq təhlükəsizliyi təhdid edən digər əməllərin törədilməsinə gətirib çıxarır; hətta, bəzən, korrupsiya **“sosial taun”** və ya **“sosial epidemiya”** hesab edilir.

Qeyd etməliyik ki, XX əsrin son illərindən başlayaraq korrupsiya beynəlxalq hüquq pozuntusu kimi **beynəlxalq iqtisadi cinayət** əməli kimi tanınır. Belə ki, korrupsiya barədə bir sıra beynəlxalq-hüquqi sənəd qəbul edilmişdir. Məhz həmin sənədlər əsasında müəyyən etmək mümkün olur ki, korrupsiya beynəlxalq iqtisadi cinayətdir.[2]

Qloballaşma dövründə korrupsiya transmilli (beynəlxalq) xarakter almışdır. Buna görə də, o, **beynəlxalq xarakterli cinayətlər** (transmilli cinayətlər) sırasına aid edilir. Bu səbəbdən də, beynəlxalq təhlükəsizliyi təhdid edən korrupsiya ilə mübarizə zərurətə çevrilir, aktual məsələ kimi qarşıda durur; bu gün korrupsiya dünya birliyini və beynəlxalq ictimaiyyəti maraqlandıran ən kəskin problemlərdən biridir.[3]

---

[1] Толковый словарь иноязычных слов : около 25 000 слов и словосочетаний / Л. П. Крысин. М., издательство "Русский язык", 1998, с.157; Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, с.443.

[2] Современные проблемы и стратегия борьбы с преступностью / Науч. ред. В.Н.Бурлаков, Б.В.Волженкин. СПб., 2005, с.184; Əliyev E.Ə.Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s.218-220.

[3] Daha ətraflı: Мигель Педреро. Коррупция. Клоака власти: как и зачем нами манипулируют / Пер. с исп. Геннадия Сахацкого. М., 2008, 320 с.

Korrupsiya ilə həm **beynəlxalq səviyyədə**, həm də **regional səviyyədə** mübarizə aparmaq üçün son zamanlar bir sıra beynəlxalq-hüquqi aktlar mövcuddur ki, həmin sənədlər korrupsiya ilə mübarizə aparılmasının **beynəlxalq-hüquqi əsası** sayılır.[1] Həmin sənədlər sırasında **aşağıdakıları göstərə bilərik**:

- "Beynəlxalq kommersiya əməliyyatlarında korrupsiya və rüşvətxorluqla mübarizə haqqında" BMT Bəyannaməsi (BMT Baş Assambleyası tərəfindən 16.12.1996-cı ildə qəbul edilmişdir);
- "Korrupsiya ilə mübarizə haqqında" BMT Konvensiyası (31.10.2003-cü il tarixində BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul edilmişdir);
- "Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında" Konvensiya (27.01.1999-cu il tarixində Avropa Şurası çərçivəsində qəbul edilmişdir);
- "Korrupsiyaya görə mülki-hüquqi məsuliyyət haqqında" Konvensiya (09.09.1999-cu il tarixdə Avropa Şurası çərçivəsində qəbul edilmişdir);
- "Korrupsiya ilə mübarizənin iyirmi Prinsipi" (Avropa Şurası Nazirlər Kabineti tərəfindən 06.11.1997-ci il tarixində qəbul edilmişdir);
- "Beynəlxalq işgüzar əməliyyatlar həyata keçirilən zaman xarici dövlətin vəzifəli şəxslərinə rüşvət verilməsi ilə mübarizə haqqında" Konvensiya (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 21.11.1997-ci il tarixində qəbul edilmişdir);
- "Korrupsiyaya qarşı mübarizə haqqında" Amerika Beynəlxalq Konvensiyası (1996-cı il);
- "Korrupsiya ilə mübarizəyə dair" Ümumi Tövsiyələr (1999-cu il);

[1] Bu barədə ətraflı bax: Международно-правовые основы борьбы с коррупцией и отмыванием преступных доходов. Сборник документов / Сост. В.С.Овчинский. М., 2009, 640 с.

– "Antikorrupsiya siyasəti barədə qanunvericiliyin əsasları haqqında" Model Qanun (15.11.2003-cü il tarixində MDB çərçivəsində qəbul edilmişdir);
– "Korrupsiya ilə mübarizə haqqında" Model Qanun (03.04.1999-cu il tarixdə MDB çərçivəsində qəbul edilmişdir)[1] və s.

XXI əsrdə dünya birliyinin dinamik inkişaf tempi bir sıra müasir **qlobal problemlərin** həllindən asılıdır; korppusiya ilə mübarizə məhz bu problemlərdən biridir. Buna görə də, onunla həm beynəlxalq, həm regional, həm də **milli hüquqi səviyyədə** mübarizə aparılır. Belə ki, digər ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da korrupsiya ilə mübarizəyə həsr olunan xüsusi qanun qəbul edilmişdir: "**Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 13.01.2004-cü il tarixli Qanunu**. Eyni zamanda, Azərbaycan Respublikasının **cinayət qanunvericiliyində** korrupsiya cinayətlərinə dair ayrıca fəsil həsr olunmuşdur: " Otuz üçüncü fəsil. Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" (CM, 1999-cu il).[2] Cinayət qanununda aşağıdakı əməllər **korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər** kimi tövsif edilir:

– **Vəzifə səlahiyyətlərindən sui-istifadə**, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə,

[1] Göstərilən sənədlər barədə daha ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.219-220.

[2] Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 416 s.

yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulması (CM, maddə 308);

- **Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə**, bu əməllər xeyli miqdarda törədildikdə (CM, maddə 308-1);
- **Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə**, yəni satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə və ya malların (işlərin) satın alınmasını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə və ya açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından (vasitəsindən) qanunsuz istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda (CM, maddə 308-2);
- **Vəzifə səlahiyyətlərini aşma**, yəni vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda (CM, maddə 309.1);
- **Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə -** özbaşına özünün vəzifəli şəxs kimi təqdim edilməsi və ya vəzifəli şəxsin səlahiyyətlərinin mənimsənilməsi ilə əlaqədar fiziki və ya hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan hərəkətlər törətmə (CM, maddə 310);
- **Rüşvət alma (passiv rüşvətxorluq).** Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya

laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi (CM, maddə 311);

– **Rüşvət vermə (aktiv rüşvətxorluq).** Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi (CM, maddə 312);
– **Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri).** Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi (CM, maddə 312-1);
– **Vəzifə saxtakarlığı**, yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və ya informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlərdə və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, bu əməllər tamah və ya sair şəxsi niyyətlərlə törədildikdə (CM, maddə 313);
– **Səhlənkarlıq**, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanun-

la qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda (CM, maddə 314) və s. əməllər.

CM-də təsbit olunmuş normalara əsasən, **digər iqtisadi cinayətlər** kateqoriyasına aşağıdakılar aiddir:

- **Qanunsuz sahibkarlıq -** qanunvericilik ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma fiziki və ya hüquqi şəxslərə, yaxud dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə (CM, maddə 192);
- **İdman yarışlarının manipulyasiyası.** İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi (CM, maddə 192-2);
- **Yalançı sahibkarlıq**, yəni kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə (CM, maddə 193);
- **Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma** (CM, maddə 193-1). Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, yəni cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakın əldə edilməsinin

həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə pul vəsaitlərinin və ya digər əmlakın konversiyası və ya köçürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi; eləcə də cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə pul vəsaitləri və ya digər əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasımn ört-basdır edilməsi və ya gizlədilməsi;

– **Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul və-saitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə.** Qabaqcadan vəd etmədən cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən onlara sərəncam vermə (CM, maddə 194);
– **Əmtəə nişanlarından qanunsuz istifadə etmə.** Özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması xeyli miqdarda ziyan vurduqda (CM, maddə 197);
– **Bilə-bilə yalan reklam etmə.** Əmtəələr, qulluq və xidmətlər haqqında, habelə onların istehsalçıları (icraçıları, satıcıları) haqqında tamah məqsədilə bilə-bilə yalan məlumatlardan reklamda istifadə etmə xeyli miqdarda ziyan vurduqda (CM, maddə 198);
– **İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma**. Təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və ya yeni rəqiblərin bazara daxil olma-

sının qarşısını almaq məqsədilə rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsi, belə sövdələşmədə iştirak etmə, yaxud rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma, məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə və ya digər inhisarçılıq hərəkətlərini etmə (CM, maddə 199) və s. əməllər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, idman sferasında mövcud olan **korrupsiya və digər iqtisadi cinayətlər** beynəlxalq idman hərəkatının inkişafına ciddi maneə yaradır. Bu da məmurların korrupsiyası, rüşvətxorluğu, idman hakimiyyət strukturlarının **vəzifəli şəxslərinin** müvafiq məsələlərin həllində **səriştəsizliyi**, bəzən də, **subyektiv yanaşmaları** ilə bağlıdır. Ona görə də, **korrupsiyaya qarşı kəsərli mübarizə aparılması** məsələsi siyasətçilər, qanunvericilər, idman xadimləri, elm adamları, hüquqşünaslar və bütövlükdə cəmiyyətin **daimi diskussiya** mövzusudur. Belə ki, 1990-cı illərin ortalarında müasir olimpiya hərəkatının ciddi problemi – Olimpiya oyunlarının keçirilməsi üçün **şəhərlərin seçilməsi** problemi ortaya çıxdı. Oyunların ev sahibi olmaq hüququ üçün **namizəd-şəhərin** seçilməsi proseduru ilə bağlı problem **iki əsas səbəblə** bağlıdır:

- Olimpiya oyunlarının keçirilməsi üzrə **təşkilat komitələrinin gəlirliliyinin** çoxalması və nəticədə olimpiadaya ev sahibliyi etmək hüququ uğrunda müsabiqədə iştirak edən namizəd-şəhərlərin sayının **əhəmiyyətli dərəcədə** artması;
- istər **müsabiqədə iştirak edən** dövlətlərin vəzifəli şəxsləri, istərsə də beynəlxalq idman strukturlarının inzibati heyəti tərəfindən, xüsusən də BOK və BİF üzvləri tərəfindən **namizəd-şəhərin seçilməsi** proseduru ilə bağlı olimpiya idman obyektlərində aparılan yoxlamalar za-

manı **sui-istifadə hallarına** yol verilməsinin mümkünlüyü.

Məsələn, 2014-cü ildə Soçidə keçiriləcək Olimpiadaya hazırlıq adı ilə rüşvət tələb edən federal səviyyəli yüksək vəzifəli şəxsin rəhbərlik etdiyi **mütəşəkkil cinayətkar dəstənin fəaliyyəti** 2006-cı ilin avqustunda Rusiya Federasiyası Daxili İşlər Nazirliyi Cənub Federal Dairəsi üzrə Baş İdarəsinin əməkdaşları tərəfindən ifşa olunub. İstintaqın məlumatına görə, məmur dəllallar vasitəsilə sahibkarlardan olimpiya obyektlərinin tikintisi üçün istifadə oluna biləcək **torpaq sahələrinin verilməsinə** görə onlardan **rüşvət alıb**. Bu faktla bağlı Rusiya Federasiyası Cinayət Məcəlləsinin 290-cı maddəsinin 4-cü hissəsi ilə cinayət işi başlanıb və aidiyyəti üzrə müvafiq tədbirlər görülüb.[1]

İdman sahəsində **korrupsiyanın başqa bir istiqaməti** idmançılara, idman hakimlərinə, məşqçilərə, komanda rəhbərlərinə və idman yarışlarının digər iştirakçılarına və ya təşkilatçılarına bu yarışların nəticələrinə təsir göstərmək üçün, o cümlədən belə adlandırılan "razılaşdırılmış matçlara" görə onların **rüşvətlə ələ alınmasıdır**. Bu səbəbdən belə cinayətlərə tətbiq edilən müvafiq cinayət təqibi olduqca aktualdır.[2] Müasir idmanın **kommersiyalaşdırılması** onun ənənəvi mahiyyətinin dəyişməsinə gətirib çıxarır, idmana biznes və qazanc ruhunu daxil edir, olimpiya prinsipləri ilə bağlı formalaşmış fikirlərin **pozulması riskinə** ehtimalı daha da artırır. Belə hallara ən çox **futbol oyunlarında** təsadüf olunur.

---

[1] İdmanda korrupsiyaya qarşı mübarizə problemləri barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.495-500.

[2] Bax: Жиганова А.А. Взаимодействие государств по борьбе с коррупцией // Альманах молодых ученых. Правоведение. 2005. № 5, с. 58-62.http://law.spbu.ru (24.04.2022-ci il).


Müasir dünyada baş verən bir sıra idman qalmaqalları idman sahəsində **sövdələşməyə məcbur etmə** və ya **onu həyata keçirməkdən imtina etməyə görə təqib halları** üzrə müvafiq cinayət məsuliyyətinin tətbiqinin zəruriliyini şərtləndirir. Müasir idmanda bu cür **korrupsiya cinayətləri** idman yarışlarında iştirakdan imtina və ya müvafiq idman kontraktının bağlanması hallarında da baş verə bilər.[1]

Beləliklə, qeyd edə bilərik ki, beynəlxalq idman münasibətlərində korrupsiya və digər iqtisadi cinayətlərə qarşı aparılan **mübarizə tədbirlərinin gücləndirilməsi** idmanda hüquqi, təşkilati və iqtisadi **sağlamlaşma mühitinin yaranmasına** xidmət edəcəkdir.[2] Bu istiqamətdə münasibətlərin tənzimlənməsi işində məsuliyyət tədbirlərinin effektivliyinin yüksəldilməsi, habelə hüquqi mexanizmlərin təkmilləşdirilməsi problemləri BİH-in qarşısında duran həlledici məqamlardan biridir.

[1] Müasir idmanda korrupsiyaya qarşı mübarizə tədbirləri ilə bağlı kompleks problemlər barədə bax: Гончаренко Г.С. Коррупция и спорт. Монография. Ростов-на-Дону: изд. РЮИ РПА Минюста РФ, 2011, 175 с.

[2] Bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М., Проспект, 2021, с.216-221.

X FƏSİL ÜZRƏ ƏYANİ SXEM



XI FƏSİL.
BEYNƏLXALQ İDMAN MÜBAHİSƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ

11.1. Beynəlxalq İdman Arbitraj Məhkəməsi və onun fəaliyyəti

Qeyd etməliyik ki, beynəlxalq idman hüququ sisteminin **xüsusi hissəsinə** daxil olan hüquq institutlarından biri **beynəlxalq idman mübahisələrinin tənzimlənməsi** institutu adlanır. Bu **institut** özündə idman fəaliyyəti subyektləri arasında yaranan mübahisələrin həlli qaydalarını tənzimləyən hüquq normalarını ehtiva edir.[1] Belə mübahisələr isə, müasir dövrdə bazar iqtisadiyyatı şəraitində, əsasən, iqtisadi xarakterə malik olmaqla[2] idman fəaliyyəti prosesində yaranır. İdman fəaliyyəti prosesində idman subyektləri arasında yarandığına görə belə mübahisələr həm də **idman mübahisələri** adlanır. İdman mübahisəsi, adətən, idman subyektlərinin eyni bir məsələ ilə bağlı ziddiyyətli maraqlara malik olduqları halda meydana çıxır.

Beynəlxalq idman mübahisələrin həlli hüququ dedikdə beynəlxalq idman hüququnun xüsusi hissəsinin elə bir institutu başa düşülür ki, bu institut idman fəaliyyəti prosesində yaranan idman mübahisələrinə baxılması ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmucundan ibarətdir.

Eyni zamanda, dövlətlər və beynəlxalq idman hüququnun digər subyektləri arasında **qarşılıqlı faydalı** və normal **əməkdaşlıq münasibətləri** mövcud olmalıdır. Onlar, hər şeydən əvvəl, öz aralarındakı qarşılıqlı münasibətlərin pisləşməsinə sə-

---

[1] Beynəlxalq idman hüququnun sistemi barədə ətraflı bax: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, 300 s.55-59.

[2] İqtisadi mübahisələr barədə bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.204-217.

bəb ola biləcək hər cür hərəkətdən çəkinməli, mövcud vəziyyəti böhran səviyyəsinə çatdırmamalı, xoşagəlməz yersiz ixtilaflardan uzaq olmalı, arzuolunmaz mübahisə və münaqişələrə yol verməməlidirlər. Lakin, təəssüflər olsun ki, həmişə bu cür olmur. Belə ki, beynəlxalq idman hüququnun **ayrı-ayrı subyektləri**, bəzən, digər subyektlərin həm hüquqları, həm də qanuni mənafeləri üçün təhlükə törədən əməllərə yol verirlər. Belə **beynəlxalq idman mübahisələri**, bir qayda olaraq, dinc vasitələrlə həll edilir.

Beynəlxalq idman mübahisələrin həll edilməsinin dinc vasitələri dedikdə elə beynəlxalq-hüquqi üsullar başa düşülür ki, bu üsulların köməyi ilə idman subyektləri öz aralarında yaranmış beynəlxalq idman mübahisələrini dinc və sülh tədbirləri tətbiq etmək **üsulu** ilə tənzimləyirlər. Belə üsulları ifadə etmək üçün hüquq ədəbiyyatında **"metod"** və ya **"prosedur"** kimi terminlərdən də istifadə olunur; əlbəttə, öz məzmununa görə onlar müxtəlif terminlərdir. Lakin, həmin terminlər **beynəlxalq-hüquqi mahiyyət** baxımından, eyni məna kəsb edir.[1] Buna görə də, "beynəlxalq idman mübahisələrini həll etməyin dinc vasitələri", "beynəlxalq idman mübahisələrini həll etməyin dinc metodları" və "beynəlxalq idman mübahisələrini həll etməyin dinc prosedurları" kimi üç anlayış, prinsip etibarı ilə, üst-üstə düşür və **sinonim anlayışlardır**; çünki "vasitə", "metod" və "prosedur" haqqında danışarkən, söhbət beynəlxalq idman mübahisələrin həlli zamanı istifadə olunan müxtəlif **hərəkət üsullarından** gedir.

Beynəlxalq idman mübahisələri öz **məzmununa** görə müxtəlif olub, bir-birindən fərqlənir. Başqa sözlə, beynəlxalq idman mübahisələri müxtəlif xarakterə malik olur. Təbii ki, bu da, öz növbəsində, idman sferasında beynəlxalq mübahisələri həll etməkdən ötrü **müxtəlif** dinc vasitələrdən istifadə olunmasını şərtləndirir. Nəzərə almaq lazımdır ki, beynəlxalq idman mübahisələrini həll etməyin dinc vasitələri **xarakterə** eyni de-

[1] Bax: məsələn, Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, s.701.

yildir. Bu baxımdan, beynəlxalq idman mübahisələrinin həll edilməsinin **dinc vasitələri** aşağıda göstərilən **üç növə** bölünür:[1]

- siyasi-diplomatik vasitələr;
- məhkəmə (hüquqi) vasitələri;
- xüsusi vasitələr.

Beynəlxalq idman mübahisələrini həll etməyin **siyasi-diplomatik vasitələri** beynəlxalq mübahisələri tənzimləməyin **ənənəvi** üsullarıdır. Müasir dövrdə belə vasitələr geniş yayılaraq, **beynəlxalq idman münasibətləri** praktikasında daha çox tətbiq edilir. Həmin vasitələrə **aşağıdakılar** aiddir:

- danışıqlar aparmaq;
- məsləhətləşmə;
- vasitəçilik;
- istintaq və razılaşdırıcı (barışdırıcı) komissiyalar;
- xoşməramlı (xeyirxah) xidmət;
- beynəlxalq təşkilatlar çərçivəsində tənzimetmə.[2]

Beynəlxalq idman mübahisələrini həll etməyin **məhkəmə vasitələri** dedikdə elə üsullar başa düşülür ki, bu üsullar idman sferasında beynəlxalq mübahisələrin **məhkəmədə** və **arbitrajda** baxılıb həll edilməsini nəzərdə tutur. Həmin vasitələrə bunlar **daxildir**:

- beynəlxalq məhkəmə;
- beynəlxalq arbitraj.

Beynəlxalq idman mübahisələrini həll etməyin məhkəmə vasitələri idman fəaliyyəti sahəsində yaranan beynəlxalq mübahisələri hüquqi cəhətdən tənzimləyir. Buna görə də, onlara həm də beynəlxalq idman mübahisələrini həll etməyin **hüquqi vasitələri** deyilir.

---

[1] Beynəlxalq mübahisələri həll etməyin siyasi-diplomatik vasitələri barədə ətraflı bax: məsələn, Beynəlxalq hüquq. Dərslik / Məsul redaktor və tərcüməçi: R.F.Məmmədov. Bakı, 2002, s 361 və s.

[2] Bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, s.714-732; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.327 və b.

Beynəlxalq idman mübahisələrini həll etməyin **xüsusi vasitələri** dedikdə elə üsullar başa düşülür ki, bu üsulların köməyi ilə xüsusi xarakterli beynəlxalq idman mübahisələri tənzimlənir. Məsələn, dövlətlər arasında idman sferasında fəaliyyət **koordinasiyasının** müəyyən edilməsi, transfer münasibətləri ilə bağlı **idmançıların statusu** və digər məsələlər barədə **xüsusi xarakterli beynəlxalq mübahisə** yarana bilər. Belə mübahisələr məhz xüsusi vasitələrin köməyi ilə həll olunur.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, beynəlxalq idman mübahisələrinin həll edilməsinin dinc vasitələri sisteminə **yeni bir komponent** əlavə olunmuşdur. Belə ki, müasir dövrdə **idman sferasında fəaliyyətin** kommersiyalaşdırılması prosesi, idman biznes sahəsinin yaranması, idmanın sahibkarliq fəaliyyət növünə çevrilməsi, idman mərc oyunlarının keçirilməsi, idman-əmək, idman-vergi, idman-reklam və s. münasibətlərin formalaşması kimi amillər nəzərə alınaraq, **idman subyektləri** arasında yarana biləcək mübahisələrin hüquq elmində **yeni alternativ həll variantı** təşəkkül tapmışdır ki, o, mediasiya adlanır.[1] **Mediasiya** dedikdə mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında **məhkəməyəqədər həlli edilməsi prosesi** başa düşülür. Mübahisələrin **alternativ həll üsullarından** olan mediasiyanın təşkili sahəsində ictimai münasibətlərin tənzimlənməsi, mediasiyanın məqsədləri, prinsipləri, həyata keçirilməsi qaydaları və mediatorun statusu **"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu** (2019-cu il) ilə müəyyən edilir.[2]

---

[1] Bu barədə ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADRcenter, 2020, s.5-15; Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.93.

[2] Bu normativ hüquqi akt 29.03.2019-cu il tarixli 1555-VQ nömrəli qanunla qəbul edilmişdir. Bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2019, 36 s.

Adıçəkilən qanuna görə, mediasiya **idman sferasında** aşağıda göstərilən **istiqamətlər üzrə** tətbiq edilir (maddə 3):

- mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla);
- ailə münasibətlərindən irəli gələn mübahisələr;
- əmək münasibətlərindən irəli gələn mübahisələr;
- inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

Kommersiya mübahisələri, həmçinin **ailə** və **əmək** münasibətlərindən irəli gələn mübahisələr üzrə bu qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq, **məhkəməyə müraciət etməmişdən** əvvəl **ilkin mediasiya** sessiyasında iştirak tələb olunur.

Göründüyü kimi, idman hərəkatının inkişafının hazırkı mərhələsinin **xarakterik xüsusiyyəti** idman sahəsində mübahisələrin həlli üçün **ixtisaslaşmış orqanların** yaradılmasıdır. Qeyd etməliyik ki, **idman arbitraj orqanları** Beynəlxalq Olimpiya Komitəsinin nəzdində, eləcə də bir çox beynəlxalq idman federasiyalarının tərkibində, regional, yaxud milli səviyyədə və digər formatlarda **müxtəlif variasiyalarda** yaradılmış və fəaliyyət göstərir. Beynəlxalq idman arbitraj orqanlarının fəaliyyəti onların mövcudluğunun **zəruriliyini** tam sübut edilmiş və bununla əlaqədar BOK-un **Olimpiya Xartiyasının** son nəşrinə yeni 74-cü qayda – **"Arbitraj"** daxil edilmişdir (Xartiya hazırda 2020-ci il redaksiyasında qüvvədədir).[1] BOK-un Olimpiya Xartiyasının 74-cü qaydası müəyyən edir ki, Olimpiya oyunları zamanı və ya onunla əlaqədar yaranan bütün mübahisələr müstəsna olaraq, 1984-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin nəzdində yaradılmış **Beynəlxalq İdman Arbitraj Məhkəməsi** ("Tribunal Arbitral du Sport" - bundan sonra - İdman Arbitraj Məhkəməsi və ya BİAM - TAS) tərəfindən həll edilə bilər. İdman sahəsində mübahisələrə baxmaq və effektiv şəkildə həll etmək üçün Beynəlxalq İdman Arbitraj Məhkəməsinin yaradıl-

[1] Daha ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.777-790.

ması **mühüm** və **vaxtında atılmış addım** oldu. 1983-cü ildə BOK 30 iyun 1984-cü ildə qüvvəyə minmiş İdman Arbitraj Məhkəməsinin **Əsasnaməsini**, o cümlədən onun fəaliyyətinə dair **Reqlament** qaydalarını, rəsmi olaraq, təsdiqlədi. BİAM-in **illik büdcəsi** BOK prezidenti tərəfindən təsdiq edildi və **mənzil-qərargah** yeri İsveçrənin Lozanna şəhəri seçildi.

Sonralar Lozannada idman sferasında baş verən **islahatlar prosesində** İdman Arbitraj Məhkəməsinin fəaliyyətinə və maliyyələşdirilməsinə nəzarət etmək üçün **Beynəlxalq İdman Arbitraj Şurası** (Conseil International de I'Arbitrage en matiere de Sport – Cl AS) təsis edilmişdir. Bundan əlavə, TAS çərçivəsində iki **daimi palata** – biri **adi arbitraj**, digəri isə **apellyasiya arbitrajı** yaradılmışdır. Həmçinin islahatlar nəticəsində 22 noyabr 1994-cü ildə qüvvəyə minmiş və indi də qüvvədə olan **İdman Arbitrajı Məcəlləsi** (Code de I'Arbitrage en matiere de Sport) qəbul edildi.[1]

BİAM-in iş fəaliyyəti aşağıdakı **arbitraj prosedurlarının** tətbiqinə əsaslanır:

- adi arbitraj proseduru;
- apelyasiya arbitraj proseduru;
- ad hoc Palatasında arbitraj proseduru;
- vasitəçilik arbitraj proseduru;
- konsultasiya arbitraj proseduru.

Hazırda da İdman Arbitraj Məhkəməsinin **idarəetmə** və **maliyyə** işləri Beynəlxalq İdman Arbitraj Şurası tərəfindən aparılmaqdadır. **İdman Arbitrajı Məcəlləsinə** görə, Beynəlxalq İdman Arbitraj Şurası hər biri idman hüququ, arbitraj və arbitraj icraatı sahəsində təcrübəli olan **20 yüksək peşəkar hüquqşünas üzvdən** ibarətdir. Bu üzvlər **Beynəlxalq Olimpiya**

[1] Bu məsələlər barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.495-500.

Komitəsi, Beynəlxalq İdman Federasiyaları, **Milli Olimpiya Komitələri** birliyi (assosiasiyaları) tərəfindən müvafiq qaydada seçilir; üzvlərin **səlahiyyət müddəti** 4 ildir.

Eyni zamanda, qeyd etməliyik ki, Beynəlxalq İdman Arbitraj Məhkəməsi **iki kateqoriya üzrə idman mübahisələrinə** baxır:

1) kommersiya xarakterli mübahisələr;

2) intizam xarakterli mübahisələr.

Birinci qrup **kommersiya xarakterli mübahisələrə** sponsorluq, televiziya hüquqlarının satışı, idman tədbirlərinin təşkili, idmançıların transferi, idmançılar və məşqçilər, klublar və (və ya) agentlər arasındakı münasibətlərə dair müqavilələrin icrası ilə bağlı mübahisələr (əmək və agentlik müqavilələri) daxildir. **Mülki-hüquqi məsuliyyətlə** bağlı mübahisələr də bu kateqoriyaya aiddir (məsələn, idman yarışı zamanı idmançının zədələnməsi). Belə kommersiya mübahisələri İdman Arbitraj Məhkəməsi tərəfindən, bir qayda olaraq, birinci və tək instansiya məhkəməsi kimi həll edilir.

İntizam xarakterli mübahisələr BİAM tərəfindən baxılan mübahisələrin ikinci qrupunu təşkil edir və onların əksəriyyəti dopinqlə bağlı məsələlərdir. Dopinq münasibətləri ilə bağlı işlərlə yanaşı, BİAM müxtəlif intizam mübahisələrinə də (oyun meydanında zorakılıq, hakimin yanlış qərarları, sui-istifadə halları və s.) baxır. Bu cür intizam mübahisələri, adətən, birinci instansiyada səlahiyyətli idman orqanları tərəfindən baxılır və qarşılıqlı razılıq əldə olunmadıqda son instansiya məhkəməsi kimi çıxış edən BİAM-a şikayətlə müraciət edilir.[1]

İdman sahəsində mübahisələrin araşdırılması həm də hər bir ölkənin **milli idman arbitraj orqanları** vasitəsilə nizama salınır. Məsələn, **Azərbaycan Respublikasında** peşəkar idman fəaliyyəti sahəsində yaranan idman mübahisələrinin hüquqi tənzimlənməsi ”Bədən tərbiyəsi və idman haqqında” Azərbay-

[1] Ətraflı bax: Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.93-94.

can Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu əsasında həyata keçirilir (maddə 33).[1] Belə ki, adıçəkilən normativ hüquqi aktda təsbit olunmuş müddəalara əsasən, peşəkar idman sahəsində yaranan mübahisələrə qanunvericiliyə uyğun şəkildə, o cümlədən **idman arbitrajı** vasitəsi ilə baxılır. İdman arbitrajı peşəkar idman sahəsindəki mübahisələrin həlli üçün yaradılan **müvəqqəti orqandır**. O, peşəkar idman sahəsindəki mübahisənin idman arbitrajının icraatına verilməsi barədə razılığın əldə edildiyi vaxtdan **5 iş günündən** gec olmayaraq **tərəflərin birgə qərarı** ilə yaradılır. İdman arbitrajının **tərkibi** (3 nəfərdən az olmayaraq), **reqlamenti**, mübahisəyə **baxılma yeri**, **müddətləri**, arbitraja **texniki yardımın** təşkili tərəflərin qarşılıqlı razılığı ilə müəyyən olunur. **Arbitrajın sədri** arbitrlər tərəfindən öz sıralarından seçilir. Mübahisələrə bədən tərbiyəsi və idman **subyektlərinin iştirakı** ilə baxılır. İdman arbitrajının qərarı **səs çoxluğu** ilə qəbul edilir və **protokolla** rəsmiləşdirilir. Tərəflər idman arbitrajının qərarlarının **məcburiliyi** barədə qabaqcadan razılığa gəlmişlərsə, arbitrajın qərarı ilə mübahisə **qəti həll olunmuş** hesab edilir və mübahisənin **davam etməsinə** yol verilmir.

Beləliklə, qeyd edə bilərik ki, **beynəlxalq idman arbitraj məhkəmə orqanlarının** fəaliyyəti yuxarıda göstərilən **normativ hüquqi aktlarla** nizama salınır.

11.2. Beynəlxalq İdman Arbitraj Məhkəməsində adi arbitraj proseduru

Qeyd etməliyik ki, **Adi Arbitraj Palatası** Beynəlxalq İdman Arbitraj Məhkəməsinin daimi fəaliyyət göstərən **struktur hissələrindən** biridir. Adi arbitraj proseduru BİAM-in xidmətlərindən istifadə etmək niyyətində olan tərəfin verdiyi **iddia ərizəsi** əsasında başlanır. İddia ərizəsində **aşağıda göstərilən məlumatlar** ehtiva edilir:

[1] Ətraflı bax: www.e-qanun (30.04.2022-ci il); Azərbaycan Respublikasının QanunvericilikToplusu.Bakı,2009,№6.

– cavabdehin adı və ünvanı;
– faktların və hüquqi əsasların qısa təsviri;
– BİAM qarşısında həll olunması məqsədilə qoyulan suallar;
– iddiaçının pretenziyaları, yəni fərdin iddiaları;
– Prosedur Reqlamentinə uyğun olaraq, arbitrajın aparılmasını nəzərdə tutan arbitraj müqaviləsi və ya hər hansı digər sənədi özündə əks etdirən kontraktın surəti;
– arbitrlərin sayı və seçimi ilə bağlı göstərişlər, xüsusən, arbitraj müqaviləsində mübahisəyə üç arbitr tərəfindən baxılması nəzərdə tutularsa, BİAM siyahısında mövcud olanlar arasından iddiaçının seçdiyi arbitrin adı və ünvanı.

Ərizə verildiyi zaman **iddiaçı** BİAM ofisinə (dəftərxanaya) qanunvericiliklə müəyyənləşdirilmiş məbləğdə **müvafiq haqq** ödəməlidir; yalnız bundan sonra BİAM **məhkəmə icraatı** prosedurlarına başlayır. Dəftərxana haqqı BİAM-in **sərəncamında** qalır və məhkəmə xərclərinin yekun hesablanması zamanı ofis (dəftərxana) və arbitraj qrupu tərəfindən **nəzərə alınır**. Təqdim edilən sənədlər **qaydasında olmadığı** halda, ofis arbitraj prosedurunun başlanması üçün bütün lazımi tədbirləri görür və iddiaçıya cavab verilməsi üçün müvafiq **arbitr sorğusu** göndərir. İddiaçının verəcəyi **cavabda** müdafiə vasitələrinin qısa təsviri, hər hansı qeyri-kompetensiyanın istisna edilməsi və istənilən əks iddia barədə məlumatlar **öz əksini** tapmalıdır.

Arbitraj qrupu bir və ya üç arbitrdən ibarətdir. Əgər arbitraj müqaviləsində arbitrlərin **sayı göstərilməyibsə**, iddianın dəyərini və işin mürəkkəbliyini nəzərə alaraq, bu məsələni **Arbitraj Palatasının prezidenti** özü həll edir.[1] Tərəflər arbitrlərin təyin olunması və hansı hüquq normalarının tətbiq edilməsi

[1] BİAM çərçivəsində arbitraj icraatının ümumi xarakteristikası barədə ətraflı bax: məsələn, Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М.,: Проспект, 2021, с.133-134.

prosedurunu **öz aralarında razılaşdırırlar** (lex voluntatis). Belə razılaşma olmadıqda, arbitrlər Palatanın prezidenti tərəfindən **xüsusi qaydalara** uyğun olaraq təyin edilir.

Arbitraj ərizəsində **bir neçə iddiaçı** və (və ya) **cavabdeh** varsa, BİAM mübahisənin bütün tərəfləri arasında razılaşdırılmış arbitrlərin sayı və onların təyin edilməsi prosedurundan asılı olaraq, arbitraj qrupunun **tərkibini** müəyyənləşdirir. Belə razılaşma olmadıqda, hakimlərin sayı Palatanın prezidenti tərəfindən müəyyən edilir.

Tərəflər və ya digər **arbitr-şəxslər** tərəfindən təklif edilən **arbitrlər** Palatanın prezidenti tərəfindən təsdiq edilənə qədər təyin olunmuş hesab edilmir. Ofis rəsmi olaraq arbitraj qrupunun təyin edilməsini **təsdiqləyir** və işi arbitrlərə **göndərir**.

Arbitraj qrupu təyin edildikdən sonra ofis (dəftərxana) **arbitraj xərcləri üzrə avansın** məbləğini və ödənilməsi üsullarını müəyyən edir. Qarşılıqlı iddiaların və ya yeni iddiaların təqdim edilməsi müvafiq məbləğlərdə **əlavə avansların** təyin edilməsinə səbəb olur. Əgər cavabdeh arbitraj məhkəmə icraatının tərəfi kimi **üçüncü şəxsi** cəlb etmək istəyirsə, o, bunu öz cavabında əsaslandırmalıdır. Üçüncü şəxs arbitrajda tərəf kimi **özü iştirak etmək istəyirsə**, həmin şəxs cavabdehə aidiyyəti üzrə məlumat verilməsi üçün müəyyən edilmiş müddət ərzində BİAM-ə müvafiq **əsaslandırılmış ərizə** verməlidir və tərəflər buna dəftərxananın müəyyən etdiyi müddətdə öz **münasibətlərini** bəyan etməlidirlər. Üçüncü şəxs arbitrajda yalnız o halda iştirak edə bilər ki, bu, arbitraj müqaviləsində göstərilsin və ya onunla mübahisənin digər tərəfləri **yazılı şəkildə** razılaşsınlar; belə qərar Palatanın prezidenti tərəfindən **təsdiqlənməlidir**.

İş arbitraj qrupuna verilməzdən əvvəl Palatanın prezidenti, sonra isə arbitraj qrupu istənilən vaxt mübahisənin tərəflərin **barışıq sazişini** qəbul etməsi yolu ilə həllini təklif edə bilər. İstənilən barışıq sazişi mübahisə edən tərəflərin razılığı ilə **arbitraj qərarının predmeti** ola bilər.

İşin baxilma gedişi **açıqlanmır**. Tərəflər, arbitrlər və arbitraj prosesinin digər iştirakçıları mübahisə və ya işə baxılması üçün **əhəmiyyət kəsb edən faktları** və ya digər məlumatları üçüncü şəxslərə **açıqlamaq hüququna malik deyillər**. Qərarın özündə nəzərdə tutulmadıqda və ya bütün tərəflər bununla razılaşdıqda, qərarlar **dərc olunmur**.

Reqlament qaydaları ilə arbitraj qrupu tərəfindən aşağıdakı **prosesdur hərəkətlərin** həyata keçirilməsi nəzərdə tutulur. Bu prosedur hərəkətlərə, qısaca da olsa, diqqət yetirək.

1. Yazılı araşdırma. Arbitraj qrupunun sədri işi qəbul etdikdən sonra, əgər bu işdə belə hal nəzərdə tutulubsa, yazılı araşdırmanın aparılması qaydasını müəyyən edir. Buraya yaddaş qeydləri, cavab-yaddaş qeydləri və , əgər işin halları tələb edərsə, etirazlar və əks-etirazlar daxildir. Tərəflər iddia ərizəsində və ya ona verilən cavab məktubunda qeyd olmayan tələbləri də yaddaş və cavab-yaddaş qeydlərində irəli sürə bilərlər. Bundan sonra tərəflər qarşı tərəfin razılığı olmadan yeni iddialar irəli sürə bilməzlər.

2. Şifahi araşdırma. Qeydlərin (etirazların) mübadiləsi başa çatdıqdan sonra arbitraj qrupunun sədri zəruri hallarda şifahi araşdırmanın aparılması qaydasını müəyyən edir və məhkəmə iclasının tarixini təyin edir. Şifahi araşdırma proseduru tərəflərin, şahidlərin və ekspertlərin, habelə tərəflərin son sözünün və cavabdeh tərəfin son çıxışının dinlənilməsi üzrə arbitraj qrupu tərəfində aparılan məhkəmə iclasından ibarətdir.

3. Arbitraj qrupunun tələbi ilə istintaq hərəkətləri. Hər bir tərəf arbitraj qrupundan digər tərəfi öz əlində və ya nəzarətində olan sənədlərin təqdim olunmasına dəvəti tələb etmək hüququna malikdir. Onu tələb edən tərəf bu sənədlərin mövcudluğunun həqiqiliyini və icraatda olan işin düzgün həlli üçün əhəmiyyətini təsdiq etməlidir.

4. Tezləşdirilmiş məhkəmə icraatı. Arbitraj qrupu tərəflərin razılığı olduğu təqdirdə tezləşdirilmiş məhkəmə icraatı üsuluna (metoduna) müraciət edə bilər. Bu halda arbitraj qrupu

tezləşdirilmiş məhkəmə icraatı metodunun həyata keçirilməsi üçün xüsusi forma müəyyən edir.

5. Tərəflərin gəlməməsi. Əgər iddiaçı tərəfindən yaddaş qeydləri barədə müvafiq sənəd təqdim edilməzsə, onda iddia ərizəsi geri götürülmüş hesab edilir. Cavabdeh tərəfindən cavab-yaddaş qeydləri barədə aidiyyəti sənəd təqdim edilmədikdə isə, arbitraj qrupu buna baxmayaraq, arbitraj prosesini davam etdirə və müvafiq qərar çıxara bilər.[1]

Arbitraj qrupu tərəflərin seçdiyi **kollizion hüquq normalarına** uyğun olaraq, bu cür seçim olmadıqda isə – **İsveçrə qanunvericiliyinə** müvafiq qaydada hərəkət etməlidir. Tərəflər arbitraj qrupuna mübahisə işinin ədalətli həll edilməsi barədə **müvafiq səlahiyyətlər** verirlər.

Məhkəmə icraatı prosesinin **sonunda ofis (dəftərxana)** məhkəmə xərclərinin ümumi məbləğini, o cümlədən BİAM-in tarif cədvəlinə uyğun hesablanmış kargüzarlıq haqqını, arbitrlərin xərclərini və qonorar məbləğlərini, məhkəmədə iştirak xərclərini və şahidlərin, ekspertlərin, tərcüməçilərin dəvət edilməsi ilə bağlı **xərcləri müəyyən edir**. Bu şəkildə müəyyən edilmiş **məsrəflər** qərara daxil edilməli, həmin qərarda onların **hansı tərəfin ödəməli** olduğu və ya xərclərin hansı hissəsinin onların hər biri tərəfindən **ayrıca ödəniləcəyi** göstərilməlidir. **Arbitraj** və **vəkil haqqının** təyin edilməsi zamanı arbitraj qrupu **araşdırma prosesinin** nəticəsini, tərəflərin davranışını və resurslarını **nəzərə alır**.

Araşdırma üzrə müvafiq **qərar** səs çoxluğu ilə, bu olmadıqda isə arbitraj qrupunun sədri tərəfindən təkbaşına qəbul edilir. Qərar **yazılı şəkildə** tərtib edilir və qısa **motivlərlə** əsaslandırılır, **tarix** qoyulur və **imza** atılır. Bu halda yalnız **sədrin** imzası kifayətdir.

---

[1] Bu məsələlər barədə daha ətraflı bax: Международное спортивное право.Учебник/С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.794-796.

Qərardan **şikayət verilə bilməz.** Məhkəmənin qərarı mübahisə tərəflərinin İsveçrədə nə daimi yaşayış yeri, nə müvəqqəti yaşayış yeri, nə də iş yeri üzrə müəssisə olmadığı və arbitraj müqaviləsində və ya sonradan, yəni arbitraj məhkəmə icraatının başlanğıcında bağlanmış müqavilədə şikayət verilməsindən açıq-aydın şəkildə imtina edildiyi hallarda **ciddi şəkildə icra** edilməlidir.

11.3. Beynəlxalq İdman Arbitraj Məhkəməsində apelyasiya arbitraj proseduru

Qeyd etdiyimiz kimi, BİAM-in fəaliyyət istiqamətlərindən biri də **apelyasiya arbitraj proseduru** adlanır. Bu funksiyanın həyata keçirilməsi məqsədilə BİAM tərkibində **Apelyasiya Arbitraj Palatası** yaradılmışdır; o, daimi fəaliyyət göstərən struktur bölmədir. Adıçəkilən qurum idman mübahisələrinə baxılması üçün müvafiq **arbitraj qrupları** təşkil edir; onların **əsas funksiyası** idman təşkilatlarının müxtəlif intizam instansiya orqanları – federasiyalar, assosiasiyalar və s. qurumlar tərəfindən artıq qəbul edilmiş qərarlarla əlaqədar **idman mübahisələrinin həll edilməsindən** ibarətdir. Apelyasiya işləri BİAM tərəfindən baxılan ümumi işlərin 80%-dən çoxunu təşkil edir; üstəlik, apelyasiya şikayətlərində baxılan mübahisələrin əksəriyyəti **dopinqdən istifadə halları** ilə bağlıdır.[1]

Mübahisə tərəflərindən **hər hansı birinin** intizam məhkəməsinin və ya federasiyanın, assosiasiyanın və ya digər idman təşkilatının analoji instansiya orqanlarının qərarlarından **şikayət etmək hüququ** vardır. Təbii ki, belə **potensial imkan** idman təşkilatlarının nizamnamə, əsasnamə və ya reqlamentlərin-

[1] Bu barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.606-609.

də, yaxud tərəflərin bağladıqları arbitraj müqaviləsində **nəzərdə tutulmalı**, habelə apelyasiyadan əvvəl idman qaydalarına uyğun olaraq, şikayətçinin sərəncamında olan bütün **qanuni hüquqi vasitələrin** tükəndyi müəyyən edilməlidir.

Şikayətçi BİAM-ə **apelyasiya ərizəsi** verir və həmin ərizədə aşağıdakı **məlumatlar** göstərilir:

- cavabdehin adı və ünvanı;
- mübahisə edilən qərarın surəti;
- şikayətçinin pretenziyaları (iddiaları);
- ilkin və (və ya) mühafizə tədbirlərinin təyin edilməsi haqqında əsaslandırılmış və bu barədə müvafiq motivləri ehtiva edən xahişnamə (zərurət olduqda);
- şikayətçi tərəfindən BİAM siyahısından konkret seçilmiş arbitrin namizədliyinin təklif edilməsi (tərəflərin razılığı ilə tək fərdi arbitrin təyin edilməsi halı istisna olmaqla);
- BİAM-ə müraciət edilməsini nəzərdə tutan nizamnamənin, reqlamentin müddəalarına dair sənədin və ya arbitraj müqaviləsinin surəti.

Ərizə verildiyi zaman **şikayətçi** ofisə (dəftərxanaya) müəyyən edilmiş məbləğdə **haqq ödəməlidir**; belə ödəniş olmadıqda BİAM hüquqi prosedurlara başlamır. Ödənilmiş məbləğ məhkəmə xərclərinin **yekun hesablanması** zamanı ofis (dəftərxana) və arbitraj qrupu tərəfindən nəzərə alınır.

Arbitrlərin işinin təmin ediməsinə və onlara qonorar verilməsinə, həmçinin digər məsrəflərə görə Apelyasiya Arbitraj Palatasının çəkdiyi **xərclər**, ümumi qaydalara əsasən, **BİAM tərəfindən** ödənilir. Vəkillərin, ekspertlərin, şahidlərin, tərcüməçilərin və işə cəlb edilən digər şəxslərin ödəniş xərclərini isə **mübahisə tərəfləri** ödəyirlər. Eyni zamanda, əgər **zəruri hallarla** əsaslandırılarsa, Apelyasiya Arbitraj Palatasının prezidenti xərclərin müəyyən hissəsini mübahisədə iştirak edən bir tərəfin və ya hər iki tərəfin ödəməsi barədə müvafiq **qərar qəbul** edə bilər. **Məhkəmə xərclərinin ödənilməsi** barədə müvafiq

qərar qəbul edilərkən və mübahisə tərəflərinin payları müəyyən edilərkən mübahisə üzrə **araşdırmanın nəticəsi**, tərəflərin **maddi imkanları** və məhkəmə iclaslarında onların **davranışları** nəzərə alınır.[1]

Apelyasiya şikayəti üçün **müvafiq idman** federasiyasının, assosiasiyasının və digər idman təşkilatının nizamnaməsi və ya reqlamenti, yaxud əvvəlcədən bağlanmış arbitraj müqaviləsi ilə müəyyən edilmiş müddət yoxdursa, **apelyasiya şikayətinin verilməsi müddəti** 21 gündür. Apelyasiya şikayətinə **üç arbitrdən ibarət arbitraj qrupu** tərəfindən baxılır; apelyasiya şikayəti verən şəxs öz ərizəsində tərəflərin tək arbitrin xidmətlərindən istifadə etməyə razılaşdıqlarını bildirməsi halları istisna təşkil edir, həmçinin Palatanın prezidenti işə təcili baxılmalı olduğunu müəyyən etdikdə, apelyasiya şikayətinə **tək arbitr** baxır. Apelyasiya ərizəsinin verilməsi üçün müddət bitdikdən sonra **10 gün ərzində** şikayətçi bütün sənədləri və maddi sübutları əlavə etməklə, faktların təsvirini və şikayətin verildiyi hüquq normalarının siyahısını özündə əks etdirən **yaddaş qeydlərini** BİAM-a təqdim edir. Belə yaddaş qeydləri olmadıqda apelyasiya şikayəti **geri götürülmüş** hesab edilir.

Arbitraj razılaşmasının və ya arbitraj instansiyasına müraciət üçün digər əsasların açıq-aydın olmadığı hallar istisna olmaqla, BİAM arbitraj prosedurunun aparılmasına görə bütün **zəruri tədbirləri** həyata keçirir. Bu məqsədlə dəftərxana aplyasiya ərizəsini **cavabdehə** göndərir və Palatanın prezidenti müvafiq qaydalara uyğun olaraq, **arbitraj qrupunu** təyin edir.[2] Arbitraj qrupu təyin edildikdən sonra dəftərxana bunu rəsmi şəkildə **təsdiqləyir** və işi arbitrlərə **göndərir**.

---

[1] BİAM çərçivəsində apelyasiya icraatının ümumi xarakteristikası barədə ətraflı bax: məsələn, Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М.,: Проспект, 2021, с.134-136.

[2] Bax: Международный спортивный арбитражный суд (КАС). URL:http://www.tas-cas.org/en/ mediation/ rules.html (03.05.2022-ci il).

Cavabdeh əsaslandırılmış aplyasiya ərizəsinin surətini aldıqdan sonra **20 gün** ərzində BİAM-a **aşağıdakı məlumatları** əks etdirən cavab verməlidir:

- müdafiə vasitələrinin təsviri;
- iistənilən qeyri-kompetentliyin istisna edilməsi;
- cavabdehin təqdim etmək niyyətində olduğu sənədlər və maddi sübutlar.

Lakin, cavabdeh göstərilən müddətdə müvafiq **cavab verməsə** belə, arbitraj qrupu **məhkəmə icraatı** prosesini davam etdirərək öz **qərarın**ı verə bilər.

Arbitraj qrupu (söhbət tək arbitrdən gedir) apelyasiya üzrə işin faktları və hüquqi aspektləri **aşağıdakı ardıcıllıqla** nəzərdən keçirir.

Arbitraj qrupunun sədri işi qəbul etdikdən sonra tərəfləri, şahidləri və ekspertləri dinləmək üçün **məhkəmə iclasının formasını** müəyyən edir. O, apelyasiya şikayətinə əsas verən müvafiq qərarı çıxarmış intizam məhkəməsindən və ya analoji instansiyadan (orqandan) **işin təqdim edilməsini** tələb edə bilər. Tərəflərlə **məsləhətləşmə** apardıqdan sonra arbitraj qrupuı (tək arbitr) kifayət qədər **informasiyaya malik olduğu** qənaətinə gəldiyi təqdirdə məhkəmə iclasının keçirilməsindən **imtina** edə bilər.

Qeyd etməliyik ki, məhkəmə iclası, tərəflərin digər fərqli rəyi olmadığı halda, **qapalı şəkildə** (bağlı qapılar arxasında) keçirilir. Dəfələrlə edilən çağırışlara baxmayaraq, tərəflərdən hər hansı biri məhkəmə iclasında **iştirak etmədikdə**, arbitraj qrupu (tək arbitr) həmin tərəfin iştirakı olmadığı halda da **iclası keçirə bilər**. Arbitraj qrupu (tək arbitr) öz fəaliyyətində tərəflərin seçdiyi tətbiq olunan **qaydaları**, seçim olmadıqda isə qərarı mübahisə edilən idman assosiasiyasının, federasiyanın və ya digər təşkilatın yerləşdiyi **ölkənin hüququ** rəhbər tutulur.[1]

[1] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.796-799.

Araşdırılan apelyasiya işi üzrə müvafiq **qərar** mövcud qaydalara görə **səs çoxluğu** ilə, səs çoxluğu olmadıqda isə **təkbaşına** sədr tərəfindən qəbul edilir. Qərar **yazılı şəkildə** tərtib edilir, **qısa motivlərlə** əsaslandırılır, **tarix** qoyulur və **imzalanır**. Arbitraj qrupu sədrinin imzası **kifayətdir**.

Arbitraj qrupu (tək arbitr) qərarın motivasiyasından əvvəl tərəflərə onun **məzmunu** barədə məlumat verə bilər. Qərar onun məzmununun tərəflərə çatdırıldığı andan icra edilməsi üçün məcburi **hüquqi qüvvəyə** malik olur. Tərəflərin İsveçrədə daimi yaşayış yeri, müvəqqəti yaşayış ünvanı və ya müəssisəsi olmadıqda və arbitraj müqaviləsində, yaxud sonradan, daha doğrusu, apelyasiya prosedurunun əvvəlində bağlanmış müqavilədə şikayət olunmasından açıq-aydın şəkildə **imtina edildiyi** təqdirdə **qərardan şikayət verilə bilməz**.

Qərar apelyasiya ərizəsi verildikdən sonra **dörd aydan gec olmayaraq** tərəflərə **elan** edilməlidir. Ancaq bu müddət arbitraj qrupu sədrinin müvafiq motivlərlə əsaslandırılmış **vəsatəti əsasında** Apelyasiya Arbitraj Palatasının prezidenti tərəfindən **uzadıla bilər**. Tərəflər məlumatların konfidensiallığını tələb etmədiyi hallarda, **qərar** və ya **onun xülasəsi** BİAM tərəfindən **dərc edilir**.

11.4. Beynəlxalq İdman Arbitraj Məhkəməsinin Ad hoc Palatasında arbitraj proseduru

Əvvəllərdə qeyd etdiyimiz kimi, BİAM formatında həyata keçirilən arbitraj icraatının növlərindən biri də **Ad hoc Palatasında arbitraj proseduru** adlanır. Terminoloji lüğətlərə görə, "ad hoc" (latınca – at hok) termini "spesifik məqsəd üçün, yalnız bu hal üçün" mənasını ifadə edir.[1] Bu anlayışdan, əsasən, konkret problemlə bağlı müvəqqəti həll üsulunu təsvir etmək

[1] Bax: məsələn, Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, с.423.

üçün istifadə olunur. Məsələn, **müəyyən bir vəzifə üçün** müvəqqəti olaraq yaradılan məhkəmələr və ya istintaq-tədqiqat komissiyaları "Ad hoc" təşkilatlardır və onların fəaliyyət müddəti qarşıya qoyulan vəzifənin icrası ilə məhdudlaşır.

Ad hoc, bəzən, **"müvəqqəti arbitraj prosesi"** və ya **"Ad hoc arbitrajı"** kimi də adlanır. Hüquq ədəbiyyatı səhifələrində, haqlı olaraq, göstərilir ki, mübahisələrin **dinc yolla həllinin hüquqi vasitəsi** kimi "Ad hoc" arbitrajı dedikdə konkret mübahisəyə baxmaq məqsədilə yaradılan arbitraj başa düşülür. Başqa sözlə, bu növ arbitraj konkret olaraq, bir dəfə üçün işə baxmaq məqsədilə müvəqqəti yaradılan orqandır. "Ad hoc" arbitrajı **daimi fəaliyyətdə olmur**; buna görə də, onu, adətən, **"birdəfəlik arbitraj"** da adlındırırlar.[1]

Sözügedən hüquqi vasitə tərəflərin mübahisənin həllinin öz nəzarətləri altında həyata keçirilməsini arzuladığı və bu məqsədlə arbitrajın bütün şərtləri onların özləri tərəfindən təyin edildiyi bir **arbitraj növüdür**. Bu o deməkdir ki, müvəqqəti arbitrajda tərəflər arbitrləri, arbitrajın keçiriləcəyi yeri, arbitraj prosedurunu, eləcə də arbitrajda tətbiq ediləcək **maddi hüququ** özləri müəyyən edirlər. Arbitraj prosesinin zaman baxımından, intensivlik və effektivlik aspektləri, bir qayda olaraq, çəkişmələrin, o cümlədən idman mübahisələrinin məhkəmə prosesində arbitraj yolunun seçməsini şərtləndirən **başlıca arqument** sayıla bilər. Bu praktika müasir dövrdə **İdman Arbitraj Məhkəməsi** araşdırmalarında da geniş yer almaqdadır.

Belə ki, bununla əlaqədar olaraq, Olimpiya oyunları və digər böyük beynəlxalq idman yarışları zamanı yaranan mübahisələr üçün BİAM xüsusi **Ad hoc Palatası** təsis edir (hər bir konkret hal üçün) və bu qurum yekun qərar qəbul etməklə mübahisəni həll edir.

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, s.733-734.

Olimpiya hərəkatı tarixində, ilk dəfə olaraq, BİAM-in tərkibində Ad hoc Palatasının fəaliyyəti 1996-cı ildə Atlantada XXVI Olimpiya Oyunları zamanı sınaqdan keçirilmişdir. **A**d hoc Palatasının fəaliyyətinin **hüquqi əsası** müvafiq idman yarışları üçün Palatanın yaradılması zamanı **İdman Sferasında Beynəlxalq Arbitraj Şurası** (İSBAŞ – CIAS) tərəfindən təsdiq edilmiş **arbitraj reqlamentləridir**. Bundan əlavə, Ad hoc Palatalarının funksiyalarının lazımi qaydada həyata keçirilməsini təmin etmək üçün onların təşkili və fəaliyyəti haqqında müfəssəl informasiyaları özündə əks etdirən **xüsusi memorandumlar** tərtib edilir.

Eyni zamanda, qeyd etməliyik ki, Ad hoc Palatası müəyyən müddətə, idman yarışlarının keçirildiyi dövrlərə uyğun və ya onlardan bir qədər uzun müddətə yaradılmasına baxmayaraq, **BİAM-in müvəqqəti struktur hissəsidir**. Üstəlik, BİAM-in daimi strukturlarından - Adi Arbitraj Palatasından və Apelyasiya Arbitraj Palatasından fərqli olaraq, Ad hoc Palatası mübahisə işlərinə həm **birinci instansiya** kimi, həm də **apelyasiya mərhələsində** baxır.[1]

Ad hoc Palatası Olimpiya oyunlarının açılışından əvvəl rəsmi olaraq dərc edilmiş xüsusi siyahıda öz əksini tapmış **müəyyən sayda arbitrlərdən** ibarətdir. Siyahıya yalnız BİAM arbitrlərinin ümumi siyahısına daxil edilmiş arbitrlər daxildir. Xüsusi siyahıda adı çəkilən **bütün arbitrlər** müvafiq Olimpiya oyunlarında **daim** iştirak etməlidirlər. Bu arbitrlər üçün kifayət qədər **ciddi tələblər** mövcuddur. Onların hər biri, hətta Olimpiya oyunları başlamazdan əvvəl müstəqillik barədə müvafiq bəyannaməyə imza atmalı və ictimaiyyət qarşısında belə müstəqilliyə şübhə yarada biləcək bütün **obyektiv halları** göstərmə-

[1] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.609-615.

lidir. Hər bir arbitrin namizədliyi, əgər onun müstəqilliyinə şübhə etməyə imkan verən hallar olarsa, mübahisədə iştirak edən tərəflərdən hər hansı biri tərəfindən **rədd edilə** bilər. Heç bir arbitr mübahisənin tərəflərindən hər hansı birinə və ya Ad hoc Palatasının qərarlarında maraqlı olan üçüncü tərəfə **məsləhətçi** qismində çıxış edə bilməz.[1]

Ad hoc Palatasının fəaliyyətinə **rəhbərlik** onun **prezidenti** (İdman Sferasında Beynəlxalq Arbitraj Şurası - İSBAŞ-CIAS-ın bürosu tərəfindən CIAS üzvləri arasından təyin edilir) və **katib** (BİAM tərəfindən təyin edilən və bilavasitə onun baş katibinin tabeçiliyində olan şəxs) tərəfindən həyata keçirilir. Sözügedən Palatanın **dili** Palata prezidentinin qərarı əsasında **ingilis** və ya **fransız** dillərində olur.

Ad hoc Palatasına müraciət etmək üçün hər hansı fiziki və ya hüquqi şəxs aşağıdakı məzmunda **iddia ərizəsi** tərtib etməlidir:

- Olimpiya oyunlarının keçirildiyi yerdə iddiaçı və cavabdehin adları və ünvanları, habelə (zəruri hallarda) iddiaçı və cavabdehin məhkəmədə işin baxılması prosesində əlaqə saxlanıla biləcəyi telefon və faks nömrələri, e-poçt ünvanları;
- Olimpiya oyunlarının keçirildiyi yerdə iddiaçını (işdə iştirak edirsə) təmsil edən şəxsin adı və ünvanı, habelə (zəruri hallarda) işin gedişi zamanı nümayəndə ilə əlaqə vasitəsi kimi müvafiq telefon və faks nömrələri, e-poçt ünvanı;
- işdə iştirak edən digər tərəflərin təfərrüatları (əgər varsa), o cümlədən Olimpiya oyunlarının keçirildiyi yerdəki faks nömrəsi, mobil telefon nömrəsi və ünvanı;
- bu iş üzrə Ad hoc Palatasının səlahiyyətlərinin əsaslandırılması və müəyyənləşdirilməsi üçün izahatlar;

[1] Ətraflı bax: Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. М.,: Проспект, 2021, с.132-133.

– iddianı və iddiaçının tələblərini əsaslandıran faktların və hüquqi əsasların qısa təsviri;
– mübahisəli qərarın icrasının təxirə salınması və ya onun icrasının təcili təyin edilməsini tələb edən hər hansı digər ilkin tədbirin (zəruri hallarda) görülməsi haqqında vəsatət;
– əlavələr, o cümlədən mübahisəli qərarın surəti (zəruri olduqda), arbitraj haqqında müvafiq maddəni ehtiva edən sənəd və s.

İddia ərizəsi Ad hoc Palatasının katibi tərəfindən verilmiş, xüsusi hazırlanmış **standart formalı blankda** fransız və ya ingilis dillərində **yazılı şəkildə** tərtib edilir.[1]

Hazırlanmış iddia ərizəsi **tərəflərin**, **vəkillərin** və **hakimlərin** sayına uyğun gələn bir neçə nüsxədə, əlavə olaraq Ad hoc Palatası üçün **bir nüsxədə** Palatanın katibinə verilir (göndərilir). İddia ərizəsinin **verilməsi** Ad hoc Palatasının prezidenti tərəfindən idman mübahisəni həll etmək üçün nəzərdə tutulmuş və biri sədr kimi çıxış edən üç arbitrdən ibarət arbitraj qrupunun **təyin edilməsi** üçün başlanğıc **start anı** sayılır. Bəzi hallarda Ad hoc Palatasının prezidenti iddiaya baxmaq üçün yeganə – **tək arbitr** təyin edə bilər.

İş üzrə iclasın keçiriləcəyi **vaxt** və **yer** barədə **tərəflərə,** eləcə də **prosesin digər iştirakçılarına** xüsusi hazırlanmış formada **çağırış vərəqələri** ilə məlumat verilir. **Arbitraj qrupu** işə baxarkən iddia ərizəsinin materiallarını öyrənir, tərəfləri və şahidləri dinləyir, zərurət olduqda ekspertləri cəlb etməklə, habelə maddi və digər sübutları tələb etməklə müvafiq **istintaq hərəkətlərini** həyata keçirir, Zəruri və kifayətedici **informasiyaları aldıqdan sonra** arbitraj qrupu, hətta mübahisə tərəflərinin iştirakı olmadan belə qərar qəbul etmək üçün öz **iclasını** keçirir.

[1] Bu barədə ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.800-807.

Ad hoc Palatasının arbitraj qrupu **konkret halların** məcmusu nəzərə alınmaqla, aşağıda göstərilən aspektdə **aidiyyəti üzrə qərar** qəbul edir:

- ya iş üzrə yekun qərar çıxarır;
- ya İdman Arbitraj Məcəlləsinə müvafiq olaraq, işi BİAM-in daimi palatalarından birinə verir;
- mübahisə predmetinin müəyyən hissəsinə dair aidiyyəti qərar çıxarır, mübahisənin həll olunmayan hissəsi üzrə isə mübahisə işini baxılması üçün BİAM-in daimi palatalarından birinə göndərir.

Arbitraj qrupu öz qərarını iddia ərizəsi verildiyi andan **24 saat ərzində** çıxarır. Bu müddət **müstəsna hal kimi** Ad hoc Palatasının prezidenti tərəfindən **uzadıla** bilər. Arbitraj qərarı arbitrlərin **səs çoxluğu** və ya bu olmadıqda – **arbitraj qrupunun sədri** tərəfindən qəbul edilir. Qərar ümumi **motivlərlə** əsaslandırılır, **yazılı şəkildə** sənədləşdirilir, **tarix** qoyulur və arbitraj qrupunun sədri tərəfindən **imzalanır**. Lakin, arbitraj qərarı imzalanmamışdan əvvəl Ad hoc Palatasının prezidenti həmin qərarla **tanış olur**; o, qərar formasına dair müvafiq **dəyişiklik** də verə bilər.[1]

Arbitraj qərarı barədə tərəflər **dərhal məlumatlandırılır** və müvafiq qərar elan edildiyi andan **hüquqi qüvvəyə** malik olur. O, **təxirəsalınmadan** icraya yönəldilir və ondan hər hansı **şikayət** verilə bilməz.

İdman Arbitraj Məhkəməsinin Ad hoc Palatasının **xidmətləri**, o cümlədən avadanlıqlardan istifadə və mübahisə tərəfləri ilə bağlı arbitrlərin hərəkətləri **əvəzi ödənilmədən** həyata keçirilir. Tərəflər isə **şəxsi xərclərini**, o cümlədən vəkillərin, ekspertlərin, şahidlərin və tərcüməçilərin müvafiq xərclərini **öz üzərinə** götürməlidirlər.

[1] Bax: https://studref.com/524952/pravo/sportivnyy_arbitrazhnyy_ palata_ olimpiyskie_igry (06.05.2022-ci il).

11.5. Beynəlxalq İdman Arbitraj Məhkəməsində vasitəçilik arbitraj proseduru

Qeyd etməliyik ki, Beynəlxalq İdman Arbitraj Məhkəməsində **vasitəçilik arbitraj proseduru** 1999-cu ildə İdman Arbitraj Məcəlləsinin tərkib hissəsinə daxil edilmişdir; o, **vasitəçilik reqlamenti** də adlanır. **BİAM vasitəçiliyi** hər bir tərəfin digər tərəflə yaranmış idman mübahisəsini həll etmək üçün danışıqlar yolu və bu qurumun vasitəçiliyi ilə xoş niyyət nümayiş etdirməyə razılaşdığı vasitəçilik sazişinə əsaslanan **məcburi olmayan** və **qeyri-formal** prosedurdur.

Vasitəçilik reqlamenti yalnız BİAM-in **adi məhkəmə icraatına** aid olan idman mübahisələrinin həlli üçün nəzərdə tutulmuşdur. Hər hansı bir idman təşkilatı orqanının qəbul etdiyi qərar BİAM-in vasitəçilik arbitraj prosedurunun **predmeti** ola bilməz. **İdman-intizam işləri** üzrə bütün mübahisələr, o cümlədən **dopinq qəbul edilməsilə** bağlı mübahisələr, təbii ki, BİAM **vasitəçilik institutu** ilə həll oluna bilməz.

Vasitəçilik haqqında saziş dedikdə tərəflərin aralarında artıq yaranmış və ya gələcəkdə yarana biləcək idmanla bağlı mübahisələri vasitəçilərin iştirakı ilə həll etməyə razılaşdıqlarını **ehtiva edən müqavilə** başa düşülür. Vasitəçilik haqqında saziş hər hansı bir müqaviləyə vasitəçiliklə bağlı **müvafiq bənd** daxil edilməklə rəsmiləşdirilə və ya **ayrıca razılaşma formasında** tərtib edilə bilər.

Mövcud qaydalara görə BİAM siyahısına daxil edilmiş və ya həmin siyahıya daxil olmayan arbitrlər arasından seçilmiş **vasitəçilərin siyahısı** İdman Sferasında Beynəlxalq Arbitraj Şurası (CIAS) tərəfindən tərtib edilir. CIAS tərəfindən təyin edilən şəxslər **dörd il müddətinə** vasitəçilər siyahısında qalırlar, bundan sonra onların siyahısı **yenidən** nəzərdən keçirilir.

Vasitəçilik proseduruna müraciət etmək niyyətində olan tərəf BİAM ofisinə (dəftərxanaya) **yazılı ərizə** təqdim edir. Eyni zamanda, ərizənin surəti **qarşı tərəfə** də göndərilir. Ərizədə

tərəfləri və onların nümayəndələrini identifikasiya etmək üçün zəruri olan **məlumatlar** (ad, ünvan, telefon və faks nömrələri) göstərilir və həmin ərizəyə vasitəçilik haqqında **sazişin surəti** və mübahisənin mahiyyətinin **qısa təsviri** barədə arayış əlavə edilir. Ərizə təqdim edilərkən, **müraciət edən tərəf** dəftərxana tərəfindən müəyyən edilmiş **inzibati xərcləri** hesablamaqla nəzərə almalıdır. Belə ki, müvafiq **ödəniş həyata keçirilməyənə** qədər vasitəçilik proseduru **başlamır**. Tərəflər vasitəçilik xidməti ilə bağlı xərcləri **öz üzərinə** götürürlər. Tərəflər başqa cür qərar vermədikdə, BİAM-in **ştat cədvəlinə** əsasən hesablanmış **vasitəçilik xərclərini**, qonorar və digər haqları, o cümlədən şahidlərin, ekspertlərin və tərcüməçilərin dəvət edilməsi ilə bağlı xərclər də daxil olmaqla tam məbləğdə **bərabər paylarla** ödəyirlər. BİAM ofisi tərəflərdən vasitəçilik xidməti üçün **avans** kimi müəyyən məbləğin **ödənilməsini** tələb edə bilər.[1]

Arbitraj vasitəçilik prosedurunun **başlanma tarixi** vasitəçilik haqqında müvafiq ərizənin BİAM ofisinə **daxil olduğu gündən** hesablanır. Dəftərxana (ofis) arbitraj vasitəçilik prosedurunun başlanma tarixi barədə dərhal tərəfləri **məlumatlandırır**, eləcə də qarşı tərəfə ona dair olan **inzibati xərclərin ödənilməsi** üçün **son tarixi** təyin edir.

Qeyd etməliyik ki, mübahisə tərəfləri **konkret şəxsin vasitəçi kimi** təyin edilməsi barədə **razılığa gəlmədikdə**, vasitəçi olacaq şəxs BİAM-in prezidenti tərəfindən mübahisə tərəfləri ilə məsləhətləşdikdən sonra vasitəçilər siyahısından seçilərək **təyin edilir**. Belə halda vasitəçi olacaq şəxs özünün təyin edilməsinə **razılıq verərək**, əsassız gecikmə olmadan arbitraj vasitəçilik prosedurunun həyata keçirilməsi üçün **lazımi vaxt ayırmağı** öhdəsinə götürür. Vasitəçi mübahisə tərəflərinə münasi-

[1] Bu barədə ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.615-617.

bətdə **müstəqil olmalı** və bu barədə **öz mövqeyini** bəyan etməlidir. O, tərəflərdən və ya onların birindən **öz müstəqilliyinə qarşı** hər hansı şübhə yarada biləcək bütün halları **açıqlamağa**, **elan etməyə** borcludur. Eyni zamanda, buna baxmayaraq, bu barədə məcburi qaydada məlumatlandırılmış tərəflər **ayrı-ayrılıqda** və ya **birgə formada** müvafiq **bəyanat** imzalamaqla vasitəçiyə öz missiyasını davam etdirmək **səlahiyyəti** verə bilərlər. Əgər tərəflərdən hər hansı biri təyin edilmiş vasitəçiyə **etiraz edərsə** və ya vasitəçi işi uğurlu nəticəyə çatdıra bilməyəcəyinə inanaraq, arbitraj vasitəçilik prosedurunun həyata keçirilməsindən **könüllü şəkildə imtina edərsə**, o, bu barədə BİAM prezidentinə müvafiq məlumat **verir**; BİAM prezidenti isə tərəflərlə məsləhətləşmə apardıqdan sonra həmin vasitəçinin **əvəz olunması** barədə zəruri tədbirlər görür.

Tərəflər vasitəçi ilə keçirilən görüşlərdə **nümayəndənin** və ya **köməkçinin** xidmətlərindən istifadə edə bilərlər. Nümayəndə təyin edildiyi təqdirdə müvafiq tərəf həmin nümayəndənin şəxsiyyətini **identifikasiya etmək üçün** digər tərəfə və BİAM-ə məlumat verməlidir. Nümayəndə idman mübahisəsini təmsil olunan **şəxsə müraciət** etmədən **müstəqil surətdə** həll etmək **səlahiyyətinə** malik olmalıdır.

Arbitraj vasitəçilik proseduru tərəflər arasında **razılaşdırılmış qaydalar** əsasında həyata keçirilir. Belə bir razılaşma olmadıqda isə vasitəçi özü **müvafiq qərar** qəbul edir. **Vasitəçi** imkan daxilində hər bir tərəfin ona və digər tərəfə **idman mübahisəsinin qısa təsvirini** aşağıdakı məzmunda təqdim etməli olduğu **vasitə** və **müddətləri** müəyyən etməlidir:

- faktların və öz mövqelərinin hüquqi əsaslarının, o cümlədən mübahisənin həlli üçün vasitəçinin qarşısında qoyulan məsələlərin mahiyyətinin qısa təsviri;
- vasitəçilik haqqında sazişin surəti.

Eyni zamanda, hər bir tərəf mübahisənin tez həll edilməsi məqsədilə vasitəçi ilə vicdanla **əməkdaşlıq etməli** və onun öz **vəzifələrini sərbəst şəkildə** yerinə yetirməsini təmin etməlidir.

Vasitəçi bunun üçün **hər hansı təklif** verə, lazım gələrsə, istənilən tərəflə **ayrıca görüşə** bilər.[1]

Vasitəçinin **əsas rolu** mübahisələrin ədalətli şəkildə həllinə töhfə verməkdən ibarətdir. Bunun üçün o, aşağıdakı **tədbirləri** görür:

- mübahisə predmeti olan məsələləri qeyd edir;
- müzakirə üzrə diskussiya aparılmasında tərəflərə kömək edir;
- mübahisənin müvafiq həll variantlarını təklif edir.

Lakin idman vasitəçilik arbitraj prosedurunu həyata keçirən vasitəçi şəxs tövsiyə etdiyi **öz qərarını** mübahisə tərəflərinin üzərinə **vəzifə kimi** qoya bilməz.

Belə bir **məqamı** da qeyd etməliyik ki, vasitəçi, tərəflər, onların nümayəndələri və köməkçiləri, ekspertlər və tərəflərin görüşlərində iştirak edən hər hansı digər şəxslər qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, arbitraj proseduru zamanı **əldə etdikləri** heç bir **informasiyanı açıqlamaq hüququna** malik deyillər. Eyni zamanda, **mübahisə tərəfləri** öz məsuliyyətləri çərçivəsində **vasitəçiliyi həyata keçirən şəxsin** iş üzrə müvafiq sənədləri, hesabatları və ya digər məlumatları açıqlamağa və ya hər hansı arbitraj və ya məhkəmə prosedurlarında bu vasitəçilik prosesi ilə bağlı məsələlərdə **şahid qismində** çıxış etməyə məcbur edilməyəcəyi barədə lazımi **öhdəlik** götürürlər. Hər hansı bir tərəfdən alınan **istənilən məlumat** onun razılığı olmadan digər tərəfə **ötürülə** bilməz. İdman arbitraj proseduru iştirakçılarının **görüşləri** heç bir qeydiyyat hərəkətləri **predmetinə** çevrilə bilməz. Vasitəçilik proseduru başa çatdıqdan sonra iş üzrə **bütün sənədlər** heç bir surəti saxlanılmadan onları təqdim edən **tərəfə qaytarılır**.

Həmçinin hər hansı arbitraj və ya məhkəmə proseduru həyata keçirilərkən **tərəflər** aşağıda göstərilənlərə **istinad olunmasından** imtina edirlər:

---

[1] Ətraflı bax: Международное спортивное право.Учебник / С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.806-810.

– mübahisənin mümkün tənzimlənmə həlli ilə bağlı tərəflərdən birinin ifadə etdiyi hər hansı rəy və ya təklif;
– vasitəçilik proseduru zamanı tərəflərdən hər hansı birinin verdiyi bütün etiraflar;
– vasitəçilik proseduru zamanı alınan bütün sənədlər, qeydlər və ya digər informasiyalar;
– vasitəçi tərəfindən verilən bütün təkliflər və ya onun ifadə etdiyi hər hansı fikirlər;
– mübahisə tərəflərindən birinin tövsiyə olunan təklifi qəbul etməyə hazır olduğunu bildirməsi faktı.
– Həm də qeyd etməliyik ki, mübahisə üzrə hər bir tərəf və ya vasitəçi istənilən vaxt arbitraj vasitəçilik **prosedurunu** aşağıdakı hallarda **tamamlaya** bilər:
– tərəflər arasında müvafiq sazişin imzalanması;
– vasitəçi arbitraj vasitəçilik prosedurunun davam etdirilməsini məqsədəuyğun hesab etmədikdə, onun yazılı bəyanatı;
– arbitraj vasitəçilik prosedurunun başa çatdığını bildirən bir və ya bütün tərəflərin yazılı bəyanatı.

İdman arbitraj proseduru nəticəsində əldə edilmiş razılaşma barədə müvafiq **saziş** vasitəçi tərəfindən **yazılı şəkildə** rəsmiləşdirilir; sazişi **vasitəçi şəxs** və **mübahisə tərəfləri** imzalayırlar. Hər bir tərəf sazişin **bir nüsxəsini** alır, sonra saziş **BİAM ofisinə** (dəftərxanaya) təqdim edilir və **orada saxlanılır**.

Lakin, hətta vasitəçilik proseduru çərçivəsində **razılaşma** əldə olunsa belə, müəyyən hallarda hər hansı bir tərəf bu halda da iş üzrə müvafiq **arbitraj** və ya **məhkəmə** orqanına əlavə müraciət edə bilər. Həmçinin mübahisəni vasitəçilik proseduru yolu ilə həll etmək **mümkün olmadığı təqdirdə**, tərəflər arasında arbitraj sazişi və ya başqa aidiyyəti sənəddə bu halı şərtləndirən müvafiq bənd olduqda, onlar **arbitraja** müraciət edə bilərlər. Vasitəçilik haqqında müqaviləyə **arbitraja** dair müvafiq **bənd** (paraqraf) daxil edilə bilər; bu halda sürətləndirilmiş **məhkəmə icraatı** tətbiq olunur.

Eyni zamanda, qeyd etməliyik ki, vasitəçilik proseduru **baş tutmadığı halda**, vasitəçi olan şəxs eyni idman mübahisəsində iştirak edən tərəflərə münasibətdə arbitraj məhkəmə icraatı prosesində onun **arbitr qismində** təyin edilməsinə **razılıq** verə bilməz.

11.6. Beynəlxalq İdman Arbitraj Məhkəməsinin konsultasiya fəaliyyəti

Ümumiyyətlə, qeyd etməliyik ki, müxtəlif sferalarda, o cümlədən idman sahəsində beynəlxalq mübahisələrin həll edilməsinin dinc vasitələrindən biri də **konsultasiya fəaliyyəti**, yəni danışıqlar yolunun xüsusi növü olan **məsləhətləşmə proseduru** sayılır.

Beynəlxalq praktikada mübahisələrin həll olunmasında tənzimetmə vasitəsi kimi **konsultasiya proseduru** institutu geniş şəkildə tətbiq edilir; həm də deməliyik ki, məsləhətləşmə danışıqlar prosesinin **ilkin mərhələsidir**. Belə ki, danışıqlar prosesinin ilkin mərhələsində tərəflər qeyri-rəsmi surətdə **danışıqlar** aparırlar. Diplomatik praktikada belə danışıqlara məhz dövlətlərarası məsləhətləşmə deyilir. Bu səbəbdən məsləhətləşmə, mahiyyətcə, ilkin danışıqlar deməkdir. Belə ki, adətən, əvvəlcə məsləhətləşmə həyata keçirilir, bundan sonra danışıqlar aparılır. Buna görə də, dövlətlərarası məsləhətləşməni danışıqların növü hesab edə bilərik.[1]

Dövlətlərarası məsləhətləşmə dedikdə tərəflərin öz aralarında elə danışıqlar aparmaları başa düşülür ki, həmin danışıqlar beynəlxalq mübahisələri həll etmək, mümkün beynəlxalq mübahisələrin qarşısını almaq və digər tənzimetmə vasitələri tətbiq etmək üçün razılıq əldə olunması məqsədini güdür.[2]

---

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.734.

[2] Bu barədə bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, s.722-724.

Dövlətlərarası məsləhətləşmə **yeni tənzimetmə vasitəsi** kimi XX əsrdə yaranmışdır. Mübahisələri tənzimetmə vasitəsi qismində o, II Dünya Müharibəsindən sonra tətbiq olunmağa başlamışdır. Dövlətlərarası məsləhətləşmə həmçinin bir sıra **beynəlxalq sazişlərdə** öz beynəlxalq-hüquqi ifadəsini tapmışdır.

Məsləhətləşmə prosedurunun hüquq ədəbiyyatında iki növü fərqləndirilir:[1]

- fakultativ məsləhətləşmə;
- məcburi məsləhətləşmə.

Fakultativ məsləhətləşmə dedikdə mübahisə edən tərəflərin öz istək və mülahizəsi ilə həyata keçirilən məsləhətləşmə başa düşülür. Bu növ məsləhətləşmənin aparılması tərəflər üçün məcburi deyildir; tərəflərin öz aralarında məsləhətləşmə aparması məsələsi onların qarşılıqlı razılığı ilə həll olunur.

Məcburi məsləhətləşmə dedikdə beynəlxalq müqavilədə birbaşa nəzərdə tutulan məsləhətləşmə başa düşülür. Bu növ məsləhətləşmə beynəlxalq müqavilədə nəzərdə tutulduğuna görə ona həm də **müqavilə məsləhətləşməsi** deyilir.[2] Məhz beynəlxalq müqavilə tərəflərin üzərinə məsləhətləşmə aparılmasını **məcburi vəzifə** kimi qoyur. Buna görə də, onlar həmin vəzifəni məcburi surətdə yerinə yetirməyə borcludurlar.

Məsləhətləşmə proseduru həm **yazılı**, həm də **şifahi** formada aparıla bilər. Lazım gəldikdə mübahisə edən tərəflərin rəhbərləri birbaşa **telefon əlaqəsi** vasitəsilə məsləhətləşirlər; bu zaman qlobal peyk rabitə sistemindən istifadə olunur. Məsləhətləşmə həmçinin, bir qayda olaraq, **diplomatik kanallarla** aparılır. Belə ki, məsləhətləşmə diplomatik nümayəndəliyin (səfirliyin) başçıları səviyyəsində də həyata keçirilə bilər.

Şərh etdiyimiz məqamlar bütövlükdə **idman sferasında** baş verən mübahisələrin həll olunması ilə bağlı **münasibətlərə** də

---

[1] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с.229.

[2] Международное право. Учебник / Отв. ред. Г.М.Мелков. М., 2011, с. 156.

şamil edilir. Məlum olduğu kimi, **Beynəlxalq İdman Arbitraj Məhkəməsi** 1983-cü ildə yaradılmışdır. Sonradan qəbul olunmuş **İdman Arbitraj Məcəlləsi** (1994-cü il) BİAM-in arbitraj prosedurlarının təşkilati əsaslarını müəyyənləşdirdi. Məcəllənin son versiyası 2010-cu il 1 yanvar tarixində olan redaksiyada qüvvəyə minmişdir. Adıçəkilən məcəllədə idman arbitraj **konsultasiya proseduru** ilə bağlı müvafiq qaydalar təsbit edilmişdir. Bu arbitraj proseduru **idman təşkilatlarına** BİAM-dən konsultasiya (məsləhət) almağa **imkan yaradır**. Göstərilən məcəllədə təsbit olunmuşdur ki (maddə R27), BİAM-in yurisdiksiyasına yalnız idmanla bağlı mübahisələrə dair işlərə baxılması halları aiddir.[1]

Eyni zamanda, qeyd etməliyik ki, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq İdman Federasiyaları, Milli Olimpiya Komitələri, BOK tərəfindən tanınan assosiasiyalar və Olimpiya Oyunlarının Təşkilat Komitələri **idman təcrübəsi**, **idmanın inkişafı** və ya **idmanla əlaqəli** digər fəaliyyətlə bağlı hər hansı **hüquqi məsələyə** dair BİAM-dən **müvafiq məsləhətlər** ala bilərlər. Müvafiq **sorğu** BİAM-ə təqdim olunur və BİAM-in rəyini bildirməyə çağırılan **arbitraj qrupuna** qaldırılan məsələləri tam şəkildə nəzərdən keçirməyə kömək edə biləcək bütün **sənədlərlə** müşayiət olunur.[2]

BİAM-in prezidenti **sorğunu** aldıqdan sonra onun nə dərəcədə arbitraj məhkəməsinin rəyinin **predmetinə** çevrilə biləcəyini müəyyən edir. Lazım gələrsə, BİAM prezidenti **üç arbitrdən ibarət arbitraj qrupunu** formalaşdırmaq və onun **sədrini** və ya **tək arbitri** təyin etmək üçün öz işini davam etdirir, sorğunun məzmununu aydınlaşdıraraq **şərh edir** və arbitraj

[1] Bax: Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, с.93.

[2] Ətraflı bax: Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, с.617-618.

qrupuna (arbitrə) **ötürür**. Qaldırılmış məsələ üzrə öz rəyini bildirməzdən əvvəl arbitraj qrupu (arbitr) **əlavə informasiya** tələb edə bilər. Arbitraj qrupunun (arbitrin) **rəyi** vəsatət-sorğu vermiş şəxsin razılığı ilə **dərc oluna** bilər. Rəy arbitraj qərarı **statusuna** malik deyil və **məcburi** xarakter daşımır.[1]

Digər arbitraj prosedurlarından fərqli olaraq, **konsultasiya arbitraj proseduru** zamanı İdman Arbitrajı Məcəlləsi məsləhətləşmə sorğusu ilə bağlı BİAM tərəfindən rəy bildirmək üçün **vaxt məhdudiyyəti** müəyyən etmir.

[1] Ətraflı bax: Международное спортивное право. Учебник/ С.В.Алексеев. М.,ЮНИТИ-ДАНА: Закон и право, 2008, с.810-811.

XI FƏSİL ÜZRƏ ƏYANİ SXEM



II BÖLMƏ.
AZƏRBAYCAN RESPUBLİKASININ İDMAN HÜQUQU

XII FƏSİL.
İDMAN HÜQUQU ANLAYIŞI, ONUN PREDMETİ VƏ PRİNSİPLƏRİ

12.1. İdman hüququnun anlayışı və nizamasalma predmeti

Müasir dövrdə digər ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da dövlətin normal fəaliyyət göstərməsi üçün **bədən tərbiyəsi və idman** prioritet əhəmiyyətə malik olan sahələrdən biridir və kütləvi xarakter alaraq, yaşadığımız ictimai həyata daha geniş şəkildə nüfuz etmişdir. Belə ki, bədən tərbiyəsi və idman cəmiyyətimizin ümumi mədəniyyətinin ayrılmaz hissəsi olmaqla **sosial fəaliyyət** sahəsinə çevrilmişdir.

Hər şeydən əvvəl, qeyd etməliyik ki, **bədən tərbiyəsi** dedikdə ictimai həyatda mədəniyyətin mühüm hissəsi kimi, mahiyyətcə, fiziki təmrinlər (çalışmalar) vasitəsi ilə insanın sağlam həyat tərzinin formalaşmasına və hormonal inkişafına yönəlmiş fəaliyyət başa düşülür.

İdman anlayışının məna yükü onu ifadə edir ki, **idman** xüsusi yarış fəaliyyəti, ona bilavasitə hazırlıq və bu proseslə əlaqəli olan təşkilat, kollektiv, fərd və s. tərəflərin bu sahədə əvvəlcədən müəyyənləşdirilmiş hüquq normaları əsasında qarşılıqlı münasibətlərinin məcmusudur. Eyni zamanda, qanunvericilik aktlarında leqal idman anlayışına dair onun normativ məzmununu təsbit edən müddəalar da mövcuddur: **idman dedikdə** müvafiq fiziki təmrinlər kompleksi vasitəsi ilə, mütəmadi olaraq, şəxsin fiziki hazırlığının təkmilləşdirilməsinə, müxtəlif sə-

viyyəli yarışlarda iştiraka və yüksək nəticələr göstərilməsinə yönəldilmiş bədən tərbiyəsinin tərkib hissəsi başa düşülür.[1]

Qeyd edilənlərlə yanaşı, elmi dövriyyədə və idman praktikasında kütləvi idman, fiziki hazırlıq və fiziki kamillik kimi anlayışlar da işlədilir. Belə ki, **kütləvi idman** anlayışı əhalinin bədən tərbiyəsi ilə məşğulluğuna və fiziki inkişafına, eləcə də təşkil olunmuş formada bədən tərbiyəsi-sağlamlıq tədbirlərində və kütləvi idman yarışlarında iştirakına yönəldilmiş idman sahəsini ehtiva edir. **Fiziki hazırlıq** anlayışının məna yükü onu ifadə edir ki, fiziki hazırlıq insanın sosial-demoqrafik xüsusiyyətləri və fəaliyyət növləri nəzərə alınmaqla, onda fiziki keyfiyyətlərin, qabiliyyətin inkişafına yönəlmiş prosesdir. Başqa sözlə, fiziki hazırlıq insanın anadangəlmə və həyatda qazanılmış hərəki-motor funksiyasıdır. **Fiziki kamillik** isə, bədən tərbiyəsi və idmanla məşğul olan hər bir şəxsdə harmonik fiziki inkişafın və mənəvi keyfiyyətlərin ahəngdar birləşməsi prosesi deməkdir.

Göstərilən məqsədlərə nail olmaq üçün müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində müvafiq **dövlət siyasəti** həyata keçirilir və idman insan fəaliyyətinin ümumtanınmış spesifik sferalarından biridir, onun ictimai əhəmiyyəti günbəgün artmaqda davam edərək **universal xarakter** almışdır. İdman fəaliyyətinin ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq miqyaslı funksiyalara malik olması aspekti onun hüquqi cəhətdən **nizama salınmasını** şərtləndirir və belə tənzimlənmə **idman hüququ** vasitəsilə həyata keçirilir. Deməli, idman hüququnun yaranma - **genezis əlaməti** kimi müxtəlif istiqamətlər üzrə həyata keçirilən **idman fəaliyyəti** çıxış edir. İdman fəaliyyəti olimpiya, paralimpiya, deflimpiya, xüsusi olimpiya kimi hərəkatları, peşəkar idman, təhsil müəssisələrində bədən tərbiyəsi və idman, səhiyyə sistemində bədən tərbiyəsi və

[1] Ətraflı bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu-maddə 1.0.2. // http://www.e-qanun.az/framework/18303 (16.05. 2022-ci il).

idman, hərbi-tətbiqi və xidməti-tətbiqi idman növləri, idman mərc oyunları, vətəndaşların iş, yaşayış və istirahət yerlərində bədən tərbiyəsi və idman, cəzaçəkmə müəssisələrində bədən tərbiyəsi və idman, adaptiv bədən tərbiyəsi və fiziki reabilitasiya, uşaq-gənclər idmanı və s. **istiqamətləri özündə ehtiva edir**. Azərbaycan bu gün beynəlxalq arenada **idman ölkəsi** kimi tanınır və bu amil də idman fəaliyyəti spektrinin genişlənməsinə, habelə daha böyükmiqyaslı forma almasına münbit şərait yaradır.

İdman hüququ **çoxcəhətli** anlayış olmaqla müxtəlif mənalarda işlədilir: qanunvericilik mənasında, tədris kursu mənasında, tədqiqat və elmi mənada, obyektiv mənada. Belə ki, qanunvericilik mənasında idman hüququ **idman qanunvericiliyini** ehtiva edir. Tədris kursu mənasında idman hüququ **idman tədris fənni** adlanir. Tədqiqat və elmi mənada idman hüququna **idman hüquq doktrinası** deyilir. **Obyektiv mənada idman hüququ** dedikdə isə, bir qayda olaraq, ölkədə idman münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür; onlara **idman-hüquq normaları** deyilir. Bu kontekstdə, qeyd edə bilərik ki, obyektiv mənada idman hüququ müvafiq idman-hüquq normalarından ibarətdir; bu normaların əsas təyinatı və başlıca funksiyası **idman münasibətlərini** tənzimləməkdən ibarətdir. Obyektiv mənada idman hüququ bundan sonra, sadəcə olaraq, **"idman hüququ" termini** ilə əhatə olunacaqdır. Ona görə ki, "obyektiv mənada idman hüququ" və "idman hüququ" ifadələri sinonim anlayışlar kimi eyni mənanı kəsb edirlər.

Həmçinin, qeyd etməliyik ki, idman münasibətləri öz **hüquqi təbiətinə** görə **iqtisadi məzmuna** malikdir. Müasir dövrdə idmanın iqtisadi kateqoriya kimi müxtəlif miqyaslı yarışların maliyyələşdirilməsi, onun sahibkarlıq fəaliyyət növünə çevrilməsi, idman biznesinin təşəkkül tapması, idmanda sığorta, vergi və reklam münasibətlərinin formalaşması və s. amillər onun **iqtisadi xarakter** daşımasına dəlalət edir. Bu kontekstdə idman hüququ milli hüquq sisteminin tərkib hissəsi kimi çıxış

edir; həm də **hüquqi statusuna** görə idman hüququ Azərbaycan Respublikasının milli hüquq sisteminin müstəqil sahələrindən biri olan **iqtisadi hüququn** tərkibində **yarımsahə** kimi formalaşmışdır.

İdman sferasında **idarəetmənin hüquqi tənzimlənməsində** konstitusiya hüququ, mülki hüquq, inzibati hüquq, cinayət hüququ, əmək hüququ, əqli mülkiyyət hüququ, ekologiya hüququ, maliyyə hüququ, vergi hüququ, gömrük hüququ və s. hüquqi qurumlar və onlarda təsbit edilən hüquq normaları da **əhəmiyyətli rol** oynayır.

Beləliklə, qeyd edilənləri diqqətə çəkərək, milli idman hüququna aşağıdakı məzmunda məntiqi və **lakonik anlayış** verə bilərik:

– **milli idman hüququ** dedikdə Azərbaycan Respublikasında idman fəaliyyətinin təşkili, idarə edilməsi və bu fəaliyyətin həyata keçirilməsi ilə bağlı yaranan ictimai idman münasibətlərinin tənzimlənməsi sahəsində bir-birilə qarşılıqlı dialektik əlaqədə olan kompleks hüquq normalarının sistemi başa düşülür.

İdman hüququnun nizamasalma predmeti ilə bağlı qeyd etməliyik ki, digər sahələrdə olduğu kimi, idman hüququ da özünəməxsus tənzimetmə predmetinə malikdir. Belə ki, o, müəyyən növ ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirir və məhz həmin münasibətlər idman hüququn **nizamasalma predmetini** təşkil edir. Nəzərə almalıyıq ki, hüquq nəzəriyyəsinə görə, bu və ya digər hüquqi qurumun (hüquq sahəsi, yarımsahə, hüquq institutu və s.) tənzimlədiyi ictimai münasibətlər onun nizamasalma predmetini yaradır. Odur ki, hər şeydən əvvəl, idman hüquq ilə hansı növ ictimai münasibətlərin tənzimlənməsini müəyyən etməliyik. Məsələ burasındadır ki, idman hüquq ilə tənzimlənən ictimai münasibətlər idman sferasında fəaliyyətin həyata keçirilməsi zamanı yaranır. Əgər şəxs fəaliyyəti idman sahəsində həyata keçirərsə, belə fəaliyyət "idman fəaliyyəti" kimi anlayışla əhatə olunur. **Fəaliyyət** dedikdə isə bizi əhatə edən maddi aləmin insanın maraq və

mənafeləri üçün məqsədyönlü şəkildə dəyişdirilməsi başa düşülür.[1]

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq idman fəaliyyəti özündə, əsasən, aşağıdakı **əsas istiqamətləri** ehtiva edir:

- ümumi səlahiyyətli beynəlxalq təşkilatlarda (məsələn, BMT, Avropa Şurası və b. publik hüquqi şəxslər), beynəlxalq idman hərəkatında iştirak etmək, habelə BOK, BPK, BİF və digər beynəlxalq idman subyektləri ilə, o cümlədən onların milli idman strukturları ilə qarşılıqlı əlaqələrin yaradılması;
- idman münasibətlərində dövlətin, milli idman təşkilatlarının, idmançıların və digər milli subyektlərin fəaliyyəti;
- idman yarışlarının, o cümlədən olimpiya oyunlarının, həmçinin digər idman yarışlarının və idman-tamaşa tədbirlərinin, müvafiq konfrans və simpoziumların təşkili və həyata keçirilməsi;
- idman biznesi sahəsində, o cümlədən peşəkar idman sferasında transfer, icarə, idmançının, trenerin bir klubdan digərinə keçməsi, eləcə də idmançıların fəaliyyəti ilə bağlı əmək münasibətləri;
- idman sferasında maddi dəstək və sərmayə qoyulması;
- idman sənayesi, o cümlədən fiziki-idman və turizm əhəmiyyətli xidmətlərin təşkili, eləcə də həmin xidmətlərlə bağlı müvafiq ticarət sahəsində kommersiya fəaliyyəti;
- idman fəaliyyəti sahəsində əqli mülkiyyət hüquqlarının mühafizəsi, o cümlədən əmtəə nişanlarının, idman və olimpiya simvollarının, idman tədbirlərində radio-teleyayım hüquqlarının qorunması ilə bağlı münasibətlər;
- idman sahəsində maliyyə vergi münasibətləri;
- idmanda travmatizm, idman təbabəti və sığorta;

[1] Bax: Большой энциклопедический словарь. М. – СПб., 1997, с. 348.

– idman hərəkatında ümumdünya antidopinq siyasətinin həyata keçirilməsi və dopinqə qarşı mübarizə aparılması;
– idman münasibətləri sferasında cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq;
– idman mübahisələrinin tənzimlənməsi və sairə məsələlər üzrə fəaliyyət.[1]

İdman fəaliyyətinin sadalanan istiqamətləri ilə bağlı müxtəlif subyektlər arasında yaranan orqanik kompleks ictimai münasibətlər **idman münasibətləri** kateqoriyasına aiddir. İdman münasibətləri isə, öz məzmununa görə, son dərəcə müxtəlifdir. Belə ki, həmin münasibətlər olimpiya, paralimpiya, peşəkar idman, antidopinq, arbitraj, investisiya, sığorta, nəqliyyat, əqli mülkiyyət, idman sferasında əməkdaşlıq və digər sahələrdə yarana bilər. Bu baxımdan, yəni **məzmununa görə,** idman münasibətlərini aşağıdakı **növlər üzrə** fərqləndirmək olar:

– idman olimpiya münasibətləri;
– paralimpiya və inklüziv idman münasibətləri;
– idman deflimpiya münasibətləri;
– xüsusi olimpiya hərəkatı üzrə münasibətlər;
– peşəkar idman münasibətləri;
– təhsil müəssisələrində bədən tərbiyəsi və idman münasibətləri;
– səhiyyə sistemində bədən tərbiyəsi və idman münasibətləri;
– hərbi-tətbiqi və xidməti-tətbiqi idman münasibətləri;
– vətəndaşların iş, yaşayış və istirahət yerlərində bədən tərbiyəsi və idman münasibətləri;
– cəzaçəkmə müəssisələrində (penitensiar xidmət orqanlarında) bədən tərbiyəsi və idman münasibətləri;
– adaptiv bədən tərbiyəsi və fiziki reabilitasiya idman münasibətləri;

[1] Ətraflı bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu / C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, 848 səh.

– uşaq-gənclər idmanı münasibətləri;[1]
– idman mərc oyunları münasibətləri;
– idman dopinq münasibətləri;
– idman maliyyə münasibətləri;
– idman investisiya münasibətləri;
– idman vergi münasibətləri;
– idman nəqliyyat münasibətləri;
– idman bank-kredit münasibətləri;
– idman əqli mülkiyyət münasibətləri;
– idman reklam münasibətləri;
– idman sığorta münasibətləri və s.

Beləliklə, göstərilən **kompleks idman münasibətlər qrupu** məcmu halında birləşərək, Azərbaycan Respublikası idman hüququnun nizamasalma predmetini təşkil edir.

Yeri gəlmişkən, qeyd edək ki, hüquq doktrinasına görə, istənilən hüquqi qurum özünəxas **hüquqi tənzimetmə metoduna** (yunanca "methodes" – üsul) malik olur. Bu anlayış bütövlükdə idman hüququ sferasını da əhatə edir. Hüquqi tənzimetmə metodu isə – cəmiyyətdə və ictimai həyatda insanların davranışına təsir göstərmək üsuludur və o, ictimai münasibətlərin hüquqi tənzimlənməsinə dair hüquqi vasitə və üsulların məcmusundan ibarətdir. Burada söhbət **inzibati idarəetmənin metodundan** gedir.[2] Başqa formada ifadə etsək, hüquq ədəbiyyatında göstərildiyi kimi, inzibati idarəetmənin metodu idarəetmənin məqsəd və vəzifələrinə nail olmaq üçün inzibati idarəetmə subyektlərinin inzibati **idarəetmə obyektinə** göstərdiyi təsir üsuludur.[3] İdman hüququnun metodu, təbii ki, inzibati hüquq

[1] Uşaq-gənclər idman məktəblərində idarəetmənin nəzəri-metodoloji əsasları barədə ətraflı bax: Şərifov H. İ. Uşaq-gənclər idman məktəblərinin idarə olunmasının modernləşdirilməsi. Monoqrafiya.Bakı, Mütərcim, 2018, 260 s.
[2] Bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayın Evi», 2018, s.152.
[3] Ətraflı bax: Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq. Dərslik. Bakı, 2008, s.122.

metodundan törəmə olsa da, öz təsiretmə hüdudlarında müəyyən spesifik cəhətlərlə xarakterizə edilir.

Beləliklə, **idman hüququnun nizamasalma metodu** dedikdə idman hüququnun tənzimetmə predmetinə daxil olan idman münasibətlərinə onun göstərdiyi təsir üsulları (vasitələri) başa düşülür. Başqa sözlə, **idman fəaliyyəti sahəsində** şəxslərin üzərinə onların aktiv davranışına dair vəzifələrin qoyulması – **pozitiv məcburetmə, sərəncamvermə**, habelə onların sərbəst hərəkət etmələrinə aid hüquqların verilməsi – **icazəvermə**, **səlahiyyətvermə** və şəxslərin hüquqazidd əməllərin törədilməsindən çəkinmək öhdəliyinin qoyulması – **qadağanetmə** üzrə ictimai münasibətlərin tənzimlənməsinin hüquqi vasitə və üsullarının məcmusu idman hüququnun **nizamasalma metodunu** təşkil edir.

12.2. İdman hüququnda tətbiq edilən prinsiplər

Hər şeydən əvvəl, qeyd etməliyik ki, hüquqi prinsiplər dedikdə hüquqda ifadə olunan, habelə onun məzmununu xarakterizə edən **rəhbər başlanğıclar**, **əsas ideyalar** başa düşülür və onlar hüquq sisteminin tərkib hissəsidir.[1]

İdman hüquq sistemi üçün də **hüquqi prinsiplər** vacib rol oynayır, müvafiq tənzimləyici və qoruyucu funksiyaları yerinə yetirirlər və onlar idman münasibətlərinin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir. Belə ki, hüquqi prinsiplər idman hüququnun nizamasalma predmetinə daxil olan idman münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsinin, qaydaya salınmasının əsasını təşkil edir.

Eyni zamanda, idman hüququn prinsipləri öz **hüquqi təbiətinə** görə **üçpilləlidir** (hüququn ümumi prinsipləri, hüququn əsas prinsipləri, idman hüququnun xüsusi prinsipləri). Göstərilən prinsiplər arasında **iyerarxiya qaydası** mövcuddur. Həmin

[1] Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.671.

qaydaya görə, idman hüququnun aşağı pillədə duran prinsipləri özündən yuxarı pillədə yerləşən prinsiplərə zidd olmamalı, onlara uyğun gəlməlidir. Bu o deməkdir ki, idman hüququn prinsiplərinin səviyyəsi onların hüquqi qüvvəsi kontekstində eyni deyildir: yuxarı pillədə duran prinsiplərin özündən aşağı pillədə yerləşən prinsiplərə nisbətən daha yüksək hüquqi qüvvəsi vardır. Deməli, idman hüququnun prinsipləri **üçpilləli iyerarxiyası** ilə xarakterizə edilir.

İdman hüququnun prinsipləri **sistem halında** birləşərək bir-birilə sıx bağlıdır və onlar ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı **dialektik əlaqədə** fəaliyyət göstərirlər.

Idman hüququnda tətbiq edilən **hüququn ümumi prinsipləri** Roma hüququnun prinsiplərinə əsaslanır.[1] Idman hüququnda istifadə edilən **hüququn əsas prinsipləri** kimi ictimai azadlıq, ictimai ədalət, demokratizm, humanizm, bərabərlik, əsas insan hüquq və azadlıqlarına hörmət etmək, hüquq və vəzifələrin birliyi (vahidliyi), təqsirə görə məsuliyyət, qanunçuluq və s. prinsiplər çıxış edir.[2] **İdman hüququnun xüsusi prinsipləri** isə idman münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsinin rəhbər başlanğıclarını ehtiva edir və yalnız idman hüququ sahəsində tətbiq olunaraq, onun məzmununu xarakterizə edir.

Idman hüququnun xüsusi prinsipləri qismində **aşağıda göstərilən prinsipləri** fərqləndirə bilərik:

- idman sahəsində milli rejim prinsipi;
- idman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi;
- idman sferasında preferensiya rejimi prinsipi;
- idman sferasında diskriminasiyaya yol verilməməsi prinsipi;
- idman münasibətlərində qarşılıqlı fayda prinsipi;

[1] Bu barədə ətraflı bax: Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı: Qanun, 1999, 224 s.
[2] Ətraflı bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayın Evi», 2018, s.130-131.

– idman münasibətlərində əməkdaşlıq prinsipi;
– idman resursları üzərində suverenlik prinsipi və s.

Eyni zamanda, idman hüququnun digər özünəməxsus xüsusi prinsipləri mövcuddur ki, onları **iki kateqoriyaya** bölmək olar: elmi-kommunikativ prinsiplər və törəmə prinsiplər.

İdman hüququnun elmi-kommunikativ prinsipləri sırasına aşağıdakılar aiddir:

– idman fəaliyyətində unifikasiya prinsipi;
– idman münasibətlərində diversifikasiya prinsipi;
– idman sferasında texnolojiləşdirmə prinsipi.

İdman hüququnun özünəməxsus törəmə prinsipləri isə aşağıdakılardan ibarətdir:

– idman hüququnun sistemyaradıcı prinsipləri;
– insanların idman, bədən tərbiyəsi və sağlamlığın qorunması hüququ ilə bağlı prinsiplər;
– sağlam ətraf mühit və idman məşğulluğu faktorları arasında sıx əlaqəni əks etdirən prinsiplər;
– ölkədə idman hərəkatının inkişafına aid prinsiplər;
– məşq və yarış fəaliyyəti sferasında idman münasibətlərini tənzimləyən prinsiplər;
– idman hərəkatını idarəetmə sisteminin tənzimlənməsi prinsipləri və s.[1]

Yuxarıda şərh olunanları nəzərə alaraq, qeyd edə bilərik ki, müasir dövrdə **idman hüququnda tətbiq edilən prinsiplər** müvafiq idman qanunvericilik aktlarında təsbit olunduğu üçün idman-hüquq subyektlərinə münasibətdə **məcburi hüquqi qüvvəyə** malikdir. Göstərilən prinsiplər idman fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin nizama salınmasında, inkişafında və təkmilləşdirilməsində, eləcə də idman fəaliyyətinin səmərəliliyinin artırılmasında **mühüm rol** oynayır. Gələcəkdə bu istiqamətdə yeni prinsiplərin formalaşması da mümkündür.

[1] Bu prinsiplərin məzmunu barədə ətraflı bax: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.165-197.

XII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



XIII FƏSİL.
İDMAN HÜQUQUNUN SUBYEKTLƏRİ VƏ MƏNBƏLƏRİ

13.1. İdman hüququnun subyektləri

Məlum olduğu kimi, idman hüququnun əsas anlayışlarından biri **idman hüququnun subyektləri** sayılır. Bu, çox mühüm əhəmiyyətə malik olan anlayışdır. Belə ki, Azərbaycan Respublikasında idman fəaliyyətinin təşkili, həyata keçirilməsi, idman-hüquq münasibəti, onun sosial təyinatı, məqsədi və xarakteri kimi zəruri məsələlər məhz idman hüququnun subyektləri vasitəsi ilə reallaşdırılır. Göstərilən bu vacib əlamət digər hüquq sferalarına da xasdır.[1] Hər bir hüquq sahəsinin **ayrıca subyektləri** mövcuddur: məsələn, vətəndaşlar, hüquqi şəxslər, Azərbaycan Respublikası (dövlət), bələdiyyələr və s. qurumlar hüququn subyektləri kimi çıxış edir. Bəs, idman hüququnun subyektləri hansılardır?

İdman hüququnun subyektləri dedikdə idman-hüquq münasibətlərinin potensial (mümkün) iştirakçıları başa düşülür. Hansı şəxs və qurum idman-hüquq münasibətində iştirak edə, yəni idman-hüquq münasibətinin iştirakçısı ola bilərsə, o da idman hüququnun subyekti hesab edilir. Ona görə də, ilk növbədə, müəyyən etməliyik ki, idman-hüquq münasibətində hansı şəxs və qurumlar iştirak edə bilər. İdman-hüquq münasibətində, ilk növbədə, **fiziki şəxslər** (fərdlər) çıxış edirlər. Fiziki şəxslərin qanunla qadağan olunmamış iqtisadi fəaliyyət növü (o cümlədən idman fəaliyyəti) ilə məşğul olmaq hüququ vardır ki, bu hüquq Konstitusiyanın 59-cu maddəsində təsbit edilmişdir. Həmin maddəyə görə, hər kəs, yəni istənilən fiziki şəxs qanunla qadağan edilməmiş bu və ya digər fəaliyyət növü ilə məşğul ola bilər.

[1] Ayrı-ayrı hüquq sahələrinin subyektləri barədə ətraflı bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s.136-138.

Sözügedən konstitusion göstərişdə iqtisadi fəaliyyət azadlığı prinsipi ifadə edilmişdir. İqtisadi fəaliyyət azadlığı təkcə iqtisadi hüququn sahəvi (xüsusi) prinsipi demək deyildir; iqtisadi fəaliyyət azadlığı həm də subyektiv hüquq olub, insan hüquqları (təbii hüquqlar) kateqoriyasına daxildir. Bu kontekstdə, qeyd etməliyik ki, dövlət özbaşına həmin hüququ məhdudlaşdıra bilməz.[1]

Eyni zamanda, idman fəaliyyəti ilə azad məşğul olmaq hüququnu həyata keçirərkən fiziki şəxslər **idman-hüquq münasibətinin iştirakçısı** olurlar. Odur ki, fiziki şəxslər idman hüququnun subyektidirlər. Onlar öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək bilavasitə idman fəaliyyəti ilə məşğul ola bilərlər. Deməli, fiziki şəxslər idman fəaliyyətinin subyektləridir.

İdman fəaliyyəti ilə məşğul olmaq hüququ həm də **hüquqi şəxslərə** (təhsil, səhiyyə, uşaq-gənclər təşkilatlarına, ictimai idman birliklərinə, kommersiya və digər strukturlara) məxsusdur.[2] Hüquqi şəxslər onlara verilmiş bu hüquqdan istifadə edən zaman idman-hüquq münasibətinin, yəni idman fəaliyyətinin həyata keçirilməsinə yönələn **hüquq münasibətinin iştirakçısı** olurlar. Buna görə də, hüquqi şəxslər idman hüququnun subyekti hesab edilirlər.

Fiziki və hüquqi şəxslərin məşğul olduqları **idman-fəaliyyət növlərinə** gəldikdə isə, qeyd etmək lazımdır ki, idman sferasında həyata keçirilən fəaliyyət növləri kifayət qədər müxtəlifdir. Söhbət aşağıdakı idman-fəaliyyət növlərindən gedir: 1) idman olimpiya fəaliyyəti; 2) paralimpiya, deflimpiya və inklüziv idman fəaliyyəti; 3) xüsusi olimpiya hərəkatı üzrə fəaliyyət; 4) peşəkar idman fəaliyyəti; 5) hərbi-tətbiqi və xidməti-tətbiqi idman fəaliyyəti; 6) adaptiv bədən tərbiyəsi və fiziki reabilitasiya idman fəaliyyəti; 7) uşaq-gənclər idman fəaliyyəti; 8) idman

[1] Bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.51.

[2] Bax: Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu / C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, s.277-280.

mərc oyunları üzrə fəaliyyət; 9) idman sferasında antidopinq fəaliyyəti; 10) idman sferasında idarəetmə fəaliyyəti; 11) idman sahəsində əqli mülkiyyət, maliyyə, vergi, reklam, sığorta, investisiya, sahibkarlıq, kommersiya-biznes və s. istiqamətlər üzrə fəaliyyət. Ona görə də, qeyd edə bilərik ki, yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan hər bir şəxs **idman-fəaliyyət subyekti**, yəni idman hüququnun subyekti hesab edilir.

Ölkədə idman fəaliyyətinin kommersiyalaşdırılması və idman biznesinin təşəkkül tapması kontekstində, qeyd etmək vacibdir ki, müasir dövrdə idman hüquq dövriyyəsində **"kommersant"** anlayışından istifadə olunur.[1] Belə ki, kommersant dedikdə öz adından və öz hesabına müvafiq idman əqdləri (müqavilələri) bağlayan və bu istiqamətdə zəruri əməliyyatları aparan şəxs, agent başa düşülür. Deməli, kommersant olan şəxslər də idman hüququnun subyekti kimi tanınır.

İdman hüququnun subyektləri yalnız idman fəaliyyəti ilə məşğul olmurlar. İdman-hüquq subyektləri həm də idman fəaliyyətini **tənzimləyir** və onun həyata keçirilməsinə **nəzarət edirlər**. Əgər müəyyən qurum **idman sahəsində idarəetmə fəaliyyətini** hüquqi cəhətdən tənzimləyir və onun həyata keçirilməsinə nəzarət edirsə, həmin qurum idman hüququnun subyekti hesab olunur. Söhbət **dövlət və bələdiyyə kimi qurumlardan** gedir. Belə ki, **dövlət** ölkədə bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən fəaliyyəti tənzimləyir və ona nəzarət edir. Bələdiyyə ərazilərində isə həyata keçirilən idman fəaliyyətini tənzimləmək və ona nəzarət etmək funksiyasını **bələdiyyələr** yerinə yetirir ki, onlar dövlət orqanları olmasalar da, müəyyən hakimiyyət səlahiyyətlərinə malikdirlər.[2]

---

[1] Kommersant anlayışı barədə ətraflı bax: məsələn, Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.418.

[2] Bu barədə ətraflı bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu: dövlətin vəzifələrinə münasibətdə -maddə 4; bələdiyyələrin səlahiyyətləri ilə bağlı - maddə 5 // http://www.e-qanun.az/framework/18303 (26.05. 2022-ci il).

Deməli, idman sferasında idarəetməni hüquqi cəhətdən tənzimləyərkən həm dövlət, həm də bələdiyyələr, müvafiq olaraq, idman-hüquq münasibətlərində iştirak etməklə, **idman hüququnun subyekti** kimi çıxış edirlər.

İdman hüququnun subyektlərini **xarakterizə edən** əsas cəhətlərdən biri hüquq subyektliyinə malik olmaq kimi **əlamət** sayılır. Əgər hər hansı idman-fəaliyyət subyekti hüquq subyektliyinə malik olarsa, o, idman hüququnun subyekti kimi tanınır. **İdman hüquq subyektliyi** dedikdə subyektin idman hüququ ilə tənzimlənən ictimai münasibətlərin (idman-hüquq münasibətlərinin) iştirakçısı olmaq qabiliyyəti (imkanı) başa düşülür.

Qeyd etməliyik ki, idman hüquq subyektliyi, mahiyyət etibarilə, **üç zəruri elementdən** ibarətdir: 1) hüquq qabiliyyəti; 2) fəaliyyət qabiliyyəti; 3) delikt qabiliyyəti.

Hüquq qabiliyyəti dedikdə idman sferasında fəaliyyət göstərən subyektin müvafiq hüquqlara malik olmaq və vəzifələr daşımaq qabiliyyəti (imkanı) başa düşülür. Onun da, öz növbəsində, dörd növü fərqləndirilir: 1) ümumi hüquq qabiliyyəti; 2) xüsusi hüquq qabiliyyəti; 3) məhdud hüquq qabiliyyəti; 4) müstəsna hüquq qabiliyyəti. **Ümumi hüquq qabiliyyəti** subyektə imkan verir ki, o, idman sahəsində qanunla qadağan edilməyən, istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri hüquqlara malik olsun və vəzifələr daşısın. Ümumi hüquq qabiliyyəti həm də **universal hüquq qabiliyyəti** adlanir.

Əgər idman-hüquq subyekti öz nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət məqsədlərinə çatmaq üçün müvafiq hüquqlara malik ola və vəzifələr daşıya bilərsə, belə imkan (qabiliyyət) **xüsusi hüquq qabiliyyəti** adlanır. Xüsusi hüquq qabiliyyətinə həm də **məqsədli hüquq qabiliyyəti** deyilir.

Əgər idman-hüquq subyekti öz təsis sənədində ümumi (universal) hüquq qabiliyyətini müstəqil surətdə məhdudlaşdırarsa, buna **məhdud hüquq qabiliyyəti** deyilir. Belə halda subyekt, təbii ki, istənilən fəaliyyət növlərini deyil, yalnız təsis sənədində müəyyənləşdirdiyi idman fəaliyyət növünü həyata keçir-

mək üçün zəruri olan hüquqlara malik ola və vəzifələr daşıya bilər.

Müstəsna hüquq qabiliyyəti idman-hüquq subyektinə imkan verir ki, o, yalnız özü üçün seçdiyi konkret idman fəaliyyət növü ilə məşğul olsun və həmin fəaliyyətin həyata keçirilməsi üçün zəruri hüquqlara malik olmaqla, müvafiq vəzifələr daşısın. Həmin subyektin qanunvericiliklə qadağan olunmuş digər idman fəaliyyət növlərini həyata keçirmək hüququ yoxdur.

Fəaliyyət qabiliyyəti idman-hüquq subyektinin öz hərəkətləri ilə müvafiq fəaliyyət üzrə hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir.

Delikt qabiliyyəti isə, idman-hüquq subyektinin öz fəaliyyətinə görə hüquqi məsuliyyət daşımaq və vurduğu zərərin əvəzini ödəmək qabiliyyətini ehtiva edir.[1]

Eyni zamanda, idman hüququnun subyektləri **hüquqi kontekstdə** də təsnif edilir. Müxtəlif meyarlara (əsaslara) görə idman-hüquq subyektlərinin ayrı-ayrı növlərə bölünməsi hüquq elmində (doktrinada) idman hüququ subyektlərinin **hüquqi təsnifi** adlanır.

Mülkiyyətin növü belə meyarlardan biridir. Məlum olduğu kimi, Konstitusiyanın 13-cü maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasında mülkiyyətin üç növü fərqləndirilir: 1) dövlət mülkiyyəti; 2) xüsusi mülkiyyət; 3) bələdiyyə mülkiyyəti. İdman sahəsində fəaliyyətlə məşğul olan təşkilatlar da (hüquqi şəxslər) **üç növə** bölünür: 1) dövlət idman təşkilatları; 2) qeyri-dövlət (özəl) ictimai idman təşkilatları; 3) bələdiyyə idman təşkilatları. Dövlət mülkiyyəti əsasında təsis edilən və idman sferasında fəaliyyət göstərən strukturlar **dövlət idman təşktilatları** adlanır. Əgər müəssisə xüsusi mülkiyyət əsasında təsis edilə və idman sahəsində fəaliyyət göstərərsə, belə müəssisəyə **qeyri-dövlət (özəl) ictimai idman təşkilatı**

[1] Hüquq subyektliyi və onun tərkib elementləri barədə ətraflı bax: Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.56-58.

deyilir. Bələdiyyə mülkiyyəti əsasında təsis edilən və fəaliyyət göstərən qurum isə **bələdiyyə idman təşkilatı** adlanır. İdman sahəsində fəaliyyət göstərən həm dövlət, həm özəl, həm də bələdiyyə müəssisələri iqtisadi hüququn subyektləridir.

Malik olduqları səlahiyyətin xarakteri kimi meyara görə idman hüququnun subyektləri aşağıdakı növlərə bölünür: 1) bilavasitə idman fəaliyyəti ilə məşğul olan subyektlər (məsələn, müvafiq statusu olan fiziki və hüquqi şəxslər - idmançı, məşqçi, idman klubları, idman fondları və s.); 2) idman fəaliyyətinin həyata keçirilməsinə rəhbərlik edən subyektlər (məsələn, idman sferasında idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi); 3) hakimiyyət xarakterli tənzimetməni həyata keçirən subyektlər (məsələn, dövlət, yəni Azərbaycan Respublikası, bələdiyyələr və s.).

Hüquqi şəxs statusuna malikolma meyarına görə milli idman hüququnun subyektləri iki növə bölünür: 1) hüquqi şəxs statusuna malik olan idman-hüquq subyektləri (məsələn, MOK, MPK, MİF, idman cəmiyyətləri, idman birlikləri, idman klubları və s.); 2) hüquqi şəxs statusuna malik olmayan idman-hüquq subyektləri (məsələn, hüquqi şəxs yaratmadan idman sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər).

Hakimiyyət səlahiyyətinə malikolma meyarına görə idman hüququnun subyektləri iki növə bölünür: 1) hakimiyyət səlahiyyətinə malik olan subyektlər (məsələn, dövlət, bələdiyyələr); 2) hakimiyyət səlahiyyətinə malik olmayan subyektlər (məsələn, idman kommersiya təşkilaları, özəl idman qurumları və s.).

İdman sahəsində fəaliyyət növü meyarına görə idman-hüquq subyektlərinin aşağıdakı növləri vardır: 1) idmanda əqli mülkiyyət, idman yarışlarının translyasiyası və reklam fəaliyyəti ilə məşğul olan subyektlər; 2) idman sferasında maliyyə-valyuta, bank və vergi fəaliyyətini həyata keçirən subyektlər; 3) idman sahəsində sığorta fəaliyyəti ilə məşğul olan subyektlər; 4) idman sferasında turizm fəaliyyəti ilə məşğul olan sub-

yektlər; 5) idmanda antidopinq fəaliyyəti ilə məşğul olan subyektlər; 6) idman mübahisələrinin həlli ilə məşğul olan subyektlər və s.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, **idman hüququnun xüsusi subyektləri** də mövcuddur. İdman hüququnun xüsusi subyektləri dedikdə idman fəaliyyəti prosesində, yəni idman münasibətlərində **iştirak edən şəxslər** başa düşülür. Bu münasibətlər isə, **qeyri-hakimiyyət xarakterli əlaqələr** olduğu üçün xüsusi idman münasibətləri sayılır. Bu kontekstdə idman qanunvericiliyinə görə, idman hüququnun xüsusi subyektləri qismində **aşağıdakıları** fərqləndirə bilərik: idmançı, məşqçi, idman hakimi, həkim, idman komandaları, idman klubları, milli idman federasiyaları, milli olimpiya komitəsi, milli paralimpiya komitəsi, bədən tərbiyəsi və idman akademiyası, idman sahəsində təhsil kurs və məktəbləri, bədən tərbiyəsi və idman sektorunda çalışan digər işçi heyət və şəxslər.[1]

Beləliklə, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunduğu kimi, Azərbaycan Respublikasında **bədən tərbiyəsi və idman subyektləri** aşağıdakılardan ibarətdir:

1. Bədən tərbiyəsi və idman siyasətini həyata keçirən dövlət orqanları və bələdiyyələr;
2. Mülkiyyət formasından asılı olmayaraq, bədən tərbiyəsi-idman təşkilatları, o cümlədən respublika idman federasiyaları (assosiasiyaları), idman klubları, respublika bədən tərbiyəsi və idman veteranları şurası, bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən elm və təhsil müəssisələri;
3. Milli Olimpiya Komitəsi;
4. Paralimpiya Komitəsi;
5. Deflimpiya Komitəsi;

[1] Milli idman hüququnun subyektləri və onların hüquqi statusu barədə ətraflı bax: məsələn, Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.108-118.

6. Xüsusi Olimpiya Komitəsi;

7. Milli antidopinq qurumu;

8. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan səlahiyyətlərin həyata keçirilməsi məqsədi ilə yaradılmış intizam qurumu, apelyasiya qurumu və terapevtik istifadəyə icazə qurumu;

9. Hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin inkişafını həyata keçirən dövlət orqanları;

10. Həmkarlar ittifaqları təşkilatları;

11. İdman arbitrajı;

12. Bədən tərbiyəsi ilə məşğul olan şəxslər, idmançılar və onların kollektivləri (idman komandaları), idman hakimləri, məşqçilər, bədən tərbiyəsi və idman sahəsində xidmət aparan digər mütəxəssislər.[1]

13.2. İdman hüququnun mənbələri

İlk növbədə, idman hüququnun mənbələrinə anlayış verək. Qeyd edək ki, idman hüququ ayrı-ayrı və çoxsaylı **hüquq normalarından** ibarətdir. Bu normalar vasitəsi ilə idman hüququ öz **nizamasalma predmetinə** daxil olan ictimai münasibətləri tənzimləyir. İdman hüququnun ibarət olduğu həmin normalar (idman-hüquq normaları) **zahirən** bu və ya digər formada ifadə edilir, mövcud olur. İdman-hüquq normalarının ifadələnmə və mövcudolma **formaları** idman hüququnun mənbələri adlanır.

İdman hüququnun mənbələri dedikdə onun ibarət olduğu hüquq normalarının (idman-hüquq normalarının) zahirən ifadələnmə və mövcudolma formaları (üsulları) başa düşülür. Başqa sözlə, **idman-hüquq normaları** hansı formalarda ifadə edilir və mövcud olursa, həmin formalar da idman hüququnun mənbələ-

[1] Bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu (maddə 8) // http://www.e-qanun.az/framework/18303 (28.05. 2022-ci il).

ri sayılır. Belə ki, idman hüququnun mənbələri idman-hüquq normalarının zahirən bir tərəfdən **ifadə edilmə**, digər tərəfdən isə **mövcudolma** formalarıdır. Təsadüfi deyildir ki, "idman hüququnun mənbələri" ifadəsi idman-hüquq normalarının zahirən ifadə və mövcudolma formalarını bildirmək üçün işlədilən termindir. Bu səbəbdən idman hüququnun mənbələrinə **idman hüququnun formaları** da deyilir; onlar, yəni "idman hüququnun mənbələri" və "idman hüququnun formaları" məzmunca, demək olar ki, üst-üstə düşən eynimənalı (sinonim) anlayışlardır.

İdman-hüquq normalarının zahirən ifadələnmə və mövcudolma formalarına gəldikdə, qeyd etməliyik ki, belə formalar **kifayət qədər** müxtəlifdir. Söhbət, hər şeydən əvvəl, rəsmi dövlət sənədlərindən gedir: məsələn, qanun, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və s. Bu kimi **rəsmi sənədlərdə** dövlət orqanlarının müəyyənləşdirdiyi idman-hüquq normaları ifadə edilir və mövcud olur ki, həmin normalar **məcburi hüquqi qüvvəyə** malikdir. Deməli, idman hüququnun mənbələri idman-hüquq normalarının ifadə edildiyi və mövcud olduğu rəsmi dövlət sənədidir.

İdman hüququ mənbələrinin böyük əhəmiyyəti vardır. Söhbət, ilk növbədə, onların **nəzəri əhəmiyyətə** malik olmasından gedir. Belə ki, idman hüququnun mənbələri haqqında söylənilən elmi-nəzəri fikir idman hüququnu digər hüquq sahələrindən fərqləndirməyə imkan verir. İdman hüququ mənbələrinin həm də **praktiki əhəmiyyəti** vardır. Belə ki, idman hüququ öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri idman-hüquq normaları vasitəsi ilə tənzimləyir. Həmin münasibətlərə tətbiq olunan hüquq normalarının idman hüququna aid olmasını məhz idman hüququnun mənbələri əsasında müəyyənləşdirmək mümkün olur. İdman hüququnun mənbələri həm də bunu müəyyən etməyə imkan verir ki, idman sferasında fəaliyyətin hüquqi cəhətdən tənzimlənməsi üçün praktikada **hansı aktlar tətbiq edilə** bilər. Məsələn, idman-hüquqi tənzimetmə praktikasında məhkəmə qərarı kimi sənəd tətbiq

oluna bilməz, çünki belə sənəd milli hüquq sisteminin, o cümlədən idman hüququnun mənbəyi kimi tanınmır. Nəzərə almaq lazımdır ki, idman sahəsində **fəaliyyəti tənzimləməkdən** ötrü praktikada yalnız idman hüququnun mənbəyi (ümumiyyətlə, hüququn mənbəyi) olan sənədlər tətbiq oluna bilər. İdman hüququ mənbələrinin praktiki əhəmiyyəti də məhz bundan ibarətdir.

İdman hüququ **spesifik** mənbə növlərinə malikdir. Belə ki, idman hüququ öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri **hansı vasitə** ilə tənzimləyirsə, o da, idman hüququnun mənbə növü hesab edilir. Söhbət zahiri ifadə formasına malik olan **hüquq tənzimləyicisindən** gedir; bu kimi tənzimləyici idman hüququnun mənbə növü sayılır.

İdman hüququnun mənbə növü dedikdə zahiri ifadə formasına malik olan elə hüquq tənzimləyicisi başa düşülür ki, belə tənzimləyici vasitəsi ilə idman hüququ öz nizamasalma predmetinə daxil olan ictimai münasibətləri qaydaya salır. Ayrı-ayrı belə növlər sistem halında birləşmişdir; bu cür birləşmə idman hüququ mənbələrinin sistemi, başqa sözlə desək, **idman qanunvericilik sistemi** adlanır. İdman qanunvericilik sistemi isə Azərbaycan Respublikasının Konstitusiyasından, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunundan, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.[1] Həmçinin, qeyd etməliyik ki, idman hüququ mənbələrinin sistemi **iyerarxiya prinsipinə** əsaslanır. Bu prinsipə görə, həmin sistemdə yuxarı yer tutan mənbə növü özündən sonrakı mənbə növündən **yüksək hüquqi** qüvvəyə malikdir.

[1] Bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu (maddə 2) // http://www.e-qanun.az/framework/18303 (29.05. 2022-ci il).

İdman qanunvericilik sistemində **Azərbaycan Respublikasının Konstitusiyası** (1995-ci il) xüsusi əhəmiyyətə malikdir. Dövlətin əsas qanunu olan Konstitusiya idman hüququnun **başlıca mənbəyi** hesab olunur. Burada elə normalar nəzərdə tutulmuşdur ki, bu normalar idman hüququnun xüsusi prinsiplərini, məsələn, insan və vətəndaş hüquqları və azadlıqları (maddə 24), bərabərlik hüququ (maddə 25), mülkiyyət hüququ (maddə 29), əqli mülkiyyət hüququ (maddə 30), əmək hüququ (maddə 35), sosial təminat hüququ (maddə 38), sağlamlığın qorunması hüququ (maddə 41), təhsil hüququ (maddə 42), birləşmək hüququ (maddə 58), azad sahibkarlıq hüququ (maddə 59), təqsirsizlik prezumpsiyası (maddə 63), özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ (maddə 68) və s, müddəaları ifadə edir.[1]

İdman hüququnun mənbələri sırasında **sistemləşdirilmiş qanunlar** mühüm yer tutur. Sistemləşdirilmiş qanunlar (sistem halına salınmış qanunlar) dedikdə məcəllə formasında qəbul olunan qanunlar başa düşülür: məsələn, Mülki Məcəllə, Əmək Məcəlləsi, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, Su Məcəlləsi, Torpaq Məcəlləsi, Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və s. Yuxarıda adıçəkilən məcəllələrdə idman hüququnun vacib mənbəyi kimi, **idman-hüquq münasibətlərinin tənzimlənməsi** işində xüsusi əhəmiyyət kəsb edən zəruri hüquq normaları təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi (1999-cu il) haqqında, xüsusi olaraq, ayrıca danışmaq lazımdır. Təsadüfi deyildir ki, hüquq ədəbiyyatı səhifələrində Mülki Məcəllə ali iqtisadi qanun və ölkənin ikinci – iqtisadi konstitusiyası kimi xarakterizə olunur.[2] Burada **idman sferasında münasibətləri** (sahibkarlıq fəaliyyəti, müqavilə azadlığı, müqavilə öhdəliyi, əşya hüququ, şəxsi qeyri-əmlak hüququ, əqli mülkiyyət hüqu-

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.

[2] Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. Bakı, 2018, s. 218.

qu, sığorta hüququ, beynəlxalq xüsusi hüquq, mərc oyunlarının keçirilməsi və s. məsələləri), xüsusən də, fiziki və hüquqi şəxslərə dair münasibətləri tənzimləyən **çoxsaylı hüquq normaları** nəzərdə tutulmuşdur.

Ölkədə qəbul edimiş **digər qanunlar** da aidiyyəti üzrə idman hüququnun mənbəyi hesab edilir. Məsələn, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il), "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2016-cı il), "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu (2007-ci il), "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il), "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1992-ci il), "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu (1995-ci il), "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu (2000-ci il), "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1993-cü il), "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu (2004-cü il), "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il), "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu (1993-cü il), "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu (2015-ci il) və s.[1]

İdman sferasında münasibətlərin nizama salınmasında müvafiq **normativ hüquqi aktlar** da idman hüququnun əsas mənbə növü kimi vacib rol oynayır. Söhbət idman münasibətləri sahəsində qəbul olunan normativ hüquqi aktlardan gedir. Səlahiyyətli dövlət orqanları həmin sahədə, demək olar ki, çoxsaylı aktlar qəbul etmişdir. Bu aktlar ayrı-ayrı idman məsələlərinin hüquqi tənzimlənməsinə həsr olunmuşdur. Belə **qanunqüvvəli aktlara** aiddir: 1) Azərbaycan Respublikası Prezidentinin fərmanları; 2) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları; 3) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və s. Göstərilən aktlar əgər idman fəaliyyəti sferasında bu

[1] Bu qanunların mətni barədə bax: https://e-qanun.az/framework/8053 (29.05.2022-ci il),

və ya digər məsələnin tənzimlənməsinə həsr olunarsa, onlar idman hüququnun mənbəyi qismində çıxış edir.

Qeyd etmək lazımdır ki, idman münasibətlərinin nizama salınmasında **beynəlxalq idman müqavilələri** mühüm əhəmiyyətə malikdir. Konstitusiyanın 148-ci maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Buna görə də, beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ibarət olduğu və bölündüyü ayrı-ayrı hüquq sahələrinin, o cümlədən idman hüququnun mənbəyi sayılır. **Beynəlxalq idman müqaviləsi** dedikdə dövlətlər və (və ya) beynəlxalq idman hüququnun digər subyektləri arasında yazılı formada bağlanan saziş başa düşülür. Onun adı və forması müxtəlif ola bilər: müqavilə, saziş, konvensiya, pakt, nizamnamə, statut, protokol, məktublarla və ya notalarla mübadilə və s.

Beynəlxalq idman müqavilələri subyekt tərkibi kimi əlamət üzrə ikitərəfli və ya çoxtərəfli əsaslarla bağlanır. **İkitərəfli beynəlxalq idman müqaviləsi** iki subyekt arasında bağlanır. Bu növ beynəlxalq idman müqavilələrinin predmetinə bədən tərbiyəsi, idman və elmi-texniki əməkdaşlıq, idman sahəsində texniki yardım göstərilməsi, idman fəaliyyəti haqqında, ikiqat verginin tutulmaması barədə və s. məsələlər aiddir. Azərbaycan Respublikası tərəfindən idman fəaliyyəti praktikasında bağlanılmış ikitərəfli idman müqavilələrinə nümunə kimi **aşağıdakıları** göstərə bilərik:

- "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında idman və cənglər sahələrində əməkdaşlıq haqqında" Saziş (2010-cu il);
- "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İspaniya Krallığının Ali İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair" Memorandum (2011-ci il);
- "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası

Koordinasiya Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu (2019-cu il);
- "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qırğız Respublikası Hökuməti yanında Gənclər, Bədən Tərbiyəsi və İdman Məsələləri üzrə Dövlət Agentliyi arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında" Saziş (2020-ci il);
- "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında" Saziş (2020-ci il);
- "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında" Saziş (2020-ci il) və s.


Çoxtərəfli beynəlxalq idman müqaviləsi isə, iki deyil, bir neçə subyekt arasında bağlanır. Bu növ beynəlxalq idman müqavilələri idman fəaliyyətinin reallaşdırılması, oyunların təşkili, yarışların keçirilməsi, idman tədbirləri zamanı təhlükəsizliyin təmin edilməsi və digər istiqamətləri əhatə edir; onlar həm universal, həm də regional xarakterli ola bilər. **Aşağıda göstərilən** çoxtərəfli beynəlxalq müqavilələr idman münasibətlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayır: Tariflər və Ticarət üzrə Baş Saziş (TTBS, yəni QATT-1994), Xidmətlərlə Ticarət üzrə Baş Saziş (XTBS, yəni QATS-1994), Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş (TRİPS), İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş (TRİMS),[1] İdmanda aparteid əleyhinə Beynəlxalq Konvensiya (Nyu-York,1986-cı il) və s. Bu sıraya Ümumdünya Antidopinq Məcəlləsi (2003-cü il), Beynəlxalq İdman Arbitraj Məcəlləsi (1994-cü il), Avropa Şurası İdman Etika Məcəlləsi (1985-ci il) və s. aktlar da aiddir.

[1] Göstərilən beynəlxalq hüquqi aktlar barədə ətraflı bax: Əliyev E.Ə.Beynəlxalq iqtisadi hüquq.Dərslik.Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş).Bakı,"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.246-511.

Eyni zamanda, qeyd etməliyik ki, Konstitusiya **beynəlxalq müqavilələri** təkcə Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz təkrib hissəsi hesab etmir; Konstitusiya həm də onları **üstün hüquqi qüvvə** ilə təmin edir. Belə ki, Konstitusiyanın 151-ci maddəsinə görə, əgər Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

Azərbaycan Respublikasında idman sferasında formalaşmış **hüquqi adətlər** və idman sahəsində münasibətlərin tənzimlənməsi kontekstində **Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin** müvafiq normativ əhəmiyyətə malik olan qərarları da idman hüququnun mənbəyi kimi çıxış edir.

XIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM



XIV FƏSİL.
İDMAN SFERASINDA İDARƏETMƏNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

14.1. İdman fəaliyyətini dövlət tənzimləmə hüququ

İdman qanunvericilik aktlarında göstərildiyi kimi, bədən tərbiyəsi və idman işi sahəsində **dövlət siyasəti** və **tənzimlənməsi** həyata keçirilir.[1] Belə fəaliyyətin həyata keçirilməsində **əsas məqsədlərdən** biri də Azərbaycan Respublikasında vətəndaşların idmanla məşğul olmaq hüququnu, onların fiziki hazırlığını, sağlamlığını, sosial yönümlü mənafeyini və təhlükəsizliyini **təmin etməkdən** ibarətdir.

Qeyd etməliyik ki, müstəqil Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra, Konstitusiyada təsbit olunduğu kimi (maddə 15), sosial-iqtisadi inkişafın **bazar münasibətləri** və **azad sahibkarlıq** yolunu seçmişdir.[2] Ölkədə idman fəaliyyəti də məhz bu istiqamətdə həyata keçirilir.

Bazar iqtisadiyyatı şəraitində idman fəaliyyətinin əsas və başlıca tənzimləyicisi **idman subyektləri** hesab edilir. Lakin, buna baxmayaraq, dövlət idman münasibətlərinin nizama salınmasında müəyyən **aparıcı rol** oynayır. Belə ki, dövlət tənzimetmə formasında sosial yönümlü inkişafa, o cümlədən onun komponentlərindən biri olan **idman fəaliyyətinə** təsir göstərir. Söhbət idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsindən gedir. Təbii ki, idman sferasında fəaliyyətin dövlət tənzimlənməsi ilə bağlı müəyyən növ **ictimai münasibətlər** əmələ gəlir ki, həmin münasibətlər müvafiq **inzibati-idman hüquq normaları** vasitəsilə nizamlanır. Məhz həmin normaların sistemi idman fəaliyyətinin dövlət tənzimlənməsi hüququ adlanır.

---

[1] Bax: "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanunu (maddə 3) // http://www.e-qanun.az/framework/18303 (30.05. 2022-ci il).

[2] Ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.

İdman fəaliyyətini dövlət tənzimləmə hüququ dedikdə dövlət tərəfindən tənzimetmə formasında həyata keçirilən fəaliyyət (dövlətin tənzimetmə fəaliyyəti) ilə bağlı yaranan ictimai münasibətləri nizama salan inzibati-idman hüquq normalarının məcmusu başa düşülür. Bu o deməkdir ki, əgər **dövlət** idman işi sahəsində **tənzimetmə fəaliyyətini** həyata keçirərsə, belə fəaliyyəti nizama salan müvafiq hüquq normalarının sistemi idman fəaliyyətini dövlət tənzimləmə hüququ sayılır.

İdman fəaliyyətini dövlət tənzimləmə hüququnun özünəməxsus **nizamasalma predmeti** vardır. Məlum məsələdir ki, idman fəaliyyətini dövlət tənzimləmə hüququnun qaydaya saldığı (nizamladığı) ictimai münasibətlər onun nizamasalma predmetini təşkil edir.

İdman fəaliyyətini dövlət tənzimləmə hüququna verdiyimiz elmi (doktrinal) anlayışdan bəlli olur ki, bu **hüquqi qurum** idman işi sahəsində dövlət tənzimetmə fəaliyyəti ilə bağlı yaranan ictimai münasibətləri qaydaya salır. İdman fəaliyyətini dövlət tənzimləmə hüququnun da nizamasalma predmeti məhz həmin münasibətlərdən ibarətdir. Söhbət idman fəaliyyətinin dövlət tənzimlənməsi münasibətlərindən gedir ki, bu münasibətlər idman hüququnun nizamasalma predmetinə daxil olan **ictimai münasibətlərin** bir növüdür. İdman fəaliyyətinin dövlət tənzimlənməsi münasibətləri isə idman hüququnun daxilində ayrılmış müvafiq idman-hüquq normalar qrupu vasitəsilə nizama salınır. Hüquq nəzəriyyəsinə görə, hüquq sahəsi daxilində ayrılmış **konkret hüquq normaları** qrupuna hüquq institutu deyilir.[1] Şübhəsiz ki, idman hüququnun tərkibində idman fəaliyyətinin dövlət tənzimlənməsi münasibətlərini qaydaya (nizama) salan hüquq normaları qrupu mövcuddur. Deməli, idman fəaliyyətini dövlət tənzimləmə hüququ idman hüququnun tərkibinə **"hüquq institutu" statusu** ilə daxildir.

Eyni zamanda, qeyd etməliyik ki, istənilən hüquq sahəsinin nizamasalma predmetini sistemləşdirilmiş **həmcins ictimai mü-**

[1] Hüquq ensiklopedik lüğəti / Baş redaktor - M.F.Məlikova. Bakı, 1991, s.505.

nasibətlər təşkil edir. Həmcins ictimai münasibətlər isə müxtəlif növlərə bölünür ki, onlar özünəxas xüsusiyyətlərlə (əlamətlərlə) xarakterizə olunur. Odur ki, ictimai münasibət növləri, o cümlədən idman münasibətləri **müstəqil surətdə nizamlanmağı** tələb edir; nizamlanma isə hüquq institutları vasitəsi ilə həyata keçirilir. İdman işi sahəsində fəaliyyətin tənzimlənməsi konsepsiyasının tətbiqi onun effektivliyinin yüksəldilməsinə xidmət edir. Nəzərə almaq lazımdır ki, idman tənzimlənməsi – müvafiq **idman qayda** və **normativ tələblərin** müəyyən edilməsi üzrə fəaliyyətdirsə, idman işi isə bu qaydalara riayət olunmasının **təmin edilməsi üzrə fəaliyyətdir**. İdman işinin mahiyyəti, məzmunu və strukturu ilə bağlı problem təkcə **konseptual-nəzəri** deyil, həm də **tətbiqi-praktiki** əhəmiyyətə malikdir.

Hər bir hüquq institutu özünəməxsus nizamasalma predmetinə malikdir. Bu, hüquq sahəsi daxilində hər hansı hüquq institutunun ayrılmasını **şərtləndirən** əsas və başlıca **meyardır**. İdman fəaliyyətini dövlət tənzimləmə hüquq institutunun da **özünəməxsus** nizamasalma predmeti vardır. Bu hüquq institutunun nizamasalma predmeti, qeyd etdiyimiz kimi, idman fəaliyyətinin dövlət tənzimlənməsi münasibətlərindən ibarətdir. Bu münasibətlər, göründüyü kimi, idman işi sahəsində fəaliyyətin **dövlət tənzimlənməsi** ilə bağlı əmələ gəlir. Əgər idman fəaliyyətinin dövlət tənzimlənməsi həyata keçirilməzsə, təbii ki, belə münasibətlər nə əmələ gələ, nə də mövcud ola bilər.

İdman fəaliyyətinin dövlət tənzimlənməsi dedikdə səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən qanunvericilik, icra və nəzarət xarakterli elə tədbirlər kompleksi başa düşülür ki, bu tədbirlər idman işi sahəsində mövcud sosial-iqtisadi sistemin dəyişən bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması və həmin sistemin sabitliyinin sahibkarlıq fəaliyyəti kontekstində təmin edilməsi məqsədinə xidmət edir. **Səlahiyyətli dövlət orqanları** dedikdə qanunvericilik, icra və məhkəmə (nəzarət) orqanları başa düşülür. Bu orqanlar idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirmək üçün normativ hüquqi aktlar əsasında kompleks tədbirlər görürlər. Mə-

sələn, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, Mərkəzi Bank və s. qurumlar bu kimi orqanlara misal ola bilər.

Əksər idman mütəxəssisləri və alimlər belə hesab edir ki, idman fəaliyyətinin dövlət **tənzimlənməsi** dövlətin milli və beynəlxalq idman sferasına (məsələn, yarışların təşkili, həyata keçirilməsi və s. istiqamətlərdə) idarəetmə formasında **məqsədyönlü təsiretmə** prosesidir; koordinasiya (əlaqələndirmə, uyğunlaşdırma) xarakterində olan bu proses müvafiq **mexanizmlər** (tənzimləyici funksiya, qoruyucu fuksiya və s.) vasitəsilə həyata keçirilir ki, məqsəd **ümumi idman sisteminin** təkmilləşdirilməsinə və proporsional inkişafına nail olmaqdan ibarətdir.[1]

İdman fəaliyyətinin dövlət tənzimlənməsi, əlbəttə, müəyyən **məqsəd** güdür. İdman sferasında sosial-iqtisadi sabitliyə nail olmaq, milli rəqabət üstünlüyünü və idman təhlükəsizliyini təmin etmək, idman sahəsində diskriminasiya və zorakılıq hallarının qarşısını almaq, beynəlxalq idman fəaliyyətinin inkişafına dəstək vermək və s. hədəflər idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsinin **prioritet** məqsədləri sayılır. Odur ki, idman sferasında dövlət tənzimlənməsinin **obyekti** kimi idman fəaliyyəti çıxış edir.

İdman fəaliyyətinin dövlət tənzimlənməsinin **subyektinə** gəldikdə, qeyd etməliyik ki, subyekt qismində **dövlət** çıxış edir. Düzdür, idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsini bilavasitə dövlətin özü həyata keçirmir. Belə ki, bu istiqamətdə dövlətin ayrı-ayrı **səlahiyyətli orqanları** fəaliyyət göstərir. Məhz səlahiyyətli dövlət orqanları vasitəsi ilə idman fəaliyyətinin dövlət tənzimlənməsi həyata keçirilir. Məsələn,

[1] Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.66-67; Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. – Москва: Проспект, 2021, с.29-33 və b.

Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, Mərkəzi Bank və s. dövlət orqan və qurumları, eləcə də bələdiyyələr idman fəaliyyətinin dövlət tənzimlənməsinin subyektləridir.

Lakin, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında təkmilləşdirilmiş "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il), "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2016-cı il), "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu (2007-ci il) və s. normativ hüquqi aktların qəbul edilməsi ilə idman sferasının tənzimlənməsi və müvafiq idman hüquqtətbiqetmə fəaliyyət sahəsi keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir.

Normativ nöqteyi-nəzərdən, belə səviyyə idman-hüquq münasibətləri iştirakçılarının statusunu müəyyənləşdirən qanun-qüvvəli normativ hüquqi aktların müddəalarının əhəmiyyətli dərəcədə kodifikasiyalaşdırılması (məcəllələşdirilməsi), həmçinin idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsi mexanizminin yeni metod və üsullarının beynəlxalq standartlara uyğun genişmiqyaslı tətbiqinin təzahürü kimi xarakterizə oluna bilər.

14.2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi idman fəaliyyətini dövlət tənzimləmə hüququnun əsas subyekti kimi

İdman fəaliyyətinin dövlət tənzimlənməsinin subyekti qismində Gənclər və İdman Nazirliyinin adı, xüsusilə, çəkilməlidir. Belə ki, yeni idman qanunvericiliyinə görə, ölkədə gənclər, bədən tərbiyəsi və idman sahələrində (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini mərkəzi icra hakimiyyəti orqanı kimi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra – Nazirlik və ya GİN) həyata keçirir. Təqdirəlayiq haldır ki, Azərbaycan Respub-

likası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə **"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"** təsdiq edilmişdir.[1]

Adıçəkilən Nazirlik öz **fəaliyyətində** Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni **rəhbər tutur** (Əsasnamə, maddə 2).

Həmçinin Azərbaycan Respublikası Prezidentinin yuxarıda adını çəkdiyimiz Fərmanı ilə (18.04.2006-cı il tarixli 392 nömrəli) Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin **strukturu** təsdiq olunmuşdur. Bu struktur tərkibə Nazirliyin **aparatı (şöbələr və sektorlar)** və **digər qurumlar** – Bakı, Gəncə, Sumqayıt şəhər gənclər və idman baş idarələri, rayon (şəhər) gənclər və idman idarələri daxildir. Nazirliyin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi onun **vahid idarəetmə sistemini** təşkil edir. GİN məhz öz fəaliyyətini, yəni ona həvalə edilmiş vəzifələri bilavasitə özü və ya tabeliyində olan idman orqanları, idarə və təşkilatlar vasitəsi ilə həyata keçirir. Bu zaman GİN öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatlan ilə **qarşılıqlı əlaqədə** fəaliyyət göstərir (Əsasnamə, maddə 3).

Nazirliyin **əsas funksiyaları**, yəni **fəaliyyət istiqamətləri** aşağıda göstərilən kompleks tədbirlərdən ibarətdir:

- müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

[1] Bax: https://e-qanun.az/framework/11609 (31.05.2022-ci il).

– gənc nəslin yaradıcılıq potensialını, qüvvəsini, bilik və bacarığını milli dövlət quruculuğuna, iqtisadi və sosial inkişaf proqramlarının həyata keçirilməsinə yönəldir;
– gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsini həyata keçirir;
– qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.[1]

Göstərilən funksiyalara əsasən, Nazirlik idman qanunvericiliyinə uyğun olaraq, aşağıdakı **vəzifələri** yerinə yetirir:

– müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirmək;
– dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;
– icra hakimiyyəti orqanlarının və qeyri-hökumət təşkilatlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;
– Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;
– müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada dövlət nəzarətini həyata keçirmək;
– uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak etmək;
– qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin həyata keçirilməsini, habelə elmi tədqiqat işlərinin aparılmasını və onların nəticələrinin təcrübədə tətbiq edilməsini təmin etmək;
– müvafiq sahə üzrə vahid informasiya sistemini yaratmaq;
– müvafiq sahəni işıqlandıran televiziya və radio verilişlərinin layihələrini hazırlayıb həyata keçirmək;

[1] Ətraflı bax: "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında" Əsasnamə (maddə 7).

– bədən tərbiyəsi və idman mütəxəssislərinə olan tələbatı müəyyən etmək, müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək və mütəxəssislərin beynəlxalq təcrübəyə yiyələnməsinə şərait yaratmaq;
– müasir idarəetmənin və bazar iqtisadiyyatının əsaslarının gənclər tərəfindən öyrənilməsində, istehsalın səmərəli təşkili, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, o cümlədən fermer təsərrüfatlarının yaradılmasında müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə metodik məsləhətlərin verilməsi işini təşkil etmək;
– gənclərin hüquqlarının qorunması və sosial müdafiəsi sahəsində aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə iş aparmaq, gənclərin işlə təmin olunmasına şərait yaratmaq;
– ölkədə gəncləri narkomaniya, cinayətkarlıq və digər zərərli vərdişlərdən uzaqlaşdıraraq, sağlam həyat tərzinə uyğun yetişdirmək üçün öz səlahiyyətləri daxilində profilaktik tədbirlər görmək, bu məqsədlə aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları tərəfindən keçirilən tədbirlərdə yaxından iştirak etmək;
– şəxsiyyətin harmonik, hərtərəfli inkişafı, gənclərin əməyə, Vətəni müdafiəyə hazırlanması, onların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkil edilməsi sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılmasına dair tədbirlər görmək;
– ölkədə bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini, o cümlədən kütləvi informasiya vasitələrində bədən tərbiyəsi və idmanın sosial əhəmiyyətinin, əhalinin sağlamlığının möhkəmləndirilməsi və fiziki inkişafında, sağlam həyat tərzinin formalaşdırılmasındakı rolunun açıqlanmasını təmin etmək, təbliğinin forma və metodlarını müəyyən etmək;

– öz səlahiyyətləri daxilində müxtəlif idman növləri üzrə proqram və normativləri təsdiq etmək;
– ölkədə uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbləri şəbəkəsini yaratmaq, fəaliyyətlərini istiqamətləndirmək, koordinasiya etmək, idman məktəbləri üçün nümunəvi tədris proqram və planlarını hazırlamaq və təsdiq etmək;
– qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada hüquqi və fiziki şəxslərə məxsus olan yarış məqsədli, xüsusi idman təyinatlı mexaniki nəqliyyat vasitələrinin dövlət qeydiyyatını və onların dövlət texniki baxışını həyata keçirmək;
– respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin Vahid təqvim planını qanunvericiliyə uyğun olaraq təsdiq etmək;
– idman yarışlarının qaydalarını, ənənəvi və yeni idman növləri üzrə işin təşkilini və aparılmasını tənzimləyən metodik, normativ sənədləri təsdiq etmək;
– idman növləri üzrə milli yığma komandaların maddi-texniki təchizatını təmin etmək, milli yığma komandalara namizəd idmançıların siyahılarını, milli yığma komandaların tərkibini və məşqçilərini təsdiq etmək, hazırlığını təşkil etmək və bu komandaların beynəlxalq yarışlarda, dünya və Avropa çempionatları və birinciliklərində, Milli Olimpiya Komitəsi ilə birlikdə Olimpiya Oyunlarında iştirakını təmin etmək, aidiyyəti icra hakimiyyəti orqanları, hüquqi şəxslər, habelə qeyri-hökumət təşkilatları, o cümlədən idman federasiyaları ilə birlikdə ehtiyat qüvvələrinin hazırlığı üzrə iş aparmaq, ölkədə bütün idman məktəbləri və Olimpiya hazırlığı mərkəzləri şəbəkəsinin inkişafını əlaqələndirərək onlara metodik tövsiyələr vermək;
– milli yığma komandaların tərkibinə daxil edilmiş idmançıların bir idman təşkilatından (idman klubundan və digər idman yönümlü qurumdan) digərinə, habelə xarici

idman klublarına keçməsinə rəsmi razılıq, milli yığma komandaların üzvü olan idmançılarla bağlanan müqavilələrə və idmançıların bir idman təşkilatından digər idman təşkilatına keçməsi qaydalarına razılıq vermək;
- milli yığma komandaların tibbi-bioloji və elmi-metodiki təminatı üzrə kompleks tədbirlərin hazırlanmasına, habelə bütün idman növləri üzrə elmi qrupların yaradılmasına, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;
- idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları, idman hakimlərinin təsnifat dərəcələrinin tələb və normativlərini qanunvericiliyə uyğun olaraq təsdiq etmək;
- ölkədə idman sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını, o cümlədən federasiyaları və digər qurumlan öz səlahiyyətləri daxilində akkreditə etmək;
- idman mərc oyunlarını həyata keçirən hüquqi şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditə etmək;
- idman yarışlarının manipulyasiyası ilə mübarizə tədbirləri həyata keçirmək;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək və s. (Əsasnamə, maddə 8).

GİN idman işi sahəsində öz funksiyalarını və qanunvericiliklə həvalə edilmiş vəzifələri yerinə yetirmək üçün aşağıda göstərilən **hüquqlara** malikdir:[1]
- müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;
- müvafiq sahədə dövlət siyasətinin əsas istiqamətlərinə dair təkliflər vermək;

[1] Ətraflı bax: "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında" Əsasnamə (maddə 9).

– "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, milli antidopinq qurumu yaradır və onun müşahidə şurasının tərkibini müəyyən edir, eləcə də terapevtik istifadəyə icazə, intizam və apelyasiya qurumları yaradır və onların müvafiq əsasnamələrini təsdiq edir;
– qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;
– beynəlxalq yarışlarda Azərbaycan Respublikasını rəsmi təmsil etmək, həmin məqsədlə bədən tərbiyəsi-idman təşkilatlarını müəyyən etmək;
– bədən tərbiyəsi və idmanın inkişafının əsas istiqamətlərinin kompleks təhlilini və proqnozlaşdırılmasını həyata keçirmək;
– fəxri idman adlarmı vermək, bədən tərbiyəsi və idman sahəsindəki işçiləri, fəalları, habelə idman klubları və təşkilatlarının nümayəndələrini mükafatlandırmaq, "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının, orden və medalların verilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə təqdimat vermək;
– fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək və s.

GİN öz **səlahiyyətləri daxilində** idman işi üzrə Azərbaycan Respublikasının ərazisində qüvvədə olan, bütün dövlət orqanları (qurumları), təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və idman birlikləri, habelə idman sferasında vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan **normativ aktlar** qəbul edir.

İdman və Gənclər Nazirliyinin **idarə edilməsinə** və **fəaliyyətinə** Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzi-

fəyə təyin və vəzifədən azad edilən **nazir** rəhbərlik edir. Nazirliyin nəzdində onun fəaliyyət istiqamətləri üzrə **ictimai şuralar, mərkəzlər** və **komissiyalar** yaradıla bilər. Həmin ictimai şuraların, mərkəzlərin və komissiyaların **əsasnamələri** nazir tərəfindən təsdiq edilir.

Nazirlik **müstəqil balansa**, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir. GİN **hüquqi şəxs statuslu** büdcə təşkilatıdır.

Beləliklə, idman fəaliyyətinin dövlət tənzimlənməsi işində GİN-in rolu və əhəmiyyəti olduqca aktualdır, vacibdir.[1]

Qeyd etməliyik ki, idman fəaliyyəti yaşadığımız həyatda və cəmiyyətdə həyata keçirilən fəaliyyət növlərindən biridir. Belə ki, idman fəaliyyəti fiziki və hüquqi şəxslərin idman-hüquq münasibətlərində iştiraketmə forması olub, bu forma vasitəsi ilə onlar öz ehtiyaclarını təmin etmək üçün müəyyən imkanlar əldə edirlər. Məhz idman fəaliyyətinin hüquqi nizamlanması nəticəsində idman işini **dövlət tənzimetmə-hüquq münasibəti** əmələ gəlir ki, bu münasibətin potensial (mümkün) iştirakçıları idman fəaliyyətini dövlət tənzimetmə-hüquq münasibətlərinin subyektləri adlanır. Həmin hüquq münasibətində iki tərəf iştirak edir: 1) dövlət (dövlətin səlahiyyətli idman orqan və təşkilatları); 2) idman fəaliyyət subyektləri (fiziki və hüquqi şəxslər). Odur ki, idman fəaliyyətini dövlət tənzimetmə-hüquq münasibətlərinin **subyektləri** dövlətdən (səlahiyyətli dövlət idman orqan və təşkilatları) və idman fəaliyyət subyektlərindən (fiziki və hüquqi şəxslər) ibarətdir; özü də idman fəaliyyətini dövlət tənzimetmə-hüquq münasibəti **hakimiyyət xarakterli** münasibətdir. Belə ki, bu münasibətin bir tərəfində hökmən hakimiyyət səlahiyyətinə malik olan dövlət (səlahiyyətli idman orqanları) çıxış edir. Bu səbəbdən də, idman fəaliyyətini

[1] İdman hüququnun subyektləri barədə ətraflı bax: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, s.71-134.

dövlət tənzimetmə-hüquq münasibəti hakimiyyət xarakterli münasibət **sayılır**.

Eyni zamanda, qeyd etməliyik ki, idman fəaliyyətini dövlət tənzimləmə hüququ **özünəxas prinsiplərə** malikdir. Məhz həmin prinsiplər əsasında idman fəaliyyətinin dövlət tənzimlənməsi həyata keçirilir. Bu prinsiplər sırasında, ilk növbədə, **aşağıdakıları** göstərə bilərik:

- bədən tərbiyəsi və idman hərəkatını idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi;
- vətəndaşların bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququnun təmin edilməsi və bu məqsədlə bərabər imkan və şəraitin yaradılması;
- əhalinin aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan təbəqələri arasında (çoxuşaqlı ailələrdən olan uşaqlar, valideyn himayəsindən məhrum olmuş uşaqlar, əlilliyi olan şəxslər) bədən tərbiyəsi və idmanın inkişafının vacibliyi;
- bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarının və bələdiyyələrin, bədən tərbiyəsi və idman yönümlü ictimai birliklərin qarşılıqlı fəaliyyəti;
- vətəndaşların müxtəlif yaş qruplarının həyat fəaliyyətinin bütün mərhələlərində bədən tərbiyəsinin fasiləsizliyi və ardıcıllığı;
- bədən tərbiyəsi və idman sahəsində ayrı-seçkiliyin və zorakılığın yolverilməzliyi;
- ölkə ərazisində əhalinin maraq göstərdiyi idman növlərinin, xüsusilə, milli və olimpiya oyunları proqramlarına daxil edilmiş idman növlərinin inkişafının və kütləviliyinin artırılmasının dəstəklənməsi;
- idman yarışlarının manipulyasiyasının yolverilməzliyi və s.[1]

[1] Göstərilən prinsiplər "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 30.06.2009-cu il tarixli 847-IIIQ nömrəli Qanununda (maddə 3) təsbit edimişdir // http://www.e-qanun.az/framework/18303 (03.06. 2022-ci il).

Həmçinin idman fəaliyyətini dövlət tənzimləmə hüququna aidiyyəti üzrə **digər prinsiplər** də məxsusdur. Bu kontekstdə aşağıdakı prinsipləri **fərqləndirmək** mümkündür:

- idman fəaliyyətinin dövlət tənzimlənməsinin məcburiliyi prinsipi;
- idman fəaliyyətinin dövlət tənzimlənməsinin müəyyən həddə həyata keçirilməsi prinsipi;
- idman fəaliyyətini dövlət tənzimetmə vasitələrinin müxtəlifliyi prinsipi;
- idman sferasında fəaliyyətin dövlət tənzimlənməsinin dövlətin idman sahəsində siyasətinin həyata keçirilməsinə yönəlməsi prinsipi;
- dövlətin tənzimetmə fəaliyyətinin idman ehtiyatlardan və müvafiq infrastrukturdan səmərəli istifadə olunması üçün həyata keçirilməsi prinsipi və s.

14.3. İdman fəaliyyətini dövlət tənzimləmə vasitələri və növləri

İdman fəaliyyətinin dövlət tənzimlənməsi nəyin köməyi ilə həyata keçirilirsə, o da, idman işi sahəsində fəaliyyətin **dövlət tənzimlənməsi vasitəsi** adlanır. Qeyd etməliyik ki, müasir dövrdə **universal** dövlət tənzimetmə vasitələrindən istifadə olunur. Universal dövlət tənzimetmə vasitələri isə bunlardan ibarətdir: 1) hüquqi tənzimetmə; 2) inzibati tənzimetmə; 3) iqtisadi tənzimetmə.

İdman işi sahəsində hüquqi tənzimetmə dedikdə dövlətin normativ hüquqi aktlar vasitəsilə idman fəaliyyəti subyektlərinin davranışını hüquqi cəhətdən nizama salması başa düşülür. Belə ki, dövlət tərəfindən idman fəaliyyəti subyektləri üçün müvafiq **"davranış" qaydaları** müəyyənləşdirilir. Məhz bu qaydalar vasitəsilə hüquqi tənzimetmə həyata keçirilir. "Davranış" qaydaları isə, müvafiq idman-hüquq normaları vasitəsi ilə müəyyən edilir. **İdman-hüquq normaları** idman fəaliyyəti subyektlərinin hüquq və vəzifələri, idman orqan və təşkilatlarının

səmərəli fəaliyyəti, idman qurumlarının başqa şəxslərlə münasibətləri, idman fəaliyyətinə nəzarəti, idman-əmək münasibətlərinin rəsmiləşdirilməsi, yarış prosedurları, idman fəaliyyəti ilə bağlı ödənişləri, tibbi-bioloji ekspertizanın həyata keçirilməsi, idman arbitraj prosedurları və digər münasibətlər barədə məsələləri tənzimləyir. Belə normalar zahirən öz rəsmi ifadəsini ayrı-ayrı idman qanunvericilik aktlarında tapır (söhbət idman hüququnun mənbələrindən gedir). Odur ki, hüquqi tənzimetmə həm də **qanunvericilik tənzimetməsi** adlanır; onlar, məzmunca, üst-üstə düşən eynimənalı (sinonim) anlayışlardır.

İdman işi sahəsində fəaliyyəti inzibati tənzimetmə isə, idarəetmə, nizamasalma, xüsusi icazələrin verilməsi, kontingentləşdirmə (kontingenti müəyyən etmə, yəni ixrac və ya idxal edilən idman mallarının normasını müəyyənləşdirmə), kvota (norma, həddi, hissə, faiz və ölçü), dövlət akkreditasiyası (tanınma) və digər inzibati tədbirlər vasitəsi ilə həyata keçirilir. **İnzibati tədbirlərin** köməyi ilə, eyni zamanda, idman yarışlarının keçirilməsi, audio-video yayım və reklam münasibətləri, idman mərc oyunları, idman mübahisələrinin həlli və idman fəaliyyətinin digər istiqamətləri üzərində dövlət nəzarəti həyata keçirilir. Söhbət **məcburetmə**, **icazəvermə** və **müəyyənetmə** kimi inzibati tədbirlərdən gedir. **İdman sferasında** inzibati tədbirlərin tətbiqi həm də idman tədbirlərində ictimai təhlükəsizliyin təmin olunması, ictimai asayişin qorunması, ətraf mühitin mühafizəsi, əhalinin sosial müdafiəsi və s. bu kimi məsələləri əhatə edir.

İdman işi sahəsində iqtisadi tənzimetmə vasitəsi dedikdə dövlət tərəfindən idman fəaliyyətinə iqtisadi komponentlər vasitəsilə təsir göstərilməsi başa düşülür. Belə təsiretmə vasitələri kimi məcmu şəklində aşağıdakı **iqtisadi mənbələrin** tənzimlənməsi nəzərdə tutulur:

- bədən tərbiyəsi və idman fəaliyyəti ilə bağlı dövlət büdcəsindən ayrılan, habelə bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsindən əldə olunan vəsaitlər;
- idman lotereyasının, idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər;

– fiziki və hüquqi şəxslərin ianələri hesabına formalaşan maliyyə resursları;
– dövlət investisiya proqramları çərçivəsində kapital qoyuluşları, yatırımlar;
– bədən tərbiyəsi və idmanın inkişafına investisiya yönəldən hüquqi və fiziki şəxslər üçün nəzərdə tutulan güzəştlər;
– idman sahəsində tətbiq edilən vergi güzəştləri və imtiyazlar;
– milli yığma komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı, texnikası və mallarına münasibətdə gömrük rüsumundan azadolmalar;
– qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən maliyyələşdirmə tədbirləri və s.

İdman fəaliyyətinin dövlət tənzimlənməsinin növləri ilə bağlı qeyd edə bilərik ki, belə tənzimlənmə bu və ya digər metod əsasında həyata keçirilir. Bundan asılı olaraq, idman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsinin **iki növü** fərqləndirilir: 1) birbaşa tənzimetmə; 2) dolayı tənzimetmə. Bunlar, eyni zamanda, idman fəaliyyətini dövlət tənzimetmə **metodları** sayılır.

İdman fəaliyyətini birbaşa tənzimetmə direktiv qaydalar vasitəsi ilə həyata keçirilir. Odur ki, birbaşa tənzimetmə növü həm də **direktiv tənzimetmə** metodu adlanır. **Direktiv qaydalar** isə müvafiq hüquqi aktlarda nəzərdə tutulur. Belə qaydalar idman işi sahəsində fəaliyyətin ayrı-ayrı aspektlərini tənzimləyir.

Birbaşa (direktiv) tənzimetmə aşağıdakı **istiqamətlərdə** həyata keçirilir: 1) idman fəaliyyətinə dair normativ tələblərin müəyyən edilməsi istiqamətində (məsələn, idman fəaliyyətinin ayrı-ayrı növlərinin həyata keçirilməsinə olan tələb, idman tənzimetmə obyektlərinin məcburi sertifikatlaşdırılması tələbi və s.); 2) idman fəaliyyəti həyata keçirilərkən bu və ya digər hərəkətlərin qadağan olunması istiqamətində (məsələn, inhi-

sarçılıq hərəkətinin, yaxud haqsız rəqabətin və ayrı-seçkiliyin qadağan olunması və s.); 3) idman orqanları tərəfindən sanksiya və məsuliyyət tədbirlərinin tətbiq edilməsi istiqamətində (idman qanunvericiliyini pozan şəxslər məsuliyyətə cəlb olunur və onlara müxtəlif növ sanksiyalar tətbiq edilir); 4) məqsədli proqramların və digər dövlət idman ehtiyaclarının təmin edilməsi üçün müqavilələrin bağlanması istiqamətində (məsələn, idman ehtiyaclarını təmin etmək üçün dövlət müəyyən növ məhsulların idxalını sifariş verir və həmin məhsulları müqavilə əsasında satın alır); 5) ayrı-ayrı idman məhsullarının idxalına və ya ixracına məhdudiyyətlər (qadağalar) qoyulması istiqamətində və s.

İdman işi sahəsində fəaliyyəti dolayı tənzimetmə iqtisadi vasitələrin köməyi ilə həyata keçirilir. Buna görə də, dolayı tənzimetmə növü, eyni zamanda, **iqtisadi tənzimetmə metodu** adlanır. Məhz iqtisadi vasitələrdən istifadə etməklə idman fəaliyyəti proseslərinin dövlət tənzimlənməsi həyata keçirilir. Bu kimi vasitələrə aid edilir: 1) vergitutma; 2) gömrük rüsumları; 3) vergi güzəştləri; 4) gömrük güzəştləri; 5) aksizlər və s.

Bazar iqtisadiyyatı şəraitində **üstünlük** idman işi sahəsində fəaliyyəti dolayı (iqtisadi) tənzimetmə metoduna verilir. Ona görə ki, bu metod direktiv deyil, iqtisadi vasitələrin tətbiqinə əsaslanır. **İdman sferasında** vergi və gömrük güzəştlərinin müəyyən olunması istiqamətində həyata keçirildiyinə görə, dolayı (iqtisadi) tənzimetmə metodunun tətbiqi, praktiki olaraq, **idman fəaliyyətinin** bu və ya digər aspektlərini **stimullaşdırır**. Lakin bu tənzimetmə metodu bütün hallarda idman fəaliyyətinin stimullaşdırılmasına yönəlməyə də bilər.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, idman fəaliyyətinin dövlət tənzimlənməsi bu və ya digər üsullar əsasında həyata keçirilir. **Üsullar** dedikdə istifadə olunan müxtəlif forma və alətlər başa düşülür. Deməli, **"idman fəaliyyətinin dövlət tənzimlənməsinin üsulları"** anlayışının məna yükü bu sahədə tətbiq olunan ayrı-ayrı forma və alətləri ehtiva edir.

İdman işi sahəsində fəaliyyətin dövlət tənzimlənməsi formalarından (üsullarından) biri **kvota** sayılır. Kvota norma, həddi, hissə, faiz və ölçü deməkdir (latınca "quota" – nə qədər).[1] Bu və ya digər idman mallarının göndərilməsinin (satılmasının) maksimum həcmini müəyyənləşdirən kvota idman təsərrüfatı və ayrı-ayrı sahələr üçün müxtəlif idman məhsul növləri üzrə ixrac və idxalı kəmiyyətcə xarakterizə edir. Onun **iki əsas növü** fərqləndirilir: 1) **ixracat kvotası** (xarici ölkəyə nə qədər və hansı həddə idman malları göndərmək, yəni ixrac etmək olar); 2) **idxalat kvotası** (xarici ölkədən nə qədər və hansı həddə idman malları gətirmək, yəni idxal etmək olar).

İdman fəaliyyətini dövlət tənzimetmə üsullarından digəri **limit** adlanır. Limit (fransızca "limite" – sərhəd, həddi) son həddi, dərəcə, norma deməkdir.[2] Limit **təyin etməklə** (norma və həddi qoymaqla) **idman sferasında** bu və ya digər məsələ **həll olunur**. Məsələn, ölkəyə gətirilən hər hansı idman mallarına limit qoyulur. Bu zaman müəyyən olunur ki, idman fəaliyyəti üçün zəruri olan mal-material və avadanlıqlar nə qədər və hansı həddə gətirilə bilər. Digər bir misalda, idman yarış təyinatlı nəqliyyat vasitələrinin istismarı zamanı ətraf mühitə atılan çirkləndirici maddələrə də limit qoyulur və s.

Norma müəyyən etmə – idman fəaliyyətinin dövlət tənzimlənməsinin üsullarından biridir. Məsələn, idman avadanlıqlarına münasibətdə amortizasiya norması müəyyən edilir ki, bu norma amortizasiya ayırmalarının nə qədər və hansı həddə olmasını bilməyə imkan verir. **Amortizasiya norması** faizlə ifadə olunur. Amortizasiya ayırmaları idman sferasında qoyulan əsas kapitalın (əsas fondların) dəyərinin köhnələn hissəsinin pul ilə ifadəsidir.

İqtisadi normativlər – idman fəaliyyətini dövlət tənzimetmə üsulları sırasına daxildir. İqtisadi normativlər dedikdə elə bir

---

[1] Bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.405.

[2] Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.463.

göstərici başa düşülür ki, bu göstərici idman sferasıda iqtisadi münasibətləri tənzimləmək üçün tətbiq olunan istehsal xərclərinə (məsrəflərinə) və nəticələrinə, onların bölgüsünə və istifadəsinə olan ictimai tələbləri ifadə edir. İqtisadi normativlərə **aşağıdakılar** aiddir: 1) topdansatış qiyməti; 2) ümumi gəlir və mənfəət bölgüsü; 3) istehsalın və əsaslı vəsait qoyuluşunun effektivliyi; 4) rentabellik; 5) amortizasiya ayırmaları və s. Bütün bu göstəricilər isə idman malların, avadanlıqlarının və idman yarış nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə bağlı münasibətlərin **tənzimlənməsində** əhəmiyyətli rol oynayır.

İdman fəaliyyətinin dövlət tənzimlənməsi həm də **iqtisadi stimullaşdırma** kimi üsulun köməyi ilə həyata keçirilir. İqtisadi stimullaşdırma elə bir vasitədir ki, idman sferasında bu vasitə sayəsində fiziki şəxslər **əmək fəaliyyətinə** cəlb olunur, onların əməyin nəticələrinə olan marağını və əmək təşəbbüskarlığını artırır. Fiziki şəxslərin idman sahəsində həyata keçirdikləri əmək fəaliyyətinin **əsasını** onların maddi və mənəvi tələbatlarının ödənilməsi, eləcə də fiziki şəxslərin maraq və mənafeləri təşkil edir.

İdman fəaliyyətinin dövlət tənzimlənməsində həmçinin **digər üsullardan** istifadə olunması da əhəmiyyətlidir: 1) idman sferasında reytinq dərəcəsini və dərəcə normativlərini müəyyənetmə; 2) idman ehtiyat qüvvələrini müəyyənetmə; 3) idman fəaliyyəti ilə bağlı qiymət və ya tarif əmsalı; 4) idman sahəsində qoyulan kapital və yaradılan fondların həcmi; 5) idman sferasında standartlaşdırma, proqnozlaşdırma, planlaşdırma, proqramlaşdırma və s.

Qeyd etməliyik ki, ölkədə idman fəaliyyətinə dövlət tərəfindən nəzarət edilir. Belə ki, idman subyektləri (fiziki və hüquqi şəxslər) idman fəaliyyətini həyata keçirərkən **normativ hüquqi aktların tələblərinə** əməl etməlidirlər. Səlahiyyətli dövlət idman orqan və qurumları da, həmçinin idman fəaliyyətinin tənzimlənməsi və onun idarə olunması zamanı belə vəzifə, yəni normativ hüquqi aktların tələblərinə **riayət etmək vəzifəsi** daşıyırlar. Normativ hüquqi aktların tələblərinə həm səlahiyyətli

dövlət idman orqan və qurumlarının, həm də idman fəaliyyəti subyektlərinin əməl etmələrinin yoxlanmasına **dövlət nəzarəti** deyilir.

Qeyd etmək lazımdır ki, **qanunvericilik aktlarında** dövlət özünün kompleks fəaliyyət infrastrukturunun həyata keçirilməsinə nəzarət etmək hüququnu təsbit etməklə, həm də **idman fəaliyyətini tənzimləyir**. Dövlət nəzarəti, ilk növbədə, idman fəaliyyətinin subyektləri (fiziki və hüquqi şəxslər) barədə həyata keçirilir. Belə ki, onların idman tədbir və prosedurlarını (rəsmiləşdirmə, müvafiq ödənişlər, akkreditasiya və s.) **həyata keçirmələrinə** dövlət tərəfindən nəzarət olunur. Dövlət nəzarəti həm də səlahiyyətli idman orqan və qurumları üzərində həyata keçirilir. Belə ki, dövlət özünün səlahiyyətli orqanlarının idman fəaliyyətini tənzimləməsinə və onu idarə etməsinə nəzarət edir.

Dövlət nəzarətini onun **səlahiyyətli orqanları** həyata keçirir. Məsələn, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi belə orqanlardan biridir. İdman fəaliyyətinə nəzarəti həyata keçirmək onun **əsas** və **başlıca funksiyası** hesab edilir. Ölkədə kütləvi və səmərəli idman fəaliyyətini, onun dayanıqlılığını təmin etmək, idman subyektlərinin hüquqlarını qorumaq və digər məsələlər sözügedən mərkəzi icra hakimiyyəti orqanının **əsas məqsədləri** kimi müəyyənləşdirilmişdir. Vahid siyasətin formalaşdırılmasında iştirak və bu siyasətin həyata keçirilməsinin təmin edilməsi və s. məsələlərin həlli həmin dövlət orqanının **əsas fəaliyyət istiqamətləri** sırasına daxildir.

İdman sferasında dövlət nəzarətinin həyata keçirilməsində **digər orqanlar** da iştirak edir. Məsələn, Maliyyə Nazirliyi büdcə nəzarətini (maliyyə nəzarətini), Dövlət Gömrük Komitəsi gömrük nəzarətini, Dövlət Vergi Xidməti vergi nəzarətini həyata keçirir və s. Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti fəaliyyət göstərir ki, onun əsas funksiyası idman-əmtəə bazarlarında rəqabət haqqında qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etməkdir.

Eyni zamanda, qeyd etməliyik ki, idman fəaliyyətinin **dövlət tərəfindən tənzimlənməsi** həm də idman işi sahəsində fəaliyyətin dövlət tərəfindən idarə olunmasıdır. Başqa sözlə, əgər tənzimlənmə həyata keçirilərsə, deməli, bu fəaliyyət **idarəetmə** vasitəsilə təmin edilir. İdarəetmə müəyyən fəaliyyət növüdür. **Dövlət idarəetməsi** isə idman işi sahəsində dövlət hakimiyyətinin həyata keçirilməsi üzrə mərkəzi icra hakimiyyəti orqanının GİN-in fəaliyyət növüdür. Bu o deməkdir ki, dövlət idarəetməsi dövlət **hakimiyyət xarakteri** daşıyan idarəetmənin xüsusi səlahiyyətli subyektlərinin təşkilatçılıq fəaliyyəti kimi başa düşülür və onun həyata keçirilməsi prosesində dövlət funksiyalarının yerinə yetirilməsi ilə **xarakterizə** olunur.

İdman işi sahəsində **dövlət idarəetmə sisteminin** təşkili, onun fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan, dəyişən və xitam olunan ictimai münasibətlər idman-hüquq normaları nəzərə alınmaqla, **inzibati hüquq normaları** vasitəsilə nizama salınır. Belə ki, inzibati hüquq normaları idman işi sahəsində idarəçilik, həm də tənzimetmə münasibətlərinin nizamlayıcısı kimi dövlət idarəetmə sistemində aşağıda göstərilən **vəzifə** və **funksiyaların** təmin olunmasında mühüm əhəmiyyət kəsb edir:

- dövlət idarəetmə orqanlarının (idman orqanlarının) təşkil edilmə qaydasını, onların səlahiyyətlərini və digər subyektlərlə (fiziki və hüquqi şəxslərlə) əlaqələrini tənzimləyir;
- dövlət qulluqçuları tərəfindən idman idarəetmə orqanlarında dövlət qulluğunun keçirilməsi qaydalarını tənzimləyir, onların hüquq və vəzifələrini, həmçinin dövlət idarəetmə sahəsində hüquqi vəziyyətini (statusunu) müəyyən edir;
- idman işi sahəsində dövlət idarəetməsinin həyata keçirilməsinin forma və metodlarını, eləcə də qanunçuluğun təmin edilməsinin üsullarını müəyyən edir;
- səlahiyyətli idman orqanlarının inzibati-yurisdiksiya fəaliyyətini və onun həyata keçirilməsi qaydalarını tənzimləyir və s.

İnzibati hüquq öz təyinatına görə **idarəetmə hüququ** olaraq, dövlət idarəçilik fəaliyyətinə (o cümlədən idman fəaliyyətinə) xas olan bütün **xüsusiyyətləri** özündə aydın surətdə əks etdirir. Belə ki, inzibati hüquq dövlət idman idarəetmə sahəsində müəyyən edilmiş davranış qaydalarını möhkəmləndirməklə, idarəetmə mahiyyətli ictimai münasibətlərə **hüquq münasibəti** xarakteri verir.


İdman fəaliyyətinin dövlət tənzimlənməsi sahəsində inzibati hüququn **məqsədləri** kimi aşağıdakıları göstərə bilərik:

- insan və vətəndaş hüquq və azadlıqlarının (insan haqlarının) təmin edilməsi;
- icra hakimiyyətinin demokratik təşkilinin təmin olunması;
- icra hakimiyyətinin səmərəli fəaliyyəti üçün zəruri şəraitin yaradılması;
- idman idarəetmə sahəsində idman-hüquq münasibəti subyektlərinin hüquq və vəzifələrinin sərbəst həyata keçirilməsi üçün lazımi şəraitin yaradılması;
- idman fəaliyyəti subyektlərinin inzibati özbaşınalıqdan, sui-istifadədən, diqqətsizlikdən, idman idarəetmə aparatının vəzifəli şəxslərinin mümkün ola bilən hüquqazidd əməllərindən mühafizəsinin təmin edilməsi və s.

Azərbaycan Respublikasında hüquq sisteminin ayrılmaz tərkib hissəsi olan və idarəetmə münasibətlərini nizama salan **inzibati hüquq** sahəsi milli hüquq sisteminin bütün struktur tərkib hissələri – konstitusiya hüququ, mülki hüquq, iqtisadi hüquq, idman hüququ, əmək hüququ, cinayət hüququ və digər hüquqi qurumlar ilə sıx surətdə bağlıdır və dialektik əlaqədədir.

Göründüyü kimi, idman işi sahəsində dövlət tənzimetmə fəaliyyətinin həyata keçirilməsində inzibati hüquq **aparıcı** və **əhəmiyyətli** rol oynayır.

XIV FƏSİL ÜZRƏ ƏYANİ SXEM



İXTİSARLAR

ABŞ	– Amerika Birləşmiş Ştatları
ADBTİA	– Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
AFFA	– Azərbaycan Futbol Federasiyaları Assosiasiyası
Aİ	– Avropa İttifaqı
AİFPF	– Avropa İdman və Fiziki Fəaliyyət Psixologiyası Federasiyası – FEPSAK
AİK	– Avropa İdman Konfransı
AOK	– Avropa Olimpiya Komitəsi
AR QK	– Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
AR QT	– Azərbaycan Respublikasının Qanunvericilik Toplusu
AŞ	– Avropa Şurası
AŞPA	– Avropa Şurası Parlament Assambleyası
ATƏT	– Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
BBF	– Beynəlxalq Badminton Federasiyası – İBF
BBBF	– Beynəlxalq Beysbol Federasiyası – İBBF
BƏİK	– Beynəlxalq Əmək İdman Komitəsi – KSİT
БƏТ	– Beynəlxalq Əmək Təşkilatı
BFAA	– Beynəlxalq Fiziki Təhsil üzrə Ali Məktəblər Assosiasiyası – AİESEP
BFF	– Beynəlxalq Filateliya Federasiyası
BFFA	– Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası – FİFA
BGF	– Beynəlxalq Gimnastika Federasiyası – FİJ
BGXA	– Beynəlxalq Gənc Xristianlar Assosiasiyası – MAMX
BHBF	– Beynəlxalq Həvəskar Basketbol Federasiyası – FİBA
BHF	– Beynəlxalq Həndbol Federasiyası – İQF
BHİŞ	– Beynəlxalq Hərbi İdman Şurası – SİZM
BİAA	– Beynəlxalq İdman Qurğuları və Asudə Vaxt üçün Məkan Assosiasiyası – İAKS
BİAM	– Beynəlxalq İdman Arbitraj Məhkəməsi – TAS

BİBKİ	– Bədən Tərbiyəsi və İdman üzrə Beynəlxalq Katolik İttifaq – MKSFS
BİF	– Beynəlxalq İdman Federasiyaları
BİFBA	– Beynəlxalq İdman Federasiyaları Baş Assosiasiyası – QAİSF
BİH	– Beynəlxalq idman hüququ
BİM	– Beynəlxalq idman münasibətləri
BİPA	– Beynəlxalq İdman Press Assosiasiyası – AİPS
BİPC	– Beynəlxalq İdman Psixologiyası Cəmiyyəti – İSSP
BİT	– Beynəlxalq idman təşkilatları – MSO
BİTF	– Beynəlxalq İdman Təbabəti Federasiyası – ФИМС
BİY	– Beynəlxalq İdman Yarışları
BMAT	– Beynəlxalq Mülki Aviasiya Təşkilatı – İKAO
BMT	– Birləşmiş Millətlər Təşkilatı
BOA	– Beynəlxalq Olimpiya Akademiyası – AİD
BOH	– Beynəlxalq Olimpiya Hərəkatı
BOK	– Beynəlxalq Olimpiya Komitəsi
BOTİA	– Beynəlxalq Olimpiya Tibb İşçiləri Assosiasiyası – İAOMO
BPH	– Beynəlxalq Paralimpiya Hərəkatı
BPK	– Beynəlxalq Paralimpiya Komitəsi
BTBF	– Bədən Tərbiyəsi üzrə Beynəlxalq Federasiya – FİEP
BTM	– UNCTAD ÜTT-nin Beynəlxalq Ticarət Mərkəzi
BTP	– Beynəlxalq Ticarət Palatası
BUİF	– Beynəlxalq Universitet İdmanı Federasiyası – FİSU
BÖOA	– Beynəlxalq Ömumdönya Oyunlar Assosiasiyası – IWGA
BVF	– Beynəlxalq Voleybol Federasiyası – FİVB
BVİ	– Beynəlxalq Velosipedçilər İttifaqı – USİ
BYİB	– Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – Ümumdünya Bankı
CM	– Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
CPM	– Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
DBİİ	– Dəmiryolçuların Beynəlxalq İdman İttifaqı – USİK

EKOSOS – BMT-nin İqtisadi və Sosial Şurası
ƏDV – Əlavə Dəyər Vergisi
ƏM – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
GİN – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
GM – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova
XTBS – Xidmətlərlə Ticarət üzrə Baş Saziş – QATS
İAM – İdman Arbitraj Məhkəməsi – TAS
İBİBŞ – İdman Elmi,Bədən Tərbiyəsi və İdman üzrə Beynəlxalq Şura – SİPSS
İXM – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
İİK – Avropa Şurasının İdmanın İnkişafı üzrə Komitəsi – CDDS
İİQ – İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu
İNKOTERMS –Ticarət terminlərinin təfsirinin Beynəlxalq Qaydaları
İPM – Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi
İSBAŞ – İdman Sferasında Beynəlxalq Arbitraj Şurası – CIAS
KİV – Kütləvi informasiya vasitələri
QİƏT – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı
MDB – Müstəqil Dövlətlər Birliyi
MFMM – Milli Futbol Məlumat Məntəqəsi
MİF – Milli İdman Federasiyaları
MM – Azərbaycan Respublikasının Mülki Məcəlləsi
MOK – Milli Olimpiya Komitəsi
MOKBA – Milli Olimpiya Komitələri Baş Assosiasiyası – QANOK
MPK – Milli Paralimpiya Komitəsi
MPM – Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi
NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti

OOTK	– Olimpiya Oyunlarının Təşkilat Komitələri – OKOİ
PFL	– Peşəkar Futbol Liqası
SM	– Azərbaycan Respublikasının Su Məcəlləsi
SSRİ	– Sovet Sosialist Respublikaları İttifaqı
TDT	– Türk Dövlətləri Təşkilatı
TRİMS	– İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş
TRİPS	– Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş
TTBS	– Tariflər və Ticarət üzrə Baş Saziş – QATT
UEFA	– Avropa Futbol Federasiyaları Assosiasiyası
UNESCO	– BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı
UNİDRUA	– Xüsusi hüququn unifikasiyası üzrə Beynəlxalq İnstitut
UNKTAD	– BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı
UNSİTRAL	– BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası
ÜADA	– Ümumdünya Antidopinq Agentliyi – WADA
ÜƏMT	– Ümumdünya Əqli Mülkiyyət Təşkilatı
ÜRÇ	– Ümumdünya Ralli Çempionatı
ÜST	– Ümumdünya Səhiyyə Təşkilatı
ÜTT	– Ümumdünya Ticarət Təşkilatı – WTO
ÜYAA	– Dünya Atletikası – WORLD ATHLETICS – IAAF
VM	– Azərbaycan Respublikasının Vergi Məcəlləsi
YHQ	– "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1) azərbaycan dilində

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti / Ağamusa Axundov. Bakı, "Lider nəşriyyat", 2004, 728 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 416 s.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı», 2012, 692 s.
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2015, 256 s.
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin kommentariyası. Yenidən işlənilmiş nəşr / Kollektiv müəlliflər. Məsul redaktor – A.M.Qasımov. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, 880 s.
6. Azərbaycan Respublikasının gənclər və idman qanunvericiliyi toplusu/C.K.Quliyev. Bakı, CBS mətbəəsi, 2013, 848 s.
7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimov, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi» nəşriyyatı, 2018, 232 s.
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 392 s.
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.
10. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: «Hüquq ədəbiyyatı», 2001, 880 s.
11. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı: Azərbaycan, 1996–2019.
12. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. I xüsusi buraxılış. Bakı, 2000, s.263-412.
13. Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti. Normativ aktlar toplusu / Buraxılışa məsul: Ə.H.Hüseynov. Bakı: «Digesta» nəşriyyatı, 2008, 392 s.
14. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, 848 s.

15. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi /Naşir – B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 472 s.
16. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Kol.müəlliflər / Layihənin rəhbəri: Ənnağı Hacıbəyli; Redaktor: İntiqam Əliyev. Bakı: «Patronat-S» şirkəti, 2003, 560 s.
17. Azərbaycan Respublikasının Su Məcəlləsi (1997-ci il) // www.e-qanun/az
18. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2008, 200 s.
19. Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2019, 442 s.
20. Abdullayev Abduləli; Nağıyev Fəxrəddin. İnzibati hüquq. Dərslik. Bakı: Qanun, 2008, 800 s.
21. Abdullayev F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. Bakı: «Zərdabi LTD» MMC, 2013, 664 s.
22. Abışov A.V., İsmayılov A,V., Nəcəfquliyev R.İ. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı: DİN Polis Akademiyası, 2012, 330 s.
23. Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı: «Hüquq Yayın Evi», 2021, 840 s.
24. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. Dərslik. I cild (III nəşr). Bakı: «Hüquq Yayın Evi», 2019, 944 s.; II cild, 2019, 736 s.; III cild, 2019, 1048 s.; IV cild, 2019, 708 s.
25. Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ. Dərs vəsaiti. Bakı: «Digesta» nəşriyyatı, 2006, 584 s.
26. Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayın Evi», 2018, 452 s.
27. Aslanov S. X. Sahibkarlıq hüququ. Bakı: «Digesta» nəşriyyatı, 2005, 496 s.
28. Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B», 2016,764 s.

29. Beynəlxalq arbitraj. Qanunvericilik və şərhlər / Tərtpibçi və redaktor: Habil İskəndərli. Bakı: «Nafta-Press», 2004, 555 s.
30. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, 752 s.; II cild, xüsusi hissə, 704 s.
31. Beynəlxalq hüquqi yardım və hüquqi münasibətlər: normativ sənədlər toplusu / Buraxılışa məsul: Ə.H.Hüseynov, B.C.Kərimov. Bakı: «Digesta», 2007, 592 s.
32. "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu (2000-ci il) – http://www.e-qanun.az/framework/509
33. Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər) / Nəşrə hazırlayan: Qabil Mehdiyev. Bakı,"Avropa" nəşriyyatı, 2008, 256 s.
34. "Dövlət rüsumu haqqında" Азярбайъан Республикасынын Гануну, 2001-ci il / www.e-qanun.
35. Dövlət vergi xidməti haqqında (Normativ hüquqi aktlar) / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2008, 96 s.
36. Dr.Mübariz Yolçiyev. Sığorta hüququnda sığortaçının varisliyə əsaslanan reqres hüququ (Türkiyə hüququ ilə müqayisəli olaraq). Bakı: «Adventa» MMC, 2013, 400 s.
37. Əqli mülkiyyət və idman / Kamran İmanov. Bakı, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2020, 16 s.
38. Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı: MHA nəşriyyatı, 2013, 36 s.
39. Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ: ümumi müddəalar. Bakı: "SkyE" nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, 300 s.
40. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, 690 s.
41. Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 s.

42. Əliyev E.Ə. Polis hüququ. Dərslik. Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 s.
43. Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı: Şirvannəşr, 2004, 208 s.
44. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «Nurlar» nəşriyyatı, 2019, 352 s.
45. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: «HAT» MMC, 2007, 488 s.
46. Əliyev M.N. Sosial təminat hüququ. Dərslik. Bakı: "Adiloğlu" nəşriyyatı, 2007, 464 s.
47. Əliyev S.O. Qanuni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qarşı törədilən cinayətlərin xüsusiyyətləri (elmi-nəzəri problemlər). Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2011, 216 s.
48. Əliyeva Ə.Ə. Gömrük hüququ. Dərs vəsaiti. Bakı: Qanun, 2016, 80 s.
49. Əliyeva R.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Dərs vəsaiti. Bakı: «Elm və Təhsil» nəşriyyatı, 2011, 432 s.
50. Fiziki tərbiyə / Müəlliflər: Sakit Əliyev, Nurəddin Hüseynov. Bakı, NİRAS, 2019, 108 s. (https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/fiziki-tarbiya.pdf).
51. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: XXI əsr – yeni nəşrlər evi, 2001, 55 s.
52. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1–46 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997-2013.
53. Heydər Əliyev və Azərbaycan idmanı. Sənədli publisistika / Ə.Qarayev, A.Əsgərov və b. Bakı,Turan Evi,2004,160 s.
54. Hüquq ensiklopedik lüğəti / Müəlliflər kollektivi. Baş redaktor – M.F.Məlikova. Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, 1991, 544 s.
55. Hüquq mühafizə orqanı əməkdaşının insan hüquqlarına dair məlumat kitabı / Fuad Ələsgərovun rəhbərliyi ilə. Bakı: NAT CO MMC, 2009, 564 s.
56. Hüquqi yardım barədə Minsk Konvensiyası. İnterpolun Nizamnaməsi / Buraxılışa məsul: Əfəndiyev E.M. Bakı: Hüquq ədəbiyyatı, 2000, 52 s.

57. “Hüquqi müstəvi” elmi-nəzəri, təcrübi jurnalı // Baş redaktor – E.Ə.Əliyev. Bakı, 2020-2022.
58. Xropanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Rus dilindən tərcümə / Tərcümə qrupunun rəhbəri və redaktoru – M.Dəmirov. Tərc.edən – H.Baratlı, İ.Əsədov. Bakı: «Sabah», 1995, 174 s.
59. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1–113 kitab. Bakı: Azərnəşr, 2003-2021.
60. İmanov K.S. “Əqli mülkiyyət: çıxış və prezentasiyalarda”. Toplu. Bakı, 2012, s. 4.
61. İnformasiya hüququ. Dərslik / Kollektiv müəlliflər: Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. Bakı: «Nurlar» nəşriyyatı, 2019, 448 s.
62. ”İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunu / Nəşrə məsul: Şahbaz Xuduoğlu. Bakı: Qanun, 2006, 44 s.
63. İzahlı idman terminləri / Tərtib edən: S.S. Hüseynov. Bakı, ”Yazıçı” nəşriyyatı, 2009, 216 s.
64. İdmanda dopinq və farmakoloji təminat / Tərtib edən – F.A.Hüseynov. Bakı: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Çap artırma sahəsi, 2002, 92 s.
65. İdman mərc oyunlarının həyata keçirilməsi məqsədi ilə hüquqi şəxsin akkreditasiya olunması Qaydası və İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları (Azərbaycan Республикасы Nazirlər Kabinetinin 20.08.2010-cu il tarixli 153 nömrəli Qərarı ilə təsdiq edilmişdir) / Buraxılışa məsul: E.M. Əfəndiyev, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2010, 88 s.
66. İdman sferasında idarəetmənin hüquqi tənzimlənməsi ixtisas kursu üçün Proqram / Tərtib edənlər: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Bakı, “SkyE” nəşriyyat-poliqrafiya müəssisəsi, 2022, 36 s.
67. Кяримов A. Sığorta (sığortaçının stolüstü kitabı). Bakı: «QAPP-POLİQRAF» Nəşriyyat-Poliqrafiya Korporasiyası, 2000, 248 s.
68. Kommersiya hüququ. Dərs vəsaiti / Kollektiv müəlliflər: Ənnağı Hacıbəyli, Vidadi Mirkamal, İntiqam Əliyev, Natəvan Rüstəmova, Rəşid Hacılı, Cəmil Əlizadə. Bakı: «Patronat -S» şirkəti, 2003, 220 s.

69. Qasımov A.M. Azərbaycan Respublikasının əmək hüququnda qarşılıqlı maddi məsuliyyət. Monoqrafiya. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2002, 312 s.
70. Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, 560 s.
71. Qasımov A., Cəfərov Z., Hüseynov Ə. Əmək münasibətlərinin hüquqi tənzimlənməsinin vahidliyi və diferensiasiyası.Dərs vəsaiti. Bakı: Qanun, 2015, 196 s.
72. Qısa iqtisadi lüğət / Tərtibçilər: Q.İ.Libman, O.K.Filatov. Tərcümə edənlər: S.A.İbadov, X.Ş.Kərimov, K.A.Sarıyev. Bakı: ASE, 1989, 360 s.
73. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2019, 36 s.
74. Mehdiyev N.H., Abutalıbov İ.H. Beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlığın əsas aspektləri. Bakı, "Nurlan" , 2007, 218 s.
75. Meybullayev M.X. İqtisadiyyat. Dərs vəsaiti. Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2015, 408 s.
76. Məmmədov M.M., Məmmədov R.Y. Sahibkarlıq hüququ (mühazirələr toplusu). Bakı: ADPU-nun nəşri, 2005, 138 s.
77. Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ (Ümumi hissə). Dərs vəsaiti. I cild. Bakı: «Apostroff», 2015, 512 s.
78. Mirzəyeva A.Q. Azərbaycan Respublikasının vergi hüququ. Dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2007, 308 s.
79. Mustafayeva A.İ. Bioetika, hüquq və insan hüquqları. Bakı: «Adventa Qroup» MMC, 2013, 340 s.
80. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər. Xarici iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə lüğət-məlumat kitabı / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı: Hüquq ədəbiyyatı, 2005, 676 s.
81. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu / Buraxılışa məsul: Eldar Məmməd oğlu Əfəndiyev, əməkdar hüquqşünas, hüquq elmləri namizədi. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2011, 92 s.
82. Novitski İ.B. Roma hüququ. Dərslik. Azərbaycan dilinə tərcümə / Məsul redaktor: İ.A.İsmayılov. Bakı: Qanun, 1999, 224 s.

83. Prezident İlham Əliyev və idmanımızın 5 ili / Tərtib edən: Qabil Mehdiyev. Bakı, "Şərq-Qərb" ASC-nin mətbəəsi, 2008, 124 s.
84. Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: Azərbaycan, 2003, 256 s.
85. Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı: «Şərq-Qərb» Nəşriyyatı, 2016, 216 s.
86. Rəhimov İ.M. Cinayətkarlıq və cəza. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2015, 320 s.
87. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı: «Şərq-Qərb» Nəşriyyat Evi, 2014, 320 s.
88. Rusca-Azərbaycanca lüğət. Altıncı nəşr. Üç cilddə. I cild. Bakı: «Şərq-Qərb», 2005, 728 s.; II cild, 2005, 848 s.; III cild, 2005, 672 s.
89. Ruslan Mirzəyev. Mediasiya.Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADRcenter, 2020, 166 s.
90. Sadıqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 396 s.
91. Sığorta (normativ hüquqi aktlar) / T.R.Məmtiyevin redaktəsi ilə. Bakı: «Tərəqqi» MMC, 2005, 494 s.
92. Şərifov H. İ. Uşaq-gənclər idman məktəblərinin idarə olunmasının modernləşdirilməsi. Monoqrafiya. Bakı, Mütərcim, 2018, 260 s.
93. Vəliyev D.Ə., Balakişiyeva Y.H., Rəfibəyli İ.R., İmanov E.E., Qarabalov E.M. Vergi hüququ.Dərslik. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2003, 484 s.
94. Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2013, 308 s.
95. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 136 s.
96. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 180 s.
97. Zahidov B.S. Narkotizm və narkobizneslə mübarizənin aktual priblemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 603 s.

2) türk dilində

98. Emin Ertürk.Uluslararası iktisadi birleşmeler. İstanbul: Vipaş A.Ş, 2002, 389 s.
99. ERTAŞ E., PETEK H. "Spor Hukuku", Yetkin Yayınları. Ankara, 2005, s.26-28. www. sportipravo.ru
100. GENÇ D.A. Spor Hukuku. Alfa Yayınları. İstanbul, 1998. www.sportipravo.ru
101. GÜNAL A. N., KÜÇÜKGÜNGÖR ERKAN. "Türk Spor Hukukunun Genel Esasları ve İlgili Mevzuat", Yetkin Yayınevi. Ankara, 1998. www. sportipravo.ru
102. Rayegvn Kender. Türkiye'de hususi sıgorta hukuku. İstanbul: Arikan Ltd, 2008, 306 s.
103. SARIİBRAHİMOĞLU Y.S., BAKANAY M.A., TEKİN T. "Spor Hukuku", Odak Ofset. Ankara, 2002. www. sportipravo.ru
104. Spor Hukuku. Prof. Dr. Hasan Fehim Üçışık.-İstanbul, 2017,467 s. ISBN 978-605-155-610-9; www.otuken.com.tr
105. ŞAHİN M.Y., TUNÇKOL H. "Spor Hukuku Ve Uluslararası Tahkim Mahkemesi (Cas)". The 10th ICHPER-SD Europe Congress & The TSSA 8th International Sport Science Congress, November 17-20 – 2004. Antalya, 2004. www. tas-cas.org

3) rus dilində

106. Авдокушин Е.Ф. Международные экономические отношения. М.: Юристь, 1999, 368 с.
107. Алексеев С.В. Международное спортивное право.Учебник / под ред. П.В. Крашенинникова. - М., ЮНИТИ-ДАНА: Закон и право, 2008, 895 с.
108. Алексеев С.С. Философия права. М.: Издательство НОРМА, 1999, 336 с.
109. Ануфриева Л.П. Международное частное право. В 3-х т.Том 1. Общая часть. Учебник. – М.: Издательство БЕК, 2002, 288 с.
110. Безопасность жизнедеятельности. Учебник для вузов, 2-е изд. / Под ред. Михайлова Л.А. – СПб.: Питер, 2012, 461 с.
111. Белов В.В., Виталиев Г.В., Денисов Г.М. Интеллектуальная собственность. Законодательство и практика применения. Практич. пособие. 2-е изд., перераб. и доп. – М.: Юристь, 2006, 351 с.

112. Богуславский М.М. Международное частное право. Учебник. – 4-е изд., перераб. и доп. – М.: Юристь, 2002, 462 с.
113. Богуславский М.М. Международное экономическое право. М.: Международные отношения, 1986, 304 с.
114. Бубка С. Н., Булатова М. М., Есентаев Т. К. Менеджмент подготовки спортсменов к Олимпийским играм. К.: Олимп. лит., 2017, 480 с.
115. Бусыгин А.В. Предпринимательство. Учебник. 3-е изд. М.: Дело, 2001, 640 с.
116. Бушев А.Ю., Макарова О.А., Попондопуло В.Ф. Коммерческое право зарубежных стран. Учебное пособие / Под общ. ред. В.Ф.Попондопуло. СПб.: Питер, 2003, 288 с.
117. Вавилин Е.В. Осуществление и защита гражданских прав / Е.В.Вавилин; Российская акад. наук, Ин-т государства и права. – М.: Волтерс Клувер, 2009, 360 с.
118. Вельяминов Г.М. Международное экономическое право и процесс. Академический курс. Учебник. М.: Волтерс Клувер, 2004, 496 с.
119. Голованов Н.М. Гражданско-правовые договоры. Курс лекций. – СПб.: Питер, 2002, 272 с. – (Серия «Учебные пособия»).
120. Гончаренко Г.С. Коррупция и спорт. Монография. Ростов-на-Дону: изд. РЮИ РПА Минюста РФ, 2011, 175 с.
121. Городов О.А. Патентное право: учеб. пособие. – М.: ТК Велби, Изд-во Проспект, 2005, 544 с.
122. Гусов К.Н., Шевченко О.А. Спортивное право. Правовой статус спортсменов, тренеров, спортивных судей и иных специалистов в области физической культуры и спорта: учебное пособие. – Москва: Проспект, 2010, 112 с.
123. Дождев Д.В. Римское частное право. Учебник для юридических вузов и факультетов. – 2-е изд., изм. и доп. – М.: Издательская группа НОРМА-ИНФРА. М, 1999, 784 с.
124. Допинг и эргогенные средства в спорте / под общ. ред. В. Н. Платонова. — К.: Олимпийская литература, 2003, 576 с.
125. Ершова И.В. Предпринимательское право. Учебное пособие. М.: ИД «Юриспруденция», 2008, 368 с.

126. Захаров А.С.Налоговое право Европейского Союза: действующие директивы ЕС в сфере прямого налогообложения. М.: Волтерс Клувер, 2007, 144 с. (URL: http://www.books.google.ru I).
127. Захарова Л.И. Международное спортивное право: учебник для бакалавров / отв. ред. К.А.Бекяшев. – Москва: Проспект, 2021, 272 с. Электронные версии книг на сайте www.prospekt.org
128. Зенькович Н.А. Ильхам Алиев. Взгляд из Москвы. М.: Яуза, Эксмо, 2008, 512 с.
129. Карро Д., Жюйар П. Международное экономическое право. Учебник / Пер. с франц. В.П.Серебренникова, В.М.Шумилова. М.: Международные отношения, 2002, 608 с.
130. Коммерческое право. Учебник / Под ред. В.Ф.Попондопуло, Н.В.Яковлевой. СПб., 1997, с.192.
131. Краткий русско-английский терминологический словарь / Под ред. профессора Л.В.Котина. – М.: Совместное Советско-Британское предприятие «Слово», 1990, 48 с.
132. Кузьмин Э.Л. Международное экономическое право. Учебное пособие / Отв.ред. К.А.Бекяшев. М.: ТК Велби, Изд-во Проспект, 2007, 200 с.
133. Леви Г. Европейское страховое право // Страховое право. М.: Анкил, 2001, № 3, с.58-89.
134. Лунц А.А. Курс международного частного права: В 3 т. – М.: Спарк, 2002, 1007 с.
135. Лунц А.А., Марышева Н.И., Садиков О.Н. Международное частное право. Учебник. – М.: Юрид. лит., 1984, 336 с.
136. Ляхов Е.Г., Попов А.В. Терроризм: национальный, региональный и международный контроль. М.: Ростовский юрид. ин-т МВД РФ, 1999, 435 с.
137. Марченко М.Н. Правовые системы современного мира. Учебное пособие. М.: ИКД «Зерцало-М», 2009, 528 с.
138. Международно-правовые основы борьбы с коррупцией и отмыванием преступных доходов. Сборник документов / Сост. В.С.Овчинский. М.: ИНФРА-М, 2009, 640 с.– (Высшее образование).

139. Международное частное право. Краткий курс / Под ред. доктора юридических наук Н.И.Марышевой. – М.: Юридическая фирма «КОНТРАКТ»; «ИНФА-М», 2003, 284 с. – (Серия «Высшее образование»).
140. Международное частное право. Учебник / Л.П.Ануфриева, К.А.Бекяшев, Г.К.Дмитриева и др.; отв.ред. Г.К.Дмитриева. 2-е изд., перераб. и доп. – М.: ТК Велби, Изд-во Проспект, 2004, 688 с.
141. Международное частное право: учебно-методический комплекс. В 2 книах. Кн.1/авт.-сост. Н.Ю.Ерпылева, М.Б.Касенова. – М.: Издательство «Омега-Л», 2008, 734с. – (Высшее юридическое образование); Кн.2, 2008, 855 с.
142. Менеджмент спорта и туризма / В.И. Жолдак, В.А. Квартальнов; Рос. междунар. акад. туризма. – Москва : Советский спорт, 2000, 415 с. https://studfile.net/preview/3794677/
143. Мигель Педреро. Коррупция. Клоака власти: как и зачем нами манипулируют / Пер. с исп. Геннадия Сахацкого. М.: СТОЛИЦА-ПРИНТ, 2008, 320 с.
144. Минков А.М. Международная охрана интеллектуальной собственности. – СПб.: Питер, 2001, 720 с.: ил.– (Серия «Закон и практика»).
145. Миришли Ф.Р.Мировая экономика. Учебник. М.: Полиграф, 2004, 470 с.
146. Мэггс П.Б., Сергеев А.П. Интеллектуальная собственность. – М.: Юристь, 2000, 400 с.
147. Ожегов С. И. Словарь русского языка. М.: «Русский язык», 1988, 750 с.
148. Олимпийское право. Правовые основы олимпийского движения. Учебник для студентов вузов, обучающихся по направлениям «Юриспруденция» и «Физическая культура и спорт» / С.В. Алексеев; под ред. П.В. Крашенинникова. – М.: ЮНИТИ-ДАНА: Закон и право, 2013, 687 с.
149. Платонов В. Н., Булатова М.М., Бубка С.Н. [и др.]. Олимпийский спорт / под общ. ред. В.Н. Платонова. – К.: Олимпийская литература, 2009, Т. 1. – 736 с.; Т. 2. – 696 с.
150. Платонов В. Н. Система подготовки спортсменов в олимпийском спорте. Общая теория и её практические приложения: учебник [для тренеров] : в 2 кн. – К.: Олимпийская литература, 2015, Т. 1. – 680 с.; Т. 2. – 770 с.

151. Правовые системы стран мира. Энциклопедический справочник / Отв. ред. А.Я.Сухарев. 2-е изд., изм. и доп. М.: Издательство НОРМА (издательская группа НОРМА: ИНФРА-М), 2001, 840 с.
152. Предпринимательское право. Курс лекций / Под ред. Н.И.Клейн. М.: Юрид.лит., 1993, 480 с.
153. Предпринимательское право. Серия «Учебники и учебные пособия» / Отв. ред. С.А. Зинченко, Г.И.Колесник. Ростов н/Д, «Феникс», 2003, 640 с.
154. Профессиональный спорт / под общ. ред. С.И. Гуськова, В.Н. Платонова. — К.: Олимпийская литература, 2000, 392 с.
155. Пугинский Б.И. Коммерческое право России. Учебник. – 4-е изд., перераб. и доп. –М.: Издательство Юрайт; Юрайт-Издат, 2010, 354 с. – (Основы наук).
156. Римское частное право. Учебник / Под ред. проф. И.Б.Новицкого и проф. И.С.Перетерского. – М.: Юристь, 1999, 544 с.
157. Русско-Английский спортивный словарь / А.Аббасов, М.Гулиева, Э.Джафарова. Баку, издательство «ÇİNAR-ÇAP», 2005,524 с.
158. Севдималиев Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Баку, “ INDIGO” , 2011, 504 с.
159. Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, 432 с.
160. Спорт в национально-правовом и международно-правовом измерении: актуальные проблемы. Сборник материалов Международной научно-практической конференции (Москва, 4 апреля 2018 г.) / кол.авторов. Под ред. академика РАН Т.Я.Хабриевой. – Институт законодательства и сравнительного правоведения при Правительстве Российской Федерации. Москва: ЮСТИЦИЯ, 2019, 296 с.
161. Спортивное право: договорные отношения в спорте : учебное пособие для вузов / С. В. Алексеев, М. О. Буянова, А.В. Чеботарев; под редакцией С.В. Алексеева.–Москва: Издательство Юрайт, 2020.–107с.–(Высшее образование) // https: //publications. hse.ru/mirror/pubs/share/direct/400885835.pdf

162. Сударикoв С. А. Авторское право.Учебник.М.:Проспект, 2009, 464 с.
163. Теория и методика физического воспитания.Учебник для интов физ.культуры.Под общей ред.Л.П.Матвеева и А.Д.Новикова.Изд.2-е,исп. И доп. (В 2-х т.).М.,Физкультура и спорт,1976, Т. 1. Общие основы теории и методики физического воспитания, 304 с.; Т. II. Специализированные направления и особенности основных возрастных звеньев системы физического воспитания, 256 с.
164. Теория спорта / под общ. ред. В. Н. Платонова. К.: Вища школа, 1987, 424 с.
165. Терминология спорта: Толковый словарь спортивных терминов / Сост.Ф.П.Суслов, Д.А.Тышлер. М., «СпортАкадем-Пресс», 2001, 480 с.
166. Толковый словарь иноязычных слов : около 25 000 слов и словосочетаний / Л.П. Крысин. М., издательство "Русский язык", 1998, 846 с.
167. Шарапова С.В. Спортивное право. Конспект лекций: учебное пособие. – Москва: Проспект, 2021, 96 с. Электронные версии книг на сайте www.prospekt.org
168. Шашкова И.М. Спортивное право.Курс лекций.Витебск: УО «ВГУ им. П.М.Машерова,2012,100 с. // https : // rep.vsu.by
169. Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М.: Международные отношения, 2003, 272 с.
170. Шумилов В.М. Международное экономическое право. Учебник. Изд. 3-е, переработ. и доп. – Ростов н/Д: изд.-во «Феникс», 2003, 512 с. (Серия «Высшее образование»).
171. Энциклопедия олимпийского спорта: [в 5-ти т.] / под общ. ред. В. Н. Платонова. – К.: Олимпийская литература, 2002, Т. 1. – 496 с.; 2002, Т. 2. – 584 с.; 2004,Т. 3. – 632 с.; 2004,Т. 4. – 607 с.;2004, Т. 5. – 528 с.
172. Эфендиев О.Ф., Алиев Э.А.Внешнеэкономическая деятельность современного Азербайджана.Учебное пособие.Баку:Зардаби ЛТД, 2007, 328 с.
173. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, 972 с.

174. Юридический энциклопедический словарь / Гл. ред.: А.Я.Сухарев; Ред.кол.: М.М.Богуславский, М.И.Козырь, Г.М.Миньковский и др. – М.: Сов.энциклопедия, 1984, 415 с.

4) digər dillərdə

175. Beloff M., Kerr T., Demetriou M. Sport Law. - Oxford: Hard, 1999.
176. English-Russian Dictionary of Sports Terms / Abbas Abbasov, Kamala Hagverdiyeva. Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2015, 312 p.
177. Nafziger J.A.R.International Sports Law. - New York:Dobbs Ferry,1988.
178. Walter G., Bosch W., Bronnimann J.İnternationale Schiedsgerichtsbarkeit in der Schweiz. - Berne: Staempfli, 1991.

5) elektron informasiya mənbələri (URL – Uniform Resourse Locator)

179. Elektron resuslar
179.1.www.aliyev.by.ru
179.2.www.azerbaijan-news.az;
179.3.www.copat.gov.az
179.4.www.e-qanun.az;
179.5.www.huquqiaktlar.gov.az
179.6.www.xalqqazeti.com
179.7.www.kabmin.gov.az;
179.8.www.meclis.gov.az
179.9.www.mys.gov.az – mys@mys.gov.az
179.10. www.otuken.com.tr
179.11.www.pa.edu.az
179.12.www.pfl/az
179.13.www.president.az;
179.14.www.respublika-news.az;
179.15. www.sosial.az;
179.16.www.sport.edu.az
179.17.www. sportipravo.ru
179.18.www.taxes.gov.az – head@taxes.gov.az
179.19.www. tas-cas.org
179.20.www.un.org – официальный сайт OOH və s.

MÜNDƏRİCAT

ÖN SÖZ **4**

I BÖLMƏ.
BEYNƏLXALQ İDMAN HÜQUQU

ÜMUMİ HİSSƏ.
BEYNƏLXALQ İDMAN HÜQUQU
HAQQINDA ÜMUMİ MÜDDƏALAR

I FƏSİL. BEYNƏLXALQ İDMAN HÜQUQUNUN ANLAYIŞI, PREDMETİ, SİSTEMİ VƏ HÖQUQİ STATUSU

1.1. Beynəlxalq idman hüququnun təşəkkülü və formalaşması **10**
1.1.1. Beynəlxalq idman hüququnun yaranma əlamətləri **10**
1.1.2. Beynəlxalq olimpiya hərəkatı **14**
1.1.3. Beynəlxalq paralimpiya hərəkatı **20**
1.1.4. Müasir peşəkar idman **26**
1.2. Beynəlxalq idman hüququnun anlayışı və predmeti **30**
1.2.1. Beynəlxalq idman hüququ anlayışı **30**
1.2.2. Beynəlxalq idman hüququnun predmeti **34**
1.2.3. Beynəlxalq idman hüququnun metodu **40**
1.2.4. Beynəlxalq idman hüququnun sistemi və statusu **51**
1.2.5. Beynəlxalq idman hüququnun funksiyaları **61**
1.3. Beynəlxalq idman hüququ elm və tədris fənni kimi **62**
1.3.1. Beynəlxalq idman hüququ elm sahəsi kimi **62**
1.3.2. Beynəlxalq idman hüququ tədris fənni kimi **64**
I FƏSİL ÜZRƏ ƏYANİ SXEM **66**

II FƏSİL. BEYNƏLXALQ İDMAN HÜQUQUNUN SUBYEKTLƏRİ

2.1. Beynəlxalq idman hüququnun subyektləri institutu və anlayışı **67**
2.1.1. Beynəlxalq idman hüququnun subyektləri institutu **67**
2.1.2. Beynəlxalq idman hüququnun subyektləri anlayışı **68**
2.2. Beynəlxalq idman hüququ subyektlərinin xarakteristikası **69**

2.2.1. Beynəlxalq publik idman hüququnun subyektləri **69**
2.2.2. Beynəlxalq xüsusi idman hüququnun subyektləri **75**
2.3. Beynəlxalq idman hüququnun əsas subyektləri **76**
2.3.1. Beynəlxalq idman hüququ subyektlərinin növləri **76**
2.3.2. Dövlət beynəlxalq idman hüququnun əsas subyekti kimi ... **79**
2.3.3. Dövlət immuniteti **83**
2.4. Beynəlxalq təşkilatlar beynəlxalq idman hüququnun subyekti kimi **87**
2.4.1. Beynəlxalq təşkilatların idman sferasında fəaliyyətinin hüquqi tənzimlənməsi **87**
2.4.2. Beynəlxalq idman təşkilatları və onların təsnifatı **100**
2.4.3. Milli idman təşkilatları və onların hüquqi statusu **117**
2.4.4. İdman fəaliyyəti sferasında ayrı-ayrı fərdlər **126**
II FƏSİL ÜZRƏ ƏYANİ SXEM **130**

III FƏSİL. BEYNƏLXALQ İDMAN HÜQUQUNUN MƏNBƏLƏRİ
3.1. Beynəlxalq idman hüququ mənbələrinin anlayışı və növləri . **131**
3.1.1. Beynəlxalq idman hüququnun mənbələri anlayışı **131**
3.1.2. Beynəlxalq idman hüququnun mənbə növləri **132**
3.2. Beynəlxalq idman hüququnun mənbə növlərinin xarakteristikası **136**
3.2.1. Beynəlxalq müqavilələr beynəlxalq idman hüququnun mənbəyi kimi **136**
3.2.2. Beynəlxalq-hüquqi adətlər **142**
3.2.3. Beynəlxalq hökumət təşkilatlarının aktları **145**
3.2.4. Beynəlxalq idman təşkilatlarının aktları **148**
3.2.5. İdman sferasında milli qanunvericilik aktları **152**
III FƏSİL ÜZRƏ ƏYANİ SXEM **160**

IV FƏSİL. BEYNƏLXALQ İDMAN HÜQUQUNUN PRİNSİPLƏRİ
4.1. Beynəlxalq idman hüququnun prinsipləri və onların əhəmiyyəti **161**
4.1.1. Beynəlxalq idman hüququnda tətbiq olunan prinsiplərin sistemi və tərkib hissələri **161**

4.1.2. Beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq idman hüququnda tətbiqi **165**
4.2. Beynəlxalq idman hüququnun xüsusi prinsipləri **170**
4.2.1. Beynəlxalq idman hüququnun xüsusi prinsiplərinin anlayışı və əhəmiyyəti **170**
4.2.2. İdman sahəsində milli rejim prinsipi **173**
4.2.3. İdman fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi **174**
4.2.4. İdman sahəsində diskriminasiyaya yol verilməməsi prinsipi **177**
4.2.5. İdman sferasında dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi **179**
4.2.6. Dövlətlərin öz idman resursları üzərində suverenliyi prinsipi **180**
4.2.7. İdman mönasibətlərində qarşılıqlı fayda prinsipi **181**
4.2.8. İdman sferasında preferensiya rejimi prinsipi **183**
4.3. Beynəlxalq idman hüququnun digər özönəməxsus prinsipləri **185**
4.3.1. Beynəlxalq idman hüququnun elmi-kommunikativ prinsipləri **185**
4.3.2. Beynəlxalq idman hüququnun özönəməxsus törəmə prinsipləri **188**
IV FƏSİL ÜZRƏ ƏYANİ SXEM **194**

XÜSUSİ HİSSƏ.
BEYNƏLXALQ İDMAN HÜQUQUNUN İNSTİTUTLARI

V FƏSİL. BEYNƏLXALQ İDMAN YARIŞLARININ TƏŞKİLİ VƏ HƏYATA KEÇİRİLMƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ
5.1. Beynəlxalq idman yarışlarının anlayışı və sistemi **195**
5.1.1. Beynəlxalq idman yarışları anlayışı **195**
5.1.2. Beynəlxalq idman yarışlarının sistemi **197**
5.2. Beynəlxalq idman yarışlarının təşkili və həyata keçirilməsi .. **204**
5.2.1. Beynəlxalq idman yarışlarının təşkili **204**
5.2.2. Kompleks beynəlxalq idman yarışlarının keçirilməsi **206**
5.2.3. Ayrı-ayrı idman növləri üzrə beynəlxalq yarışlarının keçirilməsi **210**

5.3. Beynəlxalq idman yarışlarının hüquqi tənzimlənməsi **213**
V FƏSİL ÜZRƏ ƏYANİ SXEM **220**

VI FƏSİL. BEYNƏLXALQ İDMAN MÜNASİBƏTLƏRİ SFERASINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQU
6.1. İdman sferasında əqli mülkiyyətin beynəlxalq-hüquqi mühafizəsi **221**
6.2. Beynəlxalq idman münasibətlərində əmtəə nişanlarının hüquqi mühafizəsi **232**
6.3. Beynəlxalq idman münasibətlərində olimpiya simvollarının hüquqi mühafizəsi..... **240**
6.4. İdman yarışlarında radio-teleyayım hüquqlarının tənzimlənməsi **245**
VI FƏSİL ÜZRƏ ƏYANİ SXEM **251**

VII FƏSİL. BEYNƏLXALQ İDMAN HƏRƏKATINDA ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ
7.1. Beynəlxalq idman fəaliyyətində əmək münasibətlərinin hüquqi təminatı **252**
7.1.1. Beynəlxalq idman fəaliyyətində əmək münasibətləri anlayışı **252**
7.1.2. Peşəkar idmanın Amerika modeli **253**
7.1.3. Peşəkar idmanın Avropa modeli **259**
7.2. Beynəlxalq idman münasibətlərində transfer sistemi və onun xarakteristikası **267**
7.2.1. Beynəlxalq idman münasibətlərində transfer sistemi anlayışı **267**
7.2.2. Beynəlxalq idman münasibətlərində transfer sisteminin xarakteristikası **270**
7.3. İdmançılara maddi yardım göstərilməsi və onların sosial müdafiəsinə dair tədbirlərin təşkilati-hüquqi aspektləri **277**
7.4. İdman fəaliyyəti sahəsində əmək və sosial münasibətlərin tənzimlənməsində idmançı assosiasiyalarının və tətil hərəkatının rolu **285**
VII FƏSİL ÜZRƏ ƏYANİ SXEM **294**

VIII FƏSİL. İDMAN SAHƏSİNDƏ BEYNƏLXALQ VERGİ MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ
8.1. İdman sahəsində vergitutmanın beynəlxalq-hüquqi tətbiqi **295**
8.2. Beynəlxalq idman münasibətləri sferasında ikiqat vergitutmanın tənzimlənməsi **300**
8.3. Xaricdə fəaliyyət göstərən idman təşkilatları və idmançılar üçün vergitutmanın əlverişli rejiminin hüquqi təminatı **313**
VIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM **319**

IX FƏSİL. BEYNƏLXALQ İDMAN HƏRƏKATINDA DOPİNQ QƏBUL EDİLMƏSİNİN QARŞISININ ALINMASI
9.1. Müasir idmanda antidopinq siyasəti haqqında ümumi müddəalar **320**
9.2. Dopinq nəzarəti və onun təşkilati-hüquqi əsasları **334**
9.3. İdmanda dopinqdən istifadəyə görə məsuliyyət **344**
IX FƏSİL ÜZRƏ ƏYANİ SXEM **361**

X FƏSİL. BEYNƏLXALQ İDMAN MÜNASİBƏTLƏRİNDƏ CİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏNİN TƏNZİMLƏNMƏSİ
10.1. İdman sahəsində cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq **362**
10.2. İdman tədbirləri zamanı təhlükəsizliyin təmin edilməsinin beynəlxalq-hüquqi tənzimlənməsi **369**
10.3. İdman arenalarında beynəlxalq terrorizmə qarşı mübarizə tədbirləri **377**
10.4. Beynəlxalq idman münasibətlərində korrupsiya və digər iqtisadi cinayətlərə qarşı mübarizə aparılması **382**
X FƏSİL ÜZRƏ ƏYANİ SXEM **393**

XI FƏSİL. BEYNƏLXALQ İDMAN MÜBAHİSƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ
11.1. Beynəlxalq İdman Arbitraj Məhkəməsi və onun fəaliyyəti .. **394**
11.2. Beynəlxalq İdman Arbitraj Məhkəməsində adi arbitraj proseduru **401**

11.3. Beynəlxalq İdman Arbitraj Məhkəməsində apelyasiya arbitraj proseduru **406**
11.4. Beynəlxalq İdman Arbitraj Məhkəməsinin Ad hoc Palatasında arbitraj proseduru **410**
11.5. Beynəlxalq İdman Arbitraj Məhkəməsində vasitəçilik arbitraj proseduru **416**
11.6. Beynəlxalq İdman Arbitraj Məhkəməsinin konsultasiya fəaliyyəti **421**
XI FƏSİL ÜZRƏ ƏYANİ SXEM **425**

II BÖLMƏ.
AZƏRBAYCAN RESPUBLİKASININ İDMAN HÜQUQU

XII FƏSİL. İDMAN HÜQUQU ANLAYIŞI, ONUN PREDMETİ VƏ PRİNSİPLƏRİ
12.1. İdman höququnun anlayışı və nizamasalma predmeti **426**
12.2. İdman höququnda tətbiq edilən prinsiplər **433**
XII FƏSİL ÜZRƏ ƏYANİ SXEM **436**

XIII FƏSİL. İDMAN HÜQUQUNUN SUBYEKTLƏRİ VƏ MƏNBƏLƏRİ
13.1. İdman höququnun subyektləri **437**
13.2. İdman höququnun mənbələri **444**
XIII FƏSİL ÜZRƏ ƏYANİ SXEM **452**

XIV FƏSİL. İDMAN SFERASINDA İDARƏETMƏNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ
14.1. İdman fəaliyyətini dövlət tənzimləmə hüququ **453**
14.2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi idman fəaliyyətini dövlət tənzimləmə hüququnun əsas subyekti kimi **457**
14.3. İdman fəaliyyətini dövlət tənzimləmə vasitələri və növləri . **466**
XIV FƏSİL ÜZRƏ ƏYANİ SXEM **475**

İXTİSARLAR **476**

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT **480**

REDAKSİYA QRUPU

Məsul redaktor:

Əliyev Etibar Əli oğlu,
Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, professor, hüquq üzrə elmlər doktoru.

Böyük redaktor:

Hüseynov Firat Alışan oğlu,
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, Əməkdar bədən tərbiyəsi və idman xadimi.

Redaktorlar:

Pənalıyeva Zümrüd Turabxan qızı,
"Hüquqi müstəvi" elmi-nəzəri, təcrübi jurnalın böyük redaktoru;

Kərimov Araz Tofiq oğlu,
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsi, rəisin birinci müavini, vergi xidməti müşaviri, hüquqşünas;

Hüseynov Məzahir Hazarxan oğlu,
Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, şöbə rəisi, polis polkovniki, hüquqşünas.